Gülxanım Qarayeva
Aynur Hacıqədirli

# ƏRƏB ÖLKƏLƏRİNİN ORTA ƏSRLƏR VƏ YENİ DÖVR TARİXİ

"ADİLOĞLU"
Bakı - 2012

9(53)
Q 24

Tarix üzrə fəlsəfə doktoru, dosent
Qarayeva Gülxanım İbrahim qızı

Tarix üzrə fəlsəfə doktoru
Hacıqədirli Aynur Məhərrəm qızı

Elmi redaktor: tarix emləri doktoru, professor N.Ç.Axundova

Rəyçilər: doktor- dosent B.O. Əziz,
doktor -dosent A.R.Bağırova,
doktor- dosent R.B. Aslanov,
doktor- dosent A.A.Məmmədli

262371

Gülxanım Qarayeva, Aynur Hacıqədirli
"ƏRƏB ÖLKƏLƏRİNİN ORTA ƏSRLƏR VƏ YENİ DÖVR TARİXİ"
«ADİLOĞLU» NƏŞRİYYATI BAKI -2012 452 səh.

*«Ərəb ölkələrinin orta əsrlər və yeni dövr tarixi» adlı dərslikdə orta əsr və yeni dövrdə ərəb dünyasında baş verən mühüm tarixi hadisələr, ictimai-siyasi və mədəni mühit öz əksini tapmışdır. Dərsliyin ən özəl tərəfi ərəb ölkələrinin yeni dövr tarixinin ilk dəfə azərbaycan dilində işlənməsidir.*

*Şərqşünaslıq və Tarix fakültələri üçün nəzərdə tutulmuş bu dərslikdən beynəxalq münasibətlər, regionşünaslıq və diplomatiya sahəsində ixtisaslaşan bakalavr və magistr pilləsinin tələbələri, islamla, ərəb tarixi və mədəniyyəti ilə maraqlananlar da istifadə edə bilərlər.*

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

4722110018
121 – 2012 qrifli nəşr

© «ADİLOĞLU» 2012

# GİRİŞ

Yaxın və Orta Şərq ölkələrinin orta əsr və yeni dövr tarixi ümumdünya tarixinin tərkib hissəsi olmaqla, həm də ən mühüm dövrünü təşkil edir.

Məlum olduğu kimi, 476-cı ildə barbarların qərbi Roma imperiyasına son qoymaları ilə qədim dünya tarixi başa çatdı və orta əsrlər dövrü başladı. Əgər qədim dövrdə insanlar ibtidai-icma və quldarlıq quruluşu dövrlərində yaşamışlarsa, orta əsrlər Asiya və Avropa xalqlarının əksəriyyəti feodalizm dövründə yaşamışlar. Erkən orta əsrlər dövrü V əsrin sonundan- XI əsrə kimi davam etmişdir. Bu zaman Avropa, Şimali Afrika və Asiyada feodalizm quruluşu yarandı. Bir sıra xalqlar-almanlar, slavyanlar və ərəblər ibtidai-icma quruluşu dağıldıqdan sonra birbaşa quldarlığı keçmədən feodalizmə daxil oldular.

Feodalizmdən kapitalizmə keçid üçəsrlik bir dövrü əhatə edir. XVI-XVIII əsrlər bir sıra tarixçi alimlərin fikrinə əsasən orta əsr, digər bir qisminin elmi qənaətinə əsasən isə yeni dövr kimi qəbul olunur. Ona görə də orta əsrlərdən yeni dövrə keçid məsələsində dəqiq elmi sərhəd müəyyənləşdirilməmişdir. 1642, yaxud 1789-cu illər inqilablarına qiymət verilərkən ona artıq feodalizmə xas bir proses kimi deyil, tarixi təkamülə təkan verən növbəti hadisə kimi yanaşılır. Halbuki həmin hadisənin artıq hansı dövrün başlaması məsələsinə yanaşmada faktiki olaraq fikir birliyi yoxdur və bu təbiidir. Həmin inqilablar Avropanın inkişafında yeni mərhələni əsaslandırırdısa, Şərqə münasibətdə eyni fikri söyləmək qeyri-mümkündür. Çünki məhz həmin inqilablar Avropanın Şərqdəki ekspansiya və müstəmləkə siyasətlərinin məzmununun dəyişməsində öz əksini tapmışdı. Bu inqilablar Qərbin inkişafında, Yaxın və Orta Şərqin isə istismarında yeni mərhələni əsaslandırırdı. Belə ki,. rus və

Avropa alimləri arasında mövcud olan fərqli yanaşma da yeni dövr xronologiyasında özünə yer alan əsas məsələlər sırasındadır. Ümumiyyətlə yeni dövrün başlanğıcı məsələsində dünya alimləri arasında yekdil fikir yoxdur-türklər 1453, hollandlar 1609, ingilislər 1642, fransızlar 1789-cu illəri orta əsrlərin sonu yeni dövrün başlanğıcı hesab edirlər.

Bu inqilabın daha çox hallandırılması ona təkcə İngiltərədə deyil, İtaliyadan İsveçrəyədək, Rusiya və Ukraynadan Fransayadək olan tələbatla izah edilir. İngiltərə ön plana çıxmaqla müəyyən mənada Avropanın digər ölkələrini də öz ardınca aparmış oldu. Sonrakı 150 illik bir dövrdə Avropa və Şimali Amerika kapitalizmin daha güclü və sürətlə inkişaf etdiyi bir areal olmuşdur. Ona görə də qlobal miqyasda məhz bu regionlar dünyanın inkişaf istiqamətini müəyyən etmiş oldular. Məhz İngiltərə və Fransa burjua inqilabları arasındakı 150 il tarixi ədəbiyyatlarda yeni tarix kimi qəbul edilir. Ümumən isə 1642-1870-ci illər yeni tarixin birinci, 1870-1918-ci illər isə ikinci mərhələsi kimi qəbul olunur.

Bəşər tarixinin yeni dövr inkişafının xüsusiyyətləri ilk növbədə kapitalizmin bir ictimai-iqtisadi formasiya kimi qanunauyğunluqları ilə səciyyələndirilir. Bu dövrün hansı tarixi hadisədən öz başlanğıc nöqtəsini götürməsinə dair tarixçilər arasında yekdil fikir olmasa da, çoxluq təşkil edən ümumi fikir belədir ki, yeni dövr XVII əsrin ortalarında İngiltərədə baş vermiş burjua inqilabı ilə başlamışdır. Kapitalist istehsal üsulunun xüsusiyyətləri ilk növbədə onun iqtisadi qanunları ilə müəyyən olundu. Bu isə kapitalın ilkin yığımı dövründə müstəmləkə işğallarının həyata keçirilməsində öz ifadəsini tapmış oldu. Qərbin inkişaf etmiş dövlətləri, eləcə də ABŞ Asiya və Afrikanın zəif inkişaf etmiş dövlətlərini işğal etdilər.

Yeni dövrün başlanmasını sadəcə tarixi xronologiya kimi qəbul etmək olmaz. Yeni dövrün başlanğıcı həm də yeni tarixi şərait çərçivəsində insanlığın yeni cəmiyyət yaratmasının başlanğıcı idi. Məhz bu tarixi şəraitdə yeni cəmiyyət, azad kapitalizm cəmiyyəti, bu cəmiyyətlə yanaşı isə yeni mədəniyyət və ideologiya, yeni mənəvi prinsiplər, eləcə də əxlaq normaları yaranırdı.

Buna görə də müstəmləkə sisteminin əsasının qoyulması Avropanın özündə də bütün münasibətlərin kökündən dəyişməsinə səbəb olmaqla bərabər, qitədə özündə hegemonluq uğrunda mübarizənin başlanmasına da təkan vermiş oldu. Əslində bu mübarizə yeni

müstəmləkələr tutmaq, yaxud müstəmləkələri yenidən bölüşdürmək məqsədi güdürdüsə də, həmin faktor obyektiv olaraq iki amili formalaşdırdı. Bunlardan birincisi-müstəmləkələrin istismarı nəticəsində əldə olunan kapitalın istehsal sahələrinə yönəldilməsi ilə sənaye kapitalının yaradılması oldu. Məlumdur ki, həmin dövr ilkin kapital yığımı dövrü idi ki, bu dövrdə də müstəmləkələr qeyri-iqtisadi məcburetmə və ticarət kapitalı vasitəsilə istismar edilirdi. Məhz bu faktorun yaranmasının məntiqi nəticəsi idi ki, artıq XVII əsrin birinci yarısında İngiltərə burjua inqilabı baş verdi. İkincisi isə həmin mübarizənin nəticəsi kimi münasibətləri bu və ya digər səviyyədə tənzimləyən beynəlxalq hüququn daha da formalaşması və inkişaf etməsi idi. Belə ki, XV əsrdə yaranmış daimi xarici nümayəndəliklər XVI əsrdə artıq Avropa dövlətlərinin əksəriyyətində Daimi Xarici Əlaqələr İdarələrinə çevrilmişdi. XVII əsrin əvvəllərində isə artıq Açıq dəniz hüququ prinsipləri irəli sürülürdü.

Bununla belə, həmin dövrdə diqqəti çəkən növbəti faktor müstəmləkə edilən ərazilərin inhisarla qurulan münasibətlərinin müxtəlif səviyyələrdə olmasıdır. Məhz bu prinsiplərə əsasən də müstəmləkələr idarə olunurdu. Odur ki, müstəmləkə sisteminin tam formalaşması heç də işğal olunan ərazilərin tam müstəmləkəyə çevrilməsi ilə nəticələnməmişdi. Belə ki, müstəmləkə dövlətlərilə yanaşı asılı dövlətlər də yaranmışdı. Bu baxımdan həmin əraziləri aşağıdakı qruplara bölmək olar:

Birinci qrupa – bu və ya digər dərəcədə siyasi suverenliyini saxlamış dövlətlər daxildir ki, bunlar qeyri-bərabər müqavilələr bağlamış və vergi öhdəlikləri götürmüşdülər;

İkinci qrupa - dolayı yolla idarə olunan dövlətlər daxildir. Qərb dövlətləri belə dövlətlərin xarici siyasət və iqtisadi əlaqələrinə tam nəzarət edirdi. Daxili siyasət isə yerli hakimlər tərəfindən ənənəvi adətlər əsasında həyata keçirilirdi;

Üçüncü qrupa - bütünlüklə inhisar tərəfindən idarə olunan müstəmləkələr daxildir.

Burada müstəmləkələrin idarə olunmasındakı fərq də nəzərdən qaçırılmamalıdır. Həmin fərq ilk növbədə müstəmləkə dövlətlərində bu və ya digər dərəcədə mövqe tutmağa şərait yaradırdı. Bu da qədim dövlətlər arasında ziddiyyətlərin kəskinləş-məsinə səbəb olurdu. Digər tərəfdən, həmin ərazilərin idarə olunmasındakı bu cür müxtəliflik ümumən müstəmləkə siyasətinin uzun müddət davam

etməsi ilə izah edilir. Belə ki, Asiya və Afrika regionunda ilk müstəmləkələr (Seylon, Anqola, Mozambik və s.) XVI əsrə təsadüf edirsə, sonuncu müstəmləkələr (İraq, Suriya, Livan və s.) birinci dünya müharibəsinin sonuna aid edilir. Bu faktor isə müstəmləkələrin istismar olunması metodunun üç dövrə bölünməsini səciyyələndirir. Bu dövrlər aşağıdakılardır:

1. XVI əsrdən - XIX əsrin ortalarınadək qeyri-iqtisadi məcburetmə və ticarət kapitalı metodu ilə istismar;

2. XIX əsrin ortalarından - XIX əsrin axırlarınadək sənaye kapitalı metodu ilə istismar;

3. XX əsrin əvvəllərindən müstəmləkə sisteminin dağılmasınadək isə bank və maliyyə kapitalı vasitəsilə istismar.

Müstəmləkə sisteminin formalaşdırılması ilə əlaqədar istər müstəmləkəçi dövlətlərin, istərsə də müstəmləkə xalqlarının daxili və xarici sosial-iqtisadi və ictimai-siyasi inkişaflarında yeni tendensiyaların meydana çıxmasına səbəb oldu. Birincilər həm öz aralarındakı, həm də müstəmləkələrlə bağlı yeni, daha korrektə edilmiş münasibətlər səhifəsi açmaq məcburiyyətində idilər. İkincilər isə yaranmış vəziyyətdə yadellilərlə münasibətlərin hansı müstəvidə necə formalaşdırılması ilə bərabər, daxili sosial-ictimai və siyasi prosesləri xarici vəziyyətə uyğunlaşdırmaq məcburiyyəti ilə üz-üzə qalmışdı. Bu mənada hər iki tərəf münasibət axtarışında idi və onu mümkün qədər öz maraqlarına uyğunlaşdırmağa çalışırdı. Beləcə bu kompromis axtarışı faktiki olaraq müstəmləkə sistemi dağılana qədər davam etmiş oldu.

Avropanın ümumdünya proseslərində istiqamətverici rolunun oynamağa başladığı təməl nöqtənin Böyük Coğrafi Kəşflər olduğu məlumdur. Bu kəşflər yeni müstəmləkə sisteminin əsasını qoymaqla bərabər, metropoliyanı müstəmləkələrdə idarəetmənin ye-ni qaydalarını üzə çıxarmağa, onun forma və metodlarını axtarmağa məcbur etdi. Təsir obyekti kimi isə Asiya qitəsi seçildi. Lakin bu obyektin konkret regionlarında kimin möhkəmlənməsi də ümumdünya tarixində, xüsusilə Yaxın və Orta Şərq tarixində həlledici rol oynamış oldu. Bu mənada bu gün Yaxın və Orta Şərqdə gedən proseslərin əsas səbəb və mahiyyətini məhz erkən yeni dövrlərin hərbi-siyasi proseslərində axtarmaq daha düzgün olardı. Roma papalarının 1493-cü ildə elan etdiyi sərhədqoyma haqqındakı Bulla qanunu isə dünyanın həmin dövr idarə olunması baxımından ilk bölgüsü olmaqla bə-

rabər, eyni zamanda idarəetmə üçün ilk konturları da müəyyən etmiş oldu.

Bu, ilk növbədə, Yaxın və Orta Şərq ölkələrində hakim olan torpaq üzərində feodal münasibələri ilə izah edilir. Yaxın və Orta Şərq ölkələrində orta əsr Avropasından fərqli olaraq, şəhərlər kəndlərlə sıx iqtisadi və ticarət münasibətlərində deyildi. Bir çox hallarda Yaxın və Orta Şərqin feodal dövlətləri onlardan güclü olan dövlətlərin, yaxud köçərilərin qəfil hücümlarına məruz qalırdı. Əgər bu hücumlar irriqasiya sistemlərinin dağıdılması ilə müşayiət olunurdusa, onda təsərrüfat sistemi tamamilə pozulurdu ki, bunsuz da Şərqə xas xüsusiyyətlər çərçivəsində inkişaf etmək qeyri mümükün idi. Bir sıra Yaxın və Orta Şərq xalqları isə, hətta yeni dövrün başlanğıcında ibtidai-icma quruluşundan feodal münasibətlərinə yenicə keçirdi.

Lakin bu faktorların mövcudluğuna baxmayaraq, Yaxın və Orta Şərqin inkişaf etmiş dövlətlərində həmin dövr kapitalizm elementləri-manufakturalar, əmtəə istehsal edən kiçik qrupların birləşməsi, ticarət-əmtəə münasibətlərinin kəndlərdə yayılmağa başlaması və s. meydana gəlmişdi.

Orta əsrlərin sonu-yeni dövrün əvvəllərində Avropa dövlətlərinin Asiyada müstəmləkələri o qədər də çox deyildi. XY əsrin sonu-XYI əsrin əvvəllərində Portuqaliya Asiyada öz müstəmləkəsini yaradan ilk Avropa dövləti olmuşdur. Fars körfəzi, Cənub Şərqi Asiya və İndoneziyada öz dayaq məntəqələrini yaradan Portuqaliya, Avropa və Şərq arasındakı ticarətdə mühüm rol oynayırdı. Portuqaliyanın zəifləməsindən sonra onun Asiyadakı müstəmləkələrini Hollandiya və İngiltərə tutdu. Az sonra isə Fransa Asiyada müstəmləkələr tutmağa başladı.

Bildiyimiz kimi, Ərəb ölkələri Yaxın Şərq regionuna daxildir. Qeyd edək ki, Yaxın və Orta Şərq istilahı ilk dəfə ingilis siyasi-coğrafi ədəbiyyatında formalaşdırılmışdır. Həmin ədəbiyyata əsasən Yaponiya, Çin, İndoneziya, Filippin və bu regiona daxil olan dövlətlər Uzaq Şərqdirsə, İran, Əfqanıstan Orta Şərq, Türkiyə, Kipr, Suriya, İraq, BƏƏ, Səudiyyə Ərəbistanı, Bəhreyn, Qətər, Oman, Küveyt İordaniya, Yəmən, Livan,Fələstin və Misir Yaxın Şərq ölkələridir. Rus coğrafiyaşünaslığında Yaxın və Orta Şərqə Cənub-Qərbi Asiya ölkələri deyilir.

Göründüyü kimi, bu regiona münasibətdə qəti müəyyən olunmuş coğrafi sərhədlər mövcud deyildir. Bununla belə, Yaxın və

Orta Şərq regionu geostrateji əhəmiyyətinə görə tarixin bütün dövrlərində dünya hərbi-siyasi və iqtisadi münasibətlərinin cərəyan etdiyi və diqqət mərkəzində olduğu region olmuşdur. Ona görə də, yeni dövrün başlanması və ondan sonrakı dövrlərdə də regionun ərəb ölkələri aparıcı dövlətlərin maraqlarının toqquşduğu region olmuş və olaraq qalmaqdadır.

Qeyd olunanlar onu deməyə əsas verir ki, Yaxın və Orta Şərq yeni dövrün başlanması ilə dünya siyasətində əsas hərbi-siyasi obyektə çevrilmişdi. Osmanlı imperiyasının parçalanması istiqamətində Avropa dövlətlərinin apardığı siyasət kontekstində bu region bütün yeni və ən yeni dövr ərzində dünya siyasətinin barometri rolunu oynamışdır.

# CAHİLİYYƏ DÖVRÜNDƏKİ ƏRƏBLƏRİN SOSİAL-SİYASİ, İQTİSADİ VƏ DİNİ VƏZİYYƏTİ

*Ərəblər cahiliyyə dövründə*

İslam dininin meydana gəldiyi yer – Ərəbistan son dövrlərin tədqiqatları baxımından nisbətən zəngin, qədim irsə malik vahid tarixi diyar kimi xarakterizə edilir. İslamın üç əsas səmavi dinlərdən biri kimi burada təşəkkül tapması Ərəbistanın çoxəsrlik tarixi kon-tekstində bu ərazinin qədim dövrdən orta əsrlərə keçid mərhələsini səciyyələndirən, ümumbəşəri əhəmiyyət daşıyan tarixi bir epizod və tarixi dönüş nöqtəsidir.

Müasir Ərəbistan yarımadası ərazisində ibtidai icma quruluşuna mənsub insanlığın izlərinin tədqiqi, burada yaşayışın hələ eramızdan əvvəl VII minillikdə başladığını söyləməyə əsas verir. Bu Mərkəzi Ərəbistanda tapılmış qayaüstü rəsmlərin tədqiqindən əldə olunan elmi qənaətə əsaslanır. Qeyd etmək lazımdır ki, həmin dövr Ərəbistanın iqlimi müasir dövrdə mövcud olan iqlimin əksinə olaraq daha mülayim və rütubətli olmuşdur. Bu da qayaüstü rəsmlərdə öz əksini tapmış antilop, qaban, fil, öküz şəkilləri ilə izah edilir.

Eramızdan əvvəl VI minillikdə Ərəbistanda ilk iqlim dəyişiklikləri baş vermişdir. Bu dəyişikliklər də yenə qayaüstü rəsmlərdə öz əksini tapmışdır. Belə ki, VI minilliyə aid edilən həmin rəsm əsərlərində artıq meşə heyvanları fil, qaban, zubr və s. bu kimi heyvanların rəsmlərinə rast gəlinmir. Bu dövrə aid qaya üstü rəsmlərdə iri buynuzlu mal-qaranın sürü şəklində təsvir edilməsi onu deməyə əsas verir ki, eramızdan əvvəl VI minillikdə Ərəbistanda bu heyvanların əhliləşdirilməsi prosesi getmiş və insanlar maldarlıqla məşğul olmağa, köçəri həyat tərzi keçirməyə başlamışdılar. Burada maraq doğuran məsələ budur ki, qayaüstü rəsmlərin tapılmış olduğu ərazilərdə bu gün insan yaşayışı qəti olaraq qeyri-mümkündür.

Eramızdan əvvəl IV-III minilliklərə aid olan rəsmlərdə səhra və yarımsəhra heyvanlarının təsvirləri xarakterikdir. III minilliyin sonunda isə xırda buynuzlu mal-qara iri buynuzlu mal-qaranı sıxışdırıb çıxarmış və insan həyatında daha əhəmiyyətli yer tutmuşdur ki, bu da həmin dövr insanların həyatında əks olunmuşdur. Bu dövrdən etibarən insanlar otlaqlar və su mənbələri axtarışına başlamış və köçərilərin ilk qruplarının formalaşmasının əsası qoyulmuşdur.

II minillik Ərəbistan tarixində ən önəmli hadisə ilə yaddaqalandır. Belə ki, eramızdan əvvəl II minillikdə Ərəbistanda iqlim dəyişikliyi başa çatmış, dəvə əhliləşdirilmiş və ondan ev heyvanı kimi istifadə etməyə başlamışdılar. Ona görə də eramızdan əvvəl I minillikdə Mərkəzi və Şimali Ərəbistanda sırf təsərrüfat dəyişiklikləri baş vermişdi. Dəvənin idarə olunmasındakı forma dəyişikliyi faktiki olaraq köçərinin əl-qolunu açmış və o artıq dəvə üstündə nəinki bir yerdən digərinə getmək vasitəsi kimi, eyni zamanda ondan hərbi yürüşlər zamanı istifadə etməyə önəm vermişlər.

Qədim sivilizasiya mərkəzləri daim köçərilərin diqqət mərkəzində olmuşdur. Onlar əsasən Suriyaya və Şimali Ərəbistana işğalçı kimi gəlmiş, bir çox hallarda zəbt olunmuş rayonlarda oturaq həyata keçmişlər. Bu mənada, ilk Ərəbistan köçəriləri Mesopotamiya və Misirdə eramızdan 3500 il öncə özünə yer almışdır. Min il sonra isə Suriyada məskunlaşmış Ərəbistan köçəri-ləri ikinci köçü səciyyələndirmiş, eramızdan əvvəl 1500-1200-ci illərdə isə üçüncü Ərəbistan köçü baş vermiş və arameylər Dəməşq ətrafı rayonlarda məskunlaşmışlar. Ərəbistanda iqlimin mülayim ol-duğu dövrdə yaşayan akkadlar, arameylər, assuriyalılar, xaldeylər və yəhudilər iqlim dəyişikliyi ilə əlaqədar olaraq, buradan qədim sivilizasiya mərkəzləri olan Mesopotamiya və Aralıq dənizi ətraflarına səpələnmişlər. Bu xalqların əks köçü haqqında elmi sübutlar isə faktiki olaraq yox dərəcəsindədir. Bu haqda yalnız ayrı-ayrı momentləri qeyd etmək olar.

VII–VIII əsr ərəb geneoloqlarının məlumatlarına əsasən ərəblər öz köklərini İbrahim peyğəmbərdən götürürdülər. Şimal ərəblərinin ulu babası həmin peyğəmbərin oğlu İsmayıl hesab olunurdu. Cənub ərəblərinin əcdadı isə ərəblərin qəbul etdikləri Qəhtan hesab olunurdu. Şimal ərəbləri ərəb tarixşünaslığında ərəbləşmiş ərəblər – əl-ərəb əl-mutəərriba, yaxud əl-ərəb əl-mustəriba, cənub ərəbləri isə əsl ərəblər–əl-ərəb əl-əribə adlandırılır. Hər iki qrup ərəblər çoxlu sayda qəbilələrdən ibarətdir. Hər qəbilə özünün adına malikdir. Daha böyük qəbilələr isə Ərəbistan yarımadasında, eləcə də ondan kənarda yayılaraq özünün ayrı-ayrı tayfalarını formalaşdırmışdır ki, onların da hamısının öz müstəqil adları vardır. E.ə. I minillikdə ərəb tayfaları Ərəbistan yarımadasının cənubundan şimalına doğru yayılmağa başlamış və Mesopotamiya, Suriya, eləcə də Misirə qədər gedib çıxmışlar. Şimali Ərəbistana köç edən cənub ərəbləri yerli əhali ilə

qaynayıb-qarışmış ərəbləşmə prosesi baş vermişdir. Ona görə də cənub ərəbləri əsl ərəblər, şimal ərəbləri isə ərəbləşmiş ərəblər adlandırılır. Ərəb qəbilələlərinin şimaldan cənuba doğru yayılması haqqında isə nə şifahi xalq yaradıcılığında, nə də yazılı mənbələrdə məlumat yoxdur.

Qeyd etmək lazımdır ki, qədim misirlilər Ərəbistanla maraqlanmış, Mədinə şəhəri yaxınlığında mis və firuzə emal etmişlər. Assuriya çarı III Salmanasarın eramızdan əvvəl 854-cü ilə aid olan yazılarından məlum olur ki, Assuriya qoşunları Ərəbistana yürüş etmiş və Qindubdan 1000 dəvəni qənimət kimi aparmışlar. Eramızdan əvvəl 650-ci ilə aid mənbədən isə yeni maraqlı bir məlumat əldə edilmişdir ki, bu da Babilistanı mühasirəyə alan assuriyalıların mühasirəsini ərəb şeyxi Abiyat yarmış və səhrada gizlənmişdir. Onun bu igidliyinə görə Assuriya çarı onu bütün ərəblərin çarı elan etmək istəmiş, lakin şeyx Abiyat bunu qəbul etməmiş və mübarizəni davam etdirmişdir.

Bununla belə, Ərəbistanda məskunlaşmış əhali ilə xaricilərin münasibətlərini işğalçı yürüşlərin xarakteri deyil, ticarət müəyyən edirdi. Bu mənada Qərbi Ərəbistanın ticarət yolu Yəməndən və Qırmızı dəniz sahilləri boyunca davam edərək Məkkə, Mədinə, Tabukdan keçərək Şərqi Aralıq dənizi və Nilin mənbəyinə gəlib çatırdı. İslamın yarandığı dövrdə Mərkəzi Ərəbistan Cənubi Ərəbistandan və Hind okeanı ölkələrindən Suriyaya gedən ədviyyat və ətirli maddələrin daşındığı qədim yolda yerləşirdi. Ticarət yolları Ərəbistan yarımadasında kəsişirdi.

Şərqi Ərəbistan isə tarixən Mesopotamiya ilə daha çox əlaqədə olmuşdur. Herra nəinki Babilistanla, həmçinin Oman və Hindistanla da ticarət əlaqələri saxlayırdı. Digər mühüm ticarət yolu Böyük Nəfud vasitəsilə Mədinə vahəsindən Mesopotamiyaya gedən karvan yolu idi.

Ərəbistanın beynəlxalq münasibətlərdə iştirakı Makedoniyalı İskəndərin buraya etmiş olduğu işğalçı yürüşlərlə daha sıx xarakter almışdır. Onun əmrinə əsasən Fars körfəzi tədqiq edilmiş, Ərəbistan ətrafında dəniz yolları axtarılmışdır.

Bizim eranın əvvəllərində isə Ərəbistana romalılar gəlmiş, buranı müxtəlif rayonlara ayırmış və onlara öz coğrafi adlarını vermişlər. Bu bölgüyə əsasən demək olar ki, bütün Ərəbistan yarımadası, «Arabia Feliks»ə-«Xoşbəxt Ərəbistan»a daxil edilmişdir.

Mesopotamiya, Suriya səhraları və Ərəbistanın şimal rayonları «Arabia Dezerta»- «Səhra Ərəbistanı»nda birləşdirilmiş, Aralıq dənizindən cənub-şərqə və şərqə doğru olan ərazilər isə «Arabia Petra»- «Daşlıq Ərəbistan»a daxil edilmişdi.

Misirdə Antoni və Kleopatra ilə mübarizədə qələbə qazanan Avqust eramızdan əvvəl 24-cü ildə Yəmənə 10 min əsgər və 120 gəmidən ibarət ekspedisiya göndərmişdi. Cənub-qərbi Ərəbistanda Hicazın dəniz sahili şəhərlərini tutan romalılar Sabey çarlığının sərhədlərinə gəlib çatdılar. Bu ekspedisiyanın əsas məqsədi Hicazın sahil şəhərlərində mövcud olan quldurların Roma ticarətinə vurduqları ziyanın və yaratdıqları təhlükənin aradan qaldırılması idi. Bizim eranın II əsrində imperator Saverin burada möhkəmlənmək cəhdləri uğursuzluqla nəticələnmişdi.

Xarici müdaxiləçilərin digər işğal obyekti Ərəbstanın daxili rayonları idi. Qeyd etmək lazımdır ki, həmin dövrdə burada bütün Ərəbistan üçün mühüm əhəmiyyət kəsb edən proseslər gedirdi. Yəməndə irriqasiya sisteminin, su bəndinin dağılması, eramızın I əsrində musson küləklərinin kəşf edilməsi ilə əlaqədar dənizçiliyin inkişafı, ədviyyata olan tələbatın artması Cənubi Ərəbistanda karvan ticarətinə olan marağı azaltdı. Bunun nəticəsi kimi Yəmən tayfaları şimala mühacirət etməyə məcbur oldu. Beləcə, Bani-Tanuk tayfası Mərkəzi və Şimali Ərəbistandan keçərək, Cənubi Mesopotamiyaya gəlmiş və burada Hirə paytaxt olmaqla ərəb Ləhmilər dövlətinin əsasını qoymuşdu. Yəmənin Aus tayfası isə Qırmızı dəniz sahilləri ilə Hicaz və Şimali Ərəbistanı keçərək, Dəməşq ətrafında Qassanilər ərəb knyazlığını yaratdılar. Bu dövr Ləhmilər Bizansla müharibə aparan İranla hərbi-siyasi müqavilə bağlamışdılar. Şimali Ərəbistan tayfası olan Kind isə Nəcddə öz dövlətini yaratdı. Lakin bu dövlətin ömrü uzun olmadı.

Digər Yəmən tayfaları–Xəzəə, Xəzrəc və Aus tayfasının ayrı-ayrı nəsilləri isə Hicazda Məkkə ətrafında yerləşdilər. Bu rayon Suriyanı Yəmənlə, Hicazı Mərkəzi Ərəbistanla birləşdirdiyi üçün mühüm ticarət mərkəzi hesab olunurdu. Məkkənin əhəmiyyəti təkcə onun mühüm ticarət mərkəzi olması ilə deyil, həm də dini mərkəz-müqəddəs şəhər olması ilə də xarakterizə edilirdi.

Miladi tarixinin təxminən IV əsrindən etibarən yarımadanın müxtəlif hissələrində–şimalda və şərqdə Nəbatiyyə, Həzrə, Palmira, Hirə, cənubda–Səba, Məin, Hadramaut və Qətban kimi dövlətlərlə

təmsil olunmuş cəmiyyəti əvəz edən yeni bir cəmiyyətin yarandığını göstərən proseslər müşahidə olunurdu. Bu proseslər Ərəbistanın dili arami dili olan şimal mədəniyyəti və dili qədim Ərəbistan dili olan cənub mədəniyyəti kimi iki mədəniyyət dairəsinə bölünməsi, yarımadanın bütün hadisələrində ellin mədəniyyətinin təsiri, ətriyyat və ədviyyat istehsalı, eləcə də ticarətin xüsusi rolu özünü büruzə verirdi. Ərəbistanda tranzit ticarət bir qədər zəifləsə də, bunun əvəzində müntəzəm yarmarkalar sistemi yolu ilə ölkədə daxili mal mübadiləsinin güclənməsi ilə müşahidə olunurdu ki, bu da yarımadanın ayrı-ayrı hissələrinin birləşməsi prosesinin güclənməsini səciyyələndirirdi.

Ərəblərin ilkin vətəni Ərəbistan yarımadasıdır. Qədim dövrə aid olan tarixi mənbələr ərəblər haqqında məhz Ərəbistan yarımadasının sakinləri kimi məlumat verirlər. Erkən orta əsrlərdə yarımadanın əksər əhalisini köçəri maldarlar təşkil edirdilər. Onlar Ərəbistanın səhra və yarımsəhralarında məskunlaşır və «səhrada yaşayan» mənasını verən «bədv» adı ilə tanınırdılar. Bədəvilər əsasını dəvəçilik təşkil edən maldarlıqla məşğul olurdular. Dəvə «az qala bütün ev heyvanlarının ən universalı idi». Dəvədən istifadə səhrada və yarımsəhrada yaşayan ərəblərin həyat tərzinə çox uyğun idi. Uzun zaman susuz və yemsiz qala bilən dəvə ərəblərə yaşamaq üçün zəruri olan bütün məhsulları verirdi. Dəvə ərəblərin həyatına o dərəcə də daxil olmuşdu ki, hətta şairlər belə şerlərində gözəllərin gözlərini dəvənin gözlərinə bənzədir və onu mədh etməkdən çəkinmirdilər.

Çox isti yay aylarında otlaqlar və su mənbələri quruyurdu, yaranmış vəziyyət bədəviləri yeni otlaqlar və su mənbələri axtarmağa vadar edirdi. Onlar hətta Suriya sərhədlərinə qədər gələrək böyük məsafələr qət edirdilər.

VII əsrə qədər Ərəbistan yarımadası üçün köçəri əhali, Cənubi Ərəbistan icmasının oturaq əkinçiləri, ölkənin mərkəzdə və şimalda yerləşən azsaylı vahələri xarakterikdir. Ərəbistan yarımadasının əyalətləri ilə sərhəddə yerləşən Yaxın Şərq ölkələrinin əhalisi müxtəlif dillərdə danışır və müxtəlif dinlərə etiqad edirlər. Onlar fars və aramey (Suriya), yunan və kopti (Misir), bərbər (Şimali Afrika) dillərində danışırdılar.

İstər ümumən ərəb tarixinin, istərsə də islam tarixinin tədqiqində ərəblərin cahiliyyə dövründəki yaşayış səviyyələrinin araşdı-

rılması adətən məqsədəuyğun hesab edilir. Çünki məsələyə bu mövqedən yanaşma ərəblərin islamaqədərki dövrü ilə islamdan sonrakı dövrünü müqayisə etmək üçün əlverişli imkan yaradır. Bu mənada qeyd edə bilərik ki, V–VI əsrlərdə, eləcə də islamın yaranmasınadək – VII əsrin birinci yarısında Ərəbistan yarımadasında Yəmənin oturaq əhalisi istisna olmaqla ərəblər ibtidai-icma quruluşunda yaşayırdılar. Bu dövr ərəb cəmiyyətində dövlət və ona xas olan institutlar mövcud deyildi. Ərəblər nəsli tayfa quruluşunda yaşayırdılar ki, bu insanları birləşdirən yeganə təşkilatı xarakterizə edirdi. Bu təşkilat da qan qohumluğu əlaqələrinə əsaslanırdı. Ərəbistanın istər oturaq, istərsə də köçəri qəbilələri ayrı-ayrı tayfalara, hər tayfa isə böyük və kiçik nəsillərə bölünürdü.

İngilis şərqşünası Robertson Smit sübut etməyə çalışmışdır ki, ərəb tayfalarını təşkil edən nəsli tayfanın özü sırf qan qohumluğuna əsaslanan birlik olmamışdır. Bununla o, hicri I əsr ərəb geneoloqlarının bu təsəvvürlərini alt-üst etməyə cəhd etmişdir. Belə ki, Smit uzun illərin axtarışı nəticəsində sübut edirdi ki, ərəblərdə başa düşülən nəsil heç də onu təşkil edən qan qohumları deyildir. Nəsli təmsil edən ərəblərin hamısı bir-birini qardaş adlandırırdılar. Lakin onların bir-birini qardaş adlandırmaları heç də onların qan qohumluğuna işarə etmirdi. Məsələn, Məhəmməd peyğəmbər hədislərindən birində buyurur ki, «bütün müsəlmanlar qardaşdırlar». Bu mənada demək olarmı ki, bütün müsəlmanlar həqiqi mənada qardaşdır.

Robertson Smitin aparmış olduğu tədqiqatın çox böyük əhəmiyyəti vardır. Belə ki, ərəblərdə qan qohumluğunun mövcudluğu cəmiyyətdə çox güclü qüvvə olmuşdur. Lakin heç də bütün nəsillər qan qohumluğu əsasında formalaşmamışdır. Bu nəsillər eyni zamanda başqa tayfalardan, yaxud nəsillərdən digər tayfa və yaxud nəsilə keçən ərəblər vasitəsilə də formalaşmışdır. Qardaşlaşma ilk növbədə buradan yaranmışdır.

Lakin islamın meydana gəlməsi ərəfəsində ərəblərdə nəsli-qan qohumluğu nə qədər möhkəm olsa da, cəmiyyət daxilində gedən ictimai və sosial proseslərin məntiqi nəticəsi kimi həmin münasibətlər dağılır və feodalizmə xas xüsusiyyətlər formalaşırdı.

Üç əsrlik bir dövrdə islamın yaranmasına qədər Cənubi Ərəbistanın qədim mədəniyyəti tənəzzülə uğradı. Qüvvələr nisbəti köçəri tayfaların xeyrinə dəyişdi, bütün Ərəbistan yarımadasında

özbaşınalıq hökm sürməyə başladı. V-VI əsrlərdə köçəri, oturaq əhali ilə yanaşı yarımköçəri və ya yarımoturaq əhalinin fəaliyyətini də qeyd etmək lazımdır. Vahə və ya əkinçilik rayonlarında məskunlaşan bu yarımköçəri tayfaların bir hissəsi əkinçiliklə məşğul olur və torpağı qorumağa qalır, digər hissəsi isə mal-qara ilə otlaq axtarmağa gedirdilər.

Miladi tarixinin ilk əsrlərindən başlayaraq köçəri bədəvilərin təsərrüfat fəaliyyəti, siyasi və mədəni rolu xeyli gücləndi. Həmin birliklər oturaq həyata keçmiş köçərilərin başçılıq etdikləri şimalda və şimal-şərqlə Qəssanilər və Ləhmilər, Daxili Ərəbistanda isə Kindilər dövləti çərçivəsində köçəri və oturaq əhalinin qarşılıqlı əlaqəsinə əsaslanırdı. Cənubi Ərəbistan ilk dəfə Himyərilər sülaləsinin vahid siyasi hakimiyyəti altında birləşdi. Bu yüksəliş Himyərilər padşahlığının hakimiyyət (300-525) illərinə də təsadüf edir. Yəməndən başqa, Hadramaut da Himyərilər dövlətinin tərkibinə daxil idi. Ancaq yəmənlilərin şimala köçməsi və Aksum dövlətindən həbəşlərin hücumu Himyərilər dövlətini zəiflətdi və ərazisinin onlar tərəfindən tam tutulması ilə nəticələndi.

*Cahiliyyə dövründə ərəblərin dini inancları*

Yarımadanın qərb hissəsində dağ və dağətəyi rayon olan Hicazda qədim ibadət və ticarət mərkəzi olan Məkkənin rolu xüsusi əhəmiyyət daşıyırdı. Məkkə sakinlərinin əsas məşğuliyyəti ticarət idi. Orta əsrlər ərəb tarixçisi Yaqubi bir varlı Məkkə sakinin dili ilə deyir: «Bizim şəhərin həyatı, varlığı və gələcəyi tiacrətdən asılıdır». Məkkədə ticarətlə yanaşı sələmçilik də geniş yayılmışdır. Bu iki amil şəhərdə bütün regiona nisbətən ibtidai-icmanın dağılma prosesini xeyli sürətləndirmişdir. Şəhərdə müxtəlif qəbilələr məskunlaşsa da, onların arasında «qureyş» qəbiləsi daha çox fərqlənirdi. Onun əyan dairələri, xüsusilə Haşimilər nəsli öz iqtisadi və sosial inkişafı baxımından o biri nəsilləri ötmüşdü. Ərəbistanın əsas yarmarkalarından biri bu şəhərin yaxınlığında yerləşirdi. Şəhərdə oturaq həyata keçmiş qureyş tayfasının ayrı-ayrı nəsllərinə mənsub olan Məkkə sakinləri Ərəbistanın daxili ticarətində aparıcı və fəal rol oynayırdılar. Onların işgüzar əlaqələrinin təhlükəsizliyi bir çox bədəvi qəbilələri ilə bağlanmış qarşılıqlı müqavilələr əsasında təmin olunmuşdu. Məkkəlilər Suriya, Yəmən və Həbəşistanla sabit və müntəzəm ticarət mübadiləsi aparırdılar.

Məkkə hələ qədim dövrlərdən Ərəbistanın müqəddəs şəhəri hesab edilirdi. Burada yerləşən Kəbə bütün ərəblərin öz inanclarına

sitayiş etdiyi yer idi. Məkkəyə ziyarət zamanı ərəblər yeddi dəfə Kəbəni öpürdülər. Kəbənin yaxınlığında yerləşən Zəmzəm su quyusu da müqəddəs hesab edilirdi. Maraqlısı budur ki, islam dini burada yarananda yeni din də həmin quyunun müqəddəsliyini qəbul etmiş, Kəbəni bütün müsəlmanların qibləgahına çevirmişdir. Ona görə də Məkkənin müqəddəsliyini nəzərə alaraq islamın qibləgahına çevrilməsi təsadüfi deyildi.

Qureyş tayfaları Məkkədən Mərkəzi və Qərbi Ərəbistana qədər uzanan ərazidə, «ədviyyat yolunda» tənəzzülə uğrayan ticarət üzərində, Ərəbistanın mədəni mərkəzlərində, Məkkədə, o cümlədən qədim müqəddəs Kəbədə nəzarət yarada bilmişdilər. Qırmızı və Aralıq dənizi sahillərində, o cümlədən Misirdə ərəb mallarına tələbat aşağı enmişdi. Bu isə qureyşilərin iqtisadi vəziyyyətinə təsirsiz ötüşmürdü.

İslamın vətəni Hicazda yerləşən Məkkə şəhəri həm də xristian və iudaizmin müxtəlif axınlarının fəaliyyətdə olduğu bir şəhər idi. Burada Zın-zəm quyusu, Kəbə məbədi və Qara Daş yerləşir ki, bunlar qədim dövrlərdən bədəvi tayfa və qəbilələrin ziyarətgah yeri olmuşdur. Qədim məbəd ətrafında yerləşən şəhəri hələ islamaqədərki vaxtlarda «Allahın evi» kimi tanıyırdılar və məkkəlilər özlərini «Allahın qonşuları» adlandırırdılar. Burada mövcud olan dini dözümlülük Ərəbistanın heç bir şəhərində mövcud deyildi. Ona görə də burada mövcud olan həmin balansın cüzi dərəcədə də pozulması ciddi faciələrlə nəticələnirdi. Məsələn,VI əsrin əvvəllərində Yəmən kralı Zu Nuvas Məkkəyə ziyarət vaxtı əhalini zorla iudaizmi qəbul etdirmək cəhdi onun özünün taxtdan salınmasına gətirib çıxarmaqla bərabər, Yəməndə xristianların imtiyazlarının artırılması və möhkəmləndirilməsi ilə nəticələndi. Belə ki, Bizans imperatoru I Yustinianın (518-527) xahişi ilə Efiopiya nequsu Yəmən kralını cəzalandırmış, burada xristian dininə itaət edən Ariatı taxta çıxarmışdı. Ariat isə öz növbəsində Məkkənin əhəmiyyətini nəzərə alaraq buraya bir neçə yürüş etsə də, VI əsrin ikinci yarısında buna müvəffəq olmadı. Sonuncu dəfə 569-cu ildə o, Məkkəni mühasirəyə alsa da, qəfil xəstəlik onun bu yürüşünü də nəticəsiz qoydu.

Məkkədə 7-8 min əhali yaşayırdı. Belə ki, eyni nəsildən olan adamlar bir-birinə yaxın yaşamağa çalışırdılar. Məhz bunun nəticəsində də Məkkədə soy məhəllələri yaranmışdı. Düzbucaqlı bina şəklində olan məşhur Kəbə məbədi şəhərin mərkəzi hissəsində

yerləşirdi. Ərəbistanın bir çox başqa məbədlərinin oxşarı olan bu düzbucaqlı məbəd V-VI əsrlərdə xüsusilə böyük əhəmiyyət daşıyırdı. İnsan surətində olan yerli məbud Hübəl ilə yanaşı Ərəbistanın müxtəlif ərazilərinin bir çox başqa məbudlarına da burada sitayiş edilirdi. Həmin məbudların rəmzləri olan bütlər Kəbənin künclərində yerləşdirilmişdi. Bütün Ərəbistanda sitayiş edilən bütlərin, eləcə də Uzza ilahəsinin ibadətgahları da Məkkə ətrafında yerləşirdi. Bütün bunlar isə erkən orta əsrlərdə Məkkəni ümumi ibadət mərkəzinə çevirmişdi. Yarımadada məskunlaşan ərəblər qonşuluqda xristian və yəhudi icmalarının olmasına baxmayaraq, öz inanclarında qalırdılar. Məkkə və onu əhatə edən ərazi «hərəm» statusuna – tayfa adət və qanunlarının təsirindən azad və müqəddəs sayılan «hörmətli ərazi» anlamını verir – malik idi.

Bununla belə, Məkkənin əhəmiyyətini ön plana çıxaran digər faktor da mövcud idi. Belə ki, Məkkənin dini və ticarət əhəmiyyəti şəhərdə və şəhər ətrafında məhsuldar əkin sahələrinə malik olmayan əhalinin maddi rifahının əsasını iəşkil edirdi. Ərəbistanın bir çox ərazilərinin bütləri və dini ənənələri ilə yaxından tanış olan Məhəmməd peyğəmbər burada ətraf mühit və geniş əlaqələr şəraitində böyümüşdü.

Hicazın digər mühüm mərkəzi şəhəri Yəsrib idi. Qədim ticarət yolu üzərində yerləşən ümumi məntəqə rolunu oynayan bu şəhər hələ miladdan əvvəl VI yüzillikdə yeni Babil padşahı Nəbonidin Ərəbistandakı mülklərinin tərkibinə daxil idi. Lakin Yəsrib erkən orta əsrlərdə ticarət şəhəri deyildi. Burada əhalinin başlıca gəlir mənbəyi olan xurma bağları və taxıl zəmilərindən ibarət geniş əkin sahələri ilə əhatə olunmuş kənd təsərrüfatı icmaları cəm olmuşdu. Bu şəhərin əhalisi bir neçə qəbilədən ibarət idi. Daha böyük olanı Aus və Xəzrəc qəbilələri bütpərəst idi. Üç digər qəbilə Heynuqa, Nəzir, Bureyza isə iudaizmə etiqad edirdi. Bu qəbilələr bir-biri ilə düşmənçilik edən qruplarda birləşirdilər.

İslam dininin meydana gəlməsi ərəfəsində şəhərlər Ərəbistanın həyatında böyük rol oynayırdı. V-VI əsrlərdə Ərəbistanın mühüm əhəmiyyət daşıyan və diqqət mərkəzində olan şəhərlərndən biri Yəmənin Səna şəhəri idi. Şəhərin geniş vadidə, əlverişli coğrafi mövqedə yerləşməsi onu böyük ticarət məntəqəsi və hərbi-siyasi mərkəzə çevirmişdi. Şəhərin bir-birinə sıx şəkildə tikilmiş evlərində təxminən 25-30 min adam yaşayırdı.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA
262234

Efioiyanın Ərəbistandakı nüfuzuna yalnız VI əsrin sonunda, farsların hərbi-siyasi yardımı ilə son qoyulmuş oldu. 575-ci ildə isə Sasani şahənşahı I Xosrovun hərbi-dəniz ekspedisiyası Yəmən sahillərinə gəlmiş və həmin ildə İranın ordusu bu ərazi üzərində Sasanilərin hökmranlığını bərqərar etmişdir.

Yeni din və bu dinin meydana gəlməsi ilə əlaqədar yaranacaq yeni daxili və xarici siyasi, iqtisadi, ictimai münasibətlər ərəfəsində Ərəbistan həmin dövrün mövcud olan dünya siyasətinə cəlb edilmişdi. Bizansla mübarizədə Sasanilər Ərəbistanda nestorianlığı dəstəkləyir və yardım edirdilər. Ərəbistanın şimalında isə Bizans möhkəmlənmişdi. Hicaz və Mərkəzi Ərəbistanda isə ərəblər müstəqil idilər.

Bir çox Şərq filosoflarının apardığı tədqiqatlara əsasən islam bir sistem kimi feodal münasibətlərinin hökmranlığı şəraitində əmələ gəlmişdir. Lakin feodal münasibətləri ilə yanaşı quldarlıq ukladı və qəbilə-tayfa münasibətlərinin olması da sözsüzdür. Bu sosial zəmində islamın ictimai, iqtisadi, siyasi, hüquqi, əxlaqi normaları, dünyagörüşü əmələ gəlir və inkişaf edirdi. Əlbəttə, islam dininin qələbəsinə zəmin yaradan amillər də olmuşdur. Məsələn VI əsrin axırlarında İran ilə Bizans arasında şiddətli müharibə gedirdi. Onlar bir-birini zəiflətmək üçün qeyri-ixtiyari olaraq islam dininin qələbəsini hazırlayırdılar. Xristianların müxtəlif kilsələri arasında rəqabət, yaxud Məkkə ətrafında yaşayan yəhudilərlə, xristianlarla bütpərəstlər arasında ziddiyyət islam dünyasının zəfərlərini və təntənəsini təmin edirdi.

İslam dininin Ərəbistanda təşəkkül tapmasınadək olan dövrdə yarımada ərəblərinin əksəriyyəti bidətçi idi. Onlar təbiətin müxtəlif hadisələrinə, ağaclara, taxtalara, su quyularına, səma işıqlarına, daşlara və digər əşyalara itaət edirdilər. Cənub və Şimal ərəb tayfalarının qədim dini-anamizm, yəni təbiət qüvvələrinə itaət, qəbilə bütlərinə, günə və aya inam idi. Onların adları isə müxtəlif idi. Şimali Ərəbistanda və Məkkədə əsasən üç ilahi qüvvəyə daha çox etiqad edilirdi: Lat, Uzza və Manat. Bu qədim ərəb bütpərəstliyini ərəblər sonralar «cahiliyyə» dövrü adlandırırdılar. Bir çox ilahi qüvvəyə inamla yanaşı şimal ərəbləri arasında böyük bir qüvvənin-Allahın mövcudluğu da qəbul olunurdu. Onun haqqında təsəvvür çox ümumi və qaranlıq idi. Kəbədəki Allah pantionları arasında Məkkə ətrafında

yaşadığı güman edilən Qureyş Allahı daha çox itaət edilən pantion idi.

V-VI əsrlərdə Ərəbistanın ayrı-ayrı ərazilərində bütlərə sitayişin əksinə yönəlmiş təkallahlığı təbliğ edən, lakin formal olaraq özünü Ərəbistanda yayılmış monoteist dinlərin heç birinə mənsub etməyən monoteist cərəyanlar da meydana çıxmışdı. «Hənifilik» («Hənifiyyə») daha geniş yayılmış cərəyan idi. Hənifilik bütləri rədd edərək vahid bir məbuda iman gətirən təlimi xarakterizə edirdi. Lakin onlar öz baxışlarını heç bir halda açıq şəkildə təbliğ etmirdilər və bu adamları ümumi bir adla «hənifilər» (hunəfa) adlandırırdılar.

Hənifilik Ərəbistanın əsas əkinçilik mərkəzlərindən biri olan Yəmamədə dini təlim kimi formalaşmış, hətta Qərbi Ərəbistana da yayılmışdı. Bu ölkədə təkallahlıq qeyri-adi bir hal kimi qəbul olunmurdu. Çünki əhali xristianlıq və iudaizimin təbliğ etdiyi təkallahlıq ideyaları hənifiliyin ideyaları ilə üst-üstə düşürdü. Əslində hənifiliyi din kimi qəbul edənlər də var idi. Lakin hənifilik din deyildi. Hənifilik təkallahlığı təbliğ edən ideyadan irəli gedə bilməmişdi. Adətən onu islamın yaranmasında ilkin mərhələ kimi şərh edən şərqşünaslar isə öz elmi qənaətlərində qəti müəyyən olunmuş mövqeni nümayiş etdirmirlər. Tanınmış şərqşünas alim Y.A Belyayev bu məsələyə münasibətdə qeyd edir ki, «əhalinin sosial tələbləri altında, Məkkə hənifiliyi öz inkişafının növbəti mərhələsinə keçdi ki, buna da artıq islam dini adını almış yeni dininin yaranması kimi baxmaq olar». Göstərilən əsərdəki bu arqument əl-Əsməi, İbn İshaq, İbn Hişamın və s. islamşünas alimlərin irəli sürdüyü konkret fakt və dəlillər, eləcə də elmi qənaətə əsaslanan məntiqi mülahizələr, Y.A Belyayev və bu mövqedən çıxış edən həmçinin azlıq təşkil edən alimlərin, islamın yaranmasına dair irəli sürdükləri analoji arqument və tendensiyaları alt-üst edir.

Hənifiliyə gəldikdə yuxarıda adlarını qeyd etdiyimiz Şərq alimlərinin fikirlərinə əsaslanaraq deyə bilərik ki, bu dini fəlsəfi cərəyan Yəmamə və Qərbi Ərəbistanda yayılmasına baxmayaraq, ərəb politeizminin mərkəzi olan Məkkəyə sirayət edə bilmirdi. Burada onun yayılmasına Kəbəyə olan münasibətdə yaxşı təşkilatlanmış büt sitayişi mane olurdu. Bu sitayiş isə bədəvi tayfaları ilə sıx əlaqədə olan Qureyş qəbiləsinin iqtisadi fəaliyyəti ilə əhatələnmişdi. Ona görə də, qureyşilər qəti şəkildə təkallahlığın əleyhinə hər cür mübarizə aparırdılar.

Lakin VI əsrin sonlarına doğru Ərəbistanda politeizmin erası başa çatmaq üzrə idi. İbtidai icma quruluşu cəmiyyətinin dağılması ilə yaranmaqda olan sinfi münasibətlər politeizmin dayaqlarına zərbə vururdu. Digər tərəfdən bu dövrdə qəbilə ittifaqlarının yaranması faktiki olaraq Ərəbistanın birləşdirilməsini səciyyələndirirdi. Belə bir birləşmə prosesi vahid bir qüvvəni formalaşdırdığına görə vahid inanc obyekti problemini ön plana çəkirdi. Bunu isə monoteizm edə bilərdi.

Ərəbistanda gedən bu sosial-ictimai və iqtisadi-siyasi proseslər kontekstində hənifilik monoteizmin ərəb forması kimi politeizmə qarşı mübarizə aparırdı. Bu mübarizə açıq şəkildə aparılmasa da, öz mövcudluğu ilə bütpərəstlərin onlara qarşı açıq şəkildə mübarizə aparmasına təkan verirdi. Hənifiliyin belə bir mövqedən çıxış etməsinin isə bu cərəyanın güclü dəstəyə olan ehtiyacı idi. Hənifilik monoteizmi təbliğ edirdi. Lakin xristian dini, yaxud ondan əvvəl meydana çıxmış iudaizm tərəfindən dəstəklənmirdi. Çünki yalnız təkallahlığı təbliğ edən hənifilik tam formalaşmış, təşkilatlanmış, əsaslandırılmış dini ideoloji bir tam kimi çıxış etmirdi. Ona görə də həm bütpərəstlik, həm xristianlıq, həm də iudaizm tərəfindən qəbul olunmayan hənifilik qapalı təbliğat aparmaq məcburiyyətində idi.

Hənifilik təkallahlığı təbliğ etməsinə baxmayaraq, geniş kütləni öz ətrafında birləşdirə bilməzdi. Bunun səbəbini təkcə qureyşilərin onlara qarşı kəskin mübarizə aparmasında və onların təkcə qiyamət gününü təbliğ etməsində axtarmaq olmaz. Burada hənifiliyin sosial-iqtisadi münasibətlərdə mövcud olan problemin həllinə müvafiq yolları göstərə bilməməsi idi. Əks təqdirdə islam dinindən əvvəl meydana çıxan hənifilik ərəblər arasında hamı tərəfindən qəbul edilən bir axın olardı. Ona görə də, hənifiliyi islam dini ilə bağlamaq mümkün deyildir.

İslam dininin meydana gəlməsi ərəfəsində Ərəbistanda hənifilikdən başqa «Göylərin və Yerin Rəbbi» vahid məbud Rəhman obrazı ilə bağlı digər monoteist təsəvvürlər yayılmışdı. Nəhayət, təxminən Məhəmməd peyğəmbərin fəaliyyəti ilə eyni bir vaxtda Ərəbistanın bir çox ərazilərində «peyğəmbərlik» adlandırılan dini-siyasi hərəkat başlamışdı. Yəmamədə Museyləmə, Yəməndə Əbhələ əl-Əsvad və başqaları özlərini vahid məbudun elçilçri kimi qələmə verir, dini və siyasi hakimiyyəti öz əllərinə almağa çalışırdılar. İslam

tarixində onlar «yalançı(kəzzab) və ya uydurma peyğəmbərlər» adını almışdılar. İslam dininin meydana gəlməsi ərəfəsində Ərəbistanın təsərrüfat, siyasi və mədəni həyatı bir çox cəhətləri ilə onun qonşularının təsiri ilə müəyyən edilirdi. Erkən orta əsrlərdə Bizans, İran və Həbəşistan Ərəbistanda öz maraqlarının müdafiəsi uğrunda kəskin mübarizə aparmışlar.

VI yüzilliyin ortalarında Ərəbistanın əksər hissəsinə nəzarət edən orada öz mənafeləri və siyasi məqsədləri olan Ləhmilər, həm də İranın mənafeyinə xidmət edirdi. İranın ənənəvi rəqibi isə Ərəbistanla sıx əlaqələri olan Bizans idi. Bizansın müttəfiqi isə Həbəşistan idi. Belə bir geosiyasi vəziyyətdə fəal siyasi mübarizə və müxtəlif siyasi meyllər şəraitində yadelli dinlərin Ərəbistanda təbii yayılma prosesi həm də kəskin siyasi rəng almışdı. Belə ki, ərəblərin iudaizmi qəbul etmiş qədim icmaları Şimali Ərəbistanın başlıca vadiləri olan Yəsrib, Xeybər və Tabukda mövcud idilər. Eramızın ilk əsrlərində Yəməndə də yəhudi icmaları var idi. Həbəşistanın təyziqinə qarşı çıxan Yəmən hökmdarı Yusuf Əsar VI yüzilliyin əvvəllərində yəhudiliyi nümayişkaranə bir surətdə qəbul edərək, onu Cənubi Ərəbistanın rəsmi dininə çevirdi. Bu isə dinə olan həqiqi imandan deyil, siyasi maraqların müdafiəsindən irəli gəlirdi. Xristian dininin mövqeyi isə bir qədər fərqli idi.

Xristianlıq islamın meydana gəlməsi ərəfəsində Ərəbistanda həm Bizans siyasətinin ünsürü kimi öz rəsmi formalarında, həm də müstəqil məzhəb və icmaların təlimi kimi yayılırdı. Yəməndə xristianlıq Bizansın və Həbəşistanın siyasi alətinə çevrilmişdi. Təsadüfi deyil ki, Quranın bir çox istilahlarını həbəş xristianları düzgün mənimsəyə bilmişdilər. Şərqi Ərəbistanda İran xristianlığı ilə bağlı olan nəsturi icmaları da var idi. Müxtəlif xristian təlimlərinin və bidətçi təlimlərinin xristian və qeyri-xristian ariflərin-qnostiklərin (dini-fəlsəfi cərəyanın) nümayəndələri də Ərəbistanda sığınacaq tapırdılar. Onların baxışlarının əks-sədaları Quranda da müşahidə olunur. İslamdan əvvəlki dövrün bir çox ərəb şairləri xristian idi. Xristianlığın mədəni gerçəklikləri və obrazları, məsələn, «İsa-İisus» obrazı, hələ islamdan qabaq Ərəbistan əhalisi mədəniyyətinin ümumi malı olmuşdu.

İranın siyasi təsiri həm də zərdüştlüyün yayılmasına kömək edirdi. Cənubi və Şərqi Ərəbistandakı zərdüştlük məbədləri haqqında çox məhdud məlumat olmasına baxmayaraq, qeyd etmək lazımdır ki,

zərdüştlük təsəvvürlərinin ərəblərə yaxşı məlum olduğuna dolayısı dəlalət edən materiallar da az deyildir.

İslam dininin meydana gəlməsi ərəfəsində-Ərəbistanın qədim dövrdən orta əsrlərə keçməsi, nəinki Yəməndə sinfi cəmiyyətin, eləcə də Daxili və Şimali Ərəbistanın vahələrində yaşayan köçəri tayfalarda ibtidai-sinfi və soy-tayfa cəmiyyətinin bütün sosial ziddiyyətlərinin kəskinlşməsi ilə bağlı idi. Belə bir vəziyyətlə köçərilərin güclənməsi də müəyyən rol oynayırdı. Onların oturaq əkinçilərin vilayətlərinə nüfuz etmələri hakim təbəqənin tərkibinin, təsərrüfat əlaqələrinin və ictimai əlaqələrin təbiətinin dəyişilməsinə gətirib çıxarırdı. Ticarətin zəifləməsi, siyasi yönümlərin dəyişməsi də böyük sosial gərginlik yaradırdı ki, bu da yeni ideologiyanın formalaşmasına kömək edirdi.

Bu dövr Ərəbistanın daxilində elə bir şərait formalaşmışdı ki, bu dövr formasiya inkişafı üçün böyük əhəmiyyəti olan hadisələr sosial ziddiyyətlərin və qüvvələrin başlıca mərkəzlərində deyil, əyalətdə, müəyyən sosial sistemin «zəif halqası»nda intişar tapırdı.

Bununla belə qeyd etmək lazımdır ki, bu zaman qədim dövrdən orta əsrlərə keçid təkcə Ərəbistanda deyil, eyni zamanda bütün Yaxın Şərqdə baş verirdi. Lakin onun Ərəbistanda öz səciyyəvi formaları, öz sürəti var idi. Ərəbistan cəmiyyətinin feodalizmə doğru irəliləyişində iki yolun birləşdiyini qeyd etmək olar. Birinci yol «Himyəri yolu»dur. Bu yol Ərəbistanın sinfi cəmiyyətləri üçün, ilk növbədə Yəmən üçün səciyyəvi idi. Yeni cəmiyyət köhnə, qədim sinfi ictimai təsisatlarla öz sıx əlaqələrini saxlamaqla bərabər onların dağılması və inkişafı zəminini də törədirdi. Bu yol Ərəbistanın Bizans və İranla bağlı əyalətləri üçün də səciyyəvi idi.

İkinci yol isə «Ərəbistan yolu»dur. Daxili Ərəbistanda feodal cəmiyyəti oturaq və köçəri əhalinin qarşılıqlı əlaqəsi şəraitində soy-tayfa cəmiyyətindən tədricən böyüyüb yaranırdı. Özgün dövlət törəmələri, xüsusi tabeçilik və sosial münaqişə, ideya hərəkatlarının xüsusi formaları yaranırdı.

Belə bir proseslərin getdiyi bir dövrdə isə islam dininin meydana gəlməsi, sosial-iqtisadi və ictimai-siyasi münasibətləri tamamilə başqa müstəviyə keçirdi. Həmin proseslərə sonradan qoşulan islam, onun ideologiyası və yaratdığı ictimai münasibətlər bu iki yolu birləşdirdi. Belə bir birləşdirmə islam fütuhatlarından və

Ərəbistanın yalnız bir hissə kimi daxil olduğu müsəlman dövlətinin yaranmasından sonra xüsusilə fəal şəkildə güclənməyə başladı.

Müsəlman aləmində ictimai münasibətlərin sonrakı inkişafı tipoloji baxımdan feodalizmin elə əmələgəlmə tipinə yaxındır ki, orada qədim cəmiyyətdən keçib gəlmiş ünsürlərlə kənardan gətirilmiş və tayfa-soy, yaxud feodalizmdən qabaqkı quruluş şəraitində nəşət tapmış münasibətlər fəal qarşılıqlı əlaqədə olur.

Bütün qeyd ounanlarla bərabər, burada heç də az əhəmiyyət daşımayan bir faktorun ön planda olduğunu da göstərmək lazımdır ki, bu da islam dininin meydana gəlməsi ərəfəsində ərəb cəmiyyətində mövcud olan səviyyə idi. Bu dövrdə ərəb cəmiyyətinin keçid mərhələsinin özünəməxsusluğu bir də onda idi ki, ərəblər ibtidai icma quruluşundan feodalizmə keçidi öz adət ənənələrinin və mövcud qanunlarının əsasında reallaşdırırdılar.

## İSLAM DİNİN İN MEYDANA GƏLMƏSİ

*Məhəmməd peyğəmbərin dini fəaliyyəti*

Bəşər tarixinin inkişafına özünəməxsus dəyişikliklər gətirən yeni səmavi-islam dininin banisi Məhəmməd peyğəmbər Məkkədə hakim mövqeyə malik olan qureyş tayfasından idi. Babası Haşimi bütün ömrü boyu Kəbə camaatına xidmət etmişdir. Hətta 552-ci il quraqlığı zamanı, o aclıqdan əziyyət çəkən kəbəlilərə çörəyi öz əli ilə paylamış, uşaqlara çörəyi öz əli ilə yedizdirmişdi. Ona görə də Haşimilərin Məkkədə hörməti və mövqeyi çox böyük idi. Təsadüfi deyil ki, «haşimi» ərəbcədən tərcümədə «çörək doğrayan» mənasını verir.

Məhəmmədin atası Abdullah 24 yaşında 14 yaşlı Əminə ilə ailə qurmuşdu. Abdullah da öz ailəsinin maddi vəziyyətinin sabitliyi üçün hamı kimi Suriyaya gedən karvan ilə ticarət edirdi. O, yolda ikən xəstələnir və dünyasını dəyişir. Atası Abdullahın ölümündən az sonra 20 aprel 570-ci ildə Məhəmməd peyğəmbər dünyaya gəlir. Bir çox alimlər onun 20 avqust 571-ci ildə anadan olduğunu da qeyd edirlər.

576-cı ildə Məhəmməd anası ilə Bəni Nəccara qonaq gedirlər və geri qayıdarkən Mədinənin 23 milliyində yerləşən Əvba kəndinə çatanda anası xəstələnir və burada vəfat edir. Beləcə Məhəmməd peyğəmbər 6 yaşında ikən ata və anadan yetim qalır. Bundan sonra babası Əbdül Müttəlib, daha sonra isə əmisi Əbu Talib onu himayə edirlər.

582-ci ildə-12 yaşında ikən Məhəmməd peyğəmbər ticarətlə məşğul olmağa başlayır və o, ilk dəfə Əbu Bəkrlə Suriyaya ticarətə gedir. 17 yaşına çatanda o artıq sərbəst olaraq ticarətlə məşğul olur və Yəmənə səfər edir. Bu zaman Məkkənin ən varlı və nüfuzlu əsil-nəcabətli qadınlarından biri olan Xədicə ilə Məhəmməd peyğəmbər ailə həyatı qurur. Xədicədən Məhəmməd peyğəmbərin üç oğlu, dörd qızı dünyaya gəlir. Lakin onun oğlan övladları vəfat edir.

Avropanın tanınmış ingilis şərqşünası Uilyam Muir özünün «Məhəmmədin həyatı» adlı əsərində qeyd edir ki, «Həzrəti Məhəmməd haqqında bütün nəşrlər bir nöqtədə birləşir ki, bu da onun xarakterinin aliliyi və əxlaqi təmizliyidir. Bunlar o zaman məkkəlilər arasında çox nadir təsadüf olunan xüsusiyyətlərdəndir».

Məhəmməd peyğəmbərin 40 yaşı olanda o öz həmtayfalarını bir Allaha iman gətirməyə çağırdı. Özündə bəzi dəyişikliklər hiss edən Məhəmməd Hira dağında özünə ayrıca bir mağara seçdi. Artıq 610-cu ildə buraya adəti üzrə gəlişi tamamilə başqa xarakter mahiyyət, məzmun, əhəmiyyət və səciyyə kəsb edirdi. 610-cu il ramazan ayının əvvəlində o, Hira dağında olarkən gözünə görünən Mələk ona xitabən dedi «Oxu». Məhəmməd-«Mən oxumaq bilmirəm»-israr etdi. Üçüncü əmr qarşısındı Məhəmməd titrək səslə «Nə oxuyum»-deyə soruşdu. Bu zaman Mələk müasir dövrümüzdə istifadə edilən Quranın «Ələq» surəsini buyurdu və Məhəmməd oxudu.

Qayıtdıqdan sonra hadisəni Xədicəyə danışdı. Bütün bu olanları Xədicə Varada ibn Novhələ ərz etdi. Tövrat və İncili yaxşı bilən Varada bildirir ki, «Məhəmmədə gələn mələk, Musaya və İsaya gələn mələkdir. Xristian mənbələri yeni peyğəmbərin zühurunu əvvəlcədən bildirirlər».

Məhəmmədin təbliğ etdiyi yeni dini həyat yoldaşı Xədicə, Əli, azad etdiyi Zeyd və Əbu Bəkr qəbul etdilər. Bundan sonra islamı qəbul edənlər Məhəmməd peyğəmbərlə birlikdə gizli surətdə dağların yamaclarında ibadət etməyə başladılar.

İslam dini intişar tapdıqca Məhəmməd peyğəmbərin həyatı daha da çətinləşirdi. O, 12 il ərzində Məkkədə təqib, təzyiq, təhqir və qəsd cəhdlərinə baxmayaraq, İlahi tərəfindən müəyyən edilmiş bir vəzifənin yerinə yetirilməsi, yəni islam dininin yayılması uğrunda apardığı mübarizədən dönmədi.

Avstriya şərqşünası Alois Şprenqer islam dininə münasibətdə demişdir ki, «islam dini yeganə dünya dinidir ki, hamının gözü qabağında günün günorta çağı yaranmışdır. Onu danmaq qeyri mümkündür».

Digər tərəfdən, islam dini Ərəbistan yarımadasının hüdudlarından aşıb keçərək orta əsrlərdə feodal cəmiyyətinin ideoloji ifadə formalarından biri olmuşdur. Məhəmməd peyğəmbərin yeni dininin ideoloji əsası və təməli o qədər güclü və əhəmiyyətli olmuşdur ki, ondan sonrakı iki Raşidiyyə xəlifəsinə islamın Ərəbistan sərhədlərini aşıb Egey sahillərinə yayılmasına cəmi 15 il lazım olmuşdur. Bu mənada qeyd etmək olar ki, Ərəbistanın qədim dövrdən orta əsrlərə keçidi faktiki olaraq Məhəmməd peyğəmbərin həyatı ilə, onun yaşam və mübarizə tərzi ilə müəyyən olunmuşdur.

Məhəmməd peyğəmbərin dini fəaliyyəti iki mərhələyə bölünür: Mədinə mərhələsi və Məkkə mərhələsi. Hər iki mərhələ bir-birini tamalayır. Belə ki, birinci mərhələdə peyğəmbərliyin verilməsi və onun məkkəlilərə çatdırılması, eləcə də Məhəmmədin peyğəmbərliyinə qarşı mübarizənin başlanması, ikinci mərhələdə Mədinədə baş verən proseslərdir.

Məhəmməd peyğəmbərin Məkkədəki dini fəaliyyəti ilk növbədə mənsub olduğu qureyşilərin sosial-iqtisadi və ictimai-siyasi mövqelərinə zidd olduğundan ona qarşı mübarizəyə başlayan da, məhz qureyşilər oldu. Əsasən ticarətlə məşğul olan qureyşilər yeni peyğəmbərin təbliğ etdiyi müddəalarla razılaşmadılar. Çünki peyğəmbər ticarətdə düzgünlüyə, insanları aldatmamağa çağırırdı. Bu isə həqiqətdə Məkkə ənənələrinə meydan oxumaq idi. Bu dövr ticarətlə məşğul olan Məhəmməd peyğəmbər faktiki və praktiki olaraq bunu nümayiş etdirdiyinə görə tədricən tərəfdaş yığırdı. Digər tərəfdən onun müxtəlif bütlərə tapınan ərəblərə təkallahlığı təbliğ etməsi isə ona qarşı qüvvələrin formalaşmasını şərtləndirirdi.

Məhəmməd peyğəmbər və onun Məkkə tərəfdarları əhalinin aşağı və orta təbəqəsinə malik olduqlarından qureyşilərin hakim təbəqəsinin istismarını daha çox öz üzərində hiss edir və görürdülər. Haşimi nəslinə mənsub olan Məhəmməd peyğəmbər isə bu nəslin özü kimi varlı deyildi. Haşimi nəslinin qureyşilər qəbiləsində mənəvi dayaqları möhkəm olsa da, maddi imkanları məhdud idi. Ona görə də Məhəmməd peyğəmbər eyni zamanda malik olduğu maddi imkanlarını itirməyə qorxan Haşimi nəslinin də təyziqlərinə məruz qalırdı.

Bu dövr Məkkədə islamın uğur qazanmasının başlıca səbəblərindən biri, onun sosial mahiyyətindən irəli gəlirdi. Belə ki, islam dini sosial ədalətsizliyi tənqid edir, bərabərlik ideyalarını yayırdı ki, bu da mövcud olan qayda-qanunu kökündən silkələyirdi. Belə bir vəziyyət sosial qütbləşmənn formalaşmasına təkan vermişdi. Bu vəziyyət cahiliyyə ərəblərində mövcud olan ibtidai-icma quruluşunun dağılmasını daha da sürətləndirirdi.

İbtidai icma quruluşunun dağılması, torpaq üzərində xüsusi mülkiyyə-tin meydana gəlməsi, əyanlar və adi qəbilə üzvləri arasında ziddiy-yətlərin çoxalması Şimali Ərəbistan cəmiyyətini sarsıtmış və burada dəyişikliklərə gətirib çıxarmışdı. Bu böhrandan çıxmaq üçün ümum-ərəb dövlətinin yaranması üçün artıq zəruriyyət doğmuşdu. Qəbilələrarası düşmənçilik və ayrı-seçkiliyi aradan götürmək üçün

yeni bir ideologiya lazım idi və bu rolu yeni dini sistem öz üzərinə götürmüş oldu.

İbtidai icma münasibətlərinin dağılma prosesi bu quruluşa mənsub olan dini ideologiyanın-poleteizmin də dağılmasına gətirib çıxardı.

Məhəmməd peyğəmbərin ilk fikir müttəfiqlərindən Əbu Bəkri, Osmanı, əmisi oğlu Əlini, gənc Öməri göstərmək olar. Göründüyü kimi müsəlmanların sayı çox deyildi. Məkkə əyanları Əbu Sufyan başda olmaqla Məhəmmədə qarşı çıxırdılar. Onlar qorxurdular ki, tək Allahlığın təbliği Kəbənin tənəzzülünə gətirib çıxara bilər və bu da nəinki zəvvarların buraya axınını azaldacaq, habelə ticarətin zəifləməsinə gətirərək, Məkkənin siyasi nüfuzunu heçə endirə bilər. Bu səbəbdəndir ki, Məkkədə Məhəmməd nə şəhər sakinləri arasında, nə də ətraf rayonların bədəviləri arasında özünə sosial dayaq tapa bilmədi.

Məhəmmədin təlimini qəbul etmiş ilk ərəb qadını, məsləkdaşı və həyat yoldaşı Xədicə 619-cu ildə vəfat etdi. Bundan sonra Məhəmməd peyğəmbərin bütün sonrakı nigahları əsasən siyasi xa-rakter daşımışdır. Belə ki, peyğəmbər öz əleyhdarları ilə mübarizədə ona lazım olan qəbilə və tayfalarla qohum olurdu.

Həmin il peyğəmbərin əsas himayəçisi və əmisi Əbu Talib də vəfat etdi. Əbu Talib öz qardaşı oğlunun etiqadına şərik çıxmasa da onu möhkəm qorumuşdur. Tayfanın yeni başçısı olan Əbu Ləhəb ləqəbi almış Əbdül Uzza Məhəmməd peyğəmbərin ən qatı düşməni oldu. Məhz buna görə də Quranda da adı xüsusi lənətlə çəkilir.

Bundan sonra, vətəndən və tayfadan kənarda sığınacaq axtarmaq zərurəti və məcburiyyəti Məhəmməd peyğəmbərin özü üçün də vacib bir məsələyə çevrildi. Qureyşilərin onu qovmağa, hətta öldürməyə hazırlaşdıqları barədə şayələr də yayılmağa başlamışdı. Belə bir təqdirdə, Ərəbistan adətlərində özünə yer alan və şəraitə tamamilə uyğun bir qərar verilməsi mövqeyi ön plana çıxdı. Bu isə doğma qəbilədən çıxıb təhlükəsiz bir yerə getmək qərarı idi.

*__İlk müsəlman icmasının yaranması__*

Peyğəmbər yeni dinin təbliği üçün Məkkə ilə qonşu olan və onunla rəqabət aparan Taif şəhərinə gəlsə də, burada onu daşa basdılar. Məkkə ətrafında yaşayan köçərilər də ona yardım göstərmək, onu müdafiə etməkdən boyun qaçırdılar. Nəhayət, Məkkəyə gəlmiş zəvvarlarla söhbət edərkən

Məhəmməd peyğəmbər Yəsribdən gəlmiş tacirlərlə razılıq əldə etdi. Onlar Məhəmmədi öz şəhərlərndə yaşamağa dəvət etdilər, lakin yəsriblilər onu o məqsədlə Allahın elçisi kimi tanımağa hazır idilər ki, o həm münsiflik vəzifəsini öz üzəri-nə götürsün, həm də Yəsrib tayfaları arasındakı çəkişmələrə və inti-qam hisslərinə son qoysun, uzun illər davam edən dolaşıq hərc-mərc-liklərini dayandırsın.

20 sentyabr 622-ci ildə (bəzi məlumatlarda 16 iyulda), yəni Məkkədə peyğəmbərliyə başladıqdan 12 il sonra Məhəmməd vahənin mərkəzi yaşayış məntəqəsinə – Yəsribə gəldi. Peyğəmbərin Mədinə şəhərinə getməsi islam tarxində hicrət adlanır. Onun Yəsribə gəlməsindən sonra bu şəhər «mədinət ən-Nəbi»–«Peyğəmbər şəhəri» adlanmağa başladı. Əvvəlcə peyğəmbərin məsləkdaşları–səhabələri, sonra isə o özü də yaxın dostu, ilk müsəlmanlardan biri Əbu-Bəkrin müşayiəti ilə məkkəlilərdən gizli şəkildə Mədinəyə hicrət (köç) etdi.

Peyğəmbərin dini fəaliyyətində Mədinə mərhələsi xüsusi əhəmiyyət daşıyır. Mədinə Qərbi Ərəbistanın ən böyük vahələrindən biri idi. Buradakı yaşayış məntəqələri bir-birindən bağlar, əkin sahələri, bostan və palma ağacları vasitəsilə ayrılmışdı. İrəlidə qeyd etdiyimiz kimi Mədinə vahəsini üç əsas yəhudi və iki ərəb tayfası təşkil edirdi. Bunlardan başqa vahədə ayrı tayfa və nəsillər də məskunlaşmışdılar.

Mədinənin yəhudi tayfaları daha qədimdən burada məskunlaşmışdılar. Ərəb tayfaları olan Aus və Xəzrəc isə geneoloji cəhətdən Cənubi Ərəbistan tayfalarının bir qolu olub sonradan burada məskunlaşmışdılar. Ərəblər əkinçiliklə, yəhudilər isə ticarətlə məşğul olurdu. Bununla belə yəhudi tayfaları arasında da əkinçiliklə məşğul olan nəsillər mövcud idi. Yəhudilərə nisbətən ərəblərin əkin torpaqları çox az idi. Əsas diqqəti cəlb edən faktor isə bu idi ki, Xəzrəc və Aus qəbilələri öz aralarındakı ziddiyyət və çəkişmələri aradan qaldıra bilmirdi. Bu tayfalar arasındakı mübarizədə qələbə yəhudilərin hansı tərəfi dəstəkləməsinə bağlı idi. Ərəblər isə bunda özlərinə təhlükə görürdülər. Lakin bu təhlükənin aradan qaldırılmasında ərəblər də Məhəmməd peyğəmbərin missiyasından çox şeylər gözləyirdilər.

Burada diqqəti çəkən amillərdən biri də, hələ islamın yaranmasınadək Mədinə ərəblərinin xristianlığı qəbul etmələri idi. Burada sonradan müsəlmanlığı qəbul etmiş ənsarlar həmin xristianlar idi və təsadüfi deyildi ki, «ənsar» sözü «nasar»- «xristian»- sözündən

yaranmışdı. Lakin ənsar sözünün digər mənaları da mövcuddur. «Ənsar» sözü «tərəfdar» mənasını da verir. Xristian olan bu ərəblər İsanı peyğəmbər kimi qəbul edir, lakin onun ilahiliyini qəbul etməkdən imtina edirdilər. Tək allahlılığı qəbul edən həmin ərəblər üçün islamın yeni din kimi qəbul edilməsində problemlər ortaya çıxmadı. Çunki onlar xristian müqəddəs kitablarından bilirdilər ki, yeni peyğəmbərin zühuru labüddür. Digər tərəfdən, onlara monoteizm ideyaları da yad deyildi. Ona görə də, onlar hicrətin edilməsinə hələ iki-üç il qalmış Məhəmməd peyğəmbərlə danışıqlara başlamışdılar.

Mədinə ərəbləri Məkkənin qureyş hakimlərinə qarşı düşmən mövqedən çıxış edirdilər. Bunun əsas səbəbi Məkkə qureyşilərinin Mədinə ərəblərinin ticarətinə müdaxilə etməsi və onu nəzarət altına almaq istəməsi idi. Ona görə də onlar təkallahlılığı təbliğ edib, qureyşilərə qarşı çıxan Məhəmməd peyğəmbəri öz sıralarına qəbul etməyə hazır idilər.

Peyğəmbərlə Mədinəyə hicrət edən Məkkə müsəlmanları buradakı qohumları ilə bütün əlaqələrini kəsdilər. Mədinədə onlar mühacirlər adlanmağa başladılar. Mədinədə islamı qəbul edənlər və peyğəmbərin şəxsiyyətini qoruyanlar isə ənsarlar adlandılar.

Bununla belə, Məhəmməd peyğəmbərlə Mədinə sakinləri arasında bir neçə müqavilə imzalanmışdı ki, bu müqavilələrə əsasən də müsəlmanlar, bütpərəstlər, bütün Mədinə tayfalarının üzvləri və gəlmələr öz aralarındakı mübahisələrdə bir münsif kimi Məhəmməd peyğəmbərin nüfuzuna tabe olan vahid bir icma çərçivəsində birləşdilər. Mədinə də Məkkə kimi hərəm – yəni «Allahın hörmətli ərazisi» kimi elan edildi.

Mədinədə mühacirlər və ənsarların birləşib yaratmış olduqları icma-umma adlanırda. Bu qurum Ərəbistanda mövcud olan bütün təşkilatlardan fərqlənirdi. Başlıca fərq bu təşkilatın üzvlərinin bir dini təlimə itaət etmələri idi. Onun rəhbəri Allah ilə əlaqə saxlayan və cəmiyyətdə xüsusi imici olan Məhəmməd peyğəmbər idi. Ummanı Ərəbistandakı təşkilatlardan fərqləndirən digər mühüm cəhət onun tayfa və qəbilə arası əlaqələrdən yuksəkdə durması idi. Yəni onun qərarları hamı üçün, bütün tayfa və qəbilələr üçün həyata keçirilməsi vacib olan qərarlar kimi qəbul olunurdu. Burada yaranmış müsəlman icması Ərəbistanın gələcək birliyinin özəyi oldu.

Müsəlman umması tam dini, teokratik bir təşkilat idi. Təşkilatın bütün üzvləri vahid əqidə sahibi olmaqla inanırdılar ki, onlar Allahın elçisi vasitəsilə idarə olunurlar. Təşkilatın bütün üzvləri peyğəmbərin bütün göstərişlərinə doqma kimi əməl edir, heç bir halda ondan kənara çıxmırdılar. Digər tərəfdən onlar mövcud olan qarşıdurma və çəkişmələrə son qoymaq üçün Məhəmməd peyğəmbərlə bağlamış olduqları müqavilənin şərtlərinə əsasən də bu göstərişləri yerinə yetirmək məcburiyyətində idilər.

Bununla belə, Məhəmmədə tabe olmuş və islamı qəbul etmiş yəsriblilər arasında peyğəmbərlə heç bir qərarla razılaşmayan bir qrup da tədricən özünü büruzə verməyə başlamışdı. Burada Məhəmməd peyğəmbərin hakimiyyətinin güclənməsindən qorxuya düşən yerli əyanların nümayəndələri və hələ islamdan qabaq hənif kimi tanınan bir çox dini məsələlərdə öz nöqteyi-nəzərləri olan yəsriblilər də var idi. Xəzrəc tayfasının başçısı Abdullah bin Ubeyin və onun tərəfdarları müsəlman icması gücləndikcə dəfələrlə açıq-aşkar, çox vaxt isə gizli şəkildə peyğəmbərə qarşı çıxır, onun Məkkədəki əleyhdarları ilə əlaqələr yaradırdılar.

Peyğəmbərin evinin yanında tikilmiş ilk məsciddə namaz qılarkən müsəlmanlar üzlərini Qüdsə tərəf tuturdular. Moizələrdə yəhudilərin və müsəlmanların etiqadlarının yaxınlığı haqqında fikirlər getdikcə daha güclü səslənirdi. Lakin əksinə oldu. Mədinə yəhudiləri Məhəmmədin birinci düşmənləri sırasında oldular. Onlar Məhəmmədi nəinki peyğəmbər kimi tanımır, hətta onun iddialarını lağa qoyur, özünü isə müqəddəs kitabları bilməməkdə günahlandırırdılar. Onlar peyğəmbərin düşmənləri ilə gizli və açıq sazişlərə girirdilər və ehtimal olunur ki, onun həyatına edilmiş bəzi sui-qəsdlərdə onların da əli olmuşdur. Buna cavab olaraq, hicrətin ikinci ilində qiblə dəyişdirildi. Bundan sonra, müsəlmanlar üzlərini Qüdsə deyil, Kəbəyə tutmağa başladılar. Ardınca isə onlara qarşı bir sıra iqtisadi və hərbi tədbirlər görüldü. Yəhudilərin bir hissəsi bu tədbirlər nəticəsində həlak oldu, digər hissəsi isə on il ərzində Mədinədən qovuldu.

Mədinədə müsəlman icması getdikcə daha mütəşəkkil forma aldı, əsas adət-ənənələr bərqərar edildi, ilk məclis quruldu. Mədinədə öz həmkarları ilə məskunlaşmış Məhəmməd heç də Məkkənin çoxallahlığı əsas sitayiş obyekti hesab edən əyanları ilə mübarizədən əl çəkmədi. Hicrətin ilk illərində Məhəmməd peyğəmbər Mədinədəki

fəaliyyətində buranın sosial-iqtisadi həyatına, eləcə də musəlmanların sosial vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərən karvan yürüşlərinin edilməsini məqsədəuyğun hesab etdi. Onlar görünür Məkkənin ticarət fəaliyyətini dondurmaq istəmiş və buna Məkkədən Suriyaya gedən yolu kəsməklə nail olmuşdu. Məkkəyə gedən həmin karvanların qarət edilməsi müsəlmanlara xeyli qənimət əldə etməyə imkan verirdi. 623-cü ildə müsəlman dəsətələri Məkkə karvanına hücum etmiş və onu tutmuşlar. Hicrətin üçüncü ilindən etibarən isə bu yürüşlər planlı şəkildə iqtisadi mübarizə xarakteri aldı. Belə ki, həmin yürüşlərdə xeyli zərər çəkən Məkkə iqtisadiyyatı zəifləməyə başladı. Onu da qeyd etmək lazımdır ki, müsəlmanların bu karvan yürüşləri heç də həmişə uğurlu olmurdu. Müvəffəqiyyətsizliklər isə Mədinə satqınlarının Məkkəyə, yaxud Məkkə karvanının başçısına gizli şəkildə göndərmiş oluqları məlumat nəticəsində baş verdi. Belə karvan yürüşlərindən biri və ən böyüyü 624-cü ildə təşkil olunmuşdu. Karvanın başçısı Əbu Sufyan Mədinə yəhudiləri ilə əlaqəyə girib, onlara ediləcək hücum haqqında əvvəlcədən məlumat aldığına görə mədinəlilərin planı pozulmuşdu. Bədr quyuları yaxınlığındakı vuruşmada məkkəlilər özlərini müdafiə etsələr də məğlub olmuşdular. Əbu Sufyan isə Qırmızı dənizin sahilləri ilə öz malını Məkkəyə çatdıra bilmişdi. Bədr yaxınlığında döyüşdə əldə edilən hərbi qəniməti Məhəmməd müsəlmanlar arasında bölüşdürmüş (burada atlı piyadanın payından üç dəfə çox almışdı), 1,5 hissəsi (xums) peyğəmbərin, onun ailəsinin, yetim və kasıbların hesabına verilmişdi.

625-ci ildə məkkəlilər bədəvi ərəblərlə ittifaq bağlayaraq, Mədinə üzərinə hücuma keçdilər. Uhud dağı yanındakı döyüşdə mədinəlilər məğlub oldular. 625-ci ildə yenidən Məkkə karvanına basqın edilmişdi. Əbu Sufyan 626-cı ildə mədinəlilərə qəti sarsıdıcı zərbə vurmaq məqsədilə növbəti yürüş təşkil etdi. Bu hücum zamanı əvvəllər qul olmuş fars Salman əl-Farisinin təklifi ilə tətbiq olunan müdafiə taktikası mədinəliləri məğlubiyyətdən xilas etdi. Digər tərəfdən Məhəmməd peyğəmbər məkkəlilərdən narazı olan bədəvi qəbilələrlə separat danışıqlar üçün əlaqələr yaradaraq, onların məkkəlilərdən üz döndərməsi üçün müvafiq təbliğat apardı. Nəticədə məkkəlilər Mədinənin mühasirəsini götürmək məcburiyyətində qaldılar. 627-ci ildə məkkəlilər 10 minə yaxın ordu ilə Mədinə-ni

tutmaq üçün yeni cəhd göstərmiş, bu da onların məğlubiyyəti ilə başa çatmışdır.

Məkkəlilərin Mədinəyə növbəti hücumu uğursuzluqla nəticələnəndən sonra yaranmış vəziyyətdən Məhəmməd daxili düşmənlərinə qarşı mübarizə aparmaq üçün istifadə etdi. İlk növbədə o, yəhudi tayfalarını Mədinədən tamamilə çıxartdı. Digər tərəfdən Məkkə ilə rəqabət aparan bədəvi tayfaları ilə ittifaqlar bağlayaraq Məkkənin siyasi nüfuzunu zərərsizləşdirdi. Bunun nəticəsində qüvvələr nisbəti peyğəmbərin xeyrinə dəyişmiş oldu. Yaranmış şərait Əbu Süfyan və onun tərəfdarlarını mövcud vəziyyətlə barışmaq və peyğəmbərlə danışıqlar aparmaq məcburiyyətində qoydu.

Əbu Sufyan Mədinəyə gəldi və Məkkənin təhvil verilməsinə dair danışıqlara başladı. Qərara alındı ki, Məkkə yalnız dini mərkəz olaraq qalacaqdır. Danışıqlarda əldə olunan razılıq kimi Məhəmməd peyğəmbər Əbu Sufyanın qızı ilə ailə qurmalı idi. Bu nigah həmin dövr adətlərinə əsasən siyasi xarakter daşıyırdı. Bununla belə qureyşilər Məkkəni əvəzsiz olaraq təslim etmirdilər. İlk növbədə qureyşilər islamı qəbul etməklə yenə Məkkəni idarə edirdilər. Digər tərəfdən Məkkə Qərbi Ərəbistanın əsas ticarət mərkəzlərindən biri olduğuna görə hər il zəvvarların buraya həcc ziyarəti zamanı şəhərin iqtisadi inkişafı üçün potensial maliyyə mənbəyi əldə edilirdi. Kəbənin yeni dinin müqəddəs mərkəzinə çevrilməsi ilə islam dininin əsas tələblərindən biri olan Həcc ziyarəti hər il burada həyata keçirilməyə başlandı.

628-ci ildə Mədinə dindarları böyük siyasi nəticələri olan mühüm akt həyata keçirdilər. 628-ci ildə Məhəmməd peyğəmbər 1500-ə yaxın adamı ilə Məkkəyə yaxınlaşdı. Uzun danışıqlardan sonra qureyşilərin tayfa başçıları ilə Xudeybiyə adlı yerdə aşağıdakı şərtlər əsasında müqavilə imzalandı.

1. On ilik barışıq əldə edilməli; 2. Müsəlmanların Kəbəyə ziyarətinə icazə verilməli. 3. Məhəmməd Məkkə karvanlarına hücumdan imtina etməli. Bu müqavilə müsəlmanların ilk diplomatik müvəffəqiyyəti hesab olunur.

Məkkəlilərlə bağlanmış müqavilənin əsas maddələrindən biri məkkəlilərin mühacir və ənsarların malik olduqları hüquq və səlahiyyətləri çərçivəsində müsəlman icmasına qəbul edilmələri oldu. Məkkənin müsəlman icmasına verilməsindən sonra müsəlman icması genişlənərək Mədinə–Məkkə icması adlanmağa başlandı.

Bundan sonra islam dininin Ərəbistanda yayılması sürətləndi və peyğəmbərin dini fəaliyyətində Mədinə mərhələsi bitmiş oldu.

Yeni dinin ərəb cəmiyyətinə gəlməsi ilə əlaqədar, ictimai və sosial münasibətlər köklü şəkildə dəyişməyə başladı. Mədinə-Məkkə icması tədricən dövlət institutlarının fəaliyyətini həyata keçirirdi. Peyğəmbərin dini-siyasi fəaliyyətinin məntiqi nəticəsi kimi ərəblər özlərinin ilk feodal dövlətini qurmağa başladılar. Cəmiyyətdə ictimai təbəqələşmə gedirdi, sinfi münasibətlər formalaşırdı. Məhəmməd peyğəmbər əvvəllər mövcud olmuş ərəblərin tayfa birliyindən fərqlənən sadə və patriarxal formada yeni dövlət yaratmalı idi. 630-cu ildə dövlətin yaranması prosesi demək olar ki, başa çatdı. Müsəlmanlar sonralar nisbətən daha qədim dövlətlərlə əlaqə yaratdıqdan sonra digər mədəniyyətin elementlərini qəbul etdilər.

Məkkə mühacirlərinin və Mədinə ənsarlarının köməyi ilə Məhəmməd peyğəmbər yeni vəzifədə öz mövqeyini möhkəmləndirdi. Onun müvəffəqiyyətini təmin edən amillər sırasında apardığı diplomatiya, onu peyğəmbər kimi qəbul etməyən yəhudilərlə əlaqəni kəsməsi, Qureyşi karvanlarına hücumlar təşkil etməklə ağır iqtisadi tədbirlər həyata keçirməsi, nəticədə Məkkədə ona qarşı müxalifətdə olan qüvvələrin parçalanmasına nail olması, sözündə və əməlində dürüst olması, islamın yayılması istiqamətində məqsədyönlü siyasəti idi. 630-cu ildə isə əhali tamamilə onun tərəfinə keçdi. Fəaliyyətinin ilk dövrlərində islamın qəbulunu hər kəsin öz vicdanına həvalə edən, yalnız inandırma və təlqin yolundan istifadə edən Məhəmməd peyğəmbər 20-ci illərin sonu – 30-cu illərin əvvəllərində siyasi üstünlüyü əldə etdikdən sonra bütpərəstliyə qarşı qəti mübarizə elan etdi.

Bundan sonra Ərəbistanın digər icma və tayfaları da onunla ittifaqa girdilər. Bununla da Məhəmməd peyğəmbər öz dinini dinc formada təbliğ etmək imkanı qazandı. Yəhudilər və xristianlar isə müsəlmanların tabeçiliyini qəbul etməklə öz müdafiələri üçün vergi ödəməli idilər. Kəbədə köhnə bütlər məhv edildikdən sonra İbrahim və İsmailin məbədi kimi müsəlmanların müqəddəs yerinə çevrildi. Hicridən on il keçdikdən sonra Məhəmməd peyğəmbərin dini fəaliyyəti öz bəhrəsini verdi. Qədim ayinlər tədricən unuduldu, yarımadanın mənəvi atmosferası xeyli yaxşılaşdı, tayfalar arasında qanlı ara müharibələrini belə bir təlim əvəz etdi: müsəlmanlar qardaşdırlar.

Mədinəyə qayıdışından sonra Məhəmməd peyğəmbər öz təsirini Mərkəzi və Şimali Ərəbistana yaymağa çalışırdı. Ən mühüm tədbir Tabuk vahəsinə yürüş oldu. Tabuk əhalisi böyük ordunu gördükdə döyüşsüz təslim oldu, islamı qəbul etməyənlər öz mulklərini və inanclarını saxlamaq üçün can vergisi, cizyə ödəməli idi. Həmin təcrübədən Ərəbistanın bir sıra kənd əhalisi də istifadə etdi. Beləliklə, 630-cu ildə ilk müsəlman feodal dövlətinin əsası qoyuldu.

631-ci ildə islamın Ərəbistanda təntənəli yürüşü başladı. Taif əhalisi islamı qəbul etdi, sonra Yəməndən, Mərkəzi Ərəbistandan, Bəhreyndən müxtəlif tayfalrın nümayəndələri gəldi. Bu göstərirdi ki, Məhəmməd peyğəmbər və onun təbliğ etdiyi təlim böyük siyasi qüvvəyə çevrilir, ərəblər isə bununla hesablaşmaq lazım gəldiyini başa düşürdü.

İslamın Ərəbistanda təsdiq edilməsi uğrunda gedən mübarizədə hicrətin 9-cu ilində, yəni 631-ci ilin martında həcc ziyarəti həyata keçirildi. Məhəmmədin yeni həcc ibadətləri haqqında təlimat aldıqdan sonra Əbu Bəkr ziyarətçilərin başçısı təyin edildi. Sonra ona Məhəmmədin əmisi oğlu qoşuldu ki, o da yeni təlimatı orada elan etməli idi. Bu açıqlamanın mahiyyəti ondan ibarət idi ki, çoxallahlılar sonuncu dəfə Məkkəyə buraxılırlar, müsəlmanların onlarla bağladığı müqavilələr razılaşdırılmış müddətdə qüvvədədir, bütpərəstlərə isə dörd ay müddətinə fikirləşmək üçün vaxt verilirdi, sonra isə onlara qarşı müharibə elan ediləcəkdi.

631-ci ilin ikinci yarısı Yəmən tədricən müsəlman dövlətinə çevrildi. Məhəmməd peyğəmbər Yəmənin şimalında mühüm ticarət mərkəzi olan Nəcranın xristian əhalisi ilə müqavilə bağlamağa nail oldu. Bunun ardınca isə Sasani canişini tərəfindən idarə olunan Səna və Şimali Yəmənin bir sıra tayfaları islam dinini qəbul etdi. İlin axırında Yəmamə ilə Fərat və Dəclə çaylarının mənsəbi arasında şimal-şərq hissəsini çıxmaqla, təxminən bütün Ərəbistan islamı qəbul etdi.

Bu qələbənin təmin edilməsinin üç əsas səbəbi var idi: Birincisi, VII əsrin 20-ci illərində Ərəbistanda hakimiyyət boşluğu var idi. Əsrin dörddə bir hissəsində Bizansla İran arasında müharibə getmişdir. Bu isə onların diqqətini Ərəbistanda baş verən işlərdən yayındırmışdı, Yəmənin cənub hissəsi bir çox xırda mülklərə parçalanmışdı və Mərkəzi Ərəbistanın işlərinə qarışmaq iqtidarında

deyildi. İkincisi, Qərbi Ərəbistanda qureyşilərin səyi nəticəsində tayfaların mühüm qruplarının birgə marağını təmin edən ittifaqlar sistemi yaradıldı; Məkkə işğal olundu, Məhəmməd isə bu sistemin varisi oldu. Üçüncüsü, peyğəmbərin hakimiyyəti azadlıqsevər bədəvilər tərəfindən digər tayfa başçılarının və ya yadelli şahların işğalından asan qəbul edilirdi; islamı qəbul etməklə onlar yadların hakimyyətinə deyil, tayfa və bəşəriyyətin hakimiyyətindən də ali hakimyyətə tabe idilər.

632-ci il martın əvvəlində Məhəmməd peyğəmbərin Məkkəyə ziyarəti onun dini və siyasi fəaliyyətinin yekun aktı idi. Belə ki, Məhəmməd peyğəmbər yeni, müsəlman həcc ibadətini qəti şəkildə təsdiq etdi. O, xeyriyyəçilik məqsədilə mal-qaranın əllidə birini və məhsulun onda birini ödənməsini nəzərdə tutan zəkat və sədəqə vergilərini müəyyənləşdirdi.

Hadisələrin belə qaynar çağında Məhəmməd peyğəmbər qəflətən xəstələndi və iki həftədən sonra 8 iyun 632-ci ildə Mədinədə 63 yaşında dünyasını dəyişdi. Məhəmməd peyğəmbərin vəfatı icmanı lərzəyə gətirdi, onların bir çoxu peyğəmbərin ölümünə inanmırdı və onun həyata qayıdacağına ümid edirdi. Məhəmməd peyğəmbər dünyasını dəyişən zaman tarixi ədəbiyyatlarda müsəlmanların sayının 100-120 min civarında olduğu qeyd edilir.

İslamın meydana gəlməsi tarixi bu dinin özü üçün həm son vəhy anı, həm də İlahi vəsiyyətlərin ən gözəl təcəssümünü özündə ehtiva edən ideal cəmiyyət həyatının nümunəsi kimi birinci dərəcəli əhəmiyyətə malikdir. Məhəmməd peyğəmbərin dövrü, həyatı və dini fəaliyyəti XX əsrin əvvəllərindəki modernistlərdən tutmuş, müasir fundamentalistlərə qədər əsrin əksər islam ideya cərəyanlarından hər biri özü-özlüyündə onları öz əqidəsi kimi qəbul edən milyonlarla insan üçün rəhbər tutulan ən mühüm yönüm, istinad ediləsi mütləq idealdır.

Müsəlman alimləri, eləcə də əksər islamşünas alimlər bu gün də islamın ilkin tarixini islama zidd təbliğata qarşı əsas döyüş meydanlarından biri hesab edir, peyğəmbərin simasını, islamın başlıca mətinlərinin mötəbərliyini və qədimliyini düşmənçilik hücümlarından qoruyurlar.

## RAŞİDİYYƏ XƏLİFƏLƏRİ

*Əbu-Bəkrin hakimiyyətə gəlməsi və ərəb işğallarının birinci mərhələsinin başlanması*

Müsəlman icmasında ilk böhran Məhəmməd peyğəmbərin ölümündən sonra baş verdi. Məhəmməd peyğəmbərin Xədicədən sonra bir neçə kəbininin olmasına baxmayaraq, onlardan varislik hüququnu daşıyan oğlan övladı olmamışdır. Bu isə vəziyyəti daha da gərginləşdirirdi. Lakin bir sıra şiə təqriəqtinə mənsub tarixçilər isə Əlinin özündən sonra xəlifə təyin etdiyini göstərirlər. Ona görə də, qızı Fatimənin iki oğlu Həsən və Hüseyn peyğəmbər nəslinin davamçıları kimi qəbul olunurdu. Lakin Məhəmməd peyğəmbərin yaratmış olduğu müsəlman icmasının qayda-qanunlarına əsasən ümummüsəlman və ümumislam əhəmiyyətli və miqyaslı qərarlar yalnız icma vasitəsilə verilirdi ki, bu da islam dininin demokratikliyindən irəli gəlirdi.

Beləliklə, uzun mübahisə və müzakirələrdən sonra ənsarlar və mühacirlərin ümumi razılığına əsasən ilk gündən peyğəmbərin yanında olan, onun ən yaxın silahdaşı, qayınatası Əbu-Bəkr(632-634) müsəlman icmasının başçısı seçildi. İcmanın qərarına əsasən ona xəlifə- müavin - titulu verildi. Ondan sonra xəlifə titulunu Ömər (634-644), Osman (644-656) və Əli (656-661) daşımışlar.

Qeyd etdiyimiz kimi, peyğəmbərin vəfatından sonra icma başçısının seçilməsində mübahisə və ziddiyyət mövcud olmuşdur. Əbu-Bəkr hakimiyyətə gəldikdən sonra icma başçısının qəti olaraq icma tərəfindən seçilməsi qaydasının ərəblər üçün böyük əhəmiyyət daşıdığına inandıra bildi. Bununla belə, xəlifə Əliyə qədər seçilmiş iki xəlifə müsəlman icmasının nisbətən ümumi razılığı əsasında həyata keçirilmişdir. Müsəlman islamşünasları qəbilə və tayfaların icma başçısı seçməsindəki bu hərəkatına «ər-Ridda» adı vermişlər ki, bu da «qopma», «ayrılma» mənasını verir.

Əli müsəlman icmasının çıxardğı qərarı səbrlə qəbul etdi. Qılıncla qələmi özündə birləşdirən Əli böyük alim, görkəmli sərkərdə kimi özünü təsdiqləməklə yanaşı uzaqgörən siyasətçi idi. Əli başa düşürdü ki, onun və tərəfdarlarının yeni təyinata qarşı çıxışları qarşıdurmaya və hətta vətəndaş müharibəsinə gətirib çıxara bilər. Bu isə nəticədə islam dini və onun təmsil olunduğu dövləti

zəifləndərdi. Hələ kövrək addımlarını atan yeni yaranmış dövlətin zəifləməsinə məqam gözləyən Bizans imperatorluğu başda olmaqla xarici müdaxiləni labüdləşdirər, daxildə isə hərc-mərcliyə rəvac verməklə mərkəzdən qaçma meyllərini artırardı. Bütün bunlar isə, nəticə etibarilə, islam dininin ləğvini əsaslandırardı. Tarixi və dini ədəbiyyatlarda Əlinin şəxsiyyətini çox yüksək qiymətləndirirlər. Çox güclü, qətiyyətli, prinsipal olması ilə yanaşı sadə, təvazökar, yoxsulların halına qalan yüksək keyfiyyətlərə malik bir şəxs kimi də qeyd edilir. Elə buna görədir ki, Əli islamın həm sünni, həm şiə təriqətinin nümayəndələri tərəfindən qəbul edilir. Ərəb dilinin qrammatikasının ilk tərtibçisi, «Nəhcül-Bəlağə» kimi qiymətli əsərin müəllifi olmaqla yanaşı Bir sıra ədəbiyyatlarda onun riyaziyyat elmi sahəsində kifayət qədər biliyə malik olduğu da qeyd edilir.

Əbu Bəkr Qureyş nəslindəndir. Məhəmməd peyğəmbərdən iki yaş kiçik idi. Peyğəmbər və onun yaratdlığı islam dinini ilk qəbul edənlərdəndir. Ömrünün axırına qədər peyğəmbərə sadiq qalmış və onun yolunda dönə-dönə həyatını təhlükə altına atmışdı, islamın qəbulu üçün bütün döyüşlərdə Məhəmmədlə yan-yana olmuşdur. Əbu Bəkr Məhəmməd peyğbəmbərin zövcəsi Aişənin atası idi. Peyğəmbərin yanında, həmçinin mühacirlərin və ənsarların arasında böyük hörməti var idi.

Məhəmməd peyğəmbərin ölüm xəbəri Ərəbistanda yayılan kimi, hər yerdən sədəqə toplayanları qovdular və Mədinə hakimiyyətindən imtina etdilər, onların çoxlarının fikrinə görə müqavilələr şəxsən peyğəmbərin özü ilə bağlandığından onun vəfatından sonra əvvəlki öhdəliklər öz əhəmiyyətini itirir. Bir sıra tayfalar sədəqə ödəmədən islama beyət etməyə razılaşırdılar. Yalnız Mədinə ətrafındakı tayfalar-Məhəmmədlə ilk ittifaq bağlayanlar sözsüz islama sədaqətlərini qoruyub saxlayırdılar. Məkkə isə hadisələrin gedişinin nə ilə nəticələnəcəyini gözləyirdi. Bir çox müsəlman yuxarı təbəqələri siyasi hakimiyyəti əllərində saxlamaq üçün sədəqədən imtina etməyə də razılaşırdılar.

Mədinə ənsarları Sakif Bin Səidin ətrafına toplaşaraq öz rəhbərlərinə sədaqət andı içməyə hazır olduqlarını bəyan etdilər. Bu toplantıda ənsarlara qureyşilərlə eyni hüquq və hakimiyyət verilməsini tələb etdilər. Mədinə ənsarlarının bu qolu peyğəmbərin Məkkə qureyşilərinə münasibətdə yeritdiyi siyasəti qəbul etmirdi. Ənsarların bu mövqeyi ondan irəli gəlirdi ki, Məkkə qureyşiləri peyğəmbərin fəaliyyətə başladığı ilk dövrdə onu qəbul etmədikləri

halda, sonradan nəinki mühacirlərlə bərabər hüquq və səlahiyyətlərə malik olmuş, hətta Məkkədə özlərinin sosial-iqtisadi və siyasi mövqelərini qoruyub saxlamışdılar. Bu isə qureyşilərin cahiliyyə dövründə olduğu kimi yeni dövrdə də onların aparıcı rolunu təsdiqləyirdi. Belə bir hal məkkəlilərlə hələ qədimdən rəqabət aparan Bənu Səid tayfasını qane etmir və onlara qarşı mübarizəni yeni müstəviyə keçirməyə sövq edirdi. Ona görə də, Bəni Səid tayfası yaranmış vəziyyətdən istifadə edərək Məhəmməd peyğəmbərə sadiqliklərini bir daha nümayiş etdirməklə bərabər hakimiyyət bölgüsündə iştirak etmək və bu istiqamətdə iddia qaldıran ilk tərəf kimi çıxış etmək istəyirdi. Bu nöqteyi-nəzərdən həmin toplantıda ənsarlar icmanın iki əmir tərəfindən idarə olunmasını tələb edirdilər. Onlar biri ənsarlardan, digəri isə qureyşi mühacirlərindən olan iki əmirin icmanın başında durmasını tələb edirdilər. Mühacirlər isə çalışırdılar ki, ənsarları tabe vəziyyətdə saxlasınlar, buna görə də onlar yalnız ənsarlar tərəfindən irəli sürülmüş nümayəndəni əmir yanında müavin saxlamağa razılaşırdılar.

Maraqlısı budur ki, ənsarlar onlara təklif olunan vəzifə ilə razılaşdılar. Lakin yeni problem ənsarların özündən yarandı. Belə ki, ənsarlar arasında fikir ayrılığı meydana çıxdı və öz aralarında kimin vəzir vəzifəsinə təyin edilməsi məsələsini həll edə bilmədilər. Buna mane olan ən böyük faktor isə ənsarların əvvəllər bir-biri ilə ciddi rəqabət aparan müxtəlif tayfa və qəbilələrdən təşkil olunması idi. Mühacirlər özlərinin verdikləri təklifi də geri almaq məqsədilə ənsarlar arasında mövcud olan ziddiyyətlərdən istifadə etdilər və təklif etdikləri vəzir vəzifəsini də ənsarlara verməkdən boyun qaçırdılar. Ənsarlar isə öz aralarındakı ziddiyyətin daha da genişlənib-dərinləşəcəyini, eləcə də mühacirlərin bundan istifadə edə biləcək ehtimalını nəzərə alaraq təklif edilən vəzir vəzifəsindən də imtina etdilər. Buna əsas verən səbəblərdən biri də o idi ki, ənsarlar islamı qəbul etdikdən sonra istər yaşayış səviyyələrinin yüksəlməsində, istərsə də sosial mövqelərinin güclənməsində xeyli irəli getmişdilər. Digər tərəfdən, islamın yayılması ilə əlaqədar olaraq, istər-istəməz ənsarların mövqeyi islamı qəbul edən ilk müsəlmanlar kimi daha çox ön plana çıxır və mühacirlər islamın yayılmasında onların xidmətlərindən daha çox istifadə etməyə başlayırdılar.

Bu zaman ənsar və muhacirlərin əksəriyyətinin xüsusi torpaqları və ticarət işləri var idi, onların gəlirlərinə Mədinəyə

gətirilən və onlar arasında beşdə bir hissəsi bölüşdürülən qənimət də əlavə olunurdu. Sədəqə xeyriyyə məqsədi ilə könüllü şəkildə verilən ianə idi. Onun böyük hissəsi imkansız müsəlmanlara sərf edilirdi. Müsəlman olmayanlardan alınan vergilər həqiqi vergilər idi ki, dövlət başçısının ixtiyarına keçirdi. Hec bir xəzinə mövcud deyildi: Mədinəyə daxil olan qənimət xəlifə tərəfindən müsəlmanlar arasında bərabər şəkildə bölünürdü. Xəlifə də hamı kimi bərabər pay alırdı. Mədinədən kənarda olan müsəlmanlar isə heç bir pay və gəlir almırdılar.

Əbu-Bəkr hakimiyyətə gəldiyi zaman iki problemin həlli ilə üz-üzə idi. Bir tərəfdən xarici siyasət sahəsində Suriya rayonlarına mütəmadi yürüşləri davam etdirərək, gələcək işğallar üçün əlverişli şərait yaratmaq, digər tərəfdən isə daxildə sabitliyi bərqərar etmək lazım idi. Bu problemləri uğurla həll edən Əbu-Bəkr özündən sonra xəlifə Ömər üçün tam aydın və müəyyən olunmuş daxili və xarici siyasət kursu qoyub getmişdi. Bu kursun həyata keçirilməsi müsəlmanların nəinki Ərəbistanda, eləcə də onun sərhədlərindən kənarda hakimiyyət və nüfuzunu təmin edirdi.

Bir məsələni də qeyd edək ki, Əbu-Bəkr hakimiyyətə gələndə islamı qəbul edənlərin sayı az idi. Bəzi tayfalar Mədinənin siyasi hakimiyyətini qəbul etsələr də bunun din ilə heç bir əlaqəsi olmamışdı. Bu qəbilələr islamın siyasi hakimiyyəti altında öz köhnə məbudlarına sitayiş etmiş, müsəlman icmasına özlərinin bac və vergilərini verməklə kifayətlənmişlər. Sonralar bu üsul ərəb işğallarında daha çox tətbiq olunan idarəetmə formalarından biri idi. Elə qəbilələr də var idi ki, Mədinənin dini siyasi təzyiqlərini hiss etmədiklərinə görə islam haqqında heç təsəvvürləri belə yox idi.

Leon Keytani müsəlman icmasına bu və ya digər münasibət bildirən qəbilələri dörd kateqoriyaya bölür. Birinci qrupa Mədinə – Məkkə icmasına tabe olub, müsəlman olanlar, islamı əbul edənlər idi. Bunlar Mədinə və Məkkədə, eləcə də bu iki şəhər arasında məskunlaşmış qəbilələr – Cuheyna, Muzeyna, Bali, Asca, Aslam, Huzeyl, Hüza və başqaları idi.

İkinci qrupa Mərkəzi Ərəbistanın Xavazin, Amir ibn-Sasaa, Suleym qəbilələri daxil idi. Bu qəbilələr müsəlman icmasının güclü təsiri altında idilər. Burada bəzi qruplar Mədinənin nüfuzuna qarşı mübarizə aparır, özləri üçün imtiyazlar əldə etməyə çalışırdılar.

Üçüncü qrupa müsəlman icmasının nüfuzunun yenicə bərqərar olduğu qəbilələr daxil idi. Bu qrupda müsəlmanlığı qəbul edənlər az idi. Bunlar Asad, Qatafan və Tamim qəbilələri idilər.

Dördüncü qrupa özünün siyasi və ideoloji müstəqilliyini saxlamış qəbilələr daxil idi. Bunlar əl-Yəməmə hənifiləri, Abd-əl Kays, Azd və Yəmən, eləcə də Hadramautun qəbilələri idi. Bu qəbilələr sırasına xristianlığı qəbul etmiş ərəb qəbilələri də daxil idi. Bunlar Kelb, Kudaa, Baxra, Qassan, Bəkir ibn-Vail, Tanux, Taqlib, eləcə də Maxr, Yəmən və Hadramautun politeist qəbilələri idi. Yəməndə isə iudaizmin daha çox yayılması müşahidə olunurdu.

Xəlifə Əbu-Bəkr ilk növbədə peyğəmbərin vəfatından sonra yaranmış bu qüvvələr nisbətini nəzərə alırdı.

Yeni dövlət idarəçilik orqanı və daimi ordusu olmayan çox zəif bir təşkilat idi. Onun özəyini 2,5-3 min döyüş qabiliyyəti olan Mədinənin müsəlman icması və çoxsaylı bədəvi dəstələrini özündə birləşdirən qvardiya təşkil edirdi. Bu özəyə Məkkə qureyşilərini də aid etmək olar, çünki onların əqidəsinə görə Kəbəni özlərinin əsas müsəlman məbədi elan edən yeni dövlət, həm də onların dövlətidir. İlk əvvəllər onlar qvardiyada ikinci dərəcəli rol oynasalar da, sonra fəaliyyətlərini artırdılar.

Məhəmməd peyğəmbərin vəfatından sonra Ərəbistanda vəziyyət çox qarışıq və təhlükəli idi. Bir sıra rayonlarda yalançı yerli peyğəmbərlər meydana çıxmışdı. Bununla yanaşı, bir çox tayfalar Məkkəyə vergi verməkdən imtina etdilər. Əbu Bəkrin hakimiyyəti dövründə vergi vermək istəməyən köçərilərin üsyanı yatırıldı, araya nifaq salan, araqarışdıran bütün yalançı peyğəmbərlər – həm qadın, həm də kişi peyğəmbərlər məhv edildi. Fərat çayının mənsəbindən Ölü dənizə qədər bütün yarımada islamı qəbul etdi. İki ildən bir qədər artıq hakimiyyətdə olan Əbu-Bəkr əsasən islamın yayılmış olduğu Qərbi Ərəbistanda dinin yerlərdə möhkəmləndirilməsi ilə məşğul olmuşdur. Həmin dövrdə Ərəbistanda istər sosial-iqtisadi, istərsə də ictimai-siyasi münasibətlərdəki vəziyyət çox gərgin və ağır idi.

Mərkəzi Ərəbistanda Asad qəbiləsində hərbi komandan və gələcəkdən xəbər verən adam kimi tanınan Tuxeyla Əbu Bəkrə qarşı

çıxış etdi. Hakimiyyətinin ilk aylarında Əbu Bəkr Tuxeylanın başçılığı altında Mərkəzi Ərəbistandan Mədinəyə hücumunu dəf etməli oldu. O, Mədinə-Məkkə icmasına qarşı mübarizə apardığını gizlətmirdi. Xəlifə Əbu-Bəkrin Xalid İbn əl-Validin başçılığı ilə göndərdiyi qoşun dəstələri Tuxeyla tərəfdarlarını məğlub etdi. O, məğlubiyyətdən az sonra mübarizənin əhəmiyyətsiz olduğunu dərk edib, islamı qəbul etdi və ərəb işğallarında iştirak etməyə başladı. Bununla eyni zamanda Əbu Bəkr Oman və Yəməndə qayda qanunu bərpa etmək üçün bupaya da hərbi qüvvələr göndərməli oldu.

Bu dövr Mədinə icmasının siyasi hakimiyyət və nüfuzuna qarşı çıxan digər rəqib, hələ Məhəmməd peyğəmbərin sağlığında ona qarşı olan Yəmən xadimi Əbhələ idi. O, daha çox əl-Əsvad ləqəbi ilə tanınmışdı. «əsvad» ərəbcə «qara» mənasını verir. Onu həm də Zul-Ximar –örtük altındakı adam– da adlandırırdılar. O, yerli hənifiliyin nümayəndəsi idi. Onu tez-tez Yəmən Rəhmanı da adlandırırdılar. O, Yəməndə İran hakimlərinə qarşı mübarizəyə başçılaq etmişdi. Əl-Əsvadın İran hakimlərnə qarşı qaldırdığı üsyan 633-cü ilin axırlarına təsadüf edir. Bu dövrdə üsyançılar Nəcran və Samanı tutduqdan sonra Mədinənin buradakı agentləri Mədinəyə və Hadramauta qaçmağa məcbur olmuşdu. Lakin bu hadisədən bir qədər sonra əl-Əsvad İran casusları tərəfindən öldürülsə də Yəmən Mədinə icmasına qarşı mübarizəsini davam etdirirdi.

633-cü ilin payızında xəlifə Kinda nəslindən olan rəhbərin başçılıq etdiyi Hadramaut üsyançılarına qarşı mübarizə aparmaq üçün ordu göndərdi. Bir sıra ağır döyüşlərdən sonra müsəlman ordusu qələbə qazandı, kindilərin başçısı əsir alındı və Mədinəyə gətirildi. Əbu Bəkr onu əhv etməklə yanaşı qızını da ona ərə verdi. Ərəbistanda islam hakimiyyətini bərpa etməklə yanaşı bağlı olan bütün hadisələr ərəblərin öz daxili işləri idi və qonşu böyük dövlətlərin maraqlarına toxunmurdular. İran canişininin Məhəmmədin hakimiyyətini könüllü şəkildə qəbul etməsi ilə Yəmənin islamlaşması prosesi baş verdi. Bu Sasani İranının ağır günlərində 630- cu ilin yazından 631-ci ilin payızına qədər üç şah taxtda bir-birlərini əvəz etmişlər. Sonrakı illərdə isə hakimlərin bir-birlərini əvəz etməsi daha sürətlə getdi. Museylimənin üsyanı yatırıldıqdan sonra yarım ildən bir qədər artıq hakimiyyətdə olan beş şah bir-birin əvəz etdi. Belə şəraidəYəmənin fars canişini və onun

ətrafındakılar imperiyanın müdafiəsinə ümid bağlaya bilməzdilər, çünki Ktesifon Yəmənin hayında deyildi. Ona görə də, Xəlifə Əbu Bəkr burada müsəlman icmasına münasibətdə loyal münasibətin formalaşdırılması istiqamətində konkret addımlar atmaq məcburiyyətində idi ki, islamın yayılmasında arxadan zərbə almasın. Bu nöqteyi-nəzərdən onun 634-cü ilin əvvəllərində Yəmənə göndərmiş olduğu Mədinə qoşunu üsyan və mübarizədən zəifləmiş Yəmənin müqavimətini asanlıqla qıra bildi. Lakin Yəmən bütövlükdə islamı bir din kimi qəbul etməsə də, onun siyasi nüfuzunu qəbul etmək məcburiyyətində qaldı.

Lakin ölkədə daxili sabitliyi bərpa etmədən işğallara başlmaq çətinlik yaradırdı. Çünki bu dövr Ərəbistanda daxili vəziyyətin gərginləşməsi, irəlidə qeyd etdiyimiz kimi, yalançı peyğəmbərlərin meydana çıxması və fəaliyyətləri ilə əlaqədar idi. Onların bəziləri öz fəaliyyətlərinə hələ Məhəmməd peyğəmbərin sağlığında başlamışdı. Müsəlman icmasının fəaliyyətinə qarşı ən güclü müqavimət əl-Yəmamədə göstərilirdi. Burada həmin müqavimət hənifi dini təliminin başçısı Museylimənin rəhbərliyi ilə aparılırdı. O, tək allahlılığı təbliğ edən hənifiliyin ardıcıllarından idi. Məhəmməd peyğəmbər sağlığında onunla səmimi, mehriban münasibətlərdə olmuşdur. Museylimə Mədinəyə gəldiyi vaxt Məhəmməd peyğəmbər onu kifayət qədər mehriban qarşılamış və onu öz əqidə yoldaşlarından biri adlandırmışdı. Öz növbəsində Museylimə də Məhəmməd peyğəmbərə münasibətdə səmimi olmuşdur. Hətta Mədinə qoşunlarının Məkkəyə yürüş etməyə hazırlaşdığı vaxt onlara çox kömək etmişdi. O, öz dini imicindən istifadə edərək, Məkkəyə böyük həcmdə buğda aparacaq karvan yükünü Yəmamədə saxlamışdı. Lakin Mədinənin siyasi nüfuzu gücləndikdən sonra o,Yəmamənin Mədinə icmasına tabe edilməsinin qəti əleyhinə olduğunu bəyan etdi və müsəlman icmasının rəqibi kimi çıxış etməyə başladı.

Museylimənin müttəfiqi kimi «yalançı» qadın peyğəmbər kimi tarixə düşmüş Sacax çıxış edirdi. Bu yalançı peyğəmbərin dini təlimi haqqında məlumat çox azdır. Sacaxın atası Tamim, anası isə Taqlib qəbiləsindən olmuşdur. Anasının hətta xristian olması haqqda mənbələrdə məlumat da vardır. Öz silahlı dəstəsi ilə Mesopotamiyaya gələn Sacax burada Nəcdin qəbilə daxili

çəkişmələrinə qarışmış, lakin onun dəstəsi iki dəfə məğlub olmuşdu. Bu məğlubiyyətlərdən sonra o, Museylimə ilə müttəfiqlik haqda müqavilə bağlamaq istəyirdi.

Yeni xəlifə yalançı peyğəmbərlərə və tabe olmayanlara qarşı «kafirlərlə mübarizə» adı altında bir sıra silahlı yürüş keçirdi və nəticədə, onlar ilk Raşidiyyə xəlifəsinin hakimiyyətinə tabe edildilər. Bu kompaniyada hərbi döyüş aparmaq bacarığına görə Xalid ibn Valid daha çox seçildi. Sonrakı iri həcmli yürüşlərə də Xalid ibn Valid komandanlıq etdi.

Beləliklə, 633-cü il martın əvvəlində Xalid ibn Valid daha təhlükəli düşmən Museylimə ilə mübarizəyə başladı.Yəmamənin şimal-qərb hissəsində (təxminən Səudi Ərəbistanının indiki paytaxtı ər-Riyad şəhərindən 50-60 km şimal-qərbdə) döyüş baş verdi ki, təxminən hər iki tərəfdən 4000 döyüşçü iştirak edirdi. Yalnız günün sonunda müsəlmanlar düşmənin qüvvələrini tabe edə bildilər. Museyliməyə sadiq tərəfdarları isə yaxınlıqdakı böyük bağın divarları arxasında gizləndilər ki, burada da sonuncu qanlı döyüş baş verdi. Museylimənin bütün tərəfdarları və onun özü burada məhv edildilər, lakin müsəlmanlar da böyük itgi verməli oldular. Sonradan bu bağ «ölüm bağı» adlandı. İtgilər Xalidin irəliyə hərəkətinin qarşısını aldı və o Yəmamə camaatı ilə kifayət qədər yumşaq formada sülh bağlamaqla kifayətləndi. Bu mənada, Əbu-Bəkrin Museylimə və Sacaxı hərbi-siyasi cəhətdən 633-cü ildə məğlub etməsi istər Mədinə – Məkkə icmasının, istərsə də xəlifə Əbu-Bəkrin ən böyük uğurlarından biri idi. Beləliklə, Məhəmməd peyğəmbərin ölümündən bir il sonra onun hakimiyyətini tam həcmi ilə bərpa etdi və hətta Sasani mərzbanlarının birbaşa idarəçiliyi altında olan Yəmamə və Bəhreynin bir hissəsi hesabına onu genişləndirdi.

Əbu-Bəkrin islam tarixində yeri xüsusi əhəmiyyət daşıyır. Məhz onun iki illik hakimiyyəti dövründə islam dini Ərəbistnada hakim monoteist dinə çevrilmiş, ərəb qəbilələri vahid əqidə ətrafında birləşmiş və ərəblərin tarix səhnəsinə çıxması üçün hərtərəfli zəmin və şərait yaranmışdı. Əlinin və digər müsəlman icması üzvlərinin birgə səyi nəticəsində Əbu Bəkrin yeritdiyi siyasət ərəb qəbilə və tayfalarının Mədinə–Məkkə icması ətrafında birləşdirilməsini şərtləndirmiş oldu. Bu birləşmə isə ərəb işğalları üçün güclü zəmin

yaratmış oldu. Belə bir vəziyyət iki məsələni eyni vaxtda həll etməyə imkan verirdi: birinci – sosial; ikinci isə – dini-siyasi. Belə ki, bu halda islamın yayılmasında artıq icmanın konkret bir qrupu deyil, bütövlükdə ərəb tayfaları iştirak edəcəkdi. Ona görə də Əbu-Bəkr iki illik hakimiyyəti dövründə bütün vasitələrdən istifadə edərək Ərəbistanda islamın mövqeyinin və nüfuzunun gücləndirilməsi çərçivəsində sabitliyi tam bərqərar etdi. Bu birləşdirmə prosesi xəlifə Ömərin dövründə qəti olaraq başa çatdırıldı.

Ərəbistanın müxtəlif tayfalarını birləşdirən yeganə qüvvə peyğəmbərin ardıcıllarına və onun təliminin doğruluğuna inam idi. Lakin bir çoxları isə inamlarında onun təlimini deyil, hərbi müvəffəqiyyətlərini əsas götürürdülər. Belə bir dövlətin mövcud olacağını və xarici təsirlərə dözəcəyini söyləmək çətinlik törədirdi. Daxili inkişaf nəticəsində tədricən dövlət mexanizminin mürəkkəbləşməsi Ərəbistanın az məskunlaşmış ərazisi üçün problemlər yaradırdı. Böyük müsəlman icma dövlətinin əhali üzərinə qoyulan vergiləri artırmadan yaşaması üçün işğalçılıq yoluna keçmək lazım gəlirdi. İşğallara başlamaq siyasəti xarici təsir və təzyiqlərdən qorunmaq üçün də lazım idi.

Ölkə daxilində bir sıra üsyanları yatırmağa nail olan Əbu Bəkr işğallara başlamağa önəm verdi. İlk yürüş Fars körfəzi sahillərinə başladı. Sasani hakimlərinin hakimiyyətdə bir-birlərini fasiləsiz olaraq əvəz etməsi VII əsrin 30-cu illərində İranı çox zəiflətdi və sülalənin bütün mövcudluğu dövründə səhra sərhədlərinə malik Mesopotamiya üçün ərəblər heç bir təhlükə yaratmırdı. Bir-birilə mübarizə aparan İran feodalları ərəb ordularının siyasi meydana çıxmasına da əhəmiyyət vermədilər. Bundan istifadə edən bədəvilər Ubulladan Xirəyə qədər Mesopotamiyanın sərhəd rayonlarına yürüşlər həyata keçirirdilər. İranın zəifliyi bədəvilərə Fərat çayı yaxınlığında iranlılara təzyiqi artırmağa imkan verirdi. Bir sıra tayfaların rəhbərləri Mədinəyə gələrək islamı qəbul etməklə rəqiblərinə qarşı mövqelərini möhkəmləndirməyə çalışırdılar və hətta farslara qarşı mübarizədə onlara kömək etməyi də xahiş edirdilər.

632-633-cü illərdə III Yezdəgirdin hakimyyətə gəlməsi ilə ölkə daxilində vəziyyət stabitləşsə də, musəlman dəstələri İrandan vassal asılılığında olan Mesopotamiyanın cənub sərhədlərində yerləşən qonşu ölkələrə və Bəhreynə yürüşlər təşkil etməyə başladılar.

Artıq 633-cü ildə Əbu Bəkr Bəkrit tayfasından çıxan sərkərdə Musənnaya böyük ordu toplamağı və daha geniş işğallara başlamağı təklif etdi. Xəlifə Fars yürüşünə isə ali baş komandan Xalid ibn Validi təyin etdi. Yəmaməni zəbt etdikdən sonra Əbu Bəkr Xalidə Hirənin ərəblərini islama tabe etmək məqsədilə oranı tutmağı əmr etdi. İran və ərəb dəstələri ilə bir neçə döyüşdən sonra Xalid Hirəyə gəlib çatdı və əhalisi cizyə verməyə razı olduqlarını bildirdilər. İlk hərbi döyüşlər farslarla birlikdə tez-tez müsəlman ordularına qarşı çıxan ərəb-xristianlarının məskunlaşdığı Fərat çayının sağ sahilindən başladı. 633-cü ilin yayında çayla səhra arasındakı ərazi xəlifə orldularının əlində idi və beləliklə Xalid Fərat yaxınlığında bütün səhralar üzərində nəzarətini yarada bildi. Lakin buna baxmayaraq, 634-cü ilin əvvəlində onlar Fəratın sağ sahilini keçə bildilər.

Xəlifə Əbu-Bəkr, ilk növbədə, peyğəmbərin vəfatından sonra yaranmış qüvvələr nisbətini nəzərə alırdı. Hələ özünün sağlığında qəbilələrarası münasibətlərin tənzimlənməsinə dair konkret bir mexanizm müəyyən etməyən Məhəmməd peyğəmbərdən sonra Əbu-Bəkr üçün belə bir mexanizmi qısa bir dövr ərzində formalaşdırmaq və həyata keçirmək çox çətin idi. Buna görə də onun əsaslandığı yeganə mənbə Quran və peyğəmbərin öz sağlığında söylədiyi hədislər idi. Lakin burada da müəyyən problem və çətinliklər mövcud idi. Belə ki, Qurani Kərimin hamı tərəfindən tam qəbul olunmuş vahid bir forması yox idi. Quranın tərtibinə Əbu Bəkrin dövründə başlanmş, Ömərin dövründə davam etdirilmiş, xəlifə Osmanın dövründə isə tam şəkildə ərsəyə gətirilmişdir.

Bununla belə, Əbu-Bəkr Quranın tam mətnini hamının istifadə edə biləcək bütöv bir kitab halına sala bilməsə də o, peyğəmbərin dövründə hamıya məlum olan konkret Quran ayələrindən çıxış edərək mövcud vəziyyətdə müsəlmanların bu və ya digər problemlərini həll edirdi. Bu mənada xəlifə Əbu-Bəkr daxili siyasətdə öz siyasətinin ağırlığını müsəlmanlar arasındakı sosial-ictimai münasibətlərə və onların iqtisadi problemlərinin həllində başlıca yer tutan ticarətin üzərinə salırdı.

634-cü ilin əvvəlində Əbu Bəkr bir neçə min əsgəri Bizans mülkləri olan ərəb torpaqlarını tabe etmək üçün göndərdi. Suriya cəbhəsinə təyin edilmiş sərkərdənin kifayət qədər hərbi bacarığı olmadığından 634-cü ilin mayında Xalid ibn Valid fars yürüşündən geri

çağırıldı və 3 min atlı ilə Suriyaya göndərildi. Əbu Bəkr Xalid ibn Validi Suriya ordusunun komandanı təyin etdi. Xalid gözlənilməz yürüş etdi və susuz səhradan sıçrayaraq bir neçə yüz əsgərlə Buera yaxınlığında döyüşə hazır vəziyyətdə meydana çıxdı. Geniş ərazidə səpələnmiş dağınıq müsəlman dəstələrinə qarşı bizanslılar böyük qüvvə göndərmişdi, lakin Xalid müsəlman dəstələrini birləşdirə bildi və 634-cü il iyulun 30-da Əcnəd yaxınlığında bizanslıları ciddi məğlubiyyətə uğratdı. 634-cü il avqustun 9-da üzücü xəstəlikdən vəfat edən Əbu Bəkr qələbə xəbərini eşitmədi. Lakin buna baxmayaraq o, Ömər ibn əl-Xəttabı özünün sələfi təyin etdi, lakin bu təyinat Məhəmməd peyğəmbərin yaxın tərəfdarlarının dar dairəsində qəbul olundu.

*Xilafət Ömərin hakimiyyəti illərində*

634-cü ildə Ömər hakimiyyətə gəldi. Ömərin 634-cü ilin avqustundan 644-cü ilin noyabrınadək xəlifəliyi müddətində islam dini Ərəbistan yarımadasının sərhədlərindən çox-çox kənara çıxmış, Fələstin, Suriya, Kiçik Asiya, Qafqaz, İran, hətta Türküstan və Çinə qədər yayılmışdı. Ömərin dövründə Misir və bütövlükdə Şimali Afrika qitəsində də islam qəbul edilmişdi. Dövlət mülkiyyəti-Beytul-mal, daimi ordu, pul vahidi, təhsil sistemi və sairə Ömərin xə-lifəliyi illərində yaradılmışdı. Onun vaxtında ilk dəfə olaraq müsəlman təqvimi tərtib edilmiş, peyğəmbərin Məkkədən Mədinəyə köçməsi ili (622-ci il) hicri təqviminin birinci ili hesab edilmişdi. Maraqlıdır ki, peyğəmbərin anadan olduğu il müsəlman təqviminin başlanğıc ili kimi qəbul edilməmişdir. Görünür xəlifə Məhəmməd peyğəmbərin müvəffəqiyyətlərinin açarı, yəni müsəlman dövlətinin yaranması Məhəmməd peyğəmbərin Mədinəyə köçməsi ilə bağlı olduğundan həmin tarixi ilə önəm vermişdir. Ömərin əmri ilə mülki və hərbi vəzifələrdə qulluq edənlərə maaş təyin edilmiş və onlara əlavə olaraq beytul-maldan aylıq əmək haqqı da verilmişdir. Hər bir hərbçi xəlifənin maaşı qədər maaş alırdı. Xidmət vaxtı ölən hərbçinin ailəsinə həmin maaş miqdarında təqaüd ayrılırdı.

Ömərin hakimiyyəti illərində Ərəbistan yarımadasındakı qəbilə və tayfaların birləşdirilməsi istiqamətində Əbu-Bəkrin başlamış olduğu siyasət davam etdirilərək sona çatdırıldı. İraq, Suriya, Misir və Kirenaika xəlifə Ömərin hakimiyyəti illərində müsəlmanların tam hakimiyyəti altına keçdi. Özündə işğalçı və hakim xüsusiyyətlərini birləşdirən Ömər yerli şərait və vəziyyəti ələ almaq, onu idarə etmək bacarığı ilə seçilmişdir. Belə ki, islam dinini

özündən yaratmış olduğu hədislər hesabına təbliğ olunmasını təşkil edə bilmiş və bu hədislərində heç bir müqavimətə rast gəlməmişdir. Ömər xəlifəliyi dövründə daim hakimiyyətə gəlmək istəyən Əməvilərin bütün cəhdlərinin qarşısını ala bilmişdi. O, öz hakimiyyəti illərində siyasətinin ağırlığını əsasən ərəb işğallarınını üzərinə salmışdı. Suriya uğrunda mübarizə Ömərin vaxtında da davam etdirilirdi.

Xəlifə Ömər Suriyanın işğalına böyük önəm verirdi. Onun göstərişi ilə müsəlman orduları öz hücumlarını artırdılar, əsas qüvvələr isə Dəməşqə yaxınlaşdılar və onu mühasirəyə aldlar. 635-ci ilin sentyabrında yarım illik mühasirədən sonra Dəməşqin əhalisi şəhəri təslim etdilər. 3 sentyabr 635-ci ildə bağlanan müqaviləyə görə həyatlarının təhlükəsizliyinə təminat verilirdi, cizyə-can vergisi ödəyəcəkləri təqdirdə əmlakları və kilsələri də qorunacaqdı, lakin bununla yanaşı, müsəlmanların dümənlərinə kömək etməməyi də öhdələrinə götürməli idilər. Ərəblər növbəti yürüşləri üçün hazırlığa başladılar, əhali yaşayan məntəqələrdə öz qarnizonlarını yerləşdirdilər, yeni müdafiə sədləri tikdilər. 635-ci ildə ilk dəfə Bəsrə qalası tikildi ki, burada da 800 əsgərdən ibarət qarnizon yerləşdirildi.

Müsəlmanların müvəffəqiyyəti imperator İraklini ciddi narahat edirdi. Ərəb müdaxiləsinin böyük işğala çevrilməsini anlayan Bizans hərbi rəhbərliyi imperator İrakli başda olmaqla Şimali Suriyaya iri hərbi qüvvə cəmləşdirdi. Ordunun tərkibinə yunanlardan başqa suriyalılar, mesopotamiyalılar və ermənilərin dəstələri də daxil idi. Ordunun sayı ərəb tarixçilərinin verdiyi məlumata görə 200 minə, ərəblərin dəstələrində olan döyüşçülərin sayı isə 24 minə çatırdı. Ərəblər bizanslılar yaxınlaşdıqca Dəməşq, Emessi (Ximsi) və bir sra şəhərləri tərk edib Yarmuk çayına (hal-hazırda Suriya ilə Urdun arasında sərhəddir) qədər geri çəkildilər. 20 avqust 636-cı ildə ərəb və Bizans orduları arasında həlledici döyüş baş verdi. Yarmukda iki ay ərzində qüvvələr nisbətində dəyişiklik baş verdi. Müsəlmanlar döyüşü açıq yerdə aparmaq istəyirdiəlr. Döyüş üç gün, 636-cı il avqustun 20-23 civarında davam etdi, nəhayət ərəb atlıları bizanslıların qüvvələri üzərində qələbə çala bildi. Bizanslılar 70 min nəfər itirdi. Bu döyüş Suriya və Fələstinin taleyini həll etdi, bundan sonra bizanslılar heç bir əhəmiyyətli döyüş apara bilmədilər, ərəblərə qarşı yalnız yerli qarnizonlar və əyalət orduları dururdu. Döyüşün qələbə ilə nəticələnməsinə bu fakt da təsir

etdi ki, yunan və erməni hissələri arasında silahlı münaqişələr olmuş, Suriya ərəbləri isə döyüş zamanı ərəblərin tərəfinə keçmişdir.

Suriyanın işğalını asanlaşdıran başlıca foktorlardan biri də bu idi ki, Bizans və İran arasında gedən mübarizə əsasən Suriya ərazisində aparılırdı ki, bundan da yerli əhali artıq yorulmuşdu. 634-636-cı illərdə gedən müharibədə tərəflərdən heç biri böyük üstünlük əldə edə bilməmişdi. Lakin Yarmuk yaxınlığındakı döyüşdə bizanslılar ağır məğlubiyyətə uğradıqdan sonra onlar Suriyanı əbədi olaraq itirdilər. Suriyanın bəzi şəhərləri ərəblərə müqafimət göstərsə də 640-cı ildə sonuncu Suriya şəhəri təslim olduğunu elan etdi. Bu hadisədən sonra ərəblər Suriyanını tam sahibi olmuşdur.

Yarmuk ətrafındakı qələbə qədim Ləhmilər dövlətinin işğalı üçün yol açmış oldu. Bu dövlət İran ərazisində yerləşirdi. Ləhmilərin işğalına başlamaqla ərəblər, faktiki olaraq, İranın işğalına başlamış oldular. Burada da ərəblərin işğalını asanlaşdıran əsas amil bu dövlətin daxilində olan ziddiyyət, çəkişmə və qarşıdurma oldu. Ləhmilər dövləti Sasani sülalələrinin buradakı dini və siyasi çəkişmələri məngənəsində boğulurdu. Digər tərəfdən ,o, həm Bizans, həm Qafqazın Xəzər, həm də Baktriyadan olan türk tayfalarının mütəmadi hücumlarına məruz qalırdı. Ona görə də, xəlifə Ömər hərbi yürüşün uğurla davam etdirilməsi üçün qoşun komandanlarına yerlərdə yaranmış dini siyasi vəziyyətdən məharətlə istifadə etməyə göstəriş vermişdi.

638-ci ildə xəlifə Ömər Suriyanın idarə edilməsini Əməvilər sülaləsindən olan Əbu Süfyanın oğlu Müaviyəyə tapşırdı. Suriyaya hakim təyin edilməsi Müaviyənin həm şəxsi karyerasının, həm də Əməvilər sülaləsinin siyasi hakimiyyətinin başlanğıcı idi. Müaviyənin Suriya hakimi təyin edilməsi ilə müsəlman icmasında narazılıqlar özünü büruzə verməyə başladı. Bu narazılığın əsas mahiyyəti ondan ibarət idi ki, qüreyşilərdə güclü nüfuza malik Əməvilər sülaləsi bir sıra tarixçilərin verdiyi məlumatlara əsasən islamı həqiqətən qəbul etməmiş və onların islamı qəbul etməsi sırf siyasi xarakter daşımışdır.

Müaviyə Suriyada hakimiyyətə gəldikdən sonra xəlifə Ömərə etdiyi ilk təklif donanma yaradılması oldu. Lakin xəlifə Ömər Müaviyənin bu təklifini qəbul etmədi və hakimiyyətinin sonuna qədər də Muaviyəyə Suriyada donanma yaratmağa razılıq vermədi. Müaviyə öz təklifini yalnız xəlifə Osmanın dövründə həyata keçirə

bildi. Müaviyənin yaratdığı donanma Egey dənizində uzun müddət bizanslılara rahatlıq vermədi.

639-cu ilin sonu üçün Suriya ordusunun baş komandanı Əmr ibn əl-As idi. O, Fələstində olarkən ərəb ordusunun başında Misir ərazisinə yürüş etdi. Onun ixtiyarında 4minə qədər əsgər var idi. Ərəblər bu dövr Misirdə mövcud olan qarışıqlıqdan istifadə etmək qərarına gəlmişdilər. Misirdə dini mübarizə özünün kulminasiya nöqtəsinə çatmışdı. Sasanilərin və Bizans hakimlərinin burada yeritdikləri dini siyasət nəticə etibarilə ölkədə tam itaətsizliyə gətirib çıxarmışdı. 640-cı ilin yanvarı Əmr ibn əl-As Fərama şəhərini tutaraq, Nil sahilinə çıxdı. Tutduğu mövqe onu yeni-yeni qələbələr qazanmağa sövq etdi. Belə ki, Pelusiumu tutan Əmr Heliopolis yaxınlığında növbəti qələbəni qazanaraq Babil qalasına (köhnə Qahirəyə) yol açmış oldu. Bununla da, Nilin mənsəbi ərəblərin hakimiyyəti altına düşdü. Bundan sonra ərəb ordusu Misirin paytaxtı İskəndəriyyəyə doğru hərəkət etdi.

Sasani əraziləri uğrunda qızğın döyüşlər ilə paralel Misir uğrunda mübarizə davam edirdi. Bizanslılar Əmr ibn əl-Asın ordusunun qarşısını kəsməyə çalışırdılar. Sonuncu döyüş İskəndəriyyənin yaxınlığında 10 gün davam etdi, ərəblər ağır itgi verdlilər. İskəndəriyyənin özündə isə şəhərin müxtəlif qrupları arasında gərgin mübarizə gedirdi, kopti-monofizitlərin rəsmi Bizans kilsəsi tərəfindən təqib edilməsi daha da güclənmişdi. Vəziyyət o qədər ağırlaşmışdı ki, ərəb tarixçiləri tərəfindən əl-Mukaukis adlandırılan İskəndəriyyə patriarxı Kir şəhərin ərəblərə təhvil verilməsi haqqında danışıqlar aparmaq üçün özü Babilyunda əl-Asın yanına gəldi. 8 noyabr 641-ci ildə 13 min dinar bac ödəmək müqabilində kilsələrin toxunulmazlığına təminat almaqla, İskəndəriyyəni təhvil vermək haqqında müqavilə imzalandı. Getmək istəyənlər üçün heç bir maneçilik yox idi. Bacı aldıqdan sonra ərəblər şəhəri tərk etdilər. İskəndəriyyə ilə müqavilə imzalanması Misirin digər şəhərlərini də analoji müqavilə bağlamağa sövq etdi. Bir ildən sonra İskəndəriyyə ilə bağlanan müqavilənin müddəti bitdi və ərəblər şəhərə daxil oldular. Uğursuz müqavimətdən sonra 642-ci ildə İskəndəriyyə da süqut etdi. Bununla da, Misirin istilası başa çatdı. əl-As İskəndəriyyədə qalmadı, lakin Babilyun yaxınlığındakı düşərgədə Fustat adını alan yeni şəhərin əsasını qoydu. Bu yeni şəhərdə əhalinin əksəriyyətini buraya köçmüş ərəblər təşkil edirdi. Dörd il

sonra 646-cı ildə bizanslılar qəfildən, gözlənilmədən İskəndəriyyəyə qoşun çıxarsalar da ərəblər ikinci dəfə bu şəhəri ələ keçirdilər. Bununla da, Misir qəti olaraq ərəblər tərəfindən işğal olundu. Əmr ibn əl-As, eyni zamanda, Kirenaikanı da işğal etdi. Misirə soxulduqdan yalnız il yarım Əmr mübahisəsiz olaraq, Nilin sağ sahilinə-Ansinadan əl-Farama, Fəyyum rayonuna və Deltanın lap yuxarı hissəsinə nəzarət edə bildi. İskəndəriyyənin müdafiəsini təşkil etdikdən sonra onlar yollarına davam etməyi qərara aldılar.

Suriya yürüşü ilə, eyni zamanda, Sasani dövlətinə qarşı hərbi yürüşlər də davam edirdi. Xalidin yürüşü zamanı Sasani dövlətini azyaşlı III Yezdəgirdin adından idarə edən Sasani sərkərdəsi Rüstəm Kuss ən-Nəif yaxınlığında Musənna ordusunu ağır məğlubiyyətə uğratdı. Lakin ərəblər mühasirədən çıxaraq, Fəratın o biri sahilinə çəkildilər. Ərəblər 635-ci ildə hərbi kömək alaraq, Buveybə yaxınlığındakı döyüşdə farsları əzdilər.

Rüstəm yeni döyüşlərə ciddi hazırlıq görərək, Sasani dövlətinin bütün vialyətlərindən qoşun toplamağa başladı. Bu qoşunun tərkibində azərbaycanlı döyüşçülər də iştirak edirdi. Rüstəm bütün qüdrətli əyanlara, o cümlədən qardaşı mərzban Binduvana müraciət edərək, qalalarda qayda-qanun yaratmağı və düşməni dəf etmək üçün birləşməyi tapşırdı. Rüstəmin komandanlığı altında İran ordusunun əsas qüvvələri Kusə, Burə, Deyr əl-Avarı keçdilər və sonra Fəratın sol sahili boyunca Xavarnakara qədər gəldilər.

Sasani qoşunu 636-cı ilin payızında Hirə yaxınlığındakı Kadisiyyə məntəqəsi ətrafında düşərgə saldı. Onlardan bir az aralıda isə sərkərdə Səad ibn Əbu Vəqqasın komandanlığı altında ərəb qoşunu yerləşmişdi. Kadisiyyə yaxınlığındakı döyüşdə «Rustəmin qüdrətli ordusu» adlanan Sasani dövlətinin birləşmiş əsas qüvvələri çıxış edirdi. Müsəlmanlar isə döyüş meydanında ordunun üçdə bir hissəsini itirdilər, özlərini müəyyən qədər səfərbər edərək heç bir müqavimətə rast gəlmədən Mesopotamiyanın içərilərinə doğru hərəkət etdilər. Nə farsların say üstünlüyü, nə də döyüşkən fillər ərəblərin hücumunun qarşısını ala bilmədi. Həmin ilin sonunda Kadisiyyə yaxınlığında Hirənin cənubunda müsəlmanlara qarşı 4 min əsgər və 30 döyüşkən fil çıxarılmasına baxmayaraq, Səad ibn Əbu Vəqqas sasanilər üzərində qəti qələbə çaldı. Sasani orldusunun tərkibində Albaniya hökmdarı Varaz Qriqorun oğlu Cavanşir də öz dəstəsi ilə döyüşürdü. Ərəblər Suriyadan təzə hərbi kömək alaraq,

Sasani qoşununu əzdilər. Rüstəm döyüşdə məğlub oldu. İranın dövlət bayrağı ərəblərin əlinə keçdi.

Kadisiyyə yaxınlığındakı məğlubiyyət xəbərini alan III Yezdəgird saray adamları ilə birlikdə Ktesifonu tərk edərək Zaqros dağlarındakı Hilvana qaçdı. 637-ci ilin yayında boş qalmış paytaxt ərəblərin əlinə keçdi. Şəhər qarət olunaraq dağıdıldı və bir daha dirçəlmədi. Əhalisinin bir hissəsi öldürüldü, bir hissəsi isə qul halına salındı. Mart ayında paytaxt Ktesifon (əl-Mədain) tutulduqdan sonra ərəblər dekabrın sonları üçün Mesopotamiyanın şimalında dağlıq hissəyə gəlib çıxdılar.

Beləliklə, işğallar nəticəsində ərəblər üç zəngin ölkəni - Mesopotamiya, Suriya- Fələstini və Misiri öz hakimiyyətləri altında birləşdirə bildilər. Ərəbistana axıb gələn gəlir və bac-xərac onun əhalisinin təsəvvürlərini ötüb keçmişdi, lakin axan bu var dövlət ciblərə axırdı, xəzinəyə isə müqayisədə çox az vəsait daxil olurdu. Artıq bir çoxları gəlir və bac-xəracı deyil, işğal olunmuş torpaqları və onu becərən kəndliləri ilə birlikdə bölüşdürməyi tələb edirdilər. Belə bir vəziyyət icmanın əvvəlki nizamanaməsinə uyğun gəlmirdi. Xəlifə Ömər bu ziddiyyəti aydınlaşdırmaq və yürüşün gedişini izləmək məqsədilə Dəməşqin cənubunda qış düşərgəsində yerləşən Suriya ordusnun yanına getdi. Mühasirədə olan Qüds əhalisi Ömərin gəldiyini eşidərək, məhz xəlifənin özü ilə müqavilə bağlayacaqları təqdirdə təslim olacaqlarını bəyan etdilər. 638-ci ilin əvvəlində müqavilə bağlandı. Qüdsün işğal edilməsi ərəblərin həm də mənəvi qələbəsi idi. Onlar üç dini özündə birləşdirən müqəddəs şəhərin sahibinə çevrildilər. Şəraitlə yerindəcə tanış olan Ömər qərar qəbul etdi: bütün kafirlərin torpaqları müsəlmanların kollektiv mülkiyyətinə (fay) çevriləcək və vergi isə xəlifənin ixtiyarına keçəcəkdir. Əsgərlər və hərbi xidmətdə olan bütün müsəlmanlar yüksək məvacib və pay alacaqlar. Sıravi əsgərlər 300-dən 400 dirhəmə qədər pul alırdılar (Müqayisə üçün qeyd edək ki, qoyun 5-10 dirhəmə, inək isə 30-40 dirhəmə idi). Əsgərləri qeydə almaq və onların məvacibini təyin etmək üçün reyestr-divan təsis edildi. Bu və digər qanunlar, nəhayət, həddindən artıq böyümüş dini cəmiyyəti həqiqi dövlətə çevirdi.

Hərbi-inzibati islahatda digər addım torpaq vergisi-xəracın vaxtlı-vaxtında alınması üçün Mesopotamiyada torpaq kadastrının yoxlanması oldu. Müxtəlif növ vergilər Sasanilər dövründəki kimi

müəyyən olundu. Suriya və Fələstində yerli hakimlər müqaviləyə uyğun olaraq vergiləri toplayırdlar. 15 yaşından etibarən müsəlman olmayan kişilər vəziyyətdən asılı olaraq, 12, 24 və ya 48 dirhəm pul ödəməli idilər.

Kadisiyyə yaxınlığındakı ilk qələbə Xaldey və Assuriyanın ərəblərin hakimiyyəti altına keçməsinə imkan verdi. Lakin ərəblər bu qələbə ilə kifayətlənmədilər. Onlar yürüşlərini davam etdirərək, artıq İranın özünün tarixi ərazilərinə soxuldular. Şərqdə Dəclənin və Fəratın yaxınlığında ərəb müsəlmanlarının əsasını qoymuş olduğu Bəsrə şəhərindən Cənub-Qərbi İrana yürüşə başladılar. 642-ci ilin yazında Ktesifondan İrana gedən əsas yolda Nəhavənd yaxınlığında Sasani şahənşahı III Yezdəgirdin ordusunu darmadağın etdilər və Qərbi İrana doğru hərəkət etdilər. Bundan sonra, İranın tam işğalı zamanın öhdəsinə buraxılmışdı. Onu da qeyd edək ki, Nəhavənd ətrafındakı döyüşlərlə, eyni zamanda ərəb qoşunları Mosulu tutaraq, indiki Ermənistn ərazisinə soxuldular və onun paytaxtını yerlə-yeksan etdilər.

Sasanilərin imperiyası o qədər zəifləmişdi ki, ərəblər bu sülalənin hakimiyətini ciddi qəbul etmirdilər. III Yezdəgird məğlubiyyətdən sonra öz xəzinəsini götürüb ölkəni tərk etmək qərarına gəldi. Lakin ərəb ordusunun komandanı əl-Əxnaf bundan xəbər tutdu və onun var-dövləti aparmasına imkan vermədi. Ərəblərin İranda hakimiyyət ağalığına başlaması farslar üçün ağır olsa da, onlar dövlətçilik ənənələrinə malik olmayan ərəblərin hakimiyyəti altında öz mədəniyyətlərini uğurla müdafiə edə bildilər. Bununla bərabər, onlar ərəb işğallarından öz məqsədləri üçün də istifadə etməyi unutmadılar. İslam dininin hərtərəfli üstünlüyünü görən farslar VII əsrin ikinci yarısından etibarən tədricən islamı qəbul etməyə başladılar ki, bu da məqsədli xarakter daşıyırdı.

Müvəffəqiyyətlərin belə qaynar vaxtında xəlifə Ömər qulun şikayətinə müsbət cavab vermədiyindən onun əli ilə 644-cü ildə öldürüldü. Lakin ölümqabağı Məhəmməd peyğəmbərin yaxın tərəfdarlarından Şura təyin edə bildi ki, onlar öz içərilərindən yeni xəlifə seçə bilsin. İki namizəddən-Əli ibn Əbu-Talib və Osman ibn Əffan-idi. Lakin ikinci namizəd seçildi.

*Xilafət Osman hakimiyyəti illərində*

Məhəmməd peyğəmbərin kürəkəni Əli birinci namizəd kimi qəbul olunmadı. Buna səbəb Əlinin barışmazlığı, prinsipial-

lığı və tam düzgünlüyü idi. Əli Məhəmməd peyğəmbərin dövründə olmuş islamı bərpa etmək istəyir, peyğəmbərin vəfatından sonra baş vermiş dəyişikliklər və yenilikləri qəbul etmirdi. Bu isə istər xəlifə Əbu-Bəkrin, istərsə də xəlifə Ömərin əsasını qoymuş olduqları siyasi kursun əleyhinə idi. Ona görə də, Əlinin mövqeyi ümumən müsəlman icmasının siyasəti ilə üst-üstə düşmürdü. Ona görə də, xəlifə Ömərin təklif etdiyi altı nəfər belə qərara gəldi ki, yeni xəlifə yenə peyğəmbərin kürəkəni və Əməvilər nəslindən olan Osman seçilsin. Osman peyğəmbərin iki qızı ilə-əvvəl Ruqiyyə ilə, o vəfat etdikdə isə peyğəmbərin digər qızı Umm Gülsümlə evlənmişdi. Osman qoca idi, 70 yaşını adlamışdı. Özü də həm xəstə, həm də xasiyyətcə laqeyid adam idi. Ömərdən fərqli olaraq, yumşaq təbiətli olduğundan hər şeyə güzəştə gedirdi. Ancaq Allaha və Peyğəmbərə sidqi-ürəkdən iman gətirirdi. Əməvilərdən idi.

Osmanın zəif xarakterindən Əməvilər istifadə edərək, onun yanında hörmət qazanmağa çalışdılar. Nəticədə, bir neçə ildən sonra istər Mədinədə, istərsə də ətraf əyalət və şəhərlərdə əsas vəzifələr onların əlinə keçdi. Beytul-mal dağıdıldı. Xilafətdə var-dövlətə, eyş-işrətə meyl artdı, xərclər çoxaldı. Hərbi döyüş zamanı əldə edilmiş qənimət düzgün bölüşdürülmədi. Əbu Bəkrin və Ömərin bu məsələdə tutduğu təmiz yol pozuldu. Doğrudur, Osmanın vaxtında islam dövləti öz sərhədlərini daha da genişləndirdi. İranın şimalı, indiki Ermənistan ərazisi, Krit adası və sairə yerlərdə islam dini yayıldı.

Osman Əlidən çox yaşlı idi, hərbi və siyasi cəhətdən enerjili deyildi və xəlifə Ömərin başladığı işləri davam etdirməyə müqabil olan bir namizəd kimi qəbul olunmurdu. Bununla belə, Osmanın xəlifəliyə namizədliyi də müsəlman icmasının ümumi müzakirəsinə çıxarıldı və icmanın səs çoxluğu hesabına islamın üçüncü xəlifəsi seçildi. Osmanın Əməvilər sülaləsindən ikinci adam olaraq, xəlifəlikdə böyük bir vəzifəyə təyin edilməsi digər tayfalarda ümumi narazılığın yaranmasına səbəb oldu. Bu tayfalar sırasında Taqlif, Tammim, Muzeyna, Xuzeyna, Nəhər, Asad və digər tayfalar var idi. Müsəlman icmasının idarə olunmasında qureyşilərin öz nüfuz və mövqelərindən istifadə edərək, ön plana çıxması hərnin tayfalarda yeni qruplaşmanın yaranmasına təkan vermiş oldu. Yeni yaranan bu qruplaşma müsəlman icmasının yeritmiş olduğu siyasətdə hər hansı bir neqativ hadisədən istifadə etməyi qarşısına məqsəd qoymuşdu. Bu özünü Əlinin xəlifə seçilməsində büruzə vermiş oldu.

Xəlifə Ömərin islamın yayılmasına və ərəb işğallarına verdiyi təkan o qədər güclü idi ki, bu xəlifə Osmanın dövründə istər-istəməz davam edirdi. Osmanın vaxtında ərəb işğalları daha uzaqlara şərq və qərb istiqamətində uzandı. 652-ci ildə Sasani imperiyasının qalan əraziləri də işğal edildi. Ərəblər isə Əmu Dərya sahilinə çıxdılar, Cənubi Qafqazda isə Dərbənd şəhər qalasını tutdular. Qərbdə isə Afrika əyalətlərinin paytaxtı Karfagenə qədər irəlilədilər. İşğal olunmuş ərazilərdə ərəblər mövcud olan mülkiyyət formalarına toxunmadılar.

Lakin hərbi müvəffəqiyyətlərə baxmayaraq, müsəlman dövlətinin daxili vəziyyəti möhkəm deyildi. Ərəbistan hüdudlarından kənarda iri ərəb koloniyalarının separatizm meylləri artdı. Bu zaman Ərəbistan və Mədinə islamın hərbi qüvvələrinin mənbəyi deyildi, əsas hərbi kontingent İraqın qarnizon şəhərləri–Kufə və Bəsrədə, Misir Fustatında toplanmışdı. Real qüvvələr də bu əyalətlərin canişinlərinin əlində cəmlənmişdi. Çox çətinliklə yatırılan üsyanlar baş verirdi. Osman öz adamlarından canişinlər təyin edirdi. Onun adamları çox zənginləşdi. Bu isə böhran vəziyyəti yaratdı.

Ərəb işğallarının həyata keçirilməsi üçün xəlifənin xüsusi əmri və yaxud göstərişi lazım deyildi. Ərəb qoşunlarının başında duran hərbi komandanlar bu işğalları özləri həyata keçirirdilər. Bunun nəticəsi idi ki, hərbi yürüşlər Ön Asiyada, Egey dənizinin adalarında, İranda və Şimal Afrikada davam etdrilirdi. Lakin Osmanın dövründə aparılan hərbi yürüşlər xəlifə Ömərin dövründə aparılan hərbi işğallardan özünün sistemsizliyi və əlaqəsizliyi ilə fərqlənirdi. Belə ki, getdikcə ərəb qoşunları islamın hərbi, dini və siyasi mərkəzindən uzaqlaşır və mərkəzi hakimiyyətlə əlaqə zəifləyirdi. Digər tərəfdən, uzun müddət öz təkamül proseslərində köçəri həyat tərzi sürən ərəblər işğal etdikləri ərazilərdə mövcud olan inkişaf etmiş mədəniyyətlə birbaşa təmas məcburiyyətində qalırdılar ki, bu da onların yerli əhali tərəfindən assimilyasiyasına şərait yaradırdı.

İşğal olunmuş xalqlar islamı əqidə kimi deyil, bir çox hallarda vergi ödəməmək və ya az vergi ödəmək üçün qəbul edirdilər. Nəticədə, islamı qəbul edənlərin sayı artsa da, bunlar sağlam əqidəli həqiqi müsəlman və möminlər deyildilər. Bu isə xəlifə Osmanın hakimiyyəti dövründə formalaşan ən təhlükəli tendensiyalardan biri idi. Çünki islamın bu sürətlə genişlənməsi və

digər xalqlar arasında yayılması, onun yerlərdə mövqeyinin möhkəmləndirilməsini istər-istəməz ön plana çıxarırdı. Digər tərəfdən, fəth olunmuş ərazilərdə islamı qəbul etmiş xalqlar arasında islamın gec-tez məğlub olacağına olan inam özünə yer almışdı. Bu faktoru başa düşən müsəlman icması islamın yayılmış olduğu ərazilərdə onun mövqelərinin möhkəmləndirilməsinə diqqəti artırmağı qərara aldı. Qərarın verilməsinə səbəb həm də ərəblərin bu ölkələrdə cah-cəlala meyl etmələri idi. Bütün bunlar tədricən maliyyə məsələlərində çətinliyin yaranmasına gətirib çıxarırdı. Öz qohum-əqrabasına torpaq paylamaqla məşğul olan xəlifə Osman isə belə bir vəziyyəti sağlam məcraya salmaq iqtidarında deyildi. Nəticədə, əyalətlərdə iğtişaşlar və siyasi çəkişmələr baş qaldırır, dini ayrı-seçkilik getdikcə daha kəskin şəkildə özünü büruzə verirdi. Belə bir vəziyyətdə istər daxildə, istərsə də işğal olunmuş ərazilərdə qayda-qanunun bərqərar edilməsi üçün xəlifə Osman hələ Əbu-Bəkrin dövründə birinci vəzifə kimi qarşıda duran məsələni – Qurani Kərimin hamı tərəfindən qəbul olunacaq mətninin kitab şəklində formalaşdırılması işini başa çatdırmağı məqsədəuyğun hesab edirdi. Çünki Əbu-Bəkrdən fərqli olaraq, xəlifə Osman Quranın ayələrindən müvafiq şəkildə istifadə edə bilmirdi. Ona görə də, bütün üləmalar üçün eyni mətndə olan Quranın əsas götürülməsi yerlərdə sabitliyin bərqərar edilməsində başlıca mexanizm kimi qəbul olunurdu. Xəlifə Osmanın yerlərdə sabitliyi bərqərar etmək istiqamətində yeritdiyi siyasət müəyyən dərəcədə öz bəhrəsini versə də, bununla bəzi sosial qruplar barışmırdı. Xəlifə Osmanın siyasətindən narazı olan bu sosial qruplar Əlinin hakimiyyətə gəlməsini təkid edirdilər. Əlinin xəlifə olmasını, ilk növbədə, Misir müsəlmanları tələb edirdi. Burada, hətta islamı qəbul etmiş yəmənli bir yəhudi Əlinin qəti tərəfdarı kimi yeni bir dini təlimin əsasını da qoymuşdu. Bu təlim müsəlmanlar tərəfindən qəbul olunmasa da, xəlifə Osmanın siyasətindən narazılığın təcəssümü idi. Digər tərəfdən, xəlifə Osmanın hakimiyyəti dövründə Ərəbistanda islamı qəbul etmiş qəbilələr arasında yeni bir tendensiya özünü büruzə verməkdə idi. Bu da xəlifə Osmanın öz dövründə yığmış olduğu var-dövlətlə əlaqədar idi.

Musəlman icması belə hesab edirdi ki, xəzinəyə daxil olan bütün gəlirlər onun natural və yaxud pul şəklində olmasından asılı olmayaraq, peyğəmbərin və Əbu-Bəkrin dövründə olduğu kimi, ilk növbədə imkansız müsəlman ailələri arasında bölüşdürülməli, ondan

sonra isə icmanın ümumi ehtiyaclarına sərf olunmalı idi. Xəlifə Osmanın belə əmlak bərabərsizliyi yaratması siyasətinə qarşı çıxanlardan birincisi Əbu Zərr əl-Gifari oldu. İşğallar dövründə peyğəmbərin bu qoca silahdaşı Suriyaya yollandı. Burada o, açıq şəkildə vali və hərbi rəislərin gəlirləri, o cümlədən vergiləri mənimsəməsinə qarşı çıxış etdi. O, Allaha məxsus olan əmlakın bütün müsəlmanlar arasında bərabər bölüşdürülməsini tələb etdi. Müaviyə xəlifə Osmandan xahiş etdi ki, bu təhlükəli təbliğatçını təcili olaraq, Suriyadan uzaqlaşdırsın. Çünki o, getdikcə ətrafına daha çox tərəfdar toplayırdı. Xəlifə Osman tərəfindən geri çağırılan Əbu Zərr Mədinədə yerləşdirildi. Lakin o, burada da xəlifənin siyasətinə qarşı kəskin çıxışlar etdi. Buna səbəb xəlifə Osmanın öz qohumu olan Mərvan İbn əl-Hakamı və onun qardaşı əl-Xaris ibn əl-Hakamı müsəlman xəzinəsindən 300 min dirhəm olmaqla mükafatlandırması, eləcə də Zeyd İbn Sabitə 100 min dirhəm ənam verməsi olmuşdur. Bu cür ənamların qeyri-qanuni olaraq, öz qohumları arasında paylamasını Əbu Zərr xəlifənin hakimiyyətdən sui-istifadəsi kimi qəbul edir və Quranın müvafiq surəsinə əsaslanaraq qeyd edirdi ki, onlar cəhənnəm alovunda yanacaqlar. Belə bir vəziyyətdə, xəlifə Osman onu Ərəbistanın ucqar səhralığına sürgün etdirdi, nəticədə peyğəmbərin hamıya nümunə göstərdiyi ən yaxın silahdaşlarından biri yoxsulluq içində vəfat etdi.

Xəlifə Osmanın hakimiyyəti dövründə narazılığa səbəb olan başqa bir faktor da var idi. Bu isə xəlifə Osmanın bütün dövlət vəzifələrinə öz qohumlarını təyin etməsi idi. İşğal olunmuş ölkələrdə də torpaq sahələri xəlifə Osmanın qohumları arasında bölüşdürülürdü. Suriyada faktiki olaraq, bütün ərazi Osmanın ən yaxın ailə üzvlərinə və qohumları arasında paylanmışdı. Narazılığa səbəb olan əsas məsələlrdən biri isə xəlifə Osmanın öz qohumu Mərvana Mədinədəki bütün yüksək vəzifələri tapşırması idi. 70 yaşlı bu qoca Mədinənin bütün ali vəzifələrini icra etməli, Mədinədə sosial-iqtisadi, ictimai-siyasi proseslərə nəzarəti həyata keçirməli idi.

Bu hal, Osmanın siyasətindən narazı olanların səbr kasasını daşdırdı. Nəticədə, əyalətlərdə iğtişaşlar və siyasi çəkişmələr baş qaldırdı. Xəlifə Osmanın siyasətindən narazı olanların sayı getdikcə artırdı və onlar Əlinin hakimiyyətə gəlməsini təkid edirdilər.

Onun siyasətindən narazı olanlar əsasən Kufə, Bəsrə və Misir əhalisi idi. Xəlifə Osman, xüsusilə Məkkə və Mədinə

əhalisinin yaşayış səviyyəsini digər əyalətlərə nisbətdə yüksək saxlayırdı ki, mərkəzdə ona qarşı üsyan olmasın. Ona görə də, Kufə, Bəsrə və Misirdən Mədinəyə ziyarət etmək adı ilə gələn narazılar Mədinədə şəhər əhalisi arasında açıq təbliğata başladılar. Mədinəni narazı qüvvələrin iğtişaşı bürümüşdü. Üsyan edənlər Xəlifə Osmanın evini mühasirəyə aldılar və 17 iyunda həyacanlanmış iğtişaşçılardan bir neçəsi içəri girməyə imkan tapdı və onlardan biri qılıncını Osmanın çiyninə endirdikdə zövcəsi Nailə özünü qılıncın qabağına atdı. Hər ikisi aldıqları yaradan öldülər.

*Əlinin xəlifə seçilməsi və vətəndaş müharibələri*

Mədinənin yuxarı təbəqələrinin əksəriyyəti gözləmə mövqeyi seçərək hadisələrə qarışmadılar. Təlha və Zubeyr Osmanı müdafiə etmədilər, onun ölümündən sonra Əliyə öz sədaqətlərini və ittifaqlarını bəyan edən ilk adamlar oldular. Üçüncü xəlifə Osmanın faciəvi şəkildə ölümündən sonra Əli xəlifə oldu. Əlinin xəlifə seçilməsi mərasimi məsciddə keçirildi. Xəlifəlik barədəki təklifə cavab olaraq, Əli demişdi ki, «bu vəzifəyə uyğun hər hansı ləyaqətli şəxsə mən özüm birinci səs verərdim. Bəlkə də, xəlifənin məsləhətçisi kimi islama mənim daha çox xeyrim dəyər». Lakin Təlha və Zubeyrin təkidi ilə Əli xəlifəliyə razılıq verdi. Sonradan Kufə və Bəsrəyə hakim təyin olunmaq istəyən bu iki şəxsin tələbi qəbul olunmadıqda, onlar Əlinin ən qatı düşmənlərinə çevrildilər.

Əli hakimiyyətə başladığı ilk günlərdən Osmanın dövründə varlanmış və mənsəb sahibi olmuş peyğəmbərin silahdaşlarının və öldürülən xəlifənin qardaşı tərəfindən müqavimət ilə üzləşdi. Əlinin hakimiyyətinə qarşı narazı qüvvələr qruplaşırdı. Xəlifə Osmanın himayədarlıq etdiyi Yəmən valisi Yaali ibn Maliyyə Əliyə qarşı xüsusən düşməncəsinə münasibət bəsləyirdi. Yəməndə olduğu zaman özünə çoxlu var-dövlət yığan Yaali özü ilə çoxlu qiymətli hədiyyə götürüb, çoxsaylı qoşunu ilə Yəməndən müqəddəs Məkkə şəhərinə gəldi. «Cəməl» adlandırılan dəvəni isə peyğəmbərin dul qadını Aişəyə hədiyyə verdi. Xəlifəyə qarşı Məhəmməd peyğəmbərin köhnə silahdaşları, Aişə tərəfindən müdafiə olunan Təlha və əz-Zubeyr də çıxış edirdilər. Aişə döyüşə Yaalinin ona bağışladığı dəvənin belində getdi. Aişə dəvə üzərində düzəldilmiş xüsusi kəcavədə oturaraq, döyüşü idarə edirdi. Döyüşün adı da buradan götürülmüşdü: Bu döyüş ərəb və müsəlman tarixinə «Dəvə döyüşü»- «Cəməl döyüşü» kimi də düşdü.

9 dekabr 656-cı ildə Bəsrə yaxınlığındakı Xureybədə Təlha və əz-Zubeyrin silahlı dəstələri tam məğlub edildi. Bir neçə gün davam edən vuruşmada hər iki tərəfdən minlərlə adam öldü. Təlha və əz-Zubeyr də öldürüldü. Aişə isə əsir alındı. Əli əsir düş-müş Aişəni isə yüksək hörmətlə qəbul edib, oğlanları imam Həsən və imam Hüseynin müşayiəti ilə Məkkəyə yola saldı. Aişə bir daha böyük siyasətlə məşğul olmadı.

«Cəməllər»in qiyamını müvəffəqiyyətlə yatırdıqdan sonra xəlifə Əli vəzifələrini düzgün yerinə yetirməyən əyalət hakimlərini vəzifəsindən azad etmək qərarını verdi. Onların sırasında Misir hakimi Əmr ibn As və Suriya hakimi Müaviyə də var idi.

Xəlifə Əlinin hakimiyyətinə qarşı daha ciddi müqavimət Osmanın dövründə həddindən artıq varlanmış Əməvilərin aristokratları tərəfindən edildi. Bu mübarizənin başında Suriya hakimi, eləcə də Məkkədə çox böyük nüfuz sahibi olan Əbu Süfyanın oğlu Müaviyə dayanırdı. Əli yaşadığı dövrün ədalətsizliklərinə və çətinliklərinə rəğmən səbr etməyə üstünlük vermişdir. Əlinin öz sözləri ilə desək «gözündə tikan və boğazında sümük olan» bir insanın keçirdiyi hissləri duya-duya səbr etmişdir.

Özünün ən güclü rəqibinə qarşı mübarizədə xəlifə Əli öz ictimai demokratik təsəvvürləri ilə və qanunpərəstliyi ilə seçilən İraqın ərəb tayfalarına ümid edirdi. Burada həmin ənənlərin əsasının qoyulmasında xəlifə Ömərin çox böyük rolu olmuşdu və onun şəxsiyyəti ilə birbşa bağlı idi. Xəlifə olduqdan sonra Əli xəlifə Ömərin dövründə qorunan bir sıra qayda-qanunların bərpasına çalışırdı. Çünki xəlifə Ömərin siyasətinin formalaşmasında Əli özü az rol oynamamışdı. Ömər demək olar ki, çıxarılan bir sıra mühüm qərarları Əli ilə məsləhətləşmələrdən sonra verirdi. Eyni zamanda, xəlifə Əli Ömərin hakimiyyətdə olmasında daha çox maraqlı idi və onun istər daxili, istərsə də xarici siyasətinə daha çox dəstək verirdi. Xəlifə Əli Osmanın dövründə baş verən sapınmalara düzəliş vermək istəyirdi. Bu isə Əməvilərin maraqları ilə daban-dabana zidd idi. Belə ki, xəlifə Əli Osmanın dövründə təyin olunmuş bütün valiləri dəyişdirməyə, onun dövründə paylanmış bütün torpaq sahələrinin yenidən ədalətlə paylanmasına başlamışdı. 658-ci ildə əl-Əştərin Misir hakimi vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq, ona Əlinin yazdığı məşhur məktubda bildirilir ki, xəracın yığılmasından daha çox torpağın becərilməsinə fikir verilsin. Çünki xəracı əsasən

becərilmiş torpaqlardan yığırlar. Məktubda xalqa hər cür yardım edilməsinə aid göstəriş də verilirdi.

Xəlifə Əli xəzinənin dağıdılmasının qarşısını almaq məqsədilə qəti tədbirlər də gördü. Bu addımlar xəlifə Osmanın dövründə ən çox zərər çəkmiş İraq müsəlmanları tərəfindən dəstəklənirdi. Ona görə də, xəlifə Əli öz iqamətgahını Mədinədən Kufəyə köçürdü. Belə bir vəziyyət Əməviləri qətiyyən qane etmirdi. Belə ki, dövlətin mərkəzinin İraqa keçirilməsi Məkkə və Mədinənin əhəmiyyətini azaltmaqla Suriyadakı Əməvi hakimiyyətinə sarsıdıcı zərbə vurmaq üçün zəmin yaradırdı. Bu mübarizənin birinci mərhələsində xəlifə Əli faktiki olaraq qələbə çalmışdı və imperiyanın hakiminə çevrilmişdi. Lakin Suriyanın başda Müaviyə olmaqla xəlifə Əliyə beyət etməməsi nəticəsində dövlət iki hissəyə bölünmüş oldu.

Deməliyik ki, Müaviyə öz dövrü üçün 15 ildən artıq idarə etdiyi Suriya əyalətində olduqca hörmətli bir şəxs hesab edilirdi. Camaatı xəlifə Əliyə qarşı qaldırmaq niyyətilə Müaviyə qəribə bir hiyləyə əl atdı: Osmanın parça-parça edilmiş qanlı əbasını tapıb Dəməşq şəhərinin baş məscidinin qapısından asmağı əmr etdi. Apardığı təbliğatda isə Osmanın ölümünü Əlinin adı ilə bağlamağa çalışırdı. Yeni müsəlman qırğınına hazırlıq gedirdi. Xəlifə olmağa çalışan Müaviyə müharibəni labüdləşdirdi.

Müaviyə həqiqətə uyğun olmayan iddia ilə çıxış edirdi və Osmanın ölümündə xəlifə Əlini ittiham edirdi. Müaviyə üçüncü xəlifənin intiqamını almaq məqsədilə xəlifə Əliyə qarşı müharibəyə başladı ki, burada da min nəfərdən artıq günahsız adamların qanı axdı.

Xəlifə Əlinin hakimiyyəti dövründə ona qarşı müqavimət ocaqları var idi və onun hakimiyyət illəri vətəndaş müharibələri ilə müşahidə olunurdu. Siffin döyüşünün nəticələri Əlinin sonrakı taleyini həll etmiş oldu.

19 iyul 657-ci ildə Mesopotamiyada Fərat çayının sağ sahilində Siffin yaxınlığında 9 gün Müaviyə qoşunları ilə Əlinin qoşunları arasında çox böyük döyüş oldu. Bir sıra ədəbiyytlarda müharibənin 110 gün davam etdiyi və bu müddət ərzində 90 dəfə döyüş olduğu göstərilir. Hər iki tərəfdən 80 minə qədər müsəlman öldürüldü. Ərəb tarixçiləri göstərir ki, Əmr İbn əl-Asın hiyləgər siyasəti Müaviyənin ordusunu tam məğlubiyyətdən xilas etdi. Təcrübəli sərkərdə aydın şəkildə görürdü ki, Suriya ordusu məğlub

olmaqdadır, Əlinin döyüşçüləri isə qəti qələbəyə daha yaxındır. Əslində müharibənin taleyini Əli təkbətək döyüşdə Əli İbn əl-Ası vuraraq, biabırcasına atdan salanda müəyyənləşdirmişdi.Vəziyyəti düzgün qiymətləndirməyi bacaran təcrübəli sərkərdə İbn əl-As yaxınlaşmaqda olan məğlubiyyəti görürdü və elə buna görə də, Müaviyəyə təklif etdi ki, əsgərlər nizələrə və qalxanlara Quranın əlyazmalarını yapışdırsınlar və rəqibləri qardaş qanı tökməməyə çağırsınlar. Beləliklə, düşmən tərəfi mübahisəni müqəddəs kitabın tələb etdiyi çərçivədə-dinc yolla həll etməyi təklif edirdi. Bir qrup tərəfdarlarının qəti etirazına baxmayaraq, Əli nüfuzlu həmkaralrının təkidlərinin təsiri altında bu təklifi qəbul etməklə öz sıralarında parçalanmaya əsas vermiş oldu.

Bundan sonra, Əlinin düşərgəsindən onun siyasəti ilə barışmayan bir dəstə ayrıldı və bunlar xaricilər adı ilə tanınan («xərəcə»-ərəbcə çıxmaq, xaric olmaq) və müsəlman dünyasında meydana gələn ilk təriqətin nümayəndələri oldular.

Beləliklə, həmin hadisədən sonra Əlinin mövqeyindən çıxış edən bir qrup tərəfdarları onu döyüş meydanında tərk etdilər. Həmin dönüklər sonradan islam dinində ən böyük cərəyan olan xariciləri formalaşdırdılar. Onlar belə hesab edirdilər ki, Əli müqəddəs kitabın yazmış olduğu qayda-qanunu pozmuşdur. Çünki xəlifə Allahın yerdəki qulu, onun əmrlərinin icraçısı idi. Quran da məhz bunu təsdiqləyir. Belə olduğu halda, məsələnin üçüncü tərəf vasitəsilə həll edilməsi həm Quranın, həm də Allahın tələblərinə qarşı çıxamq idi. Belə ki, Quranda göstərilir ki, «Lə hukmə illə lillallah» - «yalnız Allah mühakimə edə bilər». Belə olduğu halda, Allahın hökmünü yerinə yetirməli olan qullar özləri bü mühakməni necə təşkil edə bilərdilər. Ona görə də, onlar özlərinə «muhakimə» ləqəbi də verdilər ki, bu da həmin şüarı dəstəkləyənlərə aid idi. Kufə yaxınlığında xəlifə Əlini tərk edən həmin xaricilər Bağdada getdilər. Onların sayı 12 min nəfər idi. Əlinin qoşunundan bu adamların getməsi faktiki olaraq onun qoşununun məğlubiyyətini əsaslandırmış oldu. Əlidən ayrılan xaricilər ona qarşı o qədər kin bəslədilər ki, nəticədə, 658-ci ildə olmuş məhkəmə prosesinin nəticəsiz qalması ilə əlaqədar, onlar özləri Əliyə qarşı çıxdılar. Ona görə də, həmin il Əli öz dəstəsi ilə Nəhrəbana yaxınlaşaraq xaricilərin yaratmış olduğu təhlükəni aradan qaldırmaq istədi. Əli, ilk növbədə, onları silahlı müqavimət dayandırmağa çağırdı və bildirdi ki, silahı yerə qoyanlar bağışlanacaqdır.

Bu təklifdən sonra xaricilər arasında parçalanma baş verdi. Onların çox hissəsi döyüş meydanını tərk etdi. Bir hissəsi Əlinin qoşununa qoşuldu, bir hissəsi Kufəyə qayıtdı, bir hissəsi İrana getdi, bir hissəsi isə Məkkəyə yollandı. İbn Vəhbin başçılığı altında qalan 2800 xarici isə Əlinin qoşunları ilə döyüşdə darmadağın edildi. Lakin xaricilərin Əliyə qarşı mübarizəsi davam edirdi. Ona görə də, onlar belə qərara aldılar ki, «müsəlman icmasının parçalanması»na qərar verən xəlifə Əlini qətlə yetirsinlər.

Xaricilər müsəlman icmasında artan sosial bərabərsizlikdən narazı sadə müsəlmanların, islam dinini yeni qəbul edən İraq əhalisinin bir hissəsinin baxışını özündə ehtiva edirdi. İslamda bərabərliyə çağırış artıq real həyatda unudulmuşdu. Xaricilər belə hesab edirdilər ki, icmanın seçdiyi hər bir müsəlman xəlifə ola bilər.

Bütün xilafət boyu Əlinin tərəfdarları və əleyhdarları arasnda mübarizə gedirdi. Narazı qüvvələr Müaviyənin ətrafında birləşdilər. Xəlifəlik üstündə gedən bu mübarizəni Misirdə Əmr ibn As, Dəməşqdə isə Müaviyə qızışdırırdı. Yaranmış qarışıqlıqdan istifadə edərək, Mədinədən olan üç nəfər xarici Əbdur Rəhman ibn Mülcəm, Əmr ibn Bəkr və Əlbərəh ibn Abdullah xəlifə Əlini, Müaviyəni və Əmr ibn Ası öldürməyi qərara aldılar. Onlardan birincisi Kufəyə, ikincisi Dəməşqə, üçüncüsü isə Misirə yollandı. Əli, Müaviyə və Əmr ibn As ramazan ayının 19-da qətlə yetirilməli idilər. 22 yanvar 661-ci ildə İbn Mülcəm məsciddə namaz qılarkən Əlini zəhərlənmiş xəncər ilə ağır yaraladı. Başından ağır yaralanan Əli iki gün yaşadı və tezliklə vəfat etdi. Müaviyə də budundan yüngülcə yaralandı. Əmr ibn Asın əvəzində isə səhvən başqa adam öldürüldü.

## ŞİƏ İMAMLARI

1. Əli (661-ci ildə v.e.) —— Fatimə (632-ci ilin sonu/633-cü ilin əvvəllərində v.e.)

2. Həsən (669-cu ildə v.e.)

Mərakeş İdrisiləri

3. Hüseyn (680-ci ildə v.e.)

4. Əli Zeyn əl-Abidin (712 v.e.)

Zeyd (740-cı ildə v.e.)

Zeydilər

5. Məhəmməd əl-Bəkir (732-ci ildə v.e.)

6. Cəfər əs-Sadiq (765-ci ildə v.e.)

İsmayıl (762-ci ildə v.e.)

İsmaillilər

Fatimilər

7. Musa əl-Kazım (799-cu ildə v.e.)

8. Əli ər-Rida (818-ci ildə v.e.)

9. Məhəmməd əl-Cavad (835-ci ildə v.e.)

10. Əli əl-Hadi (868-ci ildə v.e.)

11. Həsən əl-Əskəri (873/874-cü ildə v.e.)

12. Məhəmməd əl-Mehdi
(874-cü ildə Samara şəhərində qeyb olmuşdur)

## ƏMƏVİLƏR XİLAFƏTİ

*Əməvilər xilafətinin yaranması* Əvvəllər bütöv olan icma Əli tərəfdarı şiələrə, qalanları isə sünnilərə parçalandı. Əlinin varisi Həsən altı ay hakimiyyətdə qaldı, lakin Müaviyə Kufəyə hücum etdikdən sonra qüvvələr nisbətinin onun xeyrinə olmadığını nəzərə alaraq, o, hakimiyyətdən imtina etməli oldu. Lakin Tabatabai göstərir ki, Müaviyə müxtəlif üsullarla –edam etməklə,böyük rüşvət verməklə, Həsən bin Əlinin bir neçə tərəfdar və komandanlarını ələ keçirməyə və onun sıralarından uzaqlaşdırmağa nail ola bilmişdi. Səbri Hizmetli göstərir ki, Kufədə Həsənə beyət edilib xəlifə seçilməsi Müaviyəni təlaşlandırmış və o, Abdullah bin Əmirin komandanqlığı altında Həsənə qarşı ordu göndərmişdi. Müəllif müqayisə apararaq qeyd edir ki, Həsənin ordusunda Siffin döyüşü zamanı atasının ordusunda olduğu kimi savaşmaq istəməyənlər var idi. Belə bir vəziyyət, onun orduya güvənməməsinə və sadiq tərəfdarları ilə Mədinəyə dönməsinə səbəb oldu. Yolda xarici Cerrah bin Sinan əl-Əsədi tərəfindən yaralanması da əsgərlər içərisində gərginlik yaratdı. Bununla yanaşı, Müaviyə Anbarda Həsənin öncül qüvvələrini mühasirəyə aldı və Həsənin ordusundan ona tərəf keçənləri əhv edəcəyini bildirdi. Bu təklif tərəddüd edən əsgərlərin onun tərəfinə keçməsinə imkan yaratdı. Belə bir vəziyyət, Həsənin döyüşdən imtina etməsinə səbəb yaradırdı. Mədinəyə gələn Həsən müqavilənin mətnini hazırladı. «İraqlılar və Həsənin tərəfindən vuruşan döyüşçülər suçlu hesab edilməyəcəyi, onlara qarşı heç bir cəza tədbiri görülməyəcəyi, ona Əhvazın illik xəracı və qardaşı Hüseynə 2 milyon dirhəm ödənəcəyi, nəhayət Müaviyənin ölümündən sonra hakimiyyətin ona çatacağı» şərtləri qəbul ediləcəyi təqdirdə Həsən xəlifəliyi Müaviyəyə verəcəyini bildirdi. Müqavilənin şərtlərini Müaviyə qəbul etdi və imzaladı.

Bundan sonra, Həsən ailəsi ilə birlikdə Mədinədə sakit həyat sürdü. Həsən ədəbiyyatlarda səbrli, təmkinli, mərd bir insan kimi təqdim edilir. Həsən 7 aprel 669-cu ildə dünyasını dəyişdi.

Bəni Umeyyə nəslinin hakimiyyəti möhkəmləndikdən sonra ərəblərin dünyagörüşündə köklü dəyişikliklər baş verdi. Xilafətə külli miqdarda sərvət axını təmtəraqlı yaşayışa meyli artırırdı. Əməvilərin həyat tərzi Raşidiyyə xəlifələrinin sürdüyü olduqca sadə,

heç bir zənginliyi olmayan yaşayış tərzindən tamamilə fərqlənirdi. Əməvi hakimləri özlərini İran və Bizans zadəganlarına bənzədərək, zəngin saraylar inşa etdirməyə başladılar.

Bununla belə, xəlifə Əlinin vəfatından sonra müsəlman icmasında tam şəriksiz hakimiyyətə malik olan Əməvilər dövlətin idarə edilməsində peyğəmbərin müəyyən etdiyi Əbu-Bəkrin isə onu bir qanun halına saldığı icma seçkisini ləğv etdilər. Bundan sonra, Əməvilər Bizans və İran hakimlərindən nümunə götürərək, ərəb dövlətçiliyinin inkişaf etdirilməsində monarxiya ənənələrinin əsasını qoydular.

Beləliklə, ərəb xilafətində Əməvilər sülaləsinin hakimiyyət dövrü (661-750) başladı. Əməvilərin hakimiyyəti dövründə paytaxt şəhəri Dəməşq, xilafətin mərkəz əyaləti isə zəngin Suriya oldu. Burada Əməvilərin dayağı olan ərəb qəbilələri yerləşirdi və bununla yanaşı, Suriya ərəblərin Bizans, Kiçik Asiya və Cənubi Qafqaz ölkələrinə qarşı hərbi ekspansiyası üçün əlverişli meydan idi. Əməvilərin hakimiyyəti illərində ərəb-islam dövləti Hind çayından Əndəlusun (İspaniyanın) Piriney dağlarınadək uzanırdı. Əməvilər dövründə Dəməşqin «qızıl dövrü» başlandı və 90 il davam etdi.

Bir çox tarixi ədəbiyyatlarda Əməvilərin 90 illik hərbi-siyasi hökmranlıq dövrü ərəb ölkələrinin orta əsrlər tarixində bir keçid mərhələsi kimi qəbul edilir. Əməvilər xilafətini, adətən iki qohum qollara bölürlər: bunlardan biri Süfyanilərdir (I Müaviyənin atası Əbu Süfyanın adı ilə) ki, buraya I Müaviyə (661-680), onun oğlu Yəzid (680-682), nəvəsi II Müaviyə (683-cü ildə vəbadan ölmüşdür) aiddirlər. İkinci qol Sufyaniləri xəlifə vəzifəsində əvəz etmiş xəlifə I Mərvanın adı ilə Mərvanilər kimi tanınmışdır. Buraya I Mərvan (684-685), Əbdül Malik (685-705), əl-Valid (705-715), Süleyman (715-717) və sairə

*Yəzidin hakimiyyətə gəlməsi.* 680-ci ildə Müaviyə vəfat etdi. Lakin *İkinci vətəndaş müharibəsi* əvvəlcədən müəyyən olunmuş xəlifəliyin seçkili prinsipinə qarşı çıxaraq, Müaviyə hələ öz sağlığında ikən oğlu Yəzidi vəliəhd təyin etdi. Beləliklə, Müaviyə vəfat etdikdən dərhal sonra Yəzid xəlifə elan edildi. Xatırladaq ki, Əlinin təyinatına qarşı icmanın nüfuzlu şəxsləri mövcud qaydaya əsasən seçkili prinsipini önə çəkmişdilər. Təbii ki, bir çoxları Əlinin xəlifə kimi təyinatını eşitmədiklərini də iddia edirdilər.

Yəzidin xəlifə taxt-tacına varis olması Məkkə və Mədinə kimi müqəddəs şəhərlərin müsəlmanları tərəfindən narazılıqla qarşılandı. Əsas səbəb ondan ibarət idi ki, Əməvilərin irsi hakimiyyətinin bərqərar edilməsi rəsulun yaxın silahdaşlarını, onların çoxsaylı nəsillərini və müsəlman icmasının mötəbər şəxslərini dövlətin idarəçiliyində iştirakdan və gəlir mənbələrindən məhrum edirdi.

Siyasi səhnəyə Əlinin ikinci oğlu Hüseyn çıxdı. Qeyd etmək lazımdır ki, bu vaxt Kufə şiələri Məkkəyə öz nümayəndələrini göndərib Hüseynə onların şəhərinə gəlməyi təklif etmiş, onu müdafiə edəcəklərini və onun xeyrinə üsyan qaldıracaqlarını vəd vermişdilər. 680-ci ildə Hüseyn 300 nəfərlik bir dəstə ilə Kufəyə yola düşdü. Bundan xəbər tutan Yəzidin göstərişi ilə Əməvi valisi ona qarşı çoxsaylı hərbi qüvvə göndərdi. Kərbəla adlı kiçik yaşayış məntəqəsi yaxınlığında onlar Hüseynin dəstəsini mühasirəyə alıb məhv etdilər.

Qeyd etmək lazımdır ki, vətəndaş müharibəsi o biri Əməvi xəlifələri: II Müaviyə və Mərvanın dövründə də davam etmişdir. Lakin xəlifə Əbdül Malik və I Validin hakimiyyəti illərində demək olar ki, vətəndaş müharibəsi dayandırılmış, islahatlar keçirilmiş, işğallara başlanmışdır. Xilafətin bütün əyalətləri Əməvi xəlifəsinə tabe olmuşdu.

*Xilafət Mərvanilər dövründə.*

*Ərəb işğallarının ikinci mərhələsi* Ölkə daxilindəki siyasi dağınıqlıqdan istifadə edərək, Abdulla İbn əz-Zubeyr özünü xəlifə elan etdi və xilafətin əksər əyalətlərini öz hakimiyyəti altında birləşdirə bildi. Üsyanların baş verməsi əslində xilafəti parçalanmış vəziyyətə gətirmişdi. Əməvilərin əlində Urdun, Fələstinin bir hissəsi qalmışdı ki, onlar da tərəddüd göstərir və özünü xəlifə elan etmiş İbn əz-Zubeyri xəlifə kimi tanımaq haqqında düşünürdülər. Müaviyənin əmisi nəvəsi Mərvan ibn əl-Hakam öz nəslinin hüququnu müdafiə etməyə qalxdı və İbn əz-Zubeyr üzərində qələbə çaldı. Suriya və Misiri yenidən tutan Mərvan 685-ci ildə vəfat etdi və onun yerinə oğlu Əbdül Malik xəlifə oldu.

Xilafəti birləşdirmək üçün Əbdül Malikə 8 il lazım gəldi. 685-ci ildə Kufədə kiçik feodal Muxtarın rəhbərliyi altında şiələrin üsyanı baş verdi. Üsyançılar Zubeyrin oğlunu qova bildilər və şəhəri tutdular. Muxtar demək olar ki, təxminən bütün İraqın hakiminə

çevrildi. Lakin 687-ci ildə Kufə yaxınlığındakı döyüşdə üsyançılar məğlub oldu, Muxtar isə öldürüldü.

Xəlifə Əbdül Mallik hələ tam zərəsizləşdirilməmiş yeni xəlifə əz-Zubeyrə qarşı mübarizəni davam etdirirdi. Bu mübarizə 691-ci ildə İraqın tutulması ilə nəticələndi və bundan sonra İbn əz-Zubeyr Qərbi Ərəbistanda təcrid olunmuş vəziyyətdə qaldı. 692-ci ildə xəlifə ordusu məşhur Həccacın komandanlığı altında Məkkəni mühasirəyə aldı. İbn Zubeyrin əksər tərəfdarları və hətta oğlanları da onu tərk etdi. Xilafət bərpa edildikdən sonra 697-ci ildə Farsda və Kermanda əzrakilərin, Ərəbistanda xaricilərin üsyanı yatırıldı.

Xəlifə Əbdül Malikin hakimiyyəti illərini özündən əvvəlki və sonrakı xəlifələrin dövründən fərqləndirən cəhət onun iqtisadiyyat, ticarət, idarəçilik sahələrinə yenilik gətirən və onun inkişafını təmin edən islahatların keçirilməsi idi. Onun keçirdiyi islahatlar kargüzarlıqda ərəb dilinin tətbiq olunmasında və pulların çıxarılmasında öz ifadəsini tapdı. İnzibati sistemin ərəbləşdirilməsi Əbdül Malikin dövründə başlandı və I Validin dövründə davam etdirildi. İnzibati maliyyə idarəçiliyində ərəb dilinin tətbiq edilməsi, ərəb zadəganlarının dövlət idarətmə aparatının başında durmaq cəhdlərinin təzahürü idi. Kargüzarlığın və hesabatın ərəblərin doğma dilində olması onlara maliyyə işlərini tam nəzarət altına almağa imkan verdi. Lakin əslində bu məmurların şəxsi tərkibini dəmək olar ki, o qədər dəyişdirmədi. Çünki ərəblər dəftərxanada oturub işləməkdə o qədər də maraqlı deyildilər.

İslahatlardan biri də xilafətdə vahid pul sisteminin tətbiq edilməsi idi. Xəlifə Əbdül Malikin dövründə yeni pulların(qızıl dinar, gümüş dirhəm) buraxılmasına başlandı. Onun da üzərində ərəb dilində yazılar əksini tapmış, Qurandan iqtibaslar gətirilmiş və islama uyğun olaraq, üzərində heç bir insan təsviri olmayan Bizans qızıl nomismanının və Sasani dirhəminin əvəzinə vahid pul tərtib edildi. Hicrətin II və III yüzilliyinə qədər pulların üzərində onları buraxan xəlifənin və ya hakimin adı göstərilmirdi. Sikkəxanalar əsasən paytaxtda və canişinlərin iqamətgahı yerləşən iri şəhərlərdə idi. Pul kəsilən sikkəxanalar bəzi yerli hakimlərin sərəncamında idi. Dinarları çox zaman Dəməşqdə kəsirdilər, onların üzərində latın və ərəb dillərində yazılar var idi. Sasani dövlətinin ərazisində də pullar kəsilirdi. Əbdül-Malikin dövründə kəsilən yeni pullar əsasən aşağıdakı kimi dəyənləndirildi: bir qızıl dinar əvvəllər on, sonralar

on iki və iyirmi gümüş dirhəmə bərabər idi. Pulun yalnız tarixi dəyişildi, ərəb xəlifəsinin, ya da hakiminin adları əlavə olundu. Yeni pul sisteminin həyata keçirilməsi xilafətin ayrı-ayrı ölkələri arasında ticarətin və iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərirdi. Əvvəlki çəki ölçüləri-kafiz və mudd, əvvəlki pul vahidləri-dinar və dirhəm xilafətin şimal vilayətlərində istifadə olunurdu. Əməvilər dövründə yeni çəki sistemi tətbiq olundu.

Əbdül Malikin dövründə torpaqların və vergi ödəyənlərin siyahısı tərtib edildi. Xəlifənin vergi yığanları vəziyyətlə yerində tanış olduqdan sonra bu il nə qədər vergi toplamaq mümkün olduğunu müəyyənləşdirdilər, hətta əhalinin nə yediyini, nə geyindiyini, bayram günlərini və sairəni də nəzərə alırdılar.

Mərvanilərin hakimiyyəti illərində ərəb işğallarının ikinci böyük mərhələsi başlandı. Əbdül Malikin oğlu əl-Validin dövründə ərəb işğallarının növbəti dalğası vüsət aldı. 709-cu ildə ərəblər Atlantik okeanının sahillərinə çıxdılar. Bununla yanaşı, ərəblər Orta Şərqdə və Orta Asiyada da fəal hərbi əməliyyatlar aparırdılar. 705-715-ci illər arasında Əmu-Dərya çayının arxasında olan torpaqlar Mavərənnəhr, həmçinin Xarəzm və Fərqanə ərəblər tərəfindən zəbt edildi. Bu zəmində, bir çox Orta Asiya torpaq sahibləri, dehqanlar ərəblərə tabe olub, xəlifəyə töycü ödəməyi öhdələrinə götürdülər. Qeyd etmək lazımdır ki, Orta Asiya torpaqlarını əldə etmək üçün ərəblər köçəri türklər və bu ərazini fəth etmək istəyən çinlilərlə mübarizə aparmalı oldular. Ərəblər çinlilər üzərində 751-ci ildə Talos çayı yanındakı döyüşdə qəti qələbə çaldılar. Bu dövrdən başlayaraq, xilafətin Orta Asiyada ağalığı tam möhkəmləndi.

712-ci ildə isə ərəblər Hindistana yürüş edib Sind əyalətini, Hind çayının vadisini, şimalda isə Multanı tutdular.

Ərəblər üç il ərzində Afrikanın şimal sahillərini tutdular. VIII əsrin əvvəllərində ərəb qoşunları Afrikaya yürüşlərini davam etdirdilər. Xilafətə daxil olan Şimali Afrikada «Məğrib» adlanan xüsusi idarə-Misir canişinliyinə tabe idi. Sonralar İspaniya da işğal olunaraq, bu canişinliyə daxil edildi. YIII əsrin ikinci rübündən etibarən Məğribin əhəmiyyəti o qədər artmışdı ki, artıq Misir Məğrib canişinliyinə tabe idi.

710-cu ildə ərəb orduları Afrikanı İspaniya sahillərindən ayıran dar körfəzə gəlib çıxdılar. Qərbdə isə əsasən bərbərlərdən təşkil olunmuş müsəlman orduları Musa ibn Nuseyranın

komandanlığı altında 711-ci ildə körfəz vasitəsilə Pirineya yarımadasına gəlib çıxdı. 19 iyul 711-ci ildə ilk döyüşdə vestqotların ordusu darmadağın edildi. İki il yarım ərzində Qalisiya və Asturini çıxmaqla böyük yarımada xilafətə birləşdi. 715-ci ildən başlayaraq, xəlifə Süleyman İstanbulu 717-ci ilə qədər mühasirəyə aldı. 717-718-ci illərdə müsəlman orduları Pirineyadan keçərək Narbonu tutdu. 732-ci ildə Puatye yaxınlığında Karl Martelin komandanlığı altında frank yığma ordusu ərəbləri ciddi məğlubiyyətə uğratdı və bununla da, onların şimala doğru hərəkətlərinə son qoymuş oldu.

Fəthlərdən sonra bir çox oturaq və köçəri ərəblər yeni torpaqlara köçdülər. Yeni şəhərlər, düşərgələr salındı. Bu yeni şəhərlərdə də ümummüsəlman mədəniyyəti yarandı. İranda Şiraz, İraqda Kufə və Bəsrə, Fələstində Roman, Misirdə Fustat, Afrikada Kayravan buna nümunədir. Bir çox hərbi düşərgələr və məntəqələr ərəblərə Sasanilər dövründən qalmışdı. İraq və Suriya ərazisinin əsas əhalisi – sami xalqlarına aid olan arameylər (suriyalılar) ərəb dilinə yaxın və qohum dildə danışırdılar. Burada ərəblər də çoxluq təşkil edirdilər. Ona görə də, bu regionda ərəbləşmə çox sürətlə getdi. Şimali Afrika və İspaniya bir qədər gec ərəbləşdi. Cənubi Qafqaz ilə Orta Asiya isə ərəbləşmədi. İşğal olunmuş ölkələrə ərəblər rəsmi din kimi islamı, ədəbi dil kimi isə ərəb dilini gətirdilər. Lakin bu ciddi dəyişikliklər heç də yerli mədəniyyətlərin məhv olmasına gətirib çıxarmadı. Əksinə, onlar ərəblərin özünə böyük təsir göstərdilər.

Ərəb işğallarının erkən çağlarında ərəblərin köçürülməsi hələ geniş tətbiq olunmurdu. Onlar yalnız iri şəhərləri və qovşaq məntəqələrini tutaraq, burada rabitə yollarını nəzarətdə saxlamaq üçün kiçik qarnizonlar saxlayırdı. Qoşunun əsas hissəsi isə ölkənin içərilərinə doğru irəliləyirdi. İstila olunmuş ölkələrə ərəblərin köçürülməsi və bu ölkələrdə məskunlaşması yalnız həmin ölkələr tamamilə işğal edildikdən və burada ərəblərin hakimiyyəti möhkəmləndikdən sonra başlandı. Bu proses Əməvilər xilafətinin dövründə daha da sürətlə davam etdirildi.

Bu dövrdə Bağdad, Qahirə və bir sıra şəhərləri çıxmaqla yeni şəhərlərin salınması sürətlə gedirdi. Sonralar bu şəhərlər inzibati ticarət mərkəzlərinə çevrilirdi. Bu şəhərlər ayrı-ayrı ərəb sərkərdələri tərəfindən salınırdı. Məsələn, Bəsrənin əsasını Umba ibn Qəzvan qoymuşdur. Kadisiyyə döyüşündən və Sasani paytaxtının alınmasından sonra Kufənin əsası qoyuldu.

VIII əsrin ikinci yarısında xilafətin siyasi qüdrəti ən yüksək zirvəyə qalxdı. Xilafətin nəhəng ərazisində 70-80-mln. nəfər yaşayırdı. Xəzinəyə axıb gələn böyük məbləğdə pul ordunun saxlanmasına, donanmanın yaradılmasına və tikinti işlərinin aparlımasına imkan verirdi.

Ərəb işğallarının ən mühüm nəticələrindən biri də xilafət ölkələrində ərəblərin dini – islamın yayılması idi. Düzdür tam müsəlmanlaşan, ancaq Ərəbistan olmuş, o biri əyalətərdə isə çoxsaylı xristian, yəhudi və zərdüştliyə itaət edənlər qalmışdılar. Xilafətin demək olar ki, hər şəhərində xristian-yəhudi icmaları saxlanılırdı. Qeyri dinlərdən olanlar xilafətdə əhalinin xüsusi bir təbəqəsini təşkil edirdilər və zimmilər adlanırdılar. Onlar şəxsən azad, lakin siyasi cəhətdən məhdud və bir sıra vətəndaş hüquqlarından məhrum olmuş insanlar idi. Zimmilər öz dillərinə məxsus olan adət-ənənləri saxlayır, icmalar daxilində müəyyən özünü idarəetməyə malik idilər. Buna görə də, can vergisi - cizyə verməyə məcbur idilər.

Ərəblərin istilası ərəfəsində Bizans əyalətləri, İran, Orta Asiya, Cənubi Qafqaz, İspaniya erkən feodalizm mərhələsində idi. Bəzi tarixçilər Ərəbistanda feodalizmin işğallar nəticəsində meydana gəlməsini, bəziləri isə ərəb dövlətinin feodalizmin erkən mərhələsində olduğunu qeyd edirlər. YII əsrin əvvəlləri üçün ərəblərdə qul əməyi iqtisadi quruluşun əsasını təşkil etmirdi.

Ərəblər işğal edilmiş ölkələrdə Ərəbistanda hələ məlum olmayan sosial-iqtisadi münasibətlərə və mülkiyyət formalarına rast gəlmişdilər. Erkən feodal münasibətlərinin hakim olduğu yerlərdə ərəblər torpağa istehsal vasitəsi kimi maraq göstərmədilər. Onların tabeliyinə keçən becərilən torpaqlara onlar müsəlman icmasının şəxsi malı kimi baxırdılar. Ərəblər qənimət və təzminat yığmaqla kifayətlənirdilər. Elə buna görədir ki, işğal olunmuş yerlərdə ərəblər ictimai istehsala müdaxilə etmirdilər. Torpaqlar yerli feodalların, ruhanilərin və digərlərininin sahibliyində qalırdı.

İşğal edilmiş ərazilərə ərəblərin köçürülməsi nəticəsində həmin ərazilərdə, o cümlədən şəhərlərdə bütöv ərəb məhəllələri meydana gəldi. Ərəblərin yerləşdirildiyi kənd və məhəllələr çox zaman həmin qəbilələrin adını daşıyırdı. X əsrdən etibarən müxtəlif ərazilərdə ərəblər yerli əhali ilə assimilyasiyaya uğrayırdı. Məsələn, İranda ərəblər iranlılarla, Azərbaycanda azərbaycanlılarla assimlya-

siya olunmuşdu, digər ərazilərdə isə bu proses əksinə baş vermişdi, yerli əhali ərəbləşmişdilər ki, bu barədə biz irəlidə söhbət açmışıq.

Qeyd edək ki, məhz Əməvilər dövründə ərəb dili və mədəniyyəti ilk dəfə olaraq, xarici aləmlə, daha çox isə Bizansla və İran mədəniyyəti ilə təmasa girmişdi. Onlar Suriya və İraqda olduğu kimi Misirdə də özünə dərin köklər salmışdı. Göstərilən ölkələrin maddi-mədəniyyət abidələri yunan-İran təsirlərini özündə saxlayırdı. Elə bu səbəbdəndir ki, islam mədəniyyəti nə İraqda, nə də Suriya və Misirdə birdən-birə özünə yer tapa bilməmişdir. Ərəb dili Suriyada təxminən 700-ci ildə, Misirdə isə 706-cı ildə xəlifə Əbdül Malik bin Mərvanın zamanında dövlət dili səviyyəsinə yüksələ bildi.

Əbdül- Malikin və I Validin dövründə keçirilmiş islahatlar möhkəm idarə sistemi yaratmaq, yerlərdə əhalinin iqtisadi və siyasi həyatına bilavasitə rəhbərlik etmək məqsədini güdürdü. Xəlifə Hişamın (724-743) dövründə dövlət vergi aparatı, inzibati-maliyyə sistemi nümunəvi səviyyəyə gəlib çatdı.

Xilafətin ərazisi əyalətlərə bölünürdü. Onları yalnız xəlifənin qarşısında cavabdeh olan hərbi canişinlər-əmirlər idarə edirdi. Əvvəllər Əməvilər və onların canişinləri idarəetmədə hakim olmuş Bizans və Sasani hüquqlarının prinsiplərinə, həmçinin özlərinin şəxsi qərarlarına əsaslanırdılar. Belə ki, ərəb işğallarının hələ erkən çağlarında Sasani və Bizans siyasi-inzibati aparatı və orada çalışan məmurları saxlamışdılar.

Böyük bir ərazinin idarə olunmasını nisbətən asanlaşdırmaq üçün ərəblər canişinlik sistemi yaratdılar. Əvvəllər beş vilayət var idi:1) Hicaz, Yəmamə, Ərəbistan yarımadasının torpaqları, Suriya, Lubnən, Urdun; 2) Misir; 3) İki İraq-Ərəbistan İraqı-Qədim Babilistan və Assuriya, İran İraqı: 4) Azərbaycan, Arran, Gürcüstanın bir hissəsi, Ermənistan, Əlcəzair və Kiçik Asiyanın bir qismi; 5) Şimali Afrika və Əndəlus(İspaniya). Azərbaycan və Arranın istilasından sonra bu ərazilər mahiyyətcə dəyişməz qaldı. Yalnız adları dəyişdi. Ərəblər çox vaxt Azərbaycanı, Arranı və ermənilərin yaşadıqları yerləri bir inzibati vahiddə birləşdirərək, bir canişinlik yaradır və onu bəzən «Ərməniyyə», bəzən də «Azərbaycan» adlandırırdılar. Əsas şəhər və məntəqələrdə ərəb hərbi qarnizonları – rəbatlar təşkil olunurdu.

Şəhərlərdə əhalinin etnik tərkibi qarışıq idi. Yerli əhalidən başqa şəhərlərdə ərəblər, ermənilər, yəhudilər və s. millətlərin nüma-

yəndələri yaşayırdılar. Hər hansı bir şəhəri mühasirəyə alan ərəblər əvvəlcə yerli əhaliyə döyüşsüz təslim olmağı təklif edirdilər. Ərəb hakimləri xilafətin idarəsi zamanı bir sıra abadlıq işləri aparmış, şəhərlərin bərpası ilə məşğul olmuşdular. İran-Bizans müharibələri dövründə dağılmış bir çox şəhərlər ərəblərin hökmranlığı dövründə bərpa olunmuşdu. Ərəb işğallarının gedişində ərəblər Dərbəndin strateji və iqtisadi əhəmiyyətini nəzərə alaraq, onun azad şəhər-dövlət statusunu tanıdılar. Tədricən Dərbənd alınmaz istehkama çevrildi.

Canişinlik mərkəzlərindən əlavə, inzibati və hərbi aparatların vilayət və mahallarda öz şöbələri var idi. Ərəblər bu sahədə yerli əyan və məmurlardan istifadə edirdilər. Ərəb dilində yazı işləri I Ömər tərəfindən təşkil olunmuş divanda tətbiq olundu, çünki onlara bilavasitə xəlifənin özü nəzarət edirdi. Digər ərazilərdə isə qeyd olunduğu kimi, pəhləvi və yunan dillərindən istifadə olunurdu.

Əməvilərin dövrundə xilafət mahiyyətcə dünyəvi dövlətə çevrildi. Onlar dini-ənənəvi ehkamların sistemləşdirilməsinə o qədər də fikir vermədikləri halda, dövlət idarəsinə daha çox diqqət yetirirdilər.

Xəlifələr poçt işlərinə xüsusi diqqətlə yanaşırdılar. Xilafətdə poçt yollarının salınması xilafətin coğrafi şəraiti haqqında ətraflı məlumat toplamağı tələb edirdi. Xilafətin öz mərkəzi vilayətləri ilə əlaqə yaradılmasında pabitə poçtları-bəridlər mühüm rol oynayırdı. Bu poçt yollarının salınması I Müaviyənin(661-680) dövrünə təsadüf edir. Xəlifə Əbdül Malikin dövründə poçt işlərində göyərçinlərdən istifadə olunmağa başlandı. Müəyyən məntəqələrdə poçt dayanacaqları var tdi. Burada adətən gömrükxanalar da yerləşirdi ki, yolçular atlarını poçt-gömrük məntəqələrində dəyişirdilər.

Zərəfşanın yuxarı vadisində tapılan dəri üzərindəki sənəddə ət-Təbərinin II Ömərin Soqdada vəziyyəti yaxşılaşdırması barədə dedikləri bir daha təsdiq olundu. Bu məktubda qeyd olunur ki, xilafətdə poçt atlarından istifadə edirdilər. O, poçtun təşkilinə xüsusi diqqət yetirirdi. Məsələn, Soqdada poçt hələ II Ömərin hakimiyyəti illərindən əvvəl təşkil olunmuşdu. Hər poçt dayanacağında məmurlar çalışırdı.Vilayət paytaxtlarında valinin yanında poçt işlərilə və xilafətin paytaxtına siyasi məlumatlar verməklə məşğul olan poçt rəisləri fəaliyyət göstərirdi. Poçt idarəsi və onlara tabe olan poçt məntəqələrinin rəisləri vilayətdə siyasi polis (şurta) vəzifəsini yerinə

yetirirdilər. Poçt idarələrinin tabeliyində olan yollarda yol göstəricisi rolunu oynayan xüsusi mil daşları (1 mil təqribən iki kilometrə bərabərdir) qoyurdular. Bəzən bu daşların üzərində yolun kim tərəfindən salınması da qeyd olunurdu.

Əməvilərin sosial bazası çox məhdud idi. Onlar bütün ərəb zadəganlarına deyil, əsasən onların Suriya və Misirlə bağlı hissələrinə istinad edirdilər. Müxtəlif sosial qruplar bu sülalənin hakimiyyətindən narazı idilər. Dövlət aparatının və maliyyə orqanlarının xilafətdə möhkəmlənməsinə baxmayaraq,Əməvilərin hakimiyyəti qeyri-sabit idi. Xəlifə II Ömər (717-720) onu möhkəmlətmək üçün şiələrin və xaricilərin rəhbərləri ilə danışıqlar apararaq, onlarla barışıq əldə etməyə cəhd göstərdi. Lakin bu cəhdlər bir fayda vermədi.

*Sosial-iqtisadi münasibətlər, vergi sistemi, torpaq mülkiyyət formaları*

Torpaq sahibləri müsəlman icmasının xəzinəsinə ancaq torpaq vergisi verirdi. Bizans imperatorunun, yunan əyanlarının, Sasani şahənşahlarının və şah nəslindən olanların, ya qaçan feodalların malikanələri müsəlman icmasının mülkiyyətinə çevrilirdi. İşğal edilmiş xalqların ictimai inkişafından geri qalan ərəblər mürəkkəb istismar və idarəetmə üsullarını birdən-birə mənimsəyə bilməmişlər, buna heç ehtiyac da duymurdular, çünki öz tələbatlarını əhalidən yığdıqları qənimət və töycülər hesabına ödəyirdilər. Ərəblər tutulmuş ölkələrdə mövcud olan sosial-iqtiadi, inzibati münasibətləri toxunulmaz saxlayıb, ən yüksək hakim təbəqə kimi yerli feodal cəmiyyətindən üstün oldular.

Torpaqlar üzərində ali mülkiyyət hüququ dövlətə məxsus idi. Torpaqların müəyyən kateqoriyası üzərində icma mülkiyyəti mövcud idi. Tədqiqatçıların fikrincə xilafətin şərq hissəsində icma ərəb işğalından sonra da mövcud olmuşdur.

İctimai münasibətlərə müdaxilə etməyən ərəblər, yerli idarəetmə orqanlarının, o cümlədən məhkəmə və polis müəssisələrini də toxunulmaz saxladılar. Ərəb işğalları və inkişaf etmiş ölkələrdə ərəb hakimiyyətinin bərqərar olunması ərəb cəmiyyətində gedən iqtisadi və siyasi proseslərə təkan verdi, onu bir qədər də çətinləşdirdi.

Ərəb işğallarından sonra əyalətlərdəki hakimiyyət hərbi rəislərin- əmirlərin ixtiyarında idi. Əvvəllər vergiləri yerli hakimlər

toplayırdılar. İlk vaxtlar vergilər kişi əhalisinin sayı nisbətində yığılırdı. Çünki becərilən torpaq sahələrinin həcmi dəqiqləşdirilmişdi. Verginin yığımı ilə yerli torpaq sahibləri, inzibati hakimiyyət və ruhanilər məşğul idi. Onlar vaxtlı-vaxtında verginin ödənilməsinə və əhali üzərində qoyulan mükəlləfiyyətlərin yerinə-yetirilməsinə təminat verirdilər. Bütün işğal edilmiş ölkələrdə qadınlar, həddi-buluğa çatmayanlar, dilənçilər, ruhi xəstələr və öz əməyi hesabına yaşayan rahiblər azad olunurdu.

Rəiyyətlərin siyahılarının tərtibi və vergilərə nəzarət əvvəldən mövcud olan yerli, aidiyyatı olan müəssisələrin məmurlarına tapşırılmışdı. Onlar nəinki alınan vergiləri qeydiyyatdan keçirir, hətta onları ərəblər arasında paylaşdırırdılar.Torpaqlardan iki cür vergi- qeyri- müsəlmanlardan xərac, ərəb və qeyri-ərəb müsəlmanlardan uşr alınırdı. Erkən çağlarda xəracı qeyri-müsəlmanlardan ya pulla (məhsulun miqdarından asılı olmayaraq), ya da məhsulun 10-50%-i qədərində natura ilə alırdılar. Dövlət torpaqlarını becərən kənd icmasının üzvləri də xərac verirdilər. Onların məhsulun ikidə birindən-üçdə ikisi hissəsinə qədər verdikləri hissə xərac müqasimə, pul və natura ilə qarışıq şəkildə verdikləri isə xərac misahə adlanırdı. Verginin yığılması zamanı onun miqdarı torpağın vahid hissəsi və keyfiyyəti ilə müəyyənləşirdi. Müsəlmanlardan alınan uşr vergisi məhsulun onda bir hissəsini nəzərdə tuturdu.

Torpağı becərən kəndlilər boyunlarında lövhəcik gəzdirməli idilər. Bu lövhəciklərdə kəndlinin yaşayış yeri, onun xəracı və ya cizyəni ödənməsi göstərilməli idi. Bu lövhəcikləri almayan kəndliləri yolda saxlayır və yalnız vergi ödənildikdən sonra kəndlini azad edirdilər. Gəlirlərin ödənməsi vaxtı gəlib çatdıqda yenidən lövhəciklr kəndlinin boynuna taxılırdı. Bu sistem demək olar ki, xilafətə tabe olmuş bütün ərazilərdə yayılmışdı.

Xəlifələrin dövründə vergi toplanmasına müxtəlif münasibət olmuşdur. 705-ci ildə Misir hakimi Əbdül Əziz əvvəllər vergidən azad olunmuş xristian rahiblərinin də xərac ödəməsi haqqında əmr verdi. Xəlifə II Ömər (717-720) islam qaydalarına riayət etməyə çalışırdı və itaət altına alınmış xalqlarla barışıq siyasəti yeridirdi. O, kilsə və monastırlar üzərinə qoyulan vergiləri qadağan etdi, islamı qəbul etmiş müsəlmanlardan alınan can vergisini və xəracı toplamağa qadağa qoydu. Lakin bu bir sıra əyalətlərin maliyyəsində

elə bir çətinlik yaratdı ki, köhnə qaydaları bərpa etmək lazım gəldi və onun ölümündən sonra bu imtiyaz ləğv olundu. Onun varisi II Yəzid (720-724), nəinki monastr və kilsələlrdən vergi aldı, islam tarixində ilk dəfə olaraq xristianların təqibinə başladı. Xəlifə Hişam (724-743) dövründə vergilər xeyli artdı və vergilər böyük qəddarlıqla yığılırdı. Burada vergi verməyənlərə qarşı işkəncələr və həbs cəzası da tətbiq edilirdi. Xorasanın canişini əl-Cərrah isə müsəlmanlardan və qeyri-müsəlmanlardan xərac alınması siyasətini yeridirdi. 700-cü ildə əl-Cərrahın verdiyi yeni qanuna əsasən ərəb olmayan müsəlmanlar cizyə verməli idilər. Ağır vergi siyasətinə qarşı İbn əl-Əşasın başçılığı altında üsyan qalxdı, lakin məğlubiyyətə uğradı.

Xəlifə Ömərin dövründə torpaqların müsəlmanlar arasında bölüşdürülməsini məhdudlaşdırmaq cəhdləri edildi. Əsgərlər arasında torpaqların bölüşdürülməsi icmanın digər üzvlərini yaşayış vasitələrindən məhrum edə bilərdi. Tezliklə, Babilistan torpaqları müsəlman icmasının ayrılmaz mülkiyyətinə çevrildi. Torpaqların becərilməsi ilə ərəblər çox nadir hallarda məşğul olurdular. Onlar torpağı icarəyə verə bilərdilər. Bu zaman icarədarla kəndli arasında müqavilə bağlanırdı.

Xəlifə Ömər torpaqların yalnız müəyyən qrup insanlar arasında bölüşdürülməsinə çalışırdı. Ümumiyyətlə isə, işğal olunmuş ərazilərdə şah sülaləsinə məxsus torpaqlar, həlak olmuş və ya çıxıb getmiş mülkiyyətçilərin torpaqları, boş qalmış bataqlığa çevrilmiş torpaqlar xəlifə Ömərin dövlət torpaqları fonduna qatıldı. Xəlifə Ömərin dövründəki vergi siyasətində olan yeniliklərdən biri də verginin torpağın keyfiyyətindən asılı olaraq alınması idi. Bütün mənbələrdə qeyd olunur ki, xəlifə Osmanın dövrundə torpaqların paylanması daha geniş yayılmışdı. Torpaq üzərində mülkiyyətin əsas şərtlərindən biri onun becərilməsi idi. Xəlifə Əlinin dövründə torpağın becərilməsinə xüsusi əhəmiyyət verilirdi. Ərəbistanda və işğal olnmuş ərazilərdə vilayətlərin idarəsi əmir və ya valinin başçılıq etdiyi dəftərxana vasitəsilə həyata keçirilirdi.

Xəlifə tərəfindən təyin olunan, qoşuna rəhbərlik edən və tabe olunmuş ərazidə daxili intizamın qorunması üçün məsuliyyət daşıyan canişinlər artıq VII əsrin sonlarında qazilərin xidmətindən istifadə edirdilər və bununla da, özlərinin məhkəmə sahəsinləki vəzifələrini bir qədər yüngülləşdirirdilər.

İdarə sisteminin mərkəzi orqanlarından aşağıdakıları qeyd edə bilərik:

1. Divan əl-Cund ordunun təchizatı və silahlanması ilə məşğul olurdular. Onun nəzarəti altında məmurlar yığma və muzdlu dəstələrin siyahısını tutur, hərbi xidmətə görə verilmiş torpaq sahələrini və vergiləri müəyyənləşdirirdi.
2. Divan əl-xərac pul və natura ilə daxil olan müxtəlif vergilərin hesabını aparan mərkəzi maliyyə orqanlarının fəaliyyətinə nəzarət edirdi.
3. Divan əl-Bərid yolları və poçtaları idarə edirdi.

Müsəlman icması sözün həqiqi mənasında mərkəzləşdirilmiş dövlət deyildi. Əvvəllər Mədinə, sonralar Suriya, daha sonra isə Bağdad kimi mərkəzlərin olmasına baxmayaraq, onlara tabe olan əyalətlər o qədər müstəqil idilər ki, özləri daxili gömrüklərin alınmasını həyata keçirirdilər.

Vergi istismarının artması əhalinin fəal müqavimətinə gətirib çıxardı və çoxsaylı üsyanlarla nəticələndi. Onların ən güclüləri Orta Asiya və Şimali Afrikada baş verdi. Sonuncu xəlifə II Mərvan(744-750) dövründə, hətta Suriyanın şəhər və kənd əhalisi ona qarşı üsyanlar qaldırdılar. İraqda II Mərvan xaricilərlə gərgin mübarizə aparmağa məcbur oldu. Bu dövrdə şiələr də xeyli fəallaşdı və geniş təbliğata başladılar.

*Əməvilər xilafətinin süqutu* 40-cı illərin ortalarında damla-damla yığılan narzılıqlar Hişamın (724-743) 20 illik hakimiyyətindən sonra taxt-tac uğrunda mübrizədə üzə çıxdı. İl yarım ərzində müxtəlif ərəb tayfalarına istinad edən üç iddiaçı bir-birini hakimiyyətdə əvəz etdi. Bu isə Fələstindən Aralıq dənizinə qədər tayfalararası mübarizəni son dərəcə kəskinləşdirdi ki, bu da Əməvilər dövlətinin süqutunu yaxınlaşdırırdı. Qarışıqlıq sonuncu Əməvi xəlifəsi Mərvanın (744-750) dövründə baş verdi. 60 yaşında hakimiyyətə gələn II Mərvan enerjili və təcrübəli hərbi rəis idi.

Xəlifə Əlinin vəfatından sonra onun tərəfdarları uzun müddət Əməvilərə qarşı mübarizə apardı. Əslində Əlinin vəfatı peyğəmbər nəslinin digər qolu olan Abbasilərin hakimiyyət uğrunda mübarizəyə başlamasına təkan verdi. Diqqəti çəkən maraqlı məsələlərdən biri də budur ki, Abbasilərin başlamış olduğu bu mübarizədə islamı qəbul etmiş fars əyanları ilk gündən etibarən daha yaxından iştirak etməyə başladılar.

Beləliklə, VIII əsrin birinci rübündə Əməvilərə qarşı yeni bir dəstə–Məhəmmədin əmisi Abbasın ailə nümayəndələri siyasi meydana çıxdı. Abbasilər hakimiyyətə məhz peyğəmbərin nəslindən olanların gəlməsini qanunauyğun hesab edir və əhalinin düşdüyü bu ağır vəziyyətin səbəbkarı isə yalnız hakimiyyəti qeyri-qanuni qəsb etmiş Əməvilərdə görürdülər. Təbii ki, belə bir təbliğat əhalinin çoxsaylı narazı təbəqəsi içərisində əks-səda tapırdı. Abbasi təbliğatçıları kimliyindən asılı olmayaraq xilafətdə yaşayan bütün təbəqələri və təriqət sahiblərini, o cümlədən ərəbləri, qeyri ərəbləri, qeyri müsəlmanları, torpaq sahiblərini, kəndliləri, xariciləri, şiələri və sairələri cəlb etmək istəyirdilər. Onlar bəyan edirdilər ki, xilafət Abbasilərin hakimiyyəti altına keçsə, bütün müsəlmanlar xəracdan azad olacaqdır, qeyri- müsəlmanların isə vergiləri azaldılacaqdır. Bu təbliğat ən münasib mühiti Xorasanda və Mərvdə tapdı.

II Mərvan Suriyadakı qiyamları və Şimali Afrikada xaricilərin çıxışlarını yatıra bilsə də, Xorasanda şimal və cənub ərəbləri arasnda gedən kəskin mübarizəyə qarşı ölçü götürə bilmədi. Çünki bu zaman xəlifə ölkənin mərkəzində qanun-qayda yaratmaqla məşğul olduğu üçün öz canişininə kömək göstərə bilmədi. Bundan istifadə edən Abbasi imamı İbarhim ibn Məhəmməd 747-ci ilin martında özünün şəxsi nümayəndəsi Əbu Müslümü üsyan hazırlamaq üçün Xorasana göndərdi.

Mərv vahəsinə gələn Əbu Müslüm «Allahın kitabına» və islam qaydalarına uyğun hərəkət edəcək, peyğəmbərin ailəsindən olan imam haqqında təbliğata başladı. Qızğın və bəlağətli çıxışlar nəinki şiələri, həmçinin xariciləri, bütünlükdə Əməvi haki-miyyətindən narazı olan bütün qüvvələri onun ətrafında cəmləşdirdi. 15 iyunda üsyan başlayanda Əbu Müslümün ətrafında 2000 tərəfdar var idi. Lakin Xorasanda Əməvi canişini Nasr ibn Səyyar yaxınlaşan təhlükəni görmədi və geniş miqyas alana qədər onu beşiyindəcə söndürmədi. Bu isə Əbu Müslümə 747-ci ildə Mərv yaxınlığında üsyana başlamağa imkan verdi və elə ilk döyüşdə xəlifə orduları darmadağın edildi.

Abbasilərin tərəfdarları bütün Xorasanı tutduqdan sonra II Mərvan əsl böyük təhlükənin haradan gəldiyini başa düşdü. O, hərəkatın başçısı İbrahimi tapdı və həbs etdi. 26 iyun 749-cu ildə Nəhavənd yaxınlığında baş verən döyüşdəki II Mərvan məğlub oldu.

Bu isə ağır vəziyyəti dəyişmədi. 29 avqustda Abbasi orduları Kufəyə daxil oldular. Əbül Abbas əs-Səffah xəlifə elan edildi.

## ƏMƏVİLƏR SÜLALƏSİ (661-750)



## KORDOVA ƏMİRLİYİ

Ərəblər işğal dövründə bir neçə istiqamətdə irəliləmiş, şərqdə Çinə, qərbdə İspaniyayədək gəlib çıxmışdılar. Artıq VIII əsrin əvvəllərində İspaniyanın siyasi durumu bu ölkənin ərəblər tərəfindən çox asanlıqla işğalına gətirib çıxardı. Bu dövrdə İspaniyada bir-biri ilə münaqişədə olan bir çox tayfalar yaşayrdı: vestqotlar, romanlar, vandallar və sairə. Nisbətən güclü olan vesqot tayfaları İspaniyanın böyük bir ərazisinə sahib olsalar da daxilən zəifləyirdi. Axırıncı vesqot hökmdarı həm romalıları, həm də yəhudiləri özündən narazı salmışdı. Narazı ünsürlər bütün Şimali Afrikaya sahib olmuş ərəblərin İspaniyaya daxil olacağı günü bir xilaskar kimi səbirsizliklə gözləyirdilər. İlk ərəb qoşunları İspaniyaya 711-ci ildə sərkərdə Tariq ibn Ziyadın başçılığı ilə daxil oldu. Siyasi və hərbi cəhətdən zəifləmiş İspaniya Tariqə heç bir müqavimət göstərə bilmədi. Roderiqo elə ilk döyüşdə Tariqə məğlub oldu. Məşhur Cəbəlut-Tariq boğazının adı da ərəblərin İspaniyaya olan hərbi ekspedisiyası ilə bağlı olub, sərkərdə Tariq ibn Ziyadın adından yaranmışdır.

Tariqin uğurlarını eşidən başqa bir ərəb sərkərdəsi, Şimali Afrikanın faktiki ağası sayılan Musa ibn Nuseyr də böyük bir qoşunla İspaniyaya yürüş etdi. Xəlifə bu sərkərdələri geri çağırarkən Musa öz oğlu Əbdül Əzizi İspaniyaya vali təyin etdi. İspaniya xilafətin mərkəzindən çox uzaqlarda olduğundan valilər tez-tez nəzarətdən çıxır, müstəqilləşirdilər. İspaniya valilərinin mərkəzdən qaçma meyllərinin qarşısını almaq məqsədilə Əməvi xəlifələri valiləri tez-tez dəyişmək məcburiyyətində qalırdılar. Əməvilərin hakimiyyətinin devrilməsinədək 20-dən çox vali dəyişmişdir. 711-756-cı illər ərəb İspaniyasının tarixində valilər dövrü sayılır.

Ərəblərin Əndəlus adlandırdığı (Bu İspaniyada yaşayan Vandal tayfalarının adı ilə bağlıdır.) İspaniyada Əməvilərin nüfuzu çox güclü idi. Abbasilərin Əməvi qırğınından canını güclə qurtara bilən bu sülalənin numayəndəsi Əbdür Rəhman əvvəl Məğribə, sonra isə İspaniyaya qaçmaq imkanı qazanır. 757-ci ildə o, heç bir çətinlik olmadan İspaniyada Əməvilərin hakimiyyətini bərpa edir və orada Kordova əmirliyini yaradır. Bu əmirliyi Əməvilər xilafətinin davamı kimi də qeyd etmək olar. Əbdür Rəhmanın İspanyianı işğal etmədən ölkəyə sadəcə daxil olması, onun tarixdə «Dəxil» ləqəbi ilə tanınmasını səciyyələndirmişdir. Tarixçilər Əbdür Rəhmana «ən-

Nasir» («Qalib») və«Qureyş qartalı» ləqəblərini də vermişdilər. Onun uzun müddətli və səmərəli hakimiyyəti illərində əyalətin böyük hissəsi geri qaytarıldı və mərkəzi hakimiyyətə birləşdirildi, ölkədə sülh və əmin-amanlıq abu-havası yaradıldı. Müsəlman İspaniyası Bizans imperiyası, Fransa, Almaniya və İtaliya ilə səfir mübadiləsi aparan böyük dövlətə çevrildi. Buna görədir ki, Əbdür Rəhman mərkəzi Kordova olmaqla yaratdığı dövləti xilafət adlandırırdı. Onun tolerant hakimiyyəti dövründə üç din-xristianlıq, iudaizm və müsəlman dinlərinin vahid ərazidə mövcudluğu İspaniyanın çiçəklənməsində və yüksək zirvəyə yüksəlməsində böyük əhəmiyyət kəsb etmişdir. Kordovada iudilərə müsbət münasibətini III Əbdür Rəhmanın şəxsi həkimi və xəzinadarı olan Xasday ibn Şafrutu (915-970) özünə birinci vəzir təyin etməsində də görürük. Müsəlman İspaniyasında iudilərin mədəni mərkəzi olan iudi cəmiyyəti fəaliyyət göstərirdi. Bu cəmiyyət ən uzaq iudi qrupları ilə əlaqə saxlayırdı. Haqqında danışdığımız cəmiyyət, hətta Xəzər xaqanı İosif Xasdayla yazışaraq, öz məktublarının birində Kordova xəlifəsinin böyüklüyünü və xilafət torpaqlarını qorumaq məqsədilə guya xəzərlərin ruslarla müharibə aparmasını nəzərə çatdırmaqla, müsəlmanlar qarşısında öz xidmətlərini də sadalamağı unutmamışdı. Sənətkarlığın, bağçılıq da daxil olmaqla kənd təsərrüfatının hərtərəfli inkişafı, ticarətdən gələn gəlir ölkənin firavan həyatını və əmin-amanlığını təmin etmişdi. Xəzinədə böyük ehtiyatın olması xəlifəyə incəsənətin böyük hamisi kimi çıxış etməyə imkan verdi.

Əbdür Rəhman müsəlman İspaniyasından qopardılmış torpaqları geri aldı, baskovların ərazisi və Mərakeşin qərb hissəsinin hesabına torpaqlarını genişləndirdi. Bununla da, o, Əndəlus Əməvilər sülaləsinin ən görkəmli nümayəndələrindən birinə çevrildi.

O, güclü ordu və donanma yaratmışdı. Bu isə onun şimalda xristian kralları üzərində qələbəsini təmin edirdi. Onun ordusunun gücü burada yüksək səviyyədə nizam-intizamın olması ilə ölçülürdü. Ordu ərəblərdən, bərbərlərdən, əsirlərdən, islamı qəbul etmiş, Bizans və ya İtaliya vasitəsilə buraya gəlmiş azad edilmiş qul və ya təhkimli kəndlilərdən təşkil edilmişdi. Sonuncuları ərəblər sakaliba adlandırırdılar. Bu məfhumun altında ərəblər Şimal-Şərqi Avropa xalqlarını-slavyanları nəzərdə tuturdular. Orduda əcnəbi ünsürlərin olması ölkədə sülhün və qanun-qaydanın qorunmasında xəlifəyə böyük imkanlar yaratdı. Hətta bir çox əyan ərəblərin çəkindiyi

hərbçilər-slavyanlar Əbdür Rəhmana kor-koranə itaət edirdilər, tabe olmamaq və ya xəyanət etmək fikirləri onlara yad idi. Bu əsgərlər kəndlilərin, sənətkarların və quldurlardan qoruduqları tacirlərin etibarlı müdafiəçiləri idilər. X əsrdə Kordovada 14 min slavyan-müsəlman var idi. Onların nüfuzu o qədər yüksəldi ki, XI əsrdə Kordova xilafəti dağılanda «sakaliba»lar bir neçə yerli kiçik sülalələr yaratdılar.

Əməvilər xilafətinin İspaniyada ağalığı XI əsrin əvvəllərinədək davam etdi. XI əsrin təxminən ikinci onilliyindən əsrin sonunadək olan dövr «tayfa hökamdarları dövrü» adlanır. Burada ayrı-ayrı əyalət sahibləri müstəqilləşmiş və torpaq üstündə bir-birləri ilə müharibə aparırdılar.

Bu dövrdə rekonkista hərəkatı-yəni İspaniyanın yerli xristian əhalisinin öz hakimiyyətlərini bərpa etməsi uğrnda müharibəsi başlayır. Yerli hakimlər kömək məqsədilə Şimali Afrikanın bərbər hökmdarlarına müraciət edirlər. Bu isə İspaniyanın bərbərlərin-Mürabitlərin ağalığı altına düşməsinə səbəb olur. Lakin gündən-günə güclənməkdə olan rekonkista müsəlman ağalığına son qoymaqda idi. 1492-ci ildə ərəblərin İspaniyadakı son dayağı – Qranada süqut etdi və bununla da, İspaniyada ərəb-müsəlman hökmranığına həmişəlik son qoyuldu.

## ABBASİLƏR XİLAFƏTİ 12

*Abbasilər xilafətinin yaranması* İrəlidə qeyd etdiyimz kimi, Əbu Müslüm üsyanının qələbə ilə nəticələnməsi Abbasilər sülaləsinin hakimiyyətə gəlməsini təmin etmiş oldu. Belə ki, 749-cu ildə Əbül Abbas əs-Saffah Kufə şəhərində təntənəli şəkildə xəlifə elan olundu. Lakin Əbül Abbas əs-Səffah hakimiyyətə gəldiyi zaman Əbu Müslüm üsyanı müvəffəqiyyətlə davam edirdi. 750-ci ilin yanvarında isə II Mərvanın on iki minlik qoşunları Abbasi dəstələrini Böyük Zab çayı yaxınlığında qarşıladı, lakin məğlub olub Suriyaya geri çəkildi. Xəlifənin böyük ümid bəslədiyi Suriya da onu müdafiə etmədi və hətta bir neçə günlük mühasirədən sonra Dəməşq Abbasilərə təslim oldu. Mərvan Misirin müqavimətini təşkil etmək istəyirdi, lakin onu orada öldürdülər. Digər əraziləri isə tutmaq elə bir çətinlik törətmədi.

Paytaxt Dəməşqdən Kufə yaxınlığında yerləşən əl-Haşimiyyəyə köçürüldü. 754-cü ildə qardaşı Əbül Abbasın qəflətən vəfatından sonra hakimiyyətə gələn Cəfər əl-Mənsur dövlətin tələblərinə cavab verən yeni paytaxt salınmasına qərar verdi. Paytaxt seçilərkən göstərilən yer kiçik kənddən ibarət olmuşdur. Şəhərin «suq Bağdad», yəni «Bağdad bazarı»nın yerində salındığı da qeyd edilir. Bağdad şəhərinin salınması üçün seçilən yerin havası yaxşı idi, dövlətin müxtəlif rayonları ilə həm quru, həm də su yolları vasitəsilə əlaqə saxlayırdı, ətraf regionun əhalisi yeni sülalənin hakimiyyətindən narazı deyildi. Ən mühümü isə bu idi ki, paytaxtın yaxınlığında onunla rəqabətə girə biləcək iri şəhərlər yox idi. Tarixi ədəbiyyatlarda Sasanilərin hakimiyyəti dövründə Bağdad yaxınlığında Çindən tutmuş Bizansa qədər olan ölkələrdən gəlmiş tacirlərin alver etdikləri, iri tiacərt yarmarkası keçirildiyi yer olduğu da göstərilir. Paytaxtın Dəməşqdən əvvəl Kufə yaxınlığına, sonra isə Bağdada keçirilməsinin bir sıra siyasi səbəbləri sırasına Dəməşqdə Əməvi ənənlərinin, Kufədə isə müxalif qüvələrin güclü olması da daxil idi. Abbasilər onların hakimiyyətə gəlməsində mühüm rol oynayan iranlılara şəhərin yaxın olmasını da məqsədəuyğun hesab edirdi. 1 avqust 762-ci ildə xəlifə əl-Mənsur xilafətin paytaxtı kimi nəzərdə tutulmuş Bağdad şəhərinin inşasına başlamaq əmri verdi.

750-1258-ci illər civarında hakimiyyətdə olan Abbasilər sülaləsinin xilafət dövrünü baş verən siyasi hadisələrin xarakterinə

görə üç mərhələyə ayırmaq olar: 750-945, 945-1132; 1132-1258. Birinci mərhələdə ilk 50 illik dövrdə xilafət güclü və nisbətən mərkəzləşmiş dövlət idi, lakin bu dövrdə baş verən xalq hərəkatları, xüsusilə Babək hərəkatı xilafətin fəqərə sümüyünü əymiş, onun parçalanmasının əsasını qoymuşdu. Birinci mərhələnin son nöqtəsini qoymaqla, həm də ikinci mərhələnin başlanğıcını əsaslandıran Buveyhilər 945-ci ildə Bağdadı tutdular. İkinci mərhələdə xəlifələr, faktiki olaraq, siyasi hakimiyyətlərini itirmiş, ancaq dini hakimiyyətlərini saxlaya bilmişdilər. 1132-ci ildə xəlifənin Cənubi İraqda dünyəvi hakimiyyətini bərpa etməklə üçüncü mərhələ başlamış, lakin monqol işğalları ilə üçüncü mərhələ başa çatmışdır ki, bununla da Abbasilər xilafətinin varlığına son qoyulmuşdur. Bu dövrün tədqiqatçısı şərqşünas alim N.Axundova isə birinci mərhələni 750-847-ci illərlə məhdudlaşdırır. Mərkəzi hakimiyyətin çiçəkləndiyi dövr hesab edilən bu mərhələdə paytaxt Samara şəhərinə köçürülmüş və məhz bu dövrdə Xilafətin hərbi-siyasi həyatına daxil olan türklər dövlət probleminin həllində söz sahibinə çevrilmişdilər. İkinci mərhələ kimi isə 847-945-ci illəri götürmüşdür.

Əməvilər sülaləsinin bütün nümayəndələri Əbul Abbas əs-Səffaha tabe olduqlarını bildirdilər. Lakin bu beyət Abbasiləri qane etmədi və hakimiyyətə əlləri qanlı başladılar. Belə ki, Əməvilərin 80 nümayəndəsi məhv edildi və bununla da, sakitləşməyən yeni hakimlər xəlifə Hişamın cəsədini qəbirdən çıxarıb yandırdılar.

Dəniz vasitəsilə xilafətdən ayrılan uzaq Əndəlusda (İspaniyada) isə yeni sülalənin-Abbasilərin hakimiyyətini qəbul etmək istəmirdilər. Əməvi qırğınlarından həmin sülalənin bir neçə nümayəndəsi əmir Əbdür Rəmanın rəhbərliyi altında Əndəlusa qaça bildilər və burada 756-ci ildə Hişamın nəvəsi Əbdür Rəhmanı əmir kimi qəbul etdilər.

Xalqın böyük yardımı ilə hakimiyyətə gəlmiş Abbasilər onlardan üz çevirərək, verdikləri vəddən imtina etdilər. Xalqın üzərinə qoyulan vergilər və mükəlləfiyyətlər daha da ağırlaşdı. Abbasilər nəinki xalqa, həmçinin xalq üsyanının başında duran Əbu Müslümə də xəyanətkarcasına yanaşdılar. Onun xalq içində olan nüfuzundan ehtiyatlanan xəlifə əl-Mənsur qanlı cinayətə əl atdı. 755-ci ildə Məkkəyə həcc ziyarətinə gedən Xorasan valisi Əbu Müslüm hörmət əlaməti olaraq, xəlifəyə baş əkdi, böyük ehtiramla qarşılanan vali, ertəsi gün mühafizəsiz yenidən xəlifənin hüzuruna

təşrif buyurdu və elə buradaca əl-Mənsurun göstərişi ilə onu qətlə yetirdilər. Əbu Müslümün ölümündən təsirlənən Xorasan, Sistan və Mavərənnəhr əhalisi üsyana qalxsalar da, digər üsyanlar kimi tezliklə yatırıldı.

Tarixçilər Bağdad xilafətini ən çox altı xəlifə –Mənsur və onun oğlu Mehdinin, nəvələri əl-Hadi və Harun ər-Rəşidin və sonuncunun oğlanları Əmin və Məmunun hakimiyyəti (833-cü ilədək) dövründə ən yüksək zirvəyə çatdığını göstərirlər. 751-ci ildə Talas çayı yaxınlığında baş verən döyüşü çıxmaq şərtilə Abbasilər xilafətində ərəb işğalları aparılmamışdır. Lakin Raşidiyyə xəlifələri və Əməvilər dövründə aparılan müvəffəqiyyətli işğallar nəticəsində Abbasilərin dövründə xilafətin sərhədləri ağlasığınaz dərəcədə genişlənmişdi. Şərqdə Çin sərhədlərindən başlayaraq, qərbdə İspaniya da daxil olmaqla Piriney dağlarına qədər uzanırdı. Saysız-hesabsız ölkələrdən alınan külli miqdarda gəlir əyan və feodalların, ən başlıcası isə xəlifə sarayının doymayan tələbatını ödəməyə yönəldilirdi.

Abbasi xəlifələri əldə etdikləri gəlirləri öz həyat tərzlərini yaxşılaşdırmağa sərf etmək istəyirdilər. Xəlifə sarayı öz təmtəraqına görə şöhrət qazanmışdı. Çox zaman ona «Bab əl-Əzhəb», yəni «Qızıl Qapı» və ya «əl-Xadra» -«Yaşıl Günbəz» deyərdilər. Burada məscid və 7 divanxana binası yerləşirdi. Xəlifənin göstərişi ilə Bağdad şəhəri «Mədinət əs-Səlam» («Sülh, əmin-amanlıq şəhəri) adlandırıldı.

Abbasilər xilafəti dövründə dövlət idarəetməsində hakim sinfin etnik tərkibində dəyişikliklər baş verdi. Qeyd edək ki, Abbasilərin Əməvi xəlifələrindən fərqli olaraq, yürütdüyü başqa xalqlara qarşı etimad siyasəti idi. Bu da Abbasilərin hakimiyyətə gəlməsində birbaşa iştirak edən farsların, sonra isə türklərin dövlət işlərinə cəlb edilməsi xilafətin nüfuzunun artmasına əhəmiyyətli təsir göstərdi.

*Abbasilər dövründə dövlət quruluşu, sosial-iqtisadi münasibətlər, vergi sistemi və torpaq mülkiyyət formaları* Öz struktur və rəsmi ideologiyasna görə VIII-IX yüzilliklərdə Abbasilər xilafəti teokratik mütləqiyyət olmuşdur. Sünni dövlət hüquq normalarına əsasən xəlifə öz şəxsiyyətində ali imam və ali əmir vəzifələrini cəmləşdirmişdi, yəni dini və dünyəvi hakimiyyət məhz ona məxsus

idi. Müsəlman icmasının başçısı kimi və Allah Rəsulunun təmsilçisi kimi, hətta Allahın özünün nümayəndəsi kimi xəlifə dövlətdə olan bütün torpağın və suyun ali sahibi sayılırdı. O, mütləq hakimiyyətə yiyələnmiş şəxsiyyət idi və bu da heç nə ilə məhdudlaşmırdı.

Artıq ilk Abbasi xəlifələri dövründə dövlət ənənələri müəyyənləşmiş və dövlət möhürünü saxlayan vəzir vəzifəsi təsis edilmişdi. Bir sıra divanlar fəaliyyət göstərirdi. Onlar arasında ən mühümləri-dövlət aktlarının hazırlanması, maliyyə, rabitə (poçt) üzrə olan divanlardır. Şəriətə əsaslanan məhkəmə sistemi qazilərin səlahiyyətində idi ki, onlar şəriət əsasında işləri aparırdılar. Xilafətin ordusu üç növ qoşundan- xəlifənin şəxsi qvardiyası, nizami ordu, sırf könüllülərdən təşkil olunmuş qoşundan ibarət idi.

Abbasilər və onları dəstəkləyən İran feodal qrupunun qələbəsindən sonra xilafətdə feodal meylləri artmışdı. İstehsalda külli miqdarda qulların olmasına baxmayaraq, quldarlıq əsas vasitəyə çevrilməmiş, erkən feodal cəmiyyətinin bir ukladı kimi qalmışdı. Ancaq onu da qeyd etmək lazımdır ki, dövlətin sosial-iqtisadi həyatına müəyyən təsir göstərmişdir.

IX-X əsrlərdə altı torpaq mülkiyyət forması var idi. I. Dövlət torpaqları. Bu ərəb işğalları zamanı tutulmuş torpaqlar idi. Bu torpaqlar xəlifəlik yarandıqdan sonra onun əsas torpaq fondlarını təşkil edirdi.

II. Sülalə üzvlərinin ixtiyarında olan şəxsi torpaq sahələri. Belə torpaq sahələrindən gələn gəlir həmin torpağın sahiblərinə çatırdı.

Belə ki, Əməvilər sülaləsindən qalma torpaqların çox hissəsi xəzinənin ixtiyarına keçdi ki, onun da əksəriyyəti xəlifəyə çatırdı. IX əsrə kimi Abbasi xəlifələrinin torpaq sahələri o qədər böyük idi ki, bu sahələrin idarə edilməsi üçün xəlifə xüsusi «malikanə divanı» yaratdı.

III. Xüsusi torpaqlar. İrsi xarakter daşıyan ayrı-ayrı şəxslərə məxsus olan xüsusi torpaqlar mülk adlanırdı.

IV. Bəxşiş edilmiş torpaqlar. Belə torpaqlar iqta torpaqları adlanırdı.

Yuxarıda qeyd edildiyi kimi, torpaq mülkiyyətinin ən geniş yayılmış formalarından biri iqtadır. Bu torpaqlar xəlifə tərəfindən yüksək rütbəli məmurlara, ordu başçılarına yüksək təbəqəyə daxil olan iri feodal ailələrinə verilirdi. Torpaq iqtasının bəxşiş edilmiş

iqta (təmlik) və icarəyə verilmiş iqta (icar)növləri mövcuddur ki, icarəyə verilmiş iqta özü də mülki iqta, xüsusi iqta, hərbi iqtaya bölünür

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, ilk xəlifələrin dövründə iqta paylanmamışdır. Xəlifə Osman ilk dəfə olaraq iqta torpaqları paylamışdır. Bağışlanmış belə iqta torpaqları şərti olaraq dövlət torpaq fonduna daxil olan «safavi» adlanan torpaqlardan verilirdi. Qeyd etmək lazımdır ki, safavi toraqları İraq və Suriyada da vardı.

Xam və sahibsiz torpaqlar da iqta torpaqlarının yaranmasında mühüm rol oynayırdı. Xəlifə yararsız xam torpaqlarını varlılara müqavilə ilə verirdi. İstifadə müddəti üç ildən beş ilə təyin edilirdi. Əgər həmin torpağı götürən şəxs bu müddətdə onu yararlı hala salmazdısa, ondan geri alınıb ya başqasına verilir, ya da dövlətə məxsus torpaqlara qatılırdı. Əks halda, əgər bu torpaq yararlı hala salınır, gəlir götürülür, oraya su çıxarılır və ev tikilirdisə, bu zaman həmin sahə onu götürmüş şəxsin şərti mülki sayılırdı. Beləliklə, iqta torpaqları yaranırdı ki, ondan ancaq gəlir vergisi alınırdı.

İqta institutu VIII əsrin axırlarından başlayaraq, sürətlə inkişaf etməyə başlamışdı. Qeyd edək ki, məhz iqta institutunun inkişafı Abbasilər xilafətinin siyasi cəhətdən tənəzzülünün əsas səbəblərindən biri hesab edilməlidir. İqta sistemi ilə yanaşı vergi sistemi də xilafətdə ictimai-iqtisadi münasibətlərin kəskinləşməsinin əsas amilinə çevrilmişdi.

V. Vəqf torpaqları. Dini müəssisələrə məxsus olan torpaqlardır ki, bu torpaqlar tam mənasında ayrı-ayrı ruhani təşkilatlarının ixtiyarında idi. Vəqf torpaqları IX əsrdə meydana gəlmişdi. Dövlət torpaqlardan heç bir vergi almırdı. Torpaqdan gələn bütün vergilər və gəlir onun sahibinə çatırdı. Ruhani təşkilatlarına vəqf torpaqlarından başqa tərpənməz əmlak, karvan və s. də daxil idi. Hər bir müsəlman öz torpağını müəyyən şərtlərlə vəqf edə bilərdi. Beləliklə, vəqf institutu xilafətin həyatında müsəlman ruhanilərin mövqeyini gücləndirdi. Bundan başqa, bir çox dindar feodallar öz iqta torpaqlarını saxta surətdə vəqf edirdilər. Bu həm ruhanilər, həm də feodallar üçün əlverişli idi, çünki öz torpaqlarını vəqf edən feodal dövlətə vergi vermir və xidmətdən azad ola bilirdi, əvəzində isə verdiyi torpaqdan gələn gəlirin bir hissəsi ona çatırdı. Təcrübə

göstərdi ki, saxta vəqf torpaqları xəlifə xəzinəsinə gələn gəliri azaltmaqla yanaşı dövlətin zəifləməsinə də səbəb oldu.

VI. Azad kəndli və icma torpaqları. XI əsrdən bu torpaqların getdikcə azaldığı müşahidə edilir. Abbasilərin yerli feodallarla, icmanın yuxarı təbəqələri ilə yaxınlaşması və onlara siyasi hüquqlar verilməsi, həmin təbəqələrin sadə icma üzvlərini daha da əsarət altına almalarına imkan verirdi.

Abbasilər xilafətində müəyyən dəyişikliklərlə əvvəlki vergi sistemi olduğu kimi saxlanılırdı. Əgər Əməvilərin dövründə vergilər bütünlüklə pulla toplanırdısa, artıq Abbasilərin dövründə ancaq verginin bir hissəsi pulla ödənilirdi. Bu sistemdən xüsusilə ikinci Abbasi xəlifəsi əl-Mənsurun (754-775) vaxtında geniş istfadə edilmişdir. Onun dövründə torpaq sahəsinin əkilib- əkilməməsindən asılı olmayaraq xərac pulla alınırdı. Mənsurun vaxtında vergi sistemində edilən bu dəyişiklik kəndlilərin amansız şəkildə qarət olunmasına səbəb oldu.

Məlumdur ki, xərac bir neçə formaya bölünürdü. Onlardan ən geniş yayılanı: misahi və muqasəm formasında yığılan xəraclardır. Misahi formasında yığılan xəraclar vergi kitabında qeyd olunmuş miqdarda natura şəklində və dirhəmlə alınırdı. Əməvilərin dövründə İraqda toplanan vergilərin əksəriyyəti xəracın bu kateqoriyasını səciyyələndirirdi. Muqasəm formasında toplanan xərac isə məhsulun miqdarına görə təyin edilirdi.

Qeyd etmək lazımdır ki, əyalətlərdə vergilərin toplanmasına nəzarətə poçt (bərid) divanı rəhbərlik edirdi. Poçt divanının başında sahib-əl-bərid dururdu. O hər bir hadisə haqqında xəlifəyə məlumat çatdırırdı. Vergilərin yığılması və onların bölüşdürülməsi üçün xəlifə Ömər «divan» adını alan idarə yaratmışdı. Əməvilər və Abbasilər zamanı divanların sayı artmağa başladı. Divanlar idarəetmənin müxtəlif sahələrinə baxırdılar. Onların başında xəlifə tərəfindən təyin olunan və onun qarşısında hesabat verən hakimlər dururdu.

Vergi sistemi Xəlifə Harun ər-Rəşidin dövründə daha da ağırlaşmışdı. Məhz bu xalq kütlələrinin narazılığını artıran başlıca səbəb idi. Hökumət nümayəndələri xalqı amansız talan etməyə başlamışdılar. Onun vaxtında vergilərdən xristian əhalisi xüsusilə əziyyət çəkirdilər. Nəticədə, onlar öz torpaqlarını buraxaraq, şəhərə yığışırdılar. Onların torpaqlarını isə ərəb feodalları ələ keçirirdilər.

Xristianlardan, ümumiyyətlə, müsəlman olmayan xalqlardan cizyə adlanan vergi toplanırdı. Bu vergi ildə bir dəfə toplanırdı. Puldan başqa daşınan əmlak, mal-qara da cizyə şəklində alına bilərdi. Əbu Yusif özünün «Xərac» kitabında yazırdı: Cizyə Savadda və başqa əyalətlərdə müsəlman olmayanlardan, yəhudilərdən, xristianlardan və s. alınırdı. Cizyə bu yerlərin kişilərindən: varlılardan-48 dirhəm, ortabablardan 24 dirhəm, yoxsul və zəhmətləri ilə yaşayan əkinçilərdən isə 12 dirhəm miqdarında alınırdı. Cizyə ildə bir dəfə yığılır, pulla yanaşı mal-qara da alınırdı. Ancaq donuz və şərab alınmırdı».Vergilərin alınmasından əlavə kəndlilər kanalların çəkilməsi, sarayların və qalaların tikilməsi işlərinə cəlb olunurdular.

Xilafətdə icarə sisteminin genişlənməsi xalq kütlələrinin vəziyyəini daha da ağırlaşdırırdı. Digər xəlifələrdən daha çox qəddarlığı ilə seçilən Harun ər-Rəşidin dövründə bu sistem daha da güclənmişdi. Xərac sistemi nəinki xəzinəyə gələn gəlirin, o, eyni zamanda, feodal münasibətlərinin sonrakı inkişafının da əsas mənbəyi idi. Harun ər-Rəşidin dövründə vergi sisteminin nə qədər əziyyətli olduğunu, xəzinəyə toplanan pulun miqdarından daha aydın görmək olar. Belə ki, Harun ər-Rəşidin dövründə hər il xəzinəyə 530312 milyon dirhəm toplanırdı. Harun ər-Rəşid öldükdən sonra xəlifə xəzinəsində 900 milyon dirhəm var idi.

Əməvilər sülaləsinin vaxtında olduğu kimi Abbasilərin dövründə də əsas hakim sinif feodal sinfi idi. Məlum olduğu kimi, Abbasi xəlifələri feodal sinfinə arxalanır, onlara torpaq sahələri paylayır, onların hüquq və imtiyazlarını artırırdılar. Bütün bunlar feodalların xalq kütlələrini daha çox istismar etməsinə şərait yaradırdı.

Bir feodal dövləti kimi Abbasilər xilafətində əsas əzilən sinif kəndlilər idi. Qeyd etmək lazımdır ki, Abbasilər xalq kütlələrini öz tərəflərinə çəkmək üçün vədlər vermişdilər. Lakin hakimiyyətə gəldikdən sonra öz vədlərinə əməl etmədilər. Əksinə onlar kəndlilərin üzərinə ağır vergilər qoyaraq, onların vəziyyətlərini daha da ağırlaşdırdılar. Bu ağır vergi yükü xalq içərisində narazılıqla müşahidə olunurdu. Baş verən üsyan və çıxışlar kifayət qədər güclü olmasa da, gələcəkdə baş verəcək iri miqyaslı hərəkatların ilk nişanələri idi.

Xalq çıxışları içərisində Cənubi İraqda baş vermiş «Zutt» tayfalarının üsyanını qeyd etməmək olmaz. Bu üsyan 820-ci ildən –

835-ci ilə qədər olan bir dövrdə xilafətə çox böyük zərər vurmuşdu. Bu üsyan o zaman yatırıldı ki, xəlifə tərəfindən onların bağışlandığı etiraf edildi.

Bu zaman Misirdə xəlifə məmurlarının topladığı ağır vergilərə qarşı etiraz olaraq qipti tayfalarının üsyanı baş verdi. Xəlifə Məmunun döyüşçüləri üsyan etmiş qiptilərə qarşı vəhşicəsinə rəftar etdilər. Onun əmri ilə ələ keçən hər bir qipti öldürülür, qiptin arvadı və uşaqları isə qul kimi satılırdı.

IX yüzillikdə Fələstində üzünü niqab ilə örtən Əbu Harbın rəhbərliyi altında kəndli üsyanı baş verdi. Lakin yaz əkini vaxtı kəndlilər öz evlərinə dağıldılar. Buna görə də, xəlifə qoşunları asanlıqla üsyanı yatıra bildi.

***Abbasilər xilafətində xalq hərəkatları və siyasi tənəzzül***

VIII yüzilliyn ikinci yarısı və bütün IX yüzillik güclü xalq hərəkatlarının baş verməsi ilə xarakterikdir. Bunlar əsasən kəndli hərəkatları olmuş və xilafətin şərq əyalətində baş vermişdir. Bağdad xilafəti tarixinin əsas məğzini məhz sosial ziddiyyətlərin və sinfi mübarizənin əksi olan xalq hərəkatları təşkil etmişdir. Bu hərəkatların kütləvi iştirakçıları kimi kəndlilər, şəhərin yoxsul əhalisi, bəzən də çoxsaylı qullar çıxış edirdilər. Abbasilərin hakimiyyəti ilə razı olmayan hakim sinfin ayrı-ayrı qrupları da, hərdən müəyyən vaxt müddətinə bu hərəkatlara qoşulurdular. Güclü üsyanlar şəklini alan xalq hərəkatlarının əsas səbəbi zəhmətkeşlərin istismarı və onlara feodallar tərəfindən (başda xəlifələr olmaqla) edilən zülm idi. Qeyri-qanuni vergi yığımı, əyintilər xalq kütlələrinin ağır vəziyyətini daha da dözülməz edir, xəlifə inzibati orqanlarına qarşı narazılıq yaradırdı.

VIII yüzilliyin ikinci yarısında bu mübarizə daha aydın görünən sosial xarakter aldı. 755-ci ildə Nişapur və Rey şəhərlərində Sunbadın başçılığı altında böyük kəndli üsyanı başladı və sonradan Azərbaycana da yayıldı. 767-ci ildə Xorasanda ustad Sisin rəhbər olduğu bir yeni üsyan baş verdi. 778-779-cu illərdə Qurqanda «qırmızı bayraqlılar» adlanan kəndlilərin hərəkatı vüsət tapdı. Bu dövrdə ən güclü hərəkat 776-783-cü illərdə Məvərənnəhri sarsıdan, görkəmli bir şəxsiyyətin rəhbərliyi altında keçən «ağ geyimlilər» üsyanı olmuşdur. Bu – Həşim ibn Hakim adlı şəxsiyyətdir ki, onu «Muqanna» ləqəbi ilə (yəni «örtük ilə bağlı») daha yaxşı tanıyırdılar.

Muqanna Mərv əhalisinə müraciət edərək demişdir: «Mən sizin və sizin dünyanızın Allahıyam. Mən özümü istədiyim adla adlandıra bilərəm. Mən xalq içərisində Adəm simasındayam, sonra Nuh simasında, sonra İbrahim simasında, Musa simasında, İsa simasında, Məhəmməd simasında, Əbu Müslüm simasındayam, nəhayət siz məni hal-hazırda necə görürsünüzsə həmin simadayam».

Feodal istismarının daha da şiddətlənməsi, xəracın məhsulun miqdarina görə deyil, torpağın sahəsinə görə toplanması kəndlilərin vəziyyətini xeyli ağırlaşdırdı. İdeya köklərinə görə Sasanilər dövrünün məzdəkilər hərəkatı ilə bağlı olan xürrəmilər islamı rədd edir, öz xürrəmdini görüşlərini yaymağı qarşılarına məqsəd qoyurdular. Məzdəkilər və xürrəmilər hərəkatı hakim siniflərə, xürrəmilər hərəkatı isə əlavə olaraq xilafətə qarşı yönəldilmişdi. Xürrəmilər hesab edirdilər ki. kainat daimi və sonsuzdur, insanların ruhu daima yaşayır, dünyada iki qüvvə-xeyirxah qüvvələrlə bədxah qüvvələr arasında daima mübarizə gedir. Onlar təbliğ edirdilər ki, ədalətsizlik ləğv edilməli, hamı bərabər yaşamalı, ümumi bərabərlik olmalıdır. Yer üzündə ədalətli cəmiyyət yaratmağın mümkünlüyünü təbliğ edən xürrəmilər ruhun bir bədəndən digərinə keçəcəyinə, şər qüvvənin xeyirlə mübarizədə məğlub olacağına inanırdılar.

Xürrəmilər hələ xəlifə Məmunun hökmranlığı dövründə xilafəti ciddi surətdə narahat etməyə başlamışdılar. Mehdi müxtəlif vilayətlərə və Təbəristan hakimi Əmr ibn əl-Əlaya belə məktub göndərdi. «Birləşin onlarla vuruşmağa çıxın». Doğrudan da onların birləşmiş qüvvələri üsyanı yatıra bildi.

VIII əsrin son rübündə başlayan Xürrəmilər hərəkatının hərəkətverici qüvvələri kəndlilər idi. Kəndlilər xarici əsarət və feodal zülmünə qarşı mübarizəyə qalxdılar. Azərbaycanda başlanan xürrəmilər hərəkatının ilk dövrü Ərdəbil nahiyəsindəki Bəzz qalasının sahibi kiçik feodal Cavidanın adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 808-ci ildə qırmızı bayraq altında Xilafətə qarşı növbəti üsyan başlandı. 10 min nəfərlik xəlifə qoşunları tərəfindən üsyan yatırıldı. Lakin xürrəmilərin başçıları arasında hərəkata rəhbərlik üstündə gedən mübarizə də çıxışların zəifləməsinə səbəb oldu. 816-cı ildə Xürrəmi başçıları Cavidan və Əbu İmran açıq döyüşdə bir-birlərini öldürdülər.

Cavidanın ölümündən sonra xürrəmilər hərəkatına (816-837) əsl adı Həsən olan Babək başçılıq etdi. Bir çox tarixi ədəbiyyatlarda

Babəkin VIII yüzilliyin 90-cı illərində anadan olduğu göstərilir. Azərbaycanın cənub torpaqlarında Miməz qəzasının Biləlabad kəndində yoxsul ailədə doğulmuş Babək həyatın bütün çətinliklərini görmüşdü. O əvvəl çoban, sonra tacir karvanlarında sarban, daha sonra isə Təbrizdə sənətkar şagirdi olmuşdur. Babək 18 yaşında Cavidanın dəvətilə xürrəmilərə qoşulmuşdu.

Xürrəmilər qısa müddət ərzində xəlifənin göndərdiyi böyük ordunu məğlubiyyətə uğratdılar. Babək hərəkatının mərkəzi möhtəşəm Bəzz qalası idi. Xürrəmilərin tərəfdarları hər tərəfdən axışaraq, Babəkin yanına gəlirdilər. Cənubi Azərbaycanda Babəkin rəhbərliyi ilə başlamış və bütün Qərbi İrana, İsfahan və Kermana qədər yayılmış böyük kəndli müharibəsi olmuşdur.

IX yüzilliyin 20-ci illərində Babəkilər Azərbaycanın böyük ərazisini ərəb işğalçılarından azad etmiş, hətta İranın Həmədan şəhərini tutmuşdular. Xürrəmilərin-Babəkilərin dəstələri xəlifə ordusunu dəfələrlə məğlubiyyətə uğratmışdılar. Bu xilafəti Şərq torpaqları ilə birləşdirən əsas strateji və tranzit yollarından məhrum edirdi. Xilafətə qarşı birgə mübarizə aparmaq məqsədilə Babək Bizans imperatoru ilə əlaqə yaratdı. Xilafətin ciddi təhlükə qarşısında olduğunu görən xəlifə əl-Mutəsim Bizansla sülh bağlayıb, bütün hərbi qüvvələrini Babəkə qarşı yönəltdi. Mutəsim Bağdad əhalisinin ona qarşı olan narazılığını da nəzərə alaraq, paytaxtı Samaraya köçürmüş və bu şəhər 56 il xilafətin paytaxtı olmuşdur. 892-ci ildə Bağdad şəhəri yenidən paytaxt oldu.

Bu kəndli müharibəsinin zəif tərəfi ondan ibarət idi ki, Babək bəzi iri alban (xristian) və İran (zərdüşt) feodalları ilə ittifaq bağlamışdı. Düzdür, bu ittifaq onun hərbi qüvvələrini gücləndirsə də, Xürrəmilərin sosial proqramının geniş miqyasda həyata keçməsinə mane olmuşdur.

Babəkilərlə müharibə çox vəsait və canlı qüvvə tələb edirdi. Təkcə 837-ci ildə ərəb qoşunlarına 1 mln. dirhəm vəsait sərf olunmuşdu. Babək üsyanının əks-sədası xilafətin digər yerlərindən də gəlirdi. Elə buna görə də, üsyan xilafəti güclü sarsıntıya məruz qoymuşdu. Xəlifə əl-Məmun (813-833) öləndə öz qardaşı və varisi olan əl-Mutəsimə (833-842) ən əsas vəzifə kimi «xürrəmilərlə mübarizəni qətiyyətlə və qəddarlıqla» davam etdirməyi vəsiyyət etmişdi. Mutəsim orduda müəyyən islahatlar apardı. Qeyd edək ki, Mutəsimin anası türk qadını olmuşdur. O dövrdə orduda türklərin

nüfuzu böyük idi və xəlifənin şəxsi qvardiyası da türklərdən təşkil olunmuşdu. Bu mənada, o, Bizansla döyüşlərdə şöhrət qazanmış Orta Asiyadan olan türk Afşin Heydər ibn Kavusu ərəb qoşunlarına hərbi başçı təyin etməklə müharibədə köklü dəyişikliklərə və dönüşə nail oldu. Bu zaman Xürrəmilər hərəkatında iştirak edən bəzi yerli feodallar bu hərəkatın onların mənafeyinə zidd olduğunu başa düşüb xəyanət edərək xürrəmilərdən uzaqlaşdılar. Babəkin müttəfiqləri olan feodallar ona xəyanət etmiş, yeni torpaqlar tutmuş və özləri üçün əlverişli şərtlərlə xəlifə ilə danışıqlara girmişdilər.

836-cı ildə Afşin 15 minlik qoşunla Bəzz üzərinə yeridi. Lakin onun Bəzzi keçmək cəhdi baş tutmadı. Babəkin iki minlik dəstəsi dağ yollarında Afşini məğlubiyyətə uğratdı. Afşin Bərzənd şəhərinə çəkilməyə məcbur oldu. Bəzzin mühasirəsini daha da möhkəmləndirdi. Xəlifə Afşinə əlavə qüvvələr göndərdi. Babəkin qüvvələri isə tükənirdi. Onda Babək Bizans imperatoru Feofil ilə ittifaq bağladı və o, xilafət ərazisinə yürüş edib, öz müttəfiqini dəstəkləməyə çalışdı. Lakin üsyan artıq iflasa uğrayırdı. Bir illik mühasirədən sonra 837-ci ilin avqustunda Xürrəmilərin son qalası Bəzz təslim oldu. Bəzz uğrunda vuruşmada 100 mindən çox ərəb əsgəri, 80 min üsyançı həlak oldu. Kiçik dəstə ilə mühasirədən çıxan Babək Bizansa getmək üçün yolüstü Arrana gəlir və keçmiş müttəfiqi alban knyazı Səhl ibn Sunbatın xəyanəti nəticəsində ələ keçirilir. Babək 838-ci ildə xəlifə əl-Mutəsimin əmri ilə işgəncə ilə öldürüldü.

Azərbaycanda Babək Xürrəmidin üsyanı ən böyük üsyanlardan olmaq etibarilə, həm də 21 il davam etmiş və xilafəti diz üstə çökdürmüşdü. Babəkin ardıcılları IX yüziliyin sonlarınadək bütün yeni üsyanların nüvəsini təşkil etmişlər.

Babək hərəkatı Yaxın və Orta Şərqin ən qüdrətli siyasi hərəkatı idi. Mübarizə illərində xürrəmilər xilafətin altı nizami ordusunu, təqribən yarım milyon döyüşçüsünü məhv etmişdi. Ərəb mənbələrinin məlumatına görə Azərbaycanın cənubunda və Deyləmdə xürrəmilərin sayı 300 min nəfərə çatırdı. Orduya Babəkin ən yaxın köməkçiləri xalq içərisindən çıxmış Adin, Abdulla, Tərxan, Rüstəm və başqa görkəmli sərkərdələr başçılıq edirdilər. Babək hərəkatının təsiri ilə Cibəl, Xorasan, Təbəristan, Astrabad, İsfahan və s. yerlərin əhalisi də üsyana qalxmışdı.

Afşin təkcə hərbidə deyil, o həm də xilafətin siyasi həyatında da mühüm sima kimi tanınırdı. O, Abbasilərin dayağı olan türk ordusu və xəlifə qvardiyasında xüsusi çəkiyə malik idi. O təkcə hərbi rəis-sərkərdə deyil, o həm də ərəb və müsəlman dünyasına təhlükə olan və onlara qarşı meydan oxuyan, xürrəmilər hərəkatının başında duran Babəki ərəblərin yolundan kənarlaşdırmışdı.

Xürrəmilər hərəkatının ən böyük ictimai təsiri 869-cu ildə Bəsrə ətrafında alovlanan Zəncilər üsyanında və IX yüzilliyin sonlarında baş qaldırmış Qərmətilər hərəkatında olmuşdur. Bu isə Xürrəmilər hərəkatının ictimai tələblərinin orta əsrlərdə xilafət ərazisində yaşayan bütün yoxsul təbəqələrin arzu, istək və tələblərinə hərtərəfli uyğun olduğundan doğmuşdur. Bunun üçün də xürrəmi ideologiyası yoxsul kəndli və sənətkarların, qulların müxtəlif vaxtlarda xilafətə qarşı kəskin silahlı və ideoloji mübarizə mənbəyi olmuşdur. Bu hətta bir neçə əsrlərlə davam etmişdir.

Xürrəmilər hərəkatının Abbasilər xilafətini tənəzzülə uğratmaqda, onun parçalanmasına və nəhayət, süqutunu yaxınlaşdırmaqda digər böyük rolu ondadır ki, sonradan mərkəzi hakimiyyəti öz əllərinə alan və xəlifələri bir oyuncağa çevirən türk tərkibli alayların yaranmasında əsas amil olmuşdur. Digər tərəfdən, onu da qeyd etmək lazımdır ki, türklərin mərkəzi hakimiyyəti ələ almasında belə xürrəmilər hərəkatı əsas rol oynamışdır.

Bəlli olduğu kimi, xilafətin parçalanmasında bu türk alaylarının və onların başçılarının böyük rolu var. Lakin xilafətin tənəzzülünü və parçalanmasını bütünlüklə onların adına bağlamaq elmi nöqteyi-nəzərdən səhvdir.

IX yüzillikdən türk hərbçilərinin müsəlman dövlətində rolu artmağa başladı. Abbasi xəlifələri türklərdən özləri üçün hərbi dəstələr yaratdılar. Onların başçılarına isə yüksək hərbi rütbələr verdilər. O cümlədən türk başçıları irsi olaraq, əyalətlərə canişin təyin edilirdilər ki, bu da türklərin rolunu daha da gücləndirirdi.

Xürrəmilər hərəkatı nəticəsində qüvvələri tükənmiş xilafət döyüş bacarığı üstün olan nizami orduya ehtiyac duyurdu. Ona görə də, o, türklərə istinad etməyə, onlardan ordusunun özəyini yenidən qurmağa məcbur oldu. Y.A.Belyayev yazır: «Bu türklər Ceyhun (Amu Dərya) və Seyhun (Sır Dərya) ətrafında yaşayan köçəri türk dəstələrindən təşkil edilmişdir. Onların bir hissəsi Bağdada, xəlifənin hərbi kazarma və düşərgələrinə gətirilərək, mərkəzə tabe olmaq

istəməyən əyalətlərin itaətə gətirilməsində əsas zərbə qüvvəsinə çevrilirdilər».

Xürrəmilər hərəkatı yatırıldıqdan sonra türklərin nüfuzu olduqca artdı. Yeni hərbi islahat xilafət üçün öz bəhrələrini verirdi. Xilafətin zəifliyini hiss edən bu türk əsgər və zabitləri özlərini sərbəst aparmağa və yaranmış vəziyyətdən istifadə edərək mərkəzi hakimiyyət uğrunda mübarizəyə başladılar. Nəticədə, xəlifələrlə türk sərkərdələri arasında siyasi hakimiyyət uğrunda kəskin mübarizə başladı.

847-ci ildə xəlifə Vasiq öldükdən sonra onun oğlu Məhəmmədi xəlifə seçmək istədilər. Lakin türk sərkərdələrindən olan İtax və Vasif bunu rədd edib, xilafət taxtına Vasiqin qardaşı Mütəvəkkili çıxardılar. Beləliklə, xəlifələri türklər təyin etməyə başladılar. Abbasilərin mərkəzi hakimiyyətdə nüfuzu da artıq yoxa çıxmağa başlamışdı. Onların irsi hüquqları əllərindən alınmışdı. Yeni seçilən xəlifələr türklərin istəyinin ifaçısına çevrilmişdilər.

Xəlifə Mutəvəkkil (847-861) türkləri mərkəzi hakimiyyətdən uzaqlaşdırmağa, öz canını onlardan xilas etməyə çalışdı. Lakin türk ordu başçılarından Kiçik Buğa və Bağır Türki sazişə gəlib bir dəstə türklə onu 861-ci il dekabrın 11-də öldürdülər.

Bundan sonra, türklər xəlifələrin həyatını yaşayıb-yaşamayacağını da həll etməyə başladılar. Onlar artıq heç kəslə hesablaşmırdılar. Abbasilər sülaləsindən daha heç bir kəs xəlifəliyi ya irsi, ya da başqa yolla tələb edə bilmirdi. Türklər kimi istəsələr onu xəlifə seçir, istəmədikləri xəlifəni də öldürürdülər.

Xilafətdə böyük bir qatışıqlıq hökm sürürdü. 861-ci ildən 870-ci ilə qədər ara çəkişmələrində 6 xəlifə – Mutəvəkkil, Muntəsir, Mustəin, Mutəd, Muhtədi, Mənsur–öldürülmüşdü. Bu dövrdə türklər özləri də kimin xəlifə olacağı ilə bağlı öz aralarında da mübarizə aparırdılar. 868-ci ildə Misirdə Tulunilər dövlətinin əsası qoyuldu. Beləliklə, xilafətdə ilk türk sülaləsi hakimiyyətə gəldi.

A.Belyayev özünün «Müsəlman təriqətləri» əsərində yazır: «Müsəlman məzhəbləri ideologiyası orta əsrlərdə və yeni dövrdə islamın yayılmış olduğu ölkələrdə barışmaz ictimai ziddiyyət və sinfi mübarizənin inikasıdır». Bu mübarizə bəzən böyük və kiçik dini müharibələr şəklini də almışdır. Bu cəhətdən islam dini çox yayılmış olan digər dinlərdən heç də ciddi fərqlənmə təşkil etmir.

İslam dini meydana çıxdığı vaxtdan on illər keçdikdən sonra iki əsas istiqamətə, yaxud təriqətə sünniliyə və şiəliyə bölünmüşdür. Müxalifətçi şiəlik təriqəti indiyə kimi öz mövcudluğunu qoruyub saxlamışdır. Şiəliyin tarixi gah silahlı, gah da ideoloji mübarizələrlə bağlıdır. İslamda olan bu təriqətdən zaman keçdikcə yeni-yeni təriqətlər meydana gəlmişdir ki, bunlardan xaricilər, mötədilləri, zeydiləri və başqalırını göstərmək olar.

Yuxarıda qeyd etdiyimiz kimi, IX yüzillikdə Abbasilər xilafəti kiçik əmirliyi xatırladacaq səviyyəyə çatdı ki, bunun da əsas səbəbkarı Azərbaycan xalqının, Babəkin başçılığı ilə xilafətə qarşı apardığı azadlıq hərəkatı olmuşdur.

Belə bir vəziyyətdə, xilafətdə yeni bir üsyan üçün səbəb yaranırdı. Hələ islam yaranmamışdan öncə Afrika sahillərindən Ərəbistana qullar–zəncilər gətirilirdi ki, onlar çox ağır işlərdə çalışırdılar. Qızıl və qiymətli fil dişi ilə məşhur olan Afrika sahillərində ərəb tacirləri, hətta müsəlman məskənləri salmışdılar. Əl-Məsudi Afrikanın sahilləri haqqında yazırdı: «Bura qızıl və möcüzələrlə bol, bərəkətli və isti bir ölkədir».

Ərəb tacirlərinin Şərqi Afrikadakı ticarət əlaqələri, o dövr mənbələrində və sonrakı ədəbiyyatlarda da işıqlandırılmışdır. Buranın əhalisi Bantu, əl-Büdcə, əl-Əşban, ən-Nüba və s. adlı tayfalardan ibarət idi, ancaq ərəblər bütün Şərqi Afrika xalqlarının zənci kimi tanıyırdılar. Onların yaşayış yerini isə «Biləd əz-Zənc» («Zəncilər ölkəsi») adlandırırdılar.

Qul karvanları və qul doldurulmuş gəmilər şimaldan və cənubdan Bağdad xilafətinə gəlirdi. Qullar (ərəbcə zinc deyilirdi) əsasən Zənzibardan gətirilirdi. Xilafətə gətirilmiş qulların həmin adanın adı ilə Zənci adlandığı da qeyd edilir. IX yüzillikdə Zənzibardan gətirilmiş qulların bir hissəsi xəlifənin qoşunu üçün seçilirdi, onların böyük bir hissəsi isə Cənubi İraqa və İran Xuzistanına göndərildi. Müaviyə Ərəbistanda olan mülklərində işlətmək üçün 4000 qul saxlayırdı. Qeyd etmək lazımdır ki, o dövrdə xilafətdə, xüsusilə İraqda qul bazarları mövcud idi. Bu qullar içərisində müxtəlif sənət sahibləri var idi.

Cənubi İraqa və İran Xuzistanına göndərilən qullardan, ümumiyyətlə bütün zənci qullardan ən ağır işlərdə istifadə edirdilər. Onlar kanallar qazır, bataqlıqları qurudur, şoranları təmizləyir, dəniz suyundan duz alır və bu kimi digər ağır işlərdə çalışırdılar. Bütün bu

işlər çox ağır zəhmət tələb edirdi. Xüsusilə, Bəsrə deltası həmişə bataqlıq olduğundan burada yaşayanlar vəba xəstəliyinə tutulurdular. Bəsrə kanalının çəkilişində on minlərlə qulun məhv olduğu da göstərilir. Zəncilərin ərəb dilini bilməməsi də onlar üçün çətinlik törədirdi.

Quldarlıq ukladı Bizans və Orta Şərqin ilk feodal cəmiyyətlərinə məxsusdur. Ərəb işğallarından sonra bu uklad, nəinki ləğv edilmiş, əksinə hətta daha da inkişaf etdirilmişdi. Təbii ki, xilafəti quldarlıq cəmiyyəti kimi başa düşmək düzgün olmazdı. Quldarlıq xilafətdə ancaq uklad olaraq qalmaqda idi. Özü də elə uklad ki, ərəb dövlətinin ictimai-siyasi və mədəni həyatında ən əhəmiyyətli bir mövqe tuturdu. Lakin qul əməyindən daha geniş miqyasda istifadə ərəblər tərəfindən işğal edilmiş ərazilərdə feodal münasibətlərinin inkişafını ləngidirdi.

Beləliklə, dövlətin ağır vergi sistemi, feodal əsarətinin güclənməsi, eyni zamanda, qullara münasibət xilafətdə sinfi ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu. Bütün VIII və IX yüzilliklər xilafət tarixində daim üsyanların baş verməsi ilə müşahidə edilmişdir. Bu öz təzahürünü ayrı-ayrı təriqətlərin ideologiyası altında gedən xalq hərəkatlarında daha aydın göstərirdi.

Belə bir zəmində, özünü Əli nəslindən olan bir şəxs kimi təqdim edən Əli ibn Məhəmməd siyasi meydana çıxdı. 868-ci ildə Əli ibn Məhəmməd Bəsrəyə gəldi. Saray həyatında baş verən çəkişmələri, mərkəzi hakimiyyətin zəifliyini və onun türklərin əlində bir oyuncağa çevrildiyini görən Əli, yaranmış bu əlverişli şəraitdən istifadə etməyi qərara aldı. Lakin Əlinin Bəsrədə üsyan təşkil etmək cəhdi də boşa çıxdı və o, şəhəri tərk edib Bağdada getməli oldu. Əli ibn Məhəmməd Bağdadda bir ilə yaxın yaşadı. O burada fəaliyyətini genişləndirərək özünə yeni tərəfdarlar topladı. Bağdadda yaşayan Əli Bəsrə ilə müntəzəm əlaqə saxlayırdı. Ona xəbər verdilər ki, Bəsrədə iki tayfa arasındakı münaqişəyə son qoyulmuş, şəhər hakimi isə öz vəzifəsindən qovulmuşdur. Həbsdə olanlar, o cümlədən Əlinin yaxın qohumlarının hamısı azad olunublar. Bu xəbəri eşidən kimi Əli 869-cu ilin sentyabr ayında Bəsrəyə qayıtdı.

Qeyd etmək lazımdır ki, Əli öz təbliğatını müvəffəqiyyətlə həyata keçirmək üçün şiəlik ideolgiyasından geniş istifadə etmişdir. Xalq arasında geniş yayılmış şiəlik cərəyanının əsas tərkib hissələrindən olan on iki imam və sonuncu imam Mehdinin qeyb

olması təlimindən istifadə etmişdi. Əli ibn Məhəmmədin təbliğatı ona xeyli tərəfdar toplamağa imkan verirdi. Artıq üsyanın birinci ilində Bəsrə qalasına Əli ibn Məhəmmədin ətrafına 15 min qul toplanmışdı. Öz ətrafına çoxlu qul toplayan Əli 869-cu il 7 sentyabrda açıq surətdə üsyan bayrağını qaldırdı. Üsyan 869-cu ildən 883-cü ilə qədər 14 illik bir dövrdə davam etdi. Beləliklə, Zənci qulların ən böyük üsyanlarından biri Bəsrə ətrafında baş verdi.

Bəsrədə bir neçə müvəffəqiyyətli qələbədən sonra Zəncilər 869-cu ilin oktyabrında xəlifənin gəmilərini və qayıqlarını ələ keçirdilər. Ancaq üsyançıların hələ də lazımı qədər silahı yox idi. Zəncilərə müqavimət göstərə bilməyən bəsrəlilər xəlifədən kömək istədilər. Xəlifə əl-Mutədi türk hərbi rəisi Calan başda olmaqla üsyançılara qarşı ordu göndərdi. Bu vaxtdan başlayaraq, bəsrəlilərlə zəncilər arasındakı hərbi əməliyyatlar lokal xarakter aldı. Lakin zəncilər hündür və möhkəm divarlarla əhatə edilmiş Bəsrəni almaqda böyük çətinliklərlə qarşılaşdılar. Ancaq Bəsrəyə yaxın qala və əyalətlərdə qullar öz keçmiş sahiblərini və nəzarətçiləri öldürür, çoxlu qənimət və silah ələ keçirirdilər. Digər bir tərəfdən, Məhəmmədin yoxsul kəndlilərə toxunmamaq haqqında qullara əmr verməsi də hər yerdə kəndli və yoxsul şəhərlilərin üsyana müsbət yanaşmasını şərtləndirdi. Üsyanın gedişində baş verən ən mühüm hadisələrdən biri zəncilər tərəfindən Obollun alınmasıdır. Bu şəhər böyük ticarət limanı idi. 28 iyun 869-cu ildə zəncilər şəhərə hücum etdilər və demək olar ki, tamamilə qarət etdikdən sonra yandırdılar. Obollu tutduqdan sonra Əli ibn Məhəmməd Abalan üzərinə hücuma keçdi. Oboll hadisələrindən xəbərdar olan şəhər əhalisi qorxaraq, şəhər qapılarını Sahib əz-Zəncin (Əli ibn Məhəmmədin) qarşısında taybatay açdılar.

Əli ibn Məhəmməd işğal edilmiş torpaqlarda özünü xəlifə elan etdi. Əmr etdi ki, məscidlərdə onu müstəqil hakim kimi tanıtsınlar və onun adına sikkə kəssinlər.

Elə həmin il üsyançılar Xuzistan üzərinə hücuma keçdilər. Xuzistanın da kəndliləri və yoxsulları üsyançıları sevinclə qarşıladılar. Zəncilərin Xuzistanın paytaxt şəhəri olan Əhvaza yaxınlaşdığı xəbərini alan paytaxt yoxsulları üsyan qaldırdılar. Şəhər yoxsullarının üsyanı zəncilərin paytaxta girməsini həm asanlaşdırdı, və həm də sürətləndirdi. Beləliklə, 13 avqustda onlar Əhvaza daxil oldular və oranın hakimini əsir aldılar. Zəncilərin ardıcıl olaraq,

qazandıqları müvəffəqiyyətlər Bəsrənin varlı təbəqəsi içərisində çaxnaşmaya səbəb oldu. Onların çoxu tələsik şəhəri tərk edərək şimala qaçdılar. Bəsrə üzərinə edilən hücum müvəffəqiyyətlə nəticələndi. Bəsrənin 300 min sakini öldürüldü. Qeyd etmək lazımdar ki, zəncilər Bəsrəni tutduqdan sonra oranı özlərinin hərbi-siyasi mərkəzinə çevirmədilər. Çünki bu onların strategiyasına uyğun deyildi. Hərbi əməliyyatların gedişində onlar özləri üçün möhkəmləndirilmiş düşərgələr düzəltmişdilər. Adətən bu düşərgələr adacıqlarda, Şətt-əl-Ərəbin qollarının, kanalların arasında salınırdı və üzəri qamışlarla örtülürdü. Onlar belə təbii qoruyuculardan xəlifə qoşunları ilə döyüşə girməyə cəsarət etmədikdə istifadə edirdilər. Zəncilər döyüş zamanı əldə edilmiş silah və başqa qənimətləri bu düşərgələrə toplayırdılar. Qeyd etmək lazımdır ki, zəncilərin bu düşərgələri getdikcə şəhərlərə çevrilirdi. Zəncilər bu düşərgədən gecələr çıxır və xəlifə qoşununu yeni-yeni itkilərə məruz qoyurdular.

Abbasilər xilafəti üçün böhranlı vəziyyət yaranmışdı. O, iki tərəfli təhlükə qarşısında qalmışdı. Bir tərəfdən Bağdadın 15 kilometrliyində dayanan və hücum etməyə hazırlaşan Səffarilər, digər tərəfdən isə hücumları daha müntəzəm xarakter alan Zəncilər hərəkatı idi ki, Abbasilər üçün böyük təhlükə mənbəyinə çevrilmiş və xilafətin varlığını sarsıdırdı. Qərmətilərdən ibarət bir dəstə Zəncilər hərəkatında fəal iştirak edirdi.

Əl-Müvəffəq Səffarilərin hücumundan paytaxtı qorumaq məqsədilə Bəsrədə zəncilərə qarşı fəaliyyət göstərən bütün hərbi qüvvələri Bağdada topladı. Belə ki, Bəsrədə xəlifənin ancaq bir qarnizonu qaldı. Zəncilər yaranmış bu əlverişli məqamdan istifadə edərək, ərəb tayfalarından olan əl-Bətixenin köməkliyi ilə şimala doğru hərəkət etdilər və Əhvaz üzərinə üçüncü dəfə hücuma keçdilər.

Xuzistanın bir hissəsi Səffarilərin, digər hissəsi isə Zəncilərin əlində idi. Xilafətə qarşı çıxış edən bu iki qüvvə xəlifəyə qarşı ittifaq bağladılar.

Artıq bu zaman xəlifə qoşunu başda Əhməd ibn Leysaveyx olmaqla hücuma keçdilər və Sus yaxınlığında üsyançıların birləşmiş qüvvələrini ağır məğlubiyyətə uğratdılar. Bu məğlubiyyətin əsas səbəbi onların arasındakı razılığın möhkəm olmaması idi. Bu məğlubiyyətlə Zəncilər üsyanı tənəzzül dövrünə qədəm qoydu. Bu mərhələdə artıq üsyançı dəstələr getdikcə sıxışdırılaraq, bir-birindən

təcrid edilirdi. Yaxşı silahlanmış və mütəşəkkil çıxış edən xəlifə qoşunları zəncilərin son iqamətgahını ələ keçirdilər. Bu müvəffəqiyyəti zəncilərin öz sıralarında yaranmış ayrı-seçkilik və dövlətpərəstlik arzuları qüvvətləndirirdi. Zəncilərin müvəffəqiyyətlərinin əsas səbəbi kəndlilərlə şəhər yoxsullarının hərəkatın gedişində iştirakı və üsyançılara olan rəğbəti idi. Onlar çox vaxt partizan müharibəsi apararaq, xilafət qoşunlarına böyük tələfat verirdilər.

Lakin getdikcə zəncilərin arasında çox dəyişiklik yaranmağa başlanmışdı. Belə ki, zənci qullar işgəncə və istismardan azad olmalarına baxmayaraq, qulçuluğu məhv etmədilər. Bildiyimiz kimi, hələ üsyanın əvvəlində Əli ibn Məhəmməd zənci qullar qarşısındakı nitqində demişdi ki, onların hamısını kölə vəziyyətindən azad edəcək və onları varlı insanlara çevirəcəkdir. Lakin üsyanın əhatə dairəsi genişləndikcə əsirlərin hesabına qulların sayı çoxalırdı. Zəncilərin yaxın müttəfiqi olan kəndlilər onlardan heç bir yardım almadılar. Digər tərəfdən, şəhərlilər, xüsusilə varlılar qarət və yanğından külli miqdarda zərər çəkmişdilər. Zəncilərin tutduqları ərazilərdə ticarətin səviyyəsi aşağı düşmüşdü ki, bu da tacir və sənətkarların vəziyyətini pisləşdirirdi. 870-ci ilin axırlarında zəncilərin hərbi başçıları artıq varlı torpaq sahiblərinə və quldarlara çevrilmişdilər. Şəxsi torpaqlar və çoxlu qullar ələ keçirən bu varlanmış təbəqə kəndliləri və şəhər əhalisini amansız istismar edir, hətta aşağı səviyyəli zəncilərin özlərindən də çoxlu vergi və qənimət alırdılar. Belə vəziyyət, narazılar ordusunun sırasını artırırdı. Beləliklə, zəncilərin arxası və ictimai bazası demək olar ki, zəifləyirdi. Onlar yerli əhalini ancaq silah gücünə özlərinə tabe vəziyyətində saxlaya bilmişdilər.

879-cu ilin sonlarında xəlifə zəncilərə qarşı birləşmiş qoşun dəstələri göndərdi. Qoşun 20 min nəfər atlı və piyadadan ibarət idi. Onlar yaxşı silahlanmışdılar və yüksək təlim görmüşdülər. Qoşun komandiri Əbül Abbasın ixtiyarında, eyni zamanda, çay donanması var idi ki, onun da tərkibinə müxtəlif ölçülü gəmilər daxil idi.

Artıq xəlifə qoşunları ciddi hazırlıqdan sonra əvvəllər ələ keçirilməsi müşkül olan zəncilərin mövqeyini, indi asanlıqla dəf edə bilir və zənci düşərgələrinə daxil olurdular. Başqa sərkərdələrdən fərqli olaraq, Əbül Abbas bütün kiçik çaylardan başlamış, kanallara kimi olan hər yeri təmizləyərək irəliləyir və əsas döyüş üçün şərait hazırlayırdı. Digər tərəfdən, əl-Müvəffəqin əsir tutulan zəncilərə

qarşı çox mülayim rəftar etməsi də onların müvəffəqiyyət qazanmasına xeyli müsbət təsir göstərdi. Qeyd etmək lazımdır ki, bu siyasət nəticəsində zəncilər hərəkatının bir neçə rəhbəri xəlifənin tərəfinə keçdi.

16 noyabr 880-ci ildə kəskin hücumlardan sonra zəncilərin möhkəmləndirilmiş şəhərlərindən biri olan əl-Maniyə hökumət qoşunları tərəfindən tutuldu. Şəhər iki gün qarət edildi və yandırıldı. Əl-Maniyənin divarları söküldü və şəhəri əhatə edən su kanalları dolduruldu. Əl-Maniyə üzərindəki qələbədən sonra əl-Müvəffəq zəncilərin ikinci möhkəmləndirilmiş şəhəri olan əl-Mənsur üzərinə hərəkət etdi və oranı tutdu. Bu şəhərlərin tutulması gələcək müvəffəqiyyətlərin açarı oldu. Xəlifə əl-Müvəffəqin qoşunları Xuzistanı da tutmağa nail oldular.

881-ci ilin iyul ayının 3-31 civarında əl-Müvəffəqin qoşunları əl-Muxtarı mühasirəyə aldı. Əl-Muxtarın mühasirəsi uzun çəksə də, nəhayət 882-ci ilin dekabrına kimi gedən gərgin vuruşmalardan sonra Abbasi qoşunları şəhərə yol açdılar. Lakin dekabrın 10-da gözlənilmədən əl-Müvəffəqin yaralanması hücumun müvəqqəti dayandırılmasına səbəb oldu. 18 may 883-cü ildə əl-Muxtar üzərinə xəlifə qoşunları yenidən hücuma keçdi. Bu hücumda 50 min döyüşçü, 150 gəmi iştirak edirdi. Ertəsi gün əl-Müvəffəqin döyüşçüləri üsyanın əsas müdafiə mərkəzlərindən biri olan Sahib əz-Zəncin sarayını mühasirəyə aldılar.

Əli ibn Məhəmməd bu zaman özünün ən yaxın adamlarından biri olan Əli ibn Əbbanın sarayında gizlənmişdi. Lakin onu tutaraq, başını kəsdilər və əl-Müvəffəqin ayaqları altına atdılar.

12 avqust 883-cü ildə əl-Muxtar şəhəri üzərinə son hücum oldu. Şəhər əhalisinin qəhrəmancasına müdafiə olunmasına baxmayaraq, Sahib əz-Zəncin öldürülməsini eşitdikdən sonra təslim oldular.

Üsyanın əsas məğlubiyyət səbəblərindən biri zəncilərin məqsədinin qeyri-ardıcıl olması idi. Belə ki, əvvəllər quldarlar və torpaq sahiblərinə qarşı çıxan, xalqı onların zülmündən qurtarmaq məqsədilə başlayan üsyan, nəticədə zəncilərin müəyyən qisminin varlanması ilə başa çatdı. Onlar bir tərəfdən qulları azad edirdilərsə, digər tərəfdən qulları ələ keçirməklə qulçuluq münasibətlərini davam etdiridilər. Bütün bunlar onların arasında ictimai ziddiyyətlərin güclənməsinə səbəb oldu.

Məğlubiyyətin digər səbəbi vergi sisteminin ləğv edilməməsi idi. Bu kəndli kütlələrinin onlardan uzaqlaşmasına səbəb oldu. İctimai bazası olmayan bir hərəkat isə uzun müddət davam gətirə bilməzdi. Zəncilərin içərisində varlı təbəqənin yaranması və onların üsyanın gedişinə göstərdiyi mənfi təsir də səbəblər sırasındadır. Bu təbəqə öz yoldaşlarını amansız istismar edərək, ələ keçirilən qənimətlərin çoxunu mənimsəməklə kifayət qədər var-dövlət qazanmışdılar. Artıq özləri istismarçı sinifə çevrildikləri üçün despotizm və möhkəmləndirilmiş dövlət tərəfdarı idilər. Bildiyimiz kimi, Əli ibn Məhəmməd özünü xəlifə elan etmişdi ki, bu da ictimai ziddiyyətləri kəskinləşdirməyə bilməzdi.

Zəncilərin Səffarilər və Qərimətilərlə müttəfiqliyinin baş tutmaması və üsyançılardan ibarət nizami ordunun olmaması da üsyanın əsas məğlubiyyət səbəblərindən biridir.

Üsyanın məğlubolma səbəblərindən danışarkən hökumət qoşunlarının üsyanın birinci mərhələsindən fərqli olaraq, ikinci mərhələdə daha mütəşəkkil çıxışını, xüsusilə, qeyd etmək lazımdır. Hər şeydən əvvəl Zəncilər üsyanı da başqa üsyanlar kimi kor-təbii, məqsədsiz başlamışdı. Beləliklə, orta əsarlərdə baş vermiş digər üsyanlar kimi zəncilər üsyanının da məğlubiyyəti labüd idi.

Bu dövrdə ayrı-ayrı təriqətlərin ideolji mübarizəsi daha da kəskin xarakter aldı. İslam ehkamlarına qarşı mübarizə aparan bir sıra yeni qruplar, təriqətlər yaranırdı. İslam dini qayda-qanunlarna qarşı etinasızlıq meydana gəlirdi. Hətta ismaili təriqətinə mənsub olan qərmətilər belə dini ayinlərin icrasına əhəmiyyət vermir, Quranda yazılanlara etiqad göstərmirdilər.

VIII yüzilliyin ortalarında altıncı şiə imamı Cəfər əs-Sadiq öz böyük oğlu İsmayılı varislikdən, yəni imamlıqdan məhrum etdi. Cəfər əs-Sadiq digər oğlu Museyi Kazımı varis təyin etdi. Bununla da, şiəlikdə yeni təriqətlərin əsası qoyulmuş oldu:imamilər, ismaililər, qərmətilər. İmamilər Museyi Kazımı VII imam kimi qəbul edirdilər, Cəfəri Sadiqin təyinatını qəbul etməyən ismaililər isə VII imam kimi İsmayılı qəbul edirdilər. Qərmətilər isə İsmayıl erkən vəfat etdiyi üçün onun oğlu Məhəmmədi VII və sonuncu imam hesab edirdilər.

Qərmətilər–ismaililiyin iki əsas cərəyanından birinin – yeddilərin davamçılarıdır. İsmaililik IX yüzilliyin axırları-X yüzilliyin əvvəllərində Abbasilər xilafətini sarsıtmış böyük dini-

siyasi hərəkatın ideya əsasını təşkil etmişdir. 890-cı ildə İraqda qərmətilərin böyük üsyanı baş verdi. Üsyanın rəhbəri Həmdan Qərmət geniş kəndli və sənətkar kütlələrini hərəkata cəlb edə bilmişdi. Onların iştirakı isə hərəkatda sosial motivlərin, bərabərlik və ədalət ideyalarının güclənməsinə səbəb olurdu. Kufə yaxınlığında təriqət üzvləri gəlirlərinin 1/5 hissəsi hesabına təşkil edilən mərkəz yaratdılar. Qullardan başqa bütün insanların bərabərliyini təbliğ edən İraq qərmətiləri ideal bir cəmiyyət yaratmaq istəyirdilər ki, burada əmlak bərabərliyi həyata keçirilsin. Lakin onların da topladıqları sərvət digər insanların istismarından əldə edilirdi. Buna görə də, qərmətilərin ideal cəmiyyət yaratmaq ideyası utopiya olaraq qalırdı. Nəticədə, 906-cı ildə İraqda qərmətilər üsyanı yatırıldı. 900-902-ci illərdə Suriyada qərmətilərin çıxışları da eyni aqibəti yaşadı.

Qərmətiliyin təbliği üçün ən əlverişli zəmin Bəhreynin köçəri və oturaq əhalisi arasında tapıldı. 899-cu ildə qərmətilər orada öz xilafətlərini yaratdılar.

Bəhreyndə qərmətilər xilafəti ibtidai quldarlığa əsaslanan əkinçilik-sənətkarlıq icması idi. İcmaya-dövlətə 6 ağsaqqaldan (sadat) və 6 onun müavinindən ibarət şura başçılıq edirdi, həmin şura kollegial qərarlar qəbul edirdi. 30 min icma qulundan şəxsi təsərrüfatlarda və ictimai işlərdə istifadə olunurdu. Dövlət kəndlilərə borc pul verir və onlara pulu ödənilmədən buğda paylayırdı. 20 minə yaxın hərbi qüvvəsi var idi. Bəhreyn qərmətiləri iri torpaq sahibliyini və feodal istismarını ləğv etmişdilər. Lakin yürüşlər zamanı tutulmuş əsirləri qula çevirirdilər. Bu da qərmətilərin ideal cəmiyyət yaratmaq ideyalarından çox uzaq olduğunu göstərirdi. Dövlətin idarə olunmasına sərf edilən vəsait xilafətin əyalətlərinin işğalı hesabına ödənilirdi.

Qərmətilərin hərəkəti islam qanun və ehkamlarına uyğun gəlmirdi. Qərmətilər Məkkəyə ziyarətə gedənləri ya geri qaytarır, ya da zəvvarların mallarını soyub talayır, özlərinə isə işgəncə verirdilər. 929-cu ildə qərmətilər Məkkəyə hücum edib, oranı dağıtmış və zəvvarları soyub talamışlar, bu az imiş kimi Kəbədəki Qara daşı da ikiyə bölüb özləri ilə birlikdə paytaxtları əl-Aksa şəhərinə aparmışdılar. Yalnız iyirmi ildən sonra onlar bütün müsəlmanlar üçün müqəddəs olan bu daşı xərac müqabilində Məkkəyə qaytarmağa razılıq verdilər.

Qullara ümumi sahiblik əsasında özlərinin bərabərlər icması idealını həyata keçirməyə çalışan qərmətilər uğursuzluğa düçar oldular. Bunun bir səbəbi də onların fanatizmi və amansızlığı idi. Bu cəhətlər qərmətiləri əhalidən ayrı saldı. XI yüzillikdə qərmətilər hərəkatı xırda təriqətlərə parçalanıb yox oldu.

Abbasilər xilafətinin parçalanması feodalizmin inkişafı üçün geniş imkanlar yaratdığı kimi, getdikcə daha da qüvvətlənməyə can atan və bunun nəticəsində mənafeləri toqquşan ayrı-ayrı feodal zümrələr arasnda da qəti, kəskin msübarizənin yarnmasına səbəb oldu. Bu mübarizələr ən sonda müharibələrlə nəticələnirdi. Bu dövrdə ideoloji mübarizə də kəskin şəkil alırdı. Onların bir qismi öz ideyalarını həyata keçirmək üçün hətta qılınca əl atmaqdan da çəkinmirdilər. Belə bir yolu tutan şiəliyin təbliğatçısı və sonra isə himayəçisi olan Fatimilər idi.

Belə ki, müstəqil və yarımmüstəqil dövlətlər yaranmış ölkələrdə feodalizm münasibətlri əvvəlkinə nisbətən sürətlə inkişaf etməyə bşaldı. Bu dövrdə yaranmış müstəqil dövlətlərdən Tahirilər, Samanilər, Əğləbilər, İxşidilər, Tulunilər, Fatimilər, Əyyubilər, Məmlüklər və sairəni göstərmək olar. Abbasilərin hakimiyyətindən uzaqlaşmağa nail olmuş dövlətlərin hakimləri–yeni feodallar yığdıqları xəracın çox hissəsini artıq xilafət xəzinəsinə göndərmir, öz ölkəsinin daxilində sərf edirdi. Bu da feodal istehsal üsulunun inkişafına daha geniş imkanlar yaradır və onu daha hakim qüvvəyə çevirirdi. Suvarma şəbəkələri yaranırdı, torpaqdan yüksək gəlir əldə edilirdi. Bununla əlaqədar olaraq, kəndlilərin vəziyəti müəyyən qədər yaxşılaşdı və bu isə onların əkib-becərməyə marağını daha da artırdı. Torpağın yüksək gəlir mənbəyinə çevrilməsi onunla nəticələndi ki, hətta varlı tacirlər belə iri torpaq parçaları alırdı. Bu da öz növbəsində iri torpaq mülkiyyətinin inkişafına səbəb olurdu. Kanallar çəkilir, bəndlər, su anbarları tikilir, yeni-yeni başqa suvarma qurğuları yaradılırdı. Qoşqu və əl ilə işlədilən dəyirmanları su ilə işləyən dəyirmanlar əvəz edirdi. Bu dövrdə kənd təsərrüfatının inkişafı müxtəlif sənətkarlıq işlərinin və ticarətin tərəqqi etməsinə səbəb olurdu. Ayrı-ayrı vilayətlər, ölkələr arasında ticarət mallarının alqı-satqısı getdikcə artırdı. Bir sözlə həmin dövrdə bütün Yaxın və Orta Şərqdə canlanma başlamşdı, elm və mədəniyyət sürətlə yüksəlirdi.

## BAĞDAD SON ABBASİ XƏLİFƏLƏRİ DÖVRÜNDƏ

Bağdadın Səlcuqlar tərəfindən fəthi

Ərəb xilafətində müstəqil və yarımmüstəqil dövlətlərin yaranması sayəsində Bağdad xilafətinin hakimiyyəti İraq və Qərbi İran ərazilərində tanınırdı.

Buveyhilər (Buidilər) Xəzər dənizinin cənub-qərbində yerləşən dağlıq regionu Deyləmdən çıxmışdılar. Deyləmilər döyüşkən dağlılardan idi ki, onlardan türklər kimi Bağdad da daxil olmaqla bütün müsəlman dünyasında muzdlu əsgər kimi istifadə edirdilər. Buveyhilər sülaləsi öz adını Əbu Şüca Buveyhidən götürmüşlər. Əbu Şüca Buveyhi deyləmi tayfalarının rəhbəri və Şimali İranda əyalət hakimi Mərdavic ibn Ziyarın dəstələrindən birinin sərkərdəsi idi. Mərdavic ibn Ziyar Samanilərin idarəsi altında olan Şimali İranın böyük hissəsini tutdu və öz mülklərini İsfahana və Həmədana qədər uzatdı. 935-ci ildə onun ölümündən sonra bu ərazi Buveyhinin üç oğlu arasında bölündü. Kiçik qardaş Əhməd Kerman və Xuzistanda öz mövqeyini möhkəmləndirdi. İran sülaləsi olan Buveyhilər Abbasi xilafətinin zəifliyini bilirdi və bu da onları İraqı tutmağa və hakimiyyətə yiyələnməyə sövq edirdi.

945-ci ilin dekabrında Əhməd ibn Buveyh Bağdada doğru hərəkət etdi və Xilafətin paytaxtını heç bir müqavimətə rast gəlmədən tutdu. İraq, faktiki olaraq, Buveyhilərin hakimiyyəti altına keçdi. Abbasilər hakimiyyət uğrunda bir-biriləri ilə mübarizə aparan hərbi əmirlərdən-rəislərdən, canişinlərdən tam asılı idi. Köməksiz və qorxmuş xəlifə əl-Mustəkfi (944-946) gizlənməyə cəhd göstərsə də bu mümkün olmadı. Bununla da, xəlifə siyasi hakimiyyətini itirdi və dini hakimiyyəti özündə saxlamalı oldu. Xəlifə əl-Mustəkfi tərəfindən əmirəl-umara (ali baş komandan) kimi şöhrətli adı və Muiz əd-Daulə (ölkəni möhkəmləndirən) titulunu alan Əhməd bütün hakimiyyəti öz əlində cəmləşdirdi. Titulları aldıqdan bir neçə həftə sonra isə 946-cı ildə Muiz əd-Daulə (945-967) xəlifəni kor etdi və əl-Mutini (946-974) onun yerinə taxt-taca gətirdi. Onu çox cüzi vəsaitlə təmin edərək bütün mülkləri onun əlindən aldı.

Bütün bunlar xilafətdə qeyri-adi vəziyyət yaratmışdı. Buveyhilər şiəliyi ölkədə möhkəmləndirsələr də, xəlifə-sünni institunu dəyişməyə cəhd göstərmədilər. Mütləq hakimiyyətə malik

olan əmirlər xəlifənin adından sərəncamlar verirdi. Cümə namazlarında və digər dini mərasimlərdə xəlifənin adı çəkilirdi. Artıq paytaxtda xəlifənin adı ilə yanaşı əmirlərin də adı çəkilirdi. Buveyhilər pulların üzərində öz adlarını da həkk etdirdilər.

Səlcuqlar Yaxın və Orta Şərqə tam hakim olmaq üçün Buveyhi dövlətinin (935-1055) nüfuzunu tam sarsıtmalı idi. Bu məqsədlə, Toğrul bəy ciddi hazırlıqdan sonra hərbi yürüşə başladı. Yürüş zamanı Səlcuqlar Buveyhiləri məğlub edərək Əhvazı, Xuzistanı, Bəsrəni və Bağdadın qarşısındakı bir sıra yaşayış məskənlərini ələ keçirdilər. Buveyhi hökmdarı Məlikü Rakim Toğrul bəyə itaət edəcəyinə söz versə də, Toğrul bəy Bağdada yaxınlaşarkən Abbasi xəlifəsi əl-Qaim özü şəxsən türk sultanına dəvət məktubu göndərdi. Toğrul bəy 1055-ci ildə Bağdada xilaskar kimi daxil oldu.

1055-ci ildə Səlcuq sultanı Toğrul bəy (1038-1063) Buveyhilərin 120 ildən artıq davam edən hakimiyyətinə son qoydu. O vaxtdan birinci dünya müharibəsinin sonunadək Bağdad da daxil olmaqla İraq ərazisi birbaşa, yaxud bilavasitə türk mənşəli xalqların (əvvəlcə səlcuqların və monqol-tatarların, sonra teymuri, səfəvi və nəhayət, osmanlıların ) hakimiyyətinə tabe etdirilir.

Toğrul bəyin hakimiyyəti altında birləşmiş Orta Asiya, İran, İraq, Cənubi Qafqaz, Suriya və Kiçik Asiyanı əhatə edən çox böyük bir ərazi Səlcuq hakimləri-canişinləri tərəfindən idarə olunurdu. Bu zaman bütün Yaxın Şərq feodal münasibətlərinin inkişafı prosesini keçirirdi. Abbasilər xilafətinin vəziyyəti Səlcuq hökmranlığı dövründə də dəyişmədi. Bu da onunla bağlı idi ki, Səlcuqlar sünni idilər və onlar sünni Abbasi xəlifələrinə qarşı zahiri ehtiram saxlayırdılar. Digər tərəfdən, Səlcuqların Abbasi xəlifələrinin dini nüfuzlarını qoruyub saxlamaq səyi Buveyhilərin bu sahədə apardıqları siyasətdən tamamilə fərqlənirdi. Xilafətin dünya xalqları və ölkələrinin üçdə ikisində yayılmış dini nüfuzundan öz siyasi məqsədləri və mənafeyi üçün istifadə etmək cəhdi Səlcuqldarın siyasətinin ən güclü cəhəti idi. Elə bu siyasətin nəticəsi idi ki, Toğrul bəy «Sultan» titulu almaq üçün xəlifə Qaimin qarşısında torpağı öpmüş, lakin ona xilafəti dünyəvi hakim kimi idarə etmək üçün heç bir imkan verilməmişdir.

XII yüzilliyin əvvəllərində xəlifələr dünyəvi hakimiyyətdən tamamilə uzaqlaşdırılmışdılar. Onlar ancaq məscid, mədrəsə və ribatların tikintisi ilə məşğul olurdular.

1091-ci ildə Məlik şahın vəfatından sonra hakimiyyət uğrunda daxili mübarizə kəskinləşdi. Səlcuq nəslinin ayrı-ayrı nümayəndələri arasında gedən mübarizə onunla nəticələndi ki, 1120-ci ilin aprelində Bağdadda ən böyük sultan və sultanlar sultanı Səncərin (1118-1157) və «böyük sultan və sultanlar ağası» Mahmudun (1118- 1131) adına xütbə oxunmağa başlandı. Dövlətin şərq bölgələrində hakimiyyətə Səncər yiyələndi və onun idarə etdiyi dövlət tarixə Böyük Səlcuq sultanlığı adı ilə düşdü. Xorasandan Anadolu və Suriyayadək uzanan torpaqlar, o cümlədən Həmədan, İsfahan, Cibəl, Kirman, Fars, Xuzistan, İraq, Azərbaycan, Cəzirə, Diyar-Mudar, Diyar Rəbiu, Şam və Rum sultanı Mahmudun «iqta»sı oldu. Səncərlə Mahmud arasındakı ixtilafın sonu və vəliəhdə düşən iqta haqqında əmrin verilməsi Səncərə tabeliyini bildirən Mahmudun hakimiyyəti altında İraq Səlcuq sultanlığının (1118-1194) yaranmasının başlanğıcı sayılmalıdır. Mahmudun və xəlifə əl-Mustərşidin vəziri olmuş Ənuşirəvan ibn Xalid bu münasibətlə kədərlə heyfslənərək demişdir: «Sultan Məhəmməd (Təpərin) idarəsi dövründə vahid olan və kimsənin göz dikmədiyi bir dövlət, indi oğlu Mahmuda çatanda parçalandı və viran oldu». Xilafətin Azərbaycan atabəyləri və İraq səlcuqları arasında əlaqələri son dərəcə sıx olmuşdur. Çünki Azərbaycan Atabəylər dövləti Səlcuq imperatoru Məlik şahın oğlu Məhəmməd Təpərin hakimiyyətindən sonra Səlcuq imperiyasının parçalanması nəticəsində meydana gəlmiş İraq Səlcuq sultanlığını təşkil edən ölkələrdən ən böyüyü və eyni zamanda, onun hərbi, siyasi və iqtisadi özülü idi.

1126-cı ilin avqustunda xəlifə əl-Müstərşid sultan Mahmudun canişini Yürün Quş Zəkvini Bağdaddan qovdu. Əgər bu vaxta kimi xəlifə sultanın canişininə heç bir məsələdə etiarz edə bilmirdisə, indi o, Mahmudun qardaşları ilə mübarizəyə başının qarışmasından istifadə edərək, vəziri ibn Saadak və başqa yaxın adamlarının məsləhətilə müstəqillik əldə etmək məqsədilə canişini qovdu. Bundan hiddətlənən Sultan Mahmud Bağdada qarşı hücuma keçdi, lakin xəlifənin heç bir muqavimətinə tuş olmadı. Belə bir vəziyyət və xəlifənin diplomatik gedişi, nəticə etibarilə, sultanla xəlifə arasında sultan Səncərə qarşı ittifaqa gətirib çıxardı. Bundan xəbər tutan Səncər Mahmuda belə bir məktub göndərdi: «Sən mənim sağ əlimsən, xəlifəyə gəlincə o, mənə və sənə qarşı fitnə düzəltməyi kəsdirmişdir. Əgər siz onunla birlikdə mənə qarşı çıxsanız, o,

məndən qurtular və sonra isə sənə qarşı çıxar. Sən ona fikir vermə»! Doğrudan da, xəlifə Mustərşid Səlcuq sultanlarını bir-birinin üzərinə salışdıraraq, dövləti zəif salmaq və bununla da, Bağdad xəlifələrinə yalnız dini deyil, dünyəvi hakimiyyəti də qaytarmaq istəyirdi. Lakin onun bu arzusu gözündə qaldı.

Xəlifə Müstərşid Sultan Məsudun (11324-1152) hakimiyyəti illərində də daha dərinə işləyən siyasətini davam etdirir, ən ümdə vəzifə kimi türk əmirləri və qoşun başçıları ilə əlaqə yaratmağa önəm verirdi. Xəlifə əmir və sərkərdələri öz tərəfinə çəkə bildi. Sultan Məsud xəlifənin yeritdiyi siyasəti aydınlığı ilə başa düşürdü. Elə buna görə də, sultan həmin əmir və qoşun sərkərdələrinə iqta mülkləri vəd edərək, yenidən öz tərəfinə çəkmək isətəsə də, bundan heç bir nəticə hasil edə bilmədi.

Gördüyü tədbirlərdən özünü kifayət qədər güclü hesab edən xəlifə əl-Müstərşid 24 may 1135-ci ildə əmirlərlə birlikdə sultan Məsuda qarşı müharibəyə başldı. Xəlifə ilə tərəfdarlarının 8000 atlısı, Məsudun isə cəmi 3000 atlısı olmasına baxmayaraq, xəlifə qoşunu darmadağın edildi. Vəzir xəlifədən əlavə yardım alaraq, sultanın üzərinə yenidən hücuma keçdi. 24 iyun 1135-ci ildə Bisitun dağları ətrafında xəlifənin qoşunları Məsud tərəfindən bir daha darmadağın edildi. Xəlifənin adamları ona qaçmağı təklif edəndə, o, qaçmaqdan imtina etdi və əsir düşənə qədər müqavimət göstərdi.

Xəlifə ilə sultan Məsud arasında Həmədanda aparılan danışıqlar nəticəsində belə qərara alındı ki, xəlifə təzminat ödəyəcək, bundan sonra heç zaman ordu toplamayacaq və Bağdaddakı qəsrini tərk etməyəcəkdir. Beləliklə, xəlifə dünyəvi hakimliyin bütün səlahiyyətlərindən məhrum oldu və müsəlmanların dini başçısı kimi qaldı. O, Bağdada gələn kimi xəlifənin bütün əmlakını müsadirə etdi. Şəhərdə çaxnaşma başladı. Narazı olanlardan çoxunu qırdı və şəhər divarlarını uçurtdu. Bununla o, Bağdadın bundan sonra İraq sultanlığının adi bir şəhəri olduğunu nümayiş etdirdi.

Sultan Səncərin göstərişi ilə Sultan Məsud xəlifə əl-Mustərşiddən üzr istəyərək, onun Bağdada yola salınması üçün hazırlıq görməyə başladı. Xəlifə Məsudun başının qarışmasından istifadə edən ismaililərdən 17 nəfər xəlifənin çadırına basqın edib, gözətçiləri qırdı, sonra da xəlifə əl-Mustərşidə 20 bıçaq yarası vurub öldürdülər. Bununla kifayətlənməyən qatillər xəlifənin qulağını və burnunu da kəsib qaçdılar. Qatillərdən yalnız yeddlisini tutmaq

mümkün oldu. Lakin belə bir fikir də səslənmişdir ki, ismaili qatilləri Səncərin elçisi Qurxanla birlikdə düşərgəyə gəlmişdir. Sultan Məsudun başının elçi və qonaqlarla qarışdığından istifadə edən qatillər xəlifəni qətlə yetirmişlər. O, dövrün müasirlərindən İmaməddin əl-İsfahani xəlifə əl-Mustərşidin ölümünün əsl təşkilatçısı Səncərin özünün olduğunu qeyd edir. Görünür, başqalırının əli ilə xəlifənin öldürülməsi onun təbii ki, dini nüfuzu ilə bağlı olmaqla yanaşı müsəlmanlar tərəfindən nifrətə tuş olmamaq ehtiyatından da irəli gələ bilərdi. Lakin xəlifənin ölümü müəmmalı olaraq qalmaqda davam edir.

7 sentyabr 1135-ci ildə Bağdadda xəlifə Mustərşidin oğlu ər-Rəşidin xəlifə seçilmə mərasimi keçirildi. Ər-Rəşid taxta çıxar-çıxmaz İraq torpaqlarını Səlcuq ağalığından narazı qüvvələrə iqta payı kimi paylamaqla öz ətrafına topladı. Bununla, o, İraqın daxili məsələlərinin həllində müstəqil siyasət yeritdiyini açıq şəkildə büruzə verdi.

Xəlifə ər-Rəşidin siyasəti onunla nəticələndi ki, Bağdadda üçlər-xəlifə, sultan Davud, Mosul hakimi atabəy Zəngi birliyi yarandı. Məsuda qarşı yönəldilmiş bu birlik əslində İraq sultanlığının mərkəzi hakimiyytinə qarşı çevrilmişdi. Lakin bu birlik də Məsudun hücümu qarşısında aciz qaldı. Zəngi Bağdadı tərk edərkən xəlifə ər-Rəşidə də Bağdadı tərk etməyi məsləhət gördü, çünki 3000 civarında atlı ilə Məsudun böyük qoşunu qarşısında çox gücsüz görünürdü. Ertəsi gün xəlifə Bağdadı tərk etdi və bir gün sonra sultan Məsud şəhərə daxil oldu. O, xəlifəyə geri qayıtmağı təklif etdi, lakin ər-Rəşid bundan imtina etdi. Sultan Məsud Bağdadın qazi və üləmalarını çağırıb xəlifə ər-Rəşidin öz əli ilə yazdığı məktubu onlara təqdim etdi. Məktubda deyilirdi: «Əgər mən qoşun toplasam, hücuma keçsəm, sultanın hər hansı bir adamı ilə döyüşə başladığım təqdirdə, xəlifə adını öz üzərimdən götürəcəyəm». Qeyd edək ki, ər-Rəşidin yeni müttəfiqləri ilə Məsuda qarşı növbəti cəhdi də yenə birliyin məğlubiyyəti ilə bitdi. Sabiq xəlifə ər-Rəşid İsfahana qaçdı və burada atasının aqibətini yaşadı. 6 iyun 1138-ci ildə orada ismaililər tərəfindən öldürüldü.

Beləliklə, 18 avqust 1136-cı ildə əl-Müqtəfi adı ilə tanınan Əbu Abdulla Məhəmməd xəlifə seçildi. Avqustun 20-də xütbələrdə əl-Müqtəfi xəlifə, Səncər və Məsud isə sultan kimi yad edilirdi.

20 iyul-18 avqust 1148-ci ildə Məsudun siyasətindən narazı olan İraq sultanlğının bir sıra görkəmli əmirləri, o cümlədən Gəncə və Arranın hakimləri Bağdada doğru hərəkət etdilər. Bağdad yaxınlığına yetişəndə həmin əmirlər xəlifə Müqtəfidən şahzadə Məlik şahın adına xütbə oxutdurmağı tələb etdilər. Ancaq xəlifə cavab vermədən yayınıb, sultan Məsuda yazdı ki, rəqibləri onun adını xütbədən çıxarılmasını tələb edirlər. Əslində xəlifə Səlcuqlar arasında olan bu çəkişmə və ziddiyyətlərdən məmnun idi və bu istiqamətdə əlindən gələni əsirgəmirdi.

Əmirlərin qoşunları ilə Sultan Məsudun və Xəlifə Müqtəfinin qoşunları arasında gedən döyüşdə sonuncular məğlub oldu və Bağdaddan qaçdılar. Sultan Səncər baş verən hadisələrə biganə qala bilmədi və onun məsləhəti ilə Məsudla əmirləri arasında münaqişəyə rəvac verən vəzir Xass bəyi istefaya çıxardı. Yalnız bundan sonra sultan Məsud Səncərin göstərişini yerinə yetirdikdən sonra əmirlər öz qoşunlarını Bağdaddan çəkib apardılar.

9 oktyabr 1152-ci ildə sultan Məsud Həmədanda vəfat etdi. Onun qardaşı oğlu Məlik şah ibn Mahmud sultanlıq taxtına oturduldu. Lakin taxt-tac uğrunda Səlcuq şahzadələri arasında yenidən mubarizə qızışdı. 10 mart 1161-ci ildə xəlifə əl-Müqtəfi vəfat etdi. O, ilk Abbasi xəlifəsi idi ki, Səlcuq nəslinin ayrı-ayrı nümayəndələri arasında gedən ara müharibələrindən istifadə edərək müstəqil hakim olmuşdu.

Müqtəfinin oğlu əl-Müstəncid yeni xəlifə seçildi. O, Süleyman şaha göndərdiyi məktubda itaətdə olmağı və atası əl-Müqtəfinin dövründə olduğu kimi indi də sultanın hakim olduğu bütün yerlərdə oxunan xütbələrdə xəlifənin adının salınmasını tələb edirdi. Süleyman şah bütün şərtləri qəbul etdi və eyni zamanda, özünün fikrinə görə Bağdadda sultanın canişini olacaq iki qazını oraya göndərdi. Ancaq xəlifə əl-Müstəncid sultanın elçilərini qəbul etmədi, bununla Bağdadın Səlcuqlardan asılı olmadığını bir daha təsdiq etdi. Sultan Süleymana gəldikdə isə o, əyyaşlığa üstünlük verir və dövlət işləri ilə məşğul olmurdu. Belə olduqda, əmirlər və ruhanilər onun «qayğısına» qalaraq, ona qarşı qəsd hazırladılar, 1160-cı ilin oktyabırında onu tutub, Həmədan qalasına saldılar, 11 iyun 1161-ci ildə onu orada öldürdülər.

Belə bir dövrdə Böyük Səlcuq sultanı Məlik şahın (1072-1092) ölümündən sonra Səlcuq imperiyası daxilində çəkişmə və

parçalanma meylləri güclənməyə başladı. Belə ki, sonuncu Böyük Səlcuq sultanlarının hakimiyyət illəri əslində müstəqil sultanlıqlara parçalanma dövrüdür. Bu parçalanmanın nəticəsi olaraq, Azərbaycan atbəyləri Eldənizlər (1136-1225), Mosul atabəyləri Zəngilər (1127-1222), Fars atabəyləri Səlqurulular (1148-1270), Girınan atabəyləri (1141-1186) və sairə kimi müstəqil dövlətlər meydana gəldi. XII yüzilliyin əvvəllərində Səlcuq imperiyasında gedən şiddətli mübarizə nəticəsində İraq Səlcuq sultanlığı yarandı. Uzun zaman Səlcuq hakmiyyəti altında olması xilafətin iqtisadiyyat və mədəniyyətinin inkişafına müsbət təsir göstərmişdir.

Səlcuq imperiyasının siyasi cəhətdən parçalanması Abbasi xəlifələrinin müəyyən dərəcədə idarəetmə məsələləri ilə məşğul olmasına imkan yaratdı. Səlcuq imperiyasının zəifləməsi ilə yanaşı Səlahəddin Əyyubi kimi görkəmli sərkərdə və dövlət başçısının xütbə namazında ilk dəfə olaraq, xəlifə əl-Mustadinin (1170-1180) adını zikr etməsi də xilafətin nüfuzünü artırdı. Digər mühüm bir səbəb isə xilafətin qonşuluğunda olan bir sıra dövlətlərin səlib yürüşlərinə başlarının qarışması da xəlifənin müstəqil hərəkət etməsində az rol oynamadı.

100 ildən artıq Səlcuqların asılılığında qalmış Abbasi xəlifələrinin müstəqil dövlət başçıları kimi fəaliyyət göstərməsi ancaq XII yüzilliyin ortalarında mümkün olmuşdur.

XII-XIII yüzilliklərdə Yaxın Şərqin bir çox ölkələrində olduğu kimi İraqda da kənd təsərrüfatının yüksəlişi dövrü olmuşdur. Bu dövrdə kənd təsərrüfatında istehlak əmtəə mallarının xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artmışdı. İraqın əkinçilik üçün təbii iqlim şəraiti, təkmil süni suvarma şəbəkələri yüksək məhsuldarlıq üçün stimul yaradırdı. Xurma kənd təsərrüfatında başlıca yeri tuturdu. Demək olar ki, İraqın hər yerində xurma əkilirdi. Bəsrə bu cəhətdən məhsuldar zona sayılırdı, burada 300-ə yaxın xurma növü yetişdirilirdi.

İnkişaf etmiş şərq feodalizminin ən mühüm cəhətlərindən biri olan iqta sisteminin hələ Səlcuqlara qədər geniş yayılmasıdır. XI yüzilliyin ikinci yarısında Səlcuq imperiyasında keçirilən islahat nəticəsində iqta sistemi daha da inkişaf etdi və təkmilləşdi. Bu da öz növbəsində feodal torpaq mülkiyyətinin inkişafına müsbət təsir göstərdi.

İqtadara verilən torpaq sahəsi dövlətin mülkiyyəti sayılırdı, o öz torpağını nə sata, nə bağışlaya, nə də miras qoya bilərdi. İqtadarın vəzifəsi öz torpaq sahələrində vergiləri toplamaq, onun müəyyən olunmuş hissəsini dövlət xəzinəsinə təhvil vermək idi. Ancaq mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində iqta sahələrinin nüfuz dairəsi genişlənməyə başladı.

XII yüzilliyin ortaları-XIII yüzilliyn əvvəllərində Abbasilər xilafətində kənd təsərrüfatı və sənətkarlığın inkişafı ticarətin vəziyyətinə də böyük təsir göstərmişdir. İraq tacirlərinin sorağı dünyanın hər yerindən gəldiyi kimi, müxtəlif yerlərdən də Bağdada tacirlər gəlirdilər. Bağdad ticarətin inkişaf etdiyi məkan idi. Buraya nəinki Təbrizlə, həmçinin Bağdadla rus şəhərləri arasında əlaqələrin mövcudluğu da tarixi ədəbiyyatlarda qeyd edilir. Tacirlər Bağdadın ortasından keçən Dəclə çayı vasitəsilə Hind dənizinə gedib çıxa bilirdilər.

İraqın cənubunda yerləşən liman şəhəri olan Bəsrə xilafətin ikinci ticarət mərkəzi sayılırdı. XII-XIII yüzilliklərdə Şərqlə Avropa ölkələri arasında Aralıq dənizi vasitəsilə ticarət əlaqələri aparılırdı. XII-XIII yüzilliklərdən etibarən isə xüsusilə Səlib yürüşləri ilə əlaqədar olaraq, birincilik Genuya və Venesiya tacirlərinin əlinə keçdi. Vasit şəhərinin həm daxili, həm də xarici ticarətində kənd təsərrüfatı məhsulları üstün yer tuturdu.

İraqın o dövrkü kənd təsərrüfatında ən çətin problemlərdən biri tez-tez baş verən sellər idi. Bu sellərin qarşısını almaq üçün sədlər çəkmək, kanallar qazmaq lazım gəlirdi. Bəsrədə xüsusi suvarma sistemi, habelə xüsusi kanallar qovşağı mövcud idi ki, bu da gündə iki dəfə baş verən qabarma və çəkilməni tənzim edirdi.

Hələ XII yüzilliyin əvvəllərindən başlayaraq, Abbasi xlifələri siyasi cəhətdən müəyyən qədər möhkəmlənmişdi ki, bu da onları itirdikləri torpaqları geri qaytarmağa sövq edirdi. Bu cəhətdən xəlifələrdən əl-Müstərşid (1118-1135) və əl-Müktəfinin (1136-1160) fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Xəlifə ən-Nasirin hakimiyyəti dövründə isə xilafətin ərazisi işğallar hesabına xeyli genişlənmişdi.

XIII yüzilliyin əvvəllərində Abbasilər xilafətinin inzibati bölgüsü təqribən belə idi: İrbil, Dakuka, Tikrit, əl-Ənbar, Hit, Kufə, Vasit, Xuzistan və sairə.

İnkişaf etmiş Səlcuq feodalizminin mühüm kateqoriyalarından biri olmaq etiabarı ilə iqta sistemi hələ Səlcuqlara qədər geniş yayılmışdı: Səlcuqların dövründə isə bu sistem daha da genişlənmişdi. Bu isə hər şeydən əvvəl XI yüzilliyin ikinci yarısında Səlcuq imperiyasında keçirilən mühüm bir sosial-iqtisadi islahatla bağlı idi. Böyük Səlcuq vəziri Nizamülmülkün irəli sürdüyü bu islahat hərbçilərə xidmətləri müqabilində pul deyil, pay torpaqları verilməsini nəzərdə tuturdu. Bu islahat Şərqdə torpaq mülkiyyətinin inkişafına böyük təsir göstərmişdir.

XII yüzilliyin sonu - XIII yüzilliyin əvvəllərində Abbasilər xilafətinin xarici siyasi vəziyyəti kimi, daxili vəziyyəti də son dərəcə qarışıq və mürəkkəb idi. Böyük Səlcuq imperiyasının XII yüzilliyin əvvəllərində zəifləməsi, onun ayrı-ayrı dövlətlərə parçalanmasından, digər dövlətlər arasında baş verən ziddiyyət və müharibələrdən məharətlə istifadə edən xəlifələr Buveyhilərin hakimiyyəti dövründə əllərindən alınmış siyasi hakimiyyətlərini geri qaytarmaq imkanı qazandılar. Uzun mübarizədən sonra 1157-ci ildə Abbasi xəlifəsi əl-Müktəfi (1136-1160) ilk dəfə olaraq, xilafəti müstəqil idarə etməyə başladı. Bu vaxtdan başlayaraq, Abbasi xəlifələri siyasi hakimiyyətlərini və eləcə də, dini nüfuzlarını böyük ciddi-cəhdlə qorumağa və genişləndirməyə başladılar.

Xəlifə əl-Müstərşid (1118-1135), ər-Rəşid (1135-1136), əl-Müktəfi, vəzir ibn Hubeyrə və xəlifə ən-Nasirin dövründə xilafət Səlcuqların asılılğından qurtarmaqla kifaytlənməmiş, geniş işğallar yoluna keçmişdilər.

Abbasilər xilafətinin Səlcuqalırn siyasi asılılğından qurtarması vaxtını hələ xəlifə Muktəfi dövrünədək hesab etsək, sözün əsl mənasında Səlcuqların ağalığına xəlifə ən-Nasirin dövründə, yəni 1194-cü ildə Səlcuq sultanı III Toğrulun öldürülməsindən sonra son qoyulmuşdu.

Xəlifə Əhməd ən-Nasirin dövründə xilafətin siyasi müstəqiliyi daha çox artdı. Xəlifə Əhməd ən-Nasir 1158-ci ilin avqustunda anadan olmuşdur. Atası əl-Mustadi, anası isə türk əsilli Zümrüd xatun olmuşdur. 45 ildən artıq xəlifəlik etmiş ən-Nasir 70 yaşında 1225 ci ildə vəfat etmişdir.

Xəlifə əl-Müstədi hələ sağlığında ikən oğlu Əbu Mənsur adı ilə tanınan Haşimə beyət etmişdi. Bundan narazı qalan ən-Nasir bir sıra nüfuzlu əmirlərin köməyi ilə qardaşı əl-Mənsuru hakimiyyətdən

uzaqlaşdırmış və əslində qeyri-qanuni olaraq hakimiyyəti zəbt etmiş və 34-cü Abbasi xəlifəsi kimi taxta oturmuşdur. 22 yaşlı ən-Nasir böyük enerji ilə işə başlayaraq, ölkə daxilində birliyin təmin edilməsini ən ümdə vəzifə hesab edirdi. Nasir əslində vəzir ibn Hubeyrənin birləşdirmə və mərkəzləşdirmə siyasətini davam etdirirdi.

Maraqlıdır ki, xilafətdə Səlcuq təsirinin kəsilməsindən sonra da türk təsirinin, türklərin yenidən geniş bir şəkildə artdığını və fəaliyyətə başladığını görürük. Xəlifə ən-Nasirdən əvvəl xilafətin siyasi həyatında birinci dərəcəli rol oynamış böyük siyasi-ictimai xadim ibn Hubeyrədən fərqli olaraq, xəlifə ən-Nasir dövlət işlərinə əsasən türk əmir və məmlüklərini cəlb edir, əsas siyasi məsələləri onların iştirakı ilə müzakirə edirdi.

Xəlifə ən-Nasir bu cür siyasət yeritməklə heç də yanılmırdı: əvvəla, bu əmir və məmlüklərin bir qismi öz dövlət başçılarının siyasətindən narazı qalan və onları tərk edərək xəlifəyə pənah gətirən şəxslər idilər ki, bu vəziyyət onları xəlifəyə daha da yaxınlaşdırırdı. Digər tərəfdən, həmin türk əmir və məmlüklərinin uzun illər ərzində qazandığı hərbi təcrübə və idarəetmə bacarığı xəlifəni tamamilə təmin edirdi. Ən-Nasirin türk amilinə güvənməsi ola bilsin ki, onun anasının türk olması ilə də bağlıdır.

Təbii haldır ki, Səlcuqlar dövründə torpaqlar, ilk növbədə, türk hərbçilərinə, əmir və məmlüklərinə verilirdi. Xəlifə ən-Nasirin dövründə də torpaqlar daha çox türk əmir və məmlükləri arasında paylanırdı. Bunda ən mühüm məqsəd xəlifə ən-Nasir türk əmirlərinin mərkəzi hakimiyyəti tutmaq cəhdlərinə qarşı xilafətin təhlükəsizliyini təmin etmək üçün onlara daha çox iqta torpaqları bağışlamaqla onları razı salmaq, bununla da, onların hərbi yardımına bel bağlamaq məqsədi güdürdü. Xəlifə ən-Nasir dövründə vəqf mülkiyyəti xüsusilə genişlənmişdi.

Ölkə daxilində müxtəlif tayfalar arsında baş verən münaqişələri, 1204, 1210, 1270-ci illərdə Bağdadda baş verən xalq çıxışlarını yatırmaqda xəlifənin məmlük əmirləri böyük rol oynayırdılar. Hətta 1210-cu ildə məmlük Səncərin xəlifəyə qarşı qiyamı elə məmlüklərin köməkliyi ilə yatırılmışdı. Təbii ki, xəlifənin türk hərbçilərinə olan müsbət münasibəti və inamı ona qarşı qarşılıqlı etimadı doğurmuşdu.

Daxili siyasi vəziyyət müxtəlif dini qruplaşmalar arasındakı ziddiyyətlə müşahidə olunurdu. Xəlifə ən-Nasirin daxili siyasətinin mühüm bir cəhəti də onun dini siyasəti ilə bağlı olmuşdur. Dini başçı kimi ən-Nasirin dinə xüsusi diqqət yetirməsi o dövrdəki mürəkkəb daxili ictimai-dini problemlərdən doğmuşdur. XII yüzilliyin sonlarına doğru İraqın dini tərkibi olduqca rəngarəng idi və sünni, şiə, zimmə və sairə ünsürlər içərisində kəskin qruplaşmalar nəzərə çarpırdı. Bir çox orta əsr mənbələrində ən-Nasirin şiəliyi qəbul etməsi göstərilir və doğrudan da, onun şiəliyin nüfuzunun yüksəlməsi qayğısına qalması bu fikri bir daha təsdiqləyir.

Abbasi xəlifələrindən tamamilə fərqli bir xətt götürməsi ən-Nasirin xarici siyasəti ilə də bağlı ola bilər. O dövrdə terrorçu dövlət kimi tanınan İsmaililər dövləti islam aləmində şiəliyin ən güclü mərkəzi sayılırdı. Xəlifə ən-Nasir ciddi bir qüvvə kimi İran şiələrini də nəzərdən qaçırmırdı. İranlıların köməkliyi ilə hakimiyyətə gəlmiş Abbasilərin bir nümiayəndəsi kimi ən-Nasir İran şiələrinin də mənafeyini güdmüş və onları özünün dayaq nöqtəsinə çevirmək üçün bu istiqamətdə bir sıra tədbirlər həyata keçirmişdir. O, hakimiyyətə gələn kimi şiələrə qarşı qəddar rəftarı ilə tanınmış vəzir ibn Attarı həbs etdirdi. Sonra xəlifə şiəliyi qəbul etdiyini əyani şəkildə sübut etmək üçün şiələrin imamı Musa ibn Cəfərin qəbrini ziyarətə getdi və öz göyərçinlərinə şiələrin on iki imamının adını verdi. Xəlifə ən-Nasir Samarada «Qeybət əl-Mehdi» məbədini tikdirmişdi.

XII-XIII yüzilliklərdə Yaxın və Orta Şərqdə baş verən mürəkkəb siyasi-ictimai hadisələr xilafəti daha geniş, daha mürəkkəb xarici siyasət xətti yeritməyə sövq edirdi. Bu vaxtlar xəlifəlik taxtında oturan xəlifə ən-Nasir Azərbaycan atabəyəlri, Xarəzmşahlar, Misir sultanları, Rum və Suriya səlcuqlrının Yaxın Şərqdə gedən mübarizəsindən və kəskin siyasi ixtilafdan məharətlə istifadə edərək, Bağdad xilafətinin siyasi nüfuzunu artırmaq, onu bu və ya digər dövlətin siyasi asılılğından qurtarmaq üçün var qüvvəsi ilə çalışıraq, böyük nailiyyətlər əldə etmişdir.

Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrilmiş Azərbaycan Atabəylər dövləti ilə xəlifə ən-Nasirin əlaqələri Atabəy Cahan Pəhləvanın vəfatından sonra başlanmışdır. Ən-Nasir xəlifəliyə keçən kimi öz elçisi Sədrəddin Şeyx Ən-Huyuxu Atabəy Pəhləvanın yanına göndərdi ki, özünə beyət alsın. Lakin bir qədər sonra beyət etsə də, ilk dəfə beyət etməkdən imtina etmişdi.

Azərbaycan Atabəyi Qızıl Arslanın vaxtında xilafətlə əlaqələri daha da genişlənmişdi. 1180-ci ildə III Toğrula qarşı müharibə aparan Qızıl Arslana kömək məqsədilə Cəlaləddin Ubeydullah ibn Yunisin başçılığı altında ordu göndərdi. Həmədan yaxınlığında «Dər əl-Mərc» adlanan yerdə xəlifə orduları məğlub oldu. Həmin il növbəti döyüş zamanı ən-Nasir Qızıl Arslanın köməyinə ordu göndərdi və bu ordu Həmədanı tutmağa nail oldu. Qızıl Arslan isə Həmədanda ona hücum edən III Toğrulu məğlub edib əsir aldı. Qızıl Arslan xəlifə ən-Nasirin məsləhəti ilə Həmədanda sultan taxtında özü oturdu və xütbə də onun adına oxunmağa başlandı. Lakin tezliklə Qızıl Arslanın öldürülməsi və III Toğrulun həbsdən azad olması xəlifə ən-Nasirin vəziyyətini son dərəcə ağırlaşdırdı. III Toğrulu eyni dərəcədə özü üçün təhlükə hesab edən Azhərbaycan atabəyi Qutluq İnanc Xarəzmşah Tekeşə müraciət etdi. Beləliklə, xəlifə ən-Nasir, atabəy Qutluq İnanc və Xarəzmşah Tekeşdən ibarət III Toğrula qarşı çevrilmiş bir üçlük ittifaqı yarandı. 1194-cü ildə III Toğrul Qutluq İnanc tərəfindən öldürüldü. Beləliklə, xilafətlə Səlcuqlar arasındakı əlaqələrə son qoyulmuş oldu.

*Bağdadın monqollar tərəfindən işğal edilməsi*

XII yüzilliyinn sonu-XIII yüzilliyin əvvəlində Mərkəzi Asiyanın çöllərində və Qazaxıstanda güclü köçəri tayfa ittifaqlarının hakimləri arasında digər tayfalar üzərində hakimiyyət bərqərar etmək uğrunda mübarizə gedirdi. Bu mübarizənin gedişində Tirnuçinin (Çingiz xanın) kiyat-borciqin monqol tayfaları, ilk növbədə, tatar, kireit və nayman hakimlərini darmadağın etdi, Mərkəzi Asiyanın köçəri tayfalarını birləşdirərək, Mərkəzi Asiya çöllərində yeganə güclü işğalçı dövlət olan monqol dövlətini yaratdı.

İraq Bağdad xilafətinin varlığına son qoyan monqol yürüşünə da məruz qaldı. Bağdadın fəthinə böyük əhəmiyyət verən monqollar dəfələrlə xilafətin paytaxtına yanaşmaq imkanı qazansalar da, son anda müxtəlif səbəblər üzündən tutduqları mövqelərdən geri çəkilməli olmuşlar. Lakin bu xəbərdarlıqlardan Abbasi xəlifələri nəticə çıxarmır və Bağdadın müdafiəsini təşkil etmirdilər. Ordunun əlində alətə çevrilmiş sonuncu Abbasi xəlifəsi Mütəsim (1242-1258) sərkərdə Aybəyin çevriliş edəcəyi hədəsindən çəkinərək, uzaqgörən siyasətçi vəzir ibn əl -Kaminin zəngin tənzimat göndərməklə və onun ali hakimiyyətini tanımaqla həm xəlifəni, həm də Bağdadı qorumaq

imkanı qazanmaq təklifindən imtina etdi. 1258-ci ildə Çingiz xan nəslindən olan Hülakü xan və onun ordusu əvvəlcə Bağdadı mühasirəyə aldılar, sonra isə onu hücumla tutaraq, xəlifə nəslini demək olar ki, tamamilə qılıncdan keçirdilər. Beləliklə, altı əsrdən bir qədər az sürən xilafətə monqolların qılıncı ilə son qoyulmuş oldu. Monqollar xəlifə Mütəsimi öldürməzdən öncə gizli xəlifə xəzinəsinin yerini öyrəndilər.

Ərəblərin birinci ayının 8-ci günü-həftənin 4-cü günü Hülakü xan Bağdada daxil oldu. İlk döyüşdə Bağdad əsgərləri zəfər qazandılar. Həmin gecə Bağdad əsgərləri hündür olmayan bir yerdə düşərgə salmışdılar. Bundan istifadə edən türklər Dəclənin axdığı böyük bir kanalın qolundan bir deşik açdılar və Bağdad əsgərləri gecə yarısı su altında qaldıqlarını görərək qaçmağa başldılar. Onların silahları su içində qaldı. Səhər tezdən Hülakü xan onların üzərinə yenqiən yürüş etdi və Bağdad əsgərləri məğlub oldular. Sərkərdə ibn Kural öldürüldü. Kiçik Daviddar qaçdı. Əsgərlərin məğlubiyyət xəbərini eşidən xəlifə Mütəsim vəziri Alkamı və Darnus oğlu Nəcməddin Əbdülcanı və katalikos Maar Makiqanı çoxlu qızıl və ərəb atlarından ibarət zəngin hədiyyyələrlə Hülakü xanın yanına göndərdi. Onlar baş verən hadisələrin pis müşavirlər tərəfindən törədildiyini söyləyərək, üzr istəyəcək, xəlifənin övladlarının sağ qalmasını xahiş edəcəkdilər. Əgər Hülakü xan onları əhv edərsə, onun köləsi olaraq, vergi verən təbəə olacaqlarını vəd edirdilər. Lakin Hülakü xan elçilərin təşrifinə əhəmiyyət vermədən ertəsi günü yenidən ərəblərlə müharibəni davam etdirdi. Birinci yürüş zamanı uğur qazanmasa da, ikinci yürüş zamanı Hülakü xan Bağdadı ələ keçirdi. Ertəsi gün xəlifə və oğlanları Hülakü xanın hüzuruna gəldilər. 7 gün onları zəncirləyib çadırda saxladı. Sonra isə şəhərin talanına başlandı və yerli əhali qılıncdan keçirildi. Müharibədə iştirak edən iberiyalılar daha çox qan tökdülər. Katalikos bütün xristianları Üçüncü Bazar kilsəsinə topladı və onların birinə də zərər dəymədi. Canlarını qurtarmaq istəyən varlı ərəblər sərvətlərinin böyük bir qismini katalikosa gətirdilər. Lakin bu onların həyatını xilas etmədi. Hülakü xan xəlifəni hüzuruna gətirdərək, onun qətlə yetirilməsini əmr etdi. Xəlifə bir çuvalın içinə salınaraq, təpiklə döyülərək, əzabla öldürüldü. Əbul Fərəc tarixində yazıldığına görə, Hülakü xanın ərəblər tərəfindən qorxudulması olmuşdur. Belə ki,

ərəblər Hülakü xana demişdilər ki, bu adamın qanı yer üzünə tökülərsə bir daha yağış yağmaz və hər şey alov içində yanar.

Bağdadı işğal etdikdən sonra monqollar Vasiq şəhərini tutdular, Bəsrə və Hillə şəhərləri isə könüllü şəkildə təslim oldular. Beləliklə, Ərəb İraqı Bağdadla birlikdə Elxani Hülakülər dövlətinin tərkibinə daxil oldular.

Hülakü xan Ərəb İraqına məşhur fars tarixçisi Əlaəddin Cüveynini canişin təyin etdi. 20 ildən artıq Bağdadı idarə edən Cüveyni şəhəri yenidən qurdu, abadlıq işləri apardı, yeni suvarma sistemləri qurdu, Fəratdan Kufəyə su kanalı çəkdirdi.

1295-ci ilin oktyabrında monqol xanı Arqunun 24 yaşlı oğlu Qazan xan (1295-1304) taxta çıxarıldı. Qazan xan 1295-ci ilin oktyabrında islamı qəbul edərək, onu dövlət dini elan etdi. Ölkənin paytaxtı Təbriz şəhəri oldu. Qazan xanın keçirdiyi islahatlar sırasında Dəclə və Fərat çaylarından iki magistral kanalın çəkilməsi İraqın boş qalmış torpaqlarının suvarılmasında böyük əhəmiyyət kəsb etdi. Vahid çəki və ölçü sistemi, pul islahatı, vergi miqdarı, ödənmə müddətinin dəqiqləşməsi və sairə bu kimi tədbirlər şəhər mühitinə və əyalətlərə müsbət təsir göstərdi.

Hülakülər dövlətinin dağılmasından sonra Ərəb İraqı Cəlairi dövlətinin tərkibinə daxil oldu. Bağdad Cəlairi sultanlarının qış iqamətgahı olmuşdur. Cəlairlərin Teymurla mübarizəsində əyalət böyük ziyan çəkmiş, Bağdad isə düşmən tərəfindən iki dəfə (1393 və 1401) alınmışdı. 1401-ci ildə əhalinin böyük hissəsi (mənbələrə əsasən 90 min) məhv edilmiş və şəhər isə güclü dağıntıya məruz qalmışdır.

Əmir Teymurun ölümündən sonra onun dövlətində ara müharibələri baş verdi. Cəlairi sultan Əhməd bu zaman Misirdən qayıdaraq, öz müttəfiqi olan türklərin qaraqoyunlu tayfa ittifaqının başçısı əmir Qara Yusiflə birlikdə Mərdrud yaxınlığında Miranşahın qoşununu əzdi. 1408-ci ildə baş verən döyüşdə Miranşah məğlub edilərək öldürüldü. Lakin tezliklə keçmiş müttəfiqlər arasında baş vermiş mübahisələr qanlı toqquşmaya çevrildi. 1410-cu ildə Təbriz yaxınlığında baş vermiş döyüşdən Qara Yusif qalib çıxdı. Beləliklə, Cəlairlər dövlətinin yerində Qaraqoyunlu(1410-1467) dövləti yarandı. Onun tərkibinə Ərəb İraqı da daxil idi. Qaraqoyunlu Cahan şahın (1437-1467) hərbi dəstəsinin Mingöl sancağında sərxoş vəziyyətindən istifadə edərək, Uzun Həsən 6 minlik seçmə

Ağqoyunlu süvarisi ilə hücuma keçdi və 1467-ci ilin noyabrında sayca on dəfədən çox olan Qaraqoyunlu qoşununu əzdi. Uzun Həsən (1453-1478) 1468-ci ildə Təbriz şəhərinə girərək, hakimiyyətin Ağqoyunlulara keçdiyini bildirdi. Beləliklə, İraq indi də Ağqoyunlu dövlətinin (1468-1508) tərkibinə daxil olur.

XV yüzilliyin ortalarında Ağ qoyunlu dövlətində taxt-tac uğrunda qızğın mübarizə gedirdi. 1501-ci ildə Qızılbaşlar Şərur yaxınlığında Ağqoyunlu Əlvənd Mirzənin ordusu üzərində qələbə çaldıldar. Qızılbaşlar Təbrizə daxil oldular və 1502-ci ildə İsmayıl burada şahənşah elan olundu. I Şah İsmayıl (1502-1524) 1508-ci ildə İraqı tutaraq, Səfəvi dövlətinin tərkibinə qatdı.

16

## FATİMİLƏR DÖVLƏTİ

*Fatimilər dövlətinin yaranması*

X əsrin əvvəllərində İfriqiyədə köçəri bərbər qəbilələrinin Əğləbilər dövlətinin vergi sistemindən narazılığı gündən-günə artırdı ki, bu da həmin hakimiyyətə qarşı böyük bir üsyanın baş verməsini şərtləndirən amillərdən birinə çevrildi. Üsyan ismailizm ideologiyası bayrağı altında gedirdi.

İfriqiyədə Əbu Abdullah əş-Şii köçəri bərbər qəbilələri arasında ismailizmi təbliğ edirdi. Natiqlik bacarığına malik əş-Şii ədalət və bərabərlik şüarı altında yerli əhalini Əğləbilərə qarşı üsyana çağırırdı. Qeyd edək ki, danışıdığımız dövrdə ismailizm təkcə sənətkar və kəndlilər arasında deyil, həmçinin yoxsul köçərilər arasında da geniş yayılmışdı. Təxminən bu hərəkatla, eyni zamanda, ismaili təriqətinin o zamankı lideri Ubeydullah adlı bir şəxs Suriyada üsyana rəhbərlik edirdi. Ubeydullah özünü Əli nəslindən 7-ci imam Məhəmmədin ailəsindən olan bir şəxs kimi qələmə verirdi. Lakin Suriyada üsyan məğlubiyyətə düçar olduğundan Ubeydullah Tunisə qaçmağa məcbur oldu. Əğləbilərə qarşı Abdullah əş-Şinin rəhbərliyi ilə İsmaili hərəkatı 909-cu ildə qələbə ilə nəticələndi. Ancaq üsyanın qələbə çalmasından və İfriqiyədə Əğləbilərin taxtdan salınmasından sonra Ubeydullah hakimiyyəti ələ keçirdi. Ubeydullah burada xəlifə, «əmir əl-möminin» və «imam Mehdi» elan edildi. Yeni sülalə Fatimilər adını qəbul etmişdi ki, bu da onun Əli və rəsulun qızı Fatimə nəslindən olmasına dəlalət edirdi. Beləliklə, İfriqiyədə (indiki Liviya, Tunis və Əlcəzairdə) Fatimilərin ismaili xilafətinin əsası qoyuldu (909-1171). Bir qədər keçdikdən sonra ölkəni şəriksiz idarə etmək istəyən Ubeydullah onun hakimiyyətə gəlməsində böyük xidmətləri olmuş silahdaşı Əbu Abdullah əş-Şiini xaincəsinə öldürdü.

Ubeydullah tam hakimiyyətə yiyələndikdən sonra işğallara başlamağa qərar verdi. Fəs şəhəri Fatimi orduları tərəfindən zəbt edildi və İdrisilər sülaləsindən olan Yəhya (905-922) Fatimi xəlifəsi Ubeydullahdan (909-934) vassal asılılığını qəbul etdi. Növbəti ili Yəhya şəhərdən sıxışdırıldı, həbs edildi və nəhayət edam edildi. Əslində İdrisilər sülaləsi dağıldı, yalnız Rifdə 974-cü ilə kimi hakimiyyətlərini qoruyub saxlaya bildilər.

Bütün 12 il ərzində Fatimilər Misirdən qərbdə yerləşən təxminən bütün Şimali Afrikanın, Siciliya və Sardiniyanın hakiminə çevrildilər. Onlar regionda üç yerli sülalənin – Əğləbilər, Rüstəmilər, İdirisilərin varlığına son qoyaraq, torpaqlarını zəbt etdikdən sonra burada onlar müsəlman İspaniyasını hədələlyən güclü qüvvə mərkəzi yaratdılar.

*Fatimilərin Misir uğrunda mübarizəsi*

Fatimilər Abbasilər xilafətinin tərkibində olan mühüm strateji əhəmiyyətli Misirin tutulmasına böyük önəm verirdilr. Məqsədlərini reallaşdırmaq üçün Fatimilər iki hakimin (Ubeydullah və əl-Qaim) dövründə Misiri işğal etmək üçün üç dəfə – 914, 921 və 935-ci illərdə müvəffəqiyyətsizliklə nəticələnən yürüşlərə cəhd etdilər.

Yaranan təhlükə Abbasiləri Misirin müdafiəsini təşkil etməyə məcbur etdi. Xəlifə əl-Müqtədir Misirin valiliyini Əbu Mənsur Təkin əl-Xəzəriyə tapşırdı. Təkin isə Məğribdə öz mövqeyini möhkəmlədən və növbəti niyyətinin isə Misiri işğal etmək olan Fatimilərdən gələn zərbələri zərərsizləşdirmək məqsədilə Bərqəyə əlavə qüvvələr göndərdi. Az sonra vəliəhd Əbul-Qasim və sərkərdə Hibasə əl-Kitaminin başçılığı altında güclü bir Fatimi ordusu 914-cü ilin avqustunda Bərqəyə daxil oldu. Qısa zaman kəsiyində baş verən ilk hücum nəticəsində Misirin çox böyük hissəsi–Fustatdan qərbə və şimala doğru olan əyalətlər işğal edildi. Həmin yerlərdən toplanan vergi isə Fatimi xəzinəsinə göndərildi.

Misirin asanlıqla işğal olunması səbəbləri sırasında aşağıdakı amillər durur: Fatimilər rəqiblərindən daha yaxşı silahlanmış və ordunun sayı da qarşı tərəfin qoşunlarından çox idi; güclü donanmaya malik idi. Bunun müqabilində Təkinin bir sıra tədbirlər görməsinə baxmayaraq, ölkənin müdafiə vəziyyəti çox aşağı səviyyədə idi.

Lakin xəlifə Müqtədir zəngin əyalət və strateji əhəmiyyətli olan Misirin itirilməsi ilə heç cürə barışa bilməzdi. Bu məqsədlə də, xəlifə Müqtədir görkəmli türk sərkədəsi Munis əl-Xadimin başçılığı altında Fatimilərə qarşı ordu göndərdi. Muqtədir Şama və digər əyalətlərin canişinlərinə Təkinə hərbi kömək göstərmək və onunla birləşmək əmrini verdi. Bu ciddi hazırlıq öz bəhrəsini verdi. 914-cü ilin noyabr-dekabr aylarında Gizə yaxınlığında qüvvələr arasında gərgin döyüşlər oldu. Bu döyüşlərdə Fatimilər məğlub oldular.

Onu da qeyd edək ki, Əğləbilərdən Fatimilərə güclü donanma qalmışdı. 12 illik hakimiyyəti dövründə əl-Qaim Fatimilərin donanmasını daha da gücləndirdi, Fransa və İtaliya sahillərinə bir sıra reydlər təşkil etdi. Ümumiyyətlə, Fatimilərin qüdrəti bütün Aralıq dənizi boyunca təhlükə yaradırdı. Gizə yaxınlığındakı məğlubiyyət Fatimiləri Misiri işğal etmək niyyətindən zərrə qədər çəkindirməmişdi. Yaranmış şəraitdə onlar ikinci dəfə Misirə yürüş etdilər və 916-917- ci illərdə Bərqəni yenidən tutmağa nail oldular. Bundan sonra, Əbül Qasimin (əl-Qaimin) başçılığı altında köçəri bərbərlərdən ibarət böyük bir ordu 10 iyul 1919-cu ildə İskəndəriyyəyə doğru hərəkət etdi. Tez bir zamanda Misirin bir çox əyalətləri işğal edildi. Əldə edilən hərbi müvəffəqiyyətlər Fatimiləri məkkəlilərə məktub yazıb onlardan Fatimilərin ali hakimiyyətini qəbul etmək kimi cəsarətli tələbə imkan verdi. Təbii ki, məkkəlilər həmin tələbi rədd etdi.

Misirdə ismaili təriqəti yerli əhalinin bir qismi tərəfindən qəbul edilmişdi və onlar Fatimi xəlifəsi əl-Mehdiyə beyət etdiklərini bildirirdilər. Onlara qarşı kəskin cəza tədbirləri tətbiq edilməsinə baxmayaraq, həmin əqidə sahibləri öz fikirlərində iddialı idilər, bu isə Təkini çıxılmaz vəziyyətə salırdı. Xəlifə birinci yürüş zamanı olduğu kimi Misirə yeni qüvvələr göndərməyə məcbur oldu. Munis, Təkin və əl-Xadimin başçılığı altında ordular Fəyyama doğru irəlilədi. Bu döyüş Abbasi xəlifəsinin xeyrinə başa çatdı. Bərqə istisna olmaqla Fatimilər tərəfindən işğal edilmiş bütün Misir torpaqları azad edildi.

Atası Ubeydullah əl-Mehdi vəfat etdikdən sonra 934-cü ildə əl-Qaim hakimiyyətə gəldi və o, dini baxışlarında daha fanatik, işğalçı siyasətində isə daha təcavüzkar idi. O, hakimiyyətinin növbəti ili, yəni 935-ci ildə Misirin işğalı üçün üçüncü Fatimi yürüşünə başladı. Bu yürüş də məğlubiyyətə düçar oldu.

Fatimilər tutduqları ərazilərdə əhali üzərində vergi əsarətini gücləndirirdi və bu da, öz növbəsində, əhali içərisində Fatimilərin-İsmaililərin dini doktrinasına qarşı narazılığı artırırdı. Bütün hərəkatlar iqtisadi səbəbdən doğsa da, onların liderləri hakimiyyətə gəldikdən sonar xalqa verilmiş vədlər unudurlar. Fatimilər və ismaili təriqətinin digər görkəmli nümayəndələri isə özlərindən əvvəlki feodalların torpaqlarını mənimsəyir və iri feodallara çevrilirdilər, bu minvalla xalqa verdikləri vədlər artıq gündəmə gəlmirdi.

944-cü ildə Tahirtadan olan xaricilər və Əbu Yəzidin başçılığı altında bərbərlər Fatimi hakimiyyətinə qarşı çıxış etdilər. Üsyan getdikcə genişlənirdi, köməksiz əl-Qaim üsyançılar Kayrauna çəkilənə qədər, 10 ay-945-ci ilin payızına kimi dəniz qalasında mühasirədə qaldı.

946-cı ildə ikinci Fatimi hakimi əl-Qaim vəfat etdi və onun 31 yaşlı oğlu əl-Mənsur (946-953) varis elan edildi. Əl-Mənsur üsyançıları ağır məğlubiyyətə uğratdı. Bərbər sanxac tayfası üsyanın yatırılmasında böyük rol oynadı. Əbu Yəzid qaça bilsə də, onu izləyərək qəddarlıqla öldürdülər və Fatimilər dövlətinin varlığını təhlükə altına qoyan bu şəxsin cəsədini bir ənam kimi əl-Mənsurun hüzuruna gətirdilər.

Əbu Yəzid üsyanının məğlubiyyəti Fatimilərin hakimiyyətini nisbətən möhkələndirdi. Artıq əl-Mənsur dəniz qalasından çıxmaq üçün özünü kifayət qədər güclü hesab edirdi. 947-ci ildə Kayraun ətrafında əl-Mənsur böyük bir sarayın tikintisinə başladı.

Baş verən olaylardan sonra Fatimilərin hakimiyyəti Şimali Afrikada xeyli dərəcədə zəiflədi. Əvvəlki mövqeyini qaytarmaq məqsədilə 958-ci ildə dördüncü Fatimi xəlifəsi əl-Muiz (953-975) Misiri işğal etmək planını gerçəkləşdirməmişdən öncə Afrika və Mərakeş üzərində öz hakimiyyətini əsaslı şəkildə möhkəmləndirmək qərarına gəldi. Bu vəzifə əsasən bərbər-sanxaclardan ibarət böyük ordu yaratmış Cövhərin üzərinə qoyulmuşdu. İstedadlı sərkərdə Cövhər Siciliyadan alınmış keçmiş yunan qulu idi. Keçmiş Rüstəmilərin ərazisində müqavimət qalıqlarını tam darmadağın etdikdən sonra o qərbə doğru hərəkət edərək İdrisilərin (789-926) keçmiş paytaxtı Fəsi yenidən işğal etdi.

Fatimilər Abbasiləri nə xəlifə, nə də dini və siyasi başçı kimi qəbul etmirdilər. Məğribin işğalı ilə kifayətlənməyən Fatimilər şiyə ideologiyası pərdəsi altında Misirin və Asiyanın digər ərəb ölkələrinin də daxil olacağı imperiya yaratmaq niyyətində idilər. Fatimilər ilk olaraq Abbasilərin ali hakimiyyətini qəbul etmiş Misirin işğalına önəm verirdilər. Strateji və coğrafi mövqeyinə görə əlverişli, zəngin və qədim mədəniyyətə malik olan bu ərazinin işğalı Fatimilərin siyasi nüfuzunu artırardı və digər ərazilərin fəthinə imkanlar açardı.

60 illik mübarizədən sonra Fatimilər qərbə doğru zəfər yürüşü həyata keçirmək üçün xeyli sursat toplaya bilmişdilər. Onlar ümid

edirdilər ki, Abbasiləri qəti surətdə məhv edəcəklər və bununla da «həqiqi» xəlifələrə münasibətdə isə «ədalət» bərpa olunacaqdır. Abbasilərlə nominal ittifaqda olan İxşidilər sülaləsi 935-ci ildən Misiri idarə edirdi, 968-ci ildə ölkənin hakimi Qafur öldükdən sonra sülalə zəifləmyə başladı, ölkədə hərc-mərclik və siyasi sabitsizlik hökm sürürdü. Bağdadda Buveyhilərin (Buidilərin) əlində oyuncaq hökumətə çevrilmiş Abbasilər dəhşətli aclıqdan əziyyət çəkən Misirin köməyinə gələ bilmədilər. Misiri tutmaq kimi iddialı planını həyata keçirməkdə Fatimilər üçün bundan əlverişli məqam ola bilməzdi. Bundan başqa, Fatimilərin köçəri bərbər qəbilələrə vergiləri azaldacağı haqqında verdiyi vədə əməl edilməməsi ikinciləri yeni hakim dairələrə qarşı üsyana sövq edirdi. Fatimilər bu üsyançı qəbilələrin niyyətini ayrı istiqamətə, yeni ərazilər işğal etməyə yönəltmək istəyirdi. Bundan isə iki məqsəd güdülürdü: birincisi, ölkə daxilində baş verən bu qorxulu üsyanın qarşısı alınardı; ikincisi isə, həmin qüvvələri düşmən istiqamətinə yönəltməklə güclü əlavə qüvvə əldə edə bilərdi, əks halda isə döyüşlərdə qırılan həmin narazı qüvvələri yolundan kənarlaşdırmaq imkanı qazanardı. Nəticədə, 969-cu ildə istedadlı sərkərdə Cövhərin komandanlığı altında dəqiq planlaşdırılmış hücumlardan sonra ölkənin işğalı asanlaşdı, Misirin paytaxtı Fustat heç bir müqavimət göstərmədi. Lakin Fatimilər bu qələbə şirnisisni dadana qədər Ərəbistanın mərkəzi rayonlarını öz nəzarəti altına ala bilən qərmətilərin qüvvələri ilə toqquşmalı oldular. 972-ci ildə Fatimilərlə qərmətilər arasında iri döyüş baş verdi. Fatimilər bu qələbəni böyük itgi hesabına qazanmış oldular.

Misirin yeni sahibləri Abbasi xəlifələrinə məxsus bütün nişanələri ləğv etdi, pullar dəyişdirildi və artıq cümə namazında əl-Muizin adı çəkilirdi. Böyük qələbənin şərəfinə Cövhərin rəhbərliyi ilə 969-cu ildə «Qahirə» (Qahirə-fəth edən, qalib gələn mənasını verir) adlı yeni şəhər salındı. Fatimilərin mərkəzi bura köçürüldü və tezliklə o, Yaxın Şərqin ən iri şəhərlərindən biri oldu. Əl-Muiz özünün çox saylı saray adamlrı ilə yeni paytaxta köçdü. Bundan sonra, Cövhər 973-cü ildə Fələstin və Suriyaya yürüşə başladı. Fatimilər, ilk əvvəl, Dəməşqə qədər olan Suriya torpaqlarının bir hissəsini tuta bildi. Artıq Fatimilər xilafətinin torpaqları qərbdə Mərakeş sərhədlərindən şərqdə Suriya səhrasına qədər uzanırdı. Lakin ilk baxışdan elə görünürdü ki, Fatimilərin Misir və Suriya istiqamətində qəti yürüşləri nəticəsində Buveyhilərin himayəsi altında olan Abbasilər xilafəti dağılacaqdır. Lakin belə hal baş vermədi.

Sərkərdə Cövhər Qahirə şəhərini saldıqdan bir il sonra Böyük məscidin - əl-Əzhər camisinin əsasını qoydu. Əvvəlcə yeni şəhər üçün yalnız məscid kimi nəzərdə tutlan əl-Əzhər tədricən İslam dünyasında ilahiyyatın iri mərkəzinə, əslində ümummüsəlmanlar üçün ənənvi elm və təhsilin mərkəzinə çevrildi. Bir çox görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti əl-Əzharla bağlıdır. Fizikaşünas İbn əl-Heysam (təxminən 1039-cu ildə vəfat etmişdir), həkim Əbdül Lətif əl-Bağdadi (1231-də vəfat etmişdir), hüquqşünas və tarixçi ibn Xaldun (1406 vəfat etmişdir) və sairə.

*Yeni dini təlimin yaranması*

Ölkənin çiçəklənməsində xidməti olan və hakimiyyətini sülh şəraitində idarə edən əl-Əzizdən (975-996) sonra taxt-taca onun 11 yaşlı oğlu əl-Hakim (996-1021) gəldi. Onun hakimiyyət illəri qarışıqlıq və həyəcanlarla müşahidə olunurdu. Əl-Hakim sonralar özünü əsəbi, qəddar bir adam kimi təqdim etdi, bir sıra yazılarda hətta onu psixi cəhətdən sağlam olmayan bir şəxs kimi də təqdim edirlər. Onun dini təqibi müsəlman-sünnilərə, xristian və yəhudilərə də toxunurdu. Əl-Hakim ilahi ruha malik olduğunu göstrməklə, həm də özünü yer üzünün hakimi və müqəddəs varlığı elan etdi. Onun bu ideyasına inanlar da tapıldı, hətta özünün xüsusi ardıcıllarını da toplaya bildi və onların içərisində druzların etnokonfessional qrupu da ayrıldı.

Bu yeni axının görkəmli nümayəndəsi Məhəmməd ibn İsmail əd-Darazi (1019-cu ildə vəfat etmişdir) idi. O, mənşəcə fars olan ismaili idi, 1017-ci ildə Buxaradan Misirə gəlmişdi, Əli və imam əl-Hakim vasitəsilə ilahi ruhun bədəndə cəmləşməsi haqqında təlimi təbliğ edirdi. Bu çıxışlar xalqın həyəcanına səbəb oldu və o, Livana qaçmağa məcbur oldu. Lakin onun burada yerli dağlılar arasında təbliğat aparması üçün əlverişli şərait var idi. Druzlar bu təbliğata inandılar və həmin təlimi qəbul etdilər. Livanda, Suriyada və işğal olunmuş Fələstin ərazisində bu günə qədər yaşayan druzlar həmin təlimi qoruyub saxlamışlar.Onlar əl-Hakimi ilahiləşdirir və onun qayıtmasını gözləyirdilər. Livanda 250 min, Suriyada 150 min və Fələstində 70 min nəfər druzun yaşadığı göstərilir. Druz təliminin həqiqi mahiyyəti yalnız seçilmişlərə açılırdı, əksəriyyətinin isə bu təlim haqqında səthi məlumatı var idi. Druzların 10 %-i ukkallara (mahiyyətini bütünlüklə bilənlərə), qalan hissəsi isə cuxxallara (cahhillərə-təlim haqqında səthi məlumatı olanlara) bölünürdü. Druzların şəxsi dini doktrinası var. Bu nə sünnilərin, nə də şiələrin

doktrinasına uyğun gəlmir. Onlar ilahiləşmiş əl-Hakimin dünyanın sonundan əvvəl qayıdacağını gözləyirlər. Əslində bu təlimi müsəlman təlimi adlandırmaq çətindir.

Xəlifə əl-Müstənsirin ölümündən (1094-cü il) sonra ismaililər arsında daha böyük parçalanma baş verdi. İsmaililər iki cəbhəyə–nizarilərə və mustəlilərə ayrıldılar. Nizarilər İranda və şərqin Fatimi xilafətinə daxil olmayan başqa ölkələrində, mustəlilər isə qərbdə Misirdə və Fatimilərə tabe olan başqa ölkələrdə üstünlük təşkil edirdilər.

1037-ci ildə Fatimilər bir neçə il ərzində müsəlman sərhədlərinə tez-tez yürüşlər edən Bizans imperatoru ilə sülh müqaviləsi bağladı. Bu sülh barışığından istifadə edərək, Fatimilər Hələbi tutdular ki, bu da onlara Əntakiyə (Antioxiya) istisna olmaqla bütün Suriyanı tutmaq imkanı verirdi. Qərmətilər isə hər il 20 min dinar almaq müqabilində Suriyaya olan iddialarından əl çəkdilər.

XI əsrin əvvəllərinə qədər artıq Fatimi dövlətinin tərkibinə Misir, müasir Liviya, Suriya, Fələstin, Qərbi Ərəbistan, Malta, Siciliya, Sardiniya və Korsika adaları daxil idi.

Beləliklə, şərqdə iki xəlifənin hakimiyyəti mövcud idi. Onlardan hər biri öz iddialarını qanuni sayırdı, hər iki xəlifə bir-birlərini kafir adlandlırırdılar. Fatimi xəlifəsi Muiz «Allahdan başqa Allah yoxdur, Məhəmməd onun peyğəmbəridir» formulasına «Əli onun dostudur» ifadəsini də əlavə etdi, cümə namazında isə onu Əlinin varisi kimi qeyd etməyi tapşırdı.

Fatimilərin dini təlimi müsəlman dünyasının bir sıra əyalətlərində, hətta Mədinədə də tanındı. Yəmənin hakimi cümə namazında Fatimi xəlifəsinin adına xütbə oxudu və öz nümayəndələrini onun yanına göndərdi. Fatimilərin dini nüfuzu Xorasana qədər tanındı. Türk-oğuzların rəhbəri Toğrul bəy bu təbliğatı özü üçün ciddi təhlükə hesab edərək, hakimiyyəti altında olan rayonlarda Fatimi tərəfdarlarının çıxışını yatırdı.

1059-cu ildə Toğrul bəyin və ordunun müvəqqəti olaraq, şəhərdə olmamasındn istifadə edərək, Büveyhi sərkərdəsi Aslan əl-Basasiri Bağdadda Fatimilərin ağ bayrağını qaldırdı. Xilafətin digər iri şəhərləri də onun ardınca getdilər. Qiyamçı əmir xəlifəni özü də daxil olmaqla bütün Abbasiləri qeyri-qanuni hakimiyyəti zəbt etməkdə günahlandıran, Fatimiləri isə qanuni xəlifələr elan edən sənədlərin imzalanmasına məcbur etdi.

Fatimi xəlifəsi əmir Aslana yardım üçün adamlar, 500 min dinar, ərzaq, silah, geyim, atlar göndərdi. Lakin Bağdad Toğrul bəyin orduları tərəfindən tutuldu. Fatimilər İraq işlərinə qarışmadılar, çünki bu zaman Fatimi canişinləri arasında mübarizə gedirdi. Hələbdə üç gün ərzində üç hakim bir-birini əvəz etmişdi. Fatimilər çox böyük çətinliklə Suriyada sakitlik yarada bildilər. Bağdadda ali hakimlərin və ruhani şəxslərin imzaladığı yeni sənəd tərtib edildi ki, burada da Fatimi xəlifələrinin Əli nəslindən olması iddiasının heç bir əsası olmadığı sübut edilirdi.

*Xaçlı yürüşləri*

XI yüzilliyin sonunda Şərqi Aralıq dənizi ölkələrinin siyasi həyatına yeni bir amil–XIII yüzilliyin sonunadək davam edən-xaçlı (səlib) yürüşləri daxil oldu. Xaçlı yürüşlərinin adı altında Suriya və Fələstinə, sonra isə başqa Şərqi Aralıq dənizi ölkələrinə yönəldilmiş Qərbi Avropa feodallarının hərbi müstəmləkəçi hərəkatı məlumdur. Bu hərəkat dini-ideoloji pərdə altında getmiş və əvvəl məhz «xristian məbədlərini» (Qüds və s.) müsəlmanların hakimiyyətindən qurtarmaq şüarı ilə başlamışdı. Ancaq dinin rolu bu hərəkatda ikinci dərəcəli amil idi: xaç yürüşlərinin əsas səbəbləri iqtisadiyyatla və siyasətlə sıx bağlı idi.

Birinci xaçlı yürüşündən sonra (1096-1099) Suriya və Fələstində dörd xaçlı dövləti yarandı: Qüds (Yerusəlim) krallığı, Trablis qraflığı, Əntakiya knyazlığı və Edessa qraflığı. Bu dövlətlərdə qərb mənşəli (əksərən fransız) sülalələr və feodallar hakimiyyəti ələ keçirmişdilər. Dövlətlər xırda torpaq sahibliklərinə (feodal və yaxud lenə) bölünürdü və buranın sahibləri hərbi xidmət daşıyan baronlar və cəngavərlər olmuşlar. Əksəriyyətinin italyanların təşkil etdiyi və əsasən ticarətlə məşğul olan qərb mənşəli əhali şəhərlərdə iri məhəllələrdə cəmləşmişdilər. Xaçlı dövlətlərində Qərbi Avropa feodal hüquq normaları fəaliyyət göstərirdi.

I Xaç yürüşündən sonra Bizans xaçlıların köməyi ilə səlcuqlardan Kiçik Asiyanın sahilyanı ərazilərini ala bildi, artıq cənub-şərqdə isə–Kilikiyada-Erməni Kilikiya knyazlığı yaranmışdı (1080-1375). O xaçlılarla sıx əlaqə saxlayırdı. III xaç yürüşü zamanı xaçlılar Kipr adasını tutmuş və burada Kipr krallığı (1191-1489), başda fransız sülaləsi olan bir dövlət yaratmışdılar. Xaçlılar bütün Suriyaya sahib ola bilmədilər-onun şərq hissəsi Hələb, Hama, Hums, Dəməşq şəhərləri isə müsəlman hakimlərinin sahibliyində qaldı, Fatimilər üçün Suriya artıq itirilmiş oldu.

## EYYUBİLƏR DÖVLƏTİ

*Zəngilərin xaçlılara qarşı mübarizəsi*

XI yüzilliyin sonu üçün artıq Fatimilər Suriya və Fələstin üzərində hakimiyyətlərini itirdilər. Bu ərazilərdə başında yerli feodalların və ya türk-səlcuq hakimlərinin durduğu çoxsaylı xırda əmirliklər yarandı. Felodal hakimlərinin ara müharibələri xaçlılara burada mühüm rayonları tutmaq imkanı verdi və mərkəzi Yerusəlim, Tripoli, Edessa və Əntakiya (Antoxiya) olan dörd iri xaç dövlətinin əsasını qoydu.

Səlibçilər öz dövlətlərində ağır feodal zülmü tətbiq edirdilər ki, bu da kəndli və sənətkarların dərin narazılığına səbəb olurdu. Feodal zülmünə «kafirlərin» dini ayrı-seçkiliyi də əlavə olunurdu. Ərəb kəndliləri və sənətkarları yeni ağaları ölkədən qovmaq məqsədilə dəfələrlə ayağa qalxmışdılar. Belə ki, 1125-ci ildə Beyrut rayonunda iri kəndli üsyanı baş verdi ki, bu da digər üsyanlar kimi amansızlıqla yatırıldı.

Səlibçilərin yürüşü yalnız dini zəmində deyil, həmçinin müsəlmian dövlətlərinin ticarəti, bütünlükdə isə, iqtisadi inkişafı üçün təhlükə törədirdi. Xaç dövlətlərinin yaranması ilə ticarətdə İtaliya şəhərləri Piza, Genuya, Venetsiya xüsusi imtiyaz qazanmışdılar. Bu şəhərlərin tacirləri şərqlə qərb arasında geniş ticarət əməliyyatları aparırdı. İtaliya tacirləri təkcə ticarətlə məşğul olmurdular, onlar torpaqlara da sahib olmuş və eyni zamanda, kəndliləri torpağa təhkim edir, onları pambıq, şəkər qamışı və apelsin yetişdirməyə məcbur edirdilər. Xristian hakimləri krallıq və knyazlıq yaratmaqla kifayətlənmirdilər, onlar tez-tez qonşu mülklərə yürüşlər edir, adamları öldürür, tarlaları məhv edir və zəngin qənimətlə geri qayıdırdılar.

Birinci xaç ürüşü, Suriya və Fələstində xaçlı dövlətlərinin meydana gəlməsi Ön Asiyanın müsəlman dövlətlərini kifayət qədər sarsıtmamışdı. Xaçlılarla silahlı mübarizə aparmaq bütün müsəlman dövlətləri deyil, yalnız torpaqları işğal təhlükəsi altına düşən ərəb dövlətlərinin hakimlərini daha çox maraqlandırırdı. Buna səbəb isə səlcuqlara məxsus ərazilərdə isə ardı-arası kəsilməyən müharibələrin baş verməsi, əmir və atabəylərin isə nəyin bahasına olursa-olsun hakimiyyətdə qalmaq və fəaliyyət göstərmək istiqamətində çıxış etmələri idi. Belə olmasa idi yeni xaç dövlətlərində baş verən

üsyanlardan yararlanar və onlara hər cür yardım göstərməyə çalışardılar. Ən çətini isə bu idi ki, hətta bir sıra müsəlman hakim və əmirləri bir-biri ilə apradığı mübarizədə xaçlı qüvvələrindən yararlanmağa çalışır və bu məqsədlə onlara müraciətlər də edirdilər. Lakin bu heç də xaçlıların güclü olması ilə bağlı deyildi. Xaçlı dövlətlərinin özləri arasında da ara müharibələri mövcud idi və hərbi qüvvələri də o qədər çox deyildi, çünki yürüş iştirakçılarının çoxu hər yürüşdən sonra öz vətənlərinə qayıdırdılar. Göründüyü kimi, xaçlı dövlətləri də zəif idi. Lakin 1096-1099-cu illəri əhatə edən birinci xaç yürüşündən sonra müsəlman dünyası parçalanmış vəziyytdə idi və yuxarıda qeyd etdiyimiz kimi, müsəlman dövlətləri arasında ara müharibələrinin mövcud olması onların kifayət qədər birləşməsinə, düşmənə qarşı qəti mübarizə aparmasına imkan vermirdi. Məhz bu səbəblərdən idi ki, Qüds krallığı bir əsrə qədər yaşaya bilmişdi.

Xaçlıların hücumuna qarşı yalnız vahid güclü dövlətdə birləşmiş, vahid komandanlığa tabe edilmiş iri silahlı qüvvə dura bilərdi. Şimali Suriyada xaçlılara qarşı mübarizə ararmaq üçün belə birləşmə hərəkatının başında Mosul atabəyi İmaməddin Zəngi dururdu. O, 1127-ci ildə İraqa atabəy təyin edildikdən sonra keçən 20 il ərzində tədricən qonşu əmirlikləri özünə tabe etdi. 1128-ci ildə Zəngi Suriyanın ən mühüm şəhərlərindən biri Hələbi tutdu. O, Dəməşq və Homsu tutmaq məqsədilə dəfələrlə cəhd göstərmiş, lakin müvəffəqiyyətsizliyə uğramışdı, çünki bu şəhərin hakimlərinin səlibçilərlə birləşməsi Zənginin məğlubiyyətini təmin etmişdi. 1144-cü ildə çoxillik mühasirədən sonra Zəngi mühüm strateji məntəqə olan Edessanı tutdu. Nəticədə, Edessa qraflığı dağıldı.

Edessanın itirilməsi ilə barışmayan Avropa növbəti-ikinci xaç yürüşünə başladılar. Bu yürüşün iştirakçıları Fransa kralı VII Lüdovik və Almaniya imperatoru III Konradanın rəhbərliyi altında Dəməşq mühasirəyə alındı. Soyğunçuluq və qırğınlarla müşahidə olunan bu yürüş də əvvəlki yürüşdən heç də fərqlənmirdi. Lakin səlibçilərin bütün cəhdlərinə baxmayaraq, Dəməşq düşmən qarşısında möhkəm dayandı və bu da böyük ümidlərlə gələn Avropa krallarını geri qayıtmağa məcbur etdi. Onu da qeyd edk ki, Qüds(Yerusəlim) hakimləri Dəməşqin mühasirəsi zamanı ikinci xaç yürüşünün iştirakçılarına yardım etməkdən imtina etdilər.

1146-cı ildə Zənginin ölümündən sonra dövlət onların oğlanları arasında bölündü. Zənginin varisi, onun oğlu Nurəddin artıq Suriyanın böyük hisəsinin sahibi idi. Qeyd edək ki, Zənginin oğlanları içərisində Nurəddin daha çox seçilirdi ki, o da xaçlılara qarşı güclü ordu yarada bilmişdi. O, Hələbin, sonralar isə Dəməşqin kafirlərə qarşı «müqəddəs müharibəsi»ni elan etmiş və xaçlılarla uğurla döyüşmüşdür. Onun səyləri nəticəsində bir sıra müsəlman hökmdarları xaçlılara qarşı birləşdilər. 1154-cü ildə Nurəddin Dəməşqi tutdu. O, Əntakiyə və Tripoli üzərinə müvəffəqiyyətli yürüşlər təşkil etdi və hətta onların hakimlərini əsir götürdü.

Xaçlılar Aralıq dənizinin əlverişli mövqelərində öz dövlətlərini yaratmışdılar, lakin onların dövləti möhkəm deyildi. Onların mülklərinin sərhədləri şimaldan cənuba qədər uzanırdı. Bu sərhədlərin müdafiəsi üçün isə böyük qüvvə tələb olunurdu. İşğalçıların özləri arasında da daim mübarizə gedirdi. Bu da vəziyyətə təsir göstərirdi. Müsəlman hakimləri öz aralarında gedən mübarizə zamanı xaçlılara müraciət edirdilərsə, eyni vəziyyəti xaçlılarda da müşahidə etmək olar. Onlar da müsəlman əmirləri ilə analoji müqavilələr bağlayırdılar.

Xaçlıların vəziyyəti həm də ona görə ağırlaşdı ki, artıq onlara qarşı bir-birləri ilə daim mübarizə aparan xırda əmirliklər deyil, güclü dövlət dururdu. Nurəddin hərbi sərkərdə və dövlət xadimi kimi bacarıqlı olmaqla yanaşı, həm də ətrafına hərbi qabiliyyəti olanları toplayırdı və onlara mühüm vəzifələri etibar edirdi. Nurəddinin mahir sərkərdələri arasında Şirkux və onun qardıaşı oğlu Səlahəddin ibn Eyyubi də var idi. O, Slahəddin Eyyubini Dəməşqə əmir, Şirkuxu isə ordunun ali baş komandanı təyin etdi. Nurəddin Misirin işğalına böyük əhəmiyyət verirdi. Misirin daxili işlərinə qarışmaq üçün əlverişli şərait yarandı. Qahirədə devrilmitş vəzirlərdən biri Suriyaya qaçaraq, Nurəddinin yanına gəldi. O, Nurəddinə kömək üçün müraciət etdi və bunun müqabilində ona ölkənin bütün gəlirlərinin üçdə birini verəcəyini vəd etdi. Lakin Nurəddinin daha uzağa gedən niyyətləri var idi. Bu məqsədlə, Nurəddin Şirkuxu Misirə Fatimilər xəlifəsinin apardığı daxili çəkişmələrdə köməyə və Qüds kralı Amalrixlə döyüşlər aparmağa göndərdi.

Gərgin mübarizədən sonra Şirkux 1168-ci ildə üçüncü dəfə Misirə daxil oldu, paytaxtı tutdu, vəzir və ali baş komandan

vəzifələrinə yiyələndi. Beləliklə, Misirdə Nurəddinin hakimiyyəti yaradıldı.

*Eyyubilər dövlətinin yaranması və xaçlılara qarşı mübarizə*

1169-cu ildə Şirkuxun ölümündən sonra Fatimi xəlifəsi həmin vəzifəni Səlahəddinə verdi. Səlahəddin mütləq hakim idi, dini işlər isə xəlifənin öhdəsinə düşmüşdü. Qəzanı xaçlılardan aldıqdan sonra Səlahəddin Eyyubinin nüfuzu daha da artdı. Lakin Səlahəddinin müsətqil fəaliyyəti Nurəddini ciddi narahat edirdi, o yeni mülklərinin bölünməsindən və ümumi düşmən qarşısında qüvvələrin parçalancağından ehtiyat edirdi. Bunun üçün isə əsas var idi. Belə ki, Səlahddin Eyyubi 1171-ci ildə qvardiyanın və feodal dəstələrinin köməyi ilə hərbi çevriliş edərək, sonuncu Fatimi xəlifəsi Adidi devirdi və özünü sultan elan etdi. Dini başçı kimi o, Bağdaddakı sünni Ab-basi xəlifəsini tanıdı. Beləliklə, Misirdə yeni sülalə Eyyubilər sülaləsi bərqrar oldu. Onu da qeyd edək ki, 1173-cü ildə Səlahəddin Məkkə və Mədinə şəhərlərində də Eyyubilərin hakimiyytini bərqərar etdi.

1174-cü ildə Nurəddin vəfat etdi. Hakimiyyət onun Hələbdə olan azyaşlı oğluna keçdi. Dərhal Nurəddinin digər ailə üzvləri və bir sıra əmirlər hakimlik iddiasına düşdülər və bu məqsədlə mübarizəyə qalxdılar. Nurəddinin qardaşı oğlanlarından biri Də-məşqdə, digəri isə Mosulda möhkəmləndi. Şəhəri özünün gənc süzerenınə qaytarmaq iddiası ilə Səlahəddin Eyyubi ordu ilə Dəməşqə daxil oldu. Şəhər müqavimətsiz təslim oldu. Səlahəddin tədricən Homsu, Bəəlbəki, Edessanı, Xamanı özünə tabe etdi. Lakin tutduğu şəhərlərin heç birini Nurəddinin oğluna tabe etmədi. Belə olduqda, az yaşlı Hələb hakiminin məsləhətçiləri kömək üçün onun əmisi oğluna-Mosul hakiminə müraciət etdilər. Birləşmiş qüvvələr Xama şəhərinə daxil oldular, lakin Səlahəddinin qüvvələri tərəfindən darmadağın edildilər. Sonra Səlahəddin Hələbi tutdu və özünü sultan elan etdi. Görünür, Səlahəddin səlibçilərə qarşı davamlı mübarizə aparmaq üçün qüvvətli dövlətin yaranmasına məqsədyönlü şəkildə önəm verirdi. Parçalanmıhş vəziyyətdə düşmənə qarşı durmaq da çətinlik törədərdi. Böyük siyasətçi kimi Səlahəddin vəziyyəti daha aydın görürdü və əslində Nurəddinin xaçlılara qarşı apardığı yarımçıq mübarizəni davam etdirirdi.

Səlahəddin dövlətinin mərkəzi Misir hesab edilirdi, o, Suriyanı öz torpaqlarına qatmaq və xaçlıları Qüdsdən qovmaq niyyətindən bir an da uzaqlaşmamışdı. Səlahəddin yürüşün müvəffə-

qiyyətinin təminatı üçün assasinlərlə müqavilə bağladı. Assasinlərin Suriyada möhkəmlənmiş mənətəqələri var idi ki, onlar həm səlibçilərə, həm də müsəlmanlara qarşı yürüşlər təşkil edirdilər, bəzən də elə olurdu ki, şəraitdən asılı olaraq digər tərəflə bu tərəfə qarşı və ya əksinə müqavilə bağlayırdılar. Hətta Səlahəddinin Suriya yürüşü zamanı assasinlər onun həyatna iki dəfə qəsd etməyə cəhd göstərmişdilər, lakin hər ikisində də müvəffəqiyyətsizliyə uğramışlar. Zəngi əmirlərinə və səlibçilərə qarşı mübarizə aparmaq üçün bu təhlükəli düşməni zərərsizləşdirmək zərurəti yaranırdı. Assasinlərlə bağlanmış müqavilə uzun müddət qüvvədə qaldı.

XII yüzilliyin 80-ci illərində Səlahəddin Nurəddinin ölümündən sonra yaranmış xırda əmirlikləri ləğv etdi və Suriyanı birləşdirdi. 1186-cı ildə bütün Misiri, xaçlıların tutduğu əyalətləri çıxmaqla Suriyanın digər ərazilərini və xırda Mesopotamiya əmirliklərini vahid dövlətdə birləşdirdi. Mosul hakimi isə Səlahddinin ali hakimiyyətini tanıdığını bildirdi, xaçlılara qarşı müharibədə isə ona hərbi qüvvə və ərzaq göndərəcəyini vəd etdi.

Sultan Səlahəddin Suriya və Misiri öz hakimiyyəti altında birləşdirdikdən sonra artıq o, əsas vəzifəsinə-xaçlılara qarşı «müqəddəs müharibə»yə başlaya bilərdi. Bir il ərzində Səlahəddinin ordusu xaçlılar üzərində parlaq qələbələr qazandı və xaçlılardan Təbəriyyə, Sezariyyə, Xeyvə, Yaffa, Sayda, Beyrut və digər ərazilər alındı. 1187-ci ilin yayında Hittin yaxınlığında Səlahəddin xaçlıların ordularını darmadağın etdi və Qüds kralı Qvido Luzinyan da daxil olmaqla onların başçılarını da əsir aldı. Bu döyüşdə ona Mosul hakiminin orduları böyük yardım göstərdilər. Həmin il müsəlmanların əlinə Əkkə, Askalon və Qüds keçdi. 2 sentyabr 1187-ci ildə bir aylıq mühasirədən sonra Qüdsün itirilməsi «müqəddəs şəhər» uğrunda mübarizəni əsas məqsəd götürən xaçlıların xristian dünyasına güclü zərbə oldu. Beləliklə, Qüds krallığının fəaliyyətinə son qoyuldu. 1187-ci ilin sonu üçün Tirdən başqa Qüds krallığının digər bütün ərazisi Səlahəddinin əlində cəmləşdi. 1099-cu ildə xaçlıların yerli əhali ilə münasibətlərindən fərqli olaraq, Qüds sakinləri ilə Səlahəddin çox mülayim rəftar etdi. Şəhər saiknlərinə (xristian və yəhudilərə) 40 gün ərzində öz azadlıqlarını satın almq təklif olundu. 10 dinar kişi üçün, 5 qadın üçün, 1 uşaq üçün məbləğ müəyyən edildi. Kim bu pulu ödəyə bilmirdisə qula çevrilirdi. Bununla yanaşı, yeni güzəştlər edildi. 50 min əhalidən 20 mini pulu

ödəyə bilmədi. Sultan onlardan 4 min qocanı azad etdi, 6 minini öz əmirlərinə verdi, 5 mini Qüdsdə tikintidə qaldı və 5 mini Misirə göndərildi.

Səlahəddinin Qüdsü tutması ilə xaç yürüşləri tarixində dönüş nöqtəsinin başlanğıcı qoyuldu. Qeyd edək ki, Qüdsün süqutu Avropa hakimlərini möhkəm əndişələndirmiş və III Xaç yürüşünün (1189-1192) başlanmasına əsas vermişdir. III Xaç yürüşünün rəhbərləri İngiltrə kralı I Riçard, Fransa kralı II Filipp Avqust, müqəddəs Roma impereratoru I Fridrix Barbarossa idi. İmperator I Fridrix Barbarossanın bu yürüşdə taleyi gətirməmiş yolda kiçik Asiya ərazisində dağ çayında boğulmuşdu. Yürüşün gedişində İngiltərə kralı Riçard Səlahəddinin yanına elçi göndərərək demişdir: «Qarşı-qarşıya gəlib otursaq sizə heç bir zərərim dəyməz. Əksinə bəlkə də məsələnin həllinə xeyrim dəyər». Səlahəddin isə cavabında demişdir: «Biz əvvəlcə aramızda sülh yaratmalı və sonra görüşməliyik. Mehriban danışıb, çörək kəsdikdən sonra bizə müharibə etmək yaraşmaz». Bu isə Səlahəddinin xaçlılara inamsızlığından irəli gəlirdi. Çünki sonrakı hadisələr Səlahəddinin fikrində yanılmadığını göstərir. İngiltərə kralı Səlahəddinin yanına üç dəfə hədiyyələrlə «xoş niyyətli» elçi göndərdi. Lakin Əbul Fərəc tarixində bildirilir ki, bu ziyarətdə məqsəd ordunun mövqeyini, kəmiyyət və keyfiyyətini öyrənməkdən ibarət olmuşdur. 1191-ci ildə Səlahəddin əsas qalalardan biri olan Əkkəni itirsə də, sonrakı xaç yürüşləri Avropa hakimlərinə iri qələbələr qazandırmadı. Bu yürüş zamanı Avropa hakimləri qarşı-larına qoyduqları məqsədə çata bilmədilər və onlar yalnız Fələstinin Əkkə, Sayda, Beyrut şəhərləri ilə dəniz boyu ərazisini geri qaytardılar. Fələstinin qalan hissəsi isə Qüdslə birlikdə müsəlmanların əlində qaldı. Ərazinin bu cür bölünmə şərtilə I Riçard Səlahəddinlə barışıq bağlayıb ondan Qərbi Avropa ziyarətçilərinin Qüdsə və Vifleyemə xristian müqəddəs yerlərinə gəlmələrinə icazə də ala bildi.

Orta əsrlər müsəlman şərqinin tarixində Səlahəddin ən görkəmli şəxsiyyətlərdən bir kimi qiymətləndirilir. O, bacarıqlı sərkərdə, böyük siyasi xadim olmaqla yanaşı islam dininin təəssübkeşi kimi də çıxış edirdi. O, bir müsəlman kimi bir çox məscid və mədrəsələr də tikdirmişdi. Səlahəddin əsl müsəlman olaraq, insanları dəyərləndirməyi bacarmış, digər dinin daşıyıcılarına da mərhəmətlə yanaşmışdır ki, bunu yuxarıda onun əsirlərə olan münasibətində də görürük. O, ədalətli və müdrik hökmdar olmuş və öz nəfsinə üstün

gəlməyi bacarmışdı. Fatimilər xəzinəsinə yiyələnəndən sonra ondan bir dirhəm də götürməmiş və onun hamısını öz əsgərləri arasında paylamışdır. Elə buna görədir ki, Səlahəddinin ölümündən sonra onun şəxsi xəzinəsindən cəmi 47 gümüş dirhəm və 1 qızıl pul tapılmışdı.

1193-cü ildə Səlahəddin vəfat etdi və onun Misirin, Hicazın, Fələstinin, Suriyanın, Yuxarı Mesopotamiyanın ərazilərini əhatə edən dövləti övladları arasında bölündü. Hələ sağlığında ikən böyük oğlunu sultan təyin etdi, ona Dəməşq və Cənubi Suriyanı hədiyyə etdi. İkinci oğluna Misiri, üçüncü oğluna Hələb və Şimali Suriya, dördüncü qardaşı Adilə isə Mesopotamiya torpaqlarını verdi. Lakin bu bölgü heç də onları daha ali hakimiyyət uğrunda mübarizədən çəkindirmədi. Bir əyalətin narazı əmiri qonşu əyalətlərin hakimləri ilə razılaşaraq üçüncü hakimin üzərinə yürüş təşkil edirdilər. Mesopotamiyanı idarə edən Səlahəddinin qardaşı Adil Misirin hakimi qardaşı oğlu Əzizlə birləşərək, 1196-cı ildə Dəməşqi tutdu. 1200-ci ildə isə qardaşı oğlu Əziz öldükdən sonra Adil onun varislərini Nil vadisi üzərindəki hüququndan məhrum edərək, həmin əraziləri də özünə birləşdirdi. 1218-ci ilə qədər ölkəni idarə edən Adil Səlahəddinin oğlan və nəvələrini özündən asılı vəziyyətə sala bildi. Bir sıra Mesopotamiya əmirliklərini də birləşdirdikdən sonra təxminən Səlahəddinin tutduğu ərazilərdən daha artıq əraziləri əlində cəmləşdirən dövlət yaratdı.

1218-ci ildə xaçlılar əsas zərbəni Misirə yönəltdilər, Damietta qalası və limanını mühasirəyə aldılar. Bir ildən sonra Damietta süqut etdi, lakin 1221-ci ildə Adilin oğlu Malik əl-Kamil (1218-1238) Damiettanı geri aldı və Misiri səlibçilərdən təmizlədi. Belə ki, Eyyubilərin Misir qolu güclü olduğundan ölkələrini xaçlıların işğallarından qoruya bildilər və hətta Malik əl-Kamil onlarla sülh bağlaya bildi. Adilin ölümündən sonra yenidən ara müharibələrinə rəvac verildi. Səlahəddinin sülaləsinə mənsub Eyyubi mülklərinin əsas hissəsi-Misir, Mesopotamiya, Cənubi Suriya Kamil tərəfindən tutuldu. Buna görə də, beşinci səlib yürüşünün əsas qüvvələri ona qarşı yönəlmişdi. 1229-cu ildə Kamil qarşılıqlı razılaşma əsasında Qüdslə şəhərlər arasında dar uzun zolağı və Yəffanı səlibçilərə verdi.

Kamil Kiçik Asiyanın şimalında Səlcuq hakimləri ilə mübarizə aparırdı. 1237-ci ildə əvvəllər onun qardaşına mənsub olan

Dəməşq və Şimali Suriyanı tutdu. Beləliklə, Əyyubi mülklərinin sərhədləri yenidən bərpa edildi. Lakin 1238-ci ildə Kamilin ölümündən sonra dövlət dağıldı.

Onu da qeyd etməliyik ki, Eyyubilərin hakimiyyəti tədricən türkləşmiş və dövlətin hakim strukturunda onlar türklərə həlledici yer vermişlər. Malik əl-Kamilin ölümündn sonra onun oğlu Salih Eyyubi dövlətini dağılmaqdan xilas etmək üçün orduya daha geniş səlahiyyət verməyə başlamış, Orta Asiyadan, monqollar tərəfindən dağıdılmış Xarəzmşah ordusundan Eyyubilər ərazisinə düşmüş türk muzdlu əsgərlərini öz ordusuna götürmüşdü.

Ordu dövlətin idarəetmə strukturalarına müdaxilə etməkdən çəkinmirdi. Onun daxilində türklərdən ibarət «səlahiyyə» adlanan xüsusi qruplarla o biri əsgərlərin geniş rəqabəti başlamışdı. Ümumiyyətlə, sonralar ordu türkləşmiş, onun əsasını məmlüklər təşkil etmişdi. (Ərəbcə məmlük-malik, yəni hökmdara məxsus olan deməkdir.) Onların başçıları-əmirlər hərbi-lenin (iqtaların) əsas sahibləri idilər. 1249-cu ildə əs-Salih vəfat etdi və bundan istifadə edən xaçlılar Dumyatı tutmuşlar. Lakin qeyd edildiyi kimi, 1250-ci ildə onların orduları Misirdən qovulmuş və Fransa kralı, xaçlıların başçısı IX Lüdovik əsir düşmüş, sonra pul alıb, onu buraxmışlar. Əs-Salihin arvadı Şəcər əd-Dür bu vaxt Suriyada olan sonuncu Eyyubi sultanı oğlu Turan şaha xəbər göndərmiş və təcili Misirə qayıtmasını istəmişdir. Lakin xəbər gecikmiş və o, ordu tərəfindən öldürülmüşdür.

Türk-məmlüklər Misirdə Şəcər əd-Dürü hökmdar elan etdilər və o, Aybək adlı bir türk əmiri ilə izdivaca girdi. Aybək atabəy titulunu qəbul etdi. 1250-ci ildə onlar ikisi də qətlə yetirildi və hakimiyyətə hərbçilər-məmlüklər yiyələndilər.

Aybəyin ölümündən sonra Misirin sultanı digər məmlük Əli, sonra isə Kutuz oldu. Beləliklə, XVI əsrin əvvəllərinə qədər Suriya və Misiri məmlüklər idarə etməyə başladı.

Eyyubilərin siyasi dövlət quruluşu əvvəlkilərdən onunla fərqlənirdi ki, ölkənin başında Abbasi xəlifəsindən investitura alan sultan dururdu. Belə ki, 1174-1175-ci illərdə Abbasi xəlifəsi Misirdə Eyyubilərin hakimiyyətini tanıdı, ona sultan titulunu verdi və Səlahəddinin varislərini də qanuni hakim kimi tanıdığını bildirdi. Belə bir vəziyyət, Abbasi xəlifəsi üçün də əlverişli idi, çünki daima onlar üçün təhlükə mənbəyi olan Fatimilərin siyasi səhnədən götürülməsi

və formal da olsa onların ali hakimiyyətinin qəbul edildməsi məqbul hal idi.

Misir 20 əyalətə bölünmüşdü və əyalətlərin statusu eyni idi. Suriyada hər bir əyalətin başında hakim sülalənin üzvlərindən və ya da yerli əmirlərdən dururdu. Lakin bir sıra əyalətlər imperiyaya vassal hüquqları ilə daxil olmuşdu.

Səlahəddin Eyyubi güclü ordu yarada bilmişdi ki, onun da özəyini kurdlər və məmlüklər təşkil edirdi. Köhnə zənci qvardiyasından isə Fatimi müxalifətinə qarşı istifadə olunurdu. Lakin zənci qvardiyasının iki böyük üsyanı yatırıldı. 1174-cü ildə isə Fatimi qvardiyasının qalıqları buraxıldı.

Səlahəddinin hakimiyyətinin ilk dövrlərində 20 min nəfərlik nizami ordu Misirdə cəmləşmişdi. Sonralar orduya yeni dəstələr cəlb edildi. Lakin qeyd edək ki, Suriya və Misir vassal hakimləri birinci çağırışda sultana kömək üçün ordu göndərməli idilər. Bundan başqa, köməkçi bədəvi dəstələri də yaradılmışdı. Səlahəddin Misir donanması yaratdı. O, xüsusi donanma divanı təşkil etdi ki, onun üçün də müəyyən torpaq sahələri ayrıldı və divanın ixtiyarına verildi.

Eyyubilərin dövründə hərbi qulluqda olanlara geniş iqta torpaqları paylanırdı. İqtalar iki cür olurdu: irsi və ya ömürlük. İrsi iqtalar ,xüsusilə Suriyada geniş yayılmışdı ki, bu da həqiqi feodal mülklərinin yaranmasına imkan verirdi.

Feodal torpaq sahibliyində vəqf torpaqları da mühüm yer tuturdu. Bununla yanaşı, dövlət dini müəssisələrə pul və natura ilə vəsait ayırmışdı, əlavə olaraq, xeyli miqdarda tərpənməz əmlak bağışlamışdı. Bir qayda olaraq, vəqf torpaqları üzərinə dövlət vergisi qoyulmurdu.

XII yüzilliyin əvvəli üçün Misirin iqtisadi həyatında müəyyən yüksəliş nəzərə çarpırdı. Vergilərin müəyyən qədər azalması kənd təsərrüfatı, sənətkarlığın və ticarətin inkişafına geniş imkan açdı. Süni suvarma sisteminin yaxşılaşması üçün işlər görülür, kənd təsərrüfatına xüsusi diqqət verilirdi. Xarici ticarət artırdı. Eyyubi sultanları Qərbi Avropa, xüsusən Venetsiya və Kenuya ilə ticarət müqavilələri bağlamışdılar.

# MƏMLÜKLƏR DÖVLƏTİ

Eyyubilər dövlətində ordunun siyasi həyatında məmlüklər böyük hüquq və səlahiyyətlərə malik idilər. Dəstələrə bölünən məmlüklər əsasən əsirlərdən təşkil edilirdilər. Dəstələrin başında bəylər dururdu. Məmlük bəylərinə torpaqlar verilirdi və tədricən onlar feodallara çevrilirdilər. Sonuncu Eyyubilərin dövründə məmlüklərin səlahiyyəti o qədər artmışdı ki, dövlətin bütün işlərini demək olar ki, onlar aparırdılar. 1250-ci ildə məmlüklərin hakim sülaləni devirməsi onun nə dərəcədə güclənməsinin göstəricisi idi. Bu zamandan etibarən məmlük hərbi rəisləri ölkənin sultanı seçilirdilər.

Eyyubilər siyasi səhnədən silindikdən sonra Misir və Suriya irs olaraq, Məmlüklərin idarəçiliyi altına keçdi. Orduya arxalanan məmlüklərin qüdrəti ordunun kəmiyyət və keyfiyyətindən çox asılı idi. Məmlüklər iki qola-bəhri məmlüklərə və burci məmlüklərə ayrılırdı. Bu məmlüklərin adları onların yerləşdiyi məkanla bağlı olmuşdur. Bəhri (çay boyu) məmlüklərinin (1250-1390) əsas hərbi kazarmaları ər-Rauza adasında, Nil çayında yerləşirdi, sultan Kalaun burci (qalalı) məmlüklərini (1390-1517) Qahirə qalasında yerləşdirmişdi. Təxminən 250 il məmlüklərin sultanı iki məmlük qolunun əmirləri içərisindən seçilmişdi.

Bəhrilər hakimiyyət məsələsində nəsli varislik prinsipinə üstünlük verirdilr. Bürcülərdə isə qədim türklərə məxsus olan hakimiyyət sultandan onun ən qabiliyyətli silahdaşına keçirdi.

Şərqi Aralıq dənizi ölkələri, o cümlədən Misir və Suriya XIII yüzilikdə işğalçı hərəkatın: şərqdən-monqol feodallarının, qərbdən isə Qərbi Avropa feodallarının apardığı hərəkatın mərkəzində idi. Ona görə də, bu ölkələr istər-istəməz o dövrün beynəlxalq münasibətlərinə cəlb edildilər.

Hülakülər dövlətinin yaranması, Bağdadın alınması (1258) Suriya və Fələstini, sonra isə Misiri monqol təhlükəsi qarşısında qoydu. Xaçlıların və erməni Kilikiya çarlığının köməyi ilə monqollar dəfələrlə Suriyanı tuta bilmişdilər. Misir sultanlığının hərbi qüvvəsindən qorxan xaçlılar monqolları dəstəkləyirdilər.

Ön Asiyaya monqol işğalları nəticəsində Bağdad xilafətinin qəti şəkildə süqutu Suriya-Misir hakimlərinə ciddi xəbərdarlıq idi.

1260-cı ildə monqollar Suriyaya yürüş etdilər. Yürüşə Hülakü xan özü rəhbərlik edirdi. Məmlüklər cəsarətlə vuruşsalar da monqol qüvvələrinə tab gətirə bilmirdilər. Hətta monqollar Suriyanın iri şəhərlərindən biri olan Hələbi də tutdular. Lakin gözlənilmədən Monqolustanda Munke xanın ölümü ilə əlaqədar olaraq, monqollar yürüşü davamı etdirmədilər. Hülakü xan Munkenin varisini seçmək üçün keçirilən qurultaya getdi. Lakin buna baxmayaraq, monqol sərkərdələri bir sıra əmirlikləri özünə tabe edə bildi, Dəməşq isə döyüşsüz təslim oldu. Monqollar Qahirəyə sultan Kutuzun təslim olması təklifi ilə elçi göndərdi. Lakin sultan elçini edam etdirdi. Bu isə göstərirdi ki, məmlüklər asanlıqla təslim olmayacaqlar. Məmlüklər xeyli ordu toplayıb Fələstinə yürüş etdilər. 3 sentyabr 1260-cı ildə Ayn-Calut adlanan yerdə yalnız Misirin deyil, bütün Suriyanın taleyi həll olundu. Monqollar tam məğlub oldular, ali baş komandan əsir götürüldü və edam edildi. Bununla da, Suriya məmlüklərin idarəçiliyi altına keçdi. Kutuz bir çox əyalətlərə məmlüklərdən canişin təyin etdi. Qahirəyə geri qayıdarkən yüksək vəzifələrin bölgüsündə özünü aldadılmaş hesab edən məmlük bəyi Bəybars Kutuzu öldürdü. Ordu Bəybarsı sultan elan etdi. Görkəmli sərkərdə mənşəcə qıpçaq olan Sultan Bəybars (1260-1277) 1268-ci ildə zəngin Əntakiyəni tutmuş və xaçlı knyazlığının mövcudluğuna son qoymuşdu. Şəhər dağıdılmış və sonra bərpa oluna bilməmişdi. O, əsas diqqətini qiyamçıları cəzalandırmaqla mərkəzi hakimiyyəti möhkəmləndirməyə yönəltmişdi. Nəhayət, o, uzun illər davam edən və ölkəni daxilən zəiflədən ara müharibələrinə demək olar ki, son qoydu. Bəybars xaçlıların qüvvələrini qırdı və əsas şəhərləri onlardan geri aldı. Səlibçilərin əlində yalnız Trablis və Əkkə qalmışdı. 1273-cü ildə Bəybars ismailli assasinləri də tamamilə tabe etdi. O, Hülakülərin qatı düşməni olan qıpçaqlarla dostluq münasibətləri yaratdı, eyni zamanda, monqollarla səlibçilərin mümkün ittifaqını dəf etdi. 1277-ci ildə Bəybars çox saylı ordu ilə Tavrı keçərək, monqolları növbəti məğlubiyyətə düçar etdi. Lakin o, bu qələbəni möhkəmləndirə bilmədi və geri çəkilməyə məcbur oldu. Geri çəkilərkən sultan Bəybars həlak oldu.

Bəybarsdan sonra məmlük sultanları içərisində ən görkəmlisi Kalaun (1279-1290) idi. Kalaun da ölkənin mərkəzləşdirmə siyasətini davam etdirdi. O, Genuya, Siciliya, Kastiliya ilə ticarət müqavilələri bağladı. Şərqlə-qərb arasındakı ticarətdə vasitəçiyə

çevrildi. Misirin təsiri Nubiyaya, Yəmənə yayılmışdı, Məkkə şərifi də Kalauna tabe idi.

Çərkəz məmlüklərindən ilk sultan Bərkuk oldu. O, Misirdə və Suriyada hakimiyyəti ələ keçirdi. Teymurun ordularının yaxınlaşması, Bağdadı və bütün Mesopotamiyanı tutması məmlük mülkləri üçün birbaşa təhlükə yaradırdı. Bərkuk Kiçik Asiya türk dövlətləri ilə ittifaq bağladı, lakin müharibədə iştirak etmədi. Teymur arxada çətinlik yarandığı üçün Suriya yürüşündən geri qayıtmalı oldu. 1400-cü ildə Teymur Suriyaya yeni yürüşə başladı. Bu zaman Bərkuk ölmüşdü, onun varisinin isə 15 yaşı vardı. Hələb rayonunda məmlüklərlə teymurilər arasında döyüş oldu. Teymurun ordusu qələbə çaldı. Teymur Şimali Suriyanın şəhərlərini tutaraq Dəməşqə yaxınlaşdı. Dəməşq könüllü şəkildə təslim oldu. Teymur şəhəri qarət edərək dağıtdıqdan sonra oranı tərk etdi.

XV yüzilliyin axırlarında Ərəb Şərqinin böyük bir hissəsini əhatə edən Misir məmlük dövləti öz siyasi bütövlüyünü qoruyub saxlaya bilmişdi. Osmanlı imperiyasına qarşı dura bilmək üçün məmlük sultanları Şərqdə olduğu kimi Qərbi Avropada da müttəfiqlər axtarırdı. Osmanlı imperiyası Misirlə yanaşı Venetsiyanın da Aralıq dənizində sərbəst ticarət etməsinə mane olduğu üçün hər iki dövlət türklərə qarşı mübarizədə hərbi ittifaq bağlamışdılar. Məmlük ordusu Venetsiyadan gətirilən top və s. odlu silahlarla təmin edilirdi.

Dənizdə olduğu kimi, quruda da, Suriya sərhədlərində məmlük ordusu türklərin ilk axınlarına qarşı mübarizə aparırdı. Şimali Suriya sərhədlərində yerləşən türkmən qəbilələrinin başçısı Şah Suvar Osmanlı imperiyasının yardımına arxalanaraq, bir sıra döyüşlərdə məmlükləri ağır məğlubiyyətə uğratdı və Suriyanın xeyli hissəsini ələ keçirə bildi. Sonrakı döyüşlərdə məmlüklər Şah Suvarı Suriyadan sıxışdıra bilsələr də, bu hücumların qarşısını tamamilə ala bilmədilər. Məmlük sultanı Kait bəy məcburiyyət qarşısında qalaraq, Osmanlı imperiyası ilə 1491-ci ildə sülh müqaviləsi bağlamalı oldu. Lakin müqavilə Ərəb Şərqinin təhlükəsizliyini təmin etmədi.

## Abbasilər sülaləsi (750-1258-ci illər)



## OSMANLI İMPERİYASININ ƏRƏB FƏTHLƏRİ

*Osmanlı-Məmlük ziddiyyətləri* Məmlük və Osmanlı dövlətlərinin ümumi cəhətləri kifayət qədər idi. Hər iki dövlətdə şərq feodalizminə məxsus münasibətlər mövcud idi. Hər iki dövlət islamın sünni təriqətini təmsil edir və hərbi teokratik xüsusiyyəti özündə ehtiva edirdi. Uzun müddət onlar arasında heç bir siyasi-ideoloji fərq, həmçinin ticarət və digər iqtisadi ziddiyyətlər mövcud olmamışdır. 1453-cü ildə İstanbulun süqutuna qədər Osmanlı hakimləri islam dünyasının rəhbərləri kimi məmlüklərin dini-siyasi birinciliyini tanıyır və bütün müsəlmanların ümumi sərhəddini qoruyan «uc bəyləri» rolunu özlərinə şamil edirdilər. Məmlüklər onların hərtərəfli fəaliyyətinə ümummüsəlman işinin bir hissəsi kimi baxırdılar. Elə buna görədir ki, İstanbulun alınması Qahirədə bütün müsəlmanların qələbəsi kimi qeyd edildi.

1453-cü ildən sonra vəziyyət kökündən dəyişdi. İstanbulun süqutu ilə əlaqədar keçirilən təntənə və səfirliklərin dəyişilməsi Osmanlı-Məmlük razılaşmasının son təzahürləri idi. Məmlük dövlətinin sərhədlərində məqsədyönlü siyasət yeridən, öz niyyətində israrlı olan güclü və dinamik müsəlman-türk dövlətinin peyda olduğunu artıq Qahirə hakimləri həyacanla müşahidə edirdilər. Osmanlı imperiyasının yeni paytaxtı İstanbulda sultanın islamda formalaşmış münasibətlər sistemində dəyişikliklər etməsi və hakim mövqe tutmağa cəhd göstərməsi məmlüklərin narahatlığını artırırdı.

Məmlük müəlliflərinin qeyd etdiyi kimi «uc bəyləri» əvvəllər «şah» və ya «sultan» titullarını heç zaman daşımırdılar. Onlar «qazi» («din uğrunda mubariz») adı ilə kifayətlənirdilər. Lakin artıq Osmanlılar «sultan» titulunu qəbul etmiş və Misir hakimlərinin mövqeyi səviyyəsinə yüksəlmişdilər. Bu isə məmmlüklər üçün qəbuledilməz idi. Sultan titulunun qəbul edilməsi Osmanlıların böyük hakimlik siyasətinə keçmək iddiasında olduğunun göstəricisi idi. Bu isə Osmanlı dövlətinin yeni dünyəvi rolunun təzahürü idi. Böyük dövlətin məddahları olan müsəlman hakimləri II Mehmedi «Raşidiyyə xəlifələri»nə bərabər tuturdular. O isə özünü Romanın varisi hesab edirdi. Onun yunan məddahlarından biri Georgi Trapezund II Mehmedi «romalıların imperatoru» adlandlırmışdır. Müasir türk tarixçisi X.İnalcıqın sözlərinə görə II Mehmed

müsəlman, türk və Roma ənənələrini özündə ehtiva edən ümumdünya suveren dövlət yaratmaq və İstanbulu isə yeni dünyəvi imperiyanın mərkəzi elan etmək istəyirdi.

Bu vəziyyət məmlükləri qıcıqlandırmaqla bərabər onlar osmanlıların qüdrətinin artmasına da qısqanclıqla yanaşır və özləri üçün bunu böyük təhlükə hesab edirdilər. Nəticədə, II Mehmedin böyük dövlətçilik siyasəti Osmanlı-məmlük münasibətlərinin kəskin pisləşməsinə gətirib çıxardı. Hegemonluq, hər şeydən əvvəl müsəlman dünyasında birincilik uğrunda mübarizə Osmanlı-məmlük münaqişəsinin əsas və ilkin səbəblərindən idi. Məmlüklərin əsasını türksoylular təşkil edirdi. Beləliklə, bu ziddiyyətlər iki böyük qüvvənin biri-birini həzm edə bilməməsinə, sonralar da böyük faciə ilə nəticələnmiş və tarixin qara səhifələrinə yazılmış türk qövmlərinin silahlı qarşılaşmasını əsaslandırmışdır. Osmanlı-məmlük münaqişəsi isə ilk qardaş qırğınının əsasını qoymuşdu. Osmanın «ərəb mənşəli» olması haqqında şayiələr («Vadi əs-Safra» adlı Hicaz tayfasından törəməsi) və məmlük cəmiyyətini dağıdacağı fikirlərinin yayılması münasibətləri daha da çətinləşdirdi.

1463-cü ildə Osmanlı səfirinin Misir hakimi qarşısında səcdə etməkdən imtina etməsi zəminində baş verən diplomatik münaqişə Osmanlı-məmlük ziddiyyətlərinin ilk açıq təzahürünü üzə çıxardı. 1464-cü ildə Koniya iddiaçıları arasında mübarizə və Karaman varisliyi haqqında məsələ ilk böyük siyasi münaqişəyə səbəb yaratdı. Koniyanın tutulması və 1468-ci ildə Karamanın Osmanlı mülklərinə birləşdirilməsi əks cəbhələrdə böyük qütbləşmənin əsasını qoydu. Kilikiyada Ramazanilər və Əlbistanda (Kappadokiyada) Zulqadirilər dövlətləri osmanlılarla məmlüklər arasında əsas mübarizə meydanına çevrilmişdi. Mübarizə aparan tərəflər öz canişinlərini pulla, silahla və bəzən isə ordu ilə təmin edirdi.

Qahirə və İstanbul qəzəbə düçar olmuş əks tərəflərin əyanlarının siyasi sığınacağına çevrilmişdi. Onlardan bir çoxu öz hakimlərinə qarşı mübarizə aparmaq üçün kənardan kömək alırdılar. Məmlüklər üçün həyati vacib olan ticarət yollarına və strateji xammal mənbələrinə nəzarəti ələ keçirməklə türklər hər vasitə ilə Misirin hərbi qüdrətini parçalamağa çalışırdılar.

Əl-Bistanla bağlı münaqişə, nəticə etibarilə, 1486-1491-ci illəri əhatə edən ilk Osmanlı-məmlük müharibəsini labüdləşdirdi. Məmlüklər türk ordularını üç dəfə məğlub etsə də, heç bir həlledici

qələbəyə nail olmadı. 1491-ci ildə Tunisin vasitəçiliyi ilə sülh bağlandı. Türklər məmlüklərin protektoratlığı və müqəddəs şəhərlərin-Məkkə və Mədinənin himayəsi altında olan Əl-Bistan və Kilikiyaya qarşı olan iddialarından imtina etdi. Lakin baş verən sonrakı hadisələr 1491-ci il sülhünün heç də möhkəm olmadığına dəlalət edirdi.

Məmlüklərdən fərqli olaraq, türklər Avropada fəal siyasət yeridirdilər və Avropada baş verən proseslərə müdaxilə edirdilər. Müsəlman icmaları bir-birinin ardınca türklərdən kömək alırdılar və ya onun himayəsi altına keçirdilər. İspan mavraları II Bəyaziddən yardım istədilər. 1486-cı ildə Osmanlı donanması Qərbi Aralıq dənizinə doğru hərəkət etdi. Kamal Əli paşanın komandanlığı altında türk donanması İspaniya, İtaliya və Maltanın sahillərini viran etdi. Bu zamandan etibarən, Osmanlı eskadraları və ayrı-ayrı kapyorları xristian dövlətlərinin dəniz qüvvələri ilə fasiləsiz müharibələr apardı. 1489-cu ildə onlar Otrantonu müvəqqəti olaraq tutdular, sonra isə Neapol və Milanın Fransaya, eyni zamanda, Misirin Avropada yeganə müttəfiqi olan Venetsiyaya qarşı mübarizəsində iştirak etdilər. XV əsrin sonunda türklər qüdrətli donanma yaratdılar. Türklər Venetsiya ilə 1499-1502-ci illər müharibəsində ən yaxşı Avropa donanmasına qarşı yüksək döyüş keyfiyyəti və bacarığı nümayiş etdirdilər.

Narazılıqlara baxmayaraq, 1511-ci ildə II Bəyazid Qahirəyə Misir Qırmızı dəniz donanmasını yaratmaq üçün çoxlu sayda silah və hərbi sursat göndərdi. Lakin 1502-ci ildən başlayaraq, məmlüklər özlərinin də düşmən münasibətdə olduğu Qızılbaşlara-Səfəvilərə qarşı mübarizə aparmaq üçün türklərin hər növ əməkdaşlıq təkliflərindən imtina etdilər. Osmanlıların düşdüyü çətin vəziyyətdən məmlüklər yararlanmaq və türk hakimlərini cəzalandırmaq istəyirdilər. Məmlüklərin sünni təriqətinin başçısı kimi Qansux əl-Quri gözləmək və müşahidə aparmaq mövqeyi seçdi. Məmlüklər bir düşməni digərinin əli ilə məhv etmək, sonra isə «islamın sünni təriqətini xilas etmək» adı altında və hətta mümkün olsa, Osmanlı imperiyasının varisi kimi çıxış etmək niyyətində idilər. Məmlüklər Səfəvilərin qələbə çalacağına böyük ümid bəsləyirdilər.

Lakin məmlüklərin belə siyasəti İstanbulda düşməncəsinə qarşılandı. Belə vəziyyət, Misirlə barışmaq tərəfdarlarının da mövqeyini zəiflətdi və Osmanlı hakim dairələrində məmlüklər əleyhinə

əhval-ruhiyyəni gücləndirdi. Türklər onları özlərinin ən əsas və təhlükəli düşməni kimi qəbul etdilər. Bu dairələr, o cümlədən yeniçəri ocağı 24 aprel 1512-ci ildə I Səlim Yavuzu hakimiyyətə gətirdilər.

*Türklərin Suriya və Livanı fəth etməsi* 1514-cü ildə Macarıstanda kəndli üsyanı nəticəsində avropalıların növbəti xaç yürüşlərinin baş tutmaması I Səlimin öz planlarını həyata keçirməsi üçün son dərəcə əlveişli şərait yaratdı. 1514-cü ildə Çaldıran döyüşündə osmanlıların qələbə çalması və İraqın müəyyən hissəsini tuta bilməsi məmlüklər üçün çox ağır nəticələrə gətirib çıxardı. Çünki təxminən 7-8 ay sonra 1515-ci ilin yazında Qahirəyə osmanlıların məmlüklər üzərinə yürüşə hazırlaşması xəbəri gəldi. Türklər bu yürüşün məqsədinin yerli əhalini zülmkarlardan azad etmək və həmçinin, müsəlmanları xarici düşmənlərdən qorumaq olduğunu təbliğ edirdilər.

Osmanlı ordusunun müxtəlif xalqlardan və müxtəlif dini inanc daşıyanların nümayəndəlrindən təşkil olunmasına baxmayraq, hərbidə möhkəm nizam-intizam var idi və onun döyüşçüləri mənəvi cəhətdən yetkin idilər. Osmanlı imperiyası yaxşı silahlanmış və o dövrün müasir texnikası ilə təchiz edilmişdi. Türklər dünyada ən güclü artilleriyaya malik idilər. I Səlim məmlükləri «avara» adlandıraraq deyirdi: «Onlar çoxdan döyüş trubalarının səsini eşitməmişlər və şəhərlərdə təmtəraqlı həyat keçirməklə məşğuldurlar».

1515-ci ilin fevralında türklər məmlüklərin protektoratlığı altında olan Əl-Bistana hücum etdilər və ölkənin hakimi Əla əd-Daulənin ordusunu darmadağın etdilər, onun başını isə Qahirəyə göndərdilər. Bu isə əslində müharibə elan edilməsi idi. Yalnız 1515-ci ilin 3 oktyabrında səfərbərlik elan edən Qansux əl-Quri müharibəyə hazrlaşmağa başladı. Türklər kimi, məmlüklər də müharibəyə dini xarakter verməyə çalışırdılar. «Roma şahı»nı (türk sultanı nəzərdə tutulur) dindən və adət-ənənələrdən yayınmaqda, tez-tez saqqallarını qırxmaqda, uzun köynək geyməkdə və çalma qoymaqda ittiham edirdilər. Lakin ordu və xalq münaqişə üçün əsas görmürdülər və türklərlə müharibə aparmaq istəmirdilər. 7 avqust 1515-ci ildə Əl-Bistan hadisələrindən bir qədər sonra əmirlər Qansux əl-Quriyə bildirdilər ki, Suriya kəndli üsyanları içərisində boğulur, Hələb torpaqları bizim nəzarətimizdən çıxmışdır. Doğrudan da,

naiblərin zülmü və despotizmindən əziyyət çəkən Hələb əhalisinin əksəriyyəti bu əzablardan can qurtarmaq üçün türklərin himayəsinə sığınmaq istəyirdilər.

Hökumət əleyhinə əhvali-ruhiyyə ordunu da bürümüşdü. Əsgərlərin əksəriyyəti döyüşmək istəmirdi. Məmlük artilleriyasının özəyini təşkil edən minə yaxın məğribli, ümumiyyətlə, döyüşlərdə iştirakdan imtina etdilər. «Biz yalnız franklarla vuruşa bilərik, müsəlmanlarla döyüşməyəcəyik»-deyərək fikirlərini açıq şəkildə ifadə etdilər. Bir çox məmlük əmirləri xəyanətkarlıqda ittiham edilərək edam olundular. Bir çox hərbi rəislər, o cümlədən Hələbin canişini Xeyir bəy osmanlılarla gizli əlaqələr saxlayırdı. Hətta məmlük sultanının şəxsi müşavirləri və etibarlı şəxsləri içərisində belə I Səlimin tərəfdarları var idi və onlar Misirdə baş verən hadisələrlə sultanı məlumatlandırırdılar.

5 avqust 1516-cı ildə Osmanlı orduları sərhəddi keçdilər. Qansux əl-Quri isə 60 minlik ordu ilə Hələbin şimal hissəsində özünə mövqe seçdi. 24 avqust 1516-cı ildə Mərc-Dəbiqdə dünya tarixində ən böyük döyüşlərdən biri baş verdi. Ordunun çox saylı olması Qansux əl-Qurinin gözlədiyi qələbəni təmin etmədi. Belə ki, əsgərlərin bir hissəsi döyüşdən imtina etdi və birinci cinah döyüş mövqeyini tərk etdi. Onun ardınca sol qanada komandanlıq edən Xeyir bəy öz ordusunu döyüş meydanından çıxardı. Türklər mühasirə vəziyyətində olan məmlüklərin üzərinə hücuma keçdilər və nəticədə, onlar dağınıq şəkildə qaçmağa üz qoydular. Məğlubiyyət xəbərini eşidən Qansux əl-Quri həmişə yanında gəzdirdiyi zəhəri içərək canına qəsd etdi.

Məmlüklərin darmadağın edilməsi xəbəri Hələbdə üsyanın başlanmasına bir işarə oldu. Şəhərlilər məmlük qarnizonlarını məhv edir və şəhərin qapılarını bağlayırdılar. Digər şəhərlərdə də belə hadisələr təkrar olunurdu. Bir sıra əmirlər, ali əyanlar, xəlifə Mutəvəkkil və orduda olan digər Misirin üç şeyx-ül-islamı qaliblərə təslim oldular.

28 avqust 1516-cı ildə şəhərlilərin alqış sədaları altında I Səlim Hələbə daxil oldu. Ertəsi gün cümə namazında I Səlim «iki müqəddəs şəhərin xadimi» elan edildi. Bununla yanaşı, o, xəlifə titulunu qəbul etməklə müsəlman dünyasının dini və dünyəvi hakimi kimi də özünü təsdiqlədi. Oyuncaq xəlifə Mutəvəkkilə gəldikdə isə

o, I Səlim üçün heç bir təhlükə törətmirdi. Abbasi nəslindən olan xəlifə Mutəvəkkil I Səlimin Hələbə daxil olmasını ruh yüksəkliyi ilə qarşıladı. Hörmət əlaməti olaraq o, Abbasi ailəsinə məxsus müqəddəs əşyaları: peyğəmbərin əbasını və saqqalından bir neçə tükü, həmçinin Ömərin qılıncını I Səlimə təqdim etdi. I Səlim Mütəvəkkilin işindən çox məmnun qaldı. I Səlim ona böyük mərhəmət-şəfqət göstərdi, onu yanında oturtdu, çoxlu pul və çiynindəki xalatını ona hədiyyə etdi. Hətta o, sonralar xatırlanmasa da Mutəvəkkilə Bağdadı ona qaytaracağını da vəd etdi.

Dəbiq çölündəki qələbə I Səlimi bütün Suriyanın hakiminə çevirdi. Bədəvilərin bəzi hücumlarını nəzərə almasaq demək olar ki, türklər elə bir müqavimətə rast gəlmədilər. Ərəblər Osmanlı ordularına onları məmlük zülmündən qurtaran xilaskar kimi yanaşırdılar. Suriyanı üsyanların bürüməsi türklərin yürüşlərini asanlaşdırırdı. Tripoli, Səfəd və Cənubi Suriyanın digər şəhərlərində, Lubnən və Fələstində ərəblər məmlük qarnizonlarını dağıdır, qalanı tutur, Osmanlı orduları yaxınlaşdıqda isə onların üzünə qalanın və şəhərin qapılarını açırdlar. 20 sentyabr 1516-cı ildə türklər Həmanı, 22 sentyabrda isə Homsu tutdular. 9 oktyabr 1516-cı ildə I Səlim tənətənəli surətdə Dəməşqə daxil oldu. Burada o, türklərin hakimiyyətini qəbul edən Tripoli, Beyrut, Sayda və Suriyanın digər şəhərlərindən gələn nümayəndələri qəbul etdi. Buraya türklərin tərəfinə keçmiş Lubnənin druz əmirləri də təşrif buyurmuşdular. Onlar türklərdən vassal asılılıqlarını qəbul etməklə öz daxili muxtariyyatlarını qoruyub saxlaya bildilər. 30 noyabr 1516-cı ildə türklər Qəzaya daxil olmaqla Suriya və Fələstinin işğalını başa çatdırdılar.

Dəməşqə daxil olduqdan bir neçə gün sonra I Səlim müxtəlif şəhər və yerlərin nümayəndələrinin iştirakını təmin edən məclis çağırdı. I Səlim nümayəndələrə diqqətlə qulaq asdı, münaqişələri və şikayətləri araşdırdı. Əsasən əvvəlki idarəçilik sistemini saxlamaqla mühüm dövlət vəzifələrinə təyinatı həyata keçirdi. I Səlim vergiləri və ticarət gömrüklərini (20%-dən 5%-ə qədər) aşağı saldı, ən əsası isə torpaqların bölünməsini kökündən dəyişdi. Komissiya yaradıldı və onlar Osmanlı dövlətinin torpaqdan istifadə qaydalarına uyğun olaraq, torpaqları qeydiyyatdan keçirdi və böldü. I Səlim, eyni zamanda, yerli xristianların, yəhudilərin, Venetsiya tacirlərinin ibadəti və dini ayinlərinin icrasına qoyulan məhdudiyyətləri aradan

qaldırdı, onların öz dini etiqadlarının və ayinlərinin sərbəst icrasına icazə verildi. I Səlim ibadət yerlərinə də böyük əhəmiyyət verirdi. Belə ki, o, öz müşavirləri ilə üç günlük Qüdsə ziyarətə getdi. Bununla yanaşı, o, Dəməşq yaxınlığında İbn əl-Ərəbinin qəbri üstünə getmiş və burada böyük bir movzoleyin tikilməsi haqqında göstəriş verdi. I Səlim şəriət qaydalarına uyğun hərəkət eməyə və ədalətli olmağa çalışırdı. O, yoxsullara, dullara, yetimlərə mərhəmət və qayğı göstərirdi. O, soyğunçuluğu və zorakılığı qəti qadağan etmişdi.

Zəbt edilmiş ərəb ərazilərində hərbi-siyasi çıxışlar baş verirdi. Təbii ki, bu çıxışların məğzində əvvəlki mövqeləri məhdudlaşmış və ya itirilmiş mənsəb sahibləri idi. Osmanlı imperiyasında çıxışların ən çox baş verdiyi ərəb ölkəsi Livan idi. Bu da təsadüfi deyildi. 1516-cı ildə Sultan Yavuz Səlim tərəfindən Osmanlı dövlətinə birləşdirilən Livan, eləcə də Suriya və Fələstinin dağ rayonları həmin dövr yerli feodal nəsllərindən olan məanidlərə verilmişdi. Bu, özü diqqət çəkən bir fakt kimi tarixşünasların nəzərindən yayınmamışdır. Belə ki, 1516-cı ildə Sultan Səlim Mərc-Dəbiqdə Hələb əmirləri ilə döyüşdə qələbə qazandıqdan sonra Dəməşqə daxil oldu. Burada onu Tanux ailəsindən olan Əmir Fəxrəddin Məanid, Əmir Mənsur Şihab, Əmir Cəmaləddin əl-Yəməni qarşıladı. Onlar həmin döyüşdə Dəməşq canişini Qəzəliyə yardım edən əmirlər idi. Sultan Səlimin Dəməşqə daxil olması vaxtı əmir Fəxrəddin onun qarşısında diz çökdü və mədh etməyə başladı. Onun bu hərəkəti Sultan Səlimin xoşuna gəldi və o, Əmir Fəxrəddini buradakı digər ərəb əmirləri sırasında birinci əmir adlandırdı. Bununla da, Fəxrəddin Livanda sultanın tanıdığı hakim oldu. Bundan istifadə edən I Fəxrəddin Kəsruan və Mətən vilayətlərini də öz hakimiyyəti altında birləşdirdi. Belə bir vəziyyətdə, əmir Cəmaləddin Misirə qaçmaq məcburiyyətində qaldı və Livanda hakimiyyətə gəlmək uğrunda mübarizəyə başladı.

Məanidlər Osmanlı dövlətindən vassal asılılığını qəbul edərək, öz siyasətlərində Osmanlı dövlətinə bac və vergi verməkdən yayınmağa çalışsalar da, buna müvəffəq olmadılar. Əslində bu istiqamətdə edilən səylər əks təsirə məruz qaldı. Belə ki, Sultan hökuməti burada öz hakimiyyətlərini daha da mökəmləndirdilər. Belə olduqda isə, məanidlərin fəaliyyəti seperatist siyasətin milli və dini zəmində davam etdirilməsində öz əksini tapmış oldu. Hələ

1544-cü ildə I Fəxrəddinin Dəməşq paşasının sarayında həyatına sui-qəsd edildikdən sonra Sultan hökuməti ilə Livan hakimləri arasında qarşıdurma daha kəskin xarakter aldı. Bir çox tarixi əsərlərdə bu sui-qəsdin I Fəxrəddini zəhərləməklə həyata keçirildiyi qeyd olunsa da, onun həqiqi təşkilatçıları haqqında məlumat verilmir. Livan maroniləri sui-qəsdin təşkilatçıları idi, lakin onu druzların əli ilə həyata keçirməyə müvəffəq olmuşdular. Qəsdin arxasında Fəxrəddinin oğlu Qorxmazın da durması qeyd olunur.

Suriya türklərin hakimiyyəti altına düşdükdən sonra burada siyasi proseslərin sürəti artdı. Belə ki, ölkənin digər hissələrində türk hakimiyyəti bərqərar olmadığından buradakı əmir və şeyxlər hakimiyyət uğrunda mübarizəni daha da gücləndirdilər. Hətta onlar paşanın nə xəbərdarlığını, nə də hədəsini nəzərə almırdılar. Hadisələrin belə bir məcrada təkamül etdiyi bir vilayətin maliyyə sistemi də ona tam uyğun idi. Siyasi və maliyyə idarəçiliyi nöqteyi-nəzərindən tayfalar iltizam sisteminin tətbiqinə loyallıq nümayiş etdirdilər. Lakin belə bir vəziyyət yerli əmir və şeyxləri qane etmirdi. Məanidlərin hakimiyyətini devirmək istəyi Livan əmirləri ilə İstanbul arasında münasibətlərin gərginləşməsinə səbəb oldu. Ona görə də, 1584-cü ildə Livan əmirləri Trablisdən şimalda yerləşən Cum-Akkarda türk karvanına hücum edərək, onu qarət etdilər. Bu karvan Misirdən İstanbula bac gətirirdi. Qeyd edək ki, 1571-ci ildə Lepanto döyüşündəki məğlubiyyətdən sonra həmin bac quru yolu ilə İstanbula gətirilirdi. Həmin qarətdə məanidlər günahlandırıldı. Halbuki, bu məanidlərdən narazı olan və ona qarşı mübarizə aparan Livan əmirlərinin əvvəlcədən hazırlamış olduğu plan idi. Bundan da əsas məqsəd məanidlərə qarşı sultanın qəzəbinə nail olmaq idi. Bu səbəbdən də sultan Misir paşasına üsyançı dağlıları, eləcə də I Fəxrəddinin oğlu Qorxmazı tənbeh etməyi tapşırdı. Əmir Cəmaləddin və Əmir Şihab Misir paşasının bu yürüşündə iştirak edərək, məanidləri türklərin köməkliyi ilə devirdilər. Lakin türk qoşunları buradan çəkilən kimi məanidlər vaxt itirmədən öz qüvvələrini birləşdirərək, yəmənilər yenidən məğlub edib hakimiyyətlərini bərpa etdilər.

Türklərlə mübarizədə həlak olan Qorxmazdan sonra hakimiyyətə gələn oğlu II Fəxrəddin öz sələflərindən xeyli fərqli siyasət yeritmişdir. Hakimiyyətə gələn II Fəxrəddin məanidlərin nəinki imicini yüksəltdi, eyni zamanda Lubnəndə inkişafı yeni

mərhələyə qaldırdı. Əmir II Fəxrəddin 1572-ci ildə doğulmuş, 1590-cı ildə isə məanidlər nəslinə mənsub olan Şuf vilayətinin idarə edilməsinə nail olmuşdu. Hakimiyyətinin birinci on illiyi ərzində o, Şimali Fələstin, Sayda və Beyrutun sahil rayonlarını Şufa birləşdirməyə müvəffəq olmuşdu. Belə ki, özünü xristian kimi qələmə verərək hakimiyyətə gələn II Fəxrəddin druz olmasına baxmayaraq, Osmanlı dövlətinə qarşı Avropa dövlətlərinin köməyi ilə yeni xaç yürüşü təşkil etmək istəyirdi. Bu niyyətinə çatmaq üçün o, ilk növbədə, sultanın etimadını qazanmaq məqsədilə ona tələb olunandan artıq vergi verməyə başladı. Nəticədə, o, sultandan nəinki Lubnənin dağlıq ərazilərini, eyni zamanda, sahil rayonlarının inkişafı üçün də maliyyə yardımı almağa müvəffəq oldu. II Fəxrəddinin siyasətində ona yardımçı olan qüvvələr də var idi ki, bu da əsasən Osmanlı sarayında xidmət edən qeyri-millətlər, xüsusilə ermənilər və yunanlar idi.

1608-ci ildə II Fəxrəddin Toskaniya hersoqu I Ferdinandla ticarət müqaviləsi bağladı. Bu müqavilənin də bəzi maddələri məxfi xarakter daşıyırdı. Həmin maddələrə əsasən tərəflər türk sultanlarına qarşı birgə hərbi-siyasi kursun həyata keçirilməsinə dair razılığa gəldiklərini təsdiqləyirdilər. II Fəxrəddin Osmanlı hakimiyyətinə qarşı silahlı mübarizə aparmaq məqsədilə nizami ordu yaratmağa, özünün hakimiyyəti altında olan qalaları möhkəmləndirməyə başladı. Halbuki, buna heç bir əsas yox idi. Çünki həmin dövr Livanın Osmanlı imperiyasından asılılığı cüzi şəkildə verilən bac ilə xarakterizə olunurdu. II Fəxrəddinin hakimiyyətə gəlməsindən sonra Livanın müstəqil daxili və xarici siyasət yeritməsi sultan hökumətini narahat etməyə başlamışdı. Çünki II Fəxrəddin hakimiyyətə gəldikdən dərhal sonra Osmanlı imperiyasına qarşı açıq düşmənçilik siyasəti yeritməyə başlamış və bu istiqamətdə konkret addımlar atmışdı. Bu məqsədlə o, ordunu gücləndirərək 40 min nəfərə çatdırmışdı. Toskaniya hersoqu I Ferdinand ilə bağlanmış müqavilə, eləcə də, italyanlarla yaradılmış müxtəlif səviyyəli əlaqələr bunun bariz nümunəsi idi. Bu baxımdan, Osmanlı hakimiyyəti II Fəxrəddinin dövlətə arxadan vura biləcəyi zərbəni nəzərə alaraq, Lubnənə türk qoşunları göndərdi. 1613-cü ildə baş vermiş döyüşdə Dəməşq qubernatoru Əhməd Hafiz paşanın başçılığı ilə türk qoşunları II Fəxrəddinin hərbi hissələrini darmadağın etdilər. 13 sentyabr 1613-cü ildə II Fəxrəddin Livandan İtaliyaya qaçdı. O,

İtaliyaya qaçdıqdan sonra burada Fransa, Florensiya, Vatikan, Malta və digər dövlətlərdən ibarət antitürk koalisiyası formalaşdırmaq istiqamətində fəaliyyət göstərdisə də, buna nail ola bilmədi. Buna baxmayaraq, türklər yenə humanizm nümayiş etdirdilər. 1618-ci ildə hakimiyyətə gələn II Osman II Fəxrəddinin Livana qayıtması üçün amnistiya verdi və onun hakimiyyətini bərpa etdi.

Yenidən Livana qayıdan II Fəxrəddin öz hakimiyyətini o qədər möhkəmləndirdi ki, Livanda, hətta onun hakimiyyəti dairəsinə düşməyən vilayətlərin əhalisi Dəməşqdəki Osmanlı paşasına deyil, məhz ona şikayət və təkliflərlə müraciət etməyə başladılar. Bununla belə, onun nəslində, xüsusilə də, ailəsində qardaşları arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Bu mübarizə onun hakimiyyətini getdikcə zəiflədirdi. Bunu nəzərə alan II Fəxrəddin Antilivanı iki yerə böldü: bir qardaşı Xasbəyə Aşağı Antilivanı, yaxud Vadi-t-Tim – Taxtanini, digər qardaşı Raşeyə isə Yuxarı Antilubnəni, yaxud Vadi–t–Tim–Fokanini verdi. Qeyd edək ki, həmin bölgü bu gün də Lubnəndə qalmaqdadır. Bütün bunlar II Fəxrəddinin nüfuzunu daha da artırmış oldu və bu Suriyaya da yayıldı. O, Nəblus və bir çox yəhudi tayfaları ilə sıx əlaqələrə malik olduğundan onları da öz ətrafında birləşdirməyə müvəffəq olmuşdu. Bu birləşmə isə Suriya tayfalarının konfederasiyasında öz əksini tapmış oldu.

Belə bir vəziyyət, Osmanlı dövləti üçün təhlükə yaratmaya bilməzdi və II Fəxrəddinin siyasi kursu artıq bəlli idi. Ona görə də, Osmanlı hakimiyyəti II Fəxrəddinə qarşı açıq hərəkət etmək üçün obyektiv səbəb və motiv olması üçün müvafiq vəziyyətin yaranmasını gözləyirdi. Belə bir motiv isə II Fəxrəddinin Avropa istiqamətində yeritdyi siyasət və bu istiqamətdə atdığı addımlar oldu. Belə ki, hakimiyyətə gələn II Fəxrəddin Osmanlı dövlətinə qarşı mübarizəni yeni müstəviyə keçirdi. O, yaranmış vəziyyətdən istifadə edərək, Lubnənin inkişaf istiqamətini Avropada mövcud olan dəyərlər üzərində qurmaqla bərabər, İtaliya və digər Avropa dövlətlərinə müxtəlif sahələrdə təhsil almaq üçün çoxlu sayda maroni göndərdi. Bu maronilər də Osmanlı dövlətində mübarizənin həm yeni mərhələsini başlamalı, həm də Osmanlı dövlətinə qarşı mübarizədə «sağlam qüvvə»ni təşkil etməli idi. Onlar həmçinin Avropa ərəbşünaslığının əsasını qoymalı idilər ki, bu faktor özü də dini, siyasi və ideoloji mövqelərdə kifayət qədər təhlükəli bir tendensiya və

faktorun formalaşmasının əsasını təşkil edirdi. Bu faktoru nəzərə alan Osmanlı hakmiyyəti II Fəxrəddinə qarşı konkret addımlar atmaq məcburiyyətində idi. 1624-cü ildə Dəməşq paşası II Fəxrəddinə qarşı Xarfuş və Siffə əmirlərini üsyana qalxmağa sövq etdi və özü də Suriyadakı türk qoşunu ilə birlikdə onlara qoşuldu. Lakin II Fəxrəddin birləşmiş qoşunları məğlub edib, Dəməşq paşasını əsir götürdü. Lakin onu edam etmədi, əksinə onunla müqavilə bağladı. Bu addımı ilə öz nüfuzunu artırmaq məqsədi güdən II Fəxrəddin Osmanlı dövlətinə qarşı apardığı mübarizəni davam etdirdi. Ona görə də, İstanbul beş ildən sonra Osmanlı Sultanı Murad II Fəxrəddinin hakimiyyətinin İstanbulun maraqları ilə tərs mütənasib olduğunu və bu faktorun aradan qaldırılmasının vacib olduğunu qeyd etdi. Bundan sonra baş vəzir Xəlil türk qoşunu ilə Hələbdən Suriya ərazisinə daxil oldu. II Fəxrəddinin bir sıra vassalları türklərin tərəfinə keçdi. Yaranmış vəziyyət II Fəxrəddinin xeyrinə olmadığından o, dağlıq Cezzindəki mağarada gizləndisə də, Əhməd Kiçik paşa onu taparaq əsir kimi İstanbula göndərdi. Onun övladlarından bir neçəsi əsir kimi türklərə təslim oldusa da, bəziləri edam edildi. Bundan sonra, türklər məanidləri qəti şəkildə məhv etmək məqsədilə Livana hakim yəməni olan əmir Əli Ələməddini təyin etdilər. Lakin türk qoşunları buradan gedən kimi II Fəxrəddinin əsirlikdən qaçan qardaşı oğlu Məlhəm Məanid öz tərəfdarlarının köməyi ilə yeni təyin olunmuş hakimi qovmağa müvəffəq oldular. Lakin Məlhəm Məanidin bu qiyamı II Fəxrəddinin həyatına son qoyulması üçün əsas oldu. Belə ki, əvvəlcə əsirlikdə olan II Fəxrəddinin günahları bağışlanmışdı. Livanda əhalinin yenidən türk hakimiyyətinə qarşı qiyam qaldırmasına cavab olaraq, ona münasibətdə çıxarılmış qərar ölüm hökmü ilə əvəz olundu və 1635-ci ildə edam edildi.

Bununla belə, Livanda hakimiyyətə gəlmiş məanidləri sultan yenidən devirmək haqqında əmr vermədi və ənənəyə sadiq qalaraq, buranın idarəçiliyini yerli feodalların ixtiyarına verdi. Bu səbəbdən də sultan Məlhəmin Livandakı hakimiyyətini tanıdı. Lakin Livanda qarşıdurma və münaqişəyə son qoyulmadı. Keysilər və yəmənilər arasında gedən bu mübarizədə yəmənilər qələbə qazandılar. Bütün bu proseslərdə isə İstanbul Saydanı, Suru və Beyrutu Lubnən knyazlığından ayırdı. Sayda isə türk paşalarının iqamətgahı kimi qəbul olundu.

*Osmanlılar tərəfindən Misirin tutulması*

I Səlim Dəməşqdə 1516-cı il dekabrın ortalarına qədər qaldı. Osmalı ordusunun əsas qüvvələri 16 dekabr 1516-cı ildə Dəməşqdən çıxdılar. Misir məmlüklərli ilə münasibətləri nizama salmaq məsələsi gündəmdə dururdu. I Səlim onu xəlifə və iki müqəddəs şəhərin xadimi kimi qəbul edəcəyi təqdirdə məmlüklərlə sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirdi. Bu fikri çatdırmaq məqsədilə 16 dekabr 1516-cı ildə Osmanlı elçiləri məmlüklərə Osmanlı sultanının vassallığını təklif etmək məqsədilə Qahirəyə gəldi. Razılıq əlaməti olaraq Misiri I Səlimin adından idarə etməli, türk sultanının adı həkk olunmuş Misir pulu buraxılmalı, cümə xütbəsində onun adı çəkilməli və «Abbasi xəlifələri»nin dövründə olduğu kimi vergi ödənməli idi.

Lakin məmlüklər bu təkliflərlə heç cürə razılaşmaq istəmirdilər. 11 oktyabr 1516-cı ildə Qansux əl-Qurinin 38 yaşlı qardaşı oğlu Tümən bəyi Misirin sultanı seçdilər. O, bacarıqlı və cəsur əsgər idi, məmlüklərə məxsus döyüşkən ruhunu qoruyub saxlamışdı. Tümən bəy nəinki I Səlim tərəfindən gələn təklifi qəbul etmədi, hətta Osmanlı elçilərini həddini aşmaqda günahlandıraraq onların öldürülməsi əmrini verdi. Belə bir vəziyyət, müharibəni qaçılmaz edirdi.

Tümən bəy qısa müddət kəsiyində məmlük drujinalarını döyüş vəziyyətinə gətirdi, muzdlu dəstələr yaratdı. Bədəvi şeyxləri isə onu müdafiə edəcəklərini vəd etdilər. Dəməşqin keçmiş canişini Canverdi əl-Qazalinin komandanlığı altında 10 minlik məmlük dəstələri Fələstinə yola düşdü. Lakin 25 dekabr 1516-cı ildə I Səlimin ən yaxşı sərkərdələrindən biri Sinan Yusif paşanın komandanlığı altında Osmanlı ordusu Beysan yaxınlığında məmlükləri darmadağın etdi.

Osmanlı orduları on gün ərzində Sinay səhrasını keçdilər və 1517-ci il yanvarın ortalarında Nil Deltasında göründülər. Bilbeysdə I Səlim Misir xalqını üsyana çağırdı. Osmanlı sultanı onlara amnistiya, şəxsiyyətin və mülkiyyətin toxunulmazlığını vəd edərək bildirirdi ki, onlar yalnız məmlüklərlə döyüşməyə gəlmişlər. Kəndlilər və şəhər yoxsulları türkləri sevinclə qarşılayırdılar. Tümən bəyin tərəfində isə hər türkün ölümünə bir qızıl pul vəd etdiyi bədəvilər və məmlüklərə qarşı loyal münasibətdə olan əyanlar idi.

Lakin məmlüklərin öz içərilərində də gizli şəkildə türklərin mövqeyində olan və onlara rəğbət bəsləyənlər var idi.

22 yanvar 1517–ci ildə Ridaniya yaxınlığında döyüş baş verdi. I Səlim əl-Mokatta istiqamətində dairəvi manevr edərək Duman bəyin ordusunu mühasirəyə aldı. Osmanlı orduları misirlilərin mövqeyinə doğru hücuma keçdilər. Bu döyüşdə Tümən bəy öz məmlükləri ilə birlikdə böyük cəsarət nümayiş etdirdilər. M.Digeona istinad edən N.A.İvanov qeyd edir ki, «Tümən bəy şəxsən özü böyük vəzir Sinan Yusif paşa da daxil olmaqla mindən artıq adam öldürmüşdür». Lakin ayrı-ayrı «qəhrəmanlıq»lar müharibənin taleyini həll etmədi. Bu mənada döyüş meydanında 25 min cəsəd qoyan Misir ordusu qaydasız şəkildə dağıldılar. Nəticədə Osmanlı ordusu Məmlük sultanlığının paytaxtını tutdular.

29 yanvar 1517-ci ildə Qahirənin itirilməsi ilə heç cürə barışmayan Tümən bəy bir qrup məmlüklə qəflətən gecə Qahirəyə daxil oldu və üsyan qaldırdı. Qanlı küçə döyüşləri baş verdi. Döyüşlərin gedişində 50 min şəhərli həlak oldu. I Səlim üsyanda iştirak edən 800 məmlükü edam etdi.

Qahirə birləşdirildikdən sonra İskəndəriyyə və Aşağı Misirin digər şəhərlərinin əhalisi məmlük qarnizonlarını qovmağa başladılr. 1517-ci ilin martında Piramida rayonunda gedən döyüşlərin birində məmlüklərlə bədəvilərin arasında baş verən mübahisədə ikincilər döyüşün qızğın çağında türklər tərəfə keçmək istədikdə Osmanlı toplarının atəşinə tuş gəldilər. Bədəvilər tərəfindən tərk edilən Tümən bəy daha da zəiflədi və 2 aprel 1517-ci ildə Qahirədən 50 km məsafədə yerləşən Uardan adlı yerdə ümidsiz olaraq son döyüşə girdi. Məğlubiyyətə uğrayan Duman bəy özünün ən yaxın dostu bədəvi şeyxi Həsən ibn Murinin yanında sığınacaq tapdı. Qurana and içməsinə baxmayaraq, o öz dostunu osmanlılara təhvil verdi.

Müharibə başa çatdı. 9 aprel 1517-ci ildə I Səlimin adını daşıyan pullar dövriyyəyə buraxıldı. Süquta məhkum olan bir çox imperiyalar kimi Məmlüklərin qüdrətli imperiyasının mövcudluğuna da son qoyuldu. 13 apreldə Bab Zueylə (Zubeylə qapısı) yanında sonuncu məmlük sultanı Tümən bəy asıldı.

1517-ci ilin maynda I Səlim xalq məclisi keçirdi. I Səlim burada yeni siyasətin prinsiplərini şərh etdi və dövlət vəzifələrini təyin etdi. İdarə strukturunda elə bir ciddi dəyişiklik olmadı. Belə ki, Yuxarı Misirdə hakimiyyət bədəvi şeyxlərinin əlində qaldı, Aşağı və

Orta Misirdə isə I Səlimin tərəfinə keçən məmlük kəşflərinin əlində qaldı.

İctimai həyatda ciddi dəyişikliklər baş verdi. Məmlük feodal torpaq sahibliyinin formaları ləğv edildi və yeni torpaq bölgüsü müəyyənləşdirildi. 1517-ci ildə toplanmış bütün vergilər kəndlilər və mübaşirlər arasında paylandı. 1517-ci ilin avqustunda Qahirəni tərk etməzdən öncə I Səlim müraciətnamə dərc etdirdi və burada göstərilirdi ki, heç kəsə fəllahları və xalqın digər sadə nümayəndələrini sıxışdırmağa yol verilməyəcək. I Səlim qeyri-qanuni vergi və mükəlləfiyyətləri ləğv etdi, kəndlilərin pul cərimələrini də məhdudlaşdırdı.

*İraq uğrunda Osmanlı-Səfəvi müharibəsi*

Yuxarıda qeyd edilən ərəb ölkələrinin osmanlılar tərəfindən fəth edilməsi onların sonrakı uğurlarını təmin etmiş oldu. 5 iyul 1517-ci ildə Hicazın hakimi-Haşimi nəslindən olan Məkkə şərifi Məhəmməd Əbu əl-Bərəkətin oğlu və varisi Əbu Numey Məhəmmədin başçılığı altında I Səlimin qələbəsini alqışalmaq məqsədilə Qahirəyə nümayəndəlik göndərməsi böyük əhəmiyyət kəsb edirdi. Məkkə şərifləri I Səlimi islamın yeni başçısı və müqəddəs şəhərlərin hamisi kimi ilk tanıyanlardan oldu. Təbriklə yanaşı onlar I Səlimə Kəbənin açarlarını verməklə onu sultan və xəlifə kimi tandıqlarını da bəyan etdilər. I Səlim daxili işlərdə Hicaza tam müstəqillik verdi. Sultan ölkənin xüsusi vəziyyətini qəbul etdi, həmçinin Haşimilərin irsi sülalə hüququnu tanıdı. Məhəmməd Əbu əl-Bərəkəti əmir kimi təsdiq etdi.

Çaldıran döyüşündən sonra İraq Osmanlı və Səfəvi dövlətləri arasında bölünmüş vəziyyətdə qalmaqda davam edirdi. Osmanlı dövlətinin xüsusi əyalətini təşkil edən Yuxarı Mesopotamiyanın türklərin hakimiyyəti altında olması bu zəngin əkinçilik əyalətində təsərrüfat həyatını canlandırdı. Lakin İraqın mərkəzi və cənub rayonları Səfəvilərin hakimiyyəti altında idi.

Hələ 1515-ci ildə səlibçilər Omanda və Şərqi Ərəbistanda Portuqaliya ağalığının mərkəzi kimi Hörmüzdə öz mövqelərini möhkəmləndirmişdilər. 1522-ci ildə səlibçilər 30 noyabr 1521-ci ildə Şərqi Ərəbistanda başlayan üsyanı yatırtmağa nail oldular. Oman və Şərqi Ərəbistanda öz hakimiyyətlərini möhkəmləndirdikdən sonra portuqaliyalılar sahildə ticarət məntəqələrini də tutdular.

Məmlük sultanlığı dağıldıqdan sonra Osmanlı dövləti Fars körfəzində yaşayan müsəlmanların yeganə ümid yeri idi. Səfəvilər

Şərqi Ərəbistan limanlarında portuqaliyalılara gömrük toplamağa və Fars körfəzində ticarət fəaliyyəti göstərməyə də icazə vermişdilər. Bunu Səfəvi dövləti ticarətin inkişafı naminə etsə də, yerli hakimlər bunu birmənali qarşılamırdılar. Bu vəziyyətdən narazı olan yerli hakimlər osmanlıların artan qüdrətini nəzərə alaraq İstanbula kömək üçün bir-neçə dəfə müraciət etdilər. Bəsrə və Bağdaddan da İstanbula məktublar göndərilirdi.

1533-cü ilin sentyabrında Böyük Süleyman İraq kompanyiasına başladı. Səfəvilərə qarşı göndərilən 14 minlik orduya böyük vəzir İbrahim paşa rəhbərlik edirdi. 1534-cü ilin yazında əsas yürüşə başlandı. Qızılbaşlar geri çəkildi. Təhmasib ordunu və dövləti qorumağa çalışırdı. 13 iyul 1534-cü ildə Böyük Süleymanın komandanlığı altında Osmanlı ordusu Təbrizə daxil oldu. Digər Osmanlı orduları birləşərək Həmədana doğru hərəkət etdilər. Zaqros dağını keçmək osmanlılar üçün ən ağır imtahan oldu. Kəskin hava şəraiti və sürüşmələr Osmanlı ordusunu canlı itgiyə məruz qoydu. Türklər hərəktin asanlaşması üçün 100-dən artıq artilleriya arabalarını yandırır, düşmənin əlinə keçməməsi üçün topları dərin qazılmış torpağa gömürürdülər. Lakin bu çətinlikləri dəf etdikdən sonra Osmanlı ordusu Mesopotamiya düzənliyinə çıxdı. Əhali böyük sevinclə Osmanlı sultanını qarşılayırdı. Qızılbaş-təkəlilərdən başqa heç kəs müqavimət göstərmirdi. İraq şəhərləri bir-birinin ardınca osmanlılar tərəfə keçirdi. Bağdadın bir qrup nümayəndəsi sultanın görüşünə çıxdılar və şəhərin açarını ona tqdim etdilər. 2 dekabr 1534-cü ildə Böyük Süleyman təntənəli surətdə Bağdada daxil oldu. Burada Böyük Süleyman ona sədaqət andı içən bütün bədəvi tayfalarının və həmçinin Mərkəzi İraqın şəhərlərinin başçılarını qəbul etdi.

Böyük Süleyman dörd ay ərzində dövlətin idarəçiliyinin təşkili ilə məşğul oldu. O hər şeydən əvvəl ölkədə müxtəlif dinin və təriqətlərin daşıyıcıları arasında sülh yaratdı. Türklər nəinki yerli şiələrə, həmçinin yəhudilərə və xristianlara da diqqəti artırdı. Hətta 1534-cü ildə yezidilərin başçısı Hüseyn bəy əd-Dasina sultandan Ərbil sancaqlığını idarə etmək üçün investitur verildi. Şiələr ibadətlərində və daxili idarəçiliklərində tam sərbəstliklərini qoruyub saxlayırdılar. Böyük Süleyman Musa əl-Kazımın qəbrini ziyarət etdi və hələ şah İsmayılın dövründə əsası qoyulmuş mavzoleyin tikintisini başa çatdırmaq əmrini verdi. Sonra o, Kərbəla və Nəcəfə ziya-

rətə getdi, həm sünni, həm də şiə müqəddəs yerlərinə böyük vəqf əmlakı hədiyyə etdi.

İdarəçilik aparatı tam yenidən təşkil edildi. 1534-cü ildə Diyarbəkrdən ayrılan Mosul və Şəhrizor əyalətləri yaradıldı. Kürd mıxtariyatı və nəsli sancaqlılqlar hüququna malik olan bədəvi əmirlikləri yarandı. Yerli qanunnamələr tərtib edildi ki, buna əsasən əyalət və əmirliklər idarə olunurdu.

1535-ci ilin aprelində Böyük Süleyman İraqı tərk etdi. Ölkədə 32 min Osmanlı ordusu, o cümlədən 6 minə yaxın yeniçəri qaldı. Cənubi İraq Osmanlı imperiyasının adi əyalətlərindən birinə çevrildi. Ayaz paşa vergini azaltdı, qeyri-qanuni ağır töycüləri ləğv etdi, ümumosmanlı torpaq və vergi sistemini tətbiq etdi.

Bəsrə Süveyşdən sonra Osmanlı imperiyasının cənub dənizlərində ikinci limanı və hərbi baza rolunu oynayırdı. Buna istinad edərək türklər portuqaliyalıları Fars körfəzindən qovmaq və əl-Həsa əyalətinin təhlükəsizliyini təmin etmək istəyirdi.

Osmanlı imperiyasının düzgün siyasəti portuqaliyalıların və Səfəvilərin İraq və Şərqi Ərəbistanda Osmanlı imperiyasının mövqeyini qırmaq istiqamətində göstərdlikləri fəaliyyətini nəticəsiz qoydu. 29 may 1555-ci ildə bağlanan Amasiya sülh müqaviləsinə görə Səfəvilər İraqa olan iddialarından əl çəkirdi və onu Osmanlı imperiyasının bir hissəsi kimi tanıyırdı.

1538-ci ildə Hadramaut, Bəsrə və Fars körfəzi əmirlikləri osmanlılardan vassal asılılığını qəbul etdilər. Tezliklə, Yəmən Osmanlı imperiyasına birləşdirildi.

*Barbarossa qardaşlarının İspan ağalığına qarşı mübarizəsi. Əlcəzairin Osmanlı dövlətinin vassallığını qəbul etməsi*

Əlcəzairin Osmanlı mülklərinə birləşməsi sultanın uzun və gərgin mübarizəsi nəticəsində mümkün olmuşdur. Əlcəzair kəndliləri türklərin köməkliyi ilə yadellilərə və feodal özbaşınalığına qarşı mübarizə aparırdılar. II Bəyazidin əmri ilə İspaniyada müsəlmanlara kömək məqsədilə Kamalın komandanlığı altında eskadra göndərildi. Bu hadisə ilə əlaqədar türklər ilk dəfə 1486-cı ildə Məğribdə göründülər. Bu zamandan etibarən, Osmanlı gəmiləri daimi olaraq, Qərbi Aralıq dənizi sularında qalmağa başladılar və çox zaman Şimali Afrika limanlarını avropalıların hücumlarından qoruyurdular.

1512-ci ildə Barbarossa qardaşları Məğribdə İspan hakimiyyətinə qarşı üsyan qaldırdılar. 1512-ci ilin avqustunda dəniz quldurlarından ibarət kiçik dəstə ilə Oruc Barbarossa Becayi rayonunda sahilə çıxdı və ispan qarnizonuna hücum etdi. Tez bir zamanda ona Kiçik Kabiliyadan 3-4 min civarında kəndli qoşuldu. Onlar qaleralarda (çoxlu avarlı gəmilərdə) toplar, tüfənglər və bütün zəruri sursatları gətirdilər. Üsyançılar zərbə endirmək üçün hücuma keçdilər. Lakin Orucun sol qolunu itirməsi üsyançılar arasında çaşqınlıq yaratdı və onlar geri çəkilməyə başladılar.

Bu müvəffəqiyətsizlk qardaşları çaşdırdı. Lakin onlar mübarizənin yenidən başalmaq üçün daha da cidd-cəhdlə hazırlaşmağa başladılar. Qardaşlar düşmən gəmilərini tutur və onları tərksilah edirdilər. Lakin düşmən üzərində qələbə çalmaq üçün bunlar kifayət etmirdi və onlar Osmanlı sultanının yardımından istifadə etməyi qərarlaşdırdılar. Bu məqsədlə, İstanbula Piri Rəisin rəhbərliyi altında missiya göndərildi. I Səlim missiyanı hörmətlə qarşıladı, qardaşlara isə fəxri qılınclarla birlikdə kaftanlar və hərbi sursatla doldurulmuş iki qalera göndərdi.

1515-ci ildə Barbarosların üçüncü qardaşı İshak onlara qoşuldu. Onların yanına minlərlə üsyançı kəndlilər gəlirdi. Üsyançılar şəhərə soxuldular, köhnə qalanı tutdular və ispanları mühasirəyə almağa başladıldar. Lakin gözlənilmədən sentyabrın sonunda yağışların başlanması kəndliləri öz evlərinə qayıtmağa, təsərrüfatla məşğul olmağa, yəni torpağı becərməyə və əkməyə məcbur etdi. Cəmi 40 nəfər sadiq yoldaşları qaldı. Belə vəziyyətdə, Oruc Cicelə geri çəkilməyə məcbur oldu. Tarlada işlər bitdikdən sonra Oruc yenidən öz kəndli ordusunu topladı və onların köməkliyi ilə 1515-1516-cı illərin qışında Kabilia əyalətini tutdu. Kabilia əyaləti gələcəkdə osmanlıların Əlcəzairi zəbt etməsində əsas baza rolunu oynamış oldu.

Orucu hər yerdə ölkəni ispan «fironları»nın zülmündən azad edən xilaskar kimi qarşılayırdılar. Oruc və Xızır Barbarossa qardaşları klassik Osmanlı siyasətini həyata keçirir, yəni yoxsullara və kasıblara xüsusi diqqət ayırır, vergiləri ləğv edirdilər. Bu da onların qalibiyyətlərini təmin edirdi.

Qeyd edək ki, Oruc və Xızırın daimi orduları yox idi. Ordunun özəyini odlu siahla silahlanmış bir neçə yüz türk və

əndəluslu təşkil edirdi. Üsyanın gedişində ordunun 85-90% -ni təşkil edən çoxsaylı yığma kəndli dəstələri də onlara qoşulurdulr.

Orucun ən böyük müvəffəqiyyəti Əlcəzair şəhərini tutması oldu. 23 yanvar 1516-cı ildə V Ferdinandın ölümündən sonra yadellilərin zülmü altında olan şəhər əhalisi yeni ispan kralı V Karla sədaqət andı içməkdən imtina etdilər və kömək üçün Oruca müraciət etdilər. 1516-cı ilin yazında üsyançı ordu Mitici, Şerşeli tutdu və Əlcəzairə daxil oldu. Beləliklə, Oruc antiispan hərəkatının başında durdu. Şeyx Salam ət-Tumi öldürüldükdn sonra isə Oruc şəhərdə tam hakimiyyətə sahib oldu.

Orucun Tələmsəni tutması ispan hökumətinin ciddi narahatlığına səbəb oldu. «Əyalətin geri alınması» məqsədilə V Karl Tələmsənə 10 min nəfərlik ordu göndərdi. 1517-ci ilin dekabrında ispanlar hücuma keçdilər. İspan muşketyorlarının köməkliyi ilə III Əbu Həmin bədəviləri Əlcəzair şəhərinin kommunikasiya xətlərini kəsdilər, ispanların digər hissəsi isə Tələmsəni mühasirəyə aldı. III Əbu Həmin əsgərləri ilə döyüşdə Orucun qardaşı İshaq öldürüldü. Oruc özü isə mühasirə vəziyyətində olan Tələmsəndə 6 ay ispanlara müqavimət göstərdi. 1518-ci ilin mayında hərbi sursat qurtardıqdan sonra üsyançılar yerlərini tərk etmək qərarına gəldilər. Markiz başda olmaqla ispan dəstələri onları təqib etməyə başladılar və qeyri-bərabər döyüşdə Oruc və onun yoldaşları həlak oldudlar. Üsyan rəhbərinin başı əvvəl Orana, sonra isə V Karlın sarayına göndərildi. Orucun qanlı köynəyi isə uzun müddət qiymətli əşya kimi Kordovanın monastırlarından birində saxlanıldı.

Əlcəzairin yeni sultanı bütün üsyançı dəstələrin razılığı ilə Orucun qardaşı « Xeyrəddin» ləqəbi ilə tanınmış Xızır Babarossa oldu. Lakin yenicə yaranmış dövlət öz həyəcanlı günlərini yaşayırdı. Xeyrəddinin yalnız 300 yoldaşı (burada döyüşçülər nəzərdə tutulur.) var idi. Köhnə feodal ailələri və bir çox tayfalar ona düşmən münasibət bəsləiyrdilər. Bədəvilər Oruca və Xeyrəddinə qarşı bütün sui-qəsd və hərəkatlarda iştirak edirdilər. Bu sui-qəsdlərin də özəyində Əlcəzairin bütün feodallarının müdafiə etdiyi Tunisin Xəfsid sultanı dururdu.

İspanlar əyanların Xeyrəddinə olan münasibətini bilirdilər və bundan faydalanmaq istəyirdilər. Bu məqsədlə də, V Karlın əmrinə əsasən ekspedisiya korpusuna rəhbərlik Siciliyanın vitse kralı Uqo de Monkada həvalə edildi. 17 avqust 1518-ci ildə 38 hərbi gəmidən

ibarət ispan donanması 8 min desantla Əlcəzairin ətrafında yerləşdi. Xeyrəddin Barbaross təslim olmaqdan imtina etdi. 5 mindən artıq ordu toplayan Xeyrəddin hadisələrin sonrakı gedişini izləyirdi. Gözlənilmədən baş verən tufan hadisələrin Xeyrədinin xeyrinə həll olunmasına əvəzsiz kömək göstərdi. Belə ki, təbii fəlakət gəmiləri bir-biri ilə toqquşduraraq, onların məhvinə səbəb oldu. Tufandan istifadə edərək, Xeyrəddin yoldaşları ilə donanmanın müdafiəsindən məhrum olan ispanların üzərinə hücuma keçdi. Təxminən 4 minə yaxın əsgər öldürülmüş və ya dənizdə boğulmuşdu, 3 min əsgər isə əsir alındı.

Lakin müharibə hələ bitməmişdi. Güclü hərbiyə malik İspaniya Afrika mülklərindən heç cürə imtina etmək istəmirdi. Orta Məğribdə də vəziyyət gərgin olaraq qalırdı. Belə ki, III Əbu Hammu ikinci dəfə Adalvadidin taxt-tacını ələ keçirdi və Barbarossa qarşı müharibəni davam etdirdi. Tunisin Xafsid sultanı ordu toplamaqla yanaşı feodal hakimlərini, hətta Xeyrəddinin tətərfdarlarını da onun əleyhinə müharibəyə qızışdırırdı və onları kəndli hakimiyyətinə qarşı mübarizəyə səsləyirdi.

Belə şəraitdə, Xeyrəddin Barbarossa kömək üçün Osmanlı imperiyasına müraciət etməyi qərara aldı. Bu məqsədlə o, müsəlman ruhanilərinin və yerli əhalinin nisbətən üzdə olan nümayəndələrini çağıraraq, onlara yaranmış vəziyyəti başa saldı və vəziyyətdən çıxış yolunu yalnız İstanbulun süzerenliyini qəbul etməkdə gördüyünü bildirdi. Məclis iştirakçıları Xeyrəddinin fikri ilə razı olduqlarını bildirdilər və Osmanlı sultanı I Səlimə ünvanlanmış məktubu da təqdir etdiklərini bildirdilər. Xeyrəddinin tərəfdarlarından Hacı Hüseyn «Əlcəzairi öz himayəsi altına almağı xahiş edən» məktubla birlikdə İstanbula getdi. Xeyrəddin sultanın səlahiyyətli nümayəndəsi kimi artıq cümə namazlarında sultan I Səlimin adının çəkilməsi haqqında əmr verdi.

Təbii ki, I Səlim Xeyrəddin Barbarossanın təklifini məmnuniyyətlə qəbul etdi və Əlcəzairi öz himayəsi altına aldığını elan etdi. I Səlim Xeyrəddin Barbarossanı Qərbi Əlcəzairin birinci bəyi elan etdi, ona bu məsələ ilə bağlı fərmanı və ləyaqət əlamətləri olaraq, qılınc, buncuq (hakimiyyət simvolu olan ağac başına keçirilmiş at quyruğu) və baraban göndərdi. Ona, eyni zmanda, sultanın adına pul buraxmağa da icazə verildi. Xeyrəddinə kömək məqsədilə top və digər silah növləri, əlavə olaraq, Əlcəzairdə xidmət etmək üçün ona

könüllülər toplamağa icazə verən fərman da göndərildi. Beləliklə, Əlcəzair Osmanlı imperiyasının vassal asılılığına düşdü. Rəsmi şəkildə Osmanlı imperiyasının himayəsi altına keçməsi Xeyrəddinin nüfuzunu artırdı və İspaniya ilə mübarizədə mövqeyini möhkmələndirdi. Sonrakı illərdə də o, daxili və xarici düşmənlərlə mübarizə aparmalı oldu.

Bir neçə dəfə əldən-ələ keçəndən sonra 13 sentyabr 1574-cü ildə Tunis son olaraq, osmanlıların hakimiyyəti altına keçdi. Osmanlı fəthləri nəticəsində 19,5 milyon əhalisi olan ərəb regionu türklərin idarəçiliyi altına düşdü. XV-XVI yüzilliklərdə türk ordusu dünyanın qabaqcıl orduları səviyyəsində idi. Türklərin güclü donanması, artilleriyası, yaxşı təşkil edilmiş arxa mühafizə xidməti və kəşfiyyatı var idi.

Əslində ərəb dünyasının taleyi 1516-1520-ci illərdə həll olunmuşdu. Bu zaman türklər məməlüklərin imperiyasını devirmiş və digər ərəb ölkələrində möhkəm mövqe əldə etmişdilər. Ərəb ölkələri imperiyanın həyatında mühüm rol oynayırdı. XVI əsrin sonunda imperiyanın 34 əyalətindən 14-nü ərəb ölkələri təşkil edirdi. Bu əyalətlərdə bütün imperiya əhalisinin 60 %-i yaşayırdı.

## YENİ DÖVRÜN ƏVVƏLLRİNDƏ ƏRƏB ÖLIKƏLƏRİNİN ÜMUMİ XARAKTERİSTİKASI

Osmanlı dövlətinin ərazisinin əsas hissəsini ərəb ölkələrinin əraziləri təşkil edirdi. Suriya, Livan, Fələstin, İraq, Hicaz, Yəmən, Misir, Tripoli, Tunis və Əlcəzair Osmanlı dövlətinin əyalətləri və vilayətləri olmaqla XYI əsrdə bu imperiyaya birləşdirilmişdi. Ərəb ölkələrindən türklər yalnız Mərakeş, eləcə də Ərəbistan yarımadasının daxili və şərq rayonlarını özlərinin imperiyalarına birləşdirməmişdilər. Bu mənada, ərəb ölkələrinin inkişaf səviyyələrində olan müxtəliflik sonradan onlar arasındakı münasibətlərin də səviyyəsinə öz təsirini göstərəcəkdir.

Bu ərəb ölkələri arasında nisbətən Misir, Livan, Suriya və Fələstin inkişaf etmişdi ki, bunların da cəmiyyətlərində feodal münasibətləri əsas idi. Mərkəzi rayonlarda, eləcə də dəniz limanlarına yaxın olan rayonlarda isə ictimai əmək bölgüsünün yüksəlişi, həmçinin əmtəə-mal və pul münasibətlərinin inkişafı ilə əlaqədar həmin feodal münasibətləri dağılmaq mərhələsində idi. Nisbətən az inkişaf etmiş Ərəbistan, Cənubi İraq, Əlcəzairin daxili rayonları, Tunis və Tripolidə isə feodal-patriarxal münasibətlər hökm sürürdü və ibtidai-icma quruluşunun bir sıra halları qalmaqda idi. Köçəri maldarlıq və yarımköçəri əkinçiliklə məşğul olan əhali isə tayfalara və klanlara bölünmüşdü. Onların başında rəhbərlər və yaxud şeyxlər dururdu. Otlaqlar və əkilən sahələr tayfanın və nəsli əkinçi icmasının kollektiv nəzarətində idi.

Belə bir inkişaf səviyyəsində olan ərəblərin türklər tərəfindən işğal olunmasından sonra vəqf torpaqlarından başqa bütün torpaqlar sultanın torpaqları elan edildi. Bu torpaqların bir hissəsi isə türk feodalları tərəfindən qəsb edilmişdi. Məsələn, XYIII əsrdə Misirdə torpaqların $^{2}/_{3}$-si məmlük hərbi dəstə başçılarının mülkiyyəti idi. Suriya, Livan və Fələstində isə bir qədər başqa cür idi. Belə ki, bu ölkələrdə torpaq üzərindəki hakimiyyətdə ərəb feodalları öz mövqelərini qoruyub saxlaya bilmişdilər. Əslində buna Osmanlı sultanları özləri şərait yaratmışdı ki, buna səbəb də Fələstində toqquşan maraqların kifayət qədər dövlətin maraqlarına təsiretmə gücünün olması idi.

Burada ərəb feodalları türk feodalları kimi fəllahlardan renta-vergini natura və pul şəklində yığırdılar. Kəndlilərdən toplanan bu rüsumun əsas hissəsi sultanın yerlərdəki valilərinə-paşalara verilir, paşalar isə öz növbəsində əldə olunmuş gəlirin bir hissəsini sultan xəzinəsinə ödəyirdilər. İri ərəb feodalları fəllahlardan toplanan verginin çox hissəsini özlərinə saxlamaqla güclənir və sultan hakimiyyətinə qarşı mübarizə aparmaq istəkləri də həmin üsyanların baş verməsinə səbəb olan faktorlar sırasında idi. Məsələn, Livan əmiri Fəxrəddin də belə ərəb feodallarından olmuşdur. İldə 900 min livr gəlir əldə edən əmir Fəxrəddin bu gəlirdən yalnız 340 min livr sultan xəzinəsinə vergi verirdi. Onun malik olduğu malikanə və saraylar təkcə türk sultanı və feodallarının deyil, həm də avropalı səyyah və tacirlərin də heyrətinə səbəb olurdu.

Müxtəlif inzibati bölgünün yanaşı fəaliyyəti eyni zamanda dövlət aparatının əyalət tərkibində də öz əksini tapmışdı. XYII-XYIII əsrlərdə əsas idarəetmə vahidi olan əyalətdə, eyni zamanda mərkəzi hakimiyyətin üç müstəqil fəaliyyət göstərən nümayəndəsi- vali, kadiy, dəftərdar- idarəetməni tənzimləyirdi. Bunların hər biri müstəqil idarəetmə aparatına malik idi və ilk növbədə onları bu vəzifəyə təyin edən şəxslərə tabe idilər: qubernator- baş vəzirə, hakim – ali hərbi hakimə, xəzinədar – maliyyə qurumuna tabe idi.

Osmanlı sultanları qeyd etdiyimiz kimi, hakimiyyətlərini bərqərar etdikləri ərazilərdə, Avropanın müstəmləkəçi dövlətlərindən fərqli olaraq, yerli adət-ənənə və münasibətlər sistemini saxlamışdılar. Osmanlı dövlətinin digər regionlarında olduğu kimi, ərəb ölkələrində də torpaq sahibliyi kifayət qədər mürəkkəb idi. Torpaq bu ərazilərdə əsasən üç qrupa bölünürdü: sultanın birbaşa idarəçiliyində olan dövlət torpaqları (məmləkət, yaxud miri), dini qurumların nəzdində olan torpaqlar (Suriya və İraqda vəqf torpaqları, Misirdə vəqf, yaxud rizqi torpaqları, Şimali Afrikada isə xabus torpaqları) və şəxsi torpaq sahibliyi olan mülklər. Bundan başqa, bir sıra ölkələrdə icma torpaqları da mövcud idi.

Burada şəxsi torpaq sahiblərinə məxsus olan torpaqlar azlıq təşkil edirdi. Bu torpaq sahibləri malik olduqları torpaqları sata, bağışlaya və irsən verə bilərdi. Mülk torpaqlarından uşr, yaxud xərac adlı vergi toplanırdı ki, bu da torpaq vergisini səciyyələndirirdi. Məhsulun onda birini təşkil edən uşr vergisi, bəzi hallarda məhsulun

yarısını təşkil edirdi. Lakin bu adətən ölkənin hərbi vəziyyətdə olduğu dövrə təsadüf edirdi.

Vəqf torpaqları Osmanlı dövlətində ən çox əraziləri əhatə edən torpaq sahibliyi forması idi. Becərmək imkanına malik olmayan şəxslər öz torpaqlarını vəqf sahiblərinə verməklə hər hansı bir vergidən azad olurdular. Bu halda həm müsəlman ruhanilər, həm də həmin torpaq sahibləri üçün əlverişli imkanlar yaranırdı. İri feodallar mövcud quruluşun faktiki olaraq əsasını təşkil etdiyindən onların öz torpaqlarını dini qurumlara – məscidlərə, mədrəsələrə, zaviyələrə, dərviş mərkəzlərinə - verməsi nəticəsində vəqf torpaqları daha geniş əraziləri əhatə edirdi. Belə bir hal ondan irəli gəlirdi ki, həmin feodallar öz torpaqlarını dini qurumlara verməklə özlərinə daha güc-lü sosial baza yaratmaq məqsədindən irəli gəlirdi. Kəndlilər isə onların torpaqlarının iri feodallar tərəfindən zəbt edilməsinin qarşısını almaq məqsədini güdürdü.

Türklərin ərəb ölkələrində möhkəmlənməsi zamanı burada icma torpaqları qalmaqda idi. Köçəri heyvandarlığın qaldığı Şimali Afrika, İraq və Səudiyyə Ərəbistanında otlaqlar bədəvilərin icma torpaqları kimi qalmaqda idi. Çox zaman oturaq torpaq sahibliyi mövcud olan yerlərdə isə fəllah icma torpaqları müntəzəm olaraq müxtəlif ailə və ayrı-ayrı saraylar arasında bölüşdürülürdü Belə yer-lərdə dövlət onların müdafiəsini öz üzərinə götürürdü. İri feodallar fəllahlara məxsus olan torpaqları onların əllərindən ala bilməsinlər. Ona görə də, icma torpaqları adətən dövlət torpaqları kimi elan edilirdi.

Osmanlı dövlətində ən çox yayılmış torpaq sahibliyi dövlət torpaqları idi. Bu torpaqlar iki qrupa bölünürdü: xassə və hərbi-len (ziyamət və timar). Xassələr iri torpaq sahələri olub, illik gəliri 100 min akçaya çatırdı. Bu torpaqlar sultan və onun ailəsinin, ya da müvəqqəti olaraq nazirlər və dövlət məmurlarının himayəsində olurdu. Hərbi-len torpaqları isə sərkərdələrə xidmət müqabilində verilirdi və həmin sərkərdələr adətən sipahilər adlanırdı. 20 min akçadan artıq gəliri olan len torpaqları isə ziyamətlər, onların sahibləri isə zaimlər adlanırdı. Gəliri 20 min akçayadək olan len isə timar, timar sahibləri isə timarçı, yaxud timariotlar adlanırdı.

Hərbi-len sistemi əsasən Ön Asiya və Balkan yarımadasında yayılmışdı. Bu sistem Suriya və İraq istisna olmaqla ərəb ölkələrində

geniş tətbiq olunmamışdı. Hələb və Mosulun bir hissəsində türklər hərbi-len torpaq sahibliyi sistemini tətbiq etmişdilər.

Misirdə də əsasən məmlük sultanlarında mövcud olan həmin sistem saxlanmışdı. Bütün torpaqlar yerli feodallara məxsus idi. Torpaqlar dövlətə məxsus idi. Lakin ondan mültəzimlər-iri feodallar istifadə edirdilər. Bu mənada qeyd etmək olar ki, mültəzimlər, xüsusilə də Nubiya şeyxləri onlarla kəndə sahib idilər. Həmin torpaq sahibləri hökumət tərəfindən ya türk məmur və zabitlərindən, ya da yerli şeyxlərdən hökumət tərəfindən təyin edilirdi. Misirdə türk sultanları yerli məmlüklərdən qalmış adətləri saxlayırdı. Nəticədə, XYIII əsrin sonunda Misirdəki torpaqların $^{2}/_{3}$-si məmlüklərin əlində cəmləşmişdi. Bu səbəbdən də onlar Misirdə hakim təbəqəyə çevrilmişdilər.

Mültəzimlər hərbi xidmətdən azad olunurdularsa da, kifayət qədər vergi vermək məcburiyyətində idilər. Vergilərin həcminə dair mültəzimlər üçün xüsusi qeydiyyat dəftəri müəyyən olunmuşdu.Bu qeydiyyat dəftəri də xüsusi dövlət məmuru olan dəftərdarda saxlanılırdı. Əgər vergilər vaxtlı-vaxtında ödənməyəndə onların malik olduğu torpaq sahələri digər mültəzimlərə verilirdi.

Məmlüklərə torpaqlar adətən irsən verilirdi. Bu adi anlamda başa düşülən irsi verilmə deyildi. Belə ki, həmin torpaq məmlükün oğluna deyil, sahibkarın sevimli, yaxud daha çox hörmət etdiyi əsgərinə verilirdi. Belə bir hal ondan irəli gəlirdi ki, məmlükün öz bəyinə sədaqətlə qulluq etməsi üçün stimul olsun.

Hər iltizam, yaxud mültəzimin ərazisi əsasən iki hissəyə bölünürdü: usiya və atar. Usiya hissəsində becərmə işləri muzdla tutulan işçilər vasitəsilə aparılırdı. Atar hissə isə kəndlilərə ömürlük verilirdi və onlar tərəfindən becərilirdi. Buna görə kəndlilər torpaq SAhibinə renta ödəyirdilər. Aşağı Nildə bu pul ilə ödənilirdisə, Yuxarı Nildə bu ərzaq şəkilində ödənilirdi. 50 ərdəb məhsul yığıldıqda, onun 20-35 ərdəbi vergi şəklində ödənməli idi (1,9 dənəvər tel 1 ərdəb kimi qəbul olunurdu. Bu ölçü vahidi dənli bitkilərin çəkilməsində istifadə olunurdu).

Yerlərdə vergilərin kaymakamların başçılıq etdikləri kənd administrasiyası vasitəsilə yığılırdı. Kaymakamın əsas köməkçisi adətən baş şeyxlər olurdu. Hər il məhsul yığımından sonra şəhərdən kəndə sərraflar gəlirdi. Onların da vəzifəsi yığılmış məhsulu qiymətləndirmək və ümumi məhsula nisbətdə vergini müəyyən edib

onu yığmaq idi. Adətən sərraflar koptlar olurdu. Çünki bu halda tərəfkeşlik etmək qeyri-mümkün olur və müəyyən dərəcədə məhsulun obyektiv qiymətləndirilməsi üçün şərait yaranırdı. Verginin az yazılması üçün kəndlilər ona müəyyən məbləğdə pul ödəyirdilər. Kənd administrasiyasına, həmçinin usiya torpaqlarını idarə və nəzarət edən vəkil, mühafizə edən qarif, ictimai işlərə nəzarət etməklə bərabər, həm də yerölçmə işlərini həyata keçirən xauli, yerlərdə bir növ polis funksiyasını yerinə yetirən məşxəd (bunlar həm də fəllahların parolu rolunu da oynayırdılar) daxil idi.

Suriya və Livanda, eləcə də Misirdə türk sultanları yerli idarəetməni olduğu kimi saxlamışdılar. Belə ki, bütün torpaqlar faktiki olaraq yerli feodalların əlində qalmışdı və onlar, yəni yerli əyanlar idarəçiliyi həyata keçirirdilər. Livan Maanid sülaləsinin hakimiyyəti altında muxtar bir knyazlıq olmuşdur. XYII əsrin sonlarından etibarən isə bu sülaləni Şəhab nəsli əvəz etmişdi. Onlar türk sultanlarından vassal asılılığını qəbul etdiklərini təsdiqləyir, Portaya bac verirdilər. Lakin buna baxmayaraq, Osmanlı sultanları burada öz qoşunlarını saxlamamışlar. Bu isə Livanda milli və dini məsələlərin kifayət qədər ziddiyyətli və mürəkkəb olmasından irəli gəlirdi. Analoji knyazlıq, həmçinin Suriyada da Latakiyə knyazlığının timsalında formalaşdırılmışdı.

Livan həmin dövr üç inzibati mərkəzə – Kəsruan, Mətn və Şuf inzibati mərkəzlərinə bölünürdü. Hər inzibati mərkəzin başında yerli sülalələr dururdu. Bu inzibati mərkəzlər öz növbəsində xırda bölgələrə də bölünürdü. Livanda mövcud olan vəziyyət, eynilə Latakiyə knyazlığında və Cənubi Suriyada da özünə yer almışdı. Təsadüfi deyil ki, Suriya Livan və Fələstində dini feodallar cəmiyyətin həyatında daha əhəmiyyətli rol oynayırdılar. Burada xristian və müsəlmanlara məxsus onlarla müqəddəs ibadət mərəkəzlərinin mövcud olması həmin münasibətlərdə dini faktorun çəkisini daha da artırırdı. Buradakı dini separatizm meylləri adətən siyasi mübarizə kimi xarakterizə olunurdu. Digər tərəfdən, bu regionda möhkəmlənmədən Müqəddəs Yerlərə nəzarəti ələ keçirmək mümkün deyildi. Belə bir vəziyyətdə, Osmanlı rəsmiləri Suriya və Livanda güc tətbiq etməyin məqsədəuyğun olmadığını nəzərə alaraq, burada kifayət qədər müstəqil yerli idarəetməni saxlamışdılar.

Bununla belə, bu regionun idarə edilməsi və buradakı prosesləri nəzarətdə saxlamaq məqsədilə Hələb, Dəməşq və Saydada türk paşaları otururdular. Bu paşalar həmçinin bir-biri ilə mübarizə aparan və qarşıdurma vəziyyətində olan ərəb əmir və sultanları arasındakı münasibətləri də tənzimləyirdilər. Osmanlı sultanlarının ərəb ölkələrində belə bir siyasəti onları, təbii inkişaf yolundan çıxarmamağı da nəzərdə tuturdu. Bu halda, türk sultanları yerli əhali arasında daha çox imic qazanmış olurdu. Bu mənada, Suriya və Fələstinin ətraf rayonlarında ibtidai icma quruluşunun qalıqlarının qalması xüsusilə qeyd oluna bilər. Bu rayonlarda hələ qədimdən çoxlu köçəri və oturaq ərəb tayfaları məskunlaşmışdı. Bu tayfalarda feodalizm münasibətləri hələ formalaşmaq mərhələsində idi. Burada tayfaların şeyxləri nəsli-tayfa rəhbərləri olaraq qalırdı. Şeyxin tabeliyində 500 atlı olmasına baxmayaraq, həm heyvan otarır, həm də öz ailəsi ilə birgə təsərrüfat işlərini yerinə yetirirdi.

Özünəməxsus feodal münasibətləri İraqda formalaşmışdı. Belə ki, burada şimal ilə cənubdakı feodal münasibətlərində çoxlu fərqli cəhətlər mövcud idi. Şimalda torpaqlar aşirət tayfalarından olan kürd bəylərinin əlində cəmləşmişdi. Bu bəylər faktiki olaraq İraqın ən iri torpaq sahibləri idilər və sultana lazım gəldikdə tələb olunan döyüşçü dəstələrini verir və eyni zamanda Osmanlı dövlətinə müvafiq vergi ödəyirdilər. İraqın cənubunda isə patriarxal münasibətlər qalmaqda idi. Torpaq ərəb tayfalarına məxsus olmaqla bərabər, kollektiv mülkiyyət hesab olunurdu. Bir sıra tayfalar oturaq həyat tərzinə keçmiş və heyvandarlıqla məşğul olurdu ondan istifadənin müəyyən edilməsinə dair hüquqları tayfadakı nəsli ali təbəqəyə vermişdilər. Bununla da ərəblər tayfa şeyxlərinin vəzifələrini hakimiyyət tərəfindən tanınan, irsən verilən, yaxud ötürülən bir mexanizm halına salmaq istəyirdilər. Əslində Osmanlı sultanları ərəbləri belə bir addım atmaq məcburiyyətində qoymamışdı. Əksinə Osmanlı dövləti tərkibində gedən sosial-iqtisadi proseslərin məntiqi nəticəsi ərəblərdə yeni münasibətlərin formalaşmasına təkan vermişdi ki, bu ilk növbədə onların məişət və ictimai münasibətlərində öz əksini tapırdı. Məhz bu prosesin məntiqi nəticəsi idi ki, ərəblərdə iri torpaq sahələrinə malik olan ayrı-ayrı ailələr formalaşmağa başladı. Bununla belə həmin prosesin mənfi təsiri də özünü göstərirdi ki, bu da əsasən kiçik tayfaların həyatında özünü büruzə verirdi. Belə ki, həmin

tayfalar güclü rəqabət şəraitində gedən həmin proseslərdə daha böyük tayfaların təsiri altına düşürdülər. Buna görə də onlar öz narazılıqlarını yalnız Sultan hakimiyyətinə bildirmək məcburiyyətində qalırdılar. Nəticədə ərəblər arasında gedən proseslərin Osmanlı hakimiyyətinə təsiri özünü büruzə verirdi ki, bu da rus tarixşünaslığında bir qədər təhrif olunmuş şəkildə izah olunmuşdur. Halbuki, ərəblərin apardıqları mübarizənin əsasında türk sultanlarının hakimiyyətinə qarşı mübarizə deyil, sırf sosial-ictimai münasibətlərdən yaranan ziddiyyətlər dayanırdı. Buna görə də köçəri və yarımköçəri tayfalar etiraz əlaməti olaraq vergi ödəməkdən imtina edirdilər. Çünki onların digər mübarizə vasitəsi istənilən qədər təsiredici amil rolu oynaya bilmirdi. Həmin qarşıdurma isə adətən silahlı toqquşma ilə nəticələnirdi. Bu səbəbdən yeni feodallar uzun müddət malik olduqları torpaqları lazımi səviyyədə idarə etmək imkanından məhrum olurdular.

Təqribən eyni vəziyyət Şimali Afrikadakı türk vilayətlərində də formalaşmışdı. Burada türklər əsasən sahil rayonlarında torpaq sahələrinə malik idilər ki, bu da təsadüfi deyildi. Belə ki, sahil rayonlarında türk feodallarının yerləşdirilməsi sultan hökumətinin idarəetmə siyasətindən irləi gəlirdi ki, bundan da əsas məqsəd müdafiə məsələlərinin daha yaxşı təşkil edilməsi idi. Digər tərəfdən türk sultanları burada da yerli münasibətlərdə mövcud olan ziddiyyət və qarşıdurmanı nəzərə alaraq, istər Əlcəzairdə, istərsə də Liviyada ölkə daxilində iri torpaq sahələri ələ keçirməyə maraq göstərmədilər. Bu faktor xüsusilə Əlcəzairdə özünü göstərirdi. Belə ki, yerli bərbər tayfaları ilə ərəblər arasında olan mübarizə və qarşıdurma burada Osmanlı dövlətini tarazlaşdırılmış siyasət yeritmək məcburiyyətində qoymuşdu.

Bununla belə, qeyd etməliyik ki, bütün ərəb ölkələrində torpaq üzərində iri feodal mülkiyyəti olmamış və o, xırda kəndli təsərrüfatı ilə çulğalaşmış şəkildə inkişaf edirdi. Yəni heç bir ərəb ölkəsində iri ərəb təsərrüfatı yox idi. Buna səbəb, ilk növbədə ərəblərin köçəri və yarımköçəri həyat sürməsi idi. Digər tərəfdən, ərəb tayfaları arasında mövcud olan fasiləsiz, həmçinin mənasız tayfa müharibələri belə təsərrüfatların formalaşdırılmasına imkan verməməklə bərabər, həm də onu mənasız və əhəmiyyətsiz edirdi. Türk sultanlarının nəzərə aldığı əsas faktorlar sırasında bu amil

başlıca yer tutur, ona görə də Şimali Afrikada iri torpaq sahibliyinə əsaslanan təsərrüfatların formalaşdırılmasını qəbul etmirdi. Həmin müharibə və münaqişələr nəticəsində ərəb kəndi faktiki olraq ölü vəziyyətində idi. Məsələn, XYI əsrdə Hələbdə 3200 kənd var idisə, XYII əsrin sonunda burada artıq 400 kənd qalmışdı. Acınacaqlı vəziyyət Misirdə idi. Burada əhali daxili çəkişmələrdən çəkdiyi əzabın nəticəsi kimi fironların dövründə istehsal etdikləri məhsulun heç dörddə birini istehsal edə bilmirdi. Bu səbəbdən də kəndlilər öz yaşayış yerlərini dəyişməyə məcbur olurdu ki, bu da ümumən Osmanlı imperiyasının təsərrüfat həyatına öz mənfi təsirini göstərirdi. Məhz buna görə idi ki, hələ Sultan Süleyman Qanuninin dövründə Osmanlı imperiyasında, xüsusilə ərəb ölkələrində kəndlilərin torpaqda çalışması üçün hərtərəfli şəraitin yaradılmasını nəzərdə tutan Qanunnamə imzalanmışdı. Misirə münasibətdə isə xüsusi olaraq «Qanunnameyi Mısır» imzalanmışdı. Bu qanuna əsasən Misirin bütün əkinə yararlı ərazilərində torpaqlar becərilməli, onlar kəndlilərin istifadəsinə verilməli və bunun üçün əlverişli şərait yaradılmalı idi. Qanuna əsasən kəndlinin torpaqdan istifadə etməməsinə görə yerli şeyxlər məsuliyyət daşıyırdı. Bu nöqteyi-nəzərdən Sultan Süleymanın Qanunnaməsinin rus tarixşünaslığında tənqid atəşinə tutulması diqqətdən kənarda qala bilməz. Belə ki, rus tarixçilərinin qənaətinə görə həmin Qanunnamə guya kəndliləri təhkimli halına salır, onların sərbəst hərəkətinin qarşısını alır, onları müxtəlif vergilərlə yükləyir, şeyx və yerli feodallardan asılı vəziyyətə salır və sair azadlıqların üzərindən xətt çəkirdi. Əslində isə Qanunnamə həmin dövrdə mövcud olan münasibətlərin bütövlükdə nəzərə alınması kontekstində hazırlanmış kifayət qədər müfəssəl bir qanun idi və təkcə Osmanlı dövlətinin yerlərdə hakimiyyətinin möhkəmləndirilməsini deyil, eyni zamanda sadə əhalinin də vəziyyətinin yaxşılaşdırılmasını əsaslandırırdı. Bu baxımdan ərazisinin çox hissəsinin ərəb ölkələri təşkil edən Osmanlı imperiyasında həmin qanunun qüvvəyə minməsinin onlar üçün əhəmiyyəti çox böyük idi.

Bu dövr ərəb şəhərləri orta əsr şəhərlərinə xas xüsusiyyətinə malik olaraq qalmaqda idi. Bu şəhərlər iqtisadi, maliyyə və ticarət mərkəzlərindən çox inzibati mərkəzlər kimi fəaliyyət göstərməkdə idi. Bu şəhərlərdə də türklərin mövqeyi yalnız verginin yığılmasına nəzarəti həyata keçirməklə bitirdi. Qalan bütün istiqamətlərdə yerli

əhali mümkün olan fəaliyyət sahələrində çalışırdı. Şəhərlərdə əsas fəaliyyət sahəsi isə müxtəlif sənət sahələri idi. Osmanlı sultanlarının yerli əhalinin sənətkarlıq sahəsində yaratmış olduğu imkan və şərait nəticəsində ərəb şəhərləmndə ticarət beynəlxalq əhəmiyyət daşımağa başlamışdı və bu proses intensiv olaraq inkişaf və təkamül etməkdə idi. Buna səbəb Avropa sənayesinin xammal və satış bazarlarına artan tələbatı da həmin prosesdə xüsusi yer tutması idi.

Osmanlı bazarında əsas yer tutan tacirlər sırasında italyanlar daha güclü mövqeyə malik idi. Onlar, xüsusilə Venetsiya, Genuya və Piza ingilis və fransızları burada kifayət qədər sıxışdıra bilmişdilər. Bu ticarət respublikalarının tacirəlri Osmanlı imperiyasında bütöv kvartallara malik idilər. Yalnız XYIII əsrdə Bağdad və Bəsrədə ingilislər Ost-Hind kompaniyasının filialını açdıqdan sonra italyanlara qarşı kifayət qədər güclü rəqabət aparmağa başladılar.

Avropa tacirlərinin vasitəçiləri rolunda isə adətən ermənilər, yunanlar və bir çox hallarda isə ərəblər çıxış edirdilər. Vasitəçiliklə bərabər onlar həm avropalı tacirlərə, həm də Osmanlı dövlətinə səfər etmiş müxtəlif səviyyəli missiyaların nümayəndə heyətləri üçün agentlik edirdilər. Onlar Qahirə, Hələb, Dəməşq, Bağdad, Trapezund, İstanbuldakı ticarət nümayəndəlikləri və mərkəzləri üçün həm vasitəçilik işlərinin, həm də tranzit ticarətin aparılmasında onlara hərtərəfli köməkliklər göstərir bunun müqabilində xeyli gəlir əldə edirdilər. Belə bir fəaliyyət onlara xarici ölkələrlə müxtəlif səviyyələrdə əlaqələr qurmalarına da imkan verirdi.

Bununla belə, daxili bazar Osmanlı dövlətində az inkişaf etmişdi. Bu ticarət əsasən kənd və şəhər əhalisi arasında aparılan ticarət əlaqələri çərçivəsində idi və lokal xarakter daşıyırdı. Şəhərlərdə istehsal olunmuş məhsullar adətən elə həmin şəhərlərdə də satılırdı ki, bu da ticarətin qapalı qalmasını səciyyələndirirdi. Belə bir vəziyyətdə, avropalıların Osmanlı imperiyasında əlverişli mövqedən çıxış etmələrinin səbəbləri də mövcud idi. Bunun ən başlıcı səbəbləri sırasında türklərin özlərini avropalıların fövqündə qoyması idi. Yəni onlar özlərini bir növ avropalılardan üstün hesab edirdilər. Bu dünyagörüşü hətta rəsmi səviyyədə Osmanlı sultanlarının siyasətində özünə yer almışdı. Bu isə özünü Osmanlı dövlətinin Avropa dövlətlərinə kapitulyasiya hüquqları verməsində tapmışdı. Məhz bu hüquqlardan məqsədəuyğun istifadə edən avropalılar artıq yeni dövrün əv-

vəllərində öz inkişaf səviyyələrinə görə Osmanlı dövlətini xeyli geridə qoymuşdu. Bununla bərabər avropalılar çoxlu kapital ehtiyatlarına, ticarət, eləcə də maliyyə əməliyyatlarının aparılması, ticarətin təşkili və onun nəql edilməsi təcrübəsinə malik idilər.

Sənayenin inkişafı baxımından da Osmanlı imperiyası Avropa ölkələrinin sənaye təkamülündən geri qalırdı. Buna səbəb ilk növbədə Osmanlı imperiyasında mövcud olan rəsmi və qeyri-rəsmi ideologiya və dünyagörüşü idi. Belə ki, Portada avropalılara olan münasibət, inkişafa yeniliyə olan münasibət bir paradoksallığı ilə təəccüb doğururdu. Bu mənada türklərin istər ticarətdə, istərsə də elmi və texniki yeniliyə olan münasibətlərindəki mühafizəkarlıq xüsusi olaraq qeyd oluna bilər. Kapitulyasiya rejiminin tətbiqi və sonradan onu ləğv edə bilməmək də həmin dünyagörüşünün məntiqi nəticəsi idi. XYI əsrdən XX əsrədək Osmanlı dövlətini avropalılara güzəştə getməyə məcbur edən bu hüquqi sənəd və onun tələbləri Osmanlı dövlətinin zəifləməsinin və süqutunun əsas səbəbləri sırasındadır. Bu mənada Osmanlı dövləti ərazisinin tərkib hissəsi olan ərəb ölkələri də istisna deyildi. Sex məhsulu ənənələri çərçivəsində təkamül edən sənətkar sənayesi təbii ki, Avropanın manufakturaları ilə rəqabət apara bilməzdi. Kifayət qədər böyük sənətkar sənayesi mərkəzləri Suriyada Dəməşq və Hələb, İraqda Bağdad və Mosul, Misirdə Qahirə, eləcə də Şimali Afrikada Tunis, Əlcəzair, Tələmsən, Fəs, Mərakeş idi.

Ərəb sənətkarları əsasən parça, xalça, safyan, silah, mis qablar və sair məmulatlar istehsal edirdilər. XYIII əsrədək bu məhsulların çoxu Avropaya ixrac edildiyi halda, XYIII əsrin əvvəllərindən həmin ixracata tələbat artıq yox dərəcəsində idi. Əksinə Avropanın yüksək texnologiyada istehsal etdiyi məhsullar burada, hətta yerli istehsalı belə sıxışdırırdı.

Digər tərəfdən, ərəb ölkələrində sənəkarlıq kənd təsərrüfatı ilə daim sıx əlaqə vəziyyətində təkamül etməkdə idi və sənətkarlığın kənd təsərrüfatından ayrılmasını ifadə edən dəqiq sərhəd yox idi. Məsələn, Misirdə iplik bir qayda olaraq kənd təsərrüfatında istehsal olunurdu. Analoji vəziyyət həm də Suriyada qalmaqda idi. Hələbdə nəinki yun parçalar, hətta pambıq parçalar da kənddə istehsal olunurdu. Yaxud əksinə şəhər əhalisi təsərrüfatla və bağçılçqla məşğul olurdular. Ərəb şəhərinin sosial strukturu onu deməyə əsas verirdi ki,

burada istehsal faktiki olaraq yox dərəcəsində idi. Məsələn, Qahirədə XYIII əsrin sonunda 300 min adam yaşadığı halda, cəmi 25 min sənətkar, 15 min fəhlə, 60 min isə müxtəlif təbəqələrə – hərbçi, mülkədar, ruhani, tacir və sair təbəqəyə mənsub idi. Yerdə qalan hissə isə faktiki olaraq daimi məşğuliyyətə malik deyildi. Burada Osmanlı dövlətinin avropalılara vermiş olduğu kapitulyasiya da müəyyən dərəcədə yerli əhalinin ticarətlə məşğul olmasına mane olurdu.

## SURİYA, LİVAN, FƏLƏSTİN

*Osmanlı dövlətində ərəblərin hərbi-siyasi çıxışları*

Osmanlı dövlətində baş vermiş üsyan və qiyamların mahiyyəti və məzmunu onun hərəkətverici qüvvələrinin qarşıya qoymuş olduqları məqsədlə müəyyən olunurdu. Bu mənada Osmanlı imperiyasına birləşdirilmiş ərəb ölkələrindəki hərbi-siyasi çıxışların tədqiqi onu deməyə əsas verir ki, yerlərdə baş vermiş çıxışlar birbaşa türk, yaxud sultan hakimiyyəti əleyhinə deyil, əsasən yerli feodalların özbaşınalığına qarşı yönəlmişdir. Qeyd etdiyimiz kimi Osmanlı dövlətinin idarəetmə sisteminin cəmiyyətə olan münasibəti həmin çıxışların türklərə qarşı deyil, yerli hakim, yaxud feodallara qarşı olmasını əsaslandırırdı. Çünki müstəqil fəaliyyət göstərən ərəb paşalıq və sancaqlıqlarında yerli idarəetmə onların özlərinə həvalə edilmiş və onlar mərkəzi hökumətə yalnız müəyyən olunmuş vergini ödəyir, eləcə də lazım gəldikdə Osmanlı imperiyasının hərbi əməliyyatlarını təmin edəcək qoşun hissələri verirdilər. Belə bir vəziyyətdə yerlərdə baş verən üsyan və qiyamlar əsasən milli–etnik zəmində baş verən lokal xarakterli çıxışlar kimi qəbul olunur.

Bundan sonra, Livanda bir-birinə qarşı mübarizə aparan iki əyan nəslinin hakimiyyət uğrunda mübarizəsi yenidən başlandı. Bunlardan biri Osmanlı hakimiyyətinə qarşı mübarizə aparan məanidlər özlərini keysilər də adlandırırdılar ki, bu da qırmızı mənasını verirdi, ikincisi isə yəmənilər idi ki, bu da ağ mənasını verirdi. Yəmənilər və keysilər arasında gedən mübarizədə qələbə dəyişkən xarakter daşıyırdı. Belə ki, yəmənilər Məlhəm Məanidi hakimiyyətdən devirsələr də, bu çox çəkmədi. Osmanlı dövlətində baş vəzir vəzifəsini daşıyan Köprülü nəsli Osmanlı imperiyasında köklü islahatlar aparırdı və onların siyasətində seperatizmə qarşı mübarizə başlıca yer tuturdu. Ona görə də Livanda sabitliyin bərqərar olmasında ilk növbədə Osmanlı dövləti maraqlı idi. Bu dövr keysi və yəmənilər arasında bir neçə hərbi toqquşma olmuşdu: 1662, 1664 və 1667-ci illərdə. Beyrut döyüşü isə tərəflər arasında 1667-ci ildə baş vermişdi. Bu lokal müharibələrdə əsas məqsəd iki tayfanın hakimiyyət uğrundakı mübarizədə qələbə qazanması olsa da, bu faktiki olaraq Osmanlı dövlətinin maraqlarını dilemma qarşısında

qoyurdu. Belə ki, bir tərəfdən bu müharibələr Osmanlı hakmiyyətində müəyyən olunmuş verginin ödənməsini çətinləşdirir, bəzən ümumiyyətlə qeyri-mümkün edirdisə, digər tərəfdən bu müharibələr olmadan Osmanlı dövlətinin burada nüfuzunun bərqərar edilməsi sual altına alınırdı. Bununla belə həmin müharibələr İstanbul üçün yolverilməz hesab edilirdi ki, bu da Avropa dövlətlərinin Osmanlı dövlətinin daxili işlərinə qarışması üçün səbəb əldə etmələri ilə əlaqədar idi. Məsələyə çətinlik gətirən əsas faktor isə bu idi ki, türklər burada öz hakimiyyətlərini zor gücünə bərqərar etmək istəmirdilər və hər vasitə ilə bundan yayınırdılar. Ona görə də həmin mübarizədə Osmanlı dövlətinin əsasən qalib tərəfi dəstəkləməsi təsadüfi deyildi. Əslində hadisələrin bu axında sonsuz olaraq cərəyan etməsi də İstanbulun maraqlarına zidd idi. Çünki belə bir vəziyyət ilk növbədə Müqəddəs torpaqlarda öz nüfuzlarını bərqərar etmək istəyən Rusiya və Avropa dövlətləri üçün əlverişli şərait yaradırdı. II Fəxrəddinin asanlıqla Avropada dəstək tapmasının əsas səbəbi də ilk növbədə məhz bununla əlaqədar idi. Odur ki, Osmanlı dövləti bu məsələdə qəti bir mövqeni seçmək məcburiyyətində qalmışdı. Lakin bu mövqenin seçilməsi hadisələrin ümumi təkamülünün məntiqi nəticəsinə əsaslanmalı idi.

Keysi və yəmənilər arasında gedən mübarizədə müvəqqəti üstünlük yəmənilərin tərəfində olsa da, XVII yüzilliyin sonunda isə keysilər yenə üstünlük qazandılar. Belə bir vəziyyətdə, Osmanlı dövlətinin atdığı addımlar sırasında Suriyadakı tayfaların konfederasiyasını yaratmaq istiqamətində gördüyü tədbirlər diqqət mərkəzində idi. Nəzərdə tutulan konfederasiyanın rəhbərinin Livandan olması ideyası da təsadüfi xarakter daşımırdı. Belə ki, Suriyanın yerli tayfaları arasında belə bir konfederasiyanın başında kimin durması məsələsi üzərində qızğın mübahisə və mübarizənin mövcudluğunu nəzərə alan İstanbul onun Livandan olması fikrini qəbul edirdi. Çünki bu halda həm Livanda, həm də Suriyada sabitliyi təmin etmək üçün əsas yaratmaq mümkün olurdu. Belə bir liderin namizədliyi məsələsində isə əvvəllər II Fəxrəddin üzərində dayanılırdı. Çünki onun nüfuzu belə bir konfederasiyanın idarə olunmasına imkan verirdi. Son çıxışlarına baxmayaraq onun əhv edilməsi də, ilk növbədə Osmanlı hakimiyyətinin ondan istifadə etmək məqsədindən irəli gəlirdi.

Həmin mübarizənin gedişinə dair Livan mənbələrinin verdiyi məlumata əsasən 1680-cı ildə Bəəlbək hakimləri, eləcə də Xarfuş əmirləri Deyr əl-Kamara gələrək, əmir Əhmədin yanında şihabilərə bac verəcəklərinə dair məhkəmədə öhdəlik götürdülər. Lakin bir neçə ildən sonra Trablis paşasının Cubeylə mutualilərini tənbeh olunması məqsədilə Livan əmirindən xahiş etməsi, daha bir faktoru üzə çıxarmış oldu. Belə ki, mutualilərin köməkliyi ilə druzların çıxışlarını dəfələrlə yatıran Livan əmiri belə bir addımın atılmasının qeyri-mümkün olmasını bildirdi. Digər tərəfdən II Fəxrəddinin siyasətinə uyğun olaraq Suriya tayfalarını türklərə qarşı qoyaraq, balansa nail olmaq cəhdinin iflasa uğradığını nəzərə alaraq, Livan əmiri belə bir addımı atmadı. Çünki onun qoşunu məhz mutualilər tərəfindən məğlub edilmişdi. İstanbula göndərdiyi məlumatlarda o, yerlərdə münaqişələrin son həddə çatdığını bildirir və verginin məanidlər tərəfindən ödənməsinin məqsədəuyğunluğunu qeyd edirdi. Bu səbəbdən də Livan əmirinin qaçması ilə əlaqədar olaraq, Osmanlı dövləti bu vəzifəyə ələməddinlər ailəsindən birini təyin etmək məcburiyyətində qaldı. Lakin yenə əvvəllər olduğu kimi türk hərbi dəstələri Livandan uzaqlaşan kimi keysilər yəməni nəslindən olan ələməddinləri qovdular. Belə bir vəziyyətdə Sayda paşası İstanbul yeni əmirin hakimiyyətdə qalmasına dair himayəçiliyini bildirdi.

1697-ci ildə əmir Əhmədin vəfatı ilə məanidlər sülaləsinin nəsli kəsilmiş oldu. Məlum olduğu kimi, Osmanlı dövlətində hakimiyyətin ötürülməsi və yaxud irsən verilməsi şəxsin övladına deyil, hakimiyyət sahibinin qardaşına verilirdi. Bu qanuna uyğun olaraq Livanda məanidlərin hakimiyyətinə son qoyulmuş olurdu. Digər tərəfdən Əhmədin oğlu hələ onun sağlığında vəfat etmiş, qızı isə şihabilər nəslindən olan nüfuzlu Xasbəy əmiri ilə ailə qurmuşdu. Sultan yeddi vilayətinin şeyxi hələ qədimdən Deyr əl-Kamarda seym təşkil edərək əmir seçmək hüququna malik idilər. Bu hüquqdan istifadə edərək, druzlar əmir Bəşiri Livan knyazı seçdilər ki, o da ana tərəfdən məanidlərin qohumu idi. Bu nigahda həm də Antilivan şihabiləri də var idi. Bu da şihabiləri də təmsil edən Əhməd Məanidin nəvəsi 12 yaşlı əmir Heydər idi. Məhz Heydərə hakimiyyət irsən çatmalı idi. Lakin Asiya tayfalarında siyasi irs həmişə vətəndaş qanunlarına tabe edilirdi. Bu qanunlara əsasən

hüququ çatan namizədlər sırasında ən layiqlisi və ən bacarıqlısı əmir seçilməli idi. Bu prinsip Osmanlı sultanlarının da hakimiyyətə gəlməsində nəzərə alınan ən əsas məsələlərdən biri idi. Şeyxlər əmir Bəşiri Livanı idarə etməyə dəvət etməklə faktiki olaraq şihabilərin hakim rolunu təsdiqləmiş oldular. Bununla da şihabilər məanidlərin irsini qəbul etmiş oldular. Şihabilərin Livanda hakimiyyəti ələ alması ilə özünəməxsus qədim adət-ənənə də özünə yer aldı. Bu isə qardaş qırğını, ailə ziddiyyəti, öz hakimiyyətini möhkəmlətmək məqsədilə ona tabe olan əmirlər arasında münaqişə salmaq, onları bir-birinə qarşı qoymaq və sair bu kimi halların Livan sosial-ictimai və siyasi həyatında yer alması demək idi.

Belə bir vəziyyət, Osmanlı hakimiyyətini qane etsə də, əmir Əhmədin vəfatından sonra knyazlığın əmlakının qeydiyyatını aparmaq məqsədilə Sayda paşası öz hərbi dəstəsi ilə Deyr əl-Kamaraya gəldi. Sayda paşası təqdimat zamanı Osmanlı dövlətinə tabe olan Bəşirin hakimiyyətinin müvəqqəti xarakter daşıdığını bəyan etdi. Belə ki, Osmanlı dövlətinə məanidlər sülaləsi nəslinin kəsildiyi haqda məlumat veriləndən sonra İstanbul sonuncu knyazın nəvəsi əmir Hüseynin hakimiyyətə gəldiyini, lakin onun azyaşlı olduğunu nəzərə alaraq, Bəşirin ona himayəçi təyin edilməsi barədə imzalanmışdı. Belə bir hal onunla əlaqədar idi ki, hələ II Fəxrəddinin İstanbulda əsirlikdə olduğu vaxt baş vəzir onun oğlunun əhv edilməsi haqqında sultandan xahiş etmiş, buna nail olduqdan sonra isə Hüseyni öz himayəsi altına almışdı. Hadisələrin belə bir vəziyyəti formalaşdırdığı dövrdə İstanbul yenidən məanidlərin hakimiyyətə gətirilməsi ilə bir növ hadisələri qabaqlamaq istəyirdi. Çünki əvvəlki dövrdə yəmənilərin hakmiyyətə gətirilməsinə baxmayaraq, onlar türklərin Livandan uzaqlaşması ilə devrilmələri arasındakı vaxt heç zaman ölçüsünə belə gəlməmişdi. Bununla belə sonrakı hadisələr Osmanlı hakimiyyətinin düzgün istiqamət götürdüyünü təsdiqləmiş oldu.

Belə ki, 1711-ci il Ayndar döyüşündə keysilər yəmənilərin Livanda hakmiyyətinə qəti olaraq son qoymuş oldu. Digərlərindən fərqli olaraq axırıncı yəməni paşasının başı kəsilmədi. Bu da yerli adət-ənənə ilə bağlı idi. Adətə görə Livan şeyxlərinin edam edilməsi qadağan olunduğundan, onun dili və barmaqları kəsildi. Axırıncı paşa isə Mahmud paşa idi. Bu qələbədən sonra şihabilər Livanda

mərkəzləşdirilmiş hakimiyyət formalaşdırmağa başladılar. Şihabilərin qəti və dönməz qələbə qazanmasını Osmanlı dövləti də rəsmən tanımaq məcburiyyətində qalmış oldu. Lakin bununla belə? Livanda yenə lokal müharibə və qarşıdurmalara son qoyulmadı. Çünki yeni münaqişələr artıq şihabilərin daxilindəki hakimiyyət uğrundakı mübarizə ilə başlandı. Bu faktor isə şihabiləri dəstəkləyən digər tayfaların da hakimiyyət uğrunda mübarizəyə qoşulmasına təkan vermiş oldu. Belə bir vəziyyətdə, şihabilər həmin tayfalardan gah birini, gah da digərini dəstəkləməklə öz hakmiyyətlərini saxlamaq siyasəti yeritməyə başladılar. Qeyd edək ki, Livanda bu gün də mövcud olan ziddiyyətlərin əsası məhz bu dövrdə qoyulmuşdur və müasir dövrümüzdə də davam etməkdədir. Ziddiyyət və qarşıdurmanın tərəfləri isə həmin dövr yaranmış və formalaşmış iki druz qrurlaşması – ezbeki və cumblatlardır. Haki-miyyətə gələn əmir Heydər də öz mövqeyini qoruyub saxlamaq üçün əsasən bu iki qruplaşmanın qarşıdurmasından məharətlə istifadə edirdi. Şihabilərin hakimiyyətə gəlməsinə əslində məanidlər özləri təkan vermişdilər. Belə ki, hələ XI əsrdə məanidlər hakimiyyət uğrunda mübarizədə qələbə qazanmaq məqsədilə şihabilərlə qohum olmağı məqsədəuyğun hesab edirdilər. Həmin dövr şihabilərin siyasi hakimiyyət uğrunda mübarizə aparmaq üçün qüvvəsi kifayət qədər olmasa da, bir çox tayfalar arasında kifayət qədər nüfuzları var idi. Buna görə də, məanidlər onların nüfuzlarından istifadə edirdilər. Məlum olduğu kimi, bu tarixi mübarizədə şihabilər qəti olaraq qələbə qazandılar və bu gün də müasir Livanın siyasi həyatında öz təsir güclərini saxlamaqdadırlar.

1731-ci ildə əmir Heydər hakimiyyəti oğluna verdi və bir ildən sonra vəfat etdi. Onun vəfatından sevinən mutualiyə şeyxləri, öz heyvanlarının quyruğunu qırmızı boya ilə rənglədiyindən əmir Heydərin hakimiyyətə gəlmiş oğlu Məlhəmin qəzəbinə səbəb oldu və o, mutualiyələri cəzalandırdı. Lakin Məlhəm hakimiyyətdə çox qalmadı. Çünki əmir Heydərin vəfatından sonra ezbekilərlə cumbulatlar arasındakı qarşıdurma açıq münaqişələrə çevrildi. Ona görə də, əmir Məlhəm hakimiyyətdən qardaşları Mənsur və Əhmədin xeyrinə əl çəkdiyini bəyan etdi. Əslində bu addım sözügedən münaqişənin daha da dərinləşməsinə səbəb oldu. Belə ki, ezbekilər Əhmədin, cumbulatlar isə Mənsurun tərəfindən çıxış etməyə

başladılar. Formalaşan vəziyyət isə qardaşlar arasında hakimiyyət uğrundakı mübarizənin daha da güclənməsi və qızışmasına səbəb oldu. Bu mübarizə nəticəsində Mənsur qələbə qazandı və Livanda özünün tək hakimiyyətliliyini 1764-cü ildə bərqərar etdi. Bununla belə şihabilər Livanda artıb-çoxaldılar. Həmin nəsildə hakimiyyətdən öz xoşu ilə əl çəkmiş Məlhəmin oğlu əmir Yusif də var idi. Həmin dövr onun 12 yaşı var idi. Bəzi tarixçilər belə hesab edirlər ki, əmir Məlhəmin qardaşları ilə açıq mübarizədən yayınaraq, hakimiyyətdən könüllü olaraq əl çəkmişdi. Qardaşları arasında hakimiyyət uğurunda çəkişmədə, onlardan birinin qəti olaraq bu mübarizədən uzaqlaşdırılmasına nail olan Məlhəm, həmin proseslərin gedişində öz oğlunu hakimiyyətə hazırlamışdı. Bu tendensiya müəyyən dərəcədə həqiqətə uyğundur. Belə ki, Məlhəmin oğlu əmir Yusifin tərbiyəsində maroni Səəd əl-Hurinin özünə yer alması, Məlhəmin uzaqgörən siyasətindən xəbər verirdi. Belə ki, hakimiyyət uğrunda mübarizəni yeni müstəviyə keçirməyə müvəffəq olan Məlhəm faktiki olaraq Suriya və Livanda tamamilə yeni qüvvələrin siyasi meydana gəlməsinə şərait yaratmış oldu. Bu qüvvələr sırasında da maronilər xüsusi yer tutmağa başladılar.

Maronilərin siyasi meydana gəlməsi, həm də Osmanlı dövləti üçün yeni qayğı və problem demək idi. Həmin dövrə qədər olan müddətdə isə maronilər, yalnız druzların təsərrüfat həyatında çalışır, siyasi mübarizə və qarşıdurmalarda iştirak etmirdilər. Buna səbəb həm də maronilərin xristian dünyasında, xüsusilə də katolik kilsəsi tərəfindən tanınmaması idi. Lakin XVIII yüzilliyin ikinci yarısında Livan və Suriyada hakimiyyət uğrunda gedən mübarizənin məntiqi nəticəsi kimi maronilər siyasi meydana gəldilər və katolik kilsəsi tərəfindən tanındılar. Maronilərin də dini fəaliyyətində katolik kilsəsinə itaət etmələri başlıca yer tuturdu. Əmir Yusifin tərbiyəsində maroni Səəd əl-Hurinin özünə yer alması əslində onların siyasi meydana gəlmələrinin başlanğıcı hesab edilir. Əmir Yusif bu mübarizədə əmisi Əhmədin tərəfindən çıxış edirdi. Ona görə də Mənsur qələbə qazandıqdan sonra o, apardığı mübarizədə Dəməşqdəki Osmanlı paşası Sadığa müraciət etdi. Bu müraciətdə onun vasitəsilə Trablis paşasından xahiş edilirdi ki, Cubeylə vilayətinin hakimi əmir Yusifin hakimiyyətinə loyal müna-sibət bəsləsin. Bundan sonra əmir Yusif maronilərdən özünə sosial baza

yaratmağa müvəffəq oldu. Cubeylədə əhalinin əsas hissəsinin xristan olmasına baxmayaraq, əmir Yusif əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə nail olmaqla onların, həm də Livan əhalisinin hörmətini qazandı. Özünə təhlükə hiss edən əmir Mənsur ezbekiləri cumbulatlara qarşı üsyan qaldırmağa sövq etməklə bərabər, həm də özü həmin hərəkatın rəhbəri kimi çıxış etdi. Lakin bir ilə yaxın davam edən qarşıdurma barışıq ilə nəticələndi. Bütün bu dövr ərzində isə şihabilər nəsli arasında qardaş qırğını davam etməkdə idi. Bu da istər Livanın, istərsə də Suriyanın yaşam səviyyəsinə və vəziyyətinə mənfi təsir göstərirdi. Belə bir vəziyyətdə Osmanlı dövləti bitərəf mövqe nümayiş etdirirdi. Bu da sultan hakimiyyətinin yerli proseslərə müdaxilə etməməsinin daha məqsədəuyğun olmasından irəli gəlirdi. Hər halda əks addımın istənilən nəticə vermədiyi artıq Osmanlı hökumətinə bəlli idi. Digər tərəfdən ərəblər arasındakı ziddiyyətin mövcudluğu bitərəf siyasətin üstünlüyünü obyektiv olaraq ortaya çıxarmışdı.

*XVIII əsrin ikinci yarısında feodal ara müharibələri*

Həmin dövr artıq Ərəbistan yarımadasında Məhəmməd ibn Əbd əl-Vəhhab ibn Süleyman siyasi səhnəyə çıxmışdı. Bu dini-siyasi təlimin meydana çıxması istər Suriya və Livanın, istərsə də bütövlükdə Osmanlı dövlətinin sosial-ictimai münasibətlərinə təsir edirdi. Lakin bununla yanaşı mərkəzi hakimiyyətə qarşı çıxışların digər cəhətləri də özünü büruzə verirdi.

1768-1774-cü illər rus-türk müharibəsindən yararlanmaq istəyən ərəblərin bu cəhdi də istənilən nəticəni verməmişdi. Ruslar Osmanlı dövlətinin parçalanması istiqamətində yeritdiyi siyasətdə ərəblərin narazı qüvvələrindən istifadə etməyə xüsusi əhəmiyyət verirdi. 1769-cu ildə rus-türk müharibəsindən istifadə edən Misir hakimi Əli bəy əl-Kəbir ölkəsinin Osmanlı dövlətindən müstəqil olması haqqında qərar verdi. Abxaz mənşəli olan Əli bəy öz mübarizəsində Rusiyanın köməyinə arxalanırdı. Ona görə də o, 1770-ci ildə Misirin müstəqilliyini elan edərək «Misirin və iki dənizin sultanı» titulunu qəbul etdi. Osmanlı dövləti ilə mübarizədə o Səfəd (Fələstin) hakimi Şeyx Dager ilə müttəfiqlik haqqında müqavilə bağladı.

İstanbul ilə əlaqələri kəsən Əli bəy Rusiya ilə münasibətləri inkişaf etdirmək kursu götürdü. Əli bəyin inanılmış nümayəndəsi kimi onun yeritdiyi siyasəti qələmə alan erməni Luzinyan qeyd edir ki, 1771-ci ilin əvvəllərində Əli bəy yenə milliyyətcə erməni olan Yakov vasitəsilə A.Q. Orlova məktub göndərmişdi. O məktubda Rusiya şahzadəsi II Yekatirina ilə sultana qarşı birgə mübarizə aparmağa dair müqavilə bağlamaq istədiyini bildirmişdi. Əli bəy Orlova pul və ərzaq ilə yardım etməyi də öz öhdəsinə götürürdü. Əli bəy ikinci müraciətini 1772-ci ildə Misirdən Fələstinə qaçdıqdan sonra edir. Bu dövr rus donanması qraf A.Q.Orlovun komandanlığı altında Paros adasındakı Auza limanında möhkəmlənmişdi. Buradan ruslar bütün Aralıq dənizinin şərq hissəsinə nəzarəti həyata keçirirdi. 25-26 iyun 1770-ci ildə Çesmen döyüşündə türk donanmasını məğlub edən ruslar, arxipelaqda bir sıra adaları tutmuşdular. Belə bir geostrateji mövqe ruslara yunanları dəstəkləməyə imkan verirdi. Elə həmin dövrdə rusların Paros adasında yerləşən qərargahına 1771-ci ilin əvvəlində Əli bəyin emissarları təşrif buyurdu. Aparılan danışıqlarda türklərə qarşı birgə mübarizə aparılmasına dair razılaşma əldə olundu.

Hərbi əməliyyatların başlanğıcında Əli bəy müəyyən irəliləyişlər əldə etmişdi. 1771-ci ilin əvvələrində misirlilər Dagerin dəstəyinə güvənərək böyük qoşun ilə Suriyaya hücum etdi, Dəməşq və Saydanı tutaraq Yaffanı mühasirəyə aldılar. Lakin məmlüklər arasında mövcud olan ziddiyyət nəticə etibarilə onların parçalanmasına səbəb oldu. Belə ki, bir sıra məmlük komandirləri Osmanlı dövləti tərəfinə keçdilər. Misir qoşunlarına başçılıq edən Əbu Dəhab öz qoşunlarını Dəməşqdən çıxarıb Yuxarı Nildə yerləşdirərək, Əli bəyə qarşı mübarizəyə başladı. Əbu Dəhabın belə bir addımı digər məmlüklərin də onun tərəfinə keçməsinə səbəb oldu. Nəticədə, Əli bəy məğlub oldu və Əkkəyə qaçdı. Məmlüklərin Dəməşqdən çıxmasından sonra Dagerin vəziyyəti ağırlaşdı. Belə ki, digər tərəfdən Livan əmiri Yusif Şihab türklərlə birləşdi və birlikdə Saydanı mühasirəyə aldılar. Əldə olunmuş razılaşmaya əsasən Əli bəyin köməyinə rus donanması gəldi və müttəfiqlər Saydanın mühasirəsinin götürülməsinə, eləcə də 1772-ci ilin may ayında Beyrutun yenidən tutulmasına müvəffəq oldular. Həmin ilin

payızında rus-türk razılaşmasına əsasən ruslar Suriya sahillərindən çəkildilər. Beyrut yenidən türklərin əlinə keçdi.

Bununla belə, qraf Orlov Əli bəyin yanına leytenant Pleşşeyevin başçılığı altında missiya göndərdi. Pleşşeyev özü ilə çoxlu sayda silah və sürsat gətirmişdi. Öz qüvvələrini səfərbər edən Əli bəy 1773-cü ildə 6 minlik qoşun ilə qiyamçı məmlüklərə qarşı hərəkət etdi. Lakin Samixiyə yaxınlığındakı döyüşdə onun qoşunu məğlubiyyətə uğradı. Özü isə əsir alındı və 8 may 1773-cü ildə vəfat etdi. Belə bir hal şeyx Dagerin vəziyyətini tamamilə ağırlaşdırdı. 1773-cü ilin iyununda rus-türk razılaşmasının vaxtının bitməsindən sonra rus eskadrası admiral Kojuxovun komandanlığı altında yenidən Suriya sahillərində özünə yer aldı. Livan əmiri Yusif Şihab bu dəfə əks mövqedən çıxış etdi. Belə ki, türklərlə əlaqələri kəsən əmir Yusif ruslarla və Şeyx Dager ilə müqavilə bağladı. 1773-cü ilin oktyabr ayında o, II Yekaterinaya müraciət edib, onun himayəyə götürülməsini və Livanın Rusiya tərəfindən protektoratlığa alınmasını xahiş etdi. Lakin 1774-cü ildə Kiçik Qaynarca sülh müqaviləsinin imzalanması ilə əmir Yusifin bu xahişi rədd edildi. Rus eskadrası isə Suriyanı tərk etdi. Rusların Suriyadan getməsindən sonra türklər şeyx Dagerin qoşunlarını qəti olaraq məğlub etdilər.

Belə bir vəziyyətdə, 90 yaşına çatan Dager sonrakı hadisələrin gedişini öz xeyrinə həll etmək istəyirdi. Bu məsələdə də ona xristian olan İbrahim Sabbaq yardım edirdi. Həm özü, həm də sahibkarı üçün müxtəlif vasitə və üsullarla var-dövlət yığan İbrahim bu istiqamətdə atdığı addımda daim Dagerin dəstəyini alırdı. Şeyx Dager də, öz növbəsində İbrahim Sabbaqdan başqa heç kəsin məsləhətini qəbul etmirdi. İstanbulla danışıqların uzandığını görən Dager müdafiə olunmaq haqqında da düşünürdü. Bu mənada, Dəməşq paşasının qoşunlarının qarşısına Dagerin oğlu Əli çıxdı və onları məğlub etdi. Bu dövr paralel olaraq, Livanda tayfa davasının arası kəsilmirdi. Bu isə regionda vəziyyətin mürəkkəb və ziddiyyətli olaraq qalmasını şərtləndirirdi. Belə ki, əmirin qardaşı narazı qüvvələri öz tərəfinə çəkmiş və qiyam qaldırmışdı. Antilivanda şihabilər sülaləsində qardaş qırğını davam etməkdə idi. Onlar, həmçinin əmir Yusif və Şeyx Dager arasındakı qarşıdurmadan yararlanmaq istiqamətində mübarizə aparırdılar. Bu qarşıdurma isə ilk növbədə İstanbul üçün əlverişli şərait yaradırdı. Osmanlı

imperiyası sabitliyi yaratmaq istiqamətində münaqişə aparan tərəflərdən məqsədyönlü şəkildə istifadə etməyə çalışırdı. Ona görə də, Osmanlı dövləti Suriyadakı proseslərə başqa bir ton verməyi qərara aldı.

1775-ci ilin mart ayında Misir hakimi Məhəmməd bəy sultanın tapşırığına əsasən 60 minlik qoşun ilə Suriyaya daxil oldu. Dageri xəyanətdə günahlandıran Məhəmməd bəy onun edam ediləcəyini bəyan etdi. İki ay müdafiə olunduqdan sonra Yaffa təslim oldu. Nə Livan əmirini, nə də şeyx Dageri yerli əhali müdafiə etmədi. Əkkənin tutulmasından sonra isə bütün şeyxlər Məhəmməd bəyin hüzuruna hədiyyələrlə gəlmək məcburiyyətində qaldılar. Əmir Yusif əhv olunmasını xahiş etsə də, buna nail ola bilmədi. Heç yerdən dəstək ala bilməyən əmir Yusif belə bir vəziyyətdə qəflətən vəfat etdi. Şeyx Dager isə Məhəmməd bəylə danışıqları davam etdirirdi. Məhəmməd bəyin Dagerlə separat danışıqlar apardığını görən İstanbul kapitan Həsən paşanı Suriyaya göndərmək məcburiyyətində qaldı. Həsən paşa Dagerdən 6 illik vergini tələb etdi. Öz oğlanları ilə məsləhətləşən Dager sonda bildirdi ki, «öz başımızın sağ qalması üçün bu gün tələb olunan məbləği vermək lazımdır, sonrasını Allah bilir». Lakin Dagerin maliyyə işlərinə baxan İbrahim Sabbaq bunun üçün kifayət qədər məbləğin olmadığını bildirdi. İbrahim Sabbaqın mövcud maliyyə imkanlarının onları vəziyyətdən çıxara bilməyəcəyini dərk etdikdən sonra Şeyx Dager özyoldaşı ilə birlikdə şəhəri tərk etmək qərarına gəlir. Lakin şeyxin mühafizə dəstəsində çalışan məqriblilərdən biri şəhərdən çıxarkən Dageri sinəsinə vurduğu güllə ilə öldürdü. Beləcə, XVIII əsrdə Şərqdə yeni bir ərəb əmirliyi yaratmaq istəyən 90 yaşlı şeyxin həyatı təklənmiş bir şəkildə başa çatdı. Öldürülmüş Dagerin başını isə sultana göndərdilər.

Dagerin övladları mumaliyələrə sığınmaqla canlarını qurtardılar. Sonradan Həsən paşa onları yanına çağırdı. Qardaşlardan yalnız Əli Həsənin qəbuluna gəlmədi. Kiçik qardaş isə Həsən paşanın hüzurunda sultan hakimiyyətini tənqid etdiyinə görə edam edildi. Digər qadaşlar isə İstanbula göndərildi, sultan iltifat göstərərək onları əhv etdi və qardaşlardan birini Ciddəyə, digərini isə Moreyaya paşa təyin etdi. Dagerin övladlarından yalnız Əli Suriyada qaldı. Lakin Suriyada davam edən qarşıdurmada Əli bəy də vəfat et-

di. Ondan əvvəl isə oğlanları vəfat etmişdi. Əlinin vəfatı ilə Suriyada Əbu Zeydanilər nəsli də kəsilmiş oldu.

1775-ci ildə Əkkə tutulduqdan sonra Osmanlı dövlətinin buradakı valisi Əhməd paşanın iqamətgahına çevrildi. Mənşəcə bosniyalı olan Əhməd paşa öz karyerasına Misirdə məmlük kimi başlamışdı. O burada çoxlu adam qırdığından ərəb dilində «qəssab» mənasını verən «cəzzar» ləqəbini almışdı. Əhməd 16 yaşında ikən gələcək həyat yoldaşına qarşı qəddar rəftar etdiyindən, nişanlısının qohumlarının təqiblərindən canını qurtarmaq üçün İstanbula qaçmağa məcbur oldu. Burada heç bir iş tapmadığından Qafqazda alver edən bir tacirə özünü muzdlu kimi satır. Beləcə o, Misir şeyxlərindən birinin yanında məmlük kimi fəaliyyətə başlayır. Onun sahibkarı bədəvi ərəblər tərəfindən öldürüldükdən sonra o, özü kimi sahibsiz qalmış məmlükdəri öz ətrafına toplayıb bədəvilərə qarşı mübarizəyə başlayır. Tezliklə o, Misirin yeni hakimi Əli bəyin qatı düşmənlərindən dördünün başını ona gətirir. Bundan sonra Əli bəy onu öz məmlükləri sırasına qəbul edir. Bir müddət sonra Əli bəy Cəzzara onun əsas rəqiblərindən biri olan Saleh bəyi öldürməyi tapşırır. Lakin Əhməd Saleh bəylə sıx dostluq əlaqələrində olduğunu bildirir. Əli bəy vəziyyətin onun xeyrinə olmadığını nəzərə alaraq, Saleh bəyə Əhmədin ona olan sadiqliyini yoxlamaq məqsədilə ona məlum təklifi etdiyini söyləyir. Nəticədə, Saleh və Əli bəy arasında münasibətlər daha da kəskinləşir. Əli bəy Saleh bəyi gəzintiyə dəvət edərək onu öldürür. Bu hadisənin şahidi olan Cəzzar, onun da Əli bəy tərəfindən öldürüləcəyini nəzərə alıb yenidən İstanbula qaçır. Lakin İstanbulda bir müddət qaldıqdan sonra Suriyaya qayıtmağa qərar verir. Həmin dövr bir-biri liə mübarizə aparan rəqiblərin fəaliyyəti Suriyada vəziyyəti xeyli gərginləşdirmişdi. Əhmədin səyi nəticəsində Dəməşq paşası onu qəbul etdi. Sayda yaxınlığındakı döyüşdə Əhməd yeni şöhrət qazandı. Ruslar Beyruta yaxınlaşanda onun müdafiəsi də Əhmədə həvalə olundu. Paşa Cəzzarın döyüş bacarığını görən bir çox bəylərin, o cümlədən Məhəmməd bəy və Əbu Dəhabın 100 min talerə Əhmədi onlara satılması təklifini rədd etdi.

Əhməd Cəzzar Beyrutu tutan kimi buradakı qalaları möhkəmləndirməyə və müdafiə məsələlərini yenidən qurmağa başladı. Bunun üçün o, istər yerli əmirlərin, istərsə də sadə camaatın əmlakından istədiyi kimi istifadə etməyə başladı ki, bu da əhalinin

ümumi narazılığına səbəb oldu. Dağlılara isə şəhərdə görünməyi qadağan etdi. Ondan narazılığın artdığını görən Əhmıəd sultandan xahiş etdi ki, Beyrut birbaşa paşanın mülkü kimi idarə olunsun. Lakin bu təklifin hansı məqsədlə edildiyini başa düşən sultan Beyrutun idarəçiliyini ona verməkdən imtina etdi. Cəzzar çıxış yolunun yalnız Beyrutu zorla birləşdirməkdə gördü və öz hərbi dəstəsinin sayını 15 minə çatdırdı. Suriyada yaranmış vəziyyətdən istifadə edən Cəzzar 1785-ci ildə mutualiyələrə hücüma keçdi və onları məğlub etdi. Əvvəllər şihabilərə qonaqpərvərlik göstərən mutualiyələr, əmir Yusifdən onlara himayədarlıq edilməsini xahiş etdilər. Lakin əksinə Cəzzarla münasibətlərin korlanacağından ehtiyatlanaraq əmir Yusif Cəzzarla yaxınlaşmağa üstünlük verirdi. O, hətta Cəzzara 1 milyon piastr ödəyərək öz tərbiyəçisi Səəd əl-Hurinin Əkkədə hakim qalmasını razılaşdırmışdı. Çünki Əkkə Cəzzarın möhkəmləndiyi əsas rayon idi. Cəzzarın əmir Yusifin bu təklifini qəbul etməkdə əsas məqsədi onunla qardaşı Bəşir arasındakı ziddiyyəti dərinləşdirmək idi. Belə də oldu. Bu da hər iki tərəf arasında Əkkəyə öz yaxın adamı olan Qanduru təyin etmək istəyən əmir Bəşir, Cəzzara iki dəfə artıq rüşvət təklif etdi. Cəzzar buna razılaşdı. Bu da hər iki tərəf arasında qanlı mübarizəyə səbəb oldu. Bu mübarizənin məntiqi nəticəsi kimi də əmir Yusif və Qandur edam edildi. Əmir Bəşirin bu addımı Livan əhalisi tərəfindən birmənalı qarşılanmadı. Belə oduqda, Bəşir narazı əhalinin qiyamını amansızlıqla yatırdı. Məkkədən həcc ziyarətindən qayıdan paşa əmir Bəşirin qoşununu daha da güclü şəkildə təmin edərək, Cəzzarın fəaliyyətinə son qoymaq əmrini verdi. Tərəflər arasında bu müharibə iki il davam etdi.

Artıq XVIII yüzilliyin ikinci yarısında Suriya və Livanda cərəyan edən proseslərin məntiqi nəticəsi kimi, artıq Avropa dövlətləri yaranmış vəziyyətdən istifadə etmək üçün əlverişli imkan qazanmış oldular. Bu faktor isə ərəb ölkələrinin, xüsusilə də Suriya, Livan və Fələstinin tarixində yeni səhifənin açılmasını səciyyələndirirdi. İngiltərə və Fransanın bu hərbi siyasi proseslərdən öz maraqları çərçivəsində istifadə etmək istiqamətində atdığı addımlar isə, Osmanlı dövləti daxilindəki bu lokal müharibələrin böyük siyasətə keçməsi üçün zəmin yaratmış oldu. Nəticədə, Avropa dövlətləri Osmanlı dövlətinin ən həssas rayonunda özlərinə müttəfiq

və sosial baza yaratmağa müvəffəq oldular. Bu mənada Napoleon Bonapartın Suriyaya yürüşünün də məhz bu dövr seçilməsi təsadüfi deyildi.

*Napoleon Bonapartın Suriyaya yürüşü*

Fransadan uzaq məsafədə qalan Napoleon Ön Asiyaya yürüş etməyi qərara aldı. Bu yürüşü həyata keçirmək, onu müvəffəqiyyətlə başa çadırmaq üçün o, Suriya feodalları ilə sıx əlaqələrin qurulmasını məqsədəuyğun hesab edirdi. Bu məqsədlə, həmin istiqamətdə müvafiq təlimatlar vermişdi. Hakimiyyətə gəldiyi ilk dövrdə Napoleon Taleyrandan Fransanın uğurlu xarici siyasət yeritməsi üçün ilk növbədə hansı məsələnin daha vacib olduğunu soruşduqda, o xaricdə yaşayan fransız ailələrinin bu işə cəlb edilməsi cavabını vermişdi. Bu mənada, Napoleonun Misirdəki qələbəsində həmin fransız ailələrinin rolu az olmamışdı. Napoleon Suriya yürüşündə də belə bir dəstəyi alacağına, xüsusilə də onun bütün müvafiq məlumatlarla təmin ediləcəyinə əmin idi. Lakin gözlənildiyinin əksinə olaraq Əkkənin müdafiəsində fransız mühacirləri, eləcə də III Səlimin fransız təlimatçılarının təlim keçdiyi birinci korpus iştirak edirdi.

Fransızların Suriyaya yürüşü 20 fevral 1799-cu ildə əl-Ərişin tutulması ilə başlanmışdı. 30 minlik fransız ordusu asanlıqla Əl-Əriş qalasını, Qəzzəni, Yaffanı və Xeyfəni tutaraq mart ayında Əkkə divarlarna yaxınlaşdı. Sultan xətti-şərif (xətti-şərif – müqəddəs fərman mənasını verir, sultanın şəxsən imzaladığı fərmanlar xətti-şərif adlanırdı)imzalamaqla Suriya və Livanı ümumi düşmənə qarşı mübarizəyə və birləşməyə çağırdı. Lakin regionda gedən proseslər sultanın xalqa müraciətində əhalinin bu çağırışa etinasızlıq göstərdiyini aydınlaşdırdı. Belə ki, Misirdə məmlüklərin özbaşınalığı, Ərəbistanda vəhhabilərin yerlərdəki və qonşu tayfalara qarşı apardığı müharibələr, Suriya və Livanda isə sonu görünməyən hakimiyyət uğrundakı mübarizələr, dağlıların bir-birlərinə qarşı düşmən mövqe nümayiş etdirməsi sultanın müraciətinin əhəmiyyətini faktiki olaraq heçə endirmiş oldu. Bununla belə Napoleon Bonapart da yerli əhalinin müqavimətini minimuma endirmək məqsədilə yerli tayfalara müraciət edir, yürüşünün məqsədinin onların dininə qarşı mübarizə aparmaq deyil, onları

Osmanlı zülmündən azad etmək olduğunu təlqin etməyə çalışırdı. Bu məsələdə o, Misirdəki vəziyyəti xüsusi vurğulayırdı.

Belə bir vəziyyətdə, yenə Cəzzarın mövqeyi ön plana çıxdı. Belə ki, iki dəfə - 1780 və 1790-cı illərdə - Dəməşqə paşa təyin olunan Əhməd Cəzzar fransızların yürüşü ərəfəsində xalq tərəfindən qovulmuşdu. Lakin o, Dəməşqə paşa kimi qayıtmaq uğrundakı mübarizəsindən əl çəkməmişdi. Buna zəmin yaradan faktor isə onun həmin dövr İstanbul tərəfindən dəstəklənməsi idi. O, Misir və Suriyadan fransızları qova biləcək tək hakim kimi qələmə verilirdi. Onun belə canfəşanlıq etməsində əsas məqsəd isə, ilk növbədə, Yaffanı möhkəmlətmək, əhalini zorla silahlandırmaqla daha 10 minlik qoşuna sahib olmaq, öz rəqiblərinə qəti və son zərbə endirmək, Suriya və Livanda özünün mütləq hakimliyini bərqərar etmək idi. O, bu məqsədlə Dagerin Əkkədə başlamış olduğu möhkəmləndirmə işlərini başa çatdırmaq və buraya özünün bosniyalı, alban, kürd, məğribli basqınçılarını toplayaraq, paşalığa onlar tərəfindən edilən hücumların qarşısını almaq istəyirdi.

Lakin Yaffa fransızların hücumunun üçüncü günü 7 mart 1799-cu ildə alınmışdı. Buna səbəb isə Fələstin tayfalarının bu müharibədə yalnız müşahidəçi olması idi. Napoleonun Qüdsü tutmaması isə onun Suriyada daha güclü mövqelər formalaşdırmaq məqsədindən irəli gəlirdi. Belə bir vəziyyətdə Fransa ilə rəqabət aparan İngiltərə Əkkənin müdafiəsinin təşkilinə diqqəti artırdı və bu məqsədlə admiral Sidney Smiti (Vilyam Sidney Smit (1764-1840) hərbi xidmətə 1777-ci ildə donanmada başlamışdı. 1790-cı ildə İsveç donanmasında xidmətdə olarkən rus-isveç müharibəsində və İngiltərə donanmasının Franşaya qarşı əməliyyatlarında iştirak etmişdi. 1798-ci ildən etibarən admiral Nelsonun komandanlığı altında ingilis donanmasında xidmət edirdi. Bu xidmət yerindən də Əkkənin müdafiə olunması üçün Suriyaya ezam olunmuşdu. Sonradan 1800-cü ilin yanvarında bağlanmış əl-Əriş barışığının imzalanmasında iştirak etmişdi.) regiona ezam etdi. Smit isə burada əsas müttəfiq kimi İstanbulun dəstəklədiyi Əhməd Cəzzarı qəbul etdi. Ona görə də o, dənizdən Əhmədə yardım etməklə bərabər, Əkkə qalasında artilleriyanın gücləndirilməsini təşkil etdi. Bu məqsədlə o, hətta öz topçularını da Cəzzarın xidmətinə göndərdi.

Belə bir zəmində, fransız ordusunda vəba xəstəliyi baş verdi. Napoleon 70 gün Əkkəni mühasirədə saxlasa da, onu qələbə ilə başa çatdıra bilmədi və Misirə dönmək məcburiyyətində qaldı. Heç də az əhəmiyyət daşımayan digər səbəb isə ərəblərin güclü müqaviməti deyil, ingilislərin qalanı dənizdən hərtərəfli şəkildə qoruması olmuşdu. Napoleonun Əkkə uğursuzluğu Avropada Osmanlı dövlətinin və bütün Asiyanın xilası kimi qəbul olundu.

Fransızların hücumunun qarşısı alındıqdan sonra Əhməd Cəzzar yarımçıq qalmış siyasətini tamamlamaq üçün əlverişli vəziyyətə sahib olmuşdu. O, Napoleonun Suriyadakı məğlubiyyətini öz adı ilə bağlayırdı. Dünyanı fəth edən böyük bir sərkərdə üzərində qələbə çalması ilə qürrələnirdi. Bu isə artıq Cəzzarın Suriya və Livanda yenidən hegemonluğa başlamasına işarə idi. Bu səbəbdən də baş vəzir 100 minlik qoşunla Suriyaya doğru hərəkət etdi. İstanbul Cəzzarın tiran şəxsiyyətinin, hegemonluq iddialarının qarşısını almaq üçün Livan əmirini əhv etdiyini, Cəbəl-Druz, Antilivan, Bəəlbək və Bəkaa vadisinin, eləcə də Cubeylə vilayətinin və mumualiyələrin əyalətinin idarəçiliyinin ona həvalə olunduğunu bildirdi. Baş vəzir, həmçinin əmirə məanidlərin qədim hüquqlara malik olduğunu və onun birbaşa İstanbuldan asılı olduğunu, onun yalnız idarə etdiyi ərazilərdən Osmanlı paşasına vergi və bac verməyinə dair öhdəlik götürəcəyini də onun nəzərinə çatdırdı. Cəzzar isə baş vəzirin qəbuluna gəlmədi. Əksinə Əkkədə oturub Suriyada qonaq olan vəzirin nə vaxt Dəməşqi tərk edəcəyini gözlədi. Vəzirin Dəməşqdən çıxması ilə Cəzzarın Suriyada fəaliyyəti yenidən intensivləşdi. Ümumiyyətlə Cəzzarın vəfatınadək Suriya və Livanda gedən bütün proseslərdə onunla bütün rəqibləri və müttəfiqləri hesablaşmaq məcburiyyətində qaldı. 1804-cü ilin aprelində Əhməd Cəzzar vəfat etdi.

Cəzzarın ölüm xəbəri bəlli olan kimi Hələb paşası İbrahimə əmirin əmlakının və irsinin qeydiyyata alınmasına dair tapşırıq verildi. Lakin o gecikmişdi. Belə ki, Cəzzarın qoşun komandanı-qərargah rəisi Süleyman paşa, öz hakiminin ölüm xəbərindən orduda qiyam qalxa biləcəyi ehtimalını nəzərə alaraq, Cəzzarın həbs etdiyi İsmayılı qeyri-qanuni olaraq paşa elan etdi. Belə bir qərarın isə guya Cəzzar tərəfindən vəsiyyət edildiyini bildirdi. Bu qərar baş tutdu. İsmayıl paşanı həm türk yeniçəriləri, həm də məmlüklər qəbul

etdilər. Lakin İstanbul tərəfindən İsmayıl paşa rəsmən tanınmadı. Vəziyyəti belə görən İsmayıl Əkkə qalasında müdafiə olunmağa çalışdı. Lakin İsmayılın bütün cəhdləri müvəffəqiyyətsizliyə uğradı. Yalan və aldatmalarına görə onun başı kəsilərək İstanbula göndərildi. Lakin Cəzzarın var-dövlətinin yeni sahibinin müəyyən olunması bir qədər də gecikdi. Belə ki, İsmayılın öldürülməsindən sonra Cəzzarın tərəfdarları Əkkə qalasına topla-naraq, onların haqlarının ödənilməsini və varidatın bölüşdürülmə-sində onların maraqlarının nəzərə alınması tələbi ilə çıxış etdilər. Yaranmış vəziyyətdə, Cəzzaran maliyyə işlərinə baxan yəhudi Xaim bu məsələni öz maraqları çərçivəsində həllinə nail oldu. İstanbulun səlahiyyətli nümayəndələri ilə qaladakılar arasında vasitəçiliyi öz üzərinə götürən Xaim ona müəyyən miqdarda pul ödənilməsi müqabilində bir paşanın varidatı digərinə verildi. Əslində bu prosesin həyata keçirilməsi Cəzzarın vasitəçiliyi olmadan reallaşdırmaq qeyri-mümkün idi. Çünki Cəzzarın bütün maliyyə işlərini aparan bir şəxs kimi həmin varidatın və irsin harada nə qədər olmasına dair dəqiq məlumatı yalnız o bilirdi. Bununla belə, Cəzzarın bütün varidatı İstanbula qismət olmadı. Belə ki, onun yerlərdəki var-dövlətinin bir qismi qoşun hissələrinə paylandı digər bir qismi oğurlandı, bir his-səsi isə ümumiüyyətlə tapılmadı. Nəticədə, isə Xaim İstanbula onun müxtəlif dövrlərdə vergi və bac ödədiyini təsdiqləyən sənədləri təqdim etdikdən sonra, Süleyman paşa 150 min gümüş pul ödəməklə əmirliyin idarəetmə hüquqlrına sahib oldu.

Dəməşqdə isə hadisələr daha sürətlə cərəyan edirdi. Belə ki, sultan zəvvarların Məkkəyə ziyarətə getməsinə böyük maneçilik törədən vəhhabilərin qarşısını almaqda acizlik göstərdiklərinə görə bir paşanı digəri ilə əvəz edirdi. 300 minlik hərbi dəstəyə malik olan vəhhabi rəhbərləri Səudun başçılığı ilə Məkkəni tutdular, sultanın təyin etdiyi və Məhəmməd peyğəmbərin nəslindn olan şərifi qovaraq, Osmanlı imperiyasının hakimiyyətini tanımadıqlarını bildirdilər. Onlar eyni zamanda Suriya və Livandan gələn zəvvarların Məkkəni ziyarət etməsinə icazə vermir, bunun üçün böyük məbləğdə pul tələb edirdilər. Hətta paşalar özləri Məkkəni ziyarət etmək üçün vəhhabilərə, onların tələb etdiyi məbləği ödədikdən sonra həcc ziyarətini həyata keçirirdilər. Belə bir vəziyyətdə, İstanbul vəhhabilərə qarşı mübarizədə ad çıxar-mış Gənc Yusifi Dəməşqin

paşası təyin etdi. Lakin Gənc Yusif İstanbulun ümidlərini doğrultmadı. Bununla belə o, qiyam qaldırmış yeniçəri və ismaililərin çıxışlarını yatıra bildi. Belə qiyamçılardan biri də GəncYusifin hakimiyyətini qəbul etməyən Mustafa Bərbər idi. Gənc Yusif ona qarşı hərbi əməliyyatlara başladı. Gənc Yusif üzərində qələbə qazana bilməyəcəyini görən Mustafa Əkkə paşasının yanına qaçdı. Yeni Dəməşq paşasında Cəzzarın xarakterini görən İstanbul onu Rusiya ilə aparılan müharibədə iştirak etməsi üçün Qafqaz cəbhəsinə göndərməyi məqsədəuyğun hesab etdi. Lakin Gənc Yusif bununla razılaşmadı və o, əsas vəzifəsinin vəhhabilərə qarşı mübarizə aparmaq olduğunu bildirdi. Belə olduğu halda İstanbul Süleyman paşaya Dəməşqə doğru hərəkət etmək tapşırığı verdi. Gənc Yusif çox müqavimət göstərə bilmədi və başçılıq etdiyi qoşunun xəzinəni qarət edəcəyindən ehtiyatlanaraq, onu götürüb Əntakyaya, oradan isə Misir hakimi Məhəmməd Əlinin yanına qaçdı və tezliklə 1815-ci ildə vəfat etdi. Süleyman paşa Dəməşqi tutduqdan sonra Mustafa Bərbəri Trablis hakimi təyin etdi. Son illər Fələstinin sahil rayonlarında Məhməd bəy Əbu Nabut qiyam qaldıraraq heç bir hakimiyyəti tanımırdı. Vəfatı ərəfəsində Süleyman paşa İstanbulun icazəsi ilə ona qarşı qoşun göndərdi. Müqavimət göstərməyə qabil olmayan Əbu Nəbut da 1819-cu ildə Misirə Məhəmməd Əlinin yanına qaçmaq məcburiyyətində qaldı. Məhəmməd Əli sultandan və Salonik paşasından onun əhv edilməsini xahiş etdi və Fələstinin sahil rayonlarının Əkkə paşalığının tərkibinə daxil edilməsinə nail oldu. Əmir Bəşirə rəğbət bəsləyən Süleyman paşa isə Bəkaa vadisinin onun əmirliyinə birləşdirilməsini həyata keçirdi. Süleymanın həyata keçirdiyi siyasət yerlərdə yeni əmirə xalqın etimadını artırmış oldu. Digər tərəfdən, əmir ona mənfi müasibətdə olan vassalların torpaqlarını əllərindən alaraq, onların övladlarına xəzinədən daimi məvacib kəsdirdi ki, narazılıq artmasın və o loyallaşdırılsın. Bu hadisələrin gedişinin məntiqi nəticəsi olaraq, hakimiyyət sahibi olmuş Süleyman paşa sonrakı 15 il ərzində Livanda öz hakimiyyətini möhkəmləndirməklə bərabər, ölkədə sabitliyi bərqərar etməyə müvəffəq oldu.

Bu dövr Livan və Suriyanın ictimai-siyasi həyatında özünə yer alan əsas hadisələr sırasına şihabilər nəslinin xristianlığı qəbul etməsi idi. Şihabilərin siyasi nöqteyi-nəzərdən, yaxud hər hansı digər

məqsədlə xristianlığı qəbul etməsi, hələlik tarixşünaslıq üçün açıq qalır. Bununla belə, şihabilərin apardıqları siyasi mübarizənin mahiyyət və məzmununu nəzərə alaraq bəzi arqumentləri qeyd etmək mümkündür. Livan faktiki olaraq, druz və xristianların əlində idi. Belə bir vəziyyətdə, şihabilər mövcud qüvvələr nisbəti və bu nisbət arasındakı balansı müəyyən etmək məcburiyyətində idi ki, apardıqları mübarizəni qələbə ilə başa çatdıra bilsinlər. Bu mənada, druzların tərəfinə keçmək şihabilər üçün əlverişli deyildi. Çünki həmin dövr druzların özləri siyasi birliyə ehtiyac duymaqla bərabər, onların malik olduqları təlim mükəmməl deyildi. Müxtəlif dinlərin müəyyən arqumentlərini əsassız şəkildə özündə cəm edən druz siyasi və mənəvi dünyagörüşü şihabilərin dünyagörüşü ilə tam tərs mütənasib idi.

Livan xristianları arasında maronilər daha qədim və çoxsaylı idi. Kəsruanda feodal əyanlığı formalaşdırmağa nail olan maronilər siyasi cəhətdən xeyli inkişaf etmişdilər. Xristianlığın əsaslarına qarşı çıxan maronilərin gənc nəsli artıq Roma papalığının təsiri altında idi. Onların katolik təliminə dönəcəkləri prosesinin başlanmasının əsası qoyulmuşdu. Bununla belə, ilk dövrlər şihabilər xristianlığı açıq qəbul etməkdən qorxmuş və çəkinmişlər. Çünki belə bir hal mövcud qanuna əsasən qəbuledilməz və yolverilməz idi. İslam dininə mənsub olan şəxsin digər dinlərə itaət etməsi şəriətin müvafiq tələblərinə əsasən cəzalandırılırdı. Bu qanun, hətta mürtədlərə, yəni xristianlığı atıb islamı qəbul etmiş müsəlmanlara da şamil edilirdi.

Qeyd edək ki, 1844-cü ildə Avropa dövlətlərinin İstanbul görüşündə bu məsələyə münasibət bildirildi. Burada qanunun Osmanlı dövləti tərəfindən yumşaq formada təqdim olunması qərara alındı. İstanbul xristianlığı qəbul etmək istəyən mürtədləri edam etməmək öhdəliyi götürür və onların xristianlığa qayıtmalarını məcburiyyət qarşısında atılan addım vəziyyətinə gətirməyəcəyinə dair təminat verirdi. Vəziyyəti nəzərə alan Osmanlı dövləti öz tərəfindən bütün millətlərə vicdan azadlığının verildiyini bəyan etdi. Buna səbəb XIX əsrə qədər Osmanlı dövlətində dini məsələləri həll edən və bu sahədəki prosesləri nəzarətdə saxlayan vahid bir dövlət qurumunun olması idi. Bununla belə Osmanlı dövlətində dini məsələlərin həllinə yeni yanaşma artıq dövlət siyasətində vacib və mühüm tələbə çevrilirdi.

Beləliklə, mövcud vəziyyəti nəzərə alaraq, şihabilər gizli olaraq xristianlığı qəbul etməyə başladılar. Şihabilərin ardınca onların yaxın qohumları olan və varlı Mətən vilayətinin maroniləri məskunlaşmış Kəsruan rayonunda Əbu Lama druz əmirləri də xristianlığın maroni təlimini qəbul etməyi üstün tutdular. Qeyd edək ki, sonradan xristianlığı qəbul etmiş şihabilər və Əbu Lama nəslinin nümayəndələri xristian adlarını deyil, müsəlman adlarını saxladılar və belə vəziyyət bu gün də davam edir.

Əmirlərin xristianlığı qəbul etməsi Suriya üçün böyük siyasi əhəmiyyət daşıyırdı. Onların xristianlığı qəbul etməsindən sonra maroni tayfaları nəinki bütün digər tayfalar üzüründə üstünlüyü ələ keçirmiş oldular, eyni zamanda Avropanın diqqətini özlərinə çəkməyə müvəffəq oldular ki, bu da, ilk növbədə, Osmanlı dövlətini narahat edən başlıca məsələlər sırasında özünə yer almış oldu. Çünki məhz bundan sonra Avropa ölkələri Osmanlı dövlətindən maronilərə müstəqil fəaliyyət göstərmələri üçün müvafiq şəraitin yaradılmasını tələb etməyə başladılar. Məsələyə dini münasibətdə isə vəziyyət bir qədər başqa cür idi. Belə ki, həmin dövr kifayət qədər özünə möhkəm yer ala bilməyən bu hal ilk növbədə əmirlərin ailələrində və cəmiyyətdə onlara olan münasibətdən irəli gəlirdi. Görünür buna görə idi ki, əmir II Bəşirin hakimiyyətdən uzaqlaşdırılması və onun ailəsinin İstanbula və Ön Aisyaya köçməsindən sonra, onun nəvə və nəticələrinin xristian ailəsində doğulmasına baxmayaraq, onlar 1845 və 1846-cı illərdə islam dinini qəbul etdilər.

*Əmir II Bəşirin islahatları*

Qeyd etdiyimiz kimi, bu dövr Livanda ictimai-siyasi vəziyyət kifayət qədər ziddiyyətli və mürəkkəb idi. Belə bir vəziyyətdə ,əmir II Bəşir mərkəzləşdirilmiş dövlət qurmaq istiqamətində islahatlar həyata keçirməyə səylər göstərdi. II Bəşirin Məhəmməd Əli, Davud paşa və digər islahatçılar kimi nizami ordu qurmamasına, məktəblər açmamasına, fabrik və zavodlar tikdirməməsinə baxmayaraq, onun fəaliyyəti proqram xarakterli olmuş və nəticə etibarilə ölkənin iqtisadi inkişafına təkan vermişdi. II Bəşiri adətən Yavuz adlandırırdılar. Bu onun kifayət qədər ciddi və tələbkar olmasından irəli gəlirdi. Bu da onun qəti şəkildə mərkəzləşdirilmiş dövlət yaratmaq, feodal özbaşnalığının qarşısını almaq və anarxiyaya son qoymaq məqsədini güdürdü.

Bunun üçün isə kifayət qədər sərt xarkterə malik olmaq vacib amillərdən biri idi.

O, Livanın bir sıra nüfuzlu feodal ailəsininin ölkədə yaratdıqları özbaşnalığın qarşısını almaq üçün onların torpaqlarını öz sahələrinə birləşdirdi. Həmin siyasət XIX yüzillikdə də davam etdirilmiş, məğlub olmuş feodalların əmlaklarını öz oğlanları arasında bölüşdürmüşdü. Cəzzarın vəfatından sonra isə Livanın şimalındakı Cubeylə əyalətini öz torpaqlarına birləşdirdi. Bunun ardınca o, Bəkaa vadisini də öz torpaqlarına qatmaqla faktiki olaraq idarə etdiyi ərazilərin çörəklə təminatını həll etməyə müvəffəq olmuşdu. Cənubi Livanda iri feodalların torpaqlarını onların əlindən alan II Bəşir, bu torpaqlara ölkənin şimalından maroni tayfalarını köçürdü. Bunun əvəzində maronilər ona çox məbləğdə icarə haqqı verərək bu torpaqlarda tut ağacları əkir və ipəkçiliklə məşğul olurdular. Bununla belə II Bəşir Kəsruanın maroni feodallarının da özbaşınalığının qarşısını alan tədbirlər gördü.

Apardığı bu siyasətin nəticəsində II Bəşir yollarda təhlükəsizliyin təmin olunmasına nail oldu ki, bu da həmin dövr əsas məsələlərdən biri idi. Çünki bu məsələ həll edilmədən ticarətin intensiv olaraq aparılması qeyri-mümkün idi. Bundan sonra, ticarət yeni vüsətlə inkişaf etməyə başladı ki, bu da II Bəşirə kəndlilərin vergilərini bir qədər azaltmağa imkan vermiş oldu. Müsəlman olan II Bəşirin xristianlığı qəbul etməsi yenə onun qarşıya qoymuş olduğu məqsədə nail olmaq niyyətindən irəli gəlirdi. Əslində II Bəşirin xristianlığı qəbul etməsi ilə əlaqədar ortaq məxrəc yoxdur. Çünki əgər katolik kilsəsi onu dəymədüşər xristian kimi qələmə verməyə çalışırdısa, II Bəşir üçün həqiqətdə hər hansı bir şəxsin xristian, yaxud müsəlman olması prinsipial xarakter daşımırdı. II Bəşirin də yanında olmuş Fransanın görkəmli xadimlərindən biri Lamartin, bu məsələyə münasibətdə bildirmişdi ki, II Bəşir druzla druz kimi, xristianla xristian kimi, müsəlmanla müsəlman kimi dostdur. Bu bir daha sübut edir ki, II Bəşir öz məqsədi naminə ikili standartlar siyasəti yeritmişdir.

II Bəşirin vergi yığmaq istiqamətində şəxsən atdığı addımlar əhalidə Cəzzar dövrünün yenidən qayıtması təsəvvürü yaratdığından, faktiki olaraq açıq şəkildə etiraz çıxışlarına səbəb oldu və 1820-ci ildə üsyan baş verdi. Bu üsyanın başlamasına dair qərar Livanın

şimalındakı Antalius kəndində altı min kəndlinin iştirak etdiyi toplantıda verilmişdi. Nəticədə, II Bəşir qaçmaq məcburiyyətində qaldı. Onun yerinə təyin olunmuş iki əmir də vergiləri yığa bilmədiyinə görə Abdulla II Bəşiri yenidən hakimiyyətə qaytardı. Yenidən hakimiyyətə qayıdan II Bəşir Cubeylə rayonuna gəldiyi zaman onun düşərgəsi üsyançılar tərəfindən mühasirəyə alındı. Yalnız nüfuzlu druz feodalı şeyx Cumbulatın ona yardım və dəstək verməsi nəticəsində II Bəşir vəziyyətdən çıxdı və üsyanı yatıra bildi.

II Bəşir belə təsəvvür yaratmışdı ki, onsuz Livanın idarə edilməsi qeyri-mümkündür. Belə bir qənaət müəyyən dərəcədə Avropada da formalaşmışdı. Lakin burada bir faktoru nəzərdən qaçırmaq olmaz. Bu da əmir II Bəşirin iki dəfə 1804-cü ildən 1819-cu ilə və 1832-ci ildən 1840-cı ilə qədər hakimiyyətdə olduğu dövrdə onun Süleyman paşa və Məhəmməd Əli kimi hərbi-siyasi xadimlərdən dəstək və yar-dım alması idi. Bu isə əmirin fəaliyyətinin bu iki dövr kontekstində, ümummiyətlə ziddiyyətli olduğunu söyləməyə əsas verir. Bu mənada onun hakimiyyətinin birinci dövründə həyata keçirmək istədiyi islahatlar da tarixdə özünə yer almışdır.

*XIX əsrin 20-ci illərində Suriya, Livan, Fələstin*

1819-cu ildə Əkkə paşası Süleyman özündən sonra varis kimi ordusunun qərargah rəisi Əli bəyi təyin etmişdi. Vaxtilə özü də Cəzzarın ordusunda qərargah rəisi olmuşdu və görünür Əli bəyi öz varisi seçməklə bu ənənəni davam etdirmək istəmişdir. Lakin Əli bəy hələ onun sağlığında vəfat etdiyindən o, paşalığa sahib olmaq istəyən Abdulla bəyi öz varisi elan etmək məcburiyyətində qaldı. Digər tərəfdən Abdulla paşa olmaq üçün Cəzzar və Süleyman paşanın xəzinədarı və onun bütün maliyyə məsələlərini həll edən yəhudi Xaim ilə müqavilə bağlamışdı. Çünki Süleyman paşanın var-dövləti bu adama miras qalmışdı. Qulaqları və burnunun kəsilməsinə baxmayaraq, o yenə bütün maliyyə məsələlərini uğurla yerinə yetirirdi. Xaimin İstanbulda sultan sarayında çox güclü əlaqələri var idi və Abdulla bəy Əkkə paşası olmaq üçün bu əlaqələrdən istifadə etmək istəyirdi. Belə də etdi. Sultanın müvafiq fərmanını aldıqdan sonra Xaim Abdulla paşanın yalnız 3 il xidmətində qala bildi. Xaimin qohumlarının Livan əmirinə qulluq etməsindən qəzəblənən

Abdulla paşa qoca Xaimin qətlə yetirilməsi qərarını verdi və onun milyonlarına özü sahib oldu. Müasirləri Abdulla paşanın bu addımına görə də onu Cəzzarla eyniləşdirirlər.

Qeyd edək ki, Abdulla paşa 26 yaşlı bir gənc olsa da, poetik istedada malik, qorxmaz, cəsur döyüşçü adı almış bir siyasətçi idi. Bundan başqa o, özünün əlyazma nümunələri, yəni gözəl xəttatlığı ilə də ad çıxarmışdı. Belə əlyazmalar sırasında onun şəxsən Sultan II Mahmuda təqdim etmək üçün yazmış olduğu Quran-i Kərim xüsusi yer tutur. II Mahmud və Məhəmməd Əlini təqlid edərək o, öz məmlüklərindən nizami piyada hərbi dəstəsi yaratmağa müvəffəq olmuşdu. Qeyd edək ki, Abdulla sultan hökumətinə loyal münasibətdən çıxış edirdisə də, ona qarşı edilən qiyamların yatırılmasında iştirak etməmişdi. Çünki o, onun üçün paşalığı almış iltizamçının əlində idi. Yəni ondan asılı idi. Ona görə də iltizamçı ondan hər dəfə pul tələb edəndə o, Livan əhalisinin vergilərini qaldırırdı. Belə bir vəziyyətdə Livan əhalisinin ondan narazılığı artdı və vergiləri ödəməkdən boyun qaçırdılar. Bu isə bir başa II Bəşirin maraqlarına və mövqeyinə zidd idi.

XIX əsrin 20-ci illərində Suriyada və Fələstində II Mahmudun həyata keçirdiyi islahatlarla əlaqədar olaraq narazılıqlar baş qaldırmışdı. Əsasən dini əhval-ruhiyyədə olan xalq kütləri sultanı xəyanətdə günahlandırırdılar. Buna səbəb sultanın avropalaşma istiqamətində həyata keçirdiyi islahatlarda Avropaya xas geyim dəstlərindən istifadə edilməsinə dair imzaladığı fərman idi. 1826-cı ildə o, rəsmən yeniçəri korpusunu və hərbi len sistemini ləğv etdi. Buna cavab olaraq İstanbuldakı yeniçəri korpusu üsyan etdi. 15 iyun 1826-cı ildə onlar etiraz əlaməti olaraq, mərkəzi meydana toplaşdılar. Lakin sultan üsyançıların toplaşmış olduğu meydanı artilleriya ilə mühasirəyə alıb atəşə tutmaqla və yeniçərilərin kazarmalarını yandırmaqla bu qiyamı yatıra bildi. Bunun ardınca sultan əyalətlər-dəki yeniçəri dəstələrini ləğv etdi. Analoji addım yeniçəriləri himayə edən dərviş-bəktaşilərə qarşı da atıldı. Bəktaşilərin dərviş ordeni buraxıldı. Yeniçərilərlə bağlı olan sənətkar sexləri də tam yenidən qurulmaq məcburiyyətində qaldı.

Bütün bunlar şəhər əhalisi, sənətkarlar və tacirlər arasında narazılığa səbəb oldu. Çünki islahatların həyata keçirilməsi üçün tələb olunan maliyyə məsrəfləri məhz şəhər əhalisi, xüsusilə də

müxtəlif sahələri əhatə edən sənətkarlar, onların sexlərində istehsal olunan malların satışından əldə olunan gəlir hesabına aparılırdı. Bunun nəticəsi kimi əmək haqları aşağı düşməklə bərabər vergilərin həddi yüksəlirdi. İqtisadi vəziyyətin ağırlaşması, islahatların əsl mahiyyət və məzmununun başa düşülməməsi, eləcə də dərvişlərin əks təbliğatı nəticəsində xalq kütlələri etiraz hərəkatına başladılar. Suriyada bu etirazlar Hələb və Dəməşqdə daha yüksək olmuşdu. 1825-ci ildə dövriyyəyə yeni pulların buraxılması ilə əlaqədar iri miqyaslı etirazlar baş verdi. Həmin il həm də Qüdsdə, Vifleyemdə və Nəblusda üsyanlar baş verdi. Əhali vergi ödəməkdən boyun qaçırırdı. 1830-cu ildə Nəblusda, 1831-ci ildə isə Dəməşqdə yeni üsyanlar baş verdi. Qeyd edək ki, bütün bu çıxışlar ilk növbədə sultan hökumətinə qarşı siyasət yeridən Misir hakimi Məhəmməd Əlinin xeyrinə idi. Belə ki, İstanbulun Şərq rayonlarını Misirə birləşdirmək istəyən Məhəmməd Əli yaranmış vəziyyətdə öz məqsədlərini həyata keçirmək üçün əlverişli imkanlar əldə etmiş olurdu. Buna görə də 1831-ci ildə Məhəmməd Əli Suriyaya yürüş edəndə əhali onu alqışlarla qarşılamışdı.

*Məhəmməd Əlinin Suriya kampaniyası*

Misirin İstanbuldan müstəqilliyinə çalışan Məhəmməd Əli imperiyada yaranmış vəziyyəti, xüsusilə də Suriyada əhalinin İstanbuldan narazılığını nəzərə alaraq, 1831-ci ildə bu ölkəyə yürüş etdi. Osmanlı qoşunları ilə döyüşdə əvvəldən üstünlük Məhəmməd Əlinin tərəfində idi. Buna səbəb həm də turk ordusunun ruslarla apardığı müharibədə apardığı idi. Misir ordusu isə daha yaxşı silahlanmış və mükəmməl təchiz olunmuşdu. Bundan başqa, Suriyada yerli əhali də misirlilərə kömək və yardım edirdilər. Məhəmməd Əli Ərəbistanda, Sudanda və Yunanıstandakı qələbələrdən sonra Suriyaya yürüş edirdisə türk ordusu ruslarla məğlubiyyətdən sonra ağır depressiya vəziyyətində bu müharibəyə girirdilər. Təzminatla bağlı vergilərin artırılması isə faktiki olaraq imperiyanın hər yerində sultan hökumətinə qarşı etirazları artırmışdı. İstanbul Məhəmməd Əliyə qarşı müharibəyə başlamaqda tərəddüd edirdi. Yalnız 1832-ci ilin mart ayından etibarən Osmanlı dövləti ciddi şəkildə bu müharibəyə hazırlaşmağa başladı və həmin il aprelin 23-də Məhəmməd Əli qiyamçı elan edilərək, onun tutduğu vəzifədən uzaqlaşdırılmasına dair fərman

imzaladı ki, bu da faktiki olaraq müharibə elan edilməsinə bərabər idi.

1831-ci ilin oktyabrında İbrahim paşa (Məhəmməd Əlinin oğlu) yürüşə başladı. Qeyd etdiyimiz kimi o, heç bir müqavimətə rast gəlmədən Qəzzə, Yaffa və Xeyvənı tutdu. 1831-ci ilin noyabrında isə İbrahim paşa Əkkə qalasına yaxınlaşdı. Altı ay davam edən mühasirədən sonra ,yəni 26 noyabr 1831-ci ildən-1832-ci ilin may ayınadək davam edən mühasirədən sonra Əkkə qalası alındı. Bu zaman İbrahimin başçılıq etdiyi Məhəmməd Əlinin əsas qüvvələri şimalda idi. Bu da təsadüfi deyildi. Çünki türklərlə döyüş məhz bu rayonda olacaqdı. Osmanlı qoşunları ilə ilk döyüş 8 iyun 1832-ci ildə Həməs şəhəri yaxınlığında baş verdi. Bu döyüşdə hər iki tərəfdən 10 min nəfərlik qoşun iştirak edirdi. Həlledici hərbi əməliyyatlar axşam baş verdi. Döyüşün ertəsi günü müharibənin taleyi artıq İbrahimin xeyrinə həll edilmişdi. Doqquz paşanın rəhbərlik etdiyi Osmanlı qoşunu 3 min itki, 2 min nəfər əsir verərək məğlub oldu. Ordunun bütün müasir artilleriyası misirlilərin əlinə keçdi. Osmanlı ordusu böyük itki verdi. Belə ki, geri çəkilən Osmanlı hərbçilərinə yerlərdə də gözlənilməz hücumlar edilirdi. Ordunu yenidən təşkil edib Hələbə tərəf hərəkət edən türk komandanlığı İbrahimin yürüşünün qarşısnı almaq istəyirdi. Lakin türk komandanlığı buna müvəffəq olmadı.

Həmin dövr Dəməşq kimi Hələb də özünün qaynarlığı ilə fərqlənən Osmanlı şəhərlərindən biri idi. Burada əsasən iki qrup qarşı-qarşıya dururdu: əmirlər və yeniçərilər. Bu iki qrup arasında mövcud olan ziddiyyət və qarşıdurma Osmanlı hökumətinə burada manevr etmək imkanı verirdi. Bundan sonra İbrahim paşa Həmanı, Hələbi tutaraq, Əntakya və Aleksandretta arasında yerləşən Beylanın dağ keçidinə yollandı. Bu keçidin alınması Ön Asiyanın işğalına geniş imkanlar açardı. Məhz burada Osmanlı dövləti ordusunun əsas qüvvələri yerləşirdi. Bu qüvvələrə sərdari əkrəm Hüseyn paşa başçılıq edirdi. 29 iyul 1832-ci ildə İbrahim paşa Osmanlı qoşunlarını məğlub etdikdən sonra bütün Suriya misirlilərin əlinə keçmiş oldu. Hüseyn paşa isə Ədənəyə qaçmaq məcburiyyətində qaldı. Sultan ordu komandanı Hüseyn paşanı Məhməd Rəşid paşa ilə əvəz etsə də, bu hərbi əməliyyatların gedişinə təsir etmədi. 21 dekabr 1832-ci ildə Konyada ikinci və üçüncü həlledici döyüşlərdə İbrahim

qələbə qazandı. Bundan sonra, sultanın danışıqlara getməkdən başqa çarəsi qalmadı. Zəbt olunmuş ərazilərə İbrahim paşa təyin edildi.

*İbrahim paşanın islahatları*

Ərəbləri birləşdirərək böyük, vahid ərəb dövləti yaratmaq iddiasında olan İbrahim paşa atasının fikirlərini bölüşdürərək bu istiqamətdə əməli fəaliyyətə başladı. Suriyada ərəb burjuaziyası kifayət qədər zəif olduğundan ərəb milli birliyindən danışmaq faktiki olaraq hələ çox tez idi. Lakin Suriyanın gələcəyinə böyük ümidlər bəsləyən istedadlı siyasətçi İbrahim paşa ölkənin mərkəzləşdirilməsi, feodal özbaşınalığının və separatizminin qarşısının alınması, kapitalist münasibətlərinin inkişafı istiqamətində bir sıra tədbirləri özündə ehtiva edən islahatları həyata keçirməyə başladı.

İbrahim paşa kənd təsərrüfatının tənəzzülünün qarşısını almaq məqsədilə ilk əvvəl fəllahlardan alınan vergiləri qeydiyyatdan keçirtdi, özbaşına feodal vergilərinin toplanmasını qadağan etdi, boş qalmış torpaqlardan istifadə məqsədilə burada çalışan fəllahlar hər hansı bir vergidən azad edildilər.

İbrahim paşanın ən mühüm tədbirlərindən biri də istifadə olunmayan torpaqlarda bədəviləri məskunlaşdıraraq, onları məcburi şəkildə oturaq həyata keçirmək idi. Bu sahədə müəyyən müvəffəqiyyətlər qazanıldı. Bundan o, iki məqsəd güdürdü: birincisi, müstəqil həyat tərzinə alışmış bədəviləri mərkəzi hakimiyyətə tabe etmək, ikincisi isə boş qalmış torpaqlarda onları məskunlaşdırmaqla kənd təsərrüfatının inkişafına imkan yaratmaq idi. Beləliklə, Dəməşq ilə Hələb arasında yeni kəndlər salındı və təxminən 15 min fəddan torpaq əkildi. İbrahim paşanın hakimiyyəti illərində Xauranda ilk iki il ərzində əkin sahələri 2 min fəddandan 7 min fəddana qədər artdı.

Vergi özbaşınalığının ləğvi sənaye və ticarətin inkişafı ilə müşahidə olunurdu. Ölkənin istər daxili yollarında, istərsə də Dəməşq və Bağdadı birləşdirən səhradan keçən karvan yollarında əmin-amanlıq yarandı. Bu isə nəticə etibarı ilə, ölkə daxilində ticarətin inkişafına zəmin yaratmaqla yanaşı tranzit ticarətin inkişafını da təmin etmiş oldu. Belə ki, ingilis parçaları Suriyadan İraqa və İrana, Hindistan və İrandan gətirilən mallar isə Suriya vasitəsilə Avropaya çatdırılırdı.

Özbaşınalığın və rüşvətxorluğun qarışısı alındığından yerli tacirlər topladıqları sərmayəni dövriyyəyə buraxmaq imkanı qazanmış oldular. Belə vəziyyət liman şəhərlərini-Sayda, Beyrut, Tripoli kimi şəhərlərini inkişaf etmiş ticarət mərkəzlərinə çevirirdi. Dağlılar buraya ipək və zeytun yağı gətirirdiəlr, onu çörəyə və Avropa sənaye mallarına mübadilə edirdilər.

Feodal özbaşınalığına qarşı ciddi mübarizə aparan İbrahim paşa mərkəzi hakimiyyəti möhkəmləndirmək istiqamətində də bir sıra ciddi tədbirlər həyata keçirdi. Misir nümunəsinə uyğun olaraq Suriya, Fələstin və Kilikiya başında müdirin durduğu altı əyalətə-müdiriyyəyə bölündü. Hər bir şəhərdə isə şeyxə tabe olan canişin-mütəsəllim təyin edildi. Hər bir mütəsəllimin rəhbərliyi altında məşvərətçi orqan-məclis yaradıldı. Onun üzvləri mülkədar, tacir və din xadimlərindən ibarət idi. Məclis məhkəmə funksiyalarını da daşıyırdı. Bütün ali hakimiyyəti isə təbii ki, İbrahim paşa öz əlində cəmləşdirmişdi. İbrahim paşa təhsil sahəsində də bir sıra islahatlar həyata keçirdi.

*Ərəb ölkələrində xarici kapitalın özünə yer alması*

Osmanlı dövlətində iqtisadi böhran öz yüksək həddinə XIX yüzilliyin əvvəllərində çatdı. Bu faktor, xüsusilə Misirin inkişafı kontekstində daha aydın görünürdü. Belə ki, Osmanlı imperiyasının ərazisində, xüsusən də ərəb ölkələri sırasında müəyyən dərəcədə yüksək inkişaf etmiş subyekt Misir idi. Buna səbəb Misirin Avropa dövlətləri ilə daha sıx əlaqələr qurması və onun inkişaf etdirilməsi ilə bağlı idi.

Bununla belə, ərəb ölkələrinə xarici kapitalın axını, onların xarici dövlətlərdən də asılılığına zəmin yaradırdı. Əslində buna səbəb ərəb ölkələrinin özündə gedən proseslər və proseslərdən irəli gələn mənfi hallar idi. Çünki ilk növbədə ərəb ölkələri, xüsusilə də ərəb tayfaları arasında mövcud olan ziddiyyət və qarşıdurma bu ölkələrdə sosial-iqtisadi inkişafın qarşısını alırdı. Digər tərəfdən Avropada sənayenin inkişafı, müvafiq olaraq ticarətin genişlənməsini şərtləndirirdi. Həmin malların satış bazarı isə ilk növbədə Osmanlı dövlətinin ərəb ölkələri idi. Müqayisə üçün qeyd edək ki, 1823-cü ildə Misirə 80 milyon piastr dəyərində mal gətirilmişdisə, 1863-cü ildə bu rəqəm 400 milyon piastr təşkil edirdi. Mal ixracı isə müvafiq olaraq 158 milyondan 843 milyon piastra qədər yüksəlmişdi. Lakin bu ticarət spesifik xarakter daşıyırdı çünki ərəb ölkələri əsasən

xammal satışı ilə məşğul olurdular. Xarici ticarətin yüksəlişi Misirdə kənd təsərrüfatında pambıqçılığın, Livanda ipəkçiliyin, İraqda isə palma təsərrüfatının inkişaf etməsinə təkan vermişdi. Əslində bu ölkələr Avropa sənayesi üçün xammal istehsal edirdi.

Lakin inkişafda mövcud olan bu xüsusiyyətlər orta əsrlərdə ərəb kəndində formalaşmış istehsal münasibətlərinin dəyişməsinə səbəb olmamışdı. Torpaq əsasən yerli və türk feodallarının əlində idi və ərəb fəllahları istehsal etdikləri məhsulun çox hissəsini onlara vermək məcburiyyətində idi.

Avropa mallarının ərəb ölkələrində bolluq yaratması yerli istehsalı faktiki olaraq məhv edirdi. Çünki həmin malların qiyməti yerli istehsalın ərsəyə gətirdiyi malların qiymətindən xeyli aşağı olurdu. Belə bir vəziyyət həm də xaricilərin yerlərdə bazara və bazar qiymətlərinə nəzarət etmək və istiqamətləndirmək məqsədindən irəli gəlirdi. XX yüzillyin əvvəllərində Suriya şəhərlərində 50 minə yaxın ipək toxuyan dəzgah var idisə, əsrin 40-cı illərində bu göstərici 2,5 minə enmişdi. Pambıq-parça istehsalı isə demək olar ki, yox dərəcəsində idi.

XIX yüzilliyin 40-cı illəri həm də İngiltərənin Misirə təcavüzü ilə yadda qalandır. Məhz, bu təcavüz və onun nəticələri ərəb ölkələrində xarici kapitalın özünə yer almasına əsaslı şərait yaratmış oldu. Bu mənada, 1840-cı il ərəb ölkələrinin tarixində yeni mərhələnin, yaxud səhifənin açıldığı il kimi də qəbul olunur. Belə ki, məhz bu ildən başlayaraq xarici kapital Misirdə keyfiyyətcə yeni məzmunda özünü bərqərar etmiş oldu. Bu mərhələnin nəticəsi isə ərəb ölkələrinin Avropa dövlətləri tərəfindən maliyyə əsarətinə alınması oldu. 1838-ci il ingilis-türk müqaviləsinin şərtlərinin Misir və Suriyaya şamil edilməsi, İngiltərə və digər Avropa dövlətlərinin mallarına ərəb ölkələrinin bazarlarına çıxış üçün geniş imkanlar yaradırdı. Bu müqavilənin reallaşdırılması nəticəsində 1840-cı ildən -1850-ci ilədək olan dövrdə təkcə İngiltərə mallarının həcmi üç dəfə artmışdı. Avropa mallarının Osmanlı bazarlarına idxal edilməsi nəticəsində, İstanbulda köhnə sənaye mərkəzləri, sənətkarlıq sexləri və sənaye malları istehsalı ilə məşğul olan mərkəzləri tənəzzülə uğradı. Bu hal həmçinin milli manufaktura və fabrik sənayesinin inkişafını ləngitdi ki, bu da onların rəqabətə tab gətirməməsi ilə əlaqədar idi.

Bununla belə, xarici ticarət şəhərlərin yüksəlişinə səbəb olmaqla bərabər, komprador burjuaziyanın möhkəmlənməsinə də şərait yaratmış oldu. Xarici ticarətin yüksəlişi isə öz növbəsində dəmir və nəqliyyat yollarının da inkişafı onların daha da müasirləşdirilməsi üçün stimul yaratmış oldu. Bu mənada Süveyş kanalının açılışı, İskəndəriyyə limanının tikilməsi, Beyrut-Dəməşq dəmir yolunun çəkilişi bunlara misal ola bilər. Xarici kapitalın təzyiqləri nəticəsində ərəb ölkələrində kənd təsərrüfatı faktiki olaraq yalnız spesifik malların istehsalı üzərində inkişaf etdirilməyə başladı. Məsələn, Misir pambıq və şəkər çuğunduru, Suriya və Fələstin pambıq, buğda, yun, Livan isə ipək xammalı üzrə ixtisaslaşmış rayonlara çevrilirdilər. Lakin istehlakın təkamülü bu rayonlarda kapitalizmin inkişafını şərtləndirmədi. Kəndli feodaldan asılı qalmaqla bərabər, dünya kapitalist bazarının tələbatından asılı vəziyyətə düşürdü. Ərəb ölkələrinin dünya kapitalist bazarına cəlb edilməsi onun Avropa sənayesi üçün aqrar-xammal artığına çevrilməsi şəraitində gedirdi. İqtisadi münasibətlər isə qeyri-bərabər mübadilələr əsasında qurulurdu və formalaşdırılırdı ki, bu da ərəb ölkələrinin Avropa dövlətləri tərəfindən onların sənaye kapitalı vasitəsilə istismarını əsaslandırırdı. Bütün bunların nəticəsində, 1856-cı ildə xarici kapital ərəb ölkələrini maliyyə əsasrətinə alması artıq reallıq qarşısında idi.

*Məhəmməd Əlinin Suriya və Livanda siyasəti*

Sultan Xətti-Şərifi imzaladıqdan sonra Avropa dövlətlərinin Osmanlı imperiyasında gedən proseslərə münasbəti 1840-cı ilin yazında Londonda öz işinə başlamış konfransda tapmış oldu. Belə ki, ümumən Şərq məsələsinin həllində ortaq məxrəcin tapılmasında yekdil qərarın verilməsinə, həmin dövr bu dövlətlərin xüsusilə də Rusiya, Avstriya, İngiltərə, Fransa və Prussiya arasında olan ziddiyyətlər mane olurdu. Belə bir vəziyyətdə, Osmanlı imperiyasında gedən proseslərin həmin müzakirələrə təsiri kifayət qədər güclü idi. Bunu Suriya və Livanda cərəyan edən hadisələr bir daha göstərmiş oldu. 1840-cı ilin may ayında Livan dağlılarının etdikləri qiyam açıq şəkildə özünü büruzə verdi.

Həmin dövr əmir II Bəşirin Məhəmməd Əli ilə davam edən müəmmalı münasibətlərindəki qaranlıq məhz Livan dağlılarının

qiyamı ilə aradan götürülmüş oldu. Məhəmməd Əli II Bəşirə etdiyi yardım və köməklə Suriya və Livanda öz nüfuzunu möhkəmləndirmək və həm də özünə sosial bazanı formalaşdırmaq istəyirdi. Əmir II Bəşir isə öz növbəsində təkamül etməkdə olan bu prosesin qarşısını almaq və Misir təsirindən uzaqlaşaraq tam müstəqil fəaliyyət göstərmək istiqamətində siyasət yeridir və Livan dağlılarında Misir hakimiyyətinə etimadsızlığı təbliğ edirdi. Lakin II Bəşirin bu fikirlərini başa düşən Məhəmməd Əli adekvat addımlar atmağı qaçılmaz etdi. Bu məqsədlə, o, II Bəşirə yardım etməklə bərabər gənc şeyx Naaman Cumblatı onun yerinə hazırlayırdı. Cumblat atasının mülkünü və hakimiyyətini qaytarmaq üçün Məhəmməd Əli ilə sıx əlaqə və münasibətlər yaratmağa müvəffəq olmuşdu. Əslində tərəflərin maraqları üst-üstə düşdüyündən ümumi məqsədə doğru mübarizədə fikir ayrılığı və ziddiyət yox idi. Naaman paşaya Livan əhalisindən yığılan verginnin artırılması əvəzində Şihab ailəsinin tarixən adəti olan toplantısını keçirib yeni əmirin seçilməsi təklifini edirdi. Həqiqətdə isə, o, əmir II Bəşirin yerinə gəlmək istəyirdi və bu məqsəd paşaya da bəlli idi. Əmir II Bəşir bu haqda bilsə də, sultan hakimiyyəti yanında nüfuzunu itirdiyinə görə İstanbuldan yardım istəməyin mənasız olduğunu da dərk edirdi. Çünki o, Məhəmməd Əlinin Osmanlı dövlətinə qarşı mübarizəsində onu dəstəkləmiş və sultan hakimiyyətini tanımadığını bildirmişdi. Bu zəmində o, hətta Suriyada sultan hakimiyyətinin tam bərqərar edilməsi şərtinə də razı idi. Digər tərəfdən, Misirin buradakı hakimiyyəti o qədər güclü idi ki, hər hansı bir əks addımı onun məhvi ilə nəticələnə bilərdi. Ona görə də, II Bəşir Suriya və Livanda yeni fitnə və münaqişələr yaratmaq planları hazırlayrdı ki, Məhəmməd Əli onun iştirakı olmadan həmin məsələni həll edə bilməsin.

Belə bir vəziyyətdə, şihabilər ailəsi üçün Məhəmməd Əlinin yeritdiyi siyasətin məntiqi nəticəsi kimi Suriya və Livanda siyasi vəziyyət gərginləşdi. Buna səbəb isə Misirdə Livana göndərilmək üçün yeni dəstələrin formalaşdırılması haqqında xəbərin Suriya və Livana çatması oldu. Məhəmməd Əlinin yürüşlərində iştirak etmək istəməyən Suriya və Livan əhalisi yeni səfərbərlikdən yayınmaq məqsədilə müxtəlif yerlərdə gizlənməyə başladılar. Beyrut və Dəməşqdə elə bir vəziyyət yaranmışdı ki, sanki Məhəmməd Əlinin

qoşunları qala divarları arxasındadır. Bu xəbər Livan dağlılarını daha çox narahat etdi. Artıq neçə illər idi ki, Livan dağlıları misirlilərin yaratmış olduqları rejim çərçivəsində öz azadlıqlarını itirmişdilər. Bu səbəbdən də onlar heç bir bəhanə olmadan misirlilərə qarşı düşmən mövqedən çıxış etməyə başladılar. Halbuki, Məhəmməd Əli uzun illər arzusunda olduqları sülhü və rifahı onlar üçün yaratmışdı.

Bununla belə, Məhəmməd Əli Livan və Suriyada başlamaqda olan etiraz dalğalarına o qədər də əhəmiyyət vermədi. Onu ən çox maraqlandıran Beyrutdan altı saatlıq məsafədə yerləşən daş-kömür hövzəsindən əldə olunan məhsul idi. Məhəmməd Əli bu mədənlərə o qədər böyük əhəmiyyət verirdi ki, buradan hasil olan kömürün satışından əldə olunan gəliri Misirin büdcəsinə deyil, həmin mədənlərin daha geniş və əsaslı şəkildə istismarına yönəldirdi. Halbuki, həmin mədənlərin işlədilməsi üçün xərclər Misir büdcəsindən edilirdi. Lakin Məhəmməd Əlinin livanlılar üçün yaratmış olduğu bu şəraiti onlar düzgün qiymətləndirmədilər və mədənlərdə çalışanlar öz iş yerlərini tərk etdilər. Bütün bu prosesləri isə əmir II Bəşir diqqətlə izləyirdi. Çünki onun hakimiyyətinin xilası məhz bu proseslərin gedişindən və onun nəticəsindən asılı idi.

Bütün qış ayları ərzində Suriya və Livanın müxtəlif yerlərində qiyam və üsyanlar baş verdi. Belə ki, Antioxiya ənsarları arasında, Livanın şimal rayonlarında, xüsusilə də Əkkə dairəsində, Bəəlbəkin mütəali tayfaları arasında, Sayd və Sur arasındakı ərazilərdə, Hauranda druzlar arasında, Lecdə, Xevronda qiyamlar gah güclənir, gah da zəifləyirdi. Atasının göstərişlərinə əməl edən İbrahim paşa bu dövrdə Maraşdakı baş qərargahında oturaraq, hadisələri izləyirdi. Məhəmməd Əli Ön Asiyaya yürüş etmək iddialarını həyata keçirmək üçün yollar arayırdı. Bununla bərabər İbrahim mövqeyini möhkəmləndirmək məqsədilə başçılıq etdiyi ordunun Misirdə qalmış hissəsini də Suriyaya gətirməyi qərarlaşdırırdı. Bu məqsədlə də dəniz vasitəsilə Əkkə və Latakiyaya külli miqdarda hərbi ləvazimat və onun ehtiyatları gətirilirdi. Misirin Suriyada belə güclü şəkildə möhkəmlənməsi nəinki yerli əhalini, hətta sultanın buraya təyin etmiş olduğu paşanı da narahat edirdi. Lakin belə bir vəziyyətin folrmalaşması eyni zamanda paşa üçün də əlverişli idi. Çünki onun kiçicik bir qiyam qaldırması kifayət edirdi ki, Misirin buradakı hakimiyyətini yerlə-yeksan olsun. Lakin yuxarıda qeyd

etdiyimiz kimi II Bəşirin sultan hakimiyyətinə qarşı olan etimadsızlığı, onun belə bir addım atmasına imkan vermirdi. Ona görə də o, hadisələrin bu şəkildə uzanması mövqeyindən çıxış edir, bununla da həm Məhəmməd Əlini, həm də sultan hakimiyyətini qarşı-qarşıya qoymaqla öz hakimiyyətinin toxunulmazlığını təmin edirdi.

1840-cı ilin aprel ayında dağlıların narahatlığı daha da artmış oldu. Bunun üçün tutarlı səbəb də var idi. Belə ki, Misir tibb məktəbində təhsil almış livanlı tələbə xristianları orduya səfərbər edirdilər. Bu xristianların daha geniş şəkildə orduya götürüləcəyinə dair şayiələrin yayılması üçün əsas oldu. Bu narahatlıq Beyruta gələn hərbi gəmi və onun gətirdiyi hərbi geyimlər əhalinin narahatlığını daha da artırmış oldu. Bu hərbi geyimlər Livanda aparılacaq yeni səfərbərlik üçün nəzərdə tutulmuşdu. Bu narahatlığın qarşısını almaq məqsədilə İbrahim paşa Livanda əhalidən bütün silahların yığılmasına dair əmr verdi. 1838–ci ildə Məhəmməd Əlinin göstərişi ilə həmin silahlar 15 min Livan dağlısına Hauran druzlarına qarşı mübarizə aparmaq üçün verilmişdi. İndi isə paşa həmin silahların geri qaytarılaraq, Misir könüllülərinə verilməsini tələb edirdi. Əmir II Bəşirdən bu məsələnin icrası tələb olunduqda, o, dağlılardan bu silahları geri götürə bilməyəcəyini bildirdi. Qeyd edək ki, 1838-ci ildə Məhəmməd Əlinin vermiş olduğu 15 min silahın heç də hamısı Livan dağlıları arasında paylanmamışdı. Həmin silahların yarısı əmir II Bəşirin anbarında saxlanılmışdı. Əmir II Bəşirin İbrahimə göndərdiyi kifayət qədər quru və kəskin cavab məxfi saxlanmalı idi. Lakin bunun əksinə olaraq məktubun məzmunu bütün Livanda yayılmış oldu. Hadisələrin bu şəkildə təkamül etdiyi bir şəraitdə Dəməşqdə vəba xəstəliyi də yayıldı. Beyrutun qubernatoru Mahmud bəy şəhəri bağlı elan etdi. Şəhərin bağlanması isə dağlıların ərzaqsız, xüsusilə də çörəksiz qalmasına şərait yaratdı. Nəticədə, mayın 19-da qiyam yeni vüsət aldı və karantin kardonları dağıdılaraq, şəhərdə qarətlər başlandı. Adətən belə şəraitdə Suriya və Livanda türk sultanları əhali ilə birbaşa danışıqlara gedərək, onları sakitləşdirdiyi halda, Misir hakimləri isə əksinə analoji vəziyyətdə məsələni hərbi güc vasitəsilə həll etməyə üstünlük verdilər. Bu dövrdə Beyrutda yerləşən Misir hərbi hissəsinin sayı o qədər də çox deyildi və o yarım batalyon səviyyəsində idi. Ona görə də, təcili olaraq, burada müxtəlif dəstələr formalaşdırıldı və çörəyin dağlara aparılması qadağan edildi. Reyddə

dayanmış hərbi gəmi də hərəkətə gətirildi. Bu, qiyamın daha da genişlənməsinə təkan verdi. Bir neçə gündən sonra qərargah rəisi Süleyman paşa da gəldi. Bunun ardınca isə İbrahim paşa Əmir II Bəşiri hədələyrək ciddi xəbərdarlıq etdi. Lakin əmir heç bir tədbir görmədi və tam hərəkətsizik nümayiş etdirdi. Onun məxfi agentləri və oğlanları isə dağlıları müdafiə etməyin daha məqsədəuyğun olduğunu təkid edirdilər. Belə bir şayiə yayıldı ki, guya əsgər toplantısını zorla həyata keçirmək məqsədilə həmin silahlardan istifadə edirlər. İbrahim paşa isə özünün və atasının başına and içərək bildirdi ki, onlar əsgər toplantısını həyata keçirmək haqda belə düşünməmişdilər. Lakin qiyam artıq bütün xristian dairələrinin ətrafında qızışmaqda idi. İki dəfə əsgər toplantısına məruz qalan druzlar isə özlərini sakit aparırdı. Elə bu zaman dağlılar şəhər qalasına hücum etməyə başladılar. Şəhər ətrafında qarşılarına çıxan hər şeyi qarət etsələr də, xarici ölkələrin konsullarına heç bir ziyan vurmadılar və onlarla kifayət qədər mülayim davrandılar. Bundan əsas məqsəd isə böyük dövlətlərin onların mübarizəsinə dəstək verməlri ümidi idi. Eyni zamanda, onlar II Mahmuda gönldərmiş olduqları bəyannamədə sultan hakimiyyətinə sadiq olduqlarını bildirməklə bərabər, İbrahim paşa və Məhəmməd Əlidən şikayət edir, onları Misir fironlarının layiqli davamçıları və Məhəmməd hümmətinin qatı düşmənləri adlandırırdılar. Bu müraciətin Osmanlı dövləti üçün çox böyük siyasi əhəmiyyəti var idi. Belə ki, Suriya və Livandakı prosesləri diqqətlə izləyən Avropa dövlətləri istər bu hadisələrə, istərsə də Osmanlı dövlətinə münasibətdə müəyyən qərar verməli idi. Bu da Osmanlı dövlətinin Məhəmməd Əliyə qarşı mübarizəsində xüsusi əhəmiyyət daşıyırdı. Çünki Avropa dövlətləri arasında Məhəmməd Əlinin hərbi-siyasi fəaliyyətini dəstəkləyən dövlətlər olduğu kimi, onun əleyhinə çıxış edən dövlətlər də mövcud idi və Osmanlı dövləti bu balansdan maksimum səviyyədə istifadə etmək istəyidi. Bu mənada Avropada Suriya və Livanda yaranmış vəziyyətə dair formalaşan fikir də diqqət mərkəzində idi.

Burada belə bir fikir formalaşmışdı ki, Suriya və Livandakı hadisələr Osmanlı dövləti ilə İngitərənin birgə fəaliyyətinin nəticəsidir. Əsas məqsəd isə Məhəmməd Əlinin Suriya və Livandan çıxarılması idi. Həmin qənaəti ən çox təbliğ edən Misir uğrunda İngiltərə ilə kəskin rəqabət aparan Fransa idi və Paris Məhəmməd Əliyə

qiyamın yatırılmasında hərtərəfli yardım göstərirdi. Lakin Fransa xarici işlər nazirliyinin tutduğu mövqenin əksinə çıxış edən konsulluq bildirirdi ki, qiyamı yatırmaqda Məhəmməd Əliyə kömək etmək yox, əksinə qiyamın güclənməsinə təkan vermək lazımdır. Belə ki, Osmanlı dövləti onu yatıra bilməsin və Fransaya yardım üçün müraciət etsin. Bu halda, Fransa Osmanlı dövlətindən daha çox imtiyazlar əldə edə bilərdi. Bu mənada, fransız fırıldaqçısı qraf Onfruanın Suriyada qiyamçıları dəstəkləməsi buradakı Fransa konsulluğunun mövqeyi ilə üst-üstə düşürdü. Lakin sonradan Onfruanın sadəcə çoxdanışana çevrilməsi, nəticə etibarilə, bu məsələdə konsulluğun mövqeyinin də rəsmi dairələrin mövqeyi ilə eyniyyət təşkil etəmsinə gətirib çıxarmış oldu.

Vəziyyətin getdikcə nəzarətdən çıxdığını görən Məhəmməd Əli Osmanlı dövləti ilə separat danışıqlara getməyi məqsədəuyğun hesab etdi. Belə bir addımın atılmasına səbəb həm də onun nifrət etdiyi baş vəzir Xozrefin vəzifəsindən uzaqlaşdırılması idi. Onun yerinə təyin olunmuş Rəşid paşa ilə danışıqlara getməyin müsbət nəticə verəcəyinə ümid bəsləyən Məhəmməd Əli eyni zamanda öz adyutantı Sami bəyi qiymətli hədiyyələrlə İstanbula göndərdi. Məhəmməd Əli yeni doğulmuş qızı münasibətilə sultanı təbrik etməyi yerində və vaxtında atılmış addım kimi qəbul etdi. Sultanla məxfi danışıqlar aparmağa müvəffəq olan bacarıqlı Sami bəy, yaranmış vəziyyətin müsəlman ailəsinin daxili işi olduğunu qeyd edərək, Ədənənin İstanbula qaytarılacağını və Suriyanın idarəçiliyi əvəzinə ödənilən bac və verginin miqdarının artırılacağını vəd edirdi. Bunun əvəzində isə sultan Avropa dövlətlərinin bu məsələyə qarışmasına imkan verməməli idi. Öz vassalları ilə analoji qəbulların həyata keçirilməsində təcrübəli olan sultan cavab verməkdə tələsmədi. Nəticədə, Sami bəy əliboş olaraq Məhəmməd Əlinin yanına qayıtmaq məcburiyyətində qaldı. Əslində başqa cür ola da bilməzdi. Çünki sultan öz müttəfiqləri ilə müəyyən məsləhətləşmələr aparmadan Məhəmməd Əliyə konkret cavab verə bilməzdi. Bu isə, xüsusilə Misirdə möhkəmlənmək istəyən İngiltərəyə aid idi.

Yaranmış şəraitdə, paşa dağlıları silahı təhvil verəcəkləri təqdirdə, onlara qarşı heç bir güc tətbiq edilməyəcəyini öhdəsinə götürdü. Eyni zamanda, hər yerdən hərbi dəstələri dağlara doğru istiqamətləndirdi. Sultanını yeni doğulmuş qızının şərəfinə Beyrutda

yeddi gün bayram edildi. Bundan əsas məqsəd isə sultana sadiqliyi nümayiş etdirmək idi. Məhəmməd Əli isə qiyamçılarla danışıqlar aparmağı, danışıqlar baş tutmayacağı təqdirdə onlara qarşı hərbi əməliyyatlara başlamaq haqqında Süleyman paşaya göstəriş vermişdi. Həmin danışıqların aparılmasına Məhəmməd Əlinin oğlu İbrahim deyil, nəvəsi Abbas paşa rəhbərlik edirdi. Hadisələrin gedişinə artıq İngiltərənin müdaxilə etdiyini görən əmir II Bəşir ilk növbədə Süleyman paşaya öz xidmətini təklif etdi. Bu təklifin məqsədyönlü olduğunu dərk edən Abbas paşa və Süleyman paşa əmirin təklifini qəbul etsələr də, qiyamın yatırılmasından sonra onun hakimiyyətinə son qoymaq fikrindən də əl çəkmədilər. Əmirin Misir hakimiyyəti ilə danışıqlara getməsi xəbəri dağlılar arasında yayıldıqdan, sonra, qiyam daha kəskin xarakter aldı və əvvəllər qiyamda iştirak etməyənlər də onlara qoşuldular. Vəziyyətin özünə qarşı çevrilə biləcəyi ehtimalını nəzərə alaraq, əmir II Bəşir ümumi qoşunların hücumuna üç gün qalmış qiyamçılar arasında şayə yayaraq, onlar arasında mövcud olan birliyin pozulmasına nail oldu. Bir neçə gün ərzində Livandakı qiyam yatırıldı. Livanda qiyamın yatırılması Suriyada çox güclü bir qorxu hissinin yaranmasına səbəb oldu. Bundan sonra, Suriyada Avropa dövlətlərinə xilaskar kimi baxmağa başladılar. Artıq 1839-cu il Nəzib döyüşünün nəticələri özünü göstərməkdə idi. Lakin Məhəmməd Əlinin bu qələbəsi taktiki və hərbi qələbədən irəli gedə bilmədi və yalnız mənəvi təskinlik kimi özünü səciyyələndirdi. Çünki onun qələbəsi Avropa dövlətləri tərəfindən qəbul olunmur və ona yalnız sultan hakimiyyətinə qarşı çıxmış qiyamçı kimi baxırdılar. Rusların 50 minlik ordusunun Ərzurumdan keçərək sultan hakimiyyətinə yardım edəcəyinə dair yayılan xəbərdən dərhal sonra, Avropa dövlətləri Şərq məsələsi kontekstində yaranmış vəziyyətə diplomatik mövqedən müdaxilə etməyi məqsədəuyğun hesab etdilər.

15 iyul 1840-cı ildə Londonda Rusiya, İngiltərə, Avstriya, Prussiya və Osmanlı dövlətinin iştirakı ilə London Traktatı imzalandı. Fransanın etirazına baxmayaraq qərara alındı ki, Məhəmməd Əli güc hesabına əvvəlki mövqelərinə və səlahiyyət dairəsinə qaytarılsın, Osmanlı dövlətinin ərazi bütövlüyü bərpa olunsun. Bununla belə, iştirakçı dövlətlərin hər biri Osmanlı dövləti ilə öz maraqlarının təmin edilməsinə nail olmuşdular. London

Traktatına əsasən İstanbul Misiri Məhəmməd Əliyə ömürlük, həmçinin nəsli idarəçiliyə verilirdi.

Məhəmməd Əlinin belə bir təkliflə razılaşmadığı təqdirdə ona fikirləşmək üçün əlavə 10 gün vaxt verilirdi. Bu müddət ərzində də, Məhəmməd Əli razılaşmayacağı halda müttəfiqlərlə məsləhətləşmələrdən sonra Osmanlı dövlətinə tam hərəkət azadlığı veririlir və İstanbul məsələni istədiyi şəkildə həll etmək hüququ alırdı. Qeyd edək ki, London Traktatına əsasən Şimali Suriya bütün variantlarda Osmanlı dövlətinin birbaşa idarəçiliyində qalırdı. Ön Asiyaya İbrahim paşanın yürüş edəcəyi təqdirdə isə müttəfiqlərin vahid cəbhədən çıxış etmələri nəzərdə tutulurdu. Verilmiş müddət ərzində Məhəmməd Əli və oğlu müharibəni uzadaraq Avropa dövlətləri arasında parçalanmaya nail olmaq istədisə də nəticə etibarilə bu fikrindən daşındı. Çünki uzunmüddətli müharibənin aparılması üçün kifayət qədər qüvvə yox idi və əslində buna nail olmaq çox çətin idi. Ona görə də Məhəmməd Əli London Traktatının müddəaları ilə razılaşmaq məcburiyyətində qaldı.

*Suriya və Livanda həyata keçirilən islahatlar*

Məhəmməd Əlinin qoşunlarının Suriya və Livandan çıxarılmasından sonra bu ərəb ölkələri yenidən Osmanlı hakimiyyəti altına keçmiş oldular. Misir hakimiyyətinin bərqərar olduğu müddət ərzində bu ölkələrdə faktiki olaraq əvvəlki Osmanlı hakimiyyətindən əsər-əlamət qalmamışdı. Artıq Suriya və Livanda türk hakmiyyətinin bərqərar edilməsi istiqamətində müvafiq islahatların və dəyişikliklərin həyata keçirilməsi əsas vəzifəyə çevrilmişdi. Osmanlı hakimiyyətini qəbul edən və onun müdafiəsi uğrunda mübarizəyə hazır olan Livan dağlıları da bunu təkid edirdi. Buradakı son hadisələr də bir daha dağlıların Osmanlı hakimiyyətinə hansı səviyyədə loyal münasibətdə olduğunu bir daha üzə çıxarmış oldu.

Bununla belə, burada Osmanlı qanunlarının tətbiq olunmasına qarşı çıxan qüvvələr də mövcud idi. Buna baxmayaraq sultan hakimiyyəti mərkəzləşdirilmiş dövlət siyasəti çərçivəsində həyata keçirilməsi vacib bilinən addımlar atır və yerlərdə yeni qanunlar tətbiq edirdi. Həmin siyasət Suriya və Livanda Osmanlı imperiyasının digər regionlarında mövcud olan rejimin formalaşdırılmasını nəzərdə tuturdu. Yəni Suriya əyalətlərində də qubernatorlar

maliyyə və hərbi səlahiyyətlərdən məhrum edilir, xüsusi maliyyə məmurları– dəftərdarlar və müxasillər təyin olunurdu ki, onlar da birbaşa maliyyə nazirliyinə tabe idilər. Lakin iltizam sistemi faktiki olaraq olduğu kimi saxlanılırdı. Hərbi islahatların keçirilməsindən sonra Suriyada yeni nizami ordu korpusunun qərargahı yerləşdirildi ki, bu da Ərəbistan korpusu adı almış oldu. Bu ordu mülki sahədə baş verən hər hansı prosesə təsir etmək hüququndan məhrum idi və yalnız hərbi əməliyyatlarda iştirak edə bilərdilər. Bu korpusun komandanı birbaşa hərbi nazirə tabe idi.

1841-ci ildə Suriyada yeni inzibati bölgü həyata keçirildi: Sayd və Tripoli mərkəzi Beyrut olan vahid əyalətdə birləşdirildi. Fələstin Yerusəlim sancaqlığı daxilində xüsusi bir rayon kimi ayrıldı. Bu sancaqlıq Beyrut qubernatorunun nəzarəti altına verilirdi. İlk baxışdan əhəmiyyətsiz görünən bu inzibati dəyişiklik, həqiqətdə çox böyük siyasi əhəmiyyət daşıyırdı. Belə ki, Fələstinin ayrıca bir idarəetmə mərkəzi kimi müəyyən edilməsi burada yarana biləcək potensial milli etnik münaqişənin qarşısını alırdı. Bu bölgünün aparılması müəyyən dərəcədə baş vermiş qiyamın səbəblərindən irəli gəlirdi və onun yenidən baş verməsinin qarşısını almağı nəzərdə tuturdu. Lakin aparılan islahatlar sosial vəziyyətin köklü şəkildə yaxşılaşdırılmasını əsaslandırmadığından burada yenidən üsyanlar baş verdi. Yerli feodallara qarşı yönələn bu çıxışlar arasında kifayət qədər güclü olanları 1850-ci il Hələb üsyanı, 1852-1853-cü illəri əhatə edən Hauran üsyanları idi.

*Livan knyazlığının ləğv edilməsi*

Ən kəskin antifeodal çıxışlar Livanda baş verdi. 1840-cı ildə II Bəşir hakimiyyətdən salınıb ölkədən qovulduqdan sonra Livanda druzların hakimiyyəti bərqərar oldu. Hakimiyyətə gəldikdən dərhal sonra druzlar özlərinin əvvəlki mülklərinin geri qaytarılması və siyasi imtiyazlarının bərpası uğrunda ciddi və kəskin mübarizəyə başladılar. Maroni kəndliləri isə əksinə onlara qarşı mübarizəni genişləndirdilər. Əslində hakimiyyətinin möhkəmləndirilməsi məqsədilə druzların torpaqlarında yerləşdirilən maronilərin bu mübarizəsinə səbəbkar II Bəşir idi. Bu əsasda yaranan münaqişə təkamül etdikcə ziddiyyətli və mürəkkəb xarakter daşıyırdı. Bu iki qüvvə arasındakı mübarizə eyni zamanda İngiltərə və Fransanın burada toqquşan maraqları çərçivəsində daha

da kəskin xarakter alırdı. Burada İngiltərə druzları, Fransa isə maroniləri dəstəkləyirdi.

1841-ci ilin oktyabrında İngiltərə tərəfindən silahlandırılan və təlim keçirilən druz feodalları sultan tərəfindən təyin olunmuş II Bəşirin qardaşı Qasıma qarşı qiyam qadırdılar. Onlardan asılı olan kəndliləri də öz tərəflərinə çəkə bilən druz feodalları bu qiyamın daha geniş miqyas almasını şərtləndirmiş oldular. Maronilərə məxsus bağları, mülkləri, evləri, sarayları zəbt edən druzlar ələ keçirilmiş qəniməti dərhal özününküləşdirdilər. Analoji addımı maronilər də druzlara qarşı atdılar. Altı həftə davam edən bu iğtişaş və münaqişədə nəticə etibarilə druzlar Cənubi Livanda prosesləri tam nəzarət altına ala bildilər.

Vəziyyətdən istifadə edən İstanbul öz qoşunlarını burada yerləşdirmək üçün əllverişli imkan əldə etmiş oldu. Əslində türklər tərəflərdən hər hansını dəstəkləmək deyil, imperiyanın bu əyalətində sabitliyi bərqərar etmək məqsədilə buraya qoşun yeritmişdi. Sultanın atmış olduğu bu addım nəticəsində Livan knyazlığı ləğv edilərək imperiyanın adi vilayətlərndən birinə çevrildi. Əmir Qasım isə həbs edilərək İstanbula göndərildi. Livanın qubernatoru Osmanlı dövləti tərəfindən təyin olunan türk generalı Ömər paşa oldu. Mərkəzləşdirici siyasət yeridən Ömər paşa ilk növbədə sabitliyi pozan druz feodalarına qarşı mübarizəyə və onların müqavimətini qırmağa başladı. 1842-ci ilin mart ayında o, səkkiz ən iri druz feodalını Beyt əd-Dindəki öz qalasına çağıraraq, onları həbs edib Beyruta göndərdi. Bundan sonra, 1841-ci il iğtişaşlarında qaçmış maronilər öz yerlərinə qayıda bildilər.

Osmanlı dövlətinin bu mərkəzçi siyasəti Avropa dövlətlərini, xüsusilə də druzları dəstəkləyən İngiltərənin narazılığına səbəb oldu. Narazılığın əsas səbəbi isə Osmanlı dövlətinin bu ədalətli siyasəti nəticəsində İstanbulun burada nüfuzunun artması və onun mövqelərinin güclənməsi idi. Narazılığın digər səbəbi isə Livanın birbaşa sultan hakimiyyəti altında idarəçiliyinə olan etiraz idi. Belə bir vəziyyətdə maroniləri dəstəkləyən Fransa II Bəşirin yenidən hakimiyyətə gətirilməsini tələb edirdi. Bu tələbinin ciddi olduğunu nümayiş etdirmək məqsədilə Fransa Beyruta, hətta xüsusi bir eskadra da göndərdi. Şihabilərin əleyhinə çıxış edən İngiltərə isə druzları müdafiə edəcəyinə dair bəyanatla çıxış etdi.

Vəziyyətin getdikcə kəskin xarakter aldığını görən İstanbul məsələyə aydınlıq gətirmək məqsədilə Livanda referendum keçirilməsinə dair fərman imzaladı. 1842-ci ilin yayında keçirilmiş referendum nəticəsində bəlli oldu ki, maronilər Livan knyazlığının bərpa edilməsinə və onun xristian nümayəndə tərəfindən idarə olunmasını istəyirdilər. Druzlar isə guya Livanın Osmanlı dövləti tərəfindən birbaşa idarə olunmasına tərəfdar olduqlarını bildirdilər. Həqiqətdə isə bu İngiltərənin «parçala, hökm sür» siyasətindən irəli gələn təzahür idi və bu hal ilk növbədə rəsmi Londonun maraqlarına cavab verirdi. Bunu həmin ilin oktyabrında Osmanlı hakimiyyətinə qarşı qaldırdıqları qiyam da təsdiqləyirdi. Həmin qiyamda onlar həbs olunmuş şeyxlərin azad olunmasını və yeni təyin olunmuş Ömər paşanın istefasını tələb edirdilər. Lakin Ömər paşa qiyamçıların çıxışlarını yatırdı və onların rəhbəri olan Cumblat nəslinin qalasını yerlə yeksan etdi.

Bununla belə, 1843-cü ildə İstanbul Livanın birbaşa idarə edilməsi formasından imtina etmək məcburiyyətində qaldı. Avropa dövlətlərinin təzyiqi ilə Livanın idarə edilməsi iki kaymakama həvalə edildi: maroniləri xristian, druzları isə druz feodalı idarə etməyə başladı. Nəticədə, şihabilər əbədi olaraq hakimiyyətdən uzaqlaşdırıldı. Avropa dövlətlərinin planı olaraq həyata keçirilən bu idarəetmənin forma və metodundan istifadə nəticədə Livan probleminin daha da dərinləşməsinə səbəb oldu. Bu isə öz əksini gələcəkdə baş verəcək yeni vətəndaş müharibələrində tapmış oldu.

*1845-ci il maroni - druz iğtişaşları*

Bu iğtişaşlar haqqında bəhs etməzdən əvvəl maroni və druzlara dair bəzi qeydləri etmək məqsədəuyğun olar. Livan və Suriyada əsasən iki hakim din Osmanlı dövləti tərəfindən qəbul olunurdu ki, bu da xristian və islam dinləri idi. Birincilər özlərinin çoxsaylı olmaları ilə, ikincilər isə türklərlə eyni təriqətin daşıyıcıları olmaları ilə ölkənin sosial-iqtisadi və ictimai-siyasi proseslərinə təsir edirdilər. Bununla belə, hər iki din müxtəlif təriqət və axınlara bölünürdülər. Xristian ərəblər arasında ən çox sayda olan təriqət pravoslavlar, sonra isə hələ altıncı əsrdə Maronun təlimini qəbul etmiş maronilər, sonra yakovitlər, siryanlar və nəhayət erməni qriqorianlar idi. Bu təriqətlərin hər biri özünün

dini rəhbərinə malik olmaqla bərabər, hökumət yanında öz nümayəndələrini də saxlamaq hüququ almışdılar.

Müsəlman ərəb tayfaları arasında ən çox sayda olan təriqət sünni-ərəblər idi. Adətən druzları şiə təriqətinə aid etsələr də, onlarla əlaqədar elmi tarixşünaslıqda yekdil fikrə, yaxud qənaətə gəlinməmişdir. Buna səbəb isə druzların vahid, hamının qəbul etdiyi və açıq şəkildə itaət etdikləri konkret bir dinə mənsub olmalarını əsaslandıran fəaliyyəti nümayiş etdirməmələridir. Belə ki, onlar üzdə islam dininə itaət etdiklərini söyləsələr də, gizlində onlar özlərinə məxsus ibadətlərini edirdilər.

Livanın rayonları dini münasibətlər nöqteyi-nəzərindən müxtəlif idi. Ölkənin şimalında yerləşən Kəsruanda demək olar ki, bütünlüklə maronilər məskunlaşmışdılar. Mərkəzi hissə olan Mətəndə əhalinin çox hissəsini maronilər təşkil edirdi. Cənubda yerləşən Şufda əhali qarışıq idi. Şufda mülklərə iddia edən feodallar isə druzlar idi. Kaymakamlar arasında müəyyən olunan funksiyalara əsasən Kəsruan maronilərin tam idarəçiliyinə verilmişdi. Qalan ərazilərdə isə idarəçilik qarışıq elan edilmişdi. Məhz bu qarışıq idarəçilik də maronilər və druzlar arasında yeni iğtişaşların başlamasına səbəb olmuşdu. Qarışıq rayonların xristianları çalışırdılar ki, onlar xristian kaymakamının hakimiyyəti tərəfindən idarə edilsin. Druzlar isə bunun əksinə, iddia edirdilər ki, bir rayonda iki idarəçilik mövcud ola bilməz və Şufda məskunlaşmış maronilər druz hakiminə tabe olmalıdırlar. Bu mübahisələrə son qoyulması məqsədilə Fransa konsulunun təklifi tərəflər arasında kompromis kimi qəbul olundu. Qarışıq yaşayış rayonlarına, yaxud qarışıq olan hər kəndə iki vəkil təyin edildi ki, bunlardan biri druz, digəri isə maroni idi. Şuf maroniləri druz hakiminə tabe edildilərsə də, öz maroni hakimlərinə yeni təyin olunan vəkil vasitəsilə şikayət edə bilərdilər.

Cənubi Livanın druz hakimiyyətinə verilməsindən dərhal sonra Şufdan getmiş druz şeyxləri geri qayıtdılar. Şeyxlərin geri qayıtması ilə razılaşmayan maronilər üsyana hazırlaşmağa başladılar. Çünki şeyxlər burada münasibətlərin gərginləşməsində başlıca rol oynayırdılar. Əvvəlki dini qarşıdurma aradan qaldırılsa da, yeni qarşıdurma sinfi xarakter aldı. Belə ki, maronilər druz feodallarının hakimiyyəti altında çalışmaq, onlara vergi ödəmək istəmirdilər. 1840-1841-ci illərin hadisələrindən fərqli olaraq indiki münaqişədə

mübarizə aparan tərəf yalnız kəndlilər idi. Onlar öz mübarizələrinə davamlı və intensiv xarakter vermək məqsədilə gizli komitə yaratmışdılar ki, bu komitə də Deyr əl-Kamarda yerləşirdi. Komitənin Cənubi Livanın bütün böyük kəndlərində şöbələri yaradılmışdı.

Burada bir məsələni qeyd etmək məqsədəuyğundur ki, bu da həmin hərəkatın ümumiyyətlə planlı şəkildə aparılması idi. Bu faktor isə tarixçilər tərəfindən 1845-ci il iğtişaşlarının Fransa tərəfindən hazırlandığını söyləməyə əsas verir. Çünki Məhəmməd Əlinin yaratmış olduğu problem Fransanın iştirakı olmadan həll edilmişdi. Ona görə də Fransa bir növ revanş götürmək məcburiyyətində idi ki, bu da ilk növbədə yaranan mübahisənin fransız konsulunun təklifinə əsasən həll edilməsində öz əksini tapmışdı. Lakin mübahisənin həll edilməsi Fransanın maraqlarını əhatə etmədiyindən daha ciddi münaqişəyə ehtiyac var idi. Belə bir münaqişəyə isə fransızlar faktiki olaraq nail olmuşdular. Digər tərəfdən, maronilərin mübarizəsinin planlı şəkildə aparılması, ona mütəşəkkillik verən komitənin yaradılması və onun bütün iri kəndlərdə şöbələrinin açılması, fəaliyyətinin ciddi şəkildə idarə edilməsi, xüsusilə onların gizli fəaliyyət göstərməsi kimi faktlar göstərir ki, hadisələrin arxasında Avropa dövlətlərindən hər hansı birinin dayanmışdır. Bu halda, isə həmin ölkənin yalnız Fransa olduğu daha dəqiq təyinat idi. Çünki ingilislərlə rəqabət aparan fransızların maroniləri əvvəllər də müdafiə etdiyi sirr deyildi. Nəhayət, maronilərin təkcə druz feodal və şeyxlərinə qarşı mübarizə aparması faktı da buraya əlavə olunarsa, onda bu münaqişənin təkcə sinfi xarakter daşıdığı tendensiyası arxa plana keçmiş olur. Çünki bu halda münaqişə artıq lokal deyil, iri miqyaslı bir münaqişə xarakteri alırdı ki, analoji münaqişələrin də baş verməsində ilk növbədə Avropa dövlətləri maraqlı idi. Osmanlı imperiyasında öz maraqları uğrunda mübarizə aparan Avropa dövlətləri isə məsələnin həllini öz maraqları fövqündə qoymaqla əslində İstanbulun süqutu üçün müvafiq əsası formalaşdırırdılar. Əvvəlki dövrlərdə olduğu kimi bu münaqişə də problemin əyani şəkildə nümayişi idi.

Maronilərin geniş miqyaslı mübarizə kursu druz kəndli və feodallarını da analoji mövqedən çıxış etmək məcburiyyətində qoymuş oldu. 1845-ci ilin may ayında üsyan başlandı və bütün

Livanı əhatə etdi. Nəticədə, onlarla maroni və druz kəndləri iğtişaşların nəticəsi kimi boş qaldı, minlərlə insan tələf oldu.

Vəziyyətin getdikcə kəskin xarakter aldığını görən Osmanlı hökuməti yaranmış vəziyyətdə druzların müdafiəsi mövqeindən çıxış etdi. Buna səbəb heç də sovet tarixşünaslığında göstərildiyi kimi sultan hökumətinin feodal-mülkədar sinfinin maraqlarını müdafiə etməsi deyildi. Sultan hökuməti yaranmış vəziyyətin səbəbləri sırasında fransız konsulunun təklifini daha çox ön plana çıxardı ki, bu da təsadüfi deyildi. Çünki həmin təklifin razılaşdırılmasından dərhal sonra Osmanlı dövlətinin baş vəziri bu «kompromisi» vətəndaş müharibəsinin başlanması üçün əsas adlandırmışdı. Maroniləri bu iğtişaşlarda da açıq şəkildə müdafiə edən fransızların mövqeyi faktiki olaraq Osmanlı dövlətini məsələyə lokal münaqişə mövqeyindən deyil, məsələdə marağı olan konkret dövlətlərin münaqişəyə münasibəti mövqeyindən yanaşdı və druzların müdafiəsi istiqamətində siyasi kurs götürülməsini məqsədəuyğun hesab etdi. Nəticədə Cənubi Livanda druzların hakim mövqeyi bərqərar edildi.

İlk baxışda münaqişənin həll edildiyi güman edilsə də, maronilərin öz rəhbərlərinə qarşı Şimali Livanda başlamış olduğu hərəkat əslində onun yeni müstəviyə keçirilməsini əsaslandırmış oldu. Buna səbəb maroni kəndlilərinin öz feodal və zadəganlarının Cənubi Livanda məğlubiyyəti və onların Şimali Livanda baş verən proseslərə seyrçi münasibət nümayiş etdirməsi olmuşdur. Nəticədə, 1845-ci ilin payızında buradakı türk ordusu tərksilah edildi. Bu tərksilah edilmədən sonra burada xarici ölkələrin konsullarının iştirakı ilə yeni idarə üsulunun formalaşdırılması bu münaqişənin arxasında Avropa dövlətlərinin dayandığını bir daha təsdiqləməklə bərabər, həm də Osmanlı hakimiyyətinin devrilməsini əsaslandırırdı. Əslində belə bir vəziyyətin Suriya və Livanda təşkil edilməsi təsadüfi xarakter daşımırdı. Belə ki, Müqəddəs torpaqlara nəzarət uğrunda gedən mübarizədə Osmanlı ərazisində, xüsusilə bu rayonlarda süni münaqişələrin yaradılması istiqamətində atılan addımlar əslində bütün Avropa dövlətlərini qane edirdi. Sonradan burada yəhudilər üçün ayrıca yaşayış yerinin yaradılmasına dair Osmanlı dövlətindən tələblər edilməsi də, həmin məsələnin tərkib hissəsi idi. Burada diqqəti çəkən digər faktorlardan biri də bu məsələnin İngiltərə tərəfindən ortaya atılması idi. Belə ki, Fransanın

Livan və Suriyada nüfuzunun güclü olduğunu nəzərə alan İngiltərə burada balansı tarazlaşdırmaq üçün yəhudi məsələsinin həllini yenidən ortaya atdı və sonrakı bütün dövrlərdə ərəblərin tərəfindən çıxış etməsinə baxmayaraq, yəhudilərin malik olduğu potensialdan yalnız kritik vəziyətlərdə istifadə etməklə regionda öz maraqlarını təmin edə bildi.

Qeyd olunanlar fonunda demək olar ki, 1845-ci il iğtişaşları heç də lokal xarakterli münaqişə, yaxud qarşıdurma deyildi və bunun arxasında Avropa dövlətlərinin Şərq məsələsinin həlli istiqamətində reallaşdırılan növbəti planlar dayanırdı. Ona görə də türk əsgərlərinin tərksilah edilməsindən sonra formalaşdırılan yeni sistem elə düşünülmüşdü ki, burada gedən bütün proseslərə nəzarət etməklə bərabər, həm də ona təsir etmək mümkün olsun. Bu mənada kayma-kamlığın saxlanması ilə bərabər burada məhkəmə funksiyasını həyata keçirən Şuranın yaradılması xüsusi olaraq qeyd olunmalıdır. Bu qurum nəinki proseslərə nəzarəti reallaşdırır, hətta vergi yığımına və paylanmasına nəzarəti də reallaşdırmış olurdu. Belə bir hal isə burada Osmanlı idarəçiliyini də nəzarətə almaqla bərabər, həmçinin ikili idarəetməni səciyyələndirirdi. Əslində isə belə bir idarəetmə sisteminin formalaşdırılması burada münasibətlərin təkamülünü yeni müstəviyə keçirməyi əsaslandırırdı. Yeni idarəetmə sisteminə əsasən yaradılan Şuranın tərkibinə iki maroni, iki druz, iki sünni, iki pravoslav və iki melikit (yunan-uniat) daxil edilirdi. Lakin bu bölgü də yaranmış vəziyyətdə ziddiyyəti aradan qaldırmadı və münaqişənin həllini əsaslandırmadı. Əksinə mövcud bölgü və idarəetmə istər dini, istərsə də milli münasibətlərin daha da gərginləşməsinə şərait yaratmış oldu ki, bu da ilk növbədə Avropa dövlətlərinin planlarına uyğun idi. Çünki bu halda onlar Suriya və Livanda gedən proseslərə daim müdaxilə etmək imkanı əldə etmiş olurdular.

*İngiltərənin balans-laşdırma siyasəti* Suriyada Fransanın artan nüfuzunun qarşısını almaq məqsədilə İngiltərə burada druzların dəstəklənməsinin istənilən nəticəni vermədiyini nəzərə alaraq, yeni siyasi vasitənin vacibliyi məsələsini qəbul etmiş oldu. Bu vasitə isə öz torpaqlarından didərgin salınmış yəhudilərin müdafiəsi idi. Əslində belə bir faktordan istifadə edilməsi, İngiltərəyə müddətsiz olaraq Yaxın Şərqdə öz siyasi məqsədlərini

həyata keçirməyə imkan və şərait yaratmış olurdu. Çünki regionda yəhudilərin mövqeyi kifayət qədər güclü olmaqla bərabər, həm də güclü təsir, imkan və vasitələrə malik idilər ki, bu da İngiltərəyə əlavə təzyiq vasitəsi kimi əlverişli idi. Yəhudilərin faktiki olaraq maliyyə və ticarət, eləcə də kommersiya məsələ və proseslərinə nəzarəti, İngiltərənin buradakı siyasəti üçün yeni imkanlar açırdı. Ona görə İngiltərə bu faktordan birinci Fransa ekspedisiyası dövründə olduğundan daha fərqli və təsirli eyni zamanda köklü şəkildə istifadə etməyi məqsədəuyğun hesab etdi. Bu mənada İngiltərə Ərəb Şərqində öz nüfuzunun bərqərar edilməsində dini missiyaların fəaliyyətinə daha çox diqqət yetirməyə başladı.

XIX yüzilliyin əvvəllərində bir növ arxa plana keçmiş bu faktor həmin əsrin 40-cı illərində yeni vüsətlə siyasi meydana gəlmiş, yaxud gətirilmiş oldu. Xristian missionerləri Suriya və Livanda müxtəlif tipli dini məktəb, xeyriyyə cəmiyyətləri və sair qurumlar açmağa başladılar ki, bu qurumlar da onların təmsil etdikləri ölkələrin maraqlarını müdafiə edirdilər.

1820-ci ildə burada ilk Amerika missionerləri görünməyə başladı. Onlar Beyrutda fəaliyyət göstərən presviteriantlar idi. Amerikalıların Yaxın Şərqdə nüfuz bərqərar etmələri təbii ki, Avropa dövlətləri tərəfindən əks təsirlə qarşılanmaya bilməzdi. 1860-cı ildə Amerika presviteriantlarının burada 30 məktəbi və çoxlu sayda tipoqrafiyaları var idi. 1866-cı ildə isə onlar Suriyada ilk protestant kolleci açdılar. Bu kollec də sonradan Amerika universitetinə çevrildi.

Regionda ilk xristian qurumlarını açan missionerlər sırasında katoliklərin lazarist və iezuit ordenləri də var idi. Onların fəaliyyəti Vatikan tərəfindən istiqamətləndirilir, Fransa tərəfindən dəstəklənir və müvafiq yardımlar edilirdi. 1846-cı ildə Papanın Yerusəlim patriarxlığını yenidən bərpa etməsi, məhz bu fəaliyyətin məntiqi nəticəsi idi. Qeyd edək ki, bu patriarxlıq səlib yürüşləri dövründə fəaliyyətdə olmuşdur.Lakin bu yürüşlərin məğlubiyyəti ilə əlaqədar olaraq öz fəaliyyətlərini dayandırmışdılar. Bu mənada 6 əsr sonra bu patriarxlığın bərpa edilməsinin xristian kilsəsi, eləcə də Avropa dövlətləri üçün böyük və xüsusi əhəmiyyəti olmaqla bərabər, həm də iri dövlətlərin Yaxın Şərqə nisbətdə yeni siyasi kurs həyata keçirldiyinin təzahürü idi.

1849-cu ildə Rusiya Yerusəlimdə dini missiyasını təşkil etdi. Balkanları rusların fəaliyyət dairəsinə çevirmək istəyən Rusiya, Osmanlı imperiyasının arxasında da müvafiq addımlar atırdı..Bu addımlar sırasında Yaxın Şərqdə pravoslav təriqətilə ibadət edən əhalinin müdafiəsini təmin etmək idi. Bu məqsədlə Suriya və Livanda pravoslav missiyasının yaradılması başlıca vəzifə kimi dururdu.

İri dövlətlərin Yaxın Şərqdə müxtəlif adlar altında öz nüfuzlarını bərqərar etmək istiqamətində atdığı addımlar, burada xüsusi maraqları olan İngiltərə tərəfindən nəzərdən qaçırıla bilməzdi. Rəsmi London ilk növbədə Məhəmməd Əlinin məğlubiyyətindən maksimum dərəcədə yararlanmaq istəyirdi. Çünki həmin məğlubiyyət İngiltərəyə yalnız Misirdə deyil, Yaxın Şərqin digər regionlarında da möhkəmlənmək üçün əlverişli şərait yaratmışdı. Belə vəziyyət İngiltərənin Hindistandakı müstəmləkələrinin müdafiəsi üçün böyük əhəmiyyət daşıyırdı. Bu mənada ingilislər digər Avropa dövlətlərindən bir qədər fərqli siyasət yeritdilər. Belə ki, rəsmi London iki kartdan–protestantlardan və almanların Fələstini müstəmləkəyə çevirmək planlarından- eyni vaxtda vahid şəkildə istifadəni daha məqbul hesab etdi. Bu məqsədlə 1841-ci ildə Yerusəlimdə ingilis-prus yepiskopluğu yaradıldı. Bu İngiltərənin məqsədyönlü siyasətinin tərkib hissəsi olmaqla bərabər, həm də Rusiyanın buradakı fəaliyyətinin qarşısına müəyyən dərəcədə sipər çəkmək məqsədi güdürdü. Lakin İngiltərə burada yəhudilərin məskunlaşması istiqamətində də intensiv siyasət yeridirdi ki, bu da qarşıya qoyulmuş məqsədə nail olmaqda güclü sosial bazanı təşkil etməli idi.

XIX yüzilliyin ortalarında Fələstində yəhudilərin sayı o qədər də çox deyildi və onların cəmi 11 min nəfər olduğu tarixi ədəbiyyatlarda qeyd edilir. Lakin məsələnin mahiyyəti yəhudilərin burada az sayda olması deyil, İngiltərənin həmin azlıq hesabına öz siyasi məqsədinə çatmaq istiqamətində yəhudilərdən istifadə etməsi idi. 1839-1841-ci illərin Şərq böhranı zamanı İngiltərə Napoleon Bonapartın Fələstində yəhudi dövləti yaratmaq istəyini təsdiq edən arxiv materiallarını geniş ictimaiyyətə bəyan etdi. Belə bir addım təsadüfi xarakter daşımırdı. Belə ki, Napoleonun məğlubiyyəti ilə gözdən düşən bu layihənin İngiltərə tərəfindən yenidən ortaya

atılması, əslində getdikcə nüfuzları və nəzarət mexanizmləri möhkəmlənən yəhudilərin etimadını qazanmaq məqsədi güdürdü. Ona görə də, 1838-ci ildə lord Şefteberi, sonra Qouler və Yerusəlimdəki Birtaniya konsulu Ceyms Finn yəhudilərin Fələstinə köçürülməsi və burada Britaniya protektoratlığı altında Yəhudi dövlətinin yaradılmasına dair müxtəlif layihələrlə çıxış etməyə başladılar. Bu layihələr İngiltərəinin baş naziri Palmerston tərəfindən çox razılıqla qarşılandı və o, bu layihəyə dolayı yolla dəstək verəcəyini gizlətmədi. Belə bir mövqe ondan irəli gəlirdi ki, Palmerston Yəhudi dövlətinin yaradılmasında imperiya kommunikasiyalarının təhlükəsizliyinə təminat verirdi. Digər tərəfdən, bu layihə çox güclü maliyyə imkanları və təzyiq vasitələrinə malik olan ingilis-yəhudi bankiri Montefiore tərəfindən də dəstəklənirdi. Montefiore özü isə digər yəhudi maliyyəçi maqnatı olan Rotşild ailəsi ilə qohum idi. Bu mənada İngiltərə hökuməti Yəhudi dövlətini faktiki olaraq yəhudi maliyyəsinin hesabına yaratmaqla bərabər, ona nəzarəti də öz əlində saxlamış olurdu. Bununla belə, həmin əlaqələr yenə regionda Avropa dövlətlərinin apardığı mübarizə kontekstində istənilən nəticəni və nəzərdə tutulan təsiri vermədi. Belə ki, Montefiore dəfələrlə Suriya, Livan və Fələstinə səfər etməsinə və hətta Yaffa yaxınlığında böyük portoğal bağları almasına baxmayaraq, digər iri yəhudi maqnatlarını buraya kapital qoymağa maraqlandıra bilmədi. Bunun başlıca səbəbi isə həmin dövr bu məsələnin Avropa dövlətləri tərəfindən kifayət qədər aydın şəkildə həll edilməməsi və xüsusilə təhlükəsizlik probleminin aradan qadırılmaması idi. Əslində bu istiqamətdə aparılın bütün işlərdə sonradan Yəhudi dövlətinin yaradılmasından əvvəl, onun təhlükəsizliyinin təmin edilməsi məsələsi daha çox ön planda olduğundan, bu məsələ XX əsrin ikinci yarısınadak uzanmış oldu. Nəticə etibarilə ingilis-prus yepiskopluğundan istğifadə etmək səyləri də İngiltərənin Suriya və Livanda möhkəmlənmək siyasətini təmin edə bilmədi. Burada həm yepiskopluğun fəaliyyəti, həm də İngiltərə və Prussiya arasında formalaşmaqda olan ziddiyyət həmin səy və cəhdləri nəticə etibarilə sual altına almış oldu.

Avropa dövlətlərinin Yaxın Şərqdəki rəqabəti, xüsusilə də burada artmaqda olan dini təriqətlərin fəaliyyətində özünü göstərdi. Məhz bu təriqətlər arasında gedən qızğın rəqabət və mübarizə yeni

bir beynəlxalq münaqişə və böhranın yaranmasına səbəb oldu. 1853-1856-cı illəri əhatə edən Krım müharibəsi bunun bariz nümunəsi idi. Bu və ya digər müqəddəs yerə sahib olmaq, yaxud zəvvarların buranı ziyarət etməsindən əldə olunmuş gəlirə nəzarət etmək, hətta hər hansı bir dini məbədin təmiri uğrunda gedən mübarizə faktiki olaraq beynəlxalq münasibətlərə öz təsirini göstərirdi. İlk baxışdan əhəmiyyətsiz görünən belə bir məsələdə Allahın qəbri kilsəsi və Vifleyem məbədinin damının təmiri üstündə düşən mübahisə, məhz Krım müharibəsinin başlanmasına bəhanə oldu. Lakin həmin bəhanənin beynəlxalq miqyasa qaldırılmasında «xidməti» olmuş dövlətlərin də rolu nəzərdən qaçırılmamalıdır. Belə ki, həmin bəhanənin beynəlxalq münaqişəyə çevrilməsində ilk növbədə İngiltərə və Fransa maraqlı idi. Krım müharibəsində Osmanlı dövləti qalib dövlətlər sırasında olsa da, onun bu müharibəni uğurla başa çatdırması üçün Avropa dövlətlərindən aldığı borc nəticə etibarilə İstanbulun kreditor dövlətlər tərəfindən maliyyə əsarətinə alınmasına zəmin yaratmış oldu. Bu isə Osmanlı dövlətini Avropa dövlətlərinin maraqlarını təmin edən yeni islahatlar keçirməyə məcbur edən başlıca vasitə rolu oynadı.

*Kəsruan üsyanı* 1856-cı ildə xətti-humayunun verilməsindən dərhal sonra Suriyada yeni bir böhran baş verdi. Böhranın baş verməsində təkan rolunu həmin manifestin elan edilməsi oynamışdı. Livan kəndlilərinin bu sənədi onların vətəndaş bərabərliyini təmin edən, onları feodal zülmündən azad edən bir sənəd kimi qəbul etmələri faktiki olaraq ölkədə tam anlaşılmazlığa səbəb oldu. Əslində fərmanın elan edilməsindən əvvəl onun haqqında əhali arasında müvafiq işin aparılmaması nəticə etibarilə onsuz da narahat rayon olan Livan və Suriyada sosial-ictimai və siyasi vəziyyətin gərginləşməsinə səbəb və təkan oldu.

Burada bir faktı da qeyd etmək lazımdır ki, bu da XIX yüzilliyin 40-50-ci illərində xarici ticarət və mal dövriyyəsinin artması və yüksəlməsi kəndlilərin istismarının güclənməsinə səbəb olduğundan, kəndlilər əslində narazılıqlarını ifadə etmək üçün bəhanə və səbəb axtarırdılar. Kəndlərdə narazılıq isə özünün epoqeyasına yüksəl-mişdi. Bu haqda onlar Osmanlı hökumətinə ünvanladıqları məktub və müraciətlərində yerlərdəki özbaşınalıq və

bürokratiyadan, vergilərin həddindən artıq olmasından şikayətlənirdilər. 1858-ci ilin əvvəllərində Kəsruanın müxtəlif kəndlərindən Zux kəndinə toplan-mış 300 kəndli bununla əlaqədar ərizə yazdı. Ərizə xüsusi nüma-yəndə heyəti ilə Beyrut qubernatoru Xurşud paşaya göndərildi. Kəndlilər üzərində bütün feodal hüququnun ləğv edilməsi ərizənin mahiyyətini təşkil edirdi. Lakin paşa bunun qeyri-mümkün olduğunu bildirdikdə, kəndlilər 12 il əvvəl gizlətdikləri silahları çıxararaq yenidən mübarizəyə qalxdılar. Üsyanın rəhbəri Tanius Şahin idi. Rus və sovet tarixi ədəbiyyatlarında bu üsyanın sinfi xarakter daşıdığı qeyd olunsa da, əslində bu üsyan sinfi deyil, milli-etinik münaqişənin başlanması üçün yaradılan yeni bir toqquşma və iğtişaş idi. Çünki hadisələrin sonrakı inkişafı göstərdi ki, bu proses heç də sosial zəmində deyil eyni zamanda milli ədavət zəminində də proseslərin təkamülünə səbəb olmuşdur. Bu faktor isə həmin hadisələrdə maraqlı olan üçüncü tərəfin də iştirakını istisna etmirdi.

Kəsruanda kəndlilərin maroniləri qovması ilə proseslərin yeni mərhələyə keçməsi artıq Osmanlı dövlətinin beynəlxalq səviyyədə yeni qayğılarını əsaslandırmış oldu. Yaranmış vəziyyətdə Porta ənənəvi olaraq qalib tərəfi tanımaqla hadisələri lokallaşdırmaq mövqeyindən çıxış etsə də, bu özünü doğrultmadı. Burada Tanius Şahinin kaymakam təyin edilməsi münaqişənin səngiməsinə deyil, onun yeni vüsət alması və xarici dövlətlərin məsələyə qarşmasına şərait yaratmış oldu. Nəticədə üsyan bütün Livana yayıldı. Latakiya və mərkəzi Livanda maronilər druzlara qarşı iri miqyaslı hərbi əməliyyatlara başladılar. Adekvat addımları druzlar da atdı. Beləcə tarixdə özünə yer almış növbəti maroni-druz iğtişaşı başlanmış oldu.

*1860-cı il maroni-druz qırğınları*

1859-cu ilin yanvarında başlanmış üsyan 1860-cı ilin yazında artıq açıq şəkildə davam edən növbəti maroni-druz münaqişəsinə çevrildi. Qeyd etdiyimiz kimi, bu münaqişələrin baş verməsi və onun təkamül etdirilərək beynəlxalq münaqişə səviyyəsinə çatdırılmasında Avropa dövlətləri xüsusi rol oynayırdılar. Bu mənada, 1860-cı il maroni-druz qırğını dı istisna deyildi. Belə ki, bu qırğının da başlanması və genişlənməsində Beyrutdakı fransız konsulunun rolu az olmamışdır. Bütün

vasitələrdən istifadə edərək burada möhkəmlənməyə can atan Fransanın bu cəhdi də istənilən nəticəni vermədi.

Qırğının daha da genişlənməsi mərhələsi isə həmin ilin may ayına təsadüf edir. Mayın 22-də maronilərdən ibarət silahlı dəstənin Beyrut qapıları yanında toplaşmış druzlara atəş açması nəticəsində bir druz öldü, digəri isə yaralandı. Maronilərin bu hərəkəti Beyrutdakı fransız konsulu tərəfindən təhrik edilmiş bir addım idi. Qısa davam edən həmin atışma isə nəticə etibarilə bütün Livan ərazisinə yayılaraq milli zəmində baş vermiş münaqişəyə çevrildi. Üç gün ərzində may ayının 29-dan 31-dək Beyrut yaxınlığında 60-dan çox kənd yandırıldı və yerlə-yeksan edildi. Artıq iyun ayında münaqişə maroni və druzların qarışıq yaşadıqları ərazilərə-Cənubi Livana, Antilivana keçdi. Bütün Sayda, Xasbəy, Raşey, Deyr əl-Kamar münaqişəyə cəlb olundu.

İyul ayında isə münaqişə artıq Suriyaya keçdi. Dəməşqdə xristianlar və müsəlmanlar arasında narazılıqlar və qarşıdurmalar yaranmağa başladı. Lakin burada da bir məsələyə diqqət yetirmək lazım gəlir. Belə ki, Dəməşqdə baş verən toqquşmalar rus və sovet tarixşünaslığında bu qırğınların türk əsgərləri ilə birgə törədildiyi qeyd edilsə də, bu arqumentin həqiqətə uyğunluğu yoxdur. Belə ki, xristianların müsəlmanlar tərəfindən kütləvi şəkildə qətlə yetirildiyi həmin akt, əslində Dəməşqdəki fransız agentləri tərəfindən həyata keçirilmişdi. Məqsədyönlü şəkildə reallaşdırılan bu aksiyadan güdülən məqsəd isə aydın idi. Fransa Osmanlı imperiyasının bu rayonunda möhkəmlənərək İngiltərə ilə aparılan rəqabətdə götürülmüş revanşı qələbə ilə başa çatdırmaq istəyirdi. Xristianların qətlə yetirilməsindən sonra baş verən bütün hadisələr də yenə onların rəhbərliyi altında həyata keçirilirdi. Kilsələrin, missioner məktəb-lərinin dağıdılması və yandırılması iyulun 9-dan 11-dək davam etdi. Müsəlmanların bir qismi xristinların təqib edilməsinə qarşı çıxırdı. Bunların sırasında Əlcəzairin milli qəhrəmanı Əbdül Qədir də var idi. Həmin iğtişaşlar günü o, öz sarayında onlarla maroniyə sığınacaq vermişdi. Bu fakt həmin qırğına münasibətdə bir tendensiyanı da ön plana çəkir ki, bu da druzların dini mənsubiyyəti ilə birbaşa bağlı olan məsələdir. Belə ki, istər xristianlar, istərsə də müsəlmanlar druzları bidətçi kimi qəbul edirdilər. Bir sıra ədəbiy-yatlarda druzların şiə müsəlman olduqları qeyd olunsa da, onların dini

mənsubiyyətinə dair həmin dövr Suriya və Livanda səyahətdə olmuş Baron Brambəus Senkovski Suriya haqqında xatirələrində druzların dini mənsubiyyətinə münasibətdə bir sıra fikirlər söylə-mişdir. O qeyd edirdi ki, «druzlar XI əsrin əvvəllərində Məhəmməd ibn əl-Dərazinin Fatimilər Misirindən qaçmasından sonra əsası qoyulmuş ismaili təriqətində bir təlimin daşıyıcılarıdır. Druzların təlimini xristiahğın, islamın, zərdüştliyin və islamaqədərki digər dini təlimlərdən götürülmüş ideyalar təşkil edir. Onların dini özündə İlahini təcəssüm etdirdiyini iddia edən Misir xəlifəsi Hakimin ideyalarından formalaşmışdır. Druzlar Hakimin ikinci gəlişinə, ruhların dəyişməsinə inanır və ona itaət edirlər. Druzların dini rəhbərlərini ukkal adlandırırlar ki, bu da «bilən» mənasını verir». Onların icmalarını təmsil edənləri isə cuxxal adlandırırlar. Cuxxal isə avam, cahil mənasını verir. 1860-cı il qırğını Suriya üçün baha başa gəldi. Bu iğtişaş və qırğınlar nəticəsində 30 mindən çox adam öldürüldü. Hər iki tərəfə-həm maronilərə, həm də druzlara ciddi ziyan dəydi. 380 xristian kəndi, 580 kilsə və 40 monastr yerlə-yeksan edildi.

*1860-1861-ci illər Fransa ekspedisiyası*

1860-cı ilin yayında Fransa Suriya və Livanda formalaşdırmaq istədiyi münaqişənin epoqeyasına çatdığı bir zamanda, Osmanlı dövlətinin daxili işlərinə qarışmaq istiqamətində növbəti addımın atılmasını məqsədəuyğun hesab etdi. III Napoleon məsələyə qarışmağın vaxtı çatdığını bildirdikdən sonra Fransanın hakim dairələri belə bir qərar verdilər ki, Fransa artıq Suriyada istənilən səviyyədə möhkəmlənə biləcəkdir. Bu məqsədlə Suriya xristianlarının müdafiəsinə qalxdığını bəyan edən III Napoleon, 1860-cı ilin iyul ayında buraya qoşun göndərilməsi haqqında əmr verdi. Fransanın Suriyaya qoşun göndərməsi Osmanlı dövlətini narahat etdi. Buna görə də, İstanbul Suriyada qırğınların yatırılması məqsədilə münaqişəyə müdaxilə etdi. Bu məqsədlə Sultan Əbdül Məcid imperiyanın ən sadiq yüksək rütbəli əyanı olan Fuad paşanı fövqəladə səlahiyyətlərlə Suriyaya ezam etdi. Fransızların kütləvi surətdə müsəlman və druzların qırılmasının qarşısını almaq məqsədilə Fuad paşa münaqişədə səbəbkar olan bütün druz və müsəlmanları edam etdirdi. Nəticədə 111 nəfər güllələndi, 57 nəfər dar ağacından asıldı, 325 nəfər sürgün

edildi, 145 nəfər isə ölkədən çıxarıldı. Bununla maroni-druz qırğınının qarşısı alındı. Hər iki tərəf tam olaraq Osmanlı dövlətinin buradakı hakimiyyət və nüfuzunu bir daha tanımış oldu. Buna baxmayaraq, Fransanın müxtəlif dairələrində Osmanlı dövlətinin bu tədbirini sultan tərəfindən oynanılan bir komediya adlandıraraq, edamların sayını daha da artırmağı tələb edirdilər. Bu tələbləri dəstəkləyən rəsmi Paris Osmanlı dövlətinə qarşı ultimatumla çıxış etdi.

Bununla belə, Fransanın Suriyada möhkəmlənmək iddiaları İngiltərə və Rusiyanın maraqları ilə tərs mütənasib idi və nə London, nə də Peterburq fransızların Osmanlı dövlətinin bu mühüm geostrateji rayonunda möhkəmlənməsini istəmirdi. Bu məqsədlə də Rusiya və İngiltərə beynəlxalq konfransın çağırılmasını təkid edirdilər. Nəticədə, gərgin diplomatik mübarizədən sonra altı dövlət-İngiltərə, Rusiya, Fransa, Avstriya, Prussiya və Osmanlı dövlətinin iştirakı ilə 5 sentyabr 1860-cı ildə razılaşma imzalandı. Sazişə əsasən 12 min nəfərdən çox olmayan fransız korpusu Suriyada 6 aydan çox qalmalı deyildi. İştirakçı dövlətlərin öz komissarlarını Suriya və Livana göndərməsi isə faktiki olaraq Fransanın hərbi-siyasi səylərini heçə endirirdi. Bu məqsədlə də onlar beynəlxalq komissiya yaratdılar ki, bu komissiya da Suriya və Livanda yaranmış vəziyyəti öyrənməli, günahkarları üzə çıxarmalı və yeni münaqişənin baş verməsinin qarşısını almalı idi.

Sazişin imzalanması ərəfəsində Fransanın Beyruta qoşun çıxarması ümumi vəziyyətə təsir etmək məqsədi güdsə də, Paris bu istəyinə də nail ola bilmədi. Çünki fransız əsgərlərinin asayiş yaratmaq istədiyi rayonlarda artıq türk əsgərləri tam sabitlik bərqərar etmişdi. Fransızların öz məqsədlərinə çatmaq üçün Livanın şimalında qiyamçı fəllahlara qarşı əməliyyat keçirmək cəhdləri də baş tutmadı. Belə ki, maroni kəndlilərinin rəhbəri Livan dağlarında gizlənməyə müvəffəq olduqdan sonra, burada kaymakam təyin olunan Yusif Kərəm fransızların köməyi ilə Kəsruandakı kəndli həyacanlarını yatıraraq torpaqları maroni şeyxlərinə qaytardı.

Fransa Suriya və Livanda qeyri-sabitliyin mövcudluğu bəhanəsi ilə 5 sentyabr 1860-cı il sazişindən yan keçərək burada qalmaq müddətini uzatmağa cəhd etsə də, İngiltərə və Avstriyanın müharibə ultimatumları ilə qarşılaşmış oldu. Nəticədə kompromis

qərar kimi fransız qoşunlarının Suriyada qalma müddəti 1861-ci il iyun ayının 5-nə qədər olduğu müəyyən edildi. Bununla da, Fransanın Suriya və Livanda möhkəmlənmək siyasəti tam iflasa uğradı. Lakin Livan ətrafında mübahisə davam edirdi. Uzun sürən mübahisələrdən sonra beynəlxalq komissiya belə bir qərara gəldi ki, Livanda mövcud olan idarəetmə rejimi dəyişdirilsin. Komissiyanın 9 iyun 1861-ci ildə İstanbulda təsdiq və qəbul etmiş olduğu konvensiyaya əsasən Livana dair hazırlamış olduğu yeni status əvvəlki iki kaymakam sistemini ləğv edir, əvəzində isə Dağlıq Livan Osmanlı dövləti daxilində muxtariyyat əldə edirdi. Muxtariyyatin başında birbaşa sultan tərəfindən təyin olunan qubernator (mütəsərrif) dayanırdı. Qubernator nə Beyrut, nə də Dəməşq paşalarına deyil, yalnız sultana tabe edilirdi.

Qubernatorun yanında isə 12 nəfərdən ibarət İnzibati Şura yaradılırdı. Bu Şuraya isə Livanda fəaliyyət göstərən dini qurumların hər birindən iki nəfər olmaqla nümayəndələr– maroni, druz, sünni, şiə, pravoslav və yunan-uniat daxil edilirdi. İstənilən məsələyə dair yığıncaq keçirmək hüququna malik olan Şura vergilərin yığılması və onların bölüşdürülməsi səlahiyyətlərinə malik idi. Vilayət isə altı müdirliyə bölünürdü ki, onu da müdirlər idarə edirdi. Nəzərdə tutulurdu ki, onlardan üçü maroni olmalıdır. Qalan üçünün isə biri druz, o biri pravoslav, digəri isə yunan-uniat olmalı idi. Hər bir müdirliyin yanında əyalət şuraları yaradılırdı ki, bunlar da bilavasitə yerlərdəki prosesləri nəzarətdə saxlamalı, vəziyyəti idarə etməli idilər. Dağlıq Livanda isə xüsusi polis və məhkəmə sistemi də formalaşdırılırdı. Yaradılan vilayətin inzibati mərkəzi isə Deyr əl-Kamar təsdiqlənirdi. Qubernator Livan əhalisini tərksilah etmək və Osmanlı dövlətinin müvafiq hakimiyyət orqanlarını köməyə çağırmaq hüququna malik idi. Konvensiyaya əsasən Livan Osmanlı dövlətinə bac verməli idi.

Beynəlxalq komissiyanın Livana dair müəyyən etmiş olduğu Orqanik (üzvi) status üç il müddətinə təsdiqlənmişdi. Lakin 1864-cü ilin sentyabrında iştirakçı dövlətlər müəyyən olunmuş statusu qismən dəyişikliklər etməklə daimi status şəklində qəbul etdi. Edilmiş dəyişikliyə əsasən daha bir maroni vilayəti yaradılmaqla bərabər, qubernator yanındakı şura yenidən təşkil edildi. Şuraya dörd maroni, üç druz, üç pravoslav və yunan-uniat, bir sünni və bir şiə daxil edildi.

Livana dair beynəlxalq komissiyanın müəyyən etmiş olduğu Orqanik status 1914-cü illədək davam etdi.

*Suriya, Livan, Fələstin yeni dövrün ikinci mərhələsində*

Almaniyanın Osmanlı imperiyasının iqtisadiyyatına sürətlə soxulmasına baxmayaraq, ingils və fransız kapitalistləri Osmanlı imperiyası və onun ərəb əyalətlərində mühüm mövqelərini qoruyub saxlayırdılar. Fransanın təsir dairəsinə Suriya, Livan, İngiltərənin təsir dairəsinə isə İraq və Fələstin düşürdü. Fransa və İngiltərə İstanbulun ərəb əyalətlərinin separatist meyllərini müdafiə edirdi. Özlərinin nüfuz və təsirlərindən istifadə edərək ərəb millətçilərini öz tərəflərinə çəkməyə və bununla yanaşı gələcəkdə Osmanlı imperiyası bölünərkən, onlardan məqsədli şəkildə istifadə edib öz mövqelərini möhkəmləndirməyə çalışırdı.

XX yüzilliyin 70-ci illərindən etibarən Fransa Suriya və Livanı ucuz kənd təsərrüfatı məhsullarının mənbəyinə çevirmişdi. XX yüzilliyin əvvəllərində Suriyaya idxal olunan malların üçdə birini Fransa ödəyirdi. Lion toxuculq fabrikinə göndərilən Suriya ipək-xammalına nəzarət də yenə fransız kapitalistlərinin ixtiyarında idi. Fransızlar Beyrutda limanı avadanlıqla təchiz etdilər, ölkənin daxili rayonlarını dəniz limanı ilə birləşdirən bir neçə dəmir yolu-Yaffa-Yerusəlim, Beyrut-Dəməşq dəmir yolu xətti çəkdilər. Suriya və Fələstinin əsas şəhərlərində Fransanın banklarının, xüsusilə ölkənin maliyyə əsarəti altına alınmasında mühüm rol oynayan «Kredi lionne» bankının bölmələri açılmışdı.

İngiltərə və Fransa İstanbulun ərəb əyalətlərində öz iqtisadi və siyasi mövqelərini qoruyub saxlamaq üçün Belgiya, Avstriya-Macarısatan və İtaliya kapitalistləri ilə mübarizə aparmalı olsalar da, əslində onların əsas rəqibi alman kapitalistləri idi. Alman «Doyçe Orient Bankı» və «Doyçe Palestina-bank»ının Suriya və Fələstinin bir sıra şəhərlərində filialları fəaliyyət göstərirdi.

XIX əsrin 80-90-cı illərində Suriya və Livan üsyanlar burulğanında idi. 1886-cı ildə məşhur druz qəbiləlrindən birinin nümayəndəsi Şibli Atraşın başçılığı altında Cəbəl-Druzda kəndli üsyanı baş verdi. Türklərə qarşı mübarizədə druz kəndliləri tərəfindən qızğın müdafiə olunan Şibli Atraş «fəllahların dostu» adını

almışdı. Türk hakimiyyəti Atraşın tələblərini yerinə yetirdi, onu druzların əmiri təyin etdi və yalnız bundan sonra üsyan yatırıldı. 1896-cı ildə Cəbəl-Druzda druzlar içərisində hərbi səfərbərlik aparmaq istəyərkən yeni bir üsyan baş verdi. 1899-cu ildə türk hakim dairələri Cəbəl-Druzun mərkəzi idarəsi-Sueydədə kazarma tikmək istəyərkən böyük itgi ilə nəticələnən növbəti üsyan baş verdi. Suriya və Livanın digər iri şəhərlərində 1895-ci ildə Hələbdə və 1903-cü ildə isə Beyrutda, 1906-cı ildə Cəbəl-Druzda üsyan və çıxışlar baş verdi.

1875-ci ildə Beyrutda İbrahim Yazıçı və Faris Nimrin rəhbərliyi altında ərəb ziyalı qrupunu özündə birləşdirən gizli cəmiyyət yarandı. Cəmiyyətin Dəməşq, Tripoli və Sueydədə filialları var idi. Onun 1880-ci ildə formalaşmış proqramında Suriya və Livanın müstəqilliyi, ərəb dilinin dövlət dili elan edilməsi, senzuranın ləğv edilməsi, söz azadlığı verilməsi və hərbi kontigentdən Suriya və Livan ərazisindən kənarda istifadə edilməsinə yol verilməməsi göstərilirdi.

Fransa ərəb millətçiləri üzərində öz təsirini yaymaq və onlardan türklərə qarşı mübarizədə istifadə etmək üçün xüsusi fəallıq göstərirdi. Fransız konsulluğu Livanda bir sıra qəzet nəşr etdirmək məqsədilə Dəməşq və Beyrutda ərəb millətçiləri və maliyyəçiləri ilə əlaqə yaratmışdı. Fransa hökuməti Suriya və Livanda 25 mindən artıq şagirdin təhsil aldığı fransız məktəblərini maliyyələşdirirdi və müxtəlif növ elmi, mədəni-təhsil və xeyriyyə təşkilatları ilə əlaqə yaratmış və onların üzərində öz təsirini yaya bilmişdi.

*Suriya Livan, Fələstin birinci dünya müharibəsi ərəfəsində və illərində:* 1912-ci ildə Trablis müharibəsi zamanı İtaliya hərbi gəmiləri Beyruta yaxınlaşaraq, türk gəmilərini atəşə tutdular. Bu isə Fransanı açıq şəkildə öz iddiaları və tələbləri ilə çıxış etməyə imkan verdi. 1912-ci ilin dekabrında Fransanın baş naziri Rayson Puankare Deputatlar palatasında bəyan etdi ki, Fransa Suriya və Livana xüsusi maraq göstərir, yerli əhaliyə olan «rəğbəti», öz mövqeyini və maraqlarını müdafiə etmək hüququ onu heç zaman bu ölkəyə olan ənənəvi mövqeyindən əl çəkmək imkanı verməyəcəkdir. Eyni zamanda 1912-ci ilin dekabrında Fransa Livan məsələsi ilə əlaqədar yeni protokolun imzalanmasına nail oldu. Bu protokolda

1861 və 1864-cü illərdəki konvensiyalara əsasən Livana verilmiş muxtariyyat hüquqları daha da genişləndirildi.

İngiltərə hökuməti adından xarici işlər naziri E.Qrey parlamentdə çıxışında bildirdi ki, 1912-ci il ingilis təminatı yalnız dəmiryolu tikintisinə aiddir və İngiltərə Osmanlı imperiyasının bütövlüyü və toxunulmazlığını müdafiə edirdi.

Suriya və Livanda Osmanlı imperiyası çərçivəsində islahatlar keçirilməsini nəzərdə tutan bir sıra leqal cəmiyyət və komitələr yaranmışdı. Onların içərisində ən mühümü «Beyrut İslahatlar Liqası», «Livan Dirçəliş» cəmiyyətini («ən-Nəhdə əl-Lubnaniyyə») göstərmək olar. Qeyd etdiyimiz cəmiyyətlərdə Suriya və Livanın komprador burjuaziyasının güclü təsiri özünü göstərirdi. Bu cəmiyyətlər Misirin, ABŞ-ın, Fransanın mühacir mərkəzləri ilə həmişə sıx əlaqədə olmuş və fransız konsulluğu ilə sıx əməkdaşlıq edirdi. Onlar hətta 1913-cü ildə Fransa hökumətinə məktubla müraciət edərək Fransadan Suriya və Livanı öz təsirləri altına almağı və burada protektoratlıq yaratmağı xahiş edirdilər. Liqa Livanla bağlı bütün məsələlərə nəzarəti Beyrut vilayətinin muxtar hökumətinin səlahiyyətlərinə daxil edilməsini tələb edirdilər. Onların fikrinə görə mərkəzi hökumət yalnız müdafiə, xarici əlaqələrlə və ümumdövlət maliyyəsi ilə məşğul olmalıdır. İslahatlar Liqası həm də tələb edirdi ki, ərəb dili dövlət dili kimi qəbul edilsin, parlamentdə və rəsmi sənədlərdə türk dili ilə yanaşı işlədilsin.

1913-cü il fevralın ortalarında Liqa islahatlar planını dərc etdirdi. Dəməşq, Hələb, Əkkə və Nəblusda keçirilən kütləvi mitinqlərdə bu plan alqışla qarşılandı. 5 may 1913-cü ildə gənc türklər vilayətlər haqqında yeni qanun qəbul etdi. Bu qanun vilayət şuralarının hüquqlarını xeyli genişləndirdi.

Məlum olduğu kimi, XYIII yüzillikdə İngiltərədə və Fransada burjua inqilablarının baş verməsi nəticəsində sənaye kapitalizminin inkişafı ilə əlaqədar olaraq xammal mənbələrinə və satış bazarlarına olan tələbatı ödəmək üçün bu ölkələr arasında Yaxın və Orta Şərq regionunda iqtisadi və siyasi hökmranlıq uğrunda mübarizə başlanmışdı. Bu mübarizənin əsas məqsədi əvvəlcə regionun ən qüdrətli dövləti olan və dünya siyasi proseslərinə kifayət qədər təsir edən Osmanlı imperiyasının süqutuna nail olmaqdan ibarət idi. Buna görədir ki, birinci dünya müharibəsindən sonra

İngiltərənin baş naziri Lloyd Corc bildirmişdir ki, «Türkiyənin səhnədən çıxmasına heç vaxt təəssüflənməyəcəyik».

Artıq Suriya Avropa dövlətlərinin istismar obyektinə çevrilirdi. Fransanın 1914-cü ildə Suriyaya qoyduğu kapital 200 milyon franka çatırdı.

Birinci dünya müharibəsinin gedişində Suriya, Livan və Fələstini üsyanlar bürümüşdü. Suriyada Osmanlı sultanı hökumətinin hakimiyyəti demək olar ki, iflasa uğramışdı, ölkə isə tam dağıntı vəziyyətində idi. Sultanın Suriyada öz ali hakimiyyətini yaratmaq ümidləri yox dərəcəsində idi. 12 dekabr 1917-ci ildə Suriyanın və Qərbi Ərəbistanın general-qubernatoru Əhməd Camal-paşanın istefaya çıxaraq İstanbula qayıtması da bunu bir daha sübut etdi. 1918-ci ilin əvvəllərində Suriyada bütün ali hərbi və siyasi hakimiyyət almanların əlində cəmləşmişdi ki, hakimiyyətə əvvəllər general Falkenhayn, 1918-ci il fevralın sonlarından isə Liman fon Sandersin rəhbərlik edirdi. 1918-ci il mayın əvvəllərində Osmanlı hökuməti Suriyadakı bütün inzibati idarəçiliyi rəsmi şəkildə Liman fon Sandersə həvalə etmək istədi. Hərbi işin ağırlığı onun üzərinə düşdüyündən və həm də bütün ölkəni idarə etmək çətinlik törətdiyindən Liman bu təklifdən imtina etdi.

Qeyd edək ki, Osmanlı imperiyası birinci dünya müharibəsində iştiraka cəlb edilmişdi. Buna səbəb hələ yeni dövr tarixindən başlayaraq iri dövlətlərin Osmanlı imperiyasını bölüşdürmək istiqamətində apardığı mübarizə olmuşdur. Şərq məsələsinin ortaya atılması, həmin dövr beynəlxalq münasibətlərdə yaranmış vəziyyətin özündən irəli gəlirdi. Əslində, Osmanlı imperiyasının bölüşdərilməsini nəzərdə tutan Şərq məsələsinin həyata keçirilməsinin hələ 1699-cu il Karlovits müqaviləsi ilə əsası qoyulmuşdu. Bundan sonrakı proseslərdə də iri dövlətlər müxtəlif təzyiq vasitələrindən-maliyyə əsarətindən və ya müharibələrdən istifadə edərək Osmanlı imperiyasının ərazilərini bir-bir ondan qoparırdılar. İstanbulun özünün varlığı məsələsi sual altnda idi. Hələ 1916-cı il mayın 9-16-da Londonda Sayks-Piko layihəsi əsasında müqavilə imzalandı. Bu müqaviləyə əsasən bir sıra ərəb ölkələri kimi Qırmızı zonaya daxil olan Suriya Fransanın idarəçiliyinə verilirdi.

Birinci dünya müharibəsinin gedişində Suriyada alman nəzarətinin yaradılması hərbi sahədə tamamilə əhəmiyyətsiz, siyasi

sahədə isə mənfi tədbir oldu. Alman təzyiqinə məruz qalmış türk ordusunda həyəcanlar artmışdı. Ayrı-ayrı alman hərbi xidmətçilərinə, hətta bütövlükdə hərbi dəstələrə hücumlar baş verirdi. Türk zabitlərindən bir çoxu alman rəhbərliyinə tabe olmaqdan boyun qaçırırdılar. Bu səbəblərdən də müharibənin sonunda müttəfiqlər alman və türk əsirlərini ayrı-ayrı düşərgəlrdə yerləşdirmək məcburiyyətində qalmışdılar. Antialman əhval- ruhiyyəsinin artması ilə əlaqədar olaraq, 1918-ci il iyunun ortalarında türk komandanlığı Suriyadan bütün alman birləşmələrinin çıxarılmasını təklif etdilər. Liman fon Sanders qəti olaraq etirazını bildirdi. O qeyd edirdi ki, əgər alman birləşmələri Suriyadan çıxarılsa burada Türkiyəyə qarşı düşmən cəbhə fəaliyyət göstərəcək və alman birləşmələrinin orada olması həm də ərəblərin üsyanının qarşısını almağa ımkan yaradacaqdır. Sonda Liman bildirdi ki, alman orduları Suriyadan çıxarılacağı təqdirdə o istefa verəcəkdir. Nəticədə, Türkiyə hökuməti irəli sürdüyü təklifdən imtina etməli oldu.

Müharibənin gedişində ingilis-ərəb əməkdaşlığı yaranmışdı ki, bu da Dəməşq protokolunun imzalanmasında öz ifadəsini tapdı. Dəməşq protokoluna əsasən İngiltərə müstəqil ərəb dövlətini «təbii sərhədləri» çərçivəsində tanımalı və təminat verməli idi. Dəməşq protokolunun bağlanması ərəb milli–azadlıq hərəkatının yüksəlişinə səbəb olmaqla, həm də müharibənin gedişində dönüş nöqtəsini qoydu.

Suriyada türk ordusunun vəziiyyəti çox ağır idi, aclıqdan xeyli adam həlak olmuşdu. 1917-ci ilin sonunda Suriya ordusunda gündə hər adam başına 350 qr. un, hər ata isə gündə 2,5 kq. ələf verilirdi. Bunun nəticəsidir ki, Suriyada türk ordusunun döyüş qabiliyyəti həddindən artıq aşağı düşmüşdü. Məsələn, 4-cü, 7-ci və 8-ci ordularda 211 min adam olduğu halda, onlardan yalnız 30 mini döyüş qabiliyyətli idi.

Birinci dünya müharibəsinin sonuna doğru 1918-ci ilin sentyabr-oktyabr aylarında Asiya-Türkiyə cəbhəsində hadisələr çox sürətlə cərəyan edirdi. Türkiyə ordusunu başdan-başa darmadağın etmək üçün müttəfiqlərə cəmisi altı həftə lazım gəldi. 1918-ci ilin payızında müttəfiqlərin hücumlarının sürətinin artması təkcə Antantanın Türkiyə üzərində üstünlüyündən irəli gəlmirdi. Bu, eyni zamanda Osmanlı imperiyasının hərbi və dövlət maşınının dağılması,

iqtisadi və siyasi böhran, həmçinin Almaniyanın darmadağın edilməsi ilə əlaqədar idi.

Vəziyyətdən yararlanaraq, 19 sentyabr 1918-ci ildə səhər saat 3-də Nəblusda ingilis ordusu tam hücuma başladı. Sentyabrın 19-20-si ərzində türk orduları ciddi məğlubiyyətə düçar oldu. Artıq sentyabrın 20-də ingilislər nəzarəti ələ keçirərək Dəməşqə hücuma başladılar. Qeyd edək ki, Liman fon Sanders əsirlikdən təsadüfən qaça bildi. Oktyabrın 1-də ingilis ordusu Dəməşqə, oktyabrın 8-də isə Beyruta daxil oldu. Belə ki, ingilis ordusu geri çəkilən türk ordusunu təqib edərək, oktyabrın 25-də Hələbi, 30-da isə bütün Suriyanı ələ keçirdilər. Faktiki olaraq, Türkiyə ordusunun ölkədəki fəaliyyətinə son qoyulmuşdu. Həmin günlərdə Liman fon Sandersi əvəz etmiş Mustafa Kamal dağıntıdan xilas olmuş türk ordusunun hissələrini yığaraq ingilislərin Kiçik Asiyaya müdaxiləsinin qarşısını almağa çalışırdı. Lakin danışıqlar bunun qarşısını aldı.

Müharibənin sonunda turklərin məğlub olmasında ərəblər çox mümhm rol oynadılar. 1918-ci il sentyabrın əvvəllərində bütün Şərqi Suriyanı və Urdunu üsyanlar bürümüşdü ki, bu da digər ərəb ölkələrinə də sirayət edirdi. Liman fon Sanders qeyd edirdi ki, «ərəb üsyanlarının qarşısını almaq qeyri-mümkündür, ordunun arxasında üsyanlar geniş vüsət alır». Urdundan şərqə doğru ərəblər bütün kommunikasiyanı kəsmişdilər. Dəməşqdəki alman konsulu Brodenin sözlərinə əsasən Hauranda türklərə qarşı 30 min ərəb döyüşürdü. Artıq sentyabrın əvvəllərində Hauran və Cəbəl-Druz müttəfiqlərin köməyi olmadan türklərdən təmizlənmişdi. Dera və Dəməşq ərəb ordularına Feysəl və Lourens rəhbərlik edirdi. Sentyabr hücumu zamanı ərəblər müttəfiqlərə kömək etdilər və bu da hücumun müvəffəqiyyətlə nəticələnməsinə şərait yaratdı. Qeyd edək ki, hicazlıların özləri bu orduda çox az idi. Lakin ordunun sayı üsyançı bədəvilər, druzlar və yerli kəndlilər hesabına artırdı.

Sentyabrın 29-da ərəb orduları Derada ingilislərlə birləşərək, Haurandan Dəməşqə hücumu davam etdirdilər. Hauranın bütün əhalisi də ərəb ordusuna fəal kömək edirdi. Dəməşqin işğalı ərəfəsində Feysəl millətçilərin yerli komitəsi ilə əlaqəyə girmişdi. Onlar şəhərə ərəb və ingilis orduları daxil olana qədər ərəb hökumətinin yaradılması tapşırılmışdı. İngilislərdən bir gün əvvəl-sentyabrın 30-da Feysəlin orduları şəhərə daxil oldu.

Ərəblər ingilislərin şimala doğru hərəkətinə də əhəmiyyətli dərəcədə kömək etdi. 1918-ci il oktyabrın sonlarında Hələb uğrunda gedən döyüşlər zamanı şəhər əhalisi üsyana qalxdılar və ingilislərə kömək etdilər. Fələstində və Suriyada türk-alman ordularının, Makedoniyada isə türk-bolqar ordularının darmadağın edilməsindən sonra, artıq hamıya, hətta ənvərçilərə də məlum idi ki, müqavimət göstərməyin əhəmiyyəti yoxdur. Oktyabrın 5-də Osmanlı hökuməti Vilsona barışıq təklifli nota göndərdi. Antanta ilə danışıqlar aparmaq üçün oktyabrın 11-də Tələtin kabineti «partiya üzvü olmayan» Əhməd İzzət-paşanın kabineti ilə əvəz edildi. Türkiyə əsirliyində olan ingilis generalı Taunshend bu danışıqlarda vasitəçilik missiyasını öz üzərinə götürmüşdü. 30 oktyabr 1918-ci ildə Mudrosda Lemnos adasında «Ağamemnun» ingilis gəmisinin göyərtəsində Türkiyənin faktiki təslim olduğunu bildirən barışıq imzalandı. Mudros barışığının 16-cı maddəsində Hicazda, Əsirdə, Yəməndə, Suriyada və İraqda olan türk qarnizonlarının müttəfiqlərin komandanlığı altına verilməsi, Kilikiyadan isə türk ordularının çıxarılması nəzərdə tutulurdu. Bütün bunlar qısa bir müddət ərziində həyata keçirildi.

Suriya, Livan, Fələstin və İraq bütünlüklə ingilis-fransız orduları tərəfindən ələ keçirildi. İngilislər Suriya vilayətlərində fransızlara güzəştə getməyə məcbur oldular. Fransız hökuməti Fələstin-Suriya cəbhəsindəki son döyüşlərdə Fransanın Şərq legionunun iştirak etməsini təkid edirdi. 1918-ci ilin oktyabrında bu legionda 7 min nəfər var idi. Bu isə oktyabrın 7-də fransız hissələrinin Beyruta və Suriyanın digər sahil məntəqələrinə çıxmasını asanlaşdırdı.

Oktyabrın sonlarında Suriya, Livan və Fələstin üç zonaya bölündülər. Cənub, yəni ingilislərin zonasına Qüds, Nəblus və Əkkə sancaqlıqları; şimal, yəni fransızların zonasına Livan, Trablis və Latakiya sancaqlıqları, Həsbiyə, Raşiyə, Bəlbəy, Cisr əş-Şoqur, Antəkyə, Hərim, Beylan və İskəndərun qəzaları və Beyrut daxil idi. Şimalda ingilis orduları yerləşdirilmişdi. Əslində, bu bölgülər şərti xarakter daşıyırdı, çünki hər üç zonada ingilis qarnizonları yerləşdirilmişdi. Buna görə də, 1918-ci il oktyabrın ortalarından etibarən Suriya vilayətlərində fransız və ingilis hökuməti arasındakı münasibətlər kəskinləşdi. Burada, həmçinin Yaxın Şərqdə hələ əvvəllərdə mövcud olan Fransa və İngiltərə arasında rəqabət öz əksini tapırdı.

Birinci dünya müharibəsinə qədər müasir Urdunun ərazisi Suriya vilayəti kimi Osmanlı imperiyasının tərkibinə daxil idi. Qeyd edək ki, birinci dünya müharibəsinin sonuna qədər «Suriya» və ya «Böyük Suriya» ümumi adı altında müasir Suriya, Urdun, Livan və Fələstinə vahid coğrafi və mədəni-tarixi kompleks kimi yanaşırdılar.

Hələ 1915-ci ilin iyununda ingilislər Haşimilər nəslindən olan Hicazın hakimi Hüseyn bin Əli ilə türklərə qarşı birgə mübarizə aparmaq haqqında müqavilə bağladı. Bu müqavilənin bağlanmasını İngiltərənin Urdunda yeridəcəyi siyasətin başlanğıcı hesab etmək olar.

Məlumdur ki, iri dövlətlərin Yaxın Şərq siyasəti nəticəsində Yaxın Şərq problemi yaranmışdı. İrəlidə qeyd etdiyimiz kimi, 1916-cı il mayın 9-16-da Londonda Sayks-Piko layihəsi əsasında müqavilə imzalandı. Layihəyə görə qırmızı zonaya daxil olan Fələstinin Xeyvə və Əkkə limanları İngiltərəyə, qəhvəyi zona (Fələstinin qalan hissəsi) isə Rusiya və Qərb ölkələrinin razılığı ilə beynəlxalq idarəyə verilirdi. Lakin 1920-ci ildə Fələstinin İngiltərə mandatlığına verilməsindən sonra yəhudilər üçün «milli ocaq» yaradılması işi daha geniş vüsət aldı.

Feysəlin «Böyük Suriya» üzərində hakimiyyətlərini möhkəmləndirmək cəhdləri müvəffəqiyyət qazanmadı. Çünki Fələstini ingilis orduları işğal etmişdilər. 1920-ci ilin iyulunda isə fransız orduları tərəfindən Feysəl Suriyadan çıxarıldı.

Qeyd edək ki, birinci dünya müharibəsinin sonunda bütün dünyada yəhudilərin sayı 14 mln. olduğu göstərilir. ABŞ-da yəhudilərin sayı 3,5 mln. sayında idi. 1918-1939-cu illər civarında yəhudi mühacirlərinin sayı 1120 nəfər idi ki, onlardan 400 mini ABŞ-a, 330 mini isə Fələstinə getmişdi.

İngilis ordularının qələbə çalmasında Hicazdan gələn ərəb ordularının, Suriya və Livanda baş vermiş xalq üsyanları və Suriya köçərilərinin partizan mübarizəsi mühüm rol oynamışdır. İngiltərə müharibədən sonra ərəb xalqına öz müstəqil dövlətlərini yaratmalarında kömək edəcəyini bildirərək onları Osmanlı dövlətinə qarşı mübarizəyə sövq etdi. Birinci dünya müharibəsi nəticəsində Osmanlı imperiasının tərkibindən çıxan ərəb ölkələri İngiltərə və Fransanın əsarəti altına düşdülər. Beləliklə, 1918-ci ildə türklər Suriya, Livan, Fələstindən birdəfəlik getsə də, onların yerini fransızlar tutdu.

# İRAQ

*İraq küləmənlərin hakimiyyəti altında*

XIX yüzilliyin əvvəllərində Mesopotamiyada sultan hakimiyyəti kifayət qədər zəif idi. Osmanlı imperiyasından dağlar vasitəsilə ayrılan İraq faktiki olaraq müstəqil fəaliyyət göstərirdi. Burada İstanbulun hakimiyyəti qəbul edilsə də, sultanın vermiş olduğu fərmanların həyata keçirilməsi istiqamətində heç də ciddi səylər göstərilmirdi.

İraqda küləmənlərin hakimiyyət dövrü xüsusi mərhələni təşkil edir. Belə ki, XVII əsrin əvvəllərində Osmanlı imperiyasının zəifləməsindən istifadə edən Həsən paşa İraqda öz hakimiyyətini möhkəmləndirdi. 40 minlik bir ordu təşkil etmiş Həsən paşa gürcü kölələrdən ibarət «küləmən» qvardiyası da yaratdı. Böyük Süleyman hakimiyyətə gəlməklə İraqda küləmənlərin (ağ qullar-məmlüklər) ağalığını bərqərar etmiş oldu. 1802-ci ildə Böyük Süleyman vəfat etdikdən sonra Hafiz Əli Bağdad paşası oldu.

İngilislərin Misiri tərk etməsini əsaslandıran 1802-ci il Əmən müqaviləsi bağlandıqdan sonra Napoleon Şərq siyasətini fəallaşdırdı. Məlumdur ki, dünya hegemonluğu uğrunda, o cümlədən Hindistan uğrunda mübarizədə Fransanın ən ciddi rəqibi İngiltərə olmuşdur. 1761-ci il Panipat döyüşü Böyük Möğol imperiyasının süqutunu təmin etməklə yanaşı, həm də İngiltərənin işğalçılıq siyasətində dönüş nöqtəsi oldu. İngiltərə 1600-cü ildə təsis edilmiş Ost-Hind kompaniyası vasitəsilə Hindistanın işğalını başa çatdırsa da, faktiki olaraq Fransa bu ölkəyə sahib olmaq uğrunda mübarizədən heç də çəkinməmişdi. Elə buna görə də, Napoleon Hindistana yeni yürüş planı hazırladı. Bu dəfə o, Oronta mənsəbinə desant çıxarmaq və oradan da Fərat çayı boyunca Hindistana doğru hərəkət etmək niyyətində idi. Bu məqsədlə Bonapartın agentləri Hafiz Əli ilə əlaqə yaradaraq, onun bu planla bağlı razılığını əldə edə bildilər. Hafiz Əli, hətta fransızların himayəsi altında Avropa nümunəsində nizami ordu yaratdı. Lakin ingilislərin də əli olan sui-qəsd nəticəsində 1807-ci ilin avqustunda Hafiz Əli öldürüldü. Hafiz Əlinin qardaşı oğlu Kiçik Süleyman sui-qəsdçiləri dəf edə bildi və İstanbul onu Bağdad paşası kimi təsdiqlədi.

Fransanın İraqda artan fəaliyyətini böyük qısqanclıqla müşahidə edən İngiltərə yalnız seyrçi kimi qala bilməzdi. Hələ XVIII

yüzilliyin sonlarında Ost-Hind kompaniyası İraqdan keçən müntəzəm poçt reysləri təşkil etdi. Poçta dəniz gəmiləri vasitəsilə Bombeydən Bəsrəyə, quruda isə sürətlə gedən dəvələr vasitəsilə Bağdad və Hələbdən keçərək İstanbula gedirdi. Poçtaya nəzarət yaratmaqla ingilislər əslində Sebastiani kimi təcrübəli agentlərin fəaliyyətini nəzarət altına almaq və zərərsizləşdirmək imkanı qazandılar.

1817-ci ildə öz qaynını qətlə yetirməklə hakimiyyətə gələn Davud paşa burada müstəqil hakimiyyət formalaşdırmağa müvəffəq oldu. Milliyyətcə gürcü olan Davud paşa uşaq yaşlarında qul kimi Böyük Süleymana satılmışdı. Digər küləmənlər arasında özünün bədii təfəkkürü, diplomatik bacarığı ilə seçilən və şərq dillərini, müsəlman ilahiyyatını gözəl şəkildə bilən Davud tezliklə Böyük Süleymanın katibi vəzifəsinə irəli çəkilir və onun qızı ilə evlənir. Böyük Süleymanın vəfatından sonra Bağdad məscidlərindən birinin mollası olan Davud küləmənlər arasında özünə həm tərəfdar toplamağa, həm də ruhanilər arasında möhkəm əlaqələr yaratmağa başlayır. Davud məhz həmin tərəfdarlarınınköməyi və dəstəyi ilə də paşa titulu almağa müvəffəq oldu.

14 il ərzində İraqı müstəqil olaraq idarə edən Davud paşa əslində Məhəmməd Əli paşanın birbaşa və bilavasitə köməyi ilə Osmanlı imperiyasında bir növ anklav yaratmışdı. Davud paşa da Məhəmməd Əli kimi ilk növbədə kapitulyasiya rejimini ləğv etməyə çalışır, Ost-Hind şirkətinin imtiyazlarını aradan qaldırmağa və onun İraqdakı mövqelərini zəiflətmək istiqamətində intensiv siyasət yeridirdi. Bu istiqamətdə onun atdığı addımlar sırasında Ost-Hind şirkətinin agentləri olan farslara qarşı mübarizə və müvafiq tədbirlərin görülməsi xüsusi yer tuturdu. 1821-ci ildə isə o, ticarətin dirçəldilməsi məqsədilə bütün tacirlərin hüquqlarının və imtiyazlarının bərabər olmasına dair fərman verdi. Bu da ilk növbədə Ost-Hind şirkətinin maraqlarına zərbə idi. Buna görə də, şirkət Dəclə çayına öz donanmasını yeridərək, Bəsrə ilə Bağdad arasındakı əlaqəni kəsdi. Belə olduğu təqdirdə Davud paşa Ost-Hind şirkətinin Bağdaddakı iqamətgahını mühasirəyə aldı və buradakı mallarını müsadirə etdi. Münaqişə Ost-Hind şirkətinin bütünlüklə İraqda fəaliyyətinin qadağan edilməsi və onun əməkdaşlarının ölkədən çıxarılması ilə başa çatdı. Lakin tezliklə Ost-Hind şirkəti İngiltərənin

müharibə hədəsi ilə vermiş olduğu ultimatumdan sonra həm İraqda müsadirə olunmuş malların dəyərini ödəməyə, həm də buradakı öz agenturasının imtiyazlarının bərpa olunmasına müvəffəq oldu. Beləliklə, Davudun yerli ticarətə himayədarlıq cəhdi boşa çıxdı.

Mərkəzləşdirilmiş dövlət yaratmaq istəyən Davud paşa separatçı feodalların müqavimətini qırmağa xeyli müvəffəq olmuşdu. İlk növbədə o, mərkəzi hakimiyyətə qarşı olan ərəb tayfalarının rəhbərlərini, ali ruhaniləri və şeyxləri zərərsizləşdirdi. Daha çətin mübarizə isə kürdlərlə aparılan mübarizə idi. Belə ki, kürdlər öz mübarizələrində İran şahından daim yardım və dəstək alırdılar. Əgər XVIII əsrin ikinci yarısında İran feodal pərakəndəliyi dövrünü yaşayırdısa, 1797-ci ildən başlayraq Fətəli şahın hakimiyyəti altında nəinki bu pərakəndəliyin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atılmış, həm də mərkəzləşdirilmiş yeni dövlət kimi İraqı da öz ərazisinə qatmaq uğrunda mübarizə aparılmışdı. Bu mübarizədə isə kürdlərin çıxışlarının dəstəklənməsi və onlara yardım edilməsi həmin vəzifənin tərkib hissəsi idi. Bu məqsədlə də, Fətəli şah ilk növbədə İraqa daxildən zərbə vura biləcək kürd bəyləri ilə sıx əlaqə yaratmışdı. Əslində İraqda muxtariyyat qazanmaq istəyən kürdlər, Fətəli şahın dəstəyinə cavab olaraq ondan vassal asılılığı qəbul etdiklərini və ona xərac ödəyəcəklərini bildirmişdilər. Buna görə də Fətəli şah həmin bəylər arasından İraq Kürdüstanında müvafiq vilayətlərə hakim təyin edirdi. Bağdad paşasının buraya hər hansı müdaxiləsi dərhal Qacar qoşunlarının müqaviməti ilə qarşılanırdı. Ona görə də Davud paşa bu vəziyyətə son qoymaq qərarına gəldi.

1821-ci ildə Davud paşa Kürdüstana təyin olunmuş hakimə qarşı hərbi əməliyyatlara başladı. Lakin kürdlərin və farsların birləşmiş qoşunlarının müqaviməti nəticəsində məğlub olaraq geri çəkildi. Belə olduğu təqdirdə Davud paşa İraqda çoxdan yaşayan farsların repressiyasına başladı, onların evləri və mülkləri müsadirə edildi. Onun əmrinə əsasən şiə ruhanilərinin bütün var-dövləti, xüsusilə də Kərbəla və Nəcəfin ali ruhanilərinin bütün daşınan və daşınmaz əmlakı müsadirə olundu. Davud paşanın bu tədbirləri ziddiyyətləri dərinləşdirərək, 1821-1823-cü illəri əhatə edən Osmanlı-İran müharibəsinə gətirib çıxardı. Bu müharibədə hərbi üstünlük ordunu Avropa üslubunda yenidən qurmuş İranın tərəfində

olsa da, həmin dövr baş verən vəba epidemiyası müharibənin taleyini həll etmiş oldu. Qacarlar hərbi əməliyyatlar zamanı tutmuş olduqları Süleymaniyyə, Kərkük və Mosuldan öz ordularını geri çəkmək məcburiyyətində qaldılar. 1823-cü ilin mart ayında bağlanmış Ərzurum müqaviləsinin şərtlərinə əsasən İraq Kürdüstanı Osmanlı dövlətinin tərkibində qaldı.

Davud paşa öz dövründə həm kürd bəylərini, həm də ərəb şeyxlərini öz hakimiyyəti altında birləşdirməyə müvəffəq olmuşdu. Daxildə həm kürd, həm də ərəb separatçı qüvvələrinə qarşı mübarizə aparan Davud paşa İraqda mərkəzləşdirilmiş hakimiyyət formalaşdırmaq istəyirdi. O, Osmanlı sultanlarından tam müstəqil olaraq ölkəni idarə etməyə çalışırdı. Lakin belə bir vəziyyət İstanbul üçün qəbuledilməz olduğundan Davud paşanın İraqda formalaşdırmaq istədiyi müstəqil hakimiyyət uzun müddət qala bilməzdi.

Həmin dövr İraqın daxili siyasi həyatında özünə yer almış hərbi siyasi faktorlar sırasında kürdlərin qaldırmış olduqları üsyan və qiyamlar da xüsusi olaraq qeyd olunmalıdır. Ümumiyyətlə kürdlərin Osmanlı dövləti tərkibindəki mübarizəsinin özünəməxsusluğu daim diqqət mərkəzində olmuşdur. Bu da kürd tayfalarının əksəriyyətinin mərkəzləşdirilmiş dövlət hakimiyyətinə tabe olmamasında özünü göstərmişdir. Bu isə istər kürdlərin muxtariyyat uğrunda, istərsə də mərkəzləşdirilmiş dövlət yaratmaq istiqamətindəki mübarizələrində həlledici faktor olaraq qalmışdır. Qeyd edək ki, bu faktor bu gün də kürd siyasi hərəkatında özünə yer almışdır və özünü İraqda gedən proseslərdə xüsusi olaraq büruzə verməkdədir. XIX yüzillik kürd üsyanlarına gəldikdə isə bunun üçün, ilk növbədə, həmin dövrdə siyasi proseslərin önündə olmuş kürd əmirliklərinin fəaliyyətinə nəzər yetirmək məqsədəuyğundur

İranla müharibədən sonra Davud paşa ordunun Avropa üslubunda yenidən qurulmasının vacibliyini dərk etdi. Özündən əvvəlki hakimlərdən fərqli olaraq, o, fransız deyil, ingilis təlimatçılarının təlimi əsasında formalaşdırılan ordunun mərkəzləşdirilmiş dövlət üçün vacib olduğu mövqeyindən çıxış etdi və bu istiqamətdə konkret addımlar atmağa başladı. Bu məqsədlə, o, Bağdaddakı Ost-Hind şirkətinin yeni rezidenti Teylorun köməyi ilə İngiltərənin Hindistandakı sipahi ordusu səviyyəsində yeni ordu

formalaşdırmağa başladı. İraq ordusunun geyimi də həmin sipahi ordusu ilə eyniyyət təşkil edirdi. Teylorun köməyi ilə Davud paşa, həmçinin Bağdadda həmin dövrün ən müasir texnikası ilə təchiz olunmuş yeni silah anbarı yaratdı.

Ordunun yenidən qurulması üçün Davud paşa da Məhəmməd Əli kimi əsas idxal və ixrac məhsulları üzərində dövlət inhisarını tətbiq etdi. Bunun üçün o, ərzaq və digər malların idxal-ixracı üçün çay və dəniz gəmiləri aldı. Misirin təcrübəsindən istifadə edərək Davud paşa İraqda pambıq əkilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi əmrini verdi. Məhəmməd Əli kimi Davud paşa da Osmanlı imperiyasının Rusiya ilə 1828-1829-cu illəri əhatə edən müharibədə məğlubiyyətindən istifadə edərək müstəqillik əldə etmək istiqamətində siyasət yeritdi. Məlum olduğu kimi, Ədirnə müqaviləsinin şərtlərinə əsasən Osmanlı dövləti Rusiyaya böyük miqdarda təzminat ödəməli idi. Həmin təzminatın ödənilməsi üçün Sultan II Mahmud 1830-cu ilin dekabrında İraqa da öz xüsusi elçisini göndərmişdi. Lakin Davud paşa onun rəsmi nahardan dərhal sonra qətlə yetirilməsi əmrini verdi və İstanbula xərac verməkdən boyun qaçırdı. Buna görə də, sultan Davud paşanı qiyamçı adlandıraraq, ona qarşı hərbi qüvvə göndərdi.

Davud paşaya qarşı göndərilən orduya Hələb paşası Əli Rza başçılıq edirdi. Davud paşa da müharibəyə ciddi hazırlaşırdı. Bu məqsədlə o, 20 minlik nizami piyada və süvari korpusunu və 10 minlik yığma ordusunu hərbi mövqelərdə yerləşdirdi. Lakin Davud paşa tezliklə qələbə çalacağına nahaq ümid bəsləyirdi. Əslində müharibənin nəticəsini hərbi qüvvə yox, təbii fəlakət həll etmiş oldu. 1831-ci ildə İraqda baş verən vəba xəstəliyi Davudun ordusunu tamamilə məhv etdi. Lakin epidemik xəstəliyin yayılmadığı dağda öz ordusu ilə yerləşən Əli Rza paşa müəyyən vaxtdan sonra aşağı enərək İraqa daxil oldu və 1831-ci ilin sentyabrında Davud paşanı hakimiyyətdən salaraq İstanbula göndərdi.

Bununla da, küləmənlərin İraqdakı hakimiyyətinə son qoyuldu. Bundan sonra, Bağdad paşaları İstanbuldan təyin edildi.

*<u>XIX əsrin əvvələrində kürd əmirlikləri</u>*

XIX yüzilliyin əvvəllərində Kürdüstan müəyyən dərəcədə iki dəfə bölünmüş ölkə halında idi. Belə ki, xarici siyasət nöqteyi-nəzərindən

o, Osmanlı imperiyası və İran arasında bölüşdürülmüş, hələ orta əsrlərdə meydana gəlmiş feodal knyazlıq və əmirlikləri arasında parçalanmışdı. Bu mənada, həmin dövr Kürdüstanda siyasi proseslərin önündə Baban, Soran, Bəhdinan, Boxtan və Həkər əmirlikləri gedir, həmçinin kürdlərin mübarizəsində bir növ istiqamətverici rol oynayırdılar. Həmin əmirliklər daima öz aralarında müharibə aparırdılar və bu da onlar arasında sərhədlərin tez-tez dəyişməsinə gətirib çıxarırdı.

Baban, Soran və Bəhdinan əmirlikləri Bağdad paşalığına daxil olsa da, onların Bağdad paşalığından asılılığı nominal xarakter daşımışdır. Yalnız hərbi yürüşlər zamanı kürd əmirləri Bağdad paşasına müvafiq və tələb olunan hərbi dəstəni verirdilər. Bunun əvəzində kürd tayfaları dövlət vergisindən azad edilmişdilər.

Şərqi Anadolu ərazisində kürdlərin çoxlu miqdarda feodal mülkləri var idi. Bu feodal mülklərində onların hakimiyyəti mütləq xarakter daşıyırdı. Vergilərin həddi, forması, yeni vergilərin müəyyən edilməsi, onların yığılması və sair bu kimi bütün məsələlər feodallar tərəfindən müəyyənləşdirilirdi. Belə bir vəziyyətdə, XVIII əsrin sonlarından etibarən Bağdad paşalığında Baban əmirliyi fəal rol oynamağa başladı. Əmirliyin belə bir siyasi fəallığı ilk növbədə onun geostrateji mövqeyi ilə əlaqədar idi. Belə ki, Baban əmirliyi Bağdad paşalığı ilə İran arasında yerləşirdi. XIV yüzilliyin əvvəllərində Baban əmirliyinin inzibati mərkəzi Süleymaniyyə şəhəri idi. 1812-ci ildə burada 4 min adam yaşayırdısa, 1820-ci ildə isə 10 mindən çox adam Süleymaniyyə şəhərinin daimi sakini idi. Qeyd edək ki, Baban əmirliyi Bağdad paşalığından tam müstəqil olmağa çalışırdısa da, buna ilk növbədə daxili çəkişmələr mane olurdu. Əmirliyin strateji mövqeyi istər Osmanlı dövlətini, istərsə də İranı burada öz hakimiyyətlərini möhkəmləndirməyə sövq edirdi. Bu mənada, iki dövlət ararsında gedən mübarizə daxili siyasi qüvvələr nisbətinə də öz təsirini göstərirdi. XVIII yüzilliyin sonlarında Baban əmirliyində siyasi hakimiyyət xeyli zəiflədi ki, bu da Osmanlı hökuməti və İran şahının buradakı proseslərə birbaşa müdaxilə etməsinə imkan və şərait yaratmış oldu.

1803-cü ildə Əbdür Rəhman paşa Babanın əmiri oldu. Əbdür Rəhman hakimiyyətinin möhkəmləndirilməsi və ərazisinin genişləndirilməsinə yönələn sərt siyasət yeritməyə başladı. Bağdad

paşasının etirazına baxmayaraq, o, daxildə öz hakimiyyətinin möhkəmləndirilməsi istiqamətində addımlar atdı. Bununla istər qonşu kürd tayfalarının timsalında, istərsə də İran şahının Kermanşah üzrə valisinin timsalında özünə xarici müttəfiqlər axtarmağa başladı. 1806-cı ildə Əbdür Rəhman Osmanlı dövləti ilə İran arasındakı ziddiyyət və qarşıdurmadan istifadə edərək, Kermanşah hakimi Məhəmməd Əli Mirzə ilə birləşdi və Bağdad paşası Əli paşaya qarşı birgə mübarizə apardı. Bu səbəbdən də, bütün sonrakı dövrlərdə Baban əmirliyinin ərazisi İran və Osmanlı dövlətinin qoşunlarının toqquşduğu ərazi rolunu oynadı. Bağdad paşalığındakı 1810-cu il hadisələri kürd əmiri üçün əlverişli şərait yaradırdı. Belə ki, Kiçik Süleyman separatçı fəaliyyətinə görə Osmanlı hökuməti tərəfindən cani adlandırıldı və mərkəzi hökumət tərəfindən tənbeh edilməli idi. Yaranmış vəziyyətdən özünə müqabil şəkildə istifadə edən Əbdül Rəhman paşa 20 minlik qoşunu ilə Kiçik Süleymanın qoşununu darmadağın etdi və onu hakimiyyətdən saldı. 1813-cü ilədək kürd əmirləri arasındakı münaqişələrə və İraqın yeni hakiminin, eləcə də Kermanşah hakiminin təzyiqlərinə baxmayaraq, Əbdür Rəhman paşa Baban əmirliyinin ərazisini xeyli genişləndirməyə və hakimiyyətini möhkəmləndirməyə müvəffəq oldu. 1813-cü ildə Əbdür Rəhmanın vəfatından sonra Babanın əmiri onun böyük oğlu Mahmud paşa oldu. Lakin o, atasından fərqli olaraq, İranın və Bağdad paşalığının əmirliyin daxili işlərinə qarışmasının qarşısını alınaqda uğurlu siyasət yeridə bilmədi. Həmin illər İngiltərənin İranda və Bağdadda intensiv olaraq möhkəmlənməyə başladığı dövrlə üst-üstə düşürdü. Bütün bu qarşıdurma və fasiləsiz müharibələr nəticəsində Baban əmirliyi zəiflədi və XIX əsrin ortalarında süqut etdi.

Baban əmirliyi ilə qonşu olan Bəhdinan və Soran əmirliklərinin də vəziyyəti kifayət qədər qənaətbəxş deyildi. Mosuldan şimalda yerləşən Bəhdinan əmirliyi tarixi keçmişə malik olmasına baxmayaraq, XIX yüzilliyin əvvəllərinə kimi öz siyasi mövcudluğunu onu əhatə edən iri dövlətlərə qəbul etdirə bilməmişdi. XIX yüzilliyin əvvələri üçün Bəhdinan əmirliyi də Bağdad paşalığına daxil idi. Bu əmirlik bütövlükdə Kürdüstana açar hesab edilirdi. Bu haqda İngiltərə diplomatı və alimi R.Leyard özünün «Nineveh and Remains» adlı əsərində daha ətraflı şərh vermişdir. Digər kürd əmirliklərindən fərqli olaraq, Bəhdinan əmirliyində

müxtəlif xalqlar məskunlaşmışdı. Burada kürdlərdən başqa, həmçinin yezidi kürdlər, assuriyalılar, ermənilər, yəhudilər və digər xalqların nümayəndələri məkunlaşmışdılar. XIX yüzilliyi Bəhdinan əmirliyi Mosul və Bağdad paşalıqlarının daimi çəkişməsi və qarşıdurması şəraitində qarşılamış və başa vurmuşdur. 1806-cı ildə əmirlik Mosul paşalığının tabeçiliyinə verildi. Bu isə onun İstanbul tərəfindən birbaşa idarəçiliyini asanlaşdırdı. 1808-1825-ci illər ərzində əmirlik Zubeyr paşa tərəfindən idarə olunmuşdur. Zubeyr paşa özünün siyasəti ilə kürd əmirləri arasında seçilirdi. Belə ki, Mosul paşasının intensiv təzyiqləri şəraitində o, çox məharətli siyasəti nəticəsində paşalıqla hərbi toqquşmadan yayına və öz əmirliyinin müstəqilliyini qoruyub saxlaya bilmişdi. Yalnız bir dəfə o, Mosul paşası ilə hərbi toqquşmadan yayına bilməmişdir ki, bu da onun məğlubiyyəti ilə nəticələnmişdir. Zubeyr paşanın vəfatından sonra Bəhdinan əmirliyi dərin feodal ziddiyyətləri ilə üzləşdi. Hakimiyyət uğrunda Miran bəy, Səid bəy, Musa bəy və İsmayıl bəy mübarizə aparmağa başladı. Bu mübarizədə Səid bəy öz rəqibləri arasında daha məharətlə manevr edərək hakimiyyətə sahib oldu. O, digər iki rəqibi arasında nisbətən daha güclü olan İsmayıl bəyi öz tərəfinə çəkərək, bu mübarizədə qələbə qazandı.

Kürd xalqının etnik özəlliklərinin cəmiyyətdə ən çox özünə yer aldığı əmirlik Bəhdinan və Həkəri əmirliklərindən qərbdə yerləşən Boxtan əmirliyi idi. Bu əmirlikdə kürd xalqına xas olan bütün özəllik qorunub saxlanmaqla bərabər, əmirliyin idarə olunması da kürd xalqının adət-ənənəsi üzərində qurulmuşdu. Boxtan əmirliyinin inzibati mərkəzi, yaxud paytaxtı Cəzirə olmuşdur. Bağdaddan İstanbula gedən karvan yolu üzərində yerləşən Cəzirə kürdlərin daha kompakt yaşadığı şəhər idi. XIX yüzilliyin əvvəllərində burada 2,5 mindən çox kürd yaşayırdı. Şəhərin əlverişli strateji mövqeyini nəzərə alan Cəzirə hakimi buradan keçən karvandan gömrük vergisi toplayırdı. Boxtan əmirliyi Əzizən nəslindən olan əmir ailəsi tərəfindən idarə olunurdu. XYII-XYIII yüzilliklərdə tənəzzül dövrünü yaşayan əmirlik, yalnız XIX yüzilliyin əvvəllərində yenidən siyasi səhnədə özünə yer ala bilmişdi. 1821-ci ildə Bədrxan bəyin hakimiyyətə gəlməsi ilə əmirlik regionda siyasi proseslərin mərkəzinə çevrilmişdi.

Hakari əmirliyi dağlıq ölkə olub Van gölündən cənubda, Böyük Zab çayının yuxarı axınında yerləşirdi. Şimalda və şimal-qərbdə o, Van və Hoşab rayonları ilə həmsərhəd idi. Əmirliyin mərkəzi Culamerk (Çelemerik) olmuşdur. Şəhərin xüsusi olaraq formalaşdırılmış qalası da var idi. Qala şəhər səviyyəsində olan Culamerkdə çoxlu sayda məscid, mədrəsə və digər ictimai binalar da var idi.

Həkəri kürd əmirləri Şambo sülaləsindən idilər. Əmirliyin əhalisi böyük miqyaslı tayfa birləşməsi olaraq, ictimai münasibətlərini təkamül etdirirdilər. Bununla belə, əmirliyin daxilində digər millətlər də özünə yer almışdı. Məsələn, Dapraşen Tiyari, Tobi və başqa rayonlarda kürdlərlə yanaşı assuriyalılar və ermənilər də yaşayırdılar. Belə bir şəraitdə, həkəri əmirlərinin hakimiyyəti, yalnız XIX əsrin əvvəllərində möhkəmləndi. Əslində həmin dövr əmirliyin öz mövqeyini möhkəmləndirməsi nominal xarakter daşıyırdı. Çünki digər kürd əmirliklərində olduğu kimi Həkəri əmirliyində də daxili siyasi birlik sabit və möhkəm deyildi. Ayrı-ayrı feodallar əmirlikdə hakimiyyətə gəlmək üçün mübarizə aparır və hətta digər əmirliklərdən müvafiq dəstək almaqdan da çəkinmirdilər. Bununla belə, XVIII yüzilliyin ikinci yarısında kifayət qədər güclənmiş Həkəri əmirliyi Osmanlı dövləti üçün əlavə qayğılar yaratdığına görə sultan Van paşasının başçılığı altında bu əmirliyə və ondan şimaldakı kürd tayfalarına qarşı hərbi ekspedisiya təşkil etdi. Yaranmış vəziyyətdən istifadə edən Həkəri əmiri həmin kürd tayfalarını da öz hakimiyyəti altında birləşdirməyə müvəffəq oldu. XIX yüzilliyin əvvəlləri üçün artıq bütün Moks (Mukus) rayonu Həkəri əmirliyinə daxil idi. Digər kürd əmirlikləri kimi Həkəri əmirliyini də öz ərazisinə birləşdirməyə can atan İran burada möhkəmlənməyi bütünlükdə Kürdüstanda nüfuz bərqərar etmək istiqamətində atılacaq ilk addım kimi qəbul edirdi. Qeyd edək ki, Həkərini birləşdirmək istəyən İran rəsmiləri sırasında Abbas Mirzə xüsusi yer tuturdu. Həmin dövr Azərbaycanın hakimi olan Abbas Mirzə, qarşıya qoymuş olduğu məqsəd istiqamətində bir sıra kürd tayfalarını öz ətrafında birləşdirməyə müvəffəq olmuşdu. Bu tayfalar sırasında Beyləm tayfasının Abbas Mirzənin tərəfinə keçməsindən sonra Həkəri əmiri Mustafa paşa İran şahından süzerenlik qəbul etmək məcburiyyətində qaldı.

Soran əmirliyi Bəhdinan əmirliyindən şərqdə, Baban əmirliyindən isə şimalda yerləşirdi. 1787-ci ildə Soran əmirliyinin mərkəzi Rəvanduz şəhəri oldu. Bu əmirlikdə də XIX yüzilliyin əvvəllərində hakimiyyət uğrunda daxili çəkişmələr və feodal müharibələri özünə yer almışdı. Buradakı hakimiyyət mübarizəsində yerli əmirlər gah Baban, gah da Bəhdinan əmirliyindən yardım istəyirdilər. Beləliklə XIX yüzilliyin 30-cu illərində Kürdüstan ayrı-ayrı feodal dövlətlərinə bölünərək bir-biri ilə mübarizə aparır və hakimiyyət uğrundakı rəqabətdə istər öz aralarında, istərsə də kənar qüvvələr sırasında müttəfiq axtarırdılar. Butun bu mübarizələrin məntiqi nəticəsi kimi isə Kürdüstan həm İranda, həm də Osmanlı ərazisində təsərrüfat sistemi dağılmış və bərbad hala düşmüş, geridə qalan rayon idi.

*XIX əsrin 30-40-cı illərində İraqın iqtisadi vəziyyəti*

XIX əsrin əvvəllərində İraq Osmanlı imperiyasının geridə qalmış rayonlarından biri idi. Həmin dövr Məhəmməd Əli işğallarına məruz qalmayan İraq, İngiltərənin Ost-Hind şirkətinin təsir dairəsinə düşən əsas Osmanlı vilayətləri sırasında idi. 1831-ci ildə Davud paşanın hakimiyyətdən salınmasından sonrakı bütün dövrlərdə Osmanlı hökuməti burada öz hakimiyyətini şəriksiz olmaq şərtilə bərqərar etmək uğrunda intensiv mübarizə aparırdı. Küləmənlərin ləğvindən sonra ağır vəziyyətə düşən İraq tam təsərrüfat dağıntısı ilə üz-üzə idi. Digər tərəfdən 1831-ci il vəba xəstəliyi əhalinin kütləvi şəkildə qırılmasına və yoxsullaşmasına, təsərrüfatın dağılmasına səbəb olmuşdu. Həmin vəba xəstəliyi nəticəsində Bağdadda yaşayan 150 min əhalidən cəmi 20 min, Bəsrədə isə 80 min əhalidən cəmi 8–9 min adam sağ qalmışdı. Bir çox şəhər və kəndlər bütünlüklə məhv olmuşdu. Tarlalar, əkin sahələri və bağlar azalmış, bar verən ağaclar məhv olmuşdu. Ticarət durğunluq keçirirdi. Məhz bunun nəticəsində XIX əsrin ortalarına qədər İraqda təsərrüfat sistemi Osmanlı imperiyasının ən zəif həlqələrindən birini təşkil edirdi.

*Kürdlərin üsyanı və tayfa müharibələri*

Davud paşanın hakimiyyəti dövründə kürd bəylərini və ərəb şeyxlərini öz əli altında cəmləşdirməyə müvəffəq olmuşdu. O, Osmanlı dövləti ilə mübarizə aparsa da faktiki olaraq ,İraqda öz hakimiyyətini bərqərar edə

bilmişdi. Həmin dövr İraq paşası Osmanlı dövləti tərəfindən təyin olunsa da, həmin paşalar faktiki olaraq ölkədə gedən proseslərə qəti şəkildə təsir edə bilmirdilər. Bu, ilk növbədə, İraqda həm yerli feodallar, həm də ayrı-ayrı ərəb və kürd tayfalarının bir-birilə mübarizəsi şəraitində gedirdi. Onlar Osmanlı dövlətinə vergi ödəməkdən yayınırdılar. Kürdlərin mübarizəsində əsas məqsəd isə verginin ləğv edilməsi idi. Nəticədə, İraqda feodal münaqişələri davam edirdi. Bu münaqişələrə xüsusi çaları muntafik, şammar, aneyza və başqa bu kimi ərəb tayfalarının həm bir-birlərinə qarşı, həm də Bağdad paşasına qarşı apardığı mübarizə verirdi. 1833-cü ildə şammar tayfası 3 ay ərzində Bağdadı mühasirədə saxlamışdı.

Şimalda isə kürd feodallarının fasiləsiz üsyanı davam edirdi. Bu üsyanlar bir tərəfdən İran şahı, digər tərəfdən isə Misir paşası Məhəmməd Əli tərəfindən dəstəklənir və yardım olunurdu. Hər iki tərəf İraqda möhkəmlənməyə can atırdı. Aralıq dənizindən Fars körfəzinədək olan böyük bir ərazidə Ərəb imperiyası yaratmaq istəyən Məhəmməd Əli İraqı öz ərazilərinə birləşdirməyə can atırdı. Bu məqsədlə o, İraqda Osmanlı dövlətinə qarşı mübarizə aparan istənilən qüvvəni dəstəkləməyə hazır idi. Öz növbəsində, sultan hökuməti də İraqda gedən prosesləri nəzarətdən buraxmaq istəmirdi. 1831-1842-ci illər ərzində bu məqsədlə Osmanlı dövləti Kürdüstanda üsyanların yatırılması məqsədilə bir sıra hərbi əməliyyatlar keçirmiş və kürd knyazlıqlarını ləğv etmişdi. Bununla belə Kürdüstanı Osmanlı imperiyasına qəti şəkildə tabe etdirmək mümkün olmadı. 1838-ci ildə kürd üsyanları dayansa da, növbəti il, yəni 1839-cu ildə Nəzib yaxınlığında türkləri məğlub etdikdən sonra kürdlər yenidən üsyana başladılar. 1841-ci ildə kürd feodalları Süleymaniyyəyə qoşun yeridən İran şahını dəstəkləmiş və Osmanlı dövlətinə qarşı mübarizəni yeni mərhələyə keçirməyə can atmışdılar. Əyalətlərdə fasiləsiz iğtişaşların hərbi güc vasitəsilə yatırılmasında maraqlı olmayan Osmanlı dövləti münaqişə ocaqlarında sabitliyi bərqərar etmək məqsədilə həm Rusiya, həm də İngiltərə ilə danışıqlar aparırdı. Nəticədə, Rusiya və İngiltərənin vasitəçiliyi ilə 31 may 1847-ci ildə ikinci Ərzurum müqaviləsi bağlandı ki, bu müqavilənin müddəalarına əsasən də sərhəd və zəvvarlıq məsələləri həll edildi. Müqaviləyə uyğun olaraq, İran Süleymaniyyə və Osmanlı imperiyasının digər rayonlarına olan iddialarından əl çəkdi.

əvəzində İstanbul (Porta) ona indiki «Xürrəmşəhr» adlanan Mühəmmərəni və Şətt əl-Ərəb çayının sol sahilini verdi. Əsrlərlə İraq İran və Osmanlı imperiyası arasında nifaq mənbəyi olmuşdur. Bu nifaq 300 il davam etmişdir. Qeyd edək ki, müasir dövrdə də İran-İraq münasibətlərində Şətt əl-Ərəb öz həllini gözləyən məsələ olaraq qalmış, nəticədə 1980-1988-ci illəri əhatə edən müharibə baş vermişdir.

Osmanlı-İran münasibətlərinin nizamlanması Məhəmməd Əlinin məğlub olmasına baxmayaraq, Kürdüstanda da ümumi vəziyyəti dəyişdirmədi. Kürdüstanda mütləq Osmanlı hakimiyyətini bərqərar etmək yenə mümkün olmadı. Məhz bunun nəticəsi idi ki, 1843-1846-cı illəri əhatə edən növbəti Kürdüstan üsyanı baş vermişdi. Türklər bu üsyanı yatırdıqdan dərhal sonra 1848-1849-cu illəri əhatə edən yeni iğtişaşlar başlamışdı. Burada 1848-1849-cu illər iğtişaşlarının həmin dövrdə Avropada cərəyan edən hərbi-siyasi proseslərlə əlaqədar baş verdiyini qeyd etmək lazımdır. XIX yüzilliyin 80-ci illərinə qədər davam edən bu mübarizə nəticədə Sultan hökumətinin kürd feodallarına daha iri torpaq sahələri verməklə onları öz tərəfinə çəkə bildi və həmin üsyanların qarşısı kifayət qədər alınmış oldu. Osmanlı dövlətindən iri torpaq mülkləri alan kürd feodalları faktiki olaraq öz malikanələrində tam müstəqil idilər. Belə bir hal onlarda tədricən mərkəzi hökumətə qarşı loyal münasibəti formalaşdırmağa səbəb oldu. Nəticədə, XIX yüzilliyin 80-ci illərinin ikinci yarısında kürd feodalları Osmanlı dövlətinin yerlərdəki siyasətinin dayaqlarından birinə çevrilməyə başladı. Məhz bu siyasətin nəticəsi idi ki, XIX yüzilliyin 90-cı illərinin sonunda Osmanlı hökuməti yerlərdəki hər hansı iğtişaşların yatırılmasında kürdlərdən və kürd feodallarından istifadə edirdi. Bununla belə, qeyd etmək lazımdır ki, Osmanlı dövlətinin bu siyasəti nəticəsində kürdlər yaranmış vəziyyətdən sui-istifadə etməyə cəhd etdilər. Belə ki, sultanın onlara olan münasibətindən istifadə edən kürdlər narahat ermənilləri sıxışdırmağa başladılar. Onların malik olduqları torpaqları kürdlər zəbt etdilər, nəticədə iki xalq arasındakı münasibətlər ənənəvi xarakter alan düşmənçiliyə çevrilməyə başladı Xaricdən müdafiyə olunun ermənilərin məqsədyönlü siyasət aparmasına imkan yarandı. Belə bir vəziyyət bir tərəfdən, İstanbula milli məsələdə uğurlu manevr etmək imkanı versə də, digər tərəfdən Avropa

dövlətlərinin Osmanlı imperiyasının daxili işlərinə qarışmasına əlverişli şərait yaradırdı. XIX yüzilliyin 70-ci illərində erməni məsələsinin ortaya atılmasında da, məhz bu faktor xüsusi rol oynamışdı.

*İraqda tənzimat* Gülxanə xətti-şərifində öz əksini tapmış türk islahatçılarının mütərəqqi ideyaları İraqda çox ləng şəkildə özünə yer alırdı. Buna səbəb İraqdakı vəba xəstəliyi və quraqlıq, eləcə də ərəb və kürd tayfalarının feodal müharibələri nəticəsində dağılmış iqtisadiyyatın ağır vəziyyətdə olması, sosial problemlərin hər hansı məsələlərdən yüksəkdə durması idi. Əslində həmin dövr yaranmış vəziyyətdə İraq Osmanlı imperiyasının keçirməyi planlaşdırdığı islahatlara faktiki olaraq hazır deyildi. Bununla yanaşı, Osmanlı imeriyasının digər əyalətlərinə nisbətdə İraqda islahatların keçirilməsi daha çətin və baha başa gəlirdi. Bu da yenə İraqın üzləşmiş olduğu ağır sosial-iqtisadi vəziyyət ilə əlaqədar idi. Ona görə də, ilk dövrlər planlaşdırılan islahatlar İraqda heç bir sahəyə hiss olunacaq təsir göstərmədi. Osmanlı hökuməti burada tam hərbi, mülki və məhkəmə hüquqlarına malik olmaqla, ölkəni əvvəlki kimi satrap sistemi ilə idarə edirdi.

Artıq 1842-ci ildən sonra ilk dəyişikliklər hiss edilməyə başlandı. Belə ki, məhz bu dövr tənzimatın birinci mərhələsinin müddəaları tətbiq edildi. Lakin İraqda həmin islahatlar yarımçıq və gecikdirilmiş vəziyyətdə həyata keçirildiyindən istənilən nəticəni vermirdi. 1870-ci ilə kimi ümumi hərbi mükəlləfiyyət haqqında qanun Aşağı İraqa tətbiq olunmadı. 1848-ci ildə hərbi hakimiyyət mülki hakimiyyətdən ayrıldıqdan sonra Bağdadda yerləşən altıncı türk korpusu yaradıldı. Qubernatorun fəaliyyət funksiyaları korpus komandirinin səlahiyyətlərindən ayrıldıqdan sonra mülki işlərdə irəliyə doğru addımlar atılmağa başlandı. Bütün bunlarla yanaşı, dövlət orqanının yenidən qurulması istiqamətində də konkret addımlar atılırdı. Bunun nəticəsində, dövlətdə müəyyən dərəcədə mərkəzləşmə və ixtisaslaşma prosesi başlandı. İltizam sistemi ləğv edildi. Maliyyə-vergi məsələləri ilə xüsusi məmurlar məşğul olmağa başladılar. Avropa təhsili və dünyagörüşünə malik türk və ərəb ziyalılarının, həmçinin bürokratik aparatın formalaşmasına təkan verilmiş oldu.

Bütün bunlar, İraqda, nəticə etibarilə sosial hərəkatların qarşısına sədd çəkmiş oldu. Yeni hakimiyyət rejimi əvvəlkindən fərqli olaraq despotik deyildi. Lakin yeni rejim də rüşvətxorluq və süründürməçilikdən yan keçə bilməmişdi.

*Kommunikasiya və ticarətin inkişafı* XIX yüzilliyin 50-ci illərinin axırlarına kimi İraqın iqtisadiyyatı tam tənəzzül vəziyyətində olmuşdur. Yalnız həmin əsrin 60-cı illərinin birinci yarısından etibarən, kənd təsərrüfatında irəliləyişlər hiss edilməyə başlandı. Bunun əsas göstəricisi İraqın xarici bazarlara həmin dövr buğda və xurma ixrac etməsi, eləcə də xarici ölkələrdən sənaye malları idxal etməsi idi. İraqın kənd təsərrüfatı mallarına olan tələbatı burada yenidən tarla əkinlərinin genişləndirilməsinə və xurma bağlarının salınmasına təkan verdi və bu əvvəlki təsərrüfat sistemlərinin də bərpasını şərtləndirdi. İraqın bu inkişafında qonşu İranın da rolu az deyildi. Belə ki, İraqın öz məhsullarını dünya bazarına çıxarması ölkədə daxili vəziyyətin sabitliyinə işarə idi. Belə bir vəziyyətdə, dünya bazarına öz mallarını çıxaran İran üçün İraqda formalaşan sabitlik daha böyük əhəmiyyət daşıyırdı. Belə ki, İran xarici ticarət sahəsində öz ixracat məhsullarını Bağdad və Bəsrə tranzit yolları vasitəsilə aparırdı. 1861-ci ildə İraqda daxili gömrük sisteminin ləğv olunması İranın Bağdad və Bəsrə tranzit ticarət yollarından istifadə etməsinə imkan yaradırdı.

Xarici ticarət və tranzitin inkişafı İraqda yolların və kommunikasiyanın genişlənməsinə tələbatı artırırdı. Hələ XIX yüzilliyin 30-cu illərində İngiltərə tədqiqatçısı Çesney Dəclə və Fərat çaylarından istifadə etməklə daimi su yolu yaratmaq istəmişdisə də buna müvəffəq olmamışdı. Bunun əsas səbəbi Hindistana gedən yolun Misir və Qara dənizdən keçməsi və daha rentabelli olması idi. Digər tərəfdən İraqdakı ticarət o qədər aşağı səviyyədə idi ki, burada əldə olunan gəlir ölkənin digər rayonları ilə əlaqələrin genişləndirilməsi üçün kommunikasiya sisteminin moderenləşdirilməsinə imkan vermirdi. 60-cı illərdə isə vəziyyət tamam əksinə idi. İntensiv olaraq yüksəlməkdə olan ticarət kommunikasiya və nəqliyyat vasitələrində çevrilişə gətirib çıxarmışdı. 1862-ci ildən etibarən Osmanlı hökuməti Bağdad və Bəsrə arasında Dəclə vasitəsilə daimi bərə (gəmi) reysləri təşkil etdi. Həmin il, eyni zamanda, İngiltərənin

Linç şirkəti də Dəclədə müntəzəm gəmiçilik yolları formalaşdırmışdı. Eyni zamanda Bəsrə vasitəsilə Fars körfəzi və Hindistan ilə əlaqələrin qurulması üçün dəniz yolları açılmışdı. 1864-cü ildə isə kommunikasiyanın genişləndirilməsi ilə əlaqədar olaraq Bağdad teleqraf xətti vasitəsilə İstanbul, Tehran, Bəsrə və Hindistanla bağlanmışdı. 30

*İraq Midhət paşanın hakimiyyəti altında* İraqda qəti olaraq, islahatların başa çatdırılması 1876-cı il Osmanlı konstitusiyasının müəllifi, türk konstitusiya hərəkatının rəhbəri, Osmanlı dövlətinin görkəmli dövlət xadimi Midhət paşaya (1822-1883) tapşırıldı. 1869-cu ildə o, Bağdada qubernator və eyni zamanda, YI korpusun komandanı vəzifəsinə təyin olundu. Onun əlində İraqdakı bütün hərbi və mülki hakimiyyət cəmləşmişdi.

Midhət paşa ona xas olan enerji ilə İraqın bütün həyatının yenidən qurulması məqsədilə islahata başladı. Kommunikasiya xətlərinin çəkilməsi, yolların salınması və modernləşdirilməsinə xüsusi diqqət verildi. O, Dəclə çayında buxar ilə işləyən gəmiçiliyi genişləndirdi və dövlət gəmiçiliyi yaratdı. Süveyş kanalının açılmasından sonra o, bir tərəfdən Bəsrə ilə, dəgər tərəfdən də İstanbulla London arasında dəniz yollarını təşkil etdi. Midhət paşa həmin su yollarının Dəclə çayı istiqamətində Mosuladək, yuxarıda isə Fərat çayı istiqamətində Hələbədək uzadılmasını layihələşdirdi. Bu məqsədlə o, yerqazma işləri apardı. Midhət paşa, eyni zamanda Mosulda neft hasilatını təşkil etməyi planlaşdırdı. Buradan əldə olunan gəlir isə İraqda dəmir yollarının salınmasına yönəlməli idi. Bu məqsədlə o, xüsusilə Dəclə çayı sahili boyunca çəkiləcək dəmir yolunun layihəsi üzərində ciddi çalışırdı. Lakin Midhət paşa Bağdad-Qazımeyn xəttinin 12 km uzunluğunda tikintisini başa çatdırdı və bu xətt üzrə buxarla işləyən tramvay buraxdı. O, eyni zamanda xurma plantasiyaları və əkin sahələrinin də genişləndirilməsinə diqqət yetirdi.

Midhət paşa bir sıra inzibati və mədəni sahələrdə də islahatlar keçirdi. 1864-cü ildə Osmanlı dövlətində məhkəmə hakimiyyətini inzibati hakimiyyətdən ayıran qanun qəbul olundu. Qanuna əsasən seçkili məhkəmələr yaradıldı və əhali yerli özünüidarəyə cəlb edildi. 1868-ci ilədək bu qanun İraq və Yəmən istisna

olmaqla Osmanlı imperiyasının bütün əyalətlərində tətbiq olundu. Midhət paşa həmin qanunu İraqa da tətbiq etdi. O, yeni məhkəmələr, bələdiyyə şuraları və məktəblər təsis etdi. Onun vaxtında Bağdadda ilk qəzet nəşr olundu.

Midhət paşa İraqın mərkəzi hökumətə tabe edilməsini, tayfa və feodalların separatist çıxışlarına son qoymağı özünün başlıca vəzifəsi hesab edirdi. Bu məqsədlə o, İraqda ümumi hərbi mükəlləfiyyət sistemini tətbiq etdi və onlardan nizami ordu üçün əsgər toplanışında iştirak etməyi tələb etdi. O, tayfalara müvafiq vergilər tətbiq etdi və bu vergilərin mütəmadi olaraq ödənməsini ön plana çəkdi. Midhət paşanın bu siyasəti 1869-cu ildə ərəb tayfalarının üsyanlarına səbəb oldu. Midhət paşa onların üsyanını darmadağın etdi.

Bununla belə, Midhət paşa başa düşürdü ki, yalnız repressiyalarla tayfaların müqavimətini qırmaq mümkün deyil. Ona görə də o, ərəb tayfa feodallarını öz tərəfinə çəkməyi məqsədəuyğun hesab etdi. Bundan da əsas məqsəd kəndli təsərrüfatının birgə idarə edilməsində həmin feodallara müəyyən hərəkət azadlıqları vermək idi. Bu məqsədlə də o, özündən əvvəlki hakimlərdən fərqli olaraq tayfaların oturaq həyata keçməsi üçün şərait yaratdı. Və dövlət torpaqlarını tayfa şeyxlərinə paylamağa başladı. 1858-ci il torpaq qanununun tətbiq edilməsi qaydalarına uyğun olaraq o, tam aşağı qiymətə dövlət torpaqlarını onlara satmağa başladı. Bu torpaq mülkləri şeyxlərə tam mülkiyyətçi hüququ verməsə də, yəni onların irsi torpaqlarına çevrilməsə də bütünlükdə bu siyasət ərəblərin sakitləşməsinə gətirib çıxardı. Bu torpaqların əsas alıcıları keçmiş timar və ziyamət sahibləri, tacirlər, ən başlıcası isə tayfa şeyxləri idi. Bütün bu şəxslər yeni paylanan torpaq sahibləri olmaqla bütünlükdə bu sistem Miri tapu adını almış oldu. Bu sistemə əsasən bütün bu torpaqların ali mülkiyyətçisi dövlət olaraq qalırdı. Məhz dövlət xüsusi sənədlər (tapu) əsasında həmin torpaqları yeni sahiblərinə satmaq hüququna malik idi.

Midhət paşanın burada həyata keçirdiyi ən böyük tədbirlər sırasında Küveyt və əl-Həsanın 1871-ci ildə qəti olaraq Osmanlı hakimiyyətinə tabe edilməsi idi. Bu vilayətlər xüsusi inzibati vahidlik kimi formalaşdırılaraq İraqın türk hakimlərinə tabe etdirilmişdi. Əl-Həsada baş vermiş üsyanların yatırılması Osmanlı dövlətinin

təkcə İraqda islahatların aparılması ilə deyil, həm də Sultan hökumətinin Cənubi Ərəbistanda möhkəmlənmək və İngiltərənin bu regionda artan nüfuzuna qarşı daha əsaslı şəkildə siyasət yeritmək idi. Çünki islahatların keçirilməsinə etiraz edən sosial bazanın ingilis agentləri tərəfindən qızışdırılması nəticə etibarilə Osmanlı dövlətinin başlamış olduğu islahatların sabit və uğurla həyata keçirilməsi və başa çatdırılmasına mane olurdu. Bu nöqteyi-nəzərdən əl-Həsada üsyanların yatırılması, Osmanlı dövlətinin milli və dövlət maraqlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində vacib olmaqla, həm də xüsusi əhəmiyyət daşıyırdı.

Nəticədə, Midhət paşanın İraqda həyata keçirdiyi islahatlar Osmanlı dövlətinin burada hakimiyyətinin möhkəmlənməsinə gətirib çıxardı. İlkin dövrlər ərəblərin idarəçilikdən uzaqlaşdırılması, sonrakı dövrlərdə tədricən Avropa təhsili almış ziyalıların cəlb edilməsi ilə dövlət müəssisələrində ərəblərin də iştirakı təmin edilməyə başlandı. Əslində Osmanlı dövlətinin digər addım atması da qeyri-mümkün idi. Çünki ziyalı ərəblərin idarəçilikdən kənarda saxlanması milli gərginliyin artmasına səbəb ola bilərdi. Bununla belə, bütün hakim vəzifələrə əksəriyyətində türklər təyin edilirdi ki, bu da təsadüfi xarakter daşımırdı.

Midhət paşanın İraqdakı islahatları əyalət və mərkəzi hökumət arasında mövcud olan vakuumun aradan qaldırılmasını təmin etmiş oldu. İraqın özünəməxsusluğu Osmanlı imperiyasının ümumi qanunlarına tabe edildi. Midhət paşadan sonra İraqa təyin olunan qubernator və korpus komandirləri onun islahat və siyasətini davam etdirmək istədilərsə də, buna müvəffəq olmadılar.

*İraq yeni dövrün ikinci mərhələsində* XIX yüzilliyin axırlarında İraq iri dövlətlərin rəqabət meydanına çevrildi. İraqda neftin aşkar edilməsi bu rəqabəti daha da kəskinləşdirdi.

1889-cu ilin noyabrında hakimiyyətə gəldikdən dərhal sonra II Vilhelmin ilk ziyarəti İstanbula oldu. Sultan onu təntənəli surətdə qarşıladı. 1898-ci ilin noyabrında II Vilhelm ikinci gəlişində təkcə İstanbulu deyil, Qüdsü və Dəməşqi də ziyarət etdi.

Osmanlı dövləti ərazisində dəmir yollarının çəkilməsi xarici kapitalistlərə gəlir gətirməklə yanaşı XIX yüzilliyin sonlarında artıq siyasi xarakter daşımağa başlamışdı. Dəmir yollarının çəkilməsi dövlətlərin siyasi müdaxiləsini əsaslandırmaqla yanaşı onların kəskin mübarizə meydanına çevrilməsinə də əsas verirdi.

Qeyd edək ki, Bağdadda dəmir yolunun çəkilməsi məsələsi iri dövlətlər tərəfindən qızğın mübahisə mənbəyinə çevrildi. İngiltərə və Fransa təxminən eyni mövqedən çıxış edirdilər. İngiltərə dəmir yoluna çəkilən xərcləri ödəmək üçün kompensasiya ödəməyi və gömrüyü artırmağı tələb edirdi. Rusiya isə Bağdad dəmir yolunun çəkilməsinin qəti əleyhinə çıxış edirdi. 1892-ci ildə Ankaraya qədər dəmir yolu çəkilmişdi, 1894-cü ildə isə dəmir yolu Koniyaya qədər də uzadıldı.

1899-cu ildə alman kapitalistləri Bağdad dəmir yolunun beynəlxalq xarakter daşımasına icazə verirdi. Lakin onlar nəzarət paket aksiyalarını və yolun bütün idarəçiliyini əllərində saxlamaq şərti ilə fransız və ingilis kapitalının iştirakına razı idilər. Aksiyaların bölüşdürülməsi, direktor vəzifələri, yolların idarə edilməsinin harada həyata keçirilməsi kimi məsələlər uzun müddət mübahisə mənbəyinə çevrildi. Nəticədə, Fransa hökuməti almanlarla ümumi dil tapmadıqlarından Bağdad dəmir yolu tikintisində iştirakdan imtina etdi. İri dövlətlərlə ümumi razılığa gələ bilməyən almanlar ilk 200 km. yolu çəkməyi qərarlaşdırdılar. Yalnız 1911-ci ildə almanlar dəmir yolunun uzadılmasında iri dövlətlərdən gömrükdə dəyişikliklər etməyə icazə ala bildilər.

Birinci dünya müharibəsi ərəfəsində İraqda milli-azadlıq hərəkatı genişləndi. «Kəxtaniyyə» və «əl-Əhd» gizli təşkilatları Osmanlı imperiyası tərkibində İraqa muxtariyyat verilməsi tələbi ilə çıxış edirdilər.

*İraq birinci dünya müharibəsi illərində*

Birinci dünya müharibəsi illərində İngiltərənin siyasəti İraqda müstəmləkə rejiminin qorunub saxlanmasına yönəlmişdi. 31 oktyabr 1914-cü ildə İngiltərənin Fars körfəzində rezidentinin vəzifəsini icra edən podpolkovnik Noks «bütün ərəb hakimlərinə, Fars körfəzi şeyxlərinə və onun təbəələrinə» bəyanatla müraciət etdi. Əgər onlar sakitliyi və əmin-amanlığı qoruyacaqlarsa, ingilis hakimlərinə dostluq münasibətləri

bəsləyəcəklərsə, onda onların «dinləri və azadlıqları»nın toxunulmazlığı təmin ediləcəkdir.

5 noyabr 1914-cü ildə Persi Koks yeni bəyanatla çıxış etdi və burada göstərilirdi ki, «öz ticarətlərini, dostlarını qorumaq və düşmən türk dəstələrini qovmaq üçün» İraqa ingilis-hind qüvvələri göndərilmişdir.

Yaxın Şərqdə hərbi əməliyyatlar 1914-cü ilin noyabrında başlamışdı. Müharibə elan edildikdən iki gün sonra Şətt əl-Ərəb çayının sahilinə ingilis-hind ordusu çıxarıldı və buradan da şimal istiqamətində yürüşə başlandı. 21 noybrda Bəsrəni, 9 dekabrda isə Krunaanı tutudular.

İngilislər Şimal yürüşü ilə, eyni zamanda Cənubi İraqın da işğalına başladılar. Cənubi İraqın işğalını asanlaşdırmaq məqsədilə ingilis-hind hakimyyəti türklərə qarşı çıxış edən qüvvələrdən istifadə etməyə çalışırdılar. Elə bu məqsədlə, 1914-cü ilin oktyabrında böyük nüfuz sahibi olan seyid Taliblə şeyx Məhəmməd Xəzəlin vasitəsilə danışıqlar aparıldı. Danışıqların gedişində, hətta seyid Talib özü üsyan qaldırmağa hazır olduğunu bildirdi. Lakin üsyanın istiqamətinin sonradan dəyişə biləcəyi ehtimalı və nəticələrinin ürəkaçan olmayacağından ehtiyatlanan ingilislər ona təhlükəsizliyinin qorunacağı təqdirdə Bəsrədə qalsın və Mühəmmərə, Küveyt şeyxləri və Nəcd əmirinin göstərişləri əsasında ingilis marağına uyğun fəaliyyət göstərmək tapşırığını verdi.

Bununla kifayətlənməyən ingilislər İraq millətçiləri, xüsusilə «əl-Əhd» cəmiyyətinin nümayəndələri ilə əlaqə yaratmağa çalışırdı. Kitçener həm də Misirdə İraq məsələləri ilə bağlı Əziz Əli əl-Misri ilə danışıqlar aparırdı.

Lakin müstəqillik iddiasında olan millətçilərlə İngiltərənin müstəmləkəçilik planı üst-üstə düşmədiyindən ikincilər onlarla əlaqə yaratmaqdan imtina etdilər. Bəsrə süqut etdikdən sonra 1914-cü il noyabrın əvvəlində ingilis hakimləri ərəb millətçiləri, xüsusilə seyid Taliblə və Əziz əl-Misri ilə danışıqları kəsdilər. Onlar seyid Talibin siyasi fəaliyyətindən çəkinərək, onu əvvəlcə Seylona, sonra isə Misirə sürgün etdillər. Bununla yanaşı, ingilis komandanlığı Talibin tərəfdarlarından üç nəfəri asdırdı, bir çox İraq millətçilərini, o cümlədən türk ordusundan fərarilik etmiş «əl-Əhd» cəmiyyətinin üzvləri olan İraq zabitlərini cəzalandırdılar.

İraqda ingilislərin mövqeyinin möhkəmlənməsi yerli mülkədarlarla, tayfa şeyxləri və ali ruhanilərlə qarşılıqlı münasibətlər yaratmadan mümkün deyildi və bunu ingilis hakim dairələri yaxşı başa düşürdü. Bu əlaqələri qurmaq onların qarşısında ən mühüm vəzifə kimi dururdu.Feodalların kiçik qrupu, əsasən ali sünni ruhaniləri və Cənubi İraqda iri latifundiya sahibləri sultan hakimiyyətini qorumağa üstünlük verdilər. Bu qrupa əs-Sadun iri ərəb feodal sülaləsi də daxil idi.

Cənubi İraq uğrunda gedən döyüşlərdə ingilislərə Küveyt şeyxi Mübarək böyük yardım göstərdi. Onun dəstələri general Barretə Abadan yaxınlığında ordusunu çıxartmağa və Bəsrə istiqamətində hərəkət etməyə köməklik göstərdilər. Bu yardımın müqabilində ingilislər Mübarəkə Şətt əl-Ərəb çayı sahilində onun mülklərini qoruyub saxlamağa, onların üzərinə vergi qoymamağa, əbədi olaraq onu və oğlanlarını Küveytin şeyxi kimi tanımağa söz verdi.

İraq feodallarının əksəriyyəti, xüsusilə tayfa başçıları ingilispərəst mövqedən çıxış edirdilər. Bunun ən mühüm səbəblərindən biri 1914-cü ildə İraq şeyxləri ilə türk hakim dairələri arasında yaranan ziddiyyət oldu. Bəsrənin valisi, sonra isə türk-İran sərhəddində 13-cü korpusa komandanlıq edən tanınmış ərəb şeyxi Süleyman Şəfiqlə Kamal paşa arasında böyük toqquşma baş verdi. Buna görə də şeyx Bəsrə vilayətində müharibənin əvvəlində Britaniya ordusu ilə əməkdaşlıq etməyə üstünlük verdi. Bəsrə ətrafındakı tayfalar isə türk birləşmələrinə və postlarına ardıcıl olaraq hücumlar təşkil edirdilər, nəticədə türklər şəhəri tərk etməyə məcbur oldular.

Şeybə yaxınlığındakı döyüşdə türk ordusunun tərkibinə daxil olan bədəvilər kütləvi şəkildə fərarilik edirdilər ki, bu da onların məğlubiyyətini əsaslandırırdı. Geri çəkilən türk orduları muntafik tayfaları tərəfindən hücuma da məruz qaldılar. Bundan sonra türk komandanlığı İraq tayfalarının hərbi əməliyyatlarda iştirakına yol verməməyə çalışırdılar.

Dəclə və Fərat çayları boyunca ingilis ordularının hərəkətinə tayfalar hərbi köməklik göstərdilər. 3 iyun 1915-ci ildə Amar alındıqdan sonra yerli şeyxlər Əbu Məhəmməd Ərəbi paşa və Məcid əl-Xəlifə ingilislər tərəfə keçdilər. 1915-ci ilin iyulunda hərəkət edən

general Qorrincin dəstəsinə qarşı müdafiə təşkil etmək cəhdlərinə muntafik tayfası mane oldu.

Bağdad istiqamətində Britaniya ordusunun hərəkətinə bənu ləm tayfası köməklik göstərdi. Koks 1915-ci ilin aprelində Əhvaz yaxınlığındakı döyüşdə türklər tərəfindən döyüşən bənu ləm tayfasının nüfuzlu şeyxi Qabdan ibn Bunəyyanı da öz tərəflərinə çəkə bildilər. Bənu ləm tayfası ilə danışıqlarda şeyx Məhəmməd Xəzəl böyük rol oynadı. Lakin onların Bağdadı tutmaq cəhdləri müvəffəqiyytsizliyə uğradı. 1915-ci ilin noyabrında isə ingilislər Sasanilərin keçmiş paytaxtı Ktesifonda da məğlubiyyətə uğradılar. Turk orduları Mesopo-tamiya cəbhəsində müvəffqiyyətlə irəliləyirdilər. Türklərlə yaxşı münasibətdə olan İraqın şeyxül-islamının cihada çağırışı da müəyyən rol onyadı. Onlar, hətta 1915-ci ilin dekabrında general Taunşendin Kut əl-Amarda on minlik dəstəsini də mühasiryə aldılar. 29 aprel 1916-cı ildə, yəni beş aylıq mühasirədən sonra Taunşend təslim olmağa məcbur oldu. Lakin müqəddəs müharibəyə çağırışa bütün tayfalar eyni cür yanaşmırdılr. Onlar ingilislərə qarşı mübarizədən imtina edir, digər qismi isə ya loyal və ya neytral mövqe göstərir-dilər. İngilislərin Kut əl-Amarda məğlub olması İraq şeyxlərinin türklərə qarşı mövqeyinə ciddi dəyişiklik gətirmədi. Kut əl-Amara xüsusi tapşırıqla gələn Lourens qarnizonun qaladan çıxması üçün türk komandanlığını və ərəb şeyxəlrini pulla ələ almalı oldu. Vilson təsdiq edir ki, Lourens türk generallarına və şeyxlərə 2 mln. f.st. vəd etdi. Lakin onun bu cəhdi heç bir səmərə vermədi və o, əliboş geri qayıtmalı oldu. Lakin tezliklə ingilislər məğlubiyyətdən yaxa qurtara bildilər və 1916-cı ilin ikinci yarısında yenidən hücuma keçdilər.

Birinci dünya müharibəsi illərində1916-cı ilin ikinci yarısı Türkiyə-Asiya cəbhəsində hərbi döyüşlərin gedişində mühüm dönüş nöqtəsi oldu. 1916-ci ilin ikinci yarısında Osmanlı imperiyasının ərəb cəbhələrində vəziyyət ağırlaşdı. İraq cəbhəsində təşəbbüsü ələ alan ingilislər vəziyyətə sahibliklərini müharibənin sonuna qədər qoruyub saxlaya bildilər. İki il davam edən döyüşlərdə Antanta dövlətlərinin o dövrun müasir texnikası ilə təchiz olunmuş və yüksək nizam-intizama malik Silahlı qüvvələrinin qarşısında türk ordlusunun hərbi döyüş qabiliyyəti tükənmiş vəziyyətdə idi. Osmanlı dövlətinin Silahlı qüvvələri gücləndirmək sahəsində göstərdiyi

cəhdlər də heç bir fayda vermədi. Osmanlı hərbi qüdrətinin kəskin azalmasına səbəb isə seçmə türk ordularının Qalitsiya, Rumıniya və Makedoniyada alman komandanlığının ixtiyarına verilməsi idi.

1917-ci ilin yazında ingilislər Mesopotamiya cəbhəsində 160 minlik ordu toplayaraq, Bağdad istiqamətində əsaslı yürüşə başladı. Say etibarilə VII türk ordusundan on dəfə artıq olan general Modanın cəza ekspedisiyası Dəclə çayı boyunca hücuma keçdi və türk ordularını məğlub edərək onları Bağdada geri çəkilməyə vadar etdi. 11 mart 1917-ci ildə ingilis hərbi hissələri Bağdada daxil oldu, elə həmin ayda da Bəsrə və Bağdadın vilayətlərini tutuldu. Bağdadın alınması İngiltərə üçün nəinki hərbi, həm də siyasi əhəmiyyət kəsb edirdi. Türklərlə müharibədə bu qələbənin qazanılmasında ingilislərin ərəblər və müsəlman icmaları arasında apardığı təbliğat işi də böyük əhəmiyyət kəsb etdi.

Lakin Bağdada sürətli hücum ingilis ordusunu xeyli zəiflətdi, uzun keçidlər və günlərlə davam edən döyüşlər onları yordu. Yalnız 6 noyabr 1917-ci ildə Bağdadla Mosul arasında yerləşən Tiqriti ingilislər tuta bildilər. İngilis ordularının say üstünlüklərinə baxmayaraq, onlar İraqda əldə etdikləri hər kənd və şəhər uğrunda apardıqları mübarizədə qazandıqları qələbəni çox çətinliklə əldə edirdilər. Bu türklərin İraqa böyük əhəmiyyət vermələri və bu ərazi uğrunda gərgin mübarizə aparmaları ilə ölçülür. Lakin 1916-cı ilin ikinci yarısı və 1917-ci il üçün hərbi əməliyyatların nəticəsi türklər üçün ürək açan deyildi. Bununla yanaşı, 1917-ci ilin payızında Qafqaz, Sinay və Mesopotamiya cəbhələrində müttəfiqlərin 400 minlik ordusuna qarşı 150 minlik türk ordusu dururdu.

1918-ci ilin noyabrında Mudros barışığının şərtlərini pozaraq, ingilsilər Mosul vilayətini də tutdular. 1920-ci ildə San Remoda keçirilən konfransda ingilislər müttəfiqlərin köməyi ilə Osmanlı imperiyasının üç vilayəti əsasında yaradılmış İraq dövləti üzərində Millətlər Cəmiyyətindən mandatlıq hüququ aldılar.

## ƏRƏBİSTAN YARIMADASI

Yeni dövrün əvvəllərində Ərəbistan yarımadası Osmanlı imperiyasının ən geridə qalmış rayonlarından biri idi. Bu geriliyin bir sıra səbəbləri sırasında ilk növbədə, burada hökm sürən köçəri bədəvi həyat tərzi qeyd edilir. Günəşin qızmar şüaları altında yanan Ərəbistan səhraları isə heyvandarlığın artan tələbatını ödəmək iqtidarında deyildi. Vahə əkinçiliyi isə ərəb tayfalarının daimi toqquşmaları və daxili feodal çəkişmələri nəticəsində ən çox dağıntıya məruz qalırdı. Əslində istər heyvandarlıq, istərsə də vahə əkinçiliyi nə qədər inkişaf etsə də, bütünlükdə ərəb tayfalarının artan tələbatı Osmanlı dövlətinin büdcəsinə kifayət qədər itkilər hesabına ödənilirdi.

Ərəbistan 6 tarixi-coğrafi əyalətlərə bölünürdü: Hicaz (qərb), Yəmən (cənub-qərb), Hadramaut (cənub), Oman (cənub-şərq), Nəcd (mərkəzi), Həsa (şərq). Ərəbistan yarımadası hələ qədim dövrlərdən otlaq böhranı keçirən rayon kimi tanınırdı. Lakin belə bir hal, yarımada əhalisini süni suvarma sistemləri yaratmağa və onu təsərrüfatın inkişaf etdirilməsinə yönəldirdi. Bununla belə, burada istənilən nəticələri almaq qeyri-mümkün idi.Bu da, ilk növbədə ərəb tayfaları arasında mövcud olan zəiddiyyət və qarşıdurmadan irəli gələn faktor idi. Otlaqların çatışmamazlığı nəticəsində bədəvilər daim mühacirət etmək məcburiyyətində qalırdılar. Həmin mühacirət isə, öz növbəsində ərəblərə palma və digər bar verən ağacların bağlarını salmağa məcbur edirdi. Məhz bu mühacirətin məntiqi nəticəsi kimi də artıq Əsir dağı ətəklərində, Yəməndə, Hadramautda, Omanda, Nəcddə və dağlıq ərazilərə yaxın yerlərdəki vahələrdə ərəblərin oturaq əhalisi yerləşmişdir.

XVIII yüzilliyin əvvəllərində Ərəbistan yarımadasında vahid dövlət təşkilatına malik deyildi. Onun istər bədəvi, istərsə də oturaq əhalisi bir-biri ilə fasiləsiz olaraq mübarizə aparan tayfalara bölünmüşdü. Onlar otlaqlar eləcə də su mənbələri uğrunda mübarizə aparırdılar. Bu tayfaların hamısı tam silahlandığından münaqişələr daha kəskin xarakter daşıyırdı. Köçəri ərəblərin yaşadığı rayonlarda mövcud olan hərc-mərcliyə oturaq ərəblərin məskunlaşdığı yerlərdə

feodal özbaşınalığı və münaqişələri də əlavə olunduqda Ərəbistan yarımadasında inkişafı təmin edə biləcək bütün istinadlar dağıdılırdı.

Qeyd etməliyik ki, Ərəbistan yarımadasında feodal cəmiyyətin özü kifayət qədər mürəkkəb idi. Köçəri tayfalar üzərində hakimiyyət şeyxlərə məxsus idi. Bəzi tayfalarda şeyxlər bədəvi kütləsi tərəfindən seçilsə də, bəzilərində artıq bu nəsildən-nəslə keçən bir ənənə xarakteri almışdı və həmin şeyxlər artıq öz tayfalarının hakimləri hesab edilirdi. Belə tayfalarla yanaşı onlardan asılı olan tayfalar da mövcud idi. Şəhərlərdə və əkinçilik rayonlarında şərif və seyidlər kimi feodal əyanları və varlı tacirlər, nisbətən aşağı səviyyədə olan tacir və feodallara qarşı mübarizə aparırdılar. Ərəbistandakı feodal cəmiyyəti patriarxal nəsli münasibətlər sisteminə əsaslanırdısa da, burada istər köçəri, istərsə də oturaq ərəblər arasında qullara rast gəlmək mümkün idi. Məkkə, Xüfuf, Məskət və bu kimi şəhərlər qul alverinin aparıldığı əsas şəhərlər sırasında idi.

Bu dövr həm şəhərlər, həm də kəndlər bədəvi ərəblərin daimi hücumlarına məruz qalırdı. Nəticədə, suvarma sistemləri, su mənbələri və palma bağları dağıdılırdı ki, buna son qoyulmasını da əhalinin ağır iqtisadi vəziyyəti tələb edirdi. Məhz bu tendensiya da xırda knyazlıqları vahid siyasi amal altında birləşməyə sövq edirdi. Bu dövr diqqət mərkəzində olan bir faktor da mövcud idi. Bu Ərəbistandakı ictimai əmək bölgüsü idi. Vahələrin əkinçilik məhsullarının heyvandarlıq məhsulları ilə mübadiləsi həmin əmək bölgüsünün faktiki olaraq əsasını təşkil edirdi. Bununla belə, istər bədəvilər, istərsə də əkinçiliklə məşğul olan ərəblər çörək, duz, parça kimi mallara daha çox ehtiyac duyurdular. Bu tələbatın artması nəticəsində Ərəbistanın Suriya və İraq ilə karvan ticarətinin genişlənməsinə səbəb olsa da, feodal hərc-mərcliyi və bədəvi münaqişələri bu inkişafı ləngidirdi. Bu səbəbdən də, Ərəbistan yarımadasının bir sıra knyazlıqları siyasi birliyə can atırdılar.

Nəhayət, Ərəbistan yarımadasında feodal-tayfa pərakəndəliyinin aradan qaldırılmasını tələbata çevirən bir amil də var idi ki, bu da xarici dövlətlərin burada nüfuz bərqərar etmək və möhkəmlənmək istiqamətində apardıqları mübarizə idi. XVI yüzillikdə heç bir müqavimətə rast gəlmədən burada öz hakimiyyətini bərqərar etmiş türklər Ərəbistan yarımadasının əsasən Hicaz, Əsir və Yəmən

rayon-larında daha güclü şəkildə möhkəmlənmişdilər. Həmin əsrdən başla-yaraq həmçinin ingilislər, portuqallar və hollandlar yarımadanın şərq sahillərində öz bazalarını yaratmışdılar. XYIII yüzillikdə isə farslar əl-Xas, Oman və Bəhreyni işğal etdilər. Yalnız Daxili Ərəbistan həm özü səhra olduğuna görə, həm də mərhələli səhralarla əhatələndiyinə görə türklər tərəfindən zəbt edilməmişdi.

Belə bir vəziyyətdə, Ərəbistanın sahil rayonlarında məskunlaşmış ərəblərin apardığı mübarizə xarici qəsbkarlara qarşı aparılan mübarizə xarakteri və forması alırdı. Yəməndə belə mübarizə Zeyd imamlarının başçılığı ilə başlamış və artıq XVII yüzillikdə buradan türklərin çıxarılması ilə sona çatmışdır. Yəməndə imamlar ölkənin ən çox əhali məskunlaşmış rayonlarını əllərində saxlayır-dılar. Hicazda türklərin hakimiyyəti nominal xarakter daşıyırdı. Real hakimiyyət ərəb dini feodallarına-şəriflərə məxsus idi. Əslində Hicazdakı türk hakimiyyəti rus tarixşünaslığının yazdığından fərqli olaraq, yerli ərəblərlə razılaşdırılmış şəkildə həyata keçirilirdi. Bu razılaşma Həzrəti peyğəmbərin Məkkədə qərarlaşması əvəzində Əbu Sufyanla əldə edilmiş razılığın əsasında formalaşdırılmışdı. Yəni, ərəb dini feodalları burada öz hakimiyyətlərini saxlayır, daxili idarəetmədə tam müstəqil fəaliyyət göstərir, lakin Osmanlı dövlətindən siyasi asılılığı qəbul edir, onun xəzinəsinə bac və vergi ödəyirdi. Bu zəmində, Osmanlı dövləti burada baş verən hər hansı daxili çəkişmə və ya münaqişəyə qarışmırdı. Belə bir kompromis hər iki tərəfi qane edirdi. Belə ki, türklər Ərəbistan yarımadasında geo-strateji maraqlarını təmin edir, bu rayonda gedən siyasi proseslərə nəzarəti ələ alır və xəzinə lazım olan maliyyə vəsaiti ilə təmin olunurdu. Ərəblər isə onların özünəməxsus mentaliteti çərçivəsində öz tarixi inkişaf yolundan çıxmır, daxili proseslərə özünün nəzarətini həyata keçirir, onlardan nisbətən daha yüksək inkişaf səviyyəsində olan türklərdən öz mübarizələrində siyasi dəstək alır, eyni zamanda buranın əsas maliyyə, iqtisadi və kommersiya proseslərini özündə cəm edən karvan ticarətinə nəzarəti öz əllərində saxlayırdılar. Belə bir ortaq məxrəc türk-ərəb münasibətlərində XIX yüzilliyin ortalarına qədər davam etmişdir. Həmin dövrə qədər burada möhkəmlənmək istəyən Avropa dövlətlərinin heç biri faktiki olaraq? türk-ərəb münasibətləri arasında ciddi ziddiyət yarada bilməmişdi. Avropa üçün belə bir

çətin vəziyyətdən çıxışı ingilis etnoqraf, arxeoloq, coğrafiyaşünas və hərbiçiləri tapmışlar. Aparılan siyasətin uğurlu-luğunu təmin etmək üçün belə qərara alınmışdır ki, Yaxın Şərqə, eləcə də Ərəbistan yarımadasına gələn hər bir ingilis iş adamı (iş adamı burada təkcə biznes və ya ticarətlə məşğul olan adam kimi nəzərdə tutulmur) yerli xüsusiyyətləri bilməli, ən azı bu haqda təsəvvürü olmalıdır. Bu haqda daha dəqiq fikri isə lord Palmerston söyləmişdi. «İngiltərənin Yaxın Şərqdə maraqları iki ərəb tayfası arasındakı münasibətin səviyyəsinə bağlıdır».

Osmanlı dövlətinin Ərəbistan yarımadasındakı hakimiyyətinin nominal xarakter daşıması fikri bir qədər həqiqətə uyğun gəlməsə də, həmin dövr türk-ərəb münasibətlərinin səviyyəsi Osmanlı dövlətinin buradakı siyasətinin forma və məzmununu xarakterizə edir. Bu isə Osmanlı dövlətinin əyalətlərə nisbətdə yeritdiyi siyasətin sırf yerli xüsusiyyətlərə uyğunlaşdırılmasından ibarət idi. Məhz bu münasibətlərin məntiqi nəticəsi idi ki, XVIII yüzilliyin ortalarında farslar Omandan vurulub çıxarılmış oldular. Bəhreyndən isə 1783-cü ildə farsların çıxarılmasından sonra burada ərəb feodal sülalələrinin hakimiyyəti bərqərar oldu. Farsların Oman və Bəhreyndən çıxarılmasında türklərin yardımı yuxarıda qeyd edilənlərin əyani təcəssümü olmaqla göstərirdi ki, həmin dövr Osmanlı hakimiyyəti ərəb ölkələrində zor gücünə bərqərar edilməmişdi. Bunu XVI yüzillikdə ərəblərin türklərə heç bir müqavimət göstərməməsi də sübut edir.

Daxili Ərəbistanda, yəni Nəcddə vəziyyət bir qədər fərqli idi. Belə ki, burada xarici müdaxiləçilərə qarşı deyil, yeni yaranmış təriqətə qarşı mübarizə, yaxud həmin təriqətin Ərəbistan yarımadasında yayılması uğrunda vəhhabilərin apardığı mübarizə hadisələrin mərkəzində idi və əslində həmin mübarizə buradakı bütün münasibətlərin mahiyyət və məzmununa öz təsirini göstərirdi. Lakin vəhhabilərin apardığı mübarizənin diqqət çəkən cəhəti də var idi ki, bu da onların Nəcddə mərkəzləşdirilmiş dövlət yaratmaq uğrunda apardıqları mübarizədə öz əksini tapır və bu getdikcə daha da intensiv, dəqiq müəyyən olunmuş məqsəd xarakteri alırdı. Vəhhabilərin apardığı mübarizə, həmçinin Nəcddə ərəb tayfalarının birləşdirilməsi, vəhhabi təriqətinin ideologiyasına əsaslanan mərkəzləşdirilmiş dövlətin qurulması mübarizəsi xarakteri də alırdı.

İlk baxışdan mütərəqqi görünən bu mübarizə, əslində ərəb birliyinə zərbə vuran mübarizə kimi də, tarixdə özünə yer alırdı. Bu nöqteyi-nəzərdən, vəhhabi təlimi haqqında bəzi tendensiyaları qeyd etmək məqsədəuyğun olar.

*Ərəbistan yarımadasında dini-siyasi cərəyan*

Vəhhabi təliminin banisi Nəcd ilahiyyatçısı Məhəmməd ibn Əbdül Vəhhab olmuşdur. Banu təmim tayfasından olan Əbdül Vəhhab 1703-cü ildə Nəcd yaxınlığında, müasir ər-Riyad şəhərindən 70 km. məsafədə yerləşən Uyeynədə qazi ailəsində doğulmuşdur. Onun həm atası, həm də babası alim olmuşdur. Kiçik yaşlarından Qurani-Kərimi əzbərləmiş, təfsir, hədis və fiqh elmlərini öyrənmiş, hənbəli fiqhi üzrə təhsilini atasının yanında almışdı. Dini karyerasını formalaşdırmaq istəyən Əbdül Vəhhab da atası və babası kimi erkən yaşlarından səyahətlər etməyə başlamış, Mədinə və Məkkə eləcə də Bağdad və Dəməşqdəki dini mərkəzlərdə dəfələrlə olmuş, burada dini elmlərin öyrənilməsinə güclü səy göstərmişdi. Səyahət etmiş olduğu hər yerdə o ilk növbədə dövrünün tanınmış alimlərindən dərs almağa çalışmış, dini disput və polemikalarda fəal iştirak etmişdir. XVIII yüzilliyin 40-cı illərində uzun səyahətdən sonra Nəcdə qayıdan Əbdül Vəhhab öz müasirləri qarşısnda yeni dini təlimi haqqında çıxışlar etməyə başladı. Məhəmməd ibn Əbdül Vəhhab onları islam dininə dəvət edir, lakin islamın həmin dövr hamı tərəfindən qəbul edilmiş və rəsmən itaət olunan formasına deyil, Həzrəti peyğəmbərin dövründə mövcud olmuş ilkin varianta dönməyi tövsiyə edirdi. Qeyd etmək lazımdır ki, Məhəmməd ibn Əbdül Vəhhabın bu çıxışları əslində tayfa qırğınları və qarşıdurmasında boğulan ərəblər üçün təkcə dini deyil, həm də siyasi birliyi əsaslandırırdı. Belə ki, Məhəmmədin vəhhabilik təlimi ərəbləri guya yalançı müsəlman-çılıqdan uzaqlaşaraq, həqiqi islamı qəbul etməyə çağırması, təkcə yeni dini təriqətin yayılmasını deyil, həm də Əbdül Vəhhabın Nəcddə bütün ərəb tayfalarını birləşdirərək, mərkəzləşdirilmiş dövlət yaratmaq ideya və məqsədində də öz əksini tapırdı. Lakin Osmanlı tarixində bu mübarizə Osmanlı rejiminə qarşı mübarizə aparan yeni hərbi-siyasi axını əsaslandırırdı. Bu faktor da Məhəmməd Əbdül Vəhhabın yeni təliminin təkcə dini deyil, həm də siyasi xarakter daşıdığını söyləməyə əsas verirdi. Hreymilə şəhərində

özünə yaşayış yeri seçən Məhəmməd burada «Kitab ət-Touhid» əsərini yazmış və öz təliminin təbliğinə başlamışdı. Qeyd edək ki, onun təlimi mövcud Osmanlı təlimləri ilə ziddiyyət təşkil edirdi və bu səbəbdən də təqiblərə məruz qalırdı.

Vəhhabilik təliminin əsasında dörd başlıca əqidə və prinsip məsələsi dayanır: antropomorfizm-islam dinində inkar olunmayan bir ehkam-insanlara Allahın öz sifətini verməsi-(ət-təşbih), yalnız bir olan Allaha ibadət etmək (ət-touhid), peyğəmbəri böyük tutmamaq, ona təzim etməmək, övliyalarla bağlı heç bir abidə, əsər-əlamət saxlamamaq(adəm məuqir ən-Nəbi va-l-auliyə), müsəlmanları bidətə-islamda olmayan yeniliyə yol verdikləri üçün günahlandırmaq (təfkir əl-muslimin).

Görkəmli rus və sovet tarixşünası Lev Nikolayeviç Qumelyov bu məsələyə toxunarkən qeyd edir ki, XIX əsrin ortalarına doğru ərəb-feodal cəmiyyətində bu halın özünə yer alması bir daha onu göstərirdi ki, hələ VII yüzillikdə islamın təzəcə yayıldığı bir dövrdə islamı qəbul edən ərəb tayfalarının heç də, hamısı yeni dini, onun mahiyyət və məzmununun tələb olunan səviyyədə deyil, yalnız özlərinin hərbi-siyasi və ticarət maraqlarının ödənməsi nöqteyi-nəzərindən qəbul etmişlər. Bu fikri daha geniş şəkildə görkəmli tarixçi alim özünün «Qara Əfsanə» kitabında ifadə etmişdir. Ərəblər arasında geniş yayılmış bu dini formaların müxtəlifliyi özü də Ərəbistan yarımadasında mövcud olan ictimai inkişafın səviyyəsinin primitiv olduğunu, burada siyasi birliyə böyük ehtiyacın olduğunu bir daha göstərirdi. Formal olaraq o, yeni heç bir doqma yaratmırdı, əksinə ərəblər arasında islam dininin ilkin variantını Quranın təbliğ etdiyi şəkildə təbliğ edirdi».

Vəhhabilik təlimində ən böyük yer əxlaqa ayrılırdı. Bu təlimin davamçıları mənəvi dəyərlərin sadəliyinə tam əməl etməli, asketizmlə sərhəddə nəzarət etməyi bacarmalı idilər. Kəskin iqlim şəraitində belə bu dini təlimin təbliği Məhəmməd Əbdül Vəhhabın fikrinə əsasən ərəb dünyagörüşünə daha çox uyğun idi. Çünki köçəri həyat sürən bədəvi ərəb üçün islamın dərin fəlsəfəsi o qədər də maraqlı deyildi. Bədəvi ərəbə onun başa düşdüyü sadə islam lazım idi. Elə bir islam ki, səhranın qızmar günəşi altında ona mənəvi dayaq dura bilsin. Məhəmməd öz təbliğatında daha çox Həzrəti peyğəmbərin hədislərinə və həyatına istinad edir, peyğəmbərin

vəfatından sonra islam dininə edilmiş bütün əlavələrə qarşı çıxırdı. Mövqeyini əsaslandırmağa çalışan Məhəmməd ibn Əbdül Vəhhab qeyd edirdi ki, əgər ərəb tayfaları Həzrəti peyğəmbərin sadə islam dinindən uzaqlaşıb farsların və türklərin təbliğ etdiyi bərbəzəkli, islam dinindən yapışsalar, bu nəinki islamın məhvi, həm də ərəb tayfasının özünün məhvini əsaslandıracaqdır. Maraqlısı budur ki, Məhəmməd ibn Əbdül Vəhhab bu təlimin, hətta türk fəllahlarına da aid olduğunu qeyd edir və göstərirdi ki, türk fəllahları üçün sadə islamın qəbul edilməsi onları daim münaqişədə saxlayan Osmanlı ideologiyasından da azad etmiş olar. Bütün bunların fonunda islam dinində sadəliyi ön plana çəkən vəhhabilər hər hansı dəbdəbəli yaşayışın əleyhinə çıxır, musiqi alətlərində çalmağı və oxumağı qəbul etmirdilər. Onlar cəmiyyətdəki qadın-kişi münasibətlərinə qəti pərdə çəkilməsi mövqeyindən çıxış edir, hər hansı artıq hərəkətin əleyhinə idilər.

Məhəmmədin fəaliyyəti Hureymilədə narazılıq doğurduğu üçün o, Uyeynə şəhərinə köçərək burada qazilik etməyə başladı. Lakin Uyeynədə də istədiyi səviyyədə də dəstək tapa bilmədiyindən o,1744-cü ildə Dəriyyəyə köçmək məcburiyyətində qaldı. O, buranın əmiri Məhəmməd ibn Səud ilə ümumi dil taparaq onun himayəsi altında öz fəaliyyətini davam etdirdi.

Vəhhabilər, eyni zamanda həcc, müqəddəslərin qəbirlərinin və pirlərin ziyarətinin əleyhinə çıxırdılar. Bütün bu addımlar isə nəticə etibarilə, rəsmi islam dini ilə toqquşurdu. Ona görə də, vəhhabilər istər fars şiələrinə, istərsə də türk paşalarına və Osmanlı xəlifələrinə qarşı mübarizə aparmağın bütün ərəb tayfalarının maraqlarına cavab verdiyini təbliğ edirdilər. Həmin dövr əhalinin sosial vəziyyətinin ağır olması isə vəhhabilərin sıralarının genişlənməsinə şərait yaradan başlıca faktor idi. Bununla belə, «islamın təmizliyi» uğrunda başlanan mübarizədən Osmanlı hakimiyyətinə qarşı mübarizə kimi də istifadə edildi. Bu da ilk növbədə Osmanlı dövlətinə qarşı mübarizə aparan Avropa dövlətləri üçün əlverişli şərait yaradırdı. Lakin Avropa dövlətlərinin vəhhabilərin timsalında özlərinə müttəfiq görməsi üçün, vəhhabilərin təkcə dini deyil, eyni zamanda, hərbi-siyasi uğur qazanmaları da tələb olunurdu. Ona görə də, öz mübarizələrində Avropa dövlətlərindən dəstək almaq üçün vəhhabilər əsasən Nəcddə öz

hakimiyyətlərini bərqərar etməyi məqsədəuyğun hesab etdilər və bu istiqamətdə konkret fəaliyyətə başladılar.

Onun təlimindəki sonuncu prinsip – müsəlmanları bidətə yol verdikləri üçün, yəni islama islamdan olmayan şeylər gətirdikləri üçün küfrdə günahlandırmaq prinsipi - vəhhabilərə qonşu ərazilər üzərinə yürüş etmək imkanı verirdi. Bu səbəbdən də onların həyata keçirdiyi yürüşlər birmənalı qarşılanmırdı. Bu baxımdan vəhhabilərin imam qəbirlərini dağıtmaları çox böyük qarşıdurmaya və münaqişəyə səbəb olmuşdu. Vəhhabi təliminin meydana çıxmasından sonra bütün Ərəbistan yarımadası lokal müharibələr içində boğulurdu. Faktiki olaraq mübarizə aparan iki tərəf yaranmışdı: bir tərəf yeniliyi dəstəkləyir, digəri isə onun əleyhinə çıxış edirdi. XVI yüzillikdə Almaniyada olduğu kimi bir əsr Ərəbistan bu müharibələr içində qaldı. Məkkə və Mədinə kimi müqəddəs yerlər, imam Əlinin övladlarının qəbirləri dağıntılara məruz qaldı. İmam qəbirlərinin dağıdılması ilə əlaqədar bir sıra fikir ayrılıqları mövcud olduğunu nəzərə alaraq qeyd edə bilərik ki, həmin qəbirlərin dağıdılaraq içərisində olan müxtəlif qiymətli əşyalar vəhhabilər tərəfindən qarət edilmişdi. 1801-ci ilin aprel ayında baş vermiş həmin qarətdə, təkcə imam Hüseynin qəbrindən götürülmüş və qarət edilmiş məmulatların sırasında bunlar olmuşdur: qəbrin ətrafında 20 xəncər və onun üzərinə səpələnmiş qiymətli daş-qaş, 1 ədəd yumurta boyda mirvari, gümüş və qızıldan hazırlanmış çoxlu sayda güldanlar, lampalar və müxtəlif təyinatlı qablar, qəbrin ətrafına çəkilmiş vərəq şəklində olan qızıl plitələr, çoxlu sayda İran xəncərləri, qəbrin kümbəzindəki mis üzərinə çəkilmiş 500 qızıl plitə, çoxlu sayda İran və hind geyim və bəzək malları (bu malların orada belə çox olması, qarətin qətl günü edilməsi ilə əlaqədar idi), 4000 Kəşmir şalı, 2000 xəncər, 2000 tüfəng, 6 minə yaxın ispan dublonu, 750 min holland və Venetsiya onluq pul vahidi, 150 min türk onluq pul vahidi, 60 min İran tüməni, 250 min taler, 4 min rupi və 10 kisə rubin, zümrüd, mirvari və brilliant. Səkkiz saat davam edən həmin qarət zamanı vəhhabilər qəbri qoruyan keşikçini öldürdüklərinə görə qeyd olunan əşyalardan 5 dəfə çox olan xəzinənin yerini öyrənə bilməmişdilər.

Vəhhabilər Suriya və Livandan olan zəvvarların da Məkkəyə həcc ziyarətinə getmələrinə mane olur, onlardan yeni təlimi qəbul

etmələrini tələb edirdilər. Hətta Yarımadadan qaçan ərəblər Suriya və Misirdə sığınacaq tapırdılar. 1757-ci ildə Suriyadan Məkkəyə gedən 60 min zəvvarın karvanına hücum edilmiş, zəvvarların çox hissəsi öldürülmüş, qalan hissəsi isə qaçmaqla canını qurtarmaq istəmişdisə də, səhrada aclıqdan həlak olmuşdu. Onların əmlakı isə qarət edilmişdi. Qeyd edək ki, həmin il bu zəvvarlarla Məkkəyə ziyarət edənlər sırasında Sultan III Osmanın anası da var idi. O da vəhhabilərin bu hücumuna məruz qalmış, onlar tərəfindən öldürülməsə də, səhrada sağ qalanlar sırasında acından vəfat etmişdi. Məlumdur ki, karvanlar Suriya və Ərəbistan arasındakı ticarət əlaqələrinin saxlanmasını əsaslandırmaqla yanaşı mühüm ictimai əlaqə vasitəsi kimi də özünə yer almışdı. Ona görə də vəhhabilərin özünəməxsus mübarizəsindən qəzəblənən sadə xalq kütlələri təkcə yerli hakimlərə deyil, həm də Osmanlı paşalarına qarşı itaətsizlik göstərirdilər.

Vəhhabilər hərəkatı siyasi cəhətdən 3 mərhələdən keçmişdir. Onlar birinci mərhələdə qarşılarına Nəcdi, ikinci mərhələdə Ərəbistanın digər vilayətlərini birləşdirərək mərkəzləşmiş dövlət yaratmaq vəzifəsi qoymuşdularsa da, üçüncü mərhələdə isə türklərə qarşı mübarizəni genişləndirərək digər ərəb ölkələrini özlərinə tabe etdirmək məqsədi güdürdülər.

*Nəcdin birləşdirilməsi* Bu mübarizəyə Nəcdin çox da böyük olmayan Dariyya knyazlığının feodal hakimi əmir Məhəmməd ibn Səud (1765-ci ildə vəfat etmişdir) və onun oğlu Əbdul Əziz rəhbərlik edirdi. Məhəmməd ibn Səud 1744-cü ildə vəhhabiliyi qəbul etmiş və həmin ildə də Məhəmməd ibn Əbdül Vəhhab ilə müttəfiqliyə dair müqavilə bağlamışdı. Sonrakı 40 il ərzində müttəfiqlər vəhhabilik bayrağı altında Nəcdi birləşdirmək uğrunda mübarizə aparmışlar. Bir-birinin ardınca Nəcd knyazlıqlarını öz ətraflarında birləşdirən müttəfiqlər, bədəvi tayfalarını da formalaşdırdıqları yeni birliyə tabe etdirdilər. Nəticədə, 1786-cı ildə vəhhabilik Nəcddə tam qələbə qazanmağa müvəffəq oldu. Bir-biri ilə müharibə aparan ərəb tayfa və feodalları birləşərək vahid feodal teokratik dövlət yaratdılar ki, bu dövləti də Səud sülaləsi idarə edirdi. 1791-ci ildə vəhhabizmin banisi Məhəmməd ibn Əbdül Vəhhabın vəfatından sonra Səud əmirləri dini və dünyəvi hakimiyyəti öz əllərində cəmləşdirdilər.

Nəcddə vəhhabizmin qələbəsi və Səudilər dövlətinin yaranması ilə yeni ictimai münasibətlər formalaşmadı. Lakin bu dövlətin yaranması Ərəbistan yarımadasında feodal pərakəndəliyinə ağır zərbə endirməklə bərabər, yarımada tarixində yeni bir dövlətin dövlətçilik tarixi və ənənələrinin əsası qoyulmuş oldu. Bununla belə vəhhabilər Nəcdi öz hakimiyyətləri altında birləşdirsələr də bu birlik sırf dini birliyi əsaslandırırdı və siyasi birlikdən hələ çox uzaq idi. Belə ki, vəhhabilər tabe etdirdikləri knyazlıqlarda yerli feodalları, onların vəhhabiliyi qəbul edəcəkləri təqdirdə hakimiyyətdə saxlamışdılar. Nəticədə vəhhabi əmirlərini özlərinin dini və dünyəvi rəhbəri kimi qəbul edən feodal hakimlər, faktiki olaraq daxili idarəetmədə müstəqilliklərini saxladıqlarından, Səudilərın vəhhabi dövləti kifayət qədər möhkəm deyildi. Digər tərəfdən feodal və tayfa qiyamlarının davam etməsi bu dövləti daha da zəiflədirdi. Səud hakimləri knyazlıqlarda bir-birinin ardınca baş vermiş qiyamları yatırmaqla məşğul olurdular. Bu isə istər Səud hakimlərinin, istərsə də yerli feodal hakimlərinin zəifləməsini əsaslandırırdı.

*Vəhhabilərin Fars körfəzi uğrunda mübarizəsi*

XVIII yüzilliyin sonunda Nəcdi öz hakimiyyətləri altında birləşdirən vəhhabilər dövləti öz təsir dairəsini genişləndirmək məqsədilə qonşu əyalət və ərazilərə yürüşlər etməyə başladı. Bu məqsədlə, edilən ilk yürüş 1786-cı ildə Fars körfəzində yerləşən Əl-Həsa vilayəti oldu. Lakin burada möhkəmlənmək üçün vəhhabilər yeddi il mübarizə aparmaq məcburiyyətində qaldılar və yalnız gərgin mübarizədən sonra 1793-cü ildə burada qəti olaraq möhkəmlənə bildilər. Bununla da, vəhhabilərin Nəcddən kənarda həyata keçirdikləri yürüşlər başlandı. Əbdül Əzizin vəfatından sonra bu yürüşlərə əmir Səud (1803-1814) rəhbərlik edirdi. Əl-Həsanın tutulması vəhhabilərə Fars körfəzinin digər rayonlarında da öz nüfuzlarını bərqərar etmək imkanı verdi. 1803-cü ildə onlar Küveyt və Bəhreyni tutdular. Tutulan bu şəhərlərə güclü donanması olan Pirat (Dəniz Qulduru) sahil şəhərləri də birləşdirildi. Omanın daxili rayonlarının əhalisinin əsas hissəsi vəhhabiliyi qəbul etdi. Məskətdəki vəziyyət başqa cür cərəyan etdi. Məskətin hakimi Seyid Sultan İngiltərənin vassalı olduğundan vəhhabilərə qarşı müqavimət göstərdi. Bu müqavimətdə onlar donanmadan da istifadə etdilər. Lakin Məskət hakiminin bütün cəhdləri

faciə ilə nəticələndi, çünki sultanın donanması vəhhabilər tərəfindən batırıldı. Faktiki olaraq Məskət sultanlığının məğlub olmasına baxmayaraq, İngiltərənin təkidi ilə sultanın oğlu Səid Ost-Hind kompaniyasının rəhbərliyi altında mübarizəni davam etdirdi. 1806-cı ildə Ost-Hind kompaniyası vəhhabiləri sahil rayonlarından vurub çıxarmaq və Məskət vassalına dəstək vermək məqsədilə Fars körfəzinə öz donanmasını göndərdi. Əslində bu yardım Məskət vassalının vəhhabilərə qarşı apardığı mübarizədə qələbəsindən ötrü deyil, İngiltərənin Yaxın Şərqdə maraqlarını müdafiə etmək nöqteyi-nəzərindən edilirdi. Belə ki, İngiltərənin buradakı güclü mövqeyinin itirilməsi onu faktiki olaraq regionun siyasi proseslərindən-kənarlaşdıra və Yaxın Şərqdə mühüm əhəmiyyət daşıyan karvan ticarətinə nəzarətdən uzaqlaşdıra bilərdi. Bu isə İngiltərənin Hindistanda möhkəmləndirməyə başladığı mövqelərinin də zəifləməsi demək idi. İngiltərənin Osmanlı imperiyasına qarşı apardığı mübarizədə imperiyaya arxadan zərbə vurulması məqsədilə möhkəmləndirilən bu məntəqələrin əldən getməsi, ümumiyyətlə İngiltərə siyasətinin Yaxın Şərqdə iflası demək idi. Bu cəhətdən də birbaşa kral nəzarətində olan Ost-Hind kompaniyası vəhhabilərə qarşı mübarizədə öz donanmalarını verməklə bu siyasəti davam etdirmək niyyətində idi. Vəhhabilərlə burada aparılan mübarizə onların müvəqqəti məğlubiyyəti ilə nəticələndi. Onlar əsir götürdükləri ingilis gəmilərini qaytardılar, İngiltərə bayrağına hörmət etməyi, eləcə də Ost-Hind kompaniyasının mülkiyyətinə hörmətlə yanaşmağı öz öhdələrinə götürdülər. Bu andan etibarən İngiltərə donanması daimi olaraq Fars körfəzində qaldı. Donanmanın burada qalması onlara vəhhabi şəhərlərinə mütəmadi yürüşlər etməyə imkan verirdi. Eyni zamanda Məskət sahillərində yerləşən, yaxud Məskət sahillərinə çıxarılması planlaşdırılan bütün gəmiləri vəhhabilərin dənizdə ingilislərə qarşı heç bir hərəkət edə bilməməsi üçün onları batırırdılar. Lakin ingilislərin bu fəaliyyəti vəhhabilərin qurudakı nüfuzuna və gücünə heç bir təsir göstərmirdi. Körfəzin bütün Ərəbistan sahili əvvəlki kimi vəhhabilərin əlində qalırdı.

<u>Vəhhabilərin Hicaz uğrunda mübarizəsi</u>

Vəhhabilər öz təsir dairələrini genişləndirməklə bərabər, Daxili Ərəbistanda da möhkəmlənmək uğrunda mübarizəni davam etdirirdilər. Əslində Daxili Ərəbistanda möhkəmlənmək vəhhabilər üçün qurmaqda

olduqları yeni dövlətin gələcəyi üçün çox böyük əhəmiyyətə malik idi. Çünki Daxili Ərəbistanda möhkəmlənmək eyni zamanda Qırmızı dəniz sahillərində möhkəmlənməyi də ön plana çəkirdi ki, bu da artıq yeni dövlətin xarici əlaqələrinin qşurulmasında mühüm əhəmiyyət daşıyırdı. Digər tərəfdən Qırmızı dənizdə möhkəmlənmək Ərəbistan tayfaları üçün vacib olan və mühüm əhəmiyyət daşıyan ticarətin genişləndirilməsinə böyük perspektivlər açırdı. Faktiki olaraq bütün Ərəbistan yarımadasında ticarətə nəzarəti ələ almaq imkanı yaradan bu planın həyata keçirilməsi vəhhabilər üçün hərbi-siyasi vəzifə kimi qarşıda dururdu. Ona görə də onlar Hicaz və Qırmızı dəniz sahillərini öz dövlətlərinə birləşdirmək uğrunda güclü müqavimət və mübarizə aparırdılar.

1794-cü ildən başlayaraq, vəhhabilər Hicaz və Yəmən ətrafına mütəmadi yürüşlər etməyə başlayaraq, sərhəd rayonlarındakı vahələri ələ keçirdilər və buradakı tayfalara vəhhabiliyi qəbul etdirdilər. 1796-cı ildə Məkkə şərifi Qalib (1788-1813) vəhhabilərə qarşı öz qoşununu göndərdi. Üç il davam edən bu müharibədə Məkkə şərifi qələbə qazana bilmədi. Məğlubiyyətin əsas səbəbi Məkkə qoşunlarının nə ideoloji, nə siyasi, nə də hərbi cəhətdən hazırlığının olmaması idi. İslam dininin beşiyi hesab edilən Məkkə qoşunlarının öz dini inancları uğrunda mübarizə apara bilməməsi, əslində müharibənin taleyini əvvəldən həll etmiş oldu. Çünki vəhhabi ordusunda Məkkə ordusundan fərqli olaraq çox ciddi nizam-intizam mövcud idi. Ona görə də, vəhhabilər üç il aparılan bu müharibədə şərifin qoşunlarını məğlub edə bildilər. Vəhhabilərin qələbəsini təmin edən digər faktorlar da var idi ki, bu da Hicazda çoxlu sayda vəhhabi tərəfdarlarının mövcudluğu idi. Bir sıra Hicaz feodalları Ərəbistanın birldəşdirilməsində maraqlı olduğundan vəhhabilərin apardıqları mübarizəyə ən pis halda loyal yanaşırdılar. Belə ki, Hicaz hakimləri arasında, xüsusilə Taif və Əsir hakimləri, bir sıra tayfaların şeyxləri, hətta şərifin qardaşı da var idi. Bu da vəhhabizmin tərəfdarlarının artmasına xidmət etmişdi. Lakin vəhhabizmlə bu birləşmə heç də bütünlüklə vəhhabilərin ideologiyasını qəbul etmək nöqteyi-nəzərindən edilməmişdi. Bu birləşmə Ərəbistan yarımadasında vahid, mərkəzləşdirilmiş dövlətin formalaşdırılması nöqteyi-nəzərindən atılan bir addım kimi tam hərbi-siyasi xarakter daşıyırdı. Ona görə də, 1796-cı ildə Hicazın

yalnız bir tayfasından başqa bütün tayfaları vəhhabilərin tərəfinə keçdi. Məğlub olmuş şərif ortodoksal islam axınını vəhhabilərin təqdim etdiyi təlim çərçivəsində qəbul etməli, üç il ərzində vəhhabilərin tutmuş olduqları bütün torpaqları ona verməli idi. 1799-cu ildə əldə olunmuş razılıq bu faktoru təsdiqləyirdi. Lakin vəhhabilər Ərəbistanın vahid dövlət ətrafında birləşdirilməsi istiqamətində fəaliyyətlərini dayandırmadılar. İki illik fasilədən sonra onlar Məkkə şərifinə qarşı mübarizəyə başladılar və 1803-cü ilin aprelində Məkkəni tutdular. 12 əsr əvvəl olduğu kimi vəhhabilər Məkkədəki bütün ilk islam şəhidlərinin və digər əziz tutulan qəbirləri dağıtdılar. Bütün zəngin ləvazimat Kəbədən çıxarıldı və peyğəmbərin dövründəki vəziyyətə salındı. İslamın ilkin variantda təbliğinə qarşı çıxış edən mollalar edam edildi. Vəhhabilərin bu tədbirləri Məkkədə geniş narazılığa səbəb oldu. Dinc əhalini qırmamaq və hərbi qüvvəni saxlamaq məqsədilə vəhhabilər müvəqqəti olaraq buradan çıxdılar. Lakin vəhhabilərin Məkkədən müvəqqəti olaraq çıxması, onların öz mübarizələrndə geri çəkilmələri deyildi. Belə ki, 1804-cü ildə onlar Mədinəni, 1806-cı ildə isə yenidən Məkkəni tutdular. Bununla da, bütün Hicaz vəhhabilər dövlətinə birləşdirilmiş oldu. Bu dövlətin sərhədləri Qırmızı dənizdən Fars körfəzinədək uzanırdı. Bu əraziyə demək olar ki, bütün Ərəbistan yarımadası daxil idi ki, burada da Nəcd, Şammar, Cauf, Hicaz, əl-Həsa, Küveyt, Bəhreyn, Omanın bir hissəsi, Yəmən və Əsirin Tixam hissələri daxil idi. Lakin vəhhabilər Hadramautda möhkəmlənməsələr də, onların burada çox böyük tərəfdarları var idi və bu tərəfdarların mövqeyi həlledici idi. Bütün Ərəbistan yarımadasını öz hakimiyyətləri altında birləşdirən vəhhabilər yenə 12 əsr əvvəl olduğu kimi, ilk növbədə, Suriya və İraqı öz bayraqları altında birləşdirməyə çalışırdılar. Vəhhabilərin bu istiqamətdə hərəkət etmələri təsadüfi xarakter daşımırdı. Çünki Ərəbistan yarımadasına gələn karvan əsasən İraq və Suriyadan keçirdi və İraqın zəngin, münbit torpaqları Ərəbistan üçün ərzaqla təminatı həll edirdi.

*Vəhhabilərin İraq və Suriya uğrunda mübarzəsi* Vəhhabizmin banisi Məhəmməd ibn Əbdul Vəhhab hələ öz sağlığında İraq və Suriyanın Ərəbistana birləşdirilməsini arzulayırdı. Belə bir birləşmə isə Suriya və İraqda türk hakimiyyətinə son qoyulduqdan sonra

reallaşa bilərdi. Məhəmməd ibn Əbdul Vəhhab türk sultanını xəlifə kimi tanımırdı. Belə hesab edirdi ki, türklərin xəlifə olmaq hüquqları yoxdur. İslamı dininin ərəblərə göndərildiyini və bu dinə yalnız ərəblərin hakim olmasını, xəlifənin də məhz ərəb olmasını iddia edən Məhhəmməd ibn Əbdul Vəhhab öz çıxışlarında türklərə qarşı mübarizəni yeni dini təlimin yayılması ilə bərabər qoyurdu. Əslində bu iki faktoru bir-birindən ayırmayan Məhəmməd ibn Əbdul Vəhhab öz mübarizəsində başqa variant görmürdü. Belə ki, yeni dini təlimin yayılması üçün əsas vasitə türk paşalarının yerlərdəki hakimiyyətinə qarşı ərəblərin sosial vəziyyətinin qoyulması idi. Məsələyə dini xarakter verilməsi üçün isə Məhəmməd ibn Əbdul Vəhhab islam dininin cəmiyyətdəki mövcud vəziyyətini ön plana çəkirdi. Ona görə də Məhəmməd ibn Əbdul Vəhhab bu iki tendensiyanı vahid hərbi-siyasi mübarizə bayrağı altında birləşdirərək vəhhabizmin həm dini, həm də siyasi hakimiyyətini bütün müsəlman ölkələrində bərqərar etmək istəyirdi. Təsadüfi deyil ki, o, bu mübarizəsini Həzrəti peyğəmbərin 12 əsr bundan əvvəl aparmış olduğu mübarizə ilə eyniləşdirir, hətta bu mübarizənin həmin dövrdə aparılmış mübarizədən də çətin olduğunu qeyd edirdi. Belə ki, YII yüzillikdə islamın ilkin yayıldığı dövrdə əqidə və dünyagörüşü tamamilə yad olan kütləyə qarşı mübarizə aparırdılar və bu mübarizədə düşmənlər açıq şəkildə bəlli idisə, XIX yüzillikdə aparılan bu mübarizədə həqiqi düşmənin, yaxud müttəfiqin müəyyən edilməsi çox çətin idi. Çünki istər müttəfiq, istərsə də rəqib eyni dinin dəyərlərinin daşıyıcıları idilər. Ona görə də vəhhabilərin apardıqları mübarizə bir qədər çətin olsa da, lakin bir çox müsəlmanlar onların tərəfinə keçirdilər. Çünki vəhhabiliyin timsalında VII-VIII yüzilliklərdə olduğu kimi ərəb birliyini və vahid ərəb ideologiyasını görürdülər. Suriya və İraq uğrunda aparılacaq mübarizədə də bu faktor və tendensiyalar mübarizənin diqqət mərkəzində idi və təsadüfi deyil ki, istər Suriyaya, istərsə də İraqa yürüş etməzdən əvvəl vəhhabi agentlərinin burada apardıqları müvafiq təbliğatda bu faktorlar da əsas arqumentlər sırasında idi.

Bu məqsəd və amal altında XIX yüzilliyin əvvəllərində bütün Ərəbistan yarımadasını birləşdirən vəhhabilər, artıq digər ərəb ölkələrinin də onların yaratmış olduqları dövlətə birləşdəirməyin də vaxtının çatdığını bildirirdilər. Hicaza edilən yürüşlərlə bərabər İraq

sərhədlərinə də yürüşlər edilirdi. Burada onlar böyük uğurlar əldə edə bilməsələr də, Bağdad paşasının qoşununu ciddi itgiyə məruz qoydular. Lakin İraqda vəhhabilər heç bir şəhər və kəndi tuta bilmədilər. Burada onlar mütəmadi yürüşlər etmək və vergi yığmaqla kifayətləndilər. Hətta 1801-ci ilin aprelində bütün dünyaya səs salmış Kərbəla yürüşü də nəticəsiz qaldı. Həmin yürüş zamanı Kərbəlada şiə məscidlərini dağıdaraq çoxlu qənimətlə geri qayıdan vəhhabilər İraqı öz dövlətlərinə birləşdirməkdən nəinki daşındılar, hətta əldə olunmuş qənimət onları yenidən oraya yürüş etməyə vadar etdi. Ərəbistanın birləşdirilməsindən sonra 1808-ci ildə vəhhabilər Bağdada daha böyük yürüş təşkil etdilər. Lakin vəhhabilərin bu hücumu da dəf edildi. Dəməşq, Hələb, eləcə də Suriyanın digər şəhərlərinə edilən yürüşlər də nəticəsiz qaldı. Onlar yalnız bu şəhərlərdən xərac yığmaqla kifayətləndilər. Lakin burada möhkəmlənə bilmədilər.

Vəhhabilərin bu uğursuzluğu Oman və ya Hicazdan fərqli olaraq, Suriya və İraqda nisbətən zəif döyüşməsi ilə bağlı deyildir. Əksinə burada da vəhhabilər özlərinin təşkilatçılıq qabiliyyəti, nizam-intizamı, cəsarəti, öz təlimlərinin haqq işi olduğuna inamı ilə seçilmişdilər. Fərq yalnız bunda idi ki, Ərəbistanın istər köçəri, istərsə də oturaq tayfaları arasında özlərinə tərəfdar tapan vəhhabilər Suriya və İraqda, xüsusilə hakim dairələrdə özlərinə müvafiq dəstək tapa bilmədilər. Vəhhabilərin Ərəbistandakı uğurunun digər səbəbi də bunda idi ki, yarımadada siyasi birlik və iqtisadi inkişafa çox böyük ehtiyac duyulurdu. Ona görə də ərəb tayfaları vəhhabiliyin bayrağı altında birldəşir və bu birləşmədə gələcək inkişafların əsasını görürdülər. Həmin dövrdə Ərəbistan yarımadasındakı inkişaf səviyyəsi ilə Suriya və İraqda olan inkişaf səviyyəsini müqayisə etdikdə bunun bir daha şahidi oluruq. Burada diqqəti çəkən digər faktor Suriya və İraqda mərkəzləşdirilmiş dövlətin, yaxud qurumun Osmanlı dövləti ilə əlaqələrinin sıx olması, yerli hakimlərin öz mübarizələrində daha çox Osmanlı sultanına müraciət etmələri idi. Bu nöqteyi-nəzərdən Suriya və İraqın Ərəbistana birləşdirilməsi üçün heç bir obyektiv zəmin yaranmamışdı. Təkcə bunu qeyd etmək kifayətdir ki, Suriya və İraqın əhalisi vəhhabilərə xarici işğalçılar kimi baxırdılar. Ona görə də vəhhabilərə qarşı ciddi və kəskin müqavimət göstərir, vəhhabilikdə isə öz inkişaflarını ləngidə biləcək

arqumentlər ıxtarırdılar. Suriya və İraqda ərəb birliyi ideyasının utopiya olması vəhhabilərin Dəməşq və Bağdadı öz dövlətlərinə birləşdirilməsinin utopiya olduğu qədər eyni idi. Lakin son əlli ildə vəhhabilərin apardıqları mübarizə nəticəsiz qalmamış, Ərəbistan yarımadasında mərkəzləşdirilmiş dövlət yaradılmış, buradakı ərəblərin birliyinə nail olunmuşdur.

*Ərəbistan yarımadası ölkələri* Misirin Ərəbistanda hakimiyyətinə son qoyulduqdan sonra Ərəbistan yenə bir neçə vilayətə bölündü. Lakin bunlar xırda şəhər dövlətləri deyil, iri feodal birləşmələri idi. Xırda şəhər dövlətləri isə Hadramaut və Fars körfəzinin bəzi yerlərində qalmışdı. İri feodal birlikləri kimi Ərəbistanda özünə yer alan dövlətlər isə Qırmızı dəniz regionunda Hicaz və Yəmən, Daxili Ərəbistanda vəhhabiliyin yayıldığı və rəsmən qəbul olunduğu Nəcd, Qasım və Şammar, Fars körfəzində isə Oman idi. Oman istisna olmaqla bütün Cənubi Ərəbistan regionu Osmanlı dövlətindən asılılığı qəbul etmişdi. Lakin Osmanlı dövləti heç də bu dövlətlərin hamısında öz hərbi qoşunlarını saxlamırdı. Əsas hərbi baza kimi isə Hicazın bəzi şəhərləri və Tihamın limanları seçilmişdi. Bu rayonlardan kənarda Osmanlı sultanı qoşun saxlamadığına görə həmin yerlərdə türklərin hakimiyyəti bir növ nominal xarakter daşıyırdı. Bütün daxili məsələlərdə tam, xarici siyasət məsələlərində isə İstanbul ilə razılaşdırılmış siyasət yeridən vassallar həmin dövr demək olar ki, xarici siyasət məsələlərində də müstəqil siyasət yeridirdilər. Belə bir vəziyyətin yaranmasına şərait yaradan Osmanlı sultanlarının başlıca məqsədi bundan ibarət idi ki, kifayət qədər ziddiyyətli və mürəkkəb olan ərəbdaxili münasibətlər labirintində optimal variant ərəb tayfalarının hər hansı birinin bu və ya digər mübarizəsində birini digərinə qarşı olaraq dəstəkləmək, yalnız Osmanlı hakimiyyətinə zərər gətirə bilərdi. Əksinə ərəb tayfalarının daxili çəkişmələrində neytral mövqe nümayiş etdirməsi əslində xəlifə titulu daşıyan sultanın dini nüfuzunun qorunmasına daha əlverişli şərait yaradırdı ki, bu islamın meydana gəldiyi Ərəbistan yarımadasında həlledici amil idi. Bu mənada Ərəbistan yarımadasındakı ərəb dövlətlərinin müstəqil siyasət yeritməsi təsadüfi xarakter daşımırdı.

Hicazda real hakimiyyət əvvəllər olduğu kimi, Məkkə şərifinə məxsus idi. Yəməndə zeydi imamları bütün dini və siyasi proseslərə nəzarəti həyata keçirirdilər. Qeyd etmək lazımdır ki, Yəmən XIX əsrin ortalarına doğru Osmanlı dövlətindən tam müstəqil, intensiv siyasət yeridirdi və siyasi kursun daha əsaslı olması üçün Yəmən feodalları burada möhkəmlənmək istəyən İngiltərənin müvafiq qurumları ilə əlaqələr yarada bilmişdi. Məhz bu əlaqələrin nəticəsi idi ki, 1849-cu ildə Osmanlı dövlətinin Yəməndə tam siyasi hakimiyyət bərqərar etmək cəhdləri uğursuzluqla nəticələndi. Nəcddə vəhhabilər dövləti meydana gəldi. Bu dövlət bütün Daxili Ərəbistanı və əl-Həsanı əhatə etdi. Burada ona qarşı mübarizə aparan Qasım knyazlığının feodalları olsa da, onlar da vəhhabilərin möhkəm birliyinin mövcud proseslərə təsirini dəyişdirməyə müvəffəq olmadılar. Bununla belə, Qasım öz müstəqilliyini saxlayırdı və ikinci bir tərəflə bu haqqını bölüşmək istəmirdi. Həmin dövr Ərəbistanın şimalında da hərbi-siyasi proseslər kifayət qədər ciddi xarakter daşıyırdı və burada meydana gələn Şəmmar knyazlığı yarımadada gedən proseslərə kifayət qədər təsir etmək gücünə malik idi. Təsadüfi deyil ki, məhz Şəmmar knyazlığı tədricən möhkəmləndikdən sonra Şimali Ərəbistanda Nəcd ilə mübarizə aparan yeganə knyazlığa çevrilmişdi.

Omana gəldikdə isə bu dövlət iki hissəyə bölünmüşdü. Bir hissə Məskət seyidi Səidin (1807-1856) hakimiyyəti altında idi. Qeyd etmək lazımdır ki, həmin dövr ingilislər tərəfindən dəstəklənən Səidin hakimiyyəti kifayət qədər möhkəm idi və bu halda təkcə Omanın bir hissəsini deyil, həmçinin Hind okeanındakı bəzi adaları, İran və Şərqi Afrika sahillərindəki bəzi əraziləri də idarə edirdi. Müqaviləli Oman adlanan digər hissəsi isə quldur şeyxlərinin idarə etdiyi bir neçə şeyxliklərə bölünmüşdü. Buna baxmayaraq hər iki Oman İngiltərə iqamətgahının nəzarəti altında idi. Burada saxlanılan İngiltərə donanması bütün Oman sahillərini top atəşləri altında saxlayırdı. Bu donanma əslində İngiltərəyə burada müvafiq rejimlərin formalaşdırılması və saxlanmasına imkan verirdi. İngiltərənin burada digər bazası da var idi ki, bu da Ədən idi. Ədən faktiki olaraq İngiltərənin bu regionda ən möhkəm dayaq nöqtəsi idi. Cənubi Ərəbistanda gedən proses və cərayan edən hadisələr məhz buradan idarə edilir və nəzarətdə saxlanılırdı. Bütünlükdə isə Cənubi

Ərəbistan xırda sultanlıqların və şeyxliklərin konqlomeratını xatırladırdı.

*Nəcd vəhhabiliyin mərkəzi kimi* Misirin 20 illik hakimiyyətindən sonra vəhhabilər burada öz hakimiyyətlərini bərpa etdilər. 1843-cü ildə Vəhhabilər dövlətinin başında artıq əmir Feysəl dururdu. Hələ 5 il əvvəl, yəni 1838-ci ildə Misirdə əsirlikdə olan Feysəl oradan Dəməşqə qaçmağa müvəffəq olmuş, burada ilahiyyat üzrə dərs alan tələbə kimi özünü qələmə verərək gizlənmişdi. Nəcddə Misir hakimiyyətinə son qoyulduqdan dərhal sonra Riyada gəlmiş və yerli əhalinin köməyi ilə hakimiyyətə qayıda bilmişdi. Qısa müddət ərzində Feysəl özünün bacarığı və qətiyyəti hesabına dağılmaq ərəfəsində olan əmirliyi yenidən dirçəltmişdi. Əmirlik əvvəlki güc və qüdrətində olmasa da, Daxili Ərəbistanda gedən hərbi-siyasi proseslərə təsir etmək gücünə malik idi. Bununla belə dövlətin əvvəlki qüdrətini özünə qaytarmaq və müəyyən dövr ərzində daxili inkişafı tam təmin etmək məqsədilə 1846-cı ildə Feysəl Osmanlı hakimiyyətindən asılılığı qəbul etdi. Əslində bu asılılıq yenə əvvəlki kimi siyası asılılığın bütün tərəflərini özündə əks etdirmirdi. Bu asılılıq hər il Osmanlı xəzinəsinə 10 min taler bac ödəmək və sultanın tələb etdiyi vaxt İstanbula gəlməklə bitirdi. Qalan bütün məsələlərdə Osmanlı sultanı Feysələ Ərəbistanda hərəkət azadlığı vermişdi ki, bu hərəkət azadlığı da ilk növbədə Olsmanlı hakimiyyətinə qarşı olan qüvvələrin çıxışlarını yatırmaqdan ibarət idi.

Həmin dövrdə Vəhhabi dövlətinin əvvəlki sərhədləri də bərpa olmamışdı. Ona görə də, Feysəl, ilk növbədə, dövlətin sərhədlərini bərpa etmək istiqamətində siyasət yeritməyə başladı. Həmin sərhədlər ilk növbədə Hicaz knyazlığı tərəfindən pozulmuşdu. Nəcd və əl-Həsa faktiki olaraq ər-Riyad əmirinin hakimiyyəti altında idi. Səudilərin Qasımda öz hakimiyyətlərini bərpa etmək uğrunda apardıqları mübarizə onları Hicazla uzun sürən müharibəyə sövq etdi. Bunun əsas səbəbi Məkkə şəriflərinin Ərəbistanın bu mühüm ticarət mərkəzində vəhhabi ağalığını qəti olaraq qəbul etməmələri idi. Əslində Qasım tacirləri də vəhhabi hakimiyyətinin əleyhinə idilər və onlar əldə etdikləri gəlirin bir hissəsini vəhhabi xəzinəsinə vermək fikrində deyildilər. Qeyd edək

ki, Qasım tacirləri Ərəbistanın müxtəlif ölkələri arasında artan mal mübadiləsinin əsas hissəsinə nəzarəti öz əllərində cəmləşdirmişdilər. Belə bir vəziyyət, onları Ərəbistan yarımadasında ən varlı tacir olmaq kimi bir səviyyəyə gətirib çıxarmışdı. 1862-1863-cü illərdə Daxili Ərəbistanda olmuş İngiltərənin görkəmli səyyahı Palqref qeyd edirdi ki, Qasımın Məkkə, Mədinə, Nəcd, Dəməşq və Bağdadla ticarət əlaqəsi saxlamağa Qasım tacirləri Daxili Ərəbistanın heç bir yerində olmadığı qədər mal ehtiyatı və maliyyə toplaya bilmişdilər. Qasım tacirlərini hər yerdə – Qırmızı dəniz sahillərində, Fars körfəzndə, Dəclə-Fərat sahillərində və Dəməşq vahələrində də görmək mümkün idi. Bunun başlıca səbəbi Qasım tacirlərinin Daxili Ərəbistanda qeyri-sabilik olduğu dövrdə regionun müxtəlif rayonlarına səpələnmələri, lakin öz aralarındakı əlaqələri itirməmələri idi. Bu da Qasım tacirləri Ərəbistan yarımadasında hansı hərbi-siyasi prosesin getməsindən, yaxud bu proseslərin hansı mahiyyət və məzmun daşımasından asılı olmayaraq, yarımadada gedən ticarət əlaqələrində öz çəkilərini artırmışdılar. Nəticədə onlar istər Bağdadda, istər Dəməşqdə, istər Nəcddə, istərsə də Məkkə və Mədinədə gedən bütün ticarət işlərində aparıcı mövqelərə malik olmuşdular.

Bununla belə, Qasım tacirləri feodal və Vəhhabi dövlətinin ağır vergiləri ilə üz-üzə idilər. Bu faktor onları özlərinin şəhər dövlətlərini formalaşdırmaq və müstəqil fəaliyyət göstərməyə sövq edirdi. Vəhhabi hakimiyyətini qəbul etməyən Məkkə şərifləri onların Qasımda möhkəmlənməsinin qarşısını almaq üçün oraya hərtərəfli yardım edirdilər. Məhz bu hərtərəfli yardım və dəstəyin nəticəsində Qasım vəhhabi yürüşlərinin qarşısını ala bilmişdi. 1855-ci ildə isə əmir Feysəl, hətta Aneyza və Bureydənin müstəqilliyini tanımaq məcburiyyətində qalmışdı. Səudilərin sonradan bu Qasım şəhərlərini özünə birləşdirmək cəhdləri heç bir nəticə vermədi. Buna görə də Səudilər bu şəhər dövlətlərdən yalnız bac və xərac almaqla kifayətləndilər.

Daxili Ərəbistandan fərqli olaraq, Şərqi Ərəbistanda vəhhabilər İngiltərənin qarşıdurması ilə rastlaşdılar. Səudilər iki dəfə Fars körfəzində möhkəmlənmək üçün cəhd etdilərsə də bu uğursuzluqla nəticələndi. Bu cəhdlərdən birincisi 1851-1852-ci illərdə Qərbi Omanda, 1859-cu ildə Qətərdə Səudilərin möhkəm-

lənməsi məqsədilə edilsə də, burada yerləşən İngiltərə donanması Səudilərin bu cəhdlərinin qarşısını müvəffəqiyyətlə ala bilmişdi. Qətər uğursuzluğundan sonrakı yeddi il ərzində Səudilər ilə ingilislər arasında daim münaqişə olmasına baxmayaraq, 1866-cı ildə bağlanmış İngiltərə-Nəcd müqaviləsinə əsasən Səudilər müqaviləli Oman və Bəhreyndə öz hakimiyyətlərini bərqərar etmək səylərindən əl çəkdilər və buradan yalnız xərac almaqla kifayətləndilər.

Yenidən dirçəlməkdə olan Vəhhabi dövlətində fanatizm yüksək dərəcəyə çatırdı. Bunun nəticəsi idi ki, XIX yüzilliyin ortalarında Nəcddə vəhhabiliyə yad olan hər hansı dini və məişət zəminində əlamətin ortaya çıxmasına görə səbəbkar edam edilirdi. Bunun üçün xüsusi tribunal yaradılmışdı. Digər yüngül səviyyəli günahkarlar isə cərimə edilir, yaxud onlara ağır cismani cəza verilirdi. Daxildəki sosial-ictimai münasibətlərin möhkəm olmaması nəticəsində Vəhhabilərin mərkəzi hakimiyyəti zəifləyir və vacib olan sosial bazadan məhrum olurdu. Bunun nəticəsində əvvəllər möhkəm müttəfiq kimi çıxış edən tayfalar malik olduqları silahı nəinki bir-birlərinə eyni zamanda əmirə qarşı da çevirirdilər. Belə bir vəziyyətdə 1865-ci ildə əmir Fıeysəlin vəfatından sonra Vəhhabi dövlətindəki gərgin münasibətlər sisteminə feodal tayfa separatizmi və nəsli ziddiyyətlər də əlavə olundu. Feysəlin varisləri onun övladları arasından birinci üç böyük oğlu seçilmişdi. Nəcd də faktiki olaraq üç böyük qardaş arasında bölündükdən sonra onların arasında Nəcddə hakimiyyət uğrunda kəskin mübarizə başladı. Bu mübarizə nəticəsində onsuz da möhkəm olmayan Vəhhabi dövləti daha da zəiflədi. Nəticədə yaranmış vəziyyətdən həm Osmanlı hakimiyyəti, həm də onun ən güclü rəqiblərindən biri olan Şəmmar əmirliyi istifadə etdi. Belə ki, Osmanlı dövləti Əl-Həsada, Şəmmar əmirləri isə şimali Ərəbistanda möhkəmləndilər.

*Şammar əmirliyinin yüksəlişi*

Misir hakimiyyətinin Ərəbistanda başa çatmasından sonra formalaşan feodal dövlətləri sırasında Şammar əmirliyi də xüsusi əhəmiyyət daşımağa başladı. Bu əmirliyin paytaxtı Hail şəhəri idi. Hələ XIX yüzilliyin 30-cu illərində Nəcdin zəifləməsindən istifadə edərək Rəşidilər sülaləsi burada öz hakimiyyətlərini qurmuş və möhkəmləndirmişdilər. İlk dövrlər Rəşidilər sülaləsi Nəcddən vassal

asılılığını qəbul etmişdi. XIX əsrin ortalarında Rəşidilərin bu asılılığı nisbi və nominal xarakter daşıyırdı. Bununla belə Nəcd kimi Şammar da vəhhabi dövləti idi. Lakin Nəcddən fərqli olaraq Şammar əmirliyi dini dözümlülük siysəti yeridirdi ki, bu da Nəcd hakimiyyətindən narazı olanların Şammarda özünə sığınacaq tapmasına, nəticədə isə daha güclü sosial baza formalaşdırmağa imkan verirdi.

Şammar əmirliyinin inkişafı, xüsusilə də onun ticarət əlaqələrinin genişlənməsi istiqamətində əmir Abdullah (1834-1847), eləcə də onun oğlu Talal (1847-1868) kifayət qədər güclü səylər göstərmiş və buna nail olmuşdular. Talal ticarətin genişlənməsi üçün Haildə çoxlu bazar və anbarlar, piştaxta və sənətkarlıq mərkəzləri yaratmışdı. Ona görə də, o, istər Ərəbistanın digər rayonlarından, istərsə də İraq və Suriyadan buraya tacir və sənətkarlar dəvət edir, onların ticarət və mal mübadiləsi etmələri üçün hərtərəfli şərait yaradırdı. Digər tərəfdən, Talal ticarətlə məşğul olan tacirlərin vergisini azaltmış və onlara imtiyazlar vermişdi. Şəmmarın Şimali Ərəbistanda əsas təsir mərkəzinə çevrilməsinə səbəb təkcə Şammar əmirlərinin ticarətə əlverişli şərait yaratmaları deyildi. Bunun başlıca səbəbləri sırasında Şammarda dini dözümlülüyün mövcudluğu idi ki, bu da ölkədə təkcə ərəb tacirlərinin deyil, eyni zamanda qeyri-millətlərin də ticarət etmələrinə imkan və şərait yaradırdı. Nəticədə, İraqdan gələn karvan ənənəvi ticarət yolunu dəyişərək Haildən keçib Məkkəyə getməyə başladı. Bu yol Nəcddən keçmədən Məkkəyə gəlməyə də imkan verdiyindən Şammar əmirliyi faktiki olaraq regionun karvan ticarətinə nəzarəti əlində saxlayırdı. Ticarətin intensiv inkişafını nəzərə alan Talal karvan yollarının təhlükəsizliyini də təmin etmək istiqamətində tədbirlər görürdü. Bu məqsədlə o, ilk növbədə bədəvi basqınlarının qarşısını almış, onları vergi ödəməyə məcbur etmiş, Xeybər, Couf kimi bir sıra vahələrin müqavimətini qırmış və hər yerdə öz hakimlərini təyin etmişdi. Nəticədə, ticarət görünməmiş səviyyədə vüsətlə inkişaf etdi ki, bu da Şəmmar əmirlərinə mərkəzləşdirilmiş dövlət siyasəti yeritməyə imkan verdi. Riyad əmirləri bütün bu prosesləri narazılıqla izləsələr də, nə Şammarda gedən proseslərə, nə də onun yeritdiyi siyasətə kifayət qədər təsir etmək iqtidarında deyildi. Onlar Talalı Riyada dəvət edərək onu zəhərləyib öldürdülər. Talalın zəhərləndirilərək öldürülməsi, Nəcdin Şammara qarşı yeritdiyi məqsədyönlü siyasətin

tərkib hissəsi idi. Lakin Talalın öldürülməsi Şammarın zəifləməsinə səbəb olmadı. Əksinə Şammar Osmanlı dövlətindən Nəcdə qarşı mübarizədə hərbi yardım və dəstək alaraq, Daxili Ərəbistanda hegemonluq uğrunda mübarizəni davam etdirdi.

*Ərəbistan yarımadasında İngiltərə müstəmləkələri (1840-1870)*

Misirin Ərəbistandan çıxmasından sonra İngiltərə Fars körfəzi sahillərində və Ədəndə şəriksiz hökmranlıq etməyə başladı. Həmin dövr, artıq 1798-ci ildən müstəqilliyini itirmiş Omandan başqa, 1820-ci ildən etibarən Müqaviləli Omanın və Bəhreynin daha yeddi şeyxliyi İngiltərənin hakimiyyəti altına düşmüşdü. Bütün bu şeyxliklərin hamısı ilə müttəfiqlik haqqında müqavilə bağlamağa müvəffəq olan İngiltərə, faktiki olaraq həmin şeyxliklərdə öz rejimini formalaşdırmışdı. Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliyi 1971-ci ilə kimi Müqaviləli Oman adını daşımış və bütün bu dövr ərzində də İngiltərənin təsiri altında olmuşdur. 1839, 1847, 1853, 1856-cı illərdə bağlanan müqavilələrdə hər dəfə İngiltərənin buradakı imtiyazları təzələnir və nüfuzu gücləndirilirdi. Bu, xüsusilə İngiltərənin Bəndər-Buşirdəki rezidentinin işini yüngülləşdirdi ki, nəticədə Müqaviləli Omanın istər daxili, istərsə də xarici siyasətinə nəzarət məhz həmin rezidentin ixtiyarına keçdi. Bu isə öz növbəsində Böyük Britaniyanın Yaxın Şərq siyasətinin uğurunun təmin edilməsində əsas dayaq nöqtələrindən biri kimi Müqaviləli Omanın London üçün əhəmiyyəti daha da artdı. Belə bir vəziyyət isə ilk növbədə İngiltərə tacirlərinin fəaliyyətinin genişlənməsinə hərtərəfli şərait və imkan yaratmışdı. Burada İngiltərənin Cənubi Ərəbistan və Fars körfəzində möhkəmlənmək istiqamətində atmış olduğu hərbi-siyasi addımların tarixinə qısa olaraq retrospektiv nəzər yetirsək məqsədəuyğun olar.

XVI yüzilliyin sonlarında Cənub Şərqi Asiya və Uzaq Şərqin zəngin ölkələrində öz nüfuzunu bərqərar etmək uğrunda mübarizə aparan İngiltərə burjuaziyası Afrika və Ərəbistan yarımadası sahillərində də möhkəmlənməyi mühüm vəzifə kimi qarşıya qoymuşdu. Bu məqsədlə də 1588-ci ildə T.Kavendiş, 1591-ci ildə kapitan Kendel, 1593-cü ildə isə C.Lankaster Müqəddəs Yelena adasına gəlmişdi. Ost-Hind şirkəti krallığının tam dəstəyi altında Şərqdə daha əsaslı və planauyğun şəkildə möhkəmlənmək siyasəti

yeridirdi. Krallığın tam dəstəyi altında möhkəmlənmək siyasəti yeridən Ost-Hind şirkətinin gəmiləri isə burada ilk dəfə 1612-ci ildə göründü. Lakin burada həmin dövr Portuqaliyanın möhkəmlənməsi İngiltərəni bu ölkəyə qarşı uzun sürən hərbi əməliyyatlar aparmaq məcburiyyətində qoydu. Bundan üç il əvvəl, yəni 1609-cu ildə A.Şarpeyin başçılıq etdiyi ekspedisiya Ədən və Məkkə ilə ticarət əlaqələri yaratmaqda ciddi bir uğur qazana bilməmişdi. Belə ki, Ədənə yaxınlaşan Şarpey türk qubernatoru tərəfindən həbs edilmişdi. Sənadakı türk paşasının qulu olan, lakin paşanın sevimlisi kimi tanınan yunan mənşəli «alçaq Reneqat» Rəcəb ağa ilə əlaqə yaradan ingilislərin həbsində, məhz o əsaslı rol oynamışdı. Bundan sonra şəhəri toplardan atəşə tutan ingilisəri girov götürən Rəcəb ağa öz mövqeyini itirmək qorxusu altında ekspedisiya üzvündən ikisinə türk sultanı ilə görüşmək icazəsi verdi. Lakin Məkkədə türk paşası onların burada faktoriya yaratmaq fikirlərini qəbul etmədi. Paşanın göstərişi ilə azad olunan ingilislər Ədəni tərk etmək məcburiyyətində qaldılar.

1610-cu ildə Henri Midltonun başçılıq etdiyi ekspedisiya Ərəbistan sahillərinə gəldi və burada onların görünməsi ciddi münaqişəyə səbəb oldu. Məkkəyə yola düşən Midlton şəhərin qubernatoru Rəcəb ağanın əmri ilə həbs olundu. Bu münaqişə yəhudilərdən içki alıb sərxoş olmuş, qadınları və məscidləri təhqir etməyə başlamış bəzi ingilis dənizçilərinin pozğun davranışı nəticəsində baş vermişdi. Bu xəbərdən məyus olan həmin dövr tanınmış ingilis xadimlərindən biri S.Parças yazırdı ki, «Oxumaq, utanmaq və ibrət götürmək lazımdır». Bununla belə həmin ilin iyun ayında Məkkə şahbəndəri Midltonla müqavilə bağladı. Müqaviləyə əsasən türklər şirkətə dəyən 18 min rial zərəri ödəməli idilər. İyulun 2-də ingilislər sultanın göstərişi çərçivəsində həmin məbləği aldılar.

1611-ci ilin aprel ayında Ədviyyat adalarındakı uğursuzluqlardan sonra Qırmızı dəniz sahillərinə qayıdan H.Midlton Ədəni mühasirəyə aldı. Bu əməliyyatda şirkətin yeddi ekspedisiyasının başında C.Saris dururdu. Londonda tərtib olunmuş təlimata əsasən Şərqə yola düşən C.Saris lazım gələrsə Ədənə və ya Məkkəyə yaxınlaşmalı idi və bu məqsədlə İstanbuldakı ingilis səfirinin köməyi ilə Osmanlı sultanından xüsusi buraxılış vərəqəsi almışdı. Bu vəsiqə Sarisə Yəmən, Ədən və Məkkə əyalətlərində

ticarət etmək hüququ verirdi. Lakin digər Avropa səyyah və missionerləri kimi Saris də həmin vəsiqədən kəşfiyyat xarakterli fəaliyyəti üçün istifadə edirdi. Qeyd edək ki,bu vəsiqənin əhəmiyyəti həmin dövr üçün çox böyük idi. Belə ki, vəsiqə ingilis tacirlərinə Osmanlı dövlətində, o cümlədən Ərəbistanda tam təhlükəsizlik vəd edirdi. Həmin il Sultan I Əhmədin ingilis tacirləri üçün xüsusi fərman imzalaması da diqqətdən yayınmamalıdır. 1611-ci ildə imzalanmış həmin fərmanda göstərilirdi ki, «uzun illər ərzində biz adı çəkilən kral və onun təbəələri ilə ittifaq və dostluq münasibətləri saxlayırıq. Buna görə də sizə və sizin hər birinizə Böyük Britaniya kralının tacirlərini və təbəələrini, xüsusilə Yəməndə, Ədəndə və Məkkədə ticarət etmək istəyənləri nəinki xeyirxahlıq və mehribanlıqla qarşılamağı, həm də onlara, onların adamlarına və gəmilərinə hər şeylə kömək etməyi, heç bir maneçilik, ədalətsizlik və sıxışdırma olmadan səyahət azadlığı və sərfəli imtiyazlar verməyi əmr edirəm». Bu fərmandan xəbər tutan yeni qubernator Heydər ağa ingilislərin həyatı və ticarəti üçün əlverişli şərait yaratmaq şərtilə onları Məkkəyə dəvət etdi. Lakin ingilislərin Babil Məndəb yaxınlığındakı quldurluq hərəkətləri Sarisin Məkkədə ingilis ticarət faktoriyasının açılması haqqında apardığı danışıqların uğursuzluğuna səbəb oldu. Əslində ingilislərin belə vəhşi hərəkətləri bütünlükdə İngiltərə siyasətinin uğurunu sual altına alırdı ki, bu da nəticə etibarilə özünü göstərmiş oldu. Bütün bu proseslərin məntiqi nəticəsi kimi İranda uğursuzluğa düçar olan İngiltərə yenidən Yaxın və Orta Şərqdə siyasətinin ağırlığını həmin dövr Cənubi Ərəbistanda möhkəmlənmək üzərinə salmış oldu. Məhz bu məqsədyönlü siyasətin nəticəsində İngiltərə 1643-cü ildə Bəsrədə faktoriya yaratmağa müvəffəq oldu ki, bu faktoriya da Londonun Yaxın Şərqdə ağalığının mərkəzinə çevrildi. Qeyd olunanlar onu deməyə əsas verir ki, XIX yüzilliyin ortalarında İngiltərənin Ərəbistanda özünün müstəmləkələrini yaratması, XVI yüzillikdə başlanmış siyasətin davamı idi. XVII-XVIII yüzilliklərdə müvəqqəti uğursuzluqlardan sonra Cənubi Ərəbistanda yenidən möhkəmlənən İngiltərənin, Osmanlı dövlətinə qarşı siyasəti də ikili xarakter almağa başlamışdı. Belə ki, XIX yüzilliyin ortalarında artıq Yaxın Şərqdə möhkəmlənən ingilislər bir tərəfdən Fransa ilə rəqabətdə İstanbul

müdafiəsi mövqeyindən çıxış edir, digər tərəfdən, isə Osmanlı imperiyasının arxasında tam pozucu siyasət yeridirdi.

Bu baxımdan, 1861-ci ildə Bəhreynlə imzalanmış konvensiya diqqətdən yayınmamalıdır. Konvensiyanın müddəalarına əsasən İngiltərə Bəhreyni xarici müdaxilədən müdafiə etməyi öhdəliyə götürür və bu məqsədlə burada öz qoşunlarını saxlamaq hüququ alırdı. Belə bir vəziyyət isə İngiltərəyə Cənubi Ərəbistanda möhkəmlənmək üçün yeni imkanlar açmaqla bərabər, Bəhreynin mühüm hərbi bazaya çevrilməsini də əsaslandırmış olurdu. Bu isə Osmanlı dövləti və Avropa dövlətləri ilə aparılan mübarizədə mühüm əhəmiyyət daşıyırdı. Konvensiya Bəhreyni İngiltərənin protektoratlığına çevrilməsini əsaslandırırdı. İngiltərənin Fars körfəzində möhkəmlənməsi Osmanlı imperiyasının və İranın narazılığına səbəb oldusa da, bu dövlətlərdən heç biri faktiki olaraq Fars körfəzindəki İngiltərə donanmasına qarşı ciddi mübarizə aparmaq iqtidarında deyildi. Yalnız 1868-ci ildə İngiltərə Qətərlə müttəfiqlik münasibətləri yaratdıqdan üç il sonra Osmanlı dövlətinin ciddi səyləri nəticəsində şeyxlik İstanbula qaytarıldı.

Omanda İngiltərə mövqeləri onun əsas rəqibi Fransa təsiri ilə üz-üzə idi. Bu mənada Məskət seyidi Ərəbistanda İngiltərənin nisbətən daha sadiq müttəfiqi olduğundan ikinci onu daha çox müdafiə edir və qoruyurdu. Dəniz quldurlğu və qul alverinə qarşı birgə mübarizəyə dair müqavilə imzalayan İngiltərə bu məqsədlə bağlamış olduğu 1839 və 1845-ci illərin analoji müqavilələrində faktiki olaraq yeni hüquqlar və imtiyazlar əldə etmiş olurdu ki, bu ilk növbədə yenə İngiltərənin burada lazımi səviyyədə qoşun saxlamaq və müvafiq hərbi əməliyyatlar keçirmək hüququ ilə təsbit olunurdu. Hələ 1834-cü ildə ingilislər Məskət seyidi Səid tərəfindən Kurya-Murya adasının onlara verilməsinə nail olmuşdular. 1857-ci ildə isə onlar Perim adasını tutmaqla burada kifayət qədər möhkəmlənmişdilər. İngiltərənin həmin adanı tutmasına əlverişli şərait yaradan başlıca səbəb isə seyid Səidin 1856-cı ildə vəfatı və onun ölümündən sonra oğlanları arasında başlanan hakimiyyət mübarizəsi idi. Yaranmış vəziyyyətdən istifadə edən İngiltərə «parçala, hökm sür» siyasətini həyata keçirdi. Belə ki, 1861-ci ildə Hindistanın vitse-kralı lord Kanninqin təklifinə əsasən seyidin malik olduğu ərazi onun iki oğlu arasında bölündü. Böyük oğlu Süveyni

Oman ərazisini, kiçik oğlu Məcid isə Afrikanın Şərq sahillərinin və Zənzibarın hakimi təyin olundu. Bu bölgü Omanı zəiflətdi. Bunun da nəticəsində, Zənzibar İngiltərə tərəfindən işğal edildi. Beləliklə də İngiltərə Omanda qəti olaraq möhkəmlənmiş oldu.

XIX yüzillliyin ortalarında Oman ingilis-fransız rəqabətinin mərkəzinə çevrilmişdi. 1846-cı ildə Fransa Omanla 1839-cu il Oman-İngiltərə ticarət müqaviləsinə uyğun müqavilə bağlamağa müvəffəq oldu. 1861-ci ildə isə Fransa Omanın iki hissəyə bölünməsinin əleyhinə çıxdı. Nəticədə, İngiltərə Fransaya güzəştə getmək məcburiyyətində qaldı. İngilis-fransız qarşıdurması 10 mart 1862-ci ildə Parisdə Məskət və Zənzibara müstəqillik verilməsinə dair tərəflərin əldə etmiş olduqları kompromislə başa çatdı. Bununla belə, İngiltərənin güzəşti nominal xarakter daşıyırdı. Belə ki, Oman bu halda da ikiyə bölünmüş halda qalırdı. Müstəqilliyi elan edilən Məskət və Zənzibarın suverenliyi isə İngiltərə üçün xüsusi əhəmiyyət daşımırdı. Çünki Zənzibarın müstəqilliyinin nə regionda gedən proseslərə, nə də bu regionda maraqları toqquşan dövlətlərin siyasətinə əsaslı təsiri yox idi. Oman və Zənzibarın müstəqilliyinin elan edilməsindən sonra burada başlanan daxili çəkişmə və hakimiyyət uğrundakı mübarizədə yenə İngiltərə proseslərə əsaslı təsir göstərən döövlət kimi çıxış edirdi. Bu faktor, xüsusilə Omandakı hakimiyyət mübarizəsində özünü açıq şəkildə büruzə vermiş oldu.

Omanın müstəqilliyinin elan edilməsindən sonrakı 10 il ərzində (1862-1871) hakimiyyət uğrunda başlanan mübarizə ara vermədi. Oman əhalisi Məskət sultanı Süveyninin (1858-1866) hakimiyyətinə qarşı mübarizə aparırdı. Bu mübarizədə vəhhabilər tərəfindən müvafiq dəstək və yardım alan üsyançıların mübarizəsində əsas məqsəd Omanda əvvəlki hakimiyyət rejimini bərqərar etmək idi. Lakin İngiltərədən hərtərəfli yardım alan Süveyninin bu mübarizədə qələbə qazanacağı şübhə doğurmurdu. Çünki onun hakimiyyətində İngiltərə maraqlı idi və əvvəl oğlunun vəfatı, sonra isə qardaşının İngiltərə tərəfindən dəstəklənməsi bunu bir daha sübut etmiş oldu.

Ədəndə isə vəziyyət bir qədər başqa cür idi. Əslində mühasirə vəziyyətində olan ingilislərin Cənubi Ərəbistan işlərinə qarışması Yəməndə narazılıqla qarşılanır və bu səbədən də ardı-arası kəsilmədən üsyanlar baş verirdi. Bu üsyanlardan ən böyüyü 1840-cı

ildə baş verdi. Lahıcda baş verən bu üsyan sultan tərəfindən dəstəklənirdi. Bu üsyan yatırıldıqdan sonra 1846-cı ildə ərəblər yenidən Ədənə hücum etdilər. 1849-cu ildə Lahıcda hakimiyyətə Əli gəldi. Əli Ədənin ingilislərdən geri alınması uğrunda mübarizə aparırdı. Bu məqsədlə də, 1858-ci ildə o, ingilislərə qarşı qoşun yeritdi. Lakin Şeyx-Osman yaxınlığında baş vermiş döyüşdə məğlub olduqdan sonra İngiltərənin hakimiyyətini qəbul etmək məcburiyyətində qaldı.

*Ərəbistan yarımadası yeni dövrün ikinci mərhələsində*

1865-ci ildə əmir Feysəlin vəfatından sonra Nəcd qarışıqlıq dövrünü keçirirdi. Feysəlin iki oğlu arasında münaqişə artaraq ara müharibəsinə gətirib çıxardı. Səudilər dövləti zəiflədiyindən onlar türklərin yürüşünün qarşısını ala bilmədilər və nəticədə 1871-ci ildə Fars körfəzi sahilləri Osmanlı imperiyasının idarəçiliyi altına keçsə də, əslində isə türklərin burada hakimiyyəti nominal xarakter daşıyırdı. Ərəbistanın özündə isə bir-birilə qanlı müharibə aparan bir neçə əmirlik düşmən vəziyyətində idi.

1888-ci ildə paytaxtı Xail olan Rəşidilər əmirliyinin başçısı Məhəmməd ibn Rəşid ər-Riyadı tutaraq, Səudi əmiri Əbdür Rəhmanın ordusunu darmadağın etdi və o, ailəsilə Nəcdə qaçmağa məcbur oldu. Əbdür Rəhman yenidən ordu toplamaq və mövqeyini möhkəmlədib hakimiyyəti ələ almaq məqsədilə o, türk sultanının sarayına getdi, lakin burada ona yardım göstərməkdən imtina etdilər. Heç bir yerdən yardım ala bilməyən Əbdür Rəhman ailəs ilə birlikdə Rub əl-Xalinin sərhəddində köçərilik edən bədəvilərin yanında gizlənməyə məcbur oldu. Lakin burada da qərarlaşa bilməyən Əbdür Rəhman nəhayət təxminən on il müddətinə Küveytdə şeyx Mübarək əs-Sabahın himayəsinə sığınmalı oldu.

1900-cü ildə Səudilər Küveyt şeyxinin köməkliyi ilə ər-Riyad üzərində nəzarəti geri qaytarmaq üçün uğursuz cəhd etdi. Lakin ikinci cəhd müvəffəqiyyətlə nəticələndi: 16 yanvar 1902-ci ildə sülaləyə rəhbərlik edən əmir II Əbdül Əziz ər-Riyadı tutdu.

Nəcd uğrunda Səudilərlə Rəşidilər arasında gərgin mübarizə gedirdi. Rəşidiləri türklər müdafiə edirdisə, Səudiləri isə Küveyt şeyxi müdafiə edirdi. 1904-cü ilin yazında II Əbdül Əziz bütün mərkəzi Nəcdi tutdu, türk ordusunun və artilleriyasının köməinə

baxmayaraq, İbn Rəşidin müqaviməti qırıldı. Qəti döyüş Bureyda rayonunda baş verdi ki, bu da Səudilərin qələbəsi ilə nəticələndi. 1906-cı ilin aprelində Əmir ibn Rəşidin öldürülməsi, Səudilərin düşmənlə mübarizəsini asanlaşdırmış oldu.

Nəcdin öz daxilində vəziyyət gərgin idi. Əbdül Əzizə qarşı böyük əmisinin nəvəsi çıxış edərək, onu qeyri–qanuni hakimiyyəti zəbt etməkdə təqsirləndirirdi. Onlar mübarizələrində Şərqi Ərəbistanda yaşayan acman tayfasına güvənirdi. «Arif üsyanı» adını almış bu çıxışların qarşısı amansızlıqla alındı, başçılarının bir hissəsi edam edildi, digərləri isə Hicaza qaçdı.

Qısa fasilə zamanı Əbdül Əziz 1910-cu ildə qəbul edilmiş mühüm qərarı reallaşdırmağa başladı ki, bu da vəhhabi hərəkatı ideyasını dirçəltmək və ona sadiq olan bədəvi tayfalarını oturaq həyatia keçirmək idi. «Qardaşlıq» («ixvanı») adlanan yaşayış məskənlərində yaşayan, onalr üçün yeni olan kənd təsərrüfatı əməyinə alışan bədəvilər üçün dini icmalar yaradıldı. Bu cür koloniyalarda yaşayanlar yerli əkinçi əhali ilə qaynayıb-qarışır, öz tayfaları ilə əlaqələrini itirirdilər və bununla yanaşı dini təbliğatçıya və əmir Əbdül Əzizə tam tabe olurdular. İxvanlar yalnız oturaq əkinçiyə çevrilmirdilər, onlar həmçinin Səudilərin feodal dövlətinin əsgərləri idilər. Düşərgədə yaşayanların başında ümumi iclasda seçilən, lakin əmir tərəfindən təsdiq edilən hərbi rəhbər dururdu. Nizam-intizamın qorunmasında daha mühüm rol dini təbliğçi-mütavvanın payına düşürdü. Onlar yalnız dini ayinlərin icrasına deyil, vergilərin ödənməsinə və orduya səfərbərliyə də nəzarət edirdilər. İxvanların həmişə hərbi yürüşlərə maraq göstərməsi üçün müharibədə ələ keçirilən qənimətin bir hissəsi onlara ayrılırdı. Əbdül Əziz onlara hədiyyələr bağışlayır, borclarını ödəyir, təsərrüfatı dirçəltmək üçün borc pul verirdi. Əs-Səud sülaləsinə sədaqət göstərən ixvanlar dah çox yeni dövlətin inzibati və məhkəmə işlərinə cəlb olunurdular.

Beləliklə, Əbdül Əziz tərəfindən yaradılmış Səudilər ailəsinin hərbi-dini təşkilataln fanatik şəkildə öz əmirlərinə sadiq olan yüzlərlə birinci dərəcəli hərbçilər yetişdirdilər. 1912-ci ildə ilk ixvan yaşayış məskənləri Şimali Nəcddə Artaviya vahəsində məskunlaşmış muteyr, şəmmar və hərb tayfaları üçün salındı. 1920-ci ildə təkcə Nəcddə bu cür 52 yaşayış məskəni, 1939-cu ildə isə

bütün Səudiyyə Ərəbistanı üzrə 143 icma mövcud idi. Onların fəaliyyətinin əsası 1918-ci ildə əmir tərəfindən verilmiş fərmanla müəyyənləşirdi.

Hicazdakı müvəffəqiyyətsizlik Əbdül Əzizi Ərəbistanın şərqində işğalçılıq siyasətinə sövq etdi. Əl-Həsanın bir neçə zəngin kənd təsərrüfatı vahələri 1790-cı ildən 1871-ci ilə qədər Səud ailəsinin əmirlərinin nəzarəti altında olmuşdur, lakin ailə münaqişəsi zəminində və türklərlə ara müharibələri zamanı 1871-ci ildə əl-Həsanı yenidən tutdular və 1913-cü ilə qədər Xufuf inzibati mərkəzində, həmçinin əl-Kətif və Fars körfəzi sahilində Okayrda öz qarnizonlarını yerləşdirdilər. Türklərin Avropa məsələləri ilə başının qarışmasından istifadə edən Əbdül Əziz 1913-cü ildə Xufufu tutdu və Fars körfəzindəki sahil rayonlarına türklərlə qarşılıqlı iddialarını nizama salmaq məqsədilə danışıqlar apardı. Nəticədə, 1914-cü ilin mayında Osmanlı dövləti ilə dostluq və ittifaq haqqında müqavilə imzalandı. Qeyd edək ki, Əbdül Əziz bu müqaviləyə sadiq qalaraq ingilislərin onları türklərə qarşı müharibəyə təhrik etsələr də, səudilər bundan imtina etdildər.

Ərəbistan yarımadasında vəhhabi dövlətinin yaradılması Əbd-əl-Əziz ibn Səudun adı ilə bağlıdır. Məhz o, türklərin hakimiyyətinə Nəcddə son qoymuş, burada öz hakimiyyətini bərqərar edərək onun genişləndirilməsinə və möhkəmləndirilməsinə nail olmuşdur. 1913-cü ildə vəhhabilərin mövqelərinin daha da möhkəmlənməsini istəməyən İngiltərə ibn Səudla müttəfiqlik müqaviləsi bağladı. Bu müqavilə İngiltərəyə Ərəbistanın mərkəzi rayonlarında möhkəmlənmək və Osmanlı dövlətinə qarşı əsaslı mübarizə aparmaq imkanı verirdi. Lakin nə bu, nə də 1915-ci ildə Nəcd ilə bağlanmış müqavilələrlə İngiltərə qarşıya qoymuş olduğu məqsədinə nail ola bilmədi. İngiltərədən kifayət qədər maliyyə yardımı alan İbn Səud öz ordusunun möhkəmləndirilməsinə daha çox diqqət yetirdi. Lakin Osmanlı dövlətinə qarşı müharibə elan etmədi. Belə bir siyasətlə İbn Səud həm ordunu gücləndirməyə, həm də Nəcdin iqtisadi inkişafının yüksəlməsinə şərait yaratmış oldu.

1915-ci ilin dekabrında isə ingilislərlə səudilər arasında türklərlə bağlananan analoji müqavilə imzalandı. Laikn Böyük Britaniya ilə bağlanan müqaviləyə əsasən Əbdül Əziz Cənubi Ərəbistanda ingilis protektoratlığına hücum etməmək və öz xarici siyasi kursunu

razılaşdırmaq haqqında öhdəlik götürməsi, hər il 60 min f.st. subsidiya almasına baxmayraq London Nəcdin Antanta tərəfindən birinci dünya müharibəsində iştirakına nail ola bilmədi. Buna görə də ingilis emissarları öz diqqətlərini Hicaza yönəltdilər və onlar şərif Hüseyni türklərə qarşı üsyana qaldıra bildilər.

Ərəbistan yarımadasının dini mərkəzi Hicazda da iqtisadi və siyasi dəyişikliklr baş verirdi. 1904-1908-ci illərdə Dəməşqdən Mədinəyə qədər dəmiryolu çəkildi.

1908-ci ildə qədim Haşimilər nəslinə mənsub və Ərəbistanda böyük dini nüfuza malik Hüseyn Məkkə şərifi oldu. 1911-ci ildə Hüseyn Nəcddən Hicaza karvanların gəlməsini qadağan etdi, 1912-ci ildə ingilislərin təhriki ilə Cənubi İraqdan Nəcd karavanlarına bir neçə müvəffəqiyyətli hücum edildi. 1907-1912-ci illərdə ölkənin bir sıra yerlərində vəhhabilər əleyhinə çıxışlar baş verdi. 1912-ci ildə əmirin qardaşı Səad yaxınlarından ibarət kiçik qrupla şərifin əlinə keçdi. Şərif bu hadisədən istifadə edərək, Səadı yalnız o şərtlə azad edirdi ki, Əbdül Əziz türklərin Bureydənin ən mühüm rayonu olan Qasım üzərində suverenliyini tanısın və həmçinin illk kiçik təzminat ödəsin.

*Ərəbistan yarımadası birinci dünya müharibəsi illərində* Qeyd etdiyimiz kimi ingilislər şərif Hüseyni türklərə qarşı çıxmağa razı sala bildilər. 1915-ci ildə ingilsilər Hicaz və Əsirlə gizli müqavilə bağladılar. 5 iyun 1916-cı ildə Hüseyn Hicazın müstəqilliyni elan etməklə yanaşı kral titulun götürərək Osmanlı dövlətinə qarşı müharibə elan etdi. Məşhur ingilis kəşfiyyatçısı polkovnik Lourens bu zaman Hicazda idi və türk qarnizonlarına qarşı bədəvilərin çıxışlarını təşkil edirdi. 1917-ci ilin iyulunda ərəblər kiçik türk qarnizonunun yerləşdiyi Mədinədən başqa türkləri Hicazdan sıxışdırıb çıxardılar və Əkəbə limanını da tuta bildilər.

1918-ci ildə Əbdül Əziz yaranmış əlverişli şəraitdən istifadə edərək türklərin tərk etdiyi Rəşidilər əmirliyinə qarşı müharibəyə başladı və tezliklə paytaxt Xail şəhərini tutdu. İngiltərənin baş naziri D.Lloyd Corcun şərhinə görə « heç kəs xarici ordunu Ərəbistanın hər hansı bir hissəsini tutmağa göndrməmişdi. Bura olduqca yoxsul ölkə olduğundan heç bir yırtıcı dövlət onu tutmağa maraq göstərmirdi».

XX yüzilliyin əvvəllərində ingils müstəmləkəçiləri Türkiyənin İtaliya ilə və Balkanlarda apardığı müharibədə məğlubiyyətindən istifadə edərək Ərəbistan yarımadasının cənubunda öz ağalığının rəsmi şəkildə tanınmasına nail oldu. 1914-cü ildə bağlanan konvensiyaya görə Osmanlı imperiyası Cənubi Yəməndə ingils protektoratlığı ərazisinə hər hansı bir iddiadan əl çəkirdi.

Osmanlı imperiyası dağıldıqdan sonra Yəmən tam müstəqilliyini qazanmış oldu. Təbii ki, belə bir vəziyyət Yəmənin şimal hissəsinə aid idi. Yəməndə hegemonluq uğrunda Böyük Britaniya və İtaliya arasında rəqabət gedirdi. Qeyd edək ki, hələ XVIII yüzillikdə ictimai-iqtisadi və siyasi cəhətdən zəif inkişaf etmiş Yəmənin strateji əhəmiyyətinə böyük önəm verən müstəmləkə dövlətləri İngiltərə, Fransa, İtaliya, Avstriya-Macarıstan, Hollandiyanın işğalçı siyasətində mühüm yer tuturdu.

1918-ci ilin dekabrında ingils orduları Xodeydanı, Luxayı və Yəmən Tihamasının digər şəhərlərini tutdular və süni şəkildə ölkənin mühüm iqtisadi rayonu olan Cəbəli Tihamadan təcrid etdilər. İngilislərə qarşı mübarizəyə imam Yəhya başçılıq edirdi və 1918-ci ilin noyabrında öz iqamətgahını Şihardan Sənaya keçirdi və özünü kral elan etdi. Beləliklə, o, Yəmənin dağ rayonlarının yeganə hakimi oldu. Yəhya bundan sonra Yəməni cənub rayonlarından ayıran İngiltərənin mülkləri ilə Türkiyənin Cənub-Qərbi Asiya arasında müəyyənləşdirdiyi sərhəddə qarşı öz etirazını bildirdi. Qeyd edək ki, sərhəd məsələsi hələ 1914-cü ildə bağlanan müqavilə zamanı müəyyənləşmişdi. Bu müqaviləyə əsasən də Osmanlı imperiyasının Yəmən vilayətləri ilə Böyük Britaniyanın idarəçiliyi altında olan Cənubi Yəmənin sərhəd demarkasiya xətti də çəkildi.

Ölkənin cənub rayonları və Tihama Yəmən tayfaları ilə ingilis orduları arasında döyüş meydanına çevrildi. İngilislər Luhayya limanı ilə birlikdə Şimali Tihamı Əsir əmirliyinin idarəçiliyi altına verməklə, onun hakimini bunun müqabilində imam Yəhyaya qarşı qaldırdılar. Xodeydanı isə ingilislər öz əllərində saxlamışdılar və Cənubi Yəməndə ingilislərin hakimiyyətini tanıyacaqları təqdirdə əvəz olaraq, həmin ərazini qaytaracaqlarını vəd edirdilər. İngilis hakim dairələrinin onların Ədən protektoratlığı və Yəmən Tihaması üzərində hüququnun tanınması sahəsində dəfələrlə göstərdiyi cəhdlər müvəffəqiyyətsizliyə uğradı.

## MİSİR

36

*Napoleon Bonapartın Misirə yürüşü* Osmanlı imperiyası zəiflədikdə Avropa hakimləri kapitulyasiya rejiminə dəyişə bilməyən mübahisəsiz imtiyazları kimi baxırdılar. Buna görə də müstəmləkəçi dövlətlər bu rejimin saxlanılması üçün bütün vasitələrdən istifadə edirdilər. Bunun nəticəsi idi ki, kapitulyasiya rejimi XX yüzilliyə qədər, hətta Misirdə isə 1937-ci ilə kimi davam etdi. XIX yüzillikdə Osmanlı imperiyası tənəzzül edərək, elə bir şəkil almışdı ki, ona Avropada «xəstə adam» ləqəbi vermişdilər. Avropanın iri kapitalist ölkələri Osmanlı imperiyasından qalacaq mirası, eləcə də ərəb ölkələrini bölüşdürmək üçün bir-birinə qarşı mübarizə aparır-dılar. Məhz bu qarşıdurma «Şərq məsələsi» deyilən problemi həll olunmaz, ziddiyyətli məsələyə çevirmişdi.

Avropanın iri dövlətləri Osmanlı imperiyasının ərazisini nüfuz dairələrinə bölmüşdülər. Bu bölgüyə görə, Ərəb Şərqi İngiltərə və Fransanın payına düşürdü. Fransa bu sahədə bəxtini daha əvvəllər sınamışdı. Napoleon Bonapart Misiri əlverişli sənaye məhsul-larının satış bazarına və Hind okeanında ağalıq etmək üçün əhə-miyyətli meydana çevirmək istəyirdi. Napoleon öz memuarla-rında yazmışdı: «Əgər Misir əlli il fransız idarəsi altında olsa idi, onun əhalisi xeyli artardı və bizim sənayemizin inkişafına imkan verə biləcək manufakturalarımız üçün bazara çevrilə bilərdi. Fransa isə öz tərəfindən Misirdən çörək, duz, düyü, eləcə də Asiya və Afrikanın digər məhsullarını ala bilərdi. Əgər fransızlar Misirdə möhkəmlənsə idilər, ingilislər Hindistanda qala bilməz-dilər». Misirdən gedən hind malları Afrika ətrafından ingilislərin 8 ay müddətinə dəniz yolu ilə Avropaya gətirdikləri mallardan ucuz başa gəlirdi.

Fransanın hakim dairələri hələ çoxdan Qırmızı və Aralıq dənizi ilə əhatələnmiş Misirə Hindistan və İndoneziyadakı ticarət və siyasət rəqiblərinə bir mübarizə meydanı kimi baxırdı. Hələ məşhur filosov Leybnits vaxtilə Fransa kralı XVI Lüdovikə verdiyi məlumatda Hollandiyanın bütün Şərqdəki mövqeyini sarsıtmaq üçün Misiri istila etməyi məsləhət görmüşdü. Lakin XVII yüzilliyin axırlarında fransızların başlıca rəqibi hollandlar deyil, ingilislər idi.

1797-ci ilin yayında Napoleon Misirə hücum planı hazırladı. Napoleon Misir səfəri üçün döyüşçüləri bir-bir seçirdi. O, əlli və artıq dərəcə qızmar günəşin altında, ucu-bucağı görünməyən susuz və kölgəsiz, isti qum səhralarını keçməkdən ötrü məhz dözümlü adamlar seçməli idi. Napoleon Misirin işğalına çox böyük əhəmiyyət verirdi. Hələ İtaliya müharibəsi dövründə boş vaxtlarında Misir haqqında Volheyin və digər müəlliflərin əsərlərini mütaliə edirdi. 1797-ci ilin avqustunda İtaliya düşərgəsindən Parisə göndərdiyi məktubda yazırdı: «İngiltərəni doğrudan da məhv etmək üçün Misiri işğal etməyin zəruri olduğunu duymağımıza bir o qədər də çox vaxt qalmamışdır». Artıq Avropa Fransanın Napolenun başçılığı altında yeni bir ekspedisiyaya hazırlaşdığını bilirdi. Bu mənada Napoleon İngiltərənin bu məsələyə qarışacağını və hətta Nelsonun Aralıq dənizində keşik çəkdiyini də çox gözəl bilirdi. Nelsonun hücumundan ehtiyatlanan Napoleon Cəbəllüttariq boğazından və İspaniyanın yanından ötüb keçərək İrlandiyaya çıxmağa cəhd göstərmək niyyətində olduğu barədə şayiə yaymışdı. 19 may 1798-ci ildə Napoleon Bonapartın komandanlığı altında 37 hərbi, 300 yelkənli gəmidən və 29400 əsgərdən ibarət Fransa hərbi ekspedisiyası Misirə yürüşə başladı. Yürüşə gedərkən Napoleon Bonapart müasiri olduğu bir sıra alimləri də özü ilə götürmüşdü. Onu da qeyd etmək lazımdır ki, misirşünaslıq tarixində Bonapartın səfəri çox böyük rol oynamışdır. Y.V.Tarlenin qənaətinə əsasən bəşər sivilizasiyasının bu ən qədim ölkəsini elm aləmi üçün ilk dəfə demək olar ki, onunla gələn alimlər kəşf etmişlər.

Napoleon Misirə yürüşündə Malta adasının tutulmasına böyük əhəmiyyət verirdi. 10 iyun 1798-ci ildə Napoleon Maltanı tutdu və Fransa Respublikasının mülkü elan etdi. 19 iyunda Napoleon yürüşünə davam etdi. 30 iyun 1798-ci ildə Napoleon başda olmaqla fransız ordusu İskəndəriyyənin yaxınlığında quruya çıxarıldı. 1798-1801-ci illərdə Fransanın Misirə ekspedisiyası zamanı Napoleon Bonapart əhalinin məmlüklər əleyhinə əhval-ruhiyyəsindən, İstanbul və Qahirə hakimləri arasındakı ziddiyyətlərdən məharətlə istifadə etdi.

Nelson fransızların Maltanı tutması xəbərini alanda Bonapartın onu aldatdığını başa düşdü. Nelson fransızların quruya çıxmasına yol verməmək üçün onları hələ dənizdə ikən batırmaq

məqsədi ilə tam sürətlə Misirə tərəf üz tutdu. Lakin Nelson İskəndəriyyədə Bonapartın adını belə bilmədiklərini eşidəndə yenidən səhv etdiyini düşünərək «əgər fransızlar Misirdə yoxdurlarsa, demək onların İstanbuldan başqa heç bir yerə üzə bilməyəcəklərini» qət edib oraya getməyə qərar verdi. Nelsonun bu səhvləri və təsadüflər Fransa ekspedisiyasını xilas etdi. Çünki Nelsonun ekspedisiyası Bonapartın ekspedisiyasından düz 48 saat əvvəl İskəndəriyyəyə yaxınlaşmış və Napoleon haqqında heç bir təsəvvürü olmayan əhalidən onu soruşmuşdur.

21 iyulda ehramlar yaxınlığındakı döyüşdə fransızlar Muradın və İbrahimin məmlüklərini darmadağın etdilər və məhz bundan sonra fransızlar Qahirəni tutdular. Lakin 1 avqust 1798-ci ildə ingilis admiralı Nelson Əbukir yaxınlığında fransız donanmasını büsbütün məhv etdi. Beləliklə, fransızların Misirdəki ordusu Avropadan təcrid edilmiş oldu.

Osmanlı Sultanı III Səlim İngiltərənin köməyinə arxalanaraq, 1798-ci ilin sentyabrında Fransaya müharibə elan etsə də, geniş miqyaslı hərbi əməliyyatlar aparmadı. Fransızlar Misirdə köhnə icti-mai quruluşu saxladılar, lakin indi vergi gəlirləri bəylərə deyil, fransız hərbi xəzinəsinə gedirdi. 21 oktyabr 1798-ci ildə Qahirədə fransızlara qarşı böyük üsyan baş verdi. Üsyanın mərkəzi əl-Əzhar Müsəlman Universiteti idi. Napoleon çətinliklə üsyanı yatırdı. 5 minədək adam öldürüldü. Bundan sonra, Nil boyunca yuxarıya irəliləyən fransız qoşunları faktiki olaraq, 1798-ci ilin dekabrı üçün Misirin işğalını başa çatdırdılar.

Napoleon Fransanın təcavüzünü belə izah edirdi ki, guya həqiqi müsəlmandır və islama beyət edir. İlk gündən ali müsəlman ruhanilərini və görkəmli şəhər əyanlarını öz tərəfinə çəkməyə cəhd göstərirdi. Napoleon deyirdi ki, o Misirə bir məqsədlə əhalini məmlük zülmündən xilas etmək və Fransa tacirlərini incitdiyinə görə məmlükləri cəzalandırmaq üçün gəlmişdir. Bonapart Misirdə türk canişinlərinə belə təlqin edirdi ki, fransız ordusu Osmanlı dövlətinin marağını müdafiə edir, Napoleon isə «sultanın dostudur».

Sultanı özünün «dostu» adlandıran Napoleonun Misirə yürüşü III Səlimin keçirdiyi islahatların müvəffəqiyyətsizliyinə səbəb olan amillərdən biridir. Bərabərlikdən, azadlıqdan dəm vuran

Napoleon tez bir zamanda elan etdi ki, kim məmlüklər tərəfə keçsə və bizimlə vuruşsa, onun xilası yoxdur, o məhv ediləcəkdir.

1799-cu ilin əvvəllərində Napoleon Suriyaya yürüşə başladı. Lakin Şimali Fələstində Əkkə şəhəri yaxınlığında fransızların qarşısı alındı, onlar Əkkə şəhərini ala bilməyib, Misirə qayıtmağa məcbur oldular. Uzun müddət Avropa ilə hər cür əlaqəsi kəsilən Bonapart təsadüfən əlinə keçən qəzetdən Avstriya, İngiltərə, Rusiya və Neapol krallığının Fransa əleyhinə müharibəni bərpa etdiyini, Suvorovun İtaliyada fransızları qırdığını, Fransaya soxulacağı ilə hədələdiyini, ölkənin özündə isə qarətlər və hərc-mərcliyin hökm sürməsi kimi sarsıdıcı xəbərlər əldə etdi. Misirin işğal olunduğunu, türklər tərəfindən heç bir təhlükə olmadığını güman edən, Suvorovun İtaliyada qələbələrini, Direktoriyanın nüfuzdan düşdüyünü zənn edən Napoleon gözlənilmədən çox mühüm qərar qəbul etdi. Eyni zamanda o, müavini general Kleberi öz yerinə təyin etdi, özü isə 22 avqustda Fransaya yola düşdü. Aralıq dənizində yarım ay çox təhlükəli «səyahətdən» sonra 1799-cu ildə Fransanın cənubunda quruya çıxan Napoleon bir aydan sonra 9 və 10 noyabrda dövlət çevrilişi etdi. O, Direktoriyanı hakimiyyətdən devirdi və Fransanın tam hakimi oldu.

Misirdə müharibənin perspektivsiz olduğunu görən, həmçinin Osmanlı dövlətində Fransanın nüfuzunu bərpa etmək istəyən Kleber türklər və ingilislərlə danışıqlar aparmağa başladı. 24 yanvar 1800-cü ildə imzalanan sazişə əsasən fransız qoşunları Misirdən çıxarılmalı, ingilis gəmiləri isə onları Fransaya daşımalı idi. Lakin son dəqiqədə Kleber xəbər tutdu ki, ingilis admiralı sazişi təsdiq etmir, fransız əsgərlərini isə hərbi əsir elan etmək istəyir. Buna görə də Kleber hərbi sazişi ləğv etdi və türklərə qarşı çıxdı. 20 mart 1800-cü ildə Heliopolis yanında vuruşma oldu. Kleber tam qələbə çaldı. Lakin bu zaman Qahirədə yeni üsyan başladı. Yalnız 25 apreldə Kleber Qahirəni təslim olmağa məcbur edə bildi.

Misiri ikinci dəfə işğal etdikdən sonra, ingilislərin iştirakı olmadan birbaşa Osmanlı dövləti ilə yeni danışıqlar aparmağa başlayan general Kleber 14 iyun 1800-cü ildə yay iqamətgahının bağında gəzərkən Suriyadan gəlmiş Süleyman adlı bir türk Klebere yaxınlaşdı, xəncəri ürəyinə sancaraq onu öldürdü. Bundan sonra, fransız ordusunda komandanlıq general Menunun əlinə keçdi.

1801-ci il döyüş əməliyyatları nəticəsində ingilis qoşunları Əbu Kiri, Rəhmaniyyəni, türklər isə Mənsur, Donietta və Rozettanı ələ keçirdikdən sonra fransızlar İskəndəriyyədən başqa Misirin bütün əyalətlərini itirdilər. İskəndəriyyədə isə eyni zamanda aclıq və vəba xəstəliyi baş verdi. İyunun 27-də Misirdə olan fransız qoşunlarının komandanlığı ingilis və türk hərbi qüvvələrinə təslim olduqlarını bildirdilər. Hərbi əməliyyatların gedişində avqustun 31-də İskəndəriyyədə yerləşən fransız qarnizonu təslim oldu. 1801-ci ilin sentyabrında axırıncı fransız əsgəri Misiri tərk etdi. 9 sentyabr 1801-ci ildə Fransa ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı.

*Məhəmməd Əlinin hakimiyyətə gəlməsi*

Fransızlar getdikdən sonra Misirdə 4 il ərzində hakimiyyət uğrunda şiddətli mübarizə davam etdi. Fransızlar getdikdən sonra Misirdə ingilis, türk, məmlük orduları qaldı. Misirdəki ordunun tərkibində 20 min ingilis-sipahi, 40 min türk və 4 min məmlük var idi. Onların buradakı fəaliyyəti özbaşınalığa əsaslanırdı.

Osmanlı dövləti öz əyaləti kimi Misiri tərkibində saxlamaq istəyirdi. İngiltərə də öz növbəsində Misiri işğal etmək istəyirdi və türklərə qarşı mübarizədə məmlüklərə arxalanırdı. Məmlüklər türk sultanı tərəfindən təyin edilmiş paşanın hakimiyyəti əleyhinə çıxdılar. Belə olduqda, III Səlim məmlüklərin özbaşınalığına son qoymağı əmr etdi. Nəticədə, türklər məmlükləri tələyə salaraq, bir hissəsini qırdılar, digər hissəsini isə əsir aldılar. Bu hadisədən ciddi narahatçılıq keçirən və Misirdəki fəaliyyətlərində məmlüklərdən istifadəyə önəm verən ingilislər Qahirəni atəşə tutacağı ilə hədələdi. Nəticə etibarı ilə, türk paşası münaqişəyə yol verməmək üçün 2500 məmlükü azad etdi.

Osmanlı imperiyası ilə münaqişəyə yol verməmək üçün ingilislərin də Misirdə ağalığı uzun sürmədi. 27 mart 1802-ci ildə İngiltərə və Fransa arasında bağlanmış Əmən sülh müqaviləsinin şərtinə görə ingilislər Misiri tərk etməli oldu. 1803-cü ilin martında axırıncı ingilis əsgəri Misiri tərk etdi.

Bununla belə, istər ingilislər, istərsə də fransızlar öz işğalçılıq niyyətlərindən əl çəkməmişdilər. İngilslər gedərkən

məmlüklərin rəhbəri Məhəmməd Əlfini özləri ilə apardılar və bundan məqsəd isə yaranmış əlverişli şəraitdə Məhəmməd Əlfini Misirə göndərərək siyasi səhnəyə çıxarmaq idi. 1802-ci ildə Napoleon da öz növbəsində ən yaxşı diplomatlardan və kəşfiyyatçılardan biri, Şərq məsələlərinin ən yaxşı bilicisi polkovnik (1803-cü ildən general) Sebastianini yeni ekspedisiyaya zəmin hazırlamaq üçün Misirə göndərdi. Sebastiani də öz növbəsində iki məmlük rəhbəri İbrahim bəy və Osman Bərdisi ilə əlaqə yarada bildi.

İngilislər ölkəni tərk etdikdən sonra türklər məmlüklərə qarşı mübarizəni yenidən başladılar. Lakin məmlüklər bu müddətdə xeyli qüvvətlənmişdilər və bu da onlara Damanxur yaxınlığındakı döyüşdə qələbə qazandırdı. Qahirədə isə bu dövr hərbi qiyamlar hökm sürürdü. Bir ay ərzində üç paşa bir-birini əvəz etmişdi. Belə qarışıqlıqda türk ordusunun alban muzdlularından ibarət iri dəstəsi yaranmış şəraitdən istifadə edərək məmlüklər tərəfə keçdi. 4 minlik alban nişançı korpusunun komandiri, türkləşmiş alban Məhəmməd Əli osmanlı hökumət orqanları ilə məmlüklər arasındakı düşmənçilikdən məharətlə istifadə etdi. 1803-cü ilin mayında Qahirə məmlük-alban birləşmiş qüvvələri tərəfindən tutuldu. Nəticə etibarı ilə, Misirdə 2 məmlük bəyi və alban muzdlularının komandiri Məhəmməd Əlidən ibarət triumvirat yarandı.

Misirin tarixində çox böyük rol oynamış Məhəmməd Əli 1769-cu ildə Makedoniyanın Kavalla şəhərində anadan olmuşdur. O, xırda mülkədar oğlu olmuş, uşaq ikən valideynlərini itirmiş, özgə ailədə böyümüşdür. İstanbulun əmri ilə Kavalla şəhəri Misirə 300 nəfərlik alban dəstəsi göndərdi. Məhəmməd Əli 30 yaşında ikən həmin dəstəyə komandir köməkçisi vəzifəsinə götürüldü. Onun fitri istedadı, sərkərdəlik bacarığı, soyuqqanlılığı onu tez bir zamanda şöhrətləndirdi və alban dəstəsinin komandiri vəzifəsinə yüksəltdi.

Məmlüklərin qələbəsindən ingilislər və fransızlar istifadə etmək istədilər. Bu məqsədlə, 1804-cü ildə ingilislər Məhəmməd Əlfini İskəndəriyyəyə göndərdi. Sebastianinin də fəaliyyəti nəticəsində Misir məmlük güruhuna rəhbərlik edən Osman Bərdisi Məhəmməd Əlfiyə qarşı çıxdı və dəstələrini darmadağın etdi.

Belə bir vəziyyətdə, məmlük özbaşınalığına qarşı üsyan baş verdi. Üsyanın başında əl-Əzhar Universitetinin şeyxləri dururdu. 12 mart 1804-cü ildə üsyançılar tərəfindən Osman Bərdisinin sarayı

müha-sirəyə alındı və məhv edildi. Osman Bərdisi Qahirədən qaçmağa məcbur oldu.

Xalqın nifrəti məmlüklərlə müttəfiq olan albanlara qarşı da çevrildi. Məhəmməd Əli yaranmış şəraiti düzgün qiymətləndirə bildi və cəsarətli addım ataraq, o, əl-Əzhara gəldi və şeyxlərin qarşısında çıxış edərək, onlarda özünə qarşı inam oyada bildi. Ümumiyyətlə, Məhəmməd Əli öz korpusunda, köhnə türk ordusunda görünməmiş nizam-intizam yarada bildi və bununla da, məmlüklərin qarət və zorakılığından cana gəlmiş yerli əhalinin rəğbətini qazandı. Məhəmməd Əli Misirdə yeni qüvvələrə-tacirlərə və ruhanilərə, başda Şeyx Ömər Məkrəmin durduğu mütərəqqi hissələrə arxalanmağa çalışırdı. Şeyxlərin məclisi Məhəmməd Əlini kaymakam, yəni Xurşud paşanın müavini seçdilər.

1804-1805-ci illərin qışında Məhəmməd Əli Yuxarı Misirdə məmlükləri təqib edirdi. 1805-ci ilin mayında Xurşud paşanın və yeniçərilərin özbaşınalığına qarşı Qahirədə üsyan baş verdi. Xurşud paşa devrildi, yeniçərilər qovuldu və Ömər Məkrəm başda olmaqla Qahirə şeyxləri 14 may1805-ci ildə Məhəmməd Əlini paşa elan etdilər. 1804-cü ildə Balkan yarımadasında, Serbiyada baş verən üsyanlar, Yunanıstan və Bolqarıstandakı həyəcanlar, yeni quruluşda yaradılan polklara qarşı yeniçərilərin çıxışları III Səlimi Məhəmməd Əlini Misir paşası kimi tanımağa məcbur etdi. Beləliklə, Məhəmməd Əli 1806-cı ilin noyabrında İstanbuldan Misir paşası titulunu ala bildi. Məhəmməd Əli 44 il, yəni 1805-ci ildən-1849-cu ilədək hakimiyyətdə qaldı.

Məhəmməd Əli Yuxarı Misirdə daldalanan məmlük qalıqları ilə mübarizəni davam etdirməli oldu. 1807-ci ilin yazında ingilislər məmlüklərə kömək məqsədilə İskəndəriyyəyə hərbi qüvvə çıxardılar. Məhəmməd Əli ingilisləri İskəndəriyyədə mühasirəyə alıb, 1807-ci ilin sentyabr ayında təslim olmağa məcbur etdi. Bu hadisə təkcə Misirdə deyil, bütün Yaxın Şərqdə onun nüfuzunun son dərəcə yüksəlməsinə səbəb oldu. Nəticədə, məmlük bəyləri könüllü olaraq silahlarını yerə qoymağa məcbur oldular. Hadisələrdən göründü ki, Məhəmməd Əli fransızları qovduqdan sonra öz yolunu dəqiq müəyyənləşdirməmişdi. Belə ki, hakimiyyətə keçmək üçün o gah türk paşasının, gah da məmlüklərin yanında öz dəstəsi ilə xidmət etmişdir. Bununla belə, şeyxlərin başda durduğu məmlüklər əleyhinə

xalq hərəkatının gücünü düzgün qiymətləndirə bildi və bu da onun Misirin paşası kimi yüksək vəzifəyə keçməsinə imkan verdi. Lakin Məhəmməd Əli təkcə Misirlə kifayətlənmirdi. O, eyni zamanda, böyük bir imperiya yaratmaq fikrində idi ki, Məhəmməd Əli bu imperiyada Misir mülkədar və tacirləri üçün geniş imkanlar açmalı idi. Misir paşası Osmanlı imperiyasının zəiflədiyini yaxşı başa düşürdü və belə bir vəziyyət Məhəmməd Əlinin imperiya yaratmaq ümidlərini artırırdı. Bunun üçün ona böyük, yaxşı silahlanmış və Avropa qaydası ilə təlim görmüş bir ordu lazım idi. Ona vəsait və daha geniş mənada desək iqtisadi müstəqillik, səlis işləyən inzibati idarə aparatı, savadlı zabit və məmurlar heyəti lazım idi. Bu faktorları nəzərə alaraq Məhəmməd Əli Misiri özünün gələcək işğallarının bazasına çevirmək üçün ölkədə islahatlar keçirdi.

*Məhəmməd Əlinin islahatları* Tacirlərin köməyinə arxalanaraq, Məhəmməd Əli III Səlimin müvəffəqiyyətsizliyə uğrayan və məhvi ilə nəticələnən islahatları Misirdə həyata keçirə bildi. Onun həyata keçirdiyi ilk islahat aqrar sahədə oldu və nəticədə o, paşaların idarə etdiyi xas torpaqlarını öz əlinə keçirdi. Artıq 1808-ci ildə Məhəmməd Əli qiyamçı bəylərin malikanələrini müsadirə etməyə başladı. Elə həmin vaxt da o, özünün hakimiyyətinə ən böyük təhlükə yaradan məmlüklərlə qəti olaraq hesablaşmağı qərara aldı. Məhəmməd Əli yaxşı başa düşürdü ki, məmlüklərin varlığı ölkədə sui-qəsdlərin və qiyamların daimi mənbəyinin əsası olacaqdır. Bu isə onun strateji planlarına köklü şəkildə zidd idi. Digər tərəfdən, məmlüklərin siyasi səhnədən qəti olaraq, götürülməsi onlara məxsus olan geniş torpaq sahələrinin də bir əldə cəmləşdirilməsinə imkan və şərait yaratmış olardı.

1811-ci ildə Məhəmməd Əli Osmanlı dövlətinin xahişi ilə Ərəbistanda yaranmış Vəhhabi dövlətinə qarşı müharibəyə başladı. Fürsətdən istifadə edən Məhəmməd Əli məmlükləri fiziki cəhətdən məhv etməyi qərara aldı. Bu məqsədlə o, həmin il martın 1-də Qahirə qalasında hərbi nümayiş keçirdi ki, burada digər hərbi hissələrlə yanaşı 500 məmlük də iştirak edirdi. Ordunun əsas hissəsi qaladan çıxanda darvazalar bağlandı. Əvvəldən hazırladığı plana uyğun olaraq Məhəmməd Əli alban nişançılarına məmlükləri dövrəyə alıb hamısını qırmağı əmr etdi. Məhəmməd Əlinin oğlu İbrahim bəy eyni

vaxtda məmlüklərə Qahirənin digər yerlərində divan tuturdu və nəticədə öldürülənlərin sayı 2 mindən artıq oldu. Məmlüklərə qarşı yeridilən bu məqsədyönlü siyasətin nəticəsində sağ qalan kiçik bir hissə isə Sudana qaçmağa müvəffəq oldu. Beləliklə, 560 il Misirdə hakimiyyətdə olan məmlüklər həm siyasi, həm də fiziki cəhətdən məhv edildi.

Artıq 1811-ci il qırğınından sonra məmlük feodallarının torpaqları bütünlüklə Məhəmməd Əlinin idarəçiliyinə keçdi. Sonra o, apardığı islahatlar çərçivəsində mültəzimlərdən onların gəlirləri haqqında məlumat verməyi tələb etdi. Paşanın yeni vergilər qoymaq istədiyini güman edən mültəzimlər öz gəlirlərini çox az, qəsdən azaldılmış rəqəmlərlə göstərdilər. Məhəmməd Əliyə də məhz elə bu lazım idi. Mültəzimlərdən rəsmi gəlir rəqəmlərini əldə etdikdən sonra Məhəmməd Əli bildirdi ki, hökumət vergi yığmağı öz öhdəsinə götürür. Nəticədə, mültəzimlərin bəylərdən götürmüş olduqları torpaqlar onların əlindən alındı. 1808-ci ildə isə vergi verməkdən boyun qaçıran bütün mültəzimlərin torpaqları müsadirə edildi və dövlət torpaqlarına qatıldı. 1809-cu ildə mültəzimlər faizlərdən də məhrum edildi. 1814-cü ildə isə iltizam sistemi tamamilə və birdəfəlik olaraq ləğv edildi. Bütün bu proseslərin gedişində Məhəmməd Əli mültəzimlərin timsalında özünə qarşı formalaşa biləcək sosial bazanın qarşısını almaq məqsədilə mültəzimləri ədalətlə mükafatlandırmaq üçün onlara öz gəlirləri haqqında vermiş olduqları məlumata uyğun miqdarda təqaüd verilməsini əmr etdi.

Məhəmməd Əlinin aqrar sahədə keçirmiş olduğu islahat əslində təkcə aqrar xarakterli islahat deyildi. Həmin dövr torpaq üzərində, yaxud mülkiyyət üzərində feodal hüquqlarının bərqərar olduğunu nəzərə alsaq, onda həmin islahatların eyni zamanda siyasi xarakter də daşıdığını söyləmək olar. Belə ki, yuxarıda göründüyü kimi həmin islahatların keçirilməsi, ilk növbədə, hakimiyyətə təsir edən feodal sinfinin maraqlarına toxunurdu ki, bu da ölkədə siyasi vəziyyətə təsir etməyə bilməzdi. Onu istər məmlüklərə, istərsə də mültəzimlərə olan münasibətdə qeyd etmək mümkündür və burada mültəzimlərə daimi təqaüdün kəsilməsi təkcə onların ədalətlə mükafatlandırılmasını deyil, ölkənin ümumi inkişafının təmin edilməsi üçün vacib olan siyasi sabitliyin təmin olunması nöqteyi-nəzərindən də xarakterizə edilə bilər.

Məhəmməd Əli məmlükləri fiziki cəhətdən məhv etdikdən sonra özünü kifayət qədər güclü hesab edirdi. Artıq Məhəmməd Əli onun hakimiyyətə gəlməsində mühüm rol oynayan və onun təkhakimiyyətliliyinə mane olan şeyx Ömər Məkrəm və onun tərəfdarlarının təsirinə son qoymaq istəyirdi. Bu məqsədlə, 16 iyul 1809-cu ildə Məhəmməd Əli vəqf torpaqları üzərinə vergi qoydu və əslində bu fərman ənənəvi feodal hüququnun pozulması demək idi. Məhəmməd Əli bununlau kifayətlənməyib, vəqf torpaqları idarəçilərindən torpaq mülkiyyəti hüququ haqqında sənəd tələb etdi. O, yaxşı bilirdi ki, belə sənədlərin əksəriyyəti çoxdan itib-batmışdır. Elə buna görə də, Məhəmməd Əli heç bir sənəd təqdim edə bilməyən idarəçiləri, dini əmlaka pis nəzarət etməkdə təqsirləndirdi və vəqf torpaqlarını öz nəzarəti altına aldı. Bununla da o, vəqf gəlirləri hesabına yaşayan müsəlman ruhanilərinə təsir göstərmək üçün əlavə vasitə əldə etdi. Bu tədbirlər bir sıra ruhanilərin narazılığına səbəb oldu. Hətta «kimi hakimiyyətə gətirmişik, onu da devirərik» deyən bir neçə şeyx Məhəmməd Əlinin yanına getmiş, onu hədələmiş və fərmanları ləğv etməyi tələb etmişlər. Lakin şeyxlər arasında birlik olmadığından şeyxlərin müxalifətçi qrupuna rəhbərlik edən şeyx Ömər Məkrəm azlıqda qaldı. Başda əd-Duaxlı və əş-Şorkavi olmaqla şeyxlərin əksəriyyəti Məhəmməd Əli ilə razılığa gəldi, çünki yeni seçilmiş paşa onların çoxunu pulla ələ almışdı. Nəticə etibarilə, Ömər əl-Məkrəm vəzifəsindən salındı və sürgün edildi. Beləliklə, 1814-cü il üçün Məhəmməd Əli əslində Misirdə yeganə torpaq mülkiyyətçisi oldu.

Məhəmməd Əli fəllahlar üçün yeni torpaq qaydası qoydu. Paşanın əmri ilə hər kənddə torpaq, hər bir yaşlı işçi üçün 3-5-fəddan hesabı ilə kəndlilər arasında bölüşdürüldü. Hüquqi cəhətdən kəndli torpaq sahəsinin sahibi və onun məhsulunun mülkiyyətçisi olurdu. Paşa kəndlinin məhsulunun bir hissəsini vergi kimi, digər hissəsini isə özü təyin etdiyi qiymətlə satın alırdı. Fəllah ildə 60 gün paşa və dövlət üçün biyara getməli idi. Məhəmməd Əli vergi yığılmasında ellik zəmanət sistemini saxlayıb möhkəmlətdi. Bəzən elə olurdu ki, bir kənddən vergi tamamilə toplanmırdısa, qalan hissəsi qonşu kəndin üzərinə qoyulurdu. Məhəmməd Əlinin hakimiyyəti dövründə orduya səfərbərlik qaydası kəndlilər üçün yeni, ən ağır yük idi. Məhəmməd Əlinin aqrar siyasətində köçəri tayfaların şeyxlərinə

məxsus torpaqlar məsələsi mühüm yer tuturdu. Bir qayda olaraq, bədəvi şeyxlərinin əksəriyyəti Məhəmməd Əlinin hakimiyyətinin ilk illərində məmlükləri müdafiə etmiş və buna görə də Məhəmməd Əli onların bütün imtiyazlarını müsadirə etmişdi. Lakin sonralar Məhəmməd Əli köçəri əyanları da öz tərəfinə çəkməyə cəhd etdi. Buna görə idi ki, bədəvi şeyxləri hökumətdən müəyyən mükafatlar almağa başladılar.

Məhəmməd Əli geniş miqyasda torpaq paylamağa başlamışdı. O, öz oğlanlarından, zabit və məmurlardan yeni torpaq sahibləri yaradaraq, onları öz ictimai dayağına çevirdi. Məhəmməd Əli feodal sinfinin tərkibini demək olar ki, tamamilə yeniləşdirdi. Köhnə feodallr kimi bu yeni feodallar da mənşə etibarilə misirli deyildilər. Bunlar paşanın ətrafındakı türklər, albanlar, çərkəslər və kürdlər hesabına artırdı. Torpaq paylanması və yeni feodal sinfinin təşəkkülü bir neçə onillik çəkdi. XIX əsrin birinci yarısında Misirin kənd təsərrüfatında xeyli müvəffəqiyyət əldə edildi. XIX əsrin əvvəllərində əkin sahələri 2 milyon fəddandan artıq olmadığı halda, 1840-cı ildə 3,8 milyon fəddana, 1852-ci ildə isə 4,1 milyon fəddana çatmışdı. Ölkədə köhnə suvarma şəbəkələrinin bərpa edilməsi və yeni suvarma şəbəkələrinin yaradılması sahəsində böyük iş görülürdü və elə bunun nəticəsi idi ki, 1820-ci ildən etibarən suvarma işləri il boyu aparılırdı. Bu isə ildə iki dəfə məhsul götürməyə və yay bitkilərini su ilə təmin etməyə imkan verdi. Kənd təsərrüfatı məhsulları xeyli artdı. 1820-ci ildən yetişdirilməyə başlanan pambıq məhsulu artıq 1836-cı ildə 300 min kantara çatdı. Buğda, düyü, qəndqamışı, xam ipək, indiqo istehsalı xeyli artdı.

Məhəmməd Əli bir çox kənd təsərrüfatı malları üzərində dövlət inhisarı qoymuşdu. O, daxili bazarda ən böyük inhisarçı tacir idi. Fəllahın yığılan məhsulu sərf etmək ixtifarı yox idi. Kəndli biçindən sonra məhsulu dövlət anbarına təhvil verirdi. Məhsulun bir hissəsi vergiyə çıxılır, qalan hissəsi isə dövlət qiyməti ilə satın alınırdı. Bu qiymətlər Misirdə bazar qiymətindən təxminən iki dəfə, ixracat qiymətindən isə üç dəfə aşağı idi. Bəzi inhisarlar yüksək qiymətlə ayrı-ayrı şəxslərə verilirdi. Bir nəfər levantlı tacir 1826-cı ildə, hətta içməli Nil suyunu yüksək qiymətlə ona iltizama verilməsini təklif etmişdi. Qəzəblənən hərbi nazir Lazoğlu taciri Nildə batırmaq əmri verdi. İnhisara qarşı narazılığın son dərəcə

artdığını nəzərə alaraq, Məhəmməd Əli 1832-ci ildə kəndlilərin buğda, qarğıdalı, arpa və paxla bitkilərini azad surətdə sərf etməsinə icazə verdi, qalan məhsullar üzərində isə inhisarı saxladı. Keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının inkişafı sürətləndi. Xüsusilə, ixracat məhsullarının istehsalı artdı. Pambıqçılığın genişlənməsi fransızlar tərəfindən Cülelin yeni pambıq növünün becərilməsi və mühüm suvarma şəbəkələrinin yaradılması ilə bağlı idi.

Bütün xarici ticarət dövlət inhisarında idi. Məhəmməd Əlinin hakimiyyəti dövründə xarici ticarət 8 dəfə artmışdı, 1836-cı ildə əslində ixracatın 95 faizi, idxalatın isə 40 faizi paşanın ixtiyarında idi. Məhəmməd Əlinin sənaye sahəsində apardığı islahatlar da mühüm yer tuturdu. 1816-cı ildə Məhəmməd Əli sənayeni dövlət inhisarına alaraq bir sıra dövlət müəssisələri, o cümlədən toxuculuq fabriki, yağ, metallurgiya, şəkər, şüşə zavodları, gəmi təmiri tərsanəsi yaratdı. İnhisar sisteminin əsas mahiyyəti kəndli və sənətkarların fəaliyyətini məmurların himayəsinə verməkdən, istehsal olunmuş malların alınması zamanı dövlətin hüquqlarını genişləndirməkdən ibarət idi. Belə ki, sənətkarlar bütün məhsulu dövlət qiymətinə məmurlara təhvil verməli idi. Aparılan islahatlar nəticəsində həm də sənətkarların xeyli hissəsi müflisləşdi və fabrik fəhlələrinin ilk kadrlarını təşkil etdi. 1818-ci ildə ilk toxuculuq fabrikləri yaradıldı. İlk toxuculuq müəssisəsi Xoronfişdə tikildi. Məhəmməd Əli toxuculuq müəssisəsində işləmək üçün Fransa və Florensiyadan fəhlələr dəvət etmişdi. Burada ipək, məxmər və müslüm parçaları istehsal edilirdi.

Bulakda «Malta» adlı yeni bir toxuculuq fabriki inşa edildi. Bu məüssisədə 18 əyirici və 200 toxucu dəzgahı yerləşmişdi. Fabrikin nəzdində parçaları qırmızı rəngə boyayan müəssisə də yaradılmışdı. Qahirə və Rozettada bir sıra yeni fabriklər yaradıldı. İllik istehsalı 2 min tona bərabər olan çuqunəritmə zavodu, Fransa nümunəsində üç silah zavodu, barıt, kükürd zavodları yaradılmışdı. Artıq 1837-ci ildə 29 çit, ipək, yun və kətan fabriki təsis edilmişdi. Bu fabriklərin nəzdində boyaqxanalar da düzəldilmişdi. Şəkər və yağ zavodları, kağız fabriki istehsala başlamışdı. Ordunun ehtiyaclarını ödəmək üçün Qahirə qalasında köhnə silah emalatxanaları genişləndirilmiş, yeni silah, barıt, kükürd zavodları tikilmişdi. İskəndəriyyədə tərsanələr yaradılmış və burada hərbi gəmilər

hazırlanırdı. 1831-ci ildə eskadra gəmisi tikilib quraşdırıldı. Bu gəminin 136 topu və 1000 nəfərlik komandası var idi. Sənayeni təmin etmək üçün 1820-ci ildə Bulakda metaltökmə zavodu açılmışdı. Burada maşınlar, alətlər, əyirici və toxucu dəzgahlar, hətta buxar mühərrikləri hazırlanır və təmir edilirdi.

1840-cı ildə yeni sənaye müəssisələrində 35 mindən çox fəhlə işləyirdi. İlk vaxtlar bunlar sabiq sənətkarlardan ibarət idi. Ona görə də sonralar kəndliləri icbari qaydada fabriklərə göndərməyə başladılar. Məhkəmə cəzası verilən adamları da buraya göndərirdilər. Fəhlələr fabrik nəzdindəki yataqxanalarda yaşamalı idi, onların fabrikdən kənara çıxması isə qəti qadağan idi. Fabriklərdə çox ağır qayda-qanun hökm sürürdü. Fəhlələrin qaçmasına yol verməmək üçün onların bədəninə xüsusi nişanlar döydürülürdü. Fəhlələr hərbi intizama tabe etdirilmişdi. Onlar tez-tez döyülməklə cəzalandırılırdılar, əmək haqqı onlara, adətən natura şəklində verilirdi. Elə buna görə də fəhlələrin məhsuldarlığı son dərəcə aşağı idi.

Misirdə mərkəzləşdirilmiş dövlət aparatını möhkəmləndirmək məqsədilə Məhəmməd Əli bir sıra inzibati islhatlar da həyata keçirdi. O, əyalət qubernatorlarından-kəşiflərdən ibarət olan köhnə məmlük inzibati sistemini ləğv edərək mərkəzləşdirilmiş sistem yaratdı, müəyyən funksiyaları yerinə yetirən Avropa nümunəsində bir sıra nazirliklər yaradıldı. Hərbi nazirlik, Ticarət nazirliyi, Xalq Təhsili Nazirliyi, Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi yaradıldı. Hərbi Nazirlik ordu və donanmaya, Ticarət Nazirliyi inhisarlara və xarici ticarət birliklərinə rəhbərlik edir, Maliyyə Nazirliyi vergiləri toplayır, Xalq Təhsili Nazirliyi məktəblər açır, xaricə Avropa elmlərini yiyələnmək üçün tələbələr göndərirdi. Məhəmməd Əli inzibati sistemi yenidən qurdu. İdarə sisteminin başında mütləq hakimiyyət hüququ olan paşa dururdu. Misir əyalətlərə, mahallara və rayonlara bölünmüşdü. Yeni idarə aparatı paşa tərəfindən təyin edilən adamlardan ibarət olub, bütünlüklə ondan asılı idi və onun əmrlərini həyata keçirirdi. Əvvəlki feodal hərc-mərcliyi əvəzinə, mərkəzləşmiş idarə sistemi yaradılmışdı.

Məhəmməd Əli siyasi və iqtisadi islahatlarla yanaşı mədəniyyət sahəsində bir sıra mühüm tədbirlər gördü. İlk növbədə, yerli milli kadrlar hazırlamaq, kütləvi savadsızlığı aradan qaldırmaq, ədəbi və elmi sahələri inkişaf etdirmək lazım idi. Misir ziyalılarının

yaranması XIX əsrin birinci yarısına təsadüf edir ki, bu da Məhəmməd Əlinin apardığı islahatlar nəticəsində ölkənin ictimai həyatında baş verən əhəmiyyətli dəyişikliklərlə bağlıdır. Məhəmməd Əlinin təhsil sahəsində apardığı islahatlar ölkənin mədəni inkişafı üçün dünyəvi biliklərə malik ziyalı təbəqəsinin yetişməsi üçün geniş imkanlar açdı. Lakin Məhəmməd Əli Misir ictimaiyyəti tərəfindən müdafiə olunmurdu. O, tamamilə tək fəaliyyət göstərirdi. Məhəmməd Əli ingilis iqtisadçısı Bourinqə demişdir: «çox az adam tapılar ki, məni başa düşsün. Həyatımın çox hissəsini mən tək qalmışam».

Məhəmməd Əli təhsilə və elmə böyük əhəmiyyət verirdi. Məhəmməd Əlinin açdığı məktəblərin əksəriyyətində ordu və donanma üçün mütəxəssislər hazırlanırdı. 1822-1828-ci illərdə Damiettada piyada harbi məktəbi, Qahirədə hərbi məktəb, İskəndəriyyədə hərbi dənizçilik məktəbi açılmışdır. 1831-ci ildə isə artilleriya və kavaleriya məktəbləri istifadəyə verilmişdi. Təhsil pulsuz idi. Dövlət şagirdləri, nəinki təkcə yedirir və geyindirirdi, hətta onlara kiçik həcmdə də olsa təqaüd verirdi. Birinci il təhsil müddətində 5 piastr, ikinci il 20 piastr, lV və V kurslarda isə 40-70 piastr təqaüd verirdi. Müəllimlər isə bir qayda olaraq xaricilərdən, əsasən fransız və italyanlardan ibarət olurdu. Məhəmməd Əli bir sox gəncləri xaricdə təhsil almaq üçün göndərmişdi.

Ölkədə keçirilən inzibati, hərbi, sənaye və s. islahatlar zamanı xaricdən, xüsusilə də Fransa və İtaliyadan mütəxəssislər dəvət edilirdi. Lakin xaricilərin dəvət edilməsi ölkəyə baha başa gəlirdi. Buna görə də təhsillərini başa vurduqdan sonra onlar vətənə qayıdır və müxtəlif dövlət işlərində çalışırdılar. Tezliklə ölkədə Misir tarixində ilk dəfə olaraq dünyəvi məktəblər açıldı. Bu məktəblər bir neçə kateqoriyaya bölünürdü. İbtidai məktəblərdə 8 yaşından 12 yaşınadək olan 6 min şagird ərəb dili və həndəsəni öyrənirdi. Orta məktəblərdə isə 12-16 yaşlı yeniyetmələr təhsil alır və onlar ərəb dili və həndəsədən başqa, türk dilini, riyaziyyatı, tarixi, coğrafiyanı tədris edirdilər. Orta məktəbi bitirdikdən sonra onlar xüsusi məktəblərə daxil ola bilərdilər. Məhəmməd Əli mədəniyyətin bir sıra sahələrində də çox böyük işlər görmüşdür.

Hərbi məktəblərlə yanaşı tibb, təbiətşünaslıq, politexnik, mexanika, kənd təsərrüfatı, dilçilik və musiqi məktəbləri də yaradılmışdı ki, bu məktəblərdə müvafiq ixtisaslar üzrə mütəxəssislər hazırlanırdı. 1830-cu illərin sonu üçün Misirin dünyəvi məktəblərində 9 mindən artıq şagird təhsil alırdı. Onların hamısı dövlət himayəsində idi, mənzil, yemək, geyim və təqaüdlə təmin olunurdu. Dünyəvi məktəblərin açılması Misir tarixində mütərəqqi hal idi. Məhəmməd Əlinin hakimiyyəti illərində ərəb ədəbiyyatının inkişaf etdirilməsinə böyük əhəmiyyət verilirdi.

Məhəmməd Əlinin fəaliyyətində hərbi islahat da çox mühüm yer tuturdu. Aqrar islahatların keçirilməsi zamanı məmlüklərin müqaviməti ilə rastlaşan Məhəmməd Əli hərbi islahatlar planı hazırlayarkən ilk növbədə daxili irticanı zərərsizləşdirmək qərarına gəldi. Məhəmməd Əli ağıllı bir siyasətçi olduğundan başa düşürdü ki, əgər daxili irtica qüvvələrini aradan qaldırmasa, onun da aqibəti nizami ordu yaratmağa səy göstərən türk sultanları III Səlim və Mustafa Paşa Bayraqdarın faciəli talelərı kim olacaqdır. Məhəmməd Əli hakimiyyətə gəldiyi ilk günlərdən nizami ordu yaradılmasına başlamışdı. Onun ilk qoşunları muzdla tutulan alban və türk əsgərlərindən ibarət idi. Onlar sayca çox az olub Avropa qaydasında hər hansı bir təlim keçirilməsi təşəbbüslərinə qarşı müqavimət göstərirdilər. Məhəmməd Əlinin hakimiyyətinə qədər misirliləri orduya qəbul etmirdilər. Orduda türk-məmlük təsiri daha güclü idi. Lakin Ərəbistan yürüşü (1811-1819) və Moreya əməliyyatı (1824-1828) zamanı Misir orldusunun əsasını təşkil edən afrikalı əsgərlərin qırılmasından sonra Məhəmməd Əli yeni orduya ərəb fəllahlarının qəbul edilməsi prinsipini əsas götürdü. Bu fövqəladə bir yenilk idi. Fəllahlar əsrlərdən bəri idi ki, hərbi xidmətə cəlb olunmurdu, buna görə də onlar müqavimət göstərirdilər. Buna baxmayaraq 20-ci illərin ortalarında ilk nizami polklar yaradıldı. Ordunun komanda heyəti türklərdən, albanlardan, çərkəslərdən, kürdlərdən, lazlardan ibarət idi. Onlara Məhəmməd Əli tərəfindən maaşla təmin edilən Napoleon ordusunun sabiq zabitləri təlim keçirdi. 1839-cu ildə ordunun sayı 200 min nəfərə çatmışdı. Bundan başqa, 30-dan çox hərbi gəmidən ibarət olan donanmada 20 min adam qulluq edirdi. Bu ordu Misirə Suriya yürüşündə parlaq qələbələr qazandırdı. Məhəmməd Əli yerli hərbi kadrların hazırlanması üçün bir sıra

tədbirlər gördu. Misirlilərdən ibarət komandan heyəti hazırlayan hərbi məktəblər yaradıldı. Bu zümrədən olan təhsil ocaqlarından Domiettadakı piyada qoşunları, Gizadakı süvari, Turdakı artilleriya məktəblərini göstərmək olar. 1826-cı ildə Baş Qərərgah Akademiyası açıldı, yeni hərbi hissələr üçün Fransa hərbi Nizamnaməsi tərcümə edildi. Keçirilmiş hərbi islahat nəticəsində XIX əsrin 30-cu illərində Misir ordusunun sayı yüksək dərəcədə artmışdı. 1833-cü ildə ordu 36 piyada alayından, ümumi sayı 150 min əsgər olan 14 qvardiya alayından, hər biri 500 nəfərlik olan 15 kavaleriya alayından və 2000 əsgəri olan 5 artilleriya alayından ibarət idi. Əsgərlərin ümumi sayı 180 mini ötmüşdü. Bundan başqa Misir ordusunda 40 min nəfərlik qeyri-nizami hissələr var idi. 1829-cu ildə Navarin döyüşü zamanı demək olar ki, bütün Misir donanmasının məhv edilməsindən sonra İskəndəriyyədə böyük gəmiqayırma tərsanəsinin inşasına başlandı. Artıq 30-cu illərin sonunda gəmiqayırma işində çalışan fəhlələrin 8 mini misirli idi. Gəmiqayırma işi ilə yanaşı donanmada qulluq etmək üçün dənizçilər də hazırlanırdı. Qısa bir müddət ərzində hərbi dəniz donanmasında 15 min təlim keçmiş matros var idi. Bu işdə yeni açılmış hərbi dənizçilik məktəbi mühüm rol oynayırdı.

*Məhəmməd Əlinin xarici siyasəti və onun nəticələri*

Misirdə öz hakimiyyətini möhkəmləndirdikdən sonra Məhəmməd Əli böyük imperiya yaratmaq uğrunda əməli fəaliyyətə başladı. 1811-ci ildən başlayaraq, o, fasiləsiz müharibə apardı. 20 il ərzində msisrlilər bütün Ərəb Şərqi ölkələrini tutdular. XVIII yüzillikdə Ərəbistan yarımadası ölkələrinin bir hissəsi nominal olaraq Osmanlı imperiyasının tərkibinə daxil idi. XVIII yüzillikdə xarici müdaxilə, yəni Fars körfəzi uğrunda Osmanlı imperiyası, İran və Avropa dövlətlərinin apardığı mübarizə və ticarətin inkişafı ara müharibələrinə son qoymaq və Daxili Ərəbistanda bütün tayfa və xırda əmirliklərin birləşməsi zərurətini yaradırdı. Birləşmə hərəkatının başında kiçik Nəcd əmirlərindən biri Məhəmməd ibn Səud (1747-1756) və təbliğatçı Məhəmməd ibn Əbd əl-Vəhhab dururdu. Vəhhabilər ibtidai islama qayıtmağı təbliğ edir, bütün ərəbləri qardaş hesab edir və onları birliyə çağırırdı. 20-30 il ərzində bütün daxili Ərəbistan ibn Səudun vəhhabi sülaləsinə tabe edildi.

1792-ci ildə vəhhabilər Fars körfəzi istiqamətində yürüşə başladılar. Əl-Həsanı, Omanı özlərnə tabe etdilər, 1801-ci ildə İraqda Kərbəlaya, 1803-1806-cı illərdə Məkkə və Mədinəyə yürüşlər etdilər. Beləliklə, XIX əsrin əvvəllərində bütün Ərəbistan yarımadası onlara tabe oldu. Tez-tez İraq və Suriyaya yürüşlər təşkil edən vəhhabi dəstələri 1808-ci ildə Dəməşq-Hələb-Mosul-Bağdad xəttinə çıxaraq, həmin ərazilər üçün ciddi təhlükə törədirdilər. Düzdür vəhhabilər bu şəhərlərdə möhkəmlənə bilmədilər, yalnız vergi toplamaqla kifayətləndilər. Lakin vəhhabilərin qəti yürüşləri İstanbulun ciddi narahatçılığına səbəb oldu. 1811-ci ildə Sultan II Mahmud özünün qüdrətli vassalı Misir paşası Məhəmməd Əliyə vəhhabilərə qarşı cəza ekspedisiyası təşkil etməyi təklif etdi. Məhəmməd Əli bu təklifi həvəslə qəbul etdi. Ərəbistana Suriya və İraqı işğal etmək üçün açar kimi baxan Məhəmməd Əli həmin ərazini zəbt etməklə Yaxın Şərqin bir çox ölkələrini ələ keçirmək imkanı qazanırdı. Misir tacirləri də Ərəbistan yürüşündə maraqlı idilər. 8-10 min nəfərlik ekspedisiyanın başında Məhəmməd Əlinin 16 yaşlı oğlu Tusun bəy dururdu. Onun məsləhətçisi və ekspedisiyanın əsl rəisi Məhəmməd Əlinin ən yaxşı sərkərdələrindən biri «Bonapart» ləqəbini daşıyan Əhməd Ağa idi. Ordunu Qahirəli tacir Məhəmməd əl-Məxruki müşayət edirdi.

1811-ci ilin sentyabrında Misir ekspedisiyası yola düşdü. Piyadalar gəmiyə doldurulmuşdular. Atlılar quru yolla irəliləyirdilər, onların ardınca su və ərzaqla dolu karvanlar gedirdi. 1811-ci ilin oktyabrında misirlilər Ərəbistan yarımadasında Yambo limanını tutdular və buranı özlərinin çıxış bazası edərək, vəhhabilərə qarşı əməliyyata başladılar. Vəhhabilərlə mübarizə misirlilərə son dərəcə baha başa gəldi. Onlar dözülməz istidən, susuzluqdan, aclıqdan və epidemik xəstəliklərdən çox böyük itkiyə məruz qaldılar. Çuma, vəba, malyariya və yatalaq xəstəliklərindən əsgərlərin çoxu məhv oldu. Tropik günəşin kəskin şüalarından yüzlərlə Misir əsgəri görmə qabiliyytəini itirdilər. Yorğun əsgərlər əsrlərlə keçilməsi mümkün hesab edilməyən səhralardan getməli olurdular. Bu da onların çoxunun məhvinə səbəb olurdu. Misir ordusunu əhali də düşməncəsinə qarşılayırdı. Bədəvi tayfaları Misirin ərzaq aparan karvanlarına hücum edir, irəlidə gedən misirlilərlə arxa bazanın əlaqəsini kəsirdilər. Hər bir kəndi döyüşlə almaq və hər bir şəhəri

təslim olana qədər bir neçə ay mühasirədə saxlamaq lazım gəllirdi. Sayca misirlilərdən üsatün olan vəhhabilərdə öz əqidələrinə çox böyük inam var idi ki, bu da çox zaman onların qələbəsini təmin edirdi. Əgər Misir ordusu 8-10 min nəfərdən ibarət idisə, vəhhabi döyüşçülərinin sayı bir neçə 10 minə çatırdı. Lakin misirlilər ən yaxşı silahlara malik idilər və vəhabilərə qarşı müasir artilleriyadan istifadə edirdilər. Orduya Məhəmməd Əli məktəbini keçmiş və hərbi sənəti yaxşı bilən sərkərdələr rəhbərlik edirdi. Bu da ağır və bir neçə il davam edən uzun müharibədən qazanılan müvəffəqiyyətə gətirib çıxarırdı.

1812-ci ilin yanvarında Misir ordusu Yanbodan çıxdı və Mədinə istiqamətində irəlilədi. Safra yaxınlığında dar keçiddə vəhhabilər qəfləti hücumla ordunu darmadağın etdilər. 8 min misirlidən 5 mini məhv edildi, qalanları isə Yanboya qayıtdılar. Vəziyyətin ağırlığını görən misirlilər vəhhabilərin arxasında fəaliyyətə başladılar. Misir agentləri pul və vədlər verərək Hicaz şəhərlərində bir neçə iri bədəvi şeyxlərini öz tərəflərinə çəkə bildilər. Məhəmməd Əli kömək məqsədilə Ərəbistana yeni hərbi qüvvələr göndərdi. Bundan sonra 1812-ci ilin noyabrında misirlilər hücuma keçərək Mədinəni, 1813-cü ilin yanvarında isə Məkkəni, Taif və Ciddəni tutdular. Hicaz da işğal olundu. Lakin Misir ordusunun vəziyyəti heç də yaxşılaşmadı. Ərəbistana yürüşdə 8 minə yaxın misirli əsgər susuzluqdan və xəstəlikdən öldü. Vəhhabilər isə öz əsas qüvvələrini qoruyub saxlaya bildilər. Misirlilərə qarşı partizan müharibəsi taktikasından istifadə edən vəhhabilər Mədinəni mühasirəyə aldılar. Belə çətin anda Məhəmməd Əli şəxsən özü Ərəbistanda Misir ordusuna rəhbərlik etməyi qərara aldı. 1813-cü ilin sentyabrında o, yeni qüvvələrlə Ciddəyə gəldi. O, Hicazda misirlilərin mövqeyini möhkəmlətdi, Məkkə şərifi Qalibi devirdi, onun yerinə öz adamını təyin etdi, kiçik müqavimət ocaqlarını söndürə bildi, bədəvi şeyxlərini pulla ələ aldı.

1814-cü ilin mayında əmir Səud vəfat etdi. Yeni vəhhabi əmiri ölkənin şimalında müqavimətə rəhbərlik edən Abdullah idi. Cənubda vəhhabilər Turab vahəsində cəmləşmişdilər və bununla da Nəcd və Yəməndən gələn yollara nəzarət edirdilər. Məhəmməd Əli özü şəxsən cənubdakı vəhhabi qruplaşmasına qarşı mübarizəyə rəhbərlik edirdi. 20 yanvar 1815-ci ildə Basala yaxınlığındakı

döyüşdə misirlilər vəhhabiləri ciddi məğlubiyyətə uğratdılar. Abdullahın qardaşı Feysəlin başçılığı altında olan 30 minlik cənub ordusu darmadağın edildi. Bu cənubda vəhhabilərin qüdrətinə ciddi zərbə vurdu. Misirlilər əvvəlcə Turabı, sonra isə Bişmi tutdular. Lakin 1815-ci ilin mayında Məhəmməd Əli müvəqqəti olaraq Ərəbistanı tərk etməli oldu. O, Misirə qayıtdığından Yəməni tutmaq fikrindən əl çəkməli oldu. Şimalda vəhhabilərə qarşı mübarizə aparan Misir ordularına Tusun bəy rəhbərlik edirdi. O, Abdullahın Nəcddə, əl-Həsada və Omanda yerləşən iri qüvvələrilə gərgin mübarizə aparırdı. 1815-ci ilin yazında Tusun bəy vəhhabiləri bir sıra məğlubiyyətlərə düçar etdi. Abdullah tezliklə sülh bağlamağa məcbur oldu. Bu müqavilənin şərtlərinə görə Nəcd və Qasım vəhhabilərin əlində qalır, Hicaz isə misirlilərin idarəsi altına keçirdi. Abdullah özünü türk sultanının vassalı hesab etməli, Mədinədəki Misir canişininə tabe olmalı və Həccin təhlükəsizliyini təmin etməli, Məkkədən vəhhabilərin apardığı qiymətli əşyalar qaytarılmalı, yeni dini təlimdən-vəhhabizimdən əl çəkməli idilər. Türk sultanı dəvət etdikdə isə Abdullah üzr istəməli və bağışlanması üçün onun yanına getməli idi. Sülh bağlandıqdan sonra Tusun bəy Hicazın əsas şəhərlərində Misir qarnizonlarını saxladı və özü Misirə qayıtdı. Bununla da, müharibənin birinci mərhələsi başa çatdı. Hicaz və Nəcd Misir tərəfindən təyin edilmiş canişinlər vasitəsilə idarə olunurdu. Vəhhabilər Tusun bəylə bağlanmış sülh müqaviləsini həqarətli hesab edərək, bu müqavilənin şərtlərini, xüsusilə sonuncu bəndini heç cürə qəbul edə bilmirdilər. Sözdə müqaviləni qəbul etsələr də, əslində yeni azadlıq müharibəsinə hazırlaşırdılar. Sülh müqaviləsini sultan və Məhəmməd Əli özü də qəbul etmədi. Onlar belə hesab edirdilər ki, vəhhabi əmiri Abdullah müqavilənin şərtlərinə görə Məkkənin qiymətli qaş-daşını qaytarmaq və İstanbula sultanın yanına getmək şərtlərinə əməl etmədiyinə görə Osmanlı sultanı və Məhəmməd Əli də həmin müqavilənin ləğv olunduğunu hesab etdilər. Bundan sonra, 1816-cı ildə müharibə yenidən başladı. Fransız hərbi təlimatçılarının və minaatan dəstələrinin müşayiəti ilə Misir ordusu Ərəbistana yola düşdü. Ordunun başında Məhəmməd Əlinin böyük oğlu istedadlı sərkərdə, cəsur İbrahim paşa dururdu. O, vəhhabilərin ürəyi sayılan – Daxili Ərəbistana getmək və vəhhabi hərəkatını öz ocağındaca söndürmək qərarına gəlmişdi. İki il ərzində İbrahimin ordusu bir-

birinin ardınca Qasım və Nəcdin mühüm mərkəzlərini mühasirəyə ala bildi. 1817-ci ildə misirlilər Rassa, Bureydi və Aneyzanı tutaraq, 1818-ci ilin əvvəlində Nəcdə daxil oldular, Şakranı aldılar və 6 apreldə 1818-ci ildə Dariyyaya – vəhhabilərin möhkəmləndirilmiş paytaxtına yaxınlaşdılar. 15 sentyabr 1818-ci ildə beş aylıq mühasirədən sonra Dariyya təslim oldu. Vəhhabi əmiri Abdullah da təslim olmağa məcbur oldu. Əvvəlcə onu Qahirəyə, sonra İstanbula göndərdilər. 1818-ci ilin dekabrında Abdullahı edam etdilər. İbrahimin ordusu yürüşü davam etdirərək, Katifi və əl-Hasanı işğal etdi. Əmirin qohumları və əsas vəhhabi rəhbərləri əsir alınaraq, Misirə göndərildilər. 1819-cu ilin dekabrında İbrahim əsas ordusu ilə Qahirəyə qayıtdı. Nəcd və Hicaz şəhərlərində Misir qarnizonları qaldı.

Misir işğalları nəticəsində Ərəbistanın böyük bir hissəsi formal şəkildə Osmanlı imperiyasının tərkibinə daxil oldu, əslində isə bu ərazilər Misirə tabe idi. Hicaz Misir əyalətlərindən birinə çevrildi, 1819-cu ildə Yəmən də Misir işğalına məruz qaldı. Qeyd edək ki, Yəmən ərazisi XVI yüzilliyin əvvəlinədək Osmanlı Türkiyəsinin hakimiyyəti altında olmuşdur. Türklər Yəməndən çıxdıqdan sonra 1633-cü ildə Zeyd imamlarının başçılığı ilə müstəqil dövlət yarandı. Yəmənin cənub rayonlarında xırda, müstəqil feodal knyazlıqları əmələ gəldi. Artıq XIX əsrin əvvəlində imamların real hakimiyyəti yalnız Səna şəhərinin ətrafını əhatə etdiyindən onlar Misir qoşunlarına müqavimət göstərə bilməyib Misir paşalarının vassallığını qəbul etməyə məcbur oldular. Yəmən üzərində Misir hakimiyyəti 1840-cı ilə kimi saxlandı. 1839-cu ildə Böyük Britaniya Ədən şəhərini tutub, onu hərbi bazaya çevirdi. İbrahim Nəcdi yenicə tərk etmişdi ki, 1820-ci ildə öldürülmüş əmirin qohumlarından birinin başçılığı altında vəhhabilərin üsyanı baş verdi. Üsyan yatırıldı. 1821-ci ildə vəhhabilər yenidən üsyana qalxdılar. Üsyana öldürülmüş əmirin əmisi oğlu Turki (1821-1834) başçılıq edirdi. O, misirlilər tərəfindən qoyulmuş hakimi devirdi və vəhhabi dövlətini yenidən bərpa etdi. O, öz paytaxtını Dariyyadan Riyada (təxminən 1822-ci ildə) köçürdü. Vəhhabilərə qarşı göndərilmiş Misir ordusu acından, istidən, epidemiya və partizan hücumlarından qırıldığından Məhəmməd Əli Nəcdin Qasım və Şəmmar rayonlarını tutmaqla kifayətləndi. Nəcdin digər yerlərindən isə Misir qarnizonları

çıxarıldı. Öz əvvəlki mülklərini bərpa edərək vəhhabilər 1827-ci ildə misirliləri Qasım və Şammardan çıxardılar, üç il keçmiş 1830-cu ildə yenidən əl-Hasanı tutdular. 1827-ci ildə Məkkə şərifi misirlilərə qarşı üsyan qaldırdı, lakin müvəffəqiyyətsizliyə uğradı. Nəcdi itirən misirlilər bu üsyanı yatıra bildilər və Hicazda möhkəmləndilər.

Yunan və Suriya məsələləri Məhəmməd Əlinin fikrini müvəqqəti olaraq, Ərəbistandan yayındırdı. Lakin Suriya işğal edildikdən sonra o, Nəcdi yenidən tutmaq qərarına gəldi. Məhəmməd Əli Ərəbistan yarımadasından Suriyanı işğal etmək üçün bir meydan kimi istifadə etməyə çalışırdı. Buna görə də, o, Ərəbistanın işğalını başa çatdırmaq istəyirdi. O, Turkinin yerinə vəhhabi taxt-tacına Maşari ibn Xalidi təyin etdi və o, 1834-cü ildə misirlilərin köməkliyi ilə Riyadı tutdu və əmir Turkini öldürüb onun yerində oturdu. Lakin bu qələbənin nəticəsindən istifadə edə bilmədi. İki aydan sonra Turkinin varisi əmir Feysəl hücumla Riyadı tutdu, Maşaridən intiqamını aldı və özünü vəhhabi dövlətinin başçısı elan etdi. Lakin bu müvəffəqiyyətsizlik Məhəmməd Əlini heç də ruhdan salmadı əksinə o qərara aldı ki, necə olursa-olsun ikinci dəfə Nəcdi tutmalı və Fars körfəzinə çıxmalıdır. 1836-cı ildə Xurşid paşanın başçılığı altında böyük Misir ordusu Nəcdə doğru hərəkət etdi. Uzun və gərgin mübarizə misirlilərin qələbəsi ilə nəticələndi. 1838-ci ildə əmir Feysəl əsir alındı və Qahirəyə göndərildi. Misirlilər Riyadı, əl-Hasanı, Katifi zəbt etdilər və hətta Bəhreyni tutmağa cəhd göstərdilər. Misirlilərin ikinci dəfə Nəcdə soxulması və əl-Hasanın işğal edilməsi onsuz da gərgin olan İngiltərə ilə münasibətləri pisləşdirdi, 1839-cu və 1841-ci illər Şərq böhranı və ciddi beynəlxalq ziddiyyət Məhəmməd Əlini 1840-cı ildə öz ordusunu Ərəbistandan tamamilə çıxarmağa məcbur etdi.

İrəlidə qeyd etdiyimiz kimi, hakimiyyətə gələn Məhəmməd Əli köklü aqrar islahatlarla yanaşı, hərbi, idarəçilik və mədəniyyət sahəsində böyük tədbirlər həyata keçirdi. İmperiya yaratmaq niyyətində olan və artan xərcləri ödəmək üçün yollar arıyan Məhəmməd Əlini yeni bazarlar, qızıl, qul və torpaqlarla zəngin olan Sudan cəlb etdi. Sudanın istilası onun qarşısında çox böyük imkanlar açırdı. Beləliklə, Məhəmməd Əlinin ikinci yürüşü Sudana oldu. 1820-1823-cü illəri əhatə edən bu yürüş Şərqi Sudanın işğalı ilə başa çatmışdı. Artıq XIX əsrin əvvəllərində Şərqi Sudanın müstəqil

tarixi inkişafına son qoyuldu. 1820-ci ilin oktyabrında 50 minlik Misir ordusu Məhəmməd Əlinin oğlanlarından biri İsmayıl paşanın başçılığı altında Sudana yürüşə başladı. Ordunun tərkibinə 600 türk piyadası, bir neçə türk atlı eskadrası, Yuxarı Misirdən 800 bədəvi, bərbərlərdən və Şimali Afrikadan gətirilən afrikalılardan ibarət qarışıq dəstələr iştirak edirdi. Bundan başqa, ordu Amerika zabitlərinin komandanlığı altında artilleriya dəstələri ilə gücləndirildi. Məhəmməd Əli uzaqgörənliklə ordu ilə birlikdə bir neçə müsəlman təbliğatçılarını da göndərmişdi. Heç bir müqavimətə rast gəlmədən Misir ordusu Nil çayının yuxarılarına qədər sürətlə hərəkət etdi. Şimali Nubiya tayfaları və Dənqələ onlara tabe oldular. 1821-ci ilin yazında misirlilər Xartum burnuna Ağ- Nillə Mavi Nilin birləşdiyi yerə gəlib çatdılar və burada düşərgələrini saldılar. Bir qədər keçdikdən sonra misirlilər yürüşlərini davam etdirərək, 12 iyun 1821-ci ildə Sənnarın paytaxtı Funqa daxil oldular. Burada ordu iki hissəyə ayrıldı. Ordunun bir hissəsi İsmayıl paşa başda olmaqla Yuxarı Nilə getdi, Fazoğlunu tutaraq 1822-ci ilin fevralında şimala doğru yürüşlərə başladı. Ordunun digər hissəsi Məhəmməd Əlinin yeznəsi Məhəmməd Dəftərdar bəyin başçılığı altında 1821-ci ilin sonunda Mərkəzi Kordofanı birləşdirdi.

Beləliklə, 1822-ci ilin sonunda Sənnar və Kordofan Məhəmməd Əlinin ordusu tərəfindən tamamilə tutuldu. Oktyabr ayında Misirə qayıdarkən İsmayıl paşa Şəndi şəhərində dayandı. Caalin tayfasının başçısı Nimri çağıraraq İsmayıl paşa ondan iki gün ərzində yüksək təzminat-30 min dollar və 6 min qul tələb etdi. Nimr cavab verdi ki, əhali qısa müddət ərzində belə böyük miqdarda təzminat ödəmək iqtidarında deyildir. Hirslənmiş İsmayıl paşa türk tənbəki çubuğu ilə Nimrinin üzünə vurur. V.B.Lutskiy göstərir ki, «Nimr İsmayılı qonaq çağırdı. İsmayıl paşa öz yüksək rütbəli adamları ilə saman komada qonaqlıqda oturarkən, ev sahibi komanı yandırdı və misirli qonaqlar da koma ilə birlikdə yandılar». Şendidə baş verən hadisə sürətlə bütün Sənnara yayıldı. Ölkənin bütün hissəsini tezliklə üsyan dalğası bürüdü. Misir qarnizonları Nil şəhərləri Mətəmmə, Kerer, Xalfeyi əl-Muluka, əl-Aylafuna və s. yerlərdən çıxarıldı. Sudanın digər şəhərlərini də üsyan bürüdü. İsmayıl paşanın öldürülməsndən xəbər tutan Dəftərdar bəy Kordofanın iri şəhərlərində kiçik dəstələr qoyaraq, Şəndi şəhərinə

yürüşə başladı. Dəftərdar bəy başda olmaqla Misir ordusu Şəndini yandırdı. Dəftərdar bəyin intiqamı çox ağır oldu. Misirlilər İsmayıl paşanın öldürüldüyü rayonda demək olar ki, əhalini bütünlüklə qırdılar, 30 mindən artıq adam məhv edildi. Lakin Nimrin özü qaçıb gizlənə bildi. Bundan sonra misirlilər baş verən kiçik üsyan ocaqlarını da söndürdükdən sonra Şərqi Sudanın işğalını başa çatdırmaq məqsədilə cənub istiqamətində Ağ Nilə qədər hərəkət etdilər və 1828-ci ildə Faşoda qədər gedib çata bldilər. Qərbdə isə misirlilər Dərfurun sərhədlərinə yaxınlaşdılar. Qırmızı dəniz sahillərində Suakin limanı və Massaua onun idarəsi altına keçdi. 1838-ci ildə Məhəmməd Əli özü Sudana gələrək xüsusi ekspedisiya təşkil etdi. Bu ekspedisiya Ağ və Mavi Nilin sahillərinə qızıl axtarmağa getdi. Nəhayət, 1840-cı ildə Misir torpaqlarına Kassala və Təkə əyalətləri də birləşdirildi. 1823-cü ildə Misirin Sudanda tutduqları torpağın mərkəzi Xartum oldu. 3 il ərzində bütün ölkə zəbt edildi. 1823-cü ildə Dərfurdan başqa Sudanın bütün əyalətləri formal şəkildə Osmanlı imperiyasının tərkibinə daxil edildi. Əslində isə Sudan Misirin əyalətinə çevrildi.

Şərqi Sudanın işğalından bir il sonra Məhəmməd Əli yeni bir yürüşə başladı. 1824-1828-ci illərdə Misir ordusu yunan üsyanının (1821-1829) yatırılmasında iştirak etməli oldu. Məhəmməd Əli müstəqil ərəb dövləti yaratmaq və Şərqi Aralıq dənizi üzərində ağalıq uğrunda mübarizəni davam etdirirdi. Hətta Məhəmməd Əli 1821-ci ildə Suriya və Moreyanın idarəsini ona verməyə razı salmaq üçün İstanbula pul və hədiyyələr göndərdi. Balkanlarda milli azadlıq hərəkatının baş verməsi Məhəmməd Əlinin arzularının reallaşmasına imkan yaradırdı. 1815-ci ildə serblərin, 1821-ci ildə Valaxiya kəndlilərinin, yunanların kütləvi üsyanları baş verdi. Balkanlarda baş verən kütləvi milli azadlıq hərəkatlarından öz məqsədi üçün istifadə etməyə çalışan Rusiya, yenə də həmişə olduğu kimi, bu üsyanların gedişinə müdaxilə edir və rəqibi Osmanlı imperiyasına qarşı onlardan istifadə etməyə çalışırdı. Məhəmməd Əlinin oğlu İbrahim paşanın komandası altında 1824-cü ildə Moreyaya böyük bir ordu göndərildi. Bu ordu öz sayı, xüsusi silahı və hərbi təlimi cəhətdən yunanların qüvvələrindən üstün idi.

Lakin nəticə sultanın gözlədiyinin əksinə oldu. Bu dövr Rusiya yunanlara açıq yardım etmək mövqeyindən çıxış etdi. Belə

bir vəziyyətdə, Rusiya ilə Balkanlarda nüfuz uğrunda mübarizə aparan İngiltərə də bu üsyana biganə qalmadığını nümayiş etdirdi. Üsyançıların məğlub olduğunu görən Rusiya tez bir zamanda yunanlara kömək etməyə hazır olduğunu bildirdi. Osmanlı imperiyasını Balkanlarda sıxışdırmaq üçün bu Rusiyanın əlinə düşmüş gözəl imkan idi. 24 aprel 1826-cı ildə Rusiyanın təşəbbüsü ilə Rusiya və İngiltərə arasında Peterburqda saziş imzalandı. İngiltərə hələ 1823-cü ildə Yunanıstanı və Osmanlı dövlətini müharibə edən tərəflər kimi tanımışdı, yəni yunanların üsyanını qanuni hesab etmişdi. Peterburq sazişinə əsasən hər iki dövlət sultandan yunanlara qarşı müharibəni dayandırmağı və Yuanınastana muxtariyyat verilməsini tələb etdilər, əks təqdirdə qüvvə tətbiq ediləcəyini bildirdilər. Lakin II Mahmud bu tələbi rədd etdi.

İbrahim paşa yunanların Attikada axırıncı əsas dayaqları olan Afinanı 1827-ci ilin iyununda tutdu. Lakin yunanlar hələ Egey və Arxipelaqın adalarında öz mübarizələrini davam etdirirdilər. Bununla belə, Rusiya 6 iyul 1827-ci ildə yunan məsələsinə dair Londonda ingilis-fransız-rus razılaşması bağlamağa nail oldu. 20 oktyabr 1827-ci ildə birləşmiş İnğiltərə-Fransa-Rusiya eskadrası Navarin buxtasında Misir-türk donanmasını darmadağın etdi. İbrahim paşanın Misirə qaçmasından sonra Fransa 30 minlik ordusunu Moreyaya çıxardı. 1828-çi ilin sentyabrında isə Misir ordusunun qalıqları Yunanıstandan çıxarıldı.

Onu da qeyd edək ki, Məhəmməd Əli heç də İstanbulun müharibə ilə əlaqdar bütün təkliflərini qəbul etmirdi. Belə ki, 1828-1829-cu illər rus-türk müharibəsi zamanı Osmanlı imperiyası yenidən Rusiyaya qarşı müharibədə ondan istifadə etmək istədi. Məhəmməd Əli həmin əmri həyata keçirməkdən imtina etdi və Suriya yürüşünə hazırlaşdı.

Məhəmməd Əlinin Moreyada məğlubiyyətinə baxmayaraq, o, Suriya və Fələstin uğrunda mübarizədən əl çəkməmişdi. O, bilirdi ki, bu ölkələrə sahib olmasa böyük ərəb dövləti yaratmaq planını həyata keçirə bilməz. Suriya və Fələstin Misiri şərqdən gələn hücumlardan qoruyurdu və türk təhlükəsinə qarşı manea rolunu oynayırdı. Suriyanı birləşdirməklə Məhəmməd Əli özünün şərq sərhədlərini və Misirin İstanbuldan müstəqilliyini təmin edə bilərdi. Nəhayət Suriyanın özü Məhəmməd Əli üçün böyük maraq

doğururdu. Bura Osmanlı imperiyasının ən zəngin əyalətlərindən biri idi. O, ipək-xammal, taxıl, yun, zeytun yağı və qiymətli məhsullar istehsal edirdi. Bura həmçinin artan Misir sənayesi üçün gəlirli bazar olardı. Məhəmməd Əli sültanın zəifliyini bilirdi və ona məlum idi ki, zor gücünə sultana istənilən şərti qəbul etdirə bilər. Buna görə də, o, İstanbulla mübarizəyə hazırlaşdı. Müharibənin başlanması üçün bəhanə 1831-ci ildə əsgər çağırışından yayınan 6 min misirli fəllahın Fələstinə qaçması oldu. Məhəmməd Əli Əkkə paşası Abdullahdan 6 min fəllahın geri qaytarılmasını tələb etdikdə Abdullah «onlar bir dövlətin təbəələridir və buna görə də, Osmanlı imperiyasının hər hansı bir əyalətində yaşaya bilərlər» demişdir. Artıq Məhəmməd Əli açıq şəkildə sultana qarşı çıxdı. Hərbi xərclər və tənzimat İstanbulu vergiləri artırmağa məcbur edirdi ki, bu da xalq kütlələrinin narazılığına səbəb olurdu. Bütün İstanbulda kəndli üsyanları başlamışdı. Buna görə də, təkcə ərəblər deyil, imperiyanın türk əyalətləri də misirliləri türk zülmündən azad edəcək xilaskar kimi qarşılayırdılar.

Türkiyə müharibəyə hazır deyildi və tərəddüd keçirirdi. 6 ay ərzində Porta heç bir qərar qəbul etmədi. Yalnız 1832-ci ilin martında kompaniyaya qarşı hazırlığa başladı. 23 aprel 1832-ci ildə sultan Məhəmməd Əlini qiyamçı elan etməklə bərabər, onu tutduğu vəzifədən kənarlaşdıraraq, ona müharibə elan etdi. Əksinə misirlilər vaxtdan istifadə etdilər. 1831-ci ilin oktyabrında İbrahim paşanın başçılığı altında Misir ordusu yürüşə başladı. İki-üç həftədən sonra onlar ciddi müqavimətə rast gəlmədən Qəza, Yəffa və Xeyfəni tutduqdan sonra 1831-ci il noyabrın sonunda Əkkə qalasına yaxınlaşdılar (vaxtilə bu qalanı Napoleon ala bilməmişdi). Altı aylıq mühasirədən sonra (26 noyabr 1831-ci il – 27 may 1832-ci il) Əkkə alındı. Misirlilərin əsas qüvvələri bu zaman şimalda xeyli irəliləmişdilər. 1832-ci ilin iyununda Həməs yaxınlığında türklərlə ilk böyük döyüş oldu. Doqquz paşanın komandanlıq etdiyi türk ordusu bu döyüşdə məğlub edildi. Həməsdə qələbə qazandıqdan sonra İbrahim Hələbi tutdu, Əntakya və Aleksandretta arasında yerləşən, strateji əhəmiyyətli Beylandağ yürüşünə başladı. Bu isə Kiçik Asiyanı – Osmanlı İmperiyasını tutmaq üçün açar rolunu oynayırdı. Beləliklə, 1831-1833-cü illərdə Fələstin, Suriya,

Kilikiyanı tutdu və Anadoluya daxil oldu. 2 fevral1833-cü ildə misirlilər Kütəhyanı tutdu.

1833-cü ilin fevral-aprelində Bosforun Asiya sahilindəki Unkər İskələsi yaxnlığında 14 min rus əsgəri sultana kömək məqsədilə quruya çıxarıldı. Rusiyanın münaqişəyə fəal müdaxilə etməsi İngiltərə və Fransanı məcbur etdi ki, sultan ilə Məhəmməd Əli arasındakı müharibənin qurtarması üçün tədbirlər görsünlər. Həmin ölkələrin vasitəçiliyi nəticəsində 4 may 1833-cü ildə Kütəhyədə Osmanlı imperiyası ilə Misir arasında sülh bağlandı. Müqaviləyə əsasən Misir, Suriya, Livan, Fələstin və Kilikiya Məhəmməd Əlinin hakimiyyəti altına keçdi. Müstəqilliyə can atan Məhəmməd Əli təxminən Asiyanın bütün ərəb ölkələrini zəbt etsə də, İstanbul üçün təhlükə yaratsa da o, sultanla tamamilə əlaqəni kəsə bilmirdi. Əksinə o, müsəlmanlar üçün xəlifənin vassalı kimi fəaliyyət göstərirdi. Bu isə zəbt olunmuş ərazilərdə Məhəmməd Əlinin fəaliyyətinə əhali qarşısında qanuni don geyindirirdi. Hətta o, Suriyada Misir ordusunun başında duran oğlu İbrahimə məktub göndərərək qeyd etmişdi ki, Suriyanın sultanın nəzarətindən çıxdığını elan etməsin.

İkinci munaqişə 1838-ci ildə baş verdi. 1839-cu ildə isə sultanla onun rəsmi vassalı arasında açıq müharibəyə çevrildi. Bu dəfə münaqişəni İngiltərə saldı. Məhəmməd Əli İngiltərənin Ərəb Şərqində öz mövqeyini genişləndirib möhkəmlətmək səylərinə mane olurdu. Məhəmməd Əli 1838-ci ildə imzalanmış ingilis-türk ticarət müqaviləsinə görə taxıl və yun almaq sahəsində dövlət inhisarının ləğv edilməsi ilə razı olmadı. Türklərin əli ilə Məhəmməd Əlini rədd etməyə çalışan İngiltərə Misir canişininin bu hərəkətindən istifadə edib, onunla sultan arasında münaqişə saldı. Bununla, İngiltərə, eyni zamanda, Misirdə Fransanın da mövqeyini son dərəcə zəiflədə bilərdi. Lakin İngiltərə türk sultanının qüdrətinə əbəs yerə inanırdı. 24 iyun 1839-cu ildə Suriyanın şimalında, Nəzib yaxınlığında sultan ordusu ilə Misir qoşunları arasındakı vuruşmada türklər məğlub edildi.

Yaranmış vəziyyətdə, Sultan hökuməti Məhəmməd Əli ilə barışmağa cəhd göstərdi. Lakin 27 iyul1839-cu ildə İngiltərə, Rusiya, Fransa və Avstriya İstanbula kollektiv nota göndərərək təklif etdilər ki, bu dövlətlər tərəfindən qərar qəbul edilincəyə qədər

Məhəmməd Əli ilə sülh danışıqları aparmasın. Bir tərəfdən, Osmanlı dövləti, o biri tərəfdən də İngiltərə, Rusiya, Avstriya və Prussiya arasında 15 iyul 1840-cı ildə Londonda saziş imzalandı. Məhəmməd Əliyə verilməli olan tələblər də sazişdə ifadə olunmuşdu. Bunlar rədd ediləcəyi halda saziş bağlamış dövlətlər, silahlı qüvvəyə əl atacaqlarını öhdələrinə götürmüşlər. Məhəmməd Əlinin tərəfini saxlayan Fransa sazişi imzalamaqdan imtina etdi. Məhəmməd Əli ona verilən ultimatumu əvvəl rədd etdi. Lakin ingilis donanması Beyrut və Suriyanın başqa limanlarını bombaladı. İskəndəriyyəni bombardman etmək təhlükəsi yarandıqdan və İbrahim paşa Suryada məğlub edildikdən sonra Məhəmməd Əli tabe olmağa məcbur oldu. Yalnız Misirin nəsli hakimi olaraq qalmaqla Məhəmməd Əli sultana bac-xərac verməyi, 200 minlik ordusunu 18 minədək azaltmağı, donanmanı sultana qaytarmağı öhdəsinə götürdü və 1838-ci il ingilis-türk ticarət müqaviləsini qəbul etdi.

*Misir XIX əsrin 60-cı illərində*

Misir faktiki olaraq, 40 il müstəqil dövlətə çevrilmişdi. Misir tam daxili muxtariyyata malik idi və 1841-ci il fərmanında qoyulan məhdudiyyətlərə baxmayaraq, müstəqil xarici siyasət yeridirdi. Misirin öz hökuməti, ordusu, qanunları mövcud idi. Misirin İstanbuldan asılılığlının zəifləməsində 1866-1867-ci illərdə verilən sultan fərmanlarının xüsusi rolu oldu. 27 may 1866-cı ildə fərmanı ilə Misir taxt-tacına varislik qaydası dəyişdirildi. 1841-ci il fərmanına görə taxt-taca varislik sultan sarayında mövcud olan qaydaya əsasən, yəni taxt-tacın Məhəmməd Əli nəslindən olan böyük nümayəndəyə keçməsi qaydasına əsasən həyata keçirildi. 27 may fərmanına görə isə taxtın atadan böyük oğula keçməsi prinsipi tətbiq olunurdu. 8 iyun 1867-ci ildə sultan fərmanla İsmayıla irsi olaraq keçməklə xədiv titulu verdi. Fərmana uyğun olaraq xədiv xarici dövlətlərlə siyasi xarakter daşımayan ticarət və digər sazişlər imzalaya bilərdi.

1866-cı ildə İsmayıl Qərb konstitusiyalı monarxiyalarına oxşar dövlət quruluşu yaratmaq məqsədilə parlament tipli Nümayəndələr palatası yaratdı. O, 3 il müddətinə seçilən 75 deputatdan ibarət idi. Palata məşvərətçi funksiya yerinə yetirirdi və dövlət büdcəsini müzakirə etmək hüququna malik idi.

1873-cü ildə sultan fərmanı ilə Misirin maliyyə işləri üzərində İstanbulun nəzarəti götürüldü. Misiri İstanbulun icazəsi olmadan xarici borc müqavilələri imzalamaq hüququ aldı. Misirin vassal dövlət kimi xarici dövlətlərdə diplomatik missiyalarla təmsil olunmamasına baxmayaraq, o, bu dövlətlərlə rəsmi kanallar-onların Qahirədəki baş konsulları vasitəsilə əlaqə saxlaya bilərdi. Bundan başqa, xədivlər, xüsusilə İsmayıl və digər Avropa paytaxtlarına göndərilən qeyri-rəsmi nümayəndəliklər institutundan tez-tez istifadə edirdi.

Ümumiyyətlə, XIX yüzilliyin 70-ci illərinə doğru Misir üzərində İstanbulun süzerenliyi o dərəcədə zəifləmişdi ki, müasirləri Misirə demək olar ki, müstəqil və ya yarımmüstəqil dövlət kimi baxırdı. Eyni zamanda, türk-Misir münasibətləri xeyli dərəcədə öz kəskinliyini itirdi və onun yerini kapitalist dövlətlərinin başlıca olaraq İngiltərə və Fransa ekspansiyasının güclənməsi ilə meydana gələn ziddiyyətlər tutdu. XIX yüzilliyin 40-70-ci illərində Misirin iqtisadi həyatı üçün ölkənin Avropa kapitalist iqtisadiyyatına qoşulması, sənaye məhsullarının satış bazarına və kapitalist dövlətlərinin, xüsusilə İngiltərənin sənayesi üçün xammal mənbəyinə çevrilməsi meyli xarakterik idi. İngilis və fransız kapitalının güclü axını şəraitində XIX yüzilliyin 50-60-cı illərində Misir güclü yüksəliş dövrü keçirirdi. Bu hər şeydən əvvəl 60-cı illərdə Misir pambığına tələbatın artması ilə əlaqədar idi. Bu dövrdə ABŞ-da vətəndaş müharibəsi nəticəsində Avropa toxuculuq sənayesi güclü xammal çatışmamazlığına məruz qalmışdı. Təkcə İngiltərə toxuculuq sənayesinin pambığa olan tələbatının 80%-ni ABŞ ödəyirdi. Müharibə nəticəsində bu ölkədən pambıq ixracının azalması İngiltərə toxuculuq sənayesi üçün ciddi çətinliklər yaradırdı. Belə bir şəraitdə ingilis burjuaziyası yeni xam pambıq mənbələrinin tapılmasına ciddi maraq göstərirdi. Misirin xammal mənbəyi kimi strateji əhəmiyyəti İngiltərənin bu ölkəyə marağını daha da artırdı. Misirdə pambıq becərilməsinə XIX yüzilliyin 20-ci illərindən başlanmışdı və Misir pambığının yüksək keyfiyyətinə görə ona olan tələbat sürətlə artırdı. Lakin 60-cı illərdə pambıq istehsalı daha sürətli templə artmağa başladı. 1860-1865-ci illər ərzində pambıq istehsalı və ixracı 4 dəfə artdı. Bununla əlaqədar olaraq ölkəyə ingilis kapitalının axını gücləndi. Əkin sahələri 1852-ci ildəki 4,1 mln. fəddandan 1877-ci

ildə 4,7 mln. fəddana çatdı. Köhnə suvarma sistemi yeniləşdirildi və çoxlu miqdarda yeni kanallar qazıldı. ABŞ-da vətəndaş müharibəsinin başa çatması ilə pambıq ixracı bir qədər azaldıldı. 1870-ci ildə isə bir qədər artaraq, 3 mln. kantara çatdı. Pambığın sürətlə inkişafı digər kənd təsərrüfatı malları üçün ayrılan əkin sahələrinin və onların ixracının azalmasına səbəb oldu. Misir monokultur təsərrüfatlı ölkəyə çevrilmək təhlükəsi qarşısında qaldı. Bunun qarşısını almaq üçün İsmayıl ölkədə şəkər qamışının əkinini genişləndirdi. 1872-ci ildə Misirdə 1,5 mln. kantar şəkər istehsal olundu və bunun 0,5 mln. kantarı ixrac edildi.

Pambıq istehsalının artması xarici ticarətdə kəskin yüksəlişə səbəb oldu. Misir ixracatının ümumi dəyəri 1860-cı ildəki 200 mln. piastrdan 1872-ci ildə 1,5 mlrd. piastra çatdı. Təkcə İskəndəriyyə limanına gətirilən malların ümumi dəyəri 1843-cü ildəki 185 mlndan 1863-cü ildə 400 milyon, 1872-ci ildə isə 600 mln piastra çatdı. Beləliklə 1843-1872-ci illərdə Misirin xarici ticarətinin ümumi həcmi 5 dəfə artmışdı.

Bu illər ərzində ticarət gəmiçiliyi xeyli dərəcədə inkişaf etdi. Misirin 55 dəniz və 58 çay gəmisindən ibarət ticarət donanması fəaliyyət göstərirdi. Süveyş, Port-Səid, İskəndəriyyə kimi limanların beynəlxalq əhəmiyyəti xeyli artdı. Dəmir yol çəkilişi ölkədə geniş vüsət aldı. 1860-cı ilədək ölkədə Qahirə ilə İskəndəriyyəni birləşdirən (210 km) yalnız bir dəmir yolu var idi. 1861-1875-ci illərdə 1590 km uzunluğunda dəmir yolu çəkilmişdi. 1863-cü ilədək ölkədə teleqraf xətlərinin uzunluğu 582 km idi. 1872-ci ilədək bu 11 dəfə artaraq 6450 km-ə çatdı. Bu illərdə Misirin sənayesi sürətlə inkişaf etdi. Ölkədə iri toxuculuq fabrikləri, şəkər və silah zavodları, mədənləri fəaliyyət göstərirdi. Bundan başqa, çoxlu sayda şəxsi müəssisələr yaranmışdı ki, onların əksəriyyətini xırda tikiş fabrikləri, misəritmə və təmir emalatxanaları, dəri, yağ, pambıqtəmizləmə, ağac emalı zavodları, buxar dəyirmanları, duz karxanaları təşkil edirdi.

Lakin Misir müəssisələrinin texniki səviyyəsi çox aşağı idi. Onlar Misir bazarlarına azad surətdə daxil olan Avropa sənaye mallarının rəqabətinə davam gətirə bilmirdi. XIX yüzilliyin 50-70-ci illərində sürətli iqtisadi inkişafa baxmayaraq Misir yenə də aqrar ölkə olaraq qalmaqda idi. Onun iqtisadiyyatının əsasını xammal şəklində pambıq ixracatı təşkil edirdi. Əvəzində isə ölkəyə xarici

sənaye mallarının axını güclənirdi. Beləliklə xarici ticarətin inkişafı ilə Misirin Avropa dövlətlərindən iqtisadi asılılığı artırdı.

Səid paşa və İsmayıl paşanın hakimiyyəti illərində ölkədə aparılan quruculuq işləri, dəmir yollarının, yeni su kanallarının, limanların tikilməsi, teleqraf xətlərinin çəkilməsi və s. böyük xərclər tələb edirdi. Bu xərcləri daxili ehtiyatlar hesabına ödəyə bilməyən Misir hakimləri Avropa dövlətlərindən borc almağa başladılar. Məhz bu borclar sonrakı illərdə Misir xalqının başına gətirilən müsibətlərin və nəhayətdə Misirin İngiltərənin müstəmləkəsinə çevrilməsinə əsas səbəb oldu. Süveyş kanalının tikilməsi bu yolda mühüm mərhələ oldu. Onun tikilməsi Yaxın Şərqdə hegemonluq uğrunda İngiltərə və Fransa arasında gedən gərgin mübarizə şəraitində baş verirdi. Kanalın tikilməsi ideyası hələ XIX yüzilliyin əvvəllərində fransızlar tərəfindən irəli sürülmüşdü. Lakin kanalın böyük strateji əhəmiyyətini başa düşən və gələcəkdə onun Misir üçün təhlükə törədəcəyindən ehtiyat edən Məhəmməd Əli onun tikintisinə icazə vermədi. 50-ci illərdə kanalın tikilməsi ideyası yenidən ortaya çıxdı. Onun ən böyük təşəbbüskarlarından biri fransız diplomatı Ferdinand de Lesseps idi. Lakin belə bir əhəmiyyətli obyektin fransızların əlinə keçməsini istəməyən İngiltərə və Abbas paşa kanalın tikilməsinin əleyhinə çıxdı. Abbas paşa 14 iyul 1854-cü ildə öldürüldü və taxta Səid paşa (1854-1863) çıxdı. O, taxta çıxdıqdan dərhal sonra 30 noyabr 1854-cü ildə Lessepsə Süveyş kanalının tikintisinə konsessiya hüququ verdi.

Konsessiya gələcək beynəlxalq Süveyş kanalı kompaniyasına Süveyş bərzəxində Aralıq dənizi ilə Qırmızı dənizi birləşdirən kanalın tikilməsinə hüquq verirdi. Konsessiya kanalın istifadəyə veriləcəyi gündən 99 il müddətinə verilirdi. Bu illər ərzində onun istifadəsindən əldə olunan gəlirin 15%-i Misir hökumətinə verilməli idi. Kompaniya tikinti üçün zəruri olan və dövlətin mülkiyyətində olan bütün əraziləri əvəzsiz alırdı. 5 yanvar 1856-cı ildə Lesseps beynəlxalq kompaniyanın hüquqlarını genişləndirən və dəqiqləşdirən yeni konsessiya aldı. Konsessiya sultan tərəfindən təsdiq edilməli idi. Səid paşa konsessiya ilə yanaşı beynəlxalq Süveyş kanalının konsessiyasının nizamnaməsini də təsdiq etdi. Kompaniyanın kapitalı 200 mln. fr. dəyərində müəyyənləşdirildi. Kompaniyanın hər biri 500 fr. olmaqla 400 min

səhm buraxdı. 10711 səhm Fransada alındı. Səid paşa ümumi dəyəri 32 mln. fr. olan 64 min səhm aldı. Kompaniyanın işinə hər vasitə ilə mane olmağa çalışan İngiltərədə və onun təsirilə digər kapitalist ölkələrində kompaniyanın səhmləri alınmadı. Lesseps satılmayan 112 min səhmi də xəbərdarlıq etmədən Səid paşanın səhm portfelinə əlavə etdi. Beləliklə, Misir hökumətinin payına 176 min səhm, yəni kompaniyanın bütün kapitalının 44%-i düşdü. Bu kapitalı əldə etmək üçün Misir hökuməti xaricdən borc almalı idi. Lakin İstanbulun maliyyə asılılığında olduğuna görə o xarici borc müqavilələrini yalnız sultanın icazəsi ilə imzalaya bilərdi. Bu maneədən yan keçmək üçün Lesseps xədivə Misir xəzinəsinin öhdəlikləri şəklində istiqrazlar buraxmağı təklif etdi. Bu istiqrazlar Paris birjasında reallaşdırıldı. Bu əməliyyat 1859-cu ildə yenidən təkrar edildi və artıq 1860-cı ilin əvvəllərində Fransa bankirləri Misirə 28 mln. fr. məbləğində borc verdi. 1859-cu ilin aprelində kanalın tikintisi başlandı. Lakin 1861-ci ilin payızınadək tikinti işləri simvolik xarakter daşıyırdı.

Tikinti işlərinin başlanması İngiltərə-Fransa ziddiyyətlərini kəskinləşdirdi. İngiltərə hökuməti İstanbul vasitəsilə kanalın tikintisinə mane olmağı qərara aldı. Sultan qəti şəkildə tikinti işlərinin dayandırılmasını tələb etdi. İskəndəriyyə limanı qarşısına ingilis eskadrası gətirildi. Belə çətin vəziyyətdə Lesseps fransız hökumətinə müraciət edərək kömək istədi. Bu vaxtadək bitərəf mövqe tutan Fransa hökuməti 1860-cı ilin sentyabrında İstanbuldan Süveyş kanalı kompaniyasına verilən konsessiyanın təsdiq edilməsini tələb etdi. Tikinti işləri yenidən başlandı. Kanalın tikintisinə mane olmağın mümkün olmadığını görən İngiltərə onun hər iki sahilində, Aralıq dənizi və Qırmızı dənizdə öz hərbi bazalarını genişləndirdi. Eyni zamanda fransız kapitalının Misirə daha sürətlə daxil olmasına mane olmaq üçün özü də Misirə borc verməyə başladı. 1862-ci ildə Flürinq və Qoşen bankir kontoru Misirə 3000000 f.st. məbləğində borc verdi. Bu Misir hökumətinin imzaladığı ilk xarici dövlət borcu idi və Süveyş kanalının tikintisi üzrə öhdəliklərin ödənilməsi üçün nəzərdə tutulmuşdu.

18 yanvar 1863-cü ildə Səid paşa öldü. Taxta xədiv İsmayıl çıxdı. Xədiv İsmayıl kanalın tikilməsinə mane olmadı. Lakin 30 yanvar 1863-cü ildə tikinti işlərində məcburi əməkdən istifadənin

qadağan edilməsi haqqında fərman verdi. Qeyd edək ki, 1856-cı ildə komissiya haqqında ikinci müqavilə imzalanarkən Misir hökuməti kanalın tikintisini işçi qüvvəsi ilə təmin etməyi öz üzərinə götürmüşdü. 30 yanvar fərmanı dərhal Osmanlı hökuməti tərəfindən müdafiə olundu. O bir-birinin ardınca iki nota göndərərək kanalın tikintisində icbari əməyin qadağan olunmasını və kompaniyanın xeyrinə tikinti üçün müsadirə olunmuş torpaqların geri qaytarılmasını tələb etdi. Məsələ beynəlxalq arbitraja verildi. Onun qərarı ilə icbari əmək qadağan edildi. Süveyş kanalı kompaniyasının mülkiyyətində yalnız kanaldan hər tərəfə 200 m enində zolaq qalırdı. Nildən çəkilən kiçik şirin su kanalı Misirin mülkiyyətinə keçdi. Bütün bunların əvəzində Misir hökuməti Süveyş kanalı kompaniyasına 84 mln. fr. ödəməli idi. Konsessiyanın yeni şərtləri 22 fevral 1866-cı il konvensiyası ilə təsdiq edildi.

Nəhayət, 1869-cu ildə kanalın tikintisi başa çatdırıldı. Noyabrın 17-də onun təntənəli açılşı oldu. Onun tikintisi Misirə 400 mln. franka başa gəldi.

*Misir üzərində ikili nəzarət:* Süveyş kanalı ilə yanaşı ölkədə suvarma kanalları, körpülər, dəmir yolları və s. tikilmişdi. 1863-1875-ci illərdə ümumi uzunluğu 13 min km. olan 112 suvarma kanalı, 400 körpü tikilmişdi. Lakin ölkənin iqtisadiyyatını inkişaf etdirmək niyyətindən doğan bütün bu mütərəqqi tədbirlər ölkə üçün ağır nəticələrə gətirib çıxarırdı ki, Misiri həm iqtisadi və həm də siyasi çətinliklərlə üzləşdirməklə yanaşı, maliyyə böhranı yaradırdı və bu da onun iri dövlətlərdən asılı vəziyyətə düşməsi demək idi. Beləliklə, bütün bu xərcləri ödəmək üçün Misir xaricdən borc almaq məcburiyyətində qalırdı. 60-cı illərin əvvəllərindən başlayaraq, müxtəlif illərdə Misir hökuməti Avropa bankları ilə borc müqavilələri imzaladı.

Bu pulların bir hissəsi fabrik, zavod, dəmir yolları, körpülər, limanlar, teleqraf xətləri, kanallar tikilməsinə, həmçinin xədiv İsmaylın dəbdəbəli saray həyatının təmin olunmasına, Sudan və Efiopiya hərbi ekspedisiyalarına, əvvəlki borclar üzrə faizlərin ödənməsinə sərf olunmuşdu. Avropa bankirlərinin yeritdiyi məqsədyönlü siyasət Misirin maliyyə vəziyyətini xeyli ağırlaşdırdı. Vəziyyət o həddə çatdı ki, xədiv borcu ödəyə bilmədiyindən dövlət

dəmir yolları, vergilərdən gələn gəlirlər, hətta xədivin mülkü girov qoyularaq yeni borc götürüldü. Lakin borc öhdəlikləri və faizlər ödənildikdən sonra yerdə qalan vəsait cari tələbatların ödənilməsinə kifayət etmirdi. Vəziyyətdən çıxmaq üçün 1871-ci ildə xədiv İsmayıl «mukabalə» adlı borc hesabı açdı. Mukabalə (əvəz, kompensasiya) haqqında qanuna görə 1873-cü ildən başlayaraq 12 il ərzində dövlətə torpaq vergisinin 6 misli həcmində məbləği ödəyən torpaq sahibləri həmişəlik olaraq bu verginin yarısını ödəmək hüququ alırdı. Bu qanun mülkədar və ortabab kəndlilər tərəfindən razılıqla qarşılandı. 1871-1878-ci illər ərzində bu borc üzrə xəzinəyə 15,7 mln. f.st. daxil oldu. 1874-cü ildə «ruznamə» adlanan ikinci borc istiqrazı buraxıldı.

İldən-ilə borc faizlərinin məbləği artırdı və 1875-ci ildə 8 mln. f.st.-ə çatdı. Bu xərcləri ödəmək üçün xədiv İsmayıl vergiləri artırmaq məcburiyyətində qalırdı və təbii ki, bu ölkə daxilində narazılığa rəvac verirdi. Misirin büdcə gəliri 1861-ci ildəki 2 mln. f.st.-dən 1875-ci ildə 10,5 f.st-ə çatdı. Lakin borc öhdəlikləri və faizlər ödənildikdən sonra yerdə qalan vəsait cari tələbatların ödənilməsinə kifayət etmirdi.

Görülən tədbirlər vəziyyətdən çıxış yolu olmadı. 1875-ci ilin payızında Misir yenidən maliyyə çətinliyi qarşısında qaldı. Xarici borc öhdəlikləri üzrə ödənişlərin növbəti müddəti başa çatmaq üzrə idi. Bu ödənişləri həyata keçirmək üçün Misir yeni xarici borc müqaviləsi imzalamalı idi. Lakin 4 oktyabr 1875-ci ildə Türkiyə hökuməti iflasa uğradığını və xarici borc öhdəlikləri üzrə ödənişləri növbəti ilin yanvarınadək təxirə salındığını elan etdi. Bu xəbər London birjasında güclü qalmaqala səbəb oldu. Türkiyə qiymətli kağızları, onun ardınca isə Misir kağızları sürətlə qiymətdən düşdü. Belə şəraitdə Avropa bankları Misirə yeni borc verməkdən imtina etdi və xədiv vəziyyətdən çıxmaq üçün Süveyş kanalı kompaniyasının səhmlərini satmaq qərarına gəldi. Bundan xəbər tutan Britaniya hökuməti dərhal Misirdəki ingilis konsulu Stentona xədivlə bu barədə danışıqlara başlamağı tapşırdı. Bu Britaniya hökumtinin istədiyi vəziyyət idi. Bundan əlverişli məqam ola bilməzdi.

Əslində borcların nominal məbləği heç vaxt tam surətdə Misir xəzinəsinə daxil olmurdu, onların bir hissəsi «kurs fərqi» və komision xərci şəklində bankirlərin cibinə gedirdi. Misir hökuməti

isə faizləri bu borcların nominal dəyəri üzrə ən yüksək borc faizləri olaraq 15-25% ödəməli idi. Halbuki, bu dövrdə Avropada illik borc faizləri 3-5%-dən artıq olmurdu. 1876-cı ildə Misirin uzunmüddətli borclarının ümumi miqdarı 68 mln. f.st.-ə çatdı. Faktiki olaraq Misir xəzinəsinə 46 mln. f.st. daxil olmuşdu. Bu borclar əsasən ingilis banklarında reallaşdırılmışdı. Bu dövrdə veksel borcları (qısamüddətli, cari borclar) 26 f.st. təşkil edirdi. Bu borclar fransız bankları tərəfindən verilmişdi. lakin buna baxmayaraq artıq 1876-cı ildə Misirin xarici borclarının ümumi məbləği 94 mln. f.st.-ə çatdı.

23 noyabr 1875-ci ildə Misir hökuməti Stentona bildirdi ki, xədiv 4 min f.st.-ə Süveyş kanalı kompaniyasının səhmlərini İngiltərəyə satmağa hazırdır. Britaniya hökuməti dərhal bu təklifi qəbul etdi və noyabrın 25-də bu barədə saziş imzalandı. Səhəri gün isə səhmlər İngiltərə konsulluğuna gətirildi. Beləliklə, uzun müddət Süveyş kanalının tikilməsinə mane olmağa çalışan İngiltərə indi onun mülkiyyətçisinə çevrildi. Fransız kapitalı Süveyş kanalı və Misir uğrunda mübarizədə ciddi məğlubiyyətə uğradı. Fransa hökuməti bu işlərdə neytral mövqe tutduğunu göstərməyə çalışdığı halda, ingilis hökuməti birbaşa işə qarışdı və nəticədə kompaniya səhmlərinin az qala yarısı onun əlinə keçdi. Səhmlər Britaniya hökumətinin baş naziri Dizraelinin təşəbbüsü ilə alınmışdı. Bu onun tərəfindən misli görünməmiş bir akt idi. Britaniya hökuməti xüsusi kommersiya təşkilatının səhmdarına çevrilmişdi. Həmçinin bu əməliyyat parlamentin sanksiyası olmadan və xüsusi bank vasitəsilə həyata keçirilmişdi.

Məhz Dizraeli sözün müasir mənasında Britaniya imperiyasının banisi hesab edilir. İsmayılın maliyyə çətinlikləri və Fransanın Almaniya ilə müharibədə məğlubiyyətindən sonra dəyişmiş beynəlxalq vəziyyət Dizraeliyə Misirdə daha güclü siyasi nüfuz üçün geniş imkan yaratdı. Beləliklə, səhmlərin alınması sırf siyasi akt idi və Osmanlı imperiyasının dağılacağı şəraitdə Misiri ələ keçirməkdə İngiltərəyə üstün və əvəzedilməz hüquq verirdi. Əslində bu akt Misirin İngiltərə tərəfindən işğal olunmasında birinci akt oldu. 1875-ci ilin sonlarında xədivin dəvətilə Britaniya hökuməti Misirin maliyyə işlərini tədqiq etmək üçün Keyvin başçılığı ilə xüsusi missiya göndərdi. Britaniya hökuməti vəziyyətdən istifadə edərək Misirin maliyyə idarəçiliyi üzərində öz nəzarətini yaratmağa can

atırdı. Bu məqsədlə Keyvin komissiyasının hesabatından məharətlə istifadə edildi. Keyvə gizli saxlanmaq şərtilə Misirin idarəçiliyi və maliyyə işlərindəki bütün gizli faktlarla tanış olmağa icazə verilmişdi. 20 mart 1876-cı ildə Dizraeli gözlənilmədən Keyv missiyasının hesabatını nəşr etdirmək niyyətində olduğunu xədivə bildirdi. Onun narazılığına baxmayaraq aprelin 3-də hesabat dərc olundu. Yenidən Misir qiymətli kağızları sürətlə qiymətdən düşdü. Aprelin 7-də xədiv iflasa uğradığını və cari hesablar üzrə ödənişləri 3 ay müddətinə təxirə saldığını elan etdi

2 may 1876-cı ildə xədiv dekretlə Dövlət borcu kassası yaratdı və onun tərkibinə Fransa, Avstriya və İtaliya nümayəndələri daxil edildi. 7 may dekretilə uzunmüddətli və veksel borcları konsalidasiya edildi, yəni qısa müddətli təəhhüd uzun müddətli təəhhüdlə əvəz edildi. Borc üzrə illik ödəniş nominal kapitalın 7%-i həcmində müəyyən edildi. Lakin Britaniya hökuməti konsolidasiya şərtləri ilə razılaşmadığına görə onun nümayəndəsi borc kassasına daxil olmadı. Lakin ingilis bankiri bu barədə danışıqlar üçün Fransaya getdi. Danışıqlarda Frasanı Juber təmsil edirdi. Nəhayət, 1876-cı ilin oktyabrında kompromis variant kimi yeni layihə hazırlandı və bu layihə əsasında noyabrın 18-də xədiv dekret imzaladı. Dekretə əsasən konsolidasiya edilmiş bütün borclar dörd hissəyə ayrılırdı: 1. Qoşenin şəxsən maraqlı olduğu 1864, 1865 və 1867-ci il borcları xüsusi qrupa ayrıldı. Bu borclar üzrə ödəniş 10-12% müəyyənləşdirildi; 2.Xədivin şəxsi borcları veksel borcları ilə bir qrupda birləşdirildi və onun üçün illik ödəniş 5% müəyyən edildi; 3. 5%-li ödəniş ilə 17 mln. f.st. məbləğində müəyyənləşdirilən imtiyazlı borc dəmir yolları və İskəndəriyyə limanının gəlirləri bu borcun təminatına verildi; 4. Yalnız yerdə qalan 69 mln. f.st. ildə 7%-li ödənişlə konsolidasiya edildi. Bu borc 1876-cı ilin mayında yaradılmış borc komissiyasının idarəçiliyinə verildi. Tezliklə, Britaniya komissarı mayor Berinq (lord Kromer) də komissiyanın tərkibinə daxil oldu. Ümumiyyətlə, bütün borclar üzrə Misirin illik ödənişləri 6565000 f.st. müəyyənləşdirildi ki, bu da onun nominal gəlirlərinin 66%-ini təşkil edirdi.

Bundan başqa, Qoşen və Juber xədivdən Misir dövlət gəlirləri üzərində ingilis, xərclər üzərində isə fransız məmurlarının

ali nəzarətçi vəzifəsinə təyin edilməsinə razılıq ala bildilər. Beləliklə, Misir maliyyəsi üzərində ikili (ingilis, fransız) nəzarət qoyuldu.

Yeni rejim 1876-cı ilin sonlarından fəaliyyətə başladı və 1878-ci ilin avqustunda Avropa Nazirliyi yarananadək davam etdi. Faktiki olaraq, bu dövr kreditorların mənafelərinə uyğun fəaliyyət göstərən avropalı məmurların həyata keçirdiyi maliyyə idarəçiliyi dövrü idi. Belə qənaətə gəlmək olar ki, yaranmış vəziyyət Britaniya hökumətinin müvəqqəti olaraq öz siyasi planlarından əl çəkməsi və ingilis bank sahiblərinə Misirdə birgə fəaliyyət göstərmək üçün öz fransız həmkarları ilə sazişə gəlməsinə tam azadlıq vermək qərarının nəticəsi idi.

İkili nəzarət rejiminin əsas məqsədi Misirin dövlət borcu üzrə illik ödənişlərinin vaxtlı-vaxtında həyata keçirilməsi idi. Ticarət və sənayedə durğunluğa, kəndlilərin yoxsul vəziyyətinə baxmayaraq, öz mövcudluğunun ilk dövrlərində rejim bu işin öhdəsindən gələ bildi. Lakin təxminən bir il sonra ölkənin bütün idarəçiliyi çıxılmaz vəziyyətə düşdü. Xəzinə tamamilə boşaldı, ordu və dövlət qulluqçularının bir neçə aylıq əmək haqqı ödənilməmiş qaldı. Əhalinin vəziyyəti son dərəcə ağırlaşdı. 1877-ci ildə dövlətin ümumi gəliri 9543000 f.st. olmuşdu. Bunun 7473000 f.st.-i borc ödənişlərinə sərf olunmuşdu. İstanbula vergi və Süveyş kanalı səhmlərinin faizləri ödənildikdən sonra yerdə qalan məbləğ ölkə idarəçiliyinin tələbatlarını ödəmirdi. Yaranmış vəziyyətdən çıxmaq üçün borc kassasının komissarları mayor Berinq və Blinyer (Fransa) xədivə Misirin maliyyə işlərini öyrənmək üçün beynəlxalq komissiya yaratmağı təklif etdi. 4 aprel 1878-ci ildə xədiv Beynəlxalq anket komissiyasının yaradılması haqqında dekret verdi. Onun tərkibinə Borc kassasının dörd komissarı, əlavə olaraq İngiltərə, Fransa və Misirdən bir nümayəndə daxil oldu. Fransa nümayəndəsi Ferdinand de Lesseps (sədr), İngiltərədən Rivers Vilson, Misirdən isə ingilispərəst Riyaz paşa oldu.

Avqustun əvvəllərində komissiyanın hesabatının hazırlığı başa çatdı. Hesabatdan doğan ilk və başlıca tələb xədiv İsmayılın dövlət işlərinin idarəçiliyindən əl çəkməsi və hakimiyyəti avropalı nazirlərin də iştirak edəcəyi hökumətə verilməsi idi. Avqustun 28-də o, mənşəcə erməni olan Nübar paşanın başçılığı ilə yeni hökumətin yaradılması haqqında reskript verildi. Yerli komprador burjuaziyanın

nümayəndəsi olan Nübar paşa London, Paris bankları ilə yaxın əlaqədə idi və əslində burada onların mənafelərinin qorunmasına xidmət edirdi. Artıq Avropa nümayəndəlri xədivin fikirlərini nəzərə almadan ev sahibi kimi hərəkət edərək vəzifələri bölür və ölkənin bütün idarəçiliyini öz əllərində cəmləşdirirdilər. Rivers Vilson maliyyə naziri, Blinyer ictimai işlər naziri vəzifələrini aldı. İtaliya nümayəndəsi ali nəzarətçi, Avstriya nümayəndəsi isə maliyyə nazirinin müavini vəzifəsini tutdu. Riyaz paşa isə daxili işlər naziri oldu. Faktiki olaraq, Misir bütün müstəqilliyini itirdi və ingilis-fransız bankirlərinin müstəmləkəsinə çevrildi. İslahat planı xədivin ciddi narazılığına səbəb oldu, lakin o, müqavimət göstərmədi.

Daha sonra, maliyyə islahatları hesabatda öz əksini tapmışdı. Xədiv öz şəxsi mülkiyyətində olan torpaqları dövlətə verməli idi. Bunun əvəzində hökumət xədiv və onun saray xərcləri üçün pul ayırmağı öhdəsinə götürürdü. İkinci islahat isə hökumətə yeni yaranmış 7 mln. f.st. məbləğində veksel borcunu ödəmək üçün bu mülkləri girov qoymaqla yeni borc müqaviləsi imzalamağa imkan verməyi, 1875-ci ilədək ödənilməsi nəzərdə tutulan vergi qalıqları və 8 xırda verginin ləğv edilməsi nəzərdə tutulmuşdu.

Beləliklə, avropalılar ölkənin bütün idarəçiliyini öz əllərinə aldılar. Faktiki olaraq, Misir bütün müstəqilliyini itirdi və ingilis-fransız bankirlərinin müstəmləkəsinə çevrildi. Nübar-Vilson kabinetinin yeganə məqsədi borc öhdəlikləri üzrə ödənişləri vaxtında həyata keçirmək idi. Lakin ölkənin iqtisadi resursları həddindən artıq ağır vəziyyətdə idi və kuponların ödənilməsi üçün pullar yalnız fövqəladə tədbirlər hesabına həyata keçirilirdi. Xarici kapitalın təcavüzü, Misirin maliyyə istismarı, «Avropa kabineti»nin yaradılması Misir cəmiyyətinin bütün təbəqələrində narazılığa səbəb oldu. Xüsusilə dördqat artıq vergi ödəməyə məcbur edilən fəllahların vəziyyəti dözülməz idi. Vergiləri ödəmək üçün onlar öz məhsullarını 2-3 dəfə ucuz qiymətə satmalı olurdu. Şəhər əhalisi tacirlər, sənətkarlar da ağır vergilərdən əziyyət çəkirdi. Ordu zabitləri aylarla əmək haqqı ala bilmirdi.

*Ərəbi Paşa üsyanı* 1879-cu ilin fevralında nazirlər kabineti qənaət məqsədilə 2500 zabiti istefaya göndərməyi, ümumiyyətlə zabit heyətinin əmək haqqını iki dəfə azaltmağı və əmək haqqı

borclarını ləğv etməyi qərara aldı. Bu, Misir hərbi dairələrində ciddi narazılığa səbəb oldu. 18 fevral 1879-cu ildə Qahirədə zabitlər tərəfindən təşkil edilmiş hərbi nümayiş oldu. Zabitlərin silahlı nümayişinə Lətif bəy Səlim başçılıq edirdi. Nümayişçilər, içərisində Nubar paşa və Vilson olan karetanı mühasirəyə aldılar. Nümayişçilər baş nazir Nubar paşanı və ingilis nümayəndəsi Vilsonu həbs edərək Avropa hökumətinin devrilməsini tələb etdilər. Əsirlər maliyyə nazirliyinə gətirildi və nəzarət altında saxlandı. Xədiv İsmayıl təcili hadisə yerinə gəldi və zabitlərə dağılışmağı əmr etdi. Zabitlər yalnız öz tələblərinin yerinə yetiriləcəyinə vəd aldıqdan sonra dağılışdı. Qiyamn ertəsi günü İsmayıl elan etdi ki, əgər Nubar paşa istefa verməsə ölkədə sakitliyə və ictimai asayişə cavabdeh olmayacaq. Avropa kabineti bu qərarı qəbul etməli oldu. Nubar paşa vəzifəsindən istefa verdi. Həmçinin zabitlərin istefası və əmək haqqının azaldılması haqqında qərar ləğv edildi. Hökumət başçısı vəzifəsinə 27 yaşlı şahzadə Toufik paşa təyin edildi. Bu güzəştlərə baxmayaraq, Misirdəki İngiltərə baş konsulu Vilson xədivə bildirdi ki, Nubar paşanın istefası sırf şəxsi xarakter daşıyır və idarəçilik sistemində dəyişikliklərə tamamilə aidiyyatı yoxdur. Xədiv İsmayıl yenə də dövlət idarəçiliyndən kənarda qaldı. Milli şüurun formalaşmasında XIX əsr Misir maarifçiləri Rifaa, Rafi, ət-Təhtəvi və Əli paşa Mübarək, həmçinin 1871-1979-cu illərdə Misirdə yaşayan Şərq ölkələrində burjua millətçiliyinin ideoloqlarından biri Cəmaləddin əl-Əfqaninin ideyaları və fəaliyyəti mühüm rol oynadı. Məhz mütərəqqi Misir mətbuatının və mülki əhali arasında ilk müxalifət təşkilatlarının yaradılması əl-Əfqani və onun silahdaşları Məhəmməd Abdo, Abdulla Nədim, Ədib İshaq və başqalarının adı ilə bağlıdır. Qeyd edək ki, Ərəbi paşa üsyanının iştirakçılarından biri olan Məhəmməd Abdo müsəlman islahatçılarının ən görkəmli nümayəndələrindən də biridir. Kəndli ailəsindən çıxan Məhəmməd Abdo əl-Əzharda ali dini təhsil almışdı. 1881-ci il üsyanına görə ölkədən sürgün edilmiş, Beyrutda, Parisdə və Tunisdə yaşamışdır. Yalnız 1899-cu ildə Misirə müfti təyin edilmiş və «Mayak» jurnalı vasitəsilə öz ideyalarını təbliğ etməyə başlamışdır.

Yarımmüstəmləkə rejiminin yaradılmasına Misir xalqının başında Əhməd Ərəbi paşanın durduğu və 1881-ci ilədək artaraq, müstəmləkəçilik əleyhinə güclü hərəkata çevrildi. Hələ 1876-cı

ildə Efiopiya müharibəsi başa çatdıqdan sonra misirli zabitlərin ilk gizli «Hizbul-Vatan»(«Vətən partiyası») yaranmışdı. Milli azadlıq hərəkatında «Heluan» cəmiyyəti də iştirak edirdi. Müxalifətin başında gənc Misir ziyalıları və ordu zabitləri dururdu. Partiyanın sədri isə kəndli ailəsindən çıxmış, lakin özünün şəxsi qabiliyyəti və bacarığı hesabına podpolkovnik rütbəsinədək yüksələ bilmiş Ərəbi paşa dururdu. Vətənçilər «Misir misirlilər üçündür!» şüarını irəli sürürdülər. Təşkilat milli hərəkatın mülki və hərbi qruplarını öz sıralarında birləşdirirdi.

Maraq və məqsədlərinə görə bir-birindən kəskin fərqlənən bu sosial bazalar əsasında milli hərəkatda iki istiqamət formalaşdı. Məhəmməd Şərif paşanın başçılığı ilə liberal cərəyan və Ərəbi paşanın başçılığı ilə radikal cərəyan. Lakin 1880-1881-ci illərdə bu iki cərəyan arasındakı fərq o qədər kəskin şəkildə deyildi. Həm Şərif, həm də Ərəbi paşa özlərini vətənçi adlandırırdılar. Hər iki cərəyan siyasi səhnəyə Avropa kabinetinə müxalif qüvvə kimi çıxmışdılar. Lakin tezliklə bu iki siyasi qüvvə arasında köklü mənafe fərqləri özünü göstərməyə başladı.

Ölkədə ingilis təsiri 1863-cü ildən Misirdə hakimiyyətdə olan xədiv İsmayılın dövründə xüsusilə qüvvətləndi. Xədiv İsmayıl Misirdə möhkəmlənmək istəyən və onun hakimiyyətini məhdudlaşdırmaq mövqeyindən çıxış edən ingilislərin siyasətindən narazı idi. Əslində müxalifətin milli mənafedən və dövlətçilik mövqeyindən çıxışları ölkənin iqtisadi inkişafına önəm verən İsmayıl tərəfindən rəğbətlə qarşılanırdı. Elə buna görə də,7 aprel 1879-cu ildə İsmayıl paşa mötədil islahatlar tərəfdarı əsilzadə Şərifi baş nazir təyin etdi. Şərifin hazırladığı konstitusiya ilk dəfə olaraq hökumətin deputatlar palatası qarşısında məsul olmasını nəzərdə tuturdu. Xədivin bu təyinatı və bununla yanaşı gördüyü bir sıra tədbirlər İsmayılla millətçilər arasında ittifaq yarana biləcəyi ehtimalını artırırdı və bu hal ingilisləri narahat etməyə başladı.

Keçmiş kabinetin istefasından və yeni maliyyə planının elan olunmasından dərhal sonra İngiltərə və Fransa hökumətləri öz narazılıqlarını bildirdilər. Hətta İngiltərə hökuməti avropalı nazirlərin bərpa olunmasını tələb etdi və əgər bundan imtina edilərsə, Misirdə öz maraqlarının müdafiəsi üçün müstəqil surətdə tədbirlər görməklə hədələdi. Lakin İngiltərə belə bir tədbirlərə əl atmadı və əvvəlki

vəziyyəti bərpa etmək üçün diplomatik vasitələrdən istifadə etməyi qərara aldı. Onun təklifi ilə mayın 18-də Almaniya və Avstriya hökumətləri müraciət edərək onun özbaşına hərəkətini tənqid etdi. Misir hökumətinin maliyyə planının qeyri-qanuni olduğunu bildirdi. İyunun əvvəllərində analoji notalarla İngiltərə və Fransa hökumətləri də çıxış etdi. Misir hökuməti güzəştə getmək məcburiyyətində qaldı. İyunun 15-də Şərif paşa bu dövlətlərin hökumətlərinə direktiv göndərərk bildirdi ki, maliyyə dekreti ləğv edilir və borc faizləri məsələsi böyük dövlətlərin sərəncamına verilir. Lakin bu güzəştlərin heç bir faydası olmadı.

19 iyun 1879-cu ildə İngiltərə və Fransa hökumətləri rəsmi ultimatumla İsmayıla müraciət edərək, taxtdan əl çəkməyi tələb etdi. Əgər o, taxtdan könüllü surətdə əl çəkərdisə, dövlət ona təqaüd və taxtın onun böyük oğlu Tofiq paşaya veriləcəyini vəd edirdi. Əks təqdirdə bu barədə sultana müraciət ediləcəyi bildirilirdi. Bunu gözləmədən, İsmayıl paşa özü sultan II Əbdül Həmidə müraciət etdi. Lakin sultan böyük dövlətlərlə münaqişədən ehtiyat edərək iyunun 26-da teleqramla onun taxtdan salındığını və Tofiq paşanın onun varisi təyin olunduğunu bildirdi. İyunun 30-da İsmayıl Misiri tərk edərək İtaliyaya yola düşdü.

Yeni hökumət avropalıların diqtəsi ilə ölkə daxilində vəziyyəti sabitləşdirmək üçün bir sıra tədbirlər həyata keçirdi. Misir ordusunun sayı 18 min nəfərlə məhdudlaşdırıldı. 1879-cu ilin ikinci yarısında Misirə 208 avropalı dəvət olunmuş və dövlət vəzifələrində irəli çəkilmişdilər. Yeni xədiv konstitusiya layihəsindən imtina etdi və Misir inqilabçılarına qarşı cəza tədbirləri həyata keçirməyə başladı. Xədivdə böyük narahatçılıq Camal əd-Din əl-Əfqaninin fəaliyyəti yaradırdı, belə ki, ona hökumət tərfindən dəfələrlə xəbərdarlıq edilməsinə baxmayraq, mitinqlər keçirməkdə və xalqı üsyana dəvət etməkdən çəkinmirdi.

İsmayılın taxtdan salınması Şərif paşa hökumətinin də taleyini həll etdi. Avqustun 18-də Şərif paşa yeni konstitusiya layihəsini təsdiq edilmək üçün Tofiq paşaya təqdim etdi. Lakin xədiv onu imzalmaqdan imtina etdi və Şərif paşa istefa verdi. 4 sentyabr 1879-cu ildə Tofiq dekretlə ikili maliyyə nəzarətini bərpa etdi. İngilispərəst Riyaz paşanın başçılığı ilə yeni hökumət yaradıldı. İngiltərə və Fransa hökumətlərinin təzyiqi ilə İstanbul Misir

hökumətinin hüquqlarını məhdudlaşdırdı. 1873-cü il fərmanı ləğv edildi, Misir ordusunun sayı 18 minə endirildi və sultanın icazəsi olmadan xarici borc müqaviləsi imzalamaq hüququ ləğv edildi. Bundan sonra Avropa nazirləri təyin edilməli, çünki belə tədbirlər xalq içərisində son dərəcə nifrətlə qarşılandı.

Dövlət aparatının avropalaşdırılması və xarici məmurlara üstünlük verilməsi misirli məmurların narazılığını artırırdı. İkili nəzarət rejiminin yeritdiyi siyasət cəmiyyətin yuxarı təbəqələrinin xarici kapitalın ölkə iqtisadiyyatına soxulması ilə maraqlarına zərər yetirilən burjualaşmış mülkədarlar və ticarət burjuaziyasının milli hərəkat cəbhəsinə yuvarlanmasına şərait yaratdı. Ordunun sayının azaldılması və ordu daxilində ərəblərə qarşı ayrı-seçkilik zabit heyətinin də ciddi narazılığına səbəb oldu.

20 may 1880-ci ildə vətənçi zabitlər hərbi nazir olan Rifqiyə əmək haqqının ödənilməsi və əsgərlərin xədivin mülkində məcburi işlərə göndərilməsi əleyhinə petisiya təqdim etdi. Lakin o cavabsız qaldı. Bununla yanaşı Osmanın bir sıra türk-çərkəz zabitlərinin hərbi rütbələrini artırması, əksinə fəllahlardan olan hərbçilərin aşağı rütbədə qalması ehtirasları coşdurdu.

İngilislərin Misirdə möhkəmlənmək istiqamətində gördükləri tədbirlər orduda narazılığın artmasını əsaslandırdı.17 yanvar 1881-ci ildə 4-cü piyada polkunun komandiri Ərəbi paşa daha iki vətənçi zabitlə baş nazir Riyaz paşanın yanına gələrək, ondan rütbələrin verilməsi məsələsinə yenidən baxılması və Osman Rifqinin istefasını tələb etdi. Buna cavab olaraq, fevralın 1-də Ərəbi və digər zabitlər həbs edildi. Lakin Qahirə qarnizonunun əsgərləri hərbi nazirliyin binasını mühasirəyə alaraq onları azad etdi. Xədiv Osman Rifqini vəzifəsindən azad etməli oldu. Hərbi nazir vəzifəsinə vətənçi və konstitusiya tərəfdarı şair Mahmud Sami əl-Bərudi təyin edildi. 1881-ci ilin aprelinədək ordunun digər tələbləri də yerinə yetirildi.

Bu zamandan etibarən ,ordu ölkənin siyasi həyatında mühüm amilə çevrildi. Avqustda Mahmud Sami vəzifəsindən çıxarıldı. Onun yerinə çərkəz Davud Yeqin təyin edildi və vətənçilərə qarşı təqiblər başlandı. Ordunun ölkədə nüfuzunun artmasından narahat olan xədiv sentyabrın 8-də onun sayının azaldılması və Qahirə qarnizonunun şəhərdən çıxarılması haqqında əmr verdi.

Buna cavab olaraq, ertəsi gün bu qarnizonun 4 min əsgəri Abdin sarayı qarşısında toplandı. Ordu adından Ərəbi paşa xədivə aşağıdakı tələbləri təqdim etdi.

1. Riyaz paşa kabinetini istefaya göndərmək;
2. Konstitusiya qəbul etmək;
3. Ordunun sayını artırmaq.

Xədiv bu tələbləri qəbul etməli oldu. Riyaz paşa istefa verdi. Məhəmməd Şərifin başçılığı ilə yeni hökumət yaradıldı. Mahmud Sami yenidən hərbi nazir təyin edildi.

Sentyabr hadisələri dərhal Avropa dövlətlərinin, xüsusilə İngiltərə və Fransanın ciddi narahatlığına səbəb oldu. Misirə birbaşa müdaxilə məsələsi haqqında hər iki dövlət arasında danışıqlar başlandı. Qeyd edək ki, Tunisin Fransa tərəfindən işğalından sonra İngiltərənin Misirə olan iddiaları daha aydın xarakter almışdı. 1881-ci ilin iyununda İngiltərə xarici işlər nazirinin müavinləri lord Tenterdin və Demkin başçılığı ilə Misir işləri üzrə komissiya yaradıldı. Müdaxilə məsələsində iki dövlət arasında ziddiyyət meydana çıxdı. Britaniya hökuməti Fransanın bilavasitə işə qarışmasının qarşısını almaq üçün birgə hərbi müdaxiləyə razılıq vermirdi və bu məqsədlə türk ordusundan istifadə etməyi təklif edirdi. Ehtiyat variantı kimi öz təbəələrinin müdafiəsi bəhanəsi ilə Misirə hərbi gəmilərin göndərilməsi təklif olunurdu.

Fransa hökuməti isə bütün hallarda iki hökumətin birgə fəaliyyət göstərməsini və Misir üzərində birgə İngilis-fransız hərbi nəzarətinin qoyulmasını tələb edirdi. Freysin kabineti Londonla danışıqlar apararaq, guya Ərəbi paşa tərəfindən Süveyş kanalı üçün təhlükə yarandığından onun müdafiəsi üçün birgə tədbirlər görülməsini təklif etdi. O, Misirə türk ordusunun göndərilməsinin qəti əleyhinə idi və hesab edirdi ki, bu addım ölkə üzərində sultan hakimiyyətini möhkəmləndirər.

Beləliklə, Britaniya hökuməti öz planından əl çəkməli oldu. Lakin sentyabrın 19-da ser Oklend Kalvinin göndərdiyi memorandumdan sonra vəziyyət Britaniya hökuməti üçün bir qədər yüngülləşdi. Memorandumda Oklend Kelvin güc tətbiq edilməsini bir qədər ləngitməyi və yeni yaranmış hökumətdən orduya təzyiq vasitəsi kimi istifadə etməyi təklif edirdi. Doğrudan da, hakimiyyətə gəldikdən sonra Şərif paşanın orduya qarşı mövqeyi dərhal dəyişdi.

Onun 1879-cu il konstitusiyası əsasında yeni parlament seçkiləri keçirmək tələbi rədd edildi. Oktyabrın əvvəllərində isə Şərif paşanın təkidi ilə Ərəbi paşa inqilabçı polkları şəhərdən çıxardı. Lakin Ərəbi paşa tezliklə ser Oklend Kelvi və Şərif paşa ilə danışıqlar aparmaq üçün yenidən Misirə qayıtdı.

Şərif paşa ilə danışıqlar zamanı Ərəbi paşa ilə onun arasında ziddiyyətlər meydana çıxdı. İlk belə ziddiyyət yuxarıda qeyd etdiyimiz seçki qanunu məsələsi ilə bağlı ortaya çıxdı. Bu ziddiyyətlər ordunun sayı və yeni konstitusiya layihələrinin müzakirələrində də özünü göstərdi. Britaniya konsulu Eduard Malet bildirdi ki, Misir büdcəsi yalnız 15 min nəfərlik ordu saxlamağa imkan verir. Beləliklə, kralın sentyabrın 9-da ordunun sayının 18 minə çatdırılacağı haqqında vədi pozuldu. Vətənçilər bu şərtlə razılaşmalı oldu. Şərif paşanın hazırladığı parlamentin səlahiyyətləri haqqında əsas qanuna görə İstanbula vergi və dövlət borcu haqqında qanun və digər beynəlxalq müqavilələrlə əlaqədə olan dövlət xərcləri məsələlərinin müzakirələri parlamentin səlahiyyətinə aid edilmirdi. Bu məsələ nəzarətçilər və nazirlərin səlahiyyətinə daxil edilirdi. Parlament yalnız yeni qanunvericilik və vergilərin təyin edilməsində həlledici səsə malik idi.

Nümayəndələr palatasının yeni tərkibdə ilk iclası 26 dekabr 1881-ci ildə keçirildi. Onun sədri «Vətən» partiyasının liderlərindən biri Məhəmməd Sultan paşa seçildi. Palata büdcə məsələsini müzakirə etmək hüququnu özündə saxlayacağını bildirdi və Şərif paşanın layihəsini rədd etdi. Yanvarın 8-də İngiltərə və Fransa baş konsulları bununla əlaqədar olaraq, xədivə öz hökumətlərinin birgə notasını təqdim etdi. Notada deyilirdi ki, İngiltərə və Fransa hökumətləri Misirdə xədiv hakimiyyətinin sultan fərmanları ilə müəyyən edilmiş və hər iki dövlətin rəsmi qəbul etdiyi şərtlər əsasında saxlanmasını zəruri hesab edir. Hər iki dövlət Misirdə mövcud qayda-qanunu daxili və xarici təzyiqlərdən qoruyacağını bildirirdi.

Bu nota Misirdə ümumi narazılığa səbəb olmaqla yanaşı və palata ilə vətənçilərin yaxınlaşmasına da əsas verdi. Xarici kapital qarşısında güzəştə getmək siyasəti yeridən Şərif hökumətinin mövqeyi sarsıldı. 7 fevral 1882-ci ildə xədiv Tovfiqin verdiyi fərman

nəticəsində «Vətən» partiyasının mövqeyi möhkəmləndi. Bu fərmanı bəzən «1882-ci il konstitusiyası» da adlandırırdılar.

15 yanvar 1882-ci ildə parlament büdcənin dövlət borcunun ödənilməsi üçün nəzərdə tutulmayan hissəsi üzərində nəzarət hüququnu təmin edən yeni layihənin hazırlığına başladı. Yanvarın 17-də və 27-də İngiltərə və Fransa hökumətləri nota ilə bildirdi ki, onlar parlamentin büdcə məsələsini müzakirə etmək hüququnu qəbul etmirlər. Britaniya hökuməti bunu Misirin öz maliyyə öhdəliklərindən imtina etməsi kimi qiymətləndirirdi. Şərif paşa notanı qəbul etdi və notaya İngiltərə və Fransa hökumətləri ilə büdcə məsələsi ətrafında danışıqlara başlamaq təklifini də irəli sürdü. Palata isə bildirdi ki, onun büdcəni müzakirə etmək hüququ xarici dövlətlərlə danışıqların mövzusu ola bilməz. Palata dərhal xədivdən Şərifi istefaya göndərməyi tələb etdi. Beləliklə, də Şərif yanvar ayında istefaya çıxmağa məcbur oldu. 5 fevral 1882-ci ildə Mahmud Saminin başçılığı ilə yeni hökumət yaradıldı. Bundan sonra, hakimiyyətə Ərəbi paşanın rəhbərlik etdiyi «Vətən» partiyası gəldi və o, hərbi nazir vəzifəsini aldı.

2-5 fevral 1882-ci il hadisələri inqilabın yeni mərhələsinin başlanğıcını qoydu. Avropalılar bunu ölkədə hərbi diktaturanın yaranması kimi qiymətləndirirdi. Şərif paşanın başçılığı ilə Vətən partiyasının bir qrup rəhbəri inqilabdan uzaqlaşdı. Konstitusiyanın qəbul edilməsi və yeni kabinetin yaradılması ikili nəzarətin siyasi əsaslarını sarsıtdı. Rəsmi şəkildə o ləğv edilməsə də baş nəzarətçilər və konsullar Misir hökumətinə təsir göstərə bilmirdilər.

Belə bir şəraitdə, Misir problemi ciddi beynəlxalq problemə çevrilməyə başladı. 8 yanvar notası İstanbulun narazılığına səbəb olmuşdu. Osmanlı hökuməti 1882-ci il yanvarın 14 və 17-də İngiltərə və Fransa hökumətlərinə göndərdiyi bəyanatda bu notanın onun Misir üzərində süzerenlik hüquqlarının pozulması kimi qiymətləndirdi və onlardan izahat tələb etdi. Lakin belə bir izahat göndərilmədi və İstanbul kömək üçün Almaniya, İtaliya, Avstriya-Macarıstan və Rusiya hökumətlərinə müraciət etdi. Bu məsələni müzakirə etmək üçün fevralın 2-də keçirilən 4 dövlətin müşavirəsində Rusiyanın təklifi ilə İstanbul xarici işlər nazirinə bəyanatla bildirilmişdi ki, bu dövlətlər Misirdə 1840-1841-ci illər sazişləri və sultan fərmanlarına əsaslanan status kvonun saxlanmasına tərəfdardır

və bu vəziyyət yalnız Osmanlı hökuməti ilə imzalanan beynəlxalq sazişlərə əsasən dəyişdirilə bilər. Buna cavab olaraq, İngiltərə və Fransa hökumətləri fevralın 11-də böyük dövlətlərə birgə nota göndərərk Misir probleminin beynəlxalq siyasətin obyekti olduğunu qəbul etdiklərini bildirdilər və onun həllində xədiv və sultanın imtiyazlarının toxunulmazlığı prinsipinə və beynəlxalq müqavilə və öhdəliklərə əsaslanacaqlarını bildirdilər. Lakin Britaniya hökuməti yenə də hərbi müdaxilə üçün bəhanə axtarmaqda davam edirdi. Tezliklə, belə bir bəhanə yarandı.

11 aprel 1882-ci ildə ingilis lord Qrenvilin başçılığı altında Ərəbi paşaya qarşı sui-qəsd hazırlandı. Plana görə Ərəbi paşa öldürülməli, onun tərəfdarlarından bir neçəsi həbs olunmalı və mütləq rejim bərpa edilməli idi. 50-yə yaxın terrorçu hərbi tribunalda mühakimə edildi. Onların arasında keçmiş hərbi nazir Osman Rifqi də var idi. 30 apreldə məhkəmə qəsdçilərin ömürlük Sudana sürgün edilməsi haqqında qərar çıxardı. Lakin xədiv tribunalın qanuni keçirilmədiyi iddiası ilə çıxış edərək qərarı təsdiq etməkdən imtina etdi. Bu hökumətin və ordunun narazılığına səbəb oldu. Mayın 10-da hökumət xədivlə bütün münasibətləri kəsdiyini elan etdi.

Xədivlə hökumət arasında yaranmış konflikt şəraitində ingilis-fransız hərbi müdaxiləsi məsələsi daha sürətlə gündmə gəldi və məlum oldu ki, müttəfiqlər mayın 15-də Misirə donanmanı göndərmək niyyətindədirlər. Hökumət bunun qarşısını almaq üçün güzəştə getməli oldu və xədivin hakimiyyətinə tabe olacağını bildirdi. Lakin ingilis və fransız konsulları Milet və Senkeviç xədivə donanmanın gəlməsindən istifadə edərək milli hökuməti devirməyi təklif etdi. Lakin hökumətin güzəştə getməinə baxmayaraq mayın 20-də ingilis və fansız hərbi gəmiləri İskəndəriyyə sahillərinə yan aldı. Hər iki konsul xədiv və eyni məzmunlu ultimatum göndərərək, Ərəbi, Əli Fəhmi və Əbdül Əlini ölkədən sürgün etməyi, Mahmud Sami hökumətini devirməyi tələb etdi. Xədiv ultimatumu qəbul etdi və hökumətin devrildiyini elan etdi.

Mayın 26-da hökumət istefa verdi. Bundan xəbər tutan İskəndəriyyə qarnizonunun zabitləri hiddətlənərək xədivə bəyan etdilər ki, onlar hökumətin istefasını qəbul etmir və təcili onun bərpa olunmasını tələb edir. Mayın 27-də keçirilən nümayəndələr palatasının iclasında Ərəbi paşa xədivin devrilməsini tələb etdi.

Bütün ölkəni yığıncaq və nümayişlər bürüdü, yaranmış qoruxulu məqamdan əndişələnən xədiv güzəştə getməli oldu. Mayın 28-də Ərəbi paşa öz vəzifəsinə qaytarıldı və bütün real hakimiyyət onun əlində cəmləndi.

İngiltərə və Fransa arasında isə müdaxilə məsələsi ətrafında danışıqlar davam edirdi. Xədivə kömək üçün sultana müraciət etmək məsləhət görüldü. Beləliklə, iyunun 7-də Dərviş paşa və Şeyx Səidin başçılığı ilə türk missiyası Misirə gəldi.

Lakin onun xədivlə vətənçilər arasında ziddiyyəti aradan aldırmaq cəhdi baş tutmadı. Bu əsnada- iyunun 11-də İskəndəriyyədə avropalılarla misirlilər arsında toqquşma baş verdi. Toqquşma xədiv və şəhər qubernatoru Lütfi paşa tərəfindən hazırlanmışdı. Bir neçə saat ərzində davam edən toqquşma nəticəsində 50-yə yaxın avropalı və 40 misirli öldürüldü. Ərəbi paşa tezliklə toqquşmanın qarşısını ala bildi. Toqquşmadan qorxuya düşən Fransa, Almaniya və Avstriya konsulları xədivdən ictimai təhlükəsizliyi qorumaq üçün bütün hakimiyyəti Ərəbi paşaya verməyi tələb etdi.

İskəndəriyyədə sakitlik bərpa olunduqdan dərhal sonra xarici konsullar və Dərviş paşa xədivlə vətənçilər arasında danışıqlarda vasitəçilik etmək missiyasını öz üzərlərinə götürdülr. Bunun nəticəsində iyulun 17-də xədiv tərəfdarlarından olan Rəqib paşanın başçılığı ilə yeni hökumət yaradıldı. Ərəbi paşa yenidən hərbi nazir oldu. Lakin Xədiv, Nübar və digərləri İskəndəriyyədə Avropa hərbi gəmilərinin müdafiəsinə sığındılar. Fransa hökumətləri onu tanımaqdan imtina etdi və öz qoşunlarını geri çağırdı. Hərbi mudaxilə məsələsi daha kəskin şəkildə gündəmə gəldi. Fransa hökməti bu məsələni həll etmək üçün beynəlxalq konfrans çağırmağı təklif etdi. 23 iyun 1882-ci ildə İstanbulda açılan konfransda İngiltərə, Fransa, Almaniya, İtaliya, Avstriya-Macarıstan və Rusiyanın nümayəndələri iştirak edirdilər. Sultan iri dövlətlərin konfransı çağırmaqda əsl məqsəd və mahiyyətini başa düşür və bunun Osmanlı dövlətinin qorunması qayğısından irəli gəlmədiyini, bunun Misir kimi strateji əhəmiyyətli ərazini öz təsir dairələrində saxlamaq niyyətindən bəhrələndiyini çox gözəl başa düşürdü və bunu dövlətin daxili işinə qarışmaq kimi qiymətləndirirdi. Elə bu səbəbdəndir ki, sultan hökuməti isə Misirdə vəziyyətin sabitləşdiyini və konfransa ehtiyac olmadığını bildirərək, iştirak etməkdən imtina etdi.

Konfransın ikinci sessiyasında Fransa nümayəndəsinin təklifi ilə məhdudlaşdırıcı protokol qəbul edildi. Protokolda deyilirdi ki, dövlətlər ümumi sazişlərdə nəzərdə tutulan tədbirləri həyata keçirməyi və heç bir ərazi, müstəsna hüquqlara malik konsessiya və öz təbəələri üçün kommersiya üstünlükləri iddiasında olmayacaqlarını öz öhdələrinə götürməlidirlər. İyunun 27-də İtaliya nümayəndəsinin təklifi ilə belə bir qərar qəbul edildi ki, konfransın işinin gedişində dövlətlər Misirə münasibətdə müstəqil olaraq heç bir qərar çıxarmayacaq və bu yönümdə hər hansı hərəkətə yol verməyəcəklər. Əslində bu qərar başlıca olaraq İngiltərəyə qarşı yönəlmişdi. Lakin İngiltərə nümayəndəsi lord Daferinin təkidi ilə qərarın mətninə «fövqəladə zəruriyyət yaranmazsa» ifadəsi daxil edildi. Beləliklə də bu ifadə ilə qərar öz əhəmiyyətini itirmiş oldu. Məlumdur ki, ingilis hökuməti istənilən an bu cür «fövqəladə zəruriyyət» yaratmaq imkanına və bacarığına malik idi. İyulun 6-da konfrans iştirakçıları sultana Misirdə status kvonu bərpa etmək üçün ordu göndərməyi təklif etdi. Lakin İngiltərə hökuməti türk ordusunun Misirə girməsinə yol verməmək üçün hərbi müdaxiləni ləngitməyi qərara aldı. Bunun üçün bəhanə Misir hökumətinin İskəndəriyyə sahil limanlarında bərpa işlərinə başlaması oldu. İyunun 6-da İskəndəriyyədən ingilis donanmasının komandanı admiral Seymur şəhərin hərbi qubernatoruna ultimatum göndərərk hərbi hazırlıq işlərini dayandırmağı tələb etdi.

İyulun 10-da isə ikinci ultimatum göndərildi və burada 24 saat ərzində bütün sahil istehkamlarının təhvil verilməsi tələb edilirdi. Misir hökuməti buna qəti etirazını bildirdi. İngilis admiralı Seymur iyulun 11-də səhər İskəndəriyyəni bombardman etmək əmri verdi. Ertəsi gün ingilis gəmiləri şəhəri top atəşinə tutdu. İskəndəriyyə limanındakı fransız donanması bu əməliyyatda iştirak etməkdən imtina etdi və limanı tərk etdi. Misir qarnizonları da şəhəri tərk etdi. İyulun 15-də İskəndəriyyə ingilislərin əlinə keçdi. İskəndəriyyədə Britaniya silahının atəş səsləri eşidiləndə və real təhlükə yarandıqda Fransa ingilislərin Misirə qarşı müharibəsinə qoşuldu. Beləliklə İngiltərə hökuməti beynəlxalq hüquq normalarını kobudcasına pozaraq İstanbul konfransının qərarlarına və İstanbulun süzerenlik hüquqlarına məhəl qoymadan Misirin işğalına başladı. İskəndəriyyənin bombardman edilməsi 1882-ci il İngiltərə – Misir

müharibəsinin başlanğıcını qoydu. İyulun 27-də parlament Misir ekspedisiyasının təşkil edilməsi üçün pul ayırdı. Malta, Hindistan və sairə yerlərdən Misirə ordu hissələri gətirildi. Xədiv ingilislərin tərəfinə keçdi və İskəndəriyyəyə qaçdı. Qahirədə isə yeni inqilabi hakimiyyət orqanları yaradıldı. Parlament nümayəndələri, əyalət qubernatorları, müxtəlif dini icmaların nümayəndələrinin iştirakı ilə ölkəni idarə etmək üçün Milli Şura yaratdı. Hərbi işlərə rəhbərlik Ərəbi paşanın rəhbərliyi ilə Hərbi Şuraya tapşırılıdı. Milli Şura xədivi satqın elan etdi və taxtdan salınması haqqında qərar qəbul etdi. Ərəbi paşa dərhal ölkənin müdafiəsini təşkil etməyə başladı. Yeni silahlar alındı, ordunun sayı 100 minə çatdırılıdı.

İstanbul konfransı öz işini davam etdirirdi. İngiltərə hökuməti İskəndəriyyənin bombardman edilməsini, ingilis donanmasının «özünümüdafiə aktı kimi» qələmə verməyə çalışırdı. Avropa dövlətləri bu akta təbii ki, öz mənafeləri nöqteyi-nəzərindən yanşır və müxtəlif münasibət bəsləyirdilır. Rusiya hökuməti etiraz əlaməti olaraq öz nümayəndəsini konfransdan geri çağırdı. Almaniya və Avstriya-Macarıstan hökumətləri isə İngiltərəni müdafiə edərək onun hərəkətlərinə qanuni don geyindirdilər. Lakin Bismark İngiltərənin Avropa dövlətləri adından fəaliyyət göstərməsinin qəti əleyhinə çıxdı. İtaliya hökuməti isə sadəcə olaraq heç bir münasibət bildirmədi. Fransa hakim dairələrində İngiltərənin yeritdiyi siyasətə qarşı ikili fikir meydana gəldi ki, bir qrup İngiltərə ilə əlaqələri kəsməyi və Misir uğrunda mübarizəni davam etlirməyi, digər qrup isə düşmən Almaniyanın yaranmış əlverişli məqamdan istifadə etməməsi üçün İngiltərə ilə münasibətləri pozmamağı məsləhət görürdülər. İkinci variant daha məqbul hesab edildi. İngiltərə ilə toqquşmaqdan çəkinən Fransa 10 iyul 1882-ci ildə öz qoşunlarını Misirdən çıxartdı.

Qeyd edək ki, İngiltərə baş konsulluğu Misirdəki ingilis qoşunlarının komandiri Seymura xarici ölkə konsulluqlarının könüllü ölkəni tərk etməsini təmin etməyi tapşırdı. İyulun 10-da Seymur notanın mətnini xarici konsulluqlara göndərdi.

10 iyul 1882-ci ildə admiral Seymur İskəndəriyyənin hərbi komendantı Tolbə İsmətə qalanı tərksilah etmək və onu ingilislərə təslim etmək haqqında ultimatum verdi. Bu təcavüzkar tələb Misirin hüquqlarının pozulması demək idi.İyulun 11-də admiral Seymur

cavab gözləmədən İskəndəriyyəni bombardman etmək haqqında əmr verdi. Əmr həmin gün yerinə yetirildi.

Misirdə isə hərbi əməliyyatlar davam edirdi. Belə bir mürəkkəb şəraitdə Ərəbi paşa səhvə yol verdi. Misirin ən yaxşı hərbi hissələri şimal sahillərini müdafiə edirdi, lakin şərq cinahı, Süveyş kanalı müdafiəsiz qalmışdı. Süveyş kanalının başçısı Lessepsə məlum olduqda ki, Misir hərbi mühəndisləri kanalı blokadaya alıb müdafiə olunması planını hazırlamışdır. Elə buna görə, Lesseps təcili Qahirəyə gələrək, Ərəbi paşanı kanal zonasının bitərəfliyinə inandıra bildi.

Hərbi əməliyyatların gedişində ingilislər Misir qoşunlarının möhkəmləndiyi Kəfr əd-Davara yaxınlaşdılar. Burada onlar gözlədiklərindən daha çox müqavimətə rast gəldilər. Lakin ingilislər vətənçilərin əsas qüvvələrini darmadağn edə bildilər. Sentyabrın 14-də Uelsli Qahirəni döyüşsüz işğal etdi.

Vətənçilər həm ingilis müdaxiləçilərinə və həm də yerli xainlərə qarşı mübarizə aparmalı oldular. Əvvəllər hərbi xidmətdən boyun qaçıran fəllahlar həvəslə orduya gəlir və vətənçiələrə kömək etmək istəyirdilər. Lakin vətənçilər ümumxalq mübarizəsinin genişlənməsindən çəkinir və müharibəni yalnız nizami ordunun iştirakı ilə aparmağı məqsədəuyğun hesab edirdilər.

İngiltərənin işğalının başa çatması ilə ölkədə terror hökm sürməyə başladı. 30 minə yaxın adam qiyamçı adı altında həbs edildilər. Üsyançıların liderləri Əhməd Ərəbi, Mahmud Sami əl-Bərudi, Əbd əl-Əli, Tolbə İsmət, Əli Fəhmi, Yaqub Sami və Mahmud Fəhmi ölüm cəzasına məhkum edildilər. Ölüm hökmü sürgünlə əvəz edildi. Ərəbi Seylon adasına sürgün edildi və burada 10 il yaşadı. 1901-ci ildə Misirə qayıdan Ərəbi paşa 1911-ci ildə elə burada vəfat etdi.

1882-ci ildə Misir üzərində Böyük Britaniyanın siyasi nəzarətinin yaranması ölkədə müstəmləkə tipli kapitalizmin inkişafı və tədricən yeni müstəmləkə-kapitalist ukladının formalaşması üçün ilkin şərtlər yaratdı. Misirin müstəmləkə və yarımmüstəmləkə şəraiti 1882-ci ildə Misirin ingilis işğalından başlamış və 1952-ci il Misir inqilabı ilə bu asılılığa son qoyulmuşdur.

İngilislər Hindistanı «müdafiə» adı altında öz mülklərinin sərhədlərini qərbdə Əfqanıstanın, şərqdə isə Birmanın hesabına genişləndirdi.

Tarixdə milli azadlıq hərəkatları xarici hökmranlığın məhvinə, milli istiqlaliyyətin qazanılmasına, müstəmləkə zülmünün və istismarının ləğvinə yönəldilən hərəkatlar olmuşdur.

Misir xalqı da uzun müddət öz istiqlaldiyyəti uğrunda mübarizə aparmalı olmuşdur. 1882-ci ildə İngiltərə Misiri tutduqdan sonra Misirdə uzun zaman siyasi sabitlik dövrü hökm sürdü. Ərəbi paşa üsyanının yatırılması, ingilis müstəmləkəçiləri ilə yerli mülkədarların əlbir fəaliyəti və xədiv Tovfiqin sazişçi mövqeyi nəticəsində mümkün olmuşdur. Hələ 4 avqust 1882-ci ildə xədiv Tovfiqin verdiyi fərmanda deyilirdi: «İngilis donanmasının admiralı, Britaniya ordusunun baş komandanı Misirə sakitllik, təhlükəsizlik və qayda yaratmaq məqsədilə daxil olmuşdur». Ölkədə əmin-amanlıq bərpa edildikdən sonra 25 sentyabr 1882-ci ildə Tofiq ingilis hersoqu Ofkunt, general Uelsli və Eduard Malet Qahirəyə qayıtdı.

*Misir İngiltərə işğalı altında*

Beləliklə, 1882-ci ildən Misir İngiltərə müstəmləkəsi oldu. Burada ingilis üsul-idarəsi, iqtisadiyyatın İngiltərə iərəfindən istismarı formalaşmağa başladı və bu dövrdən də Misir xalqının milli azadlıq hərəkatı yeni mərhələyə qədəm qoydu.

Misir Britaniya müstəmləkə torpaqları sistemində xüsusi yer tuturdu, lakin Misir Osmanlı imperiyasının bir hissəsi olmaqda davam edirdi. Xədivlər sülaləsi, Misir Nazirlər Şurası, o cümlədən xarici işlər nazirliyi qalırdı. İngiltərənin Misirdə ehtiyatlı taktikası onun digər kapitalist dövlətləri ilə, xüsusən Fransa ilə hesablaşmalı olması lüzumu ilə izah olunur. Əlavə olaraq Almaniya və Rusiya komissarlarının da daxil edildiyi Dövlət Borcu Kassası, qarışıq məhkəmələr, kapitulyasiya rejimi və sairə qalmışdı. Lakin buna baxmayaraq, 1883-cü ilin yanvarında ikili nəzarət ləğv edildi və maliyyə nəzarəti vəzifəsi ingilis maliyyə məşvərətçisinin ixtiyarına keçdi.

29 oktyabr 1888-ci ildə İstanbulda Avstriya-Macarıstan, İngiltərə, Almaniya, Hollandiya, İspaniya, İtaliya, Türkiyə və Fransanın nümayəndələri Süveyş kanalında qaydalar haqqında saziş

imzaladılar. Osmanlı imperiyasının bir hissəsi olmaq etibarı ilə Misirin əvəzindən də bu sazişi türk sultanı imzaladı. Saziş kanaldan azad surətdə istifadə olunmasını təmin edirdi. Saziş iştirakçılarının bir çoxunun imperialist səy və məqsədlərindən asılı olmayaraq, kanaldan azad istifadə olunmasının təmin edilməsinin obyektiv olaraq müsbət əhəmiyyəti də var idi. İstər dinc dövrdə, istərsə də müharibə dövründə kanal bütün ölkələrin ticarət və hərbi gəmiləri üçün açıq elan olundu, kanalın blokadaya alınması, kanal rayonunda hərbi əməliyyatlar aparılması qadağan edildi. Kanalın müdafiəsi Misirin üzərinə qoyuldu.

4 aprel 1904-cü ildə ingilis-fransız sazişi əsasında Antanta yaradılması İngiltərənin Misirdəki mövqeyini möhkəmləndirmək işində Britaniya diplomatiyasının mühüm müvəffəqiyyəti oldu. Fransa Misirdə Böyük Britaniyanın fəaliyyətinə mane olmağı və ingilis işğalının nə vaxta qədər davam edəcəyinin müəyyən olunmasını tələb etməməyi öhdəsinə götürdü. Bunun Misir üçün müəyyən əhəmiyyəti oldu. 23 noyabr 1904-cü ildə dövlət gəlirləri haqqında qanun verildi. Qanun Misir ərazisindəki hər bir xarici müəssisənin dövlətə vergi verməsini təmin edirdi. Bu qanun Misirdə dövlət quruculuğunu az da olsa möhkəmləndirirdi.

1892-ci ildə xədiv Tofiq vəfat etdi və hakimiyyətə II Abbas Hilmi gəldi. II Abbas 1892-ci ildən 1914-cü ilə qədər hakimiyyətdə olmuşdur. Birinci dünya müharibəsi ərəfəsində Almaniya-Avstriya-Macarıstan bloku mövqeyində durduğundan ingilislər tərəfindən hakimiyyətdən devrilmişdi.

İngilis müstəmləkəçiləri Misirdə «qeyri-müstəqim» idarə sistemi yaratmışdılar. Bu idarənin başında Britaniya canişini dururdu. O sadəcə olaraq Britaniya agenti və baş konsulu adlanırdı. 1883-1907-ci illərdə bu vəzifəni Berinq Lord Kromer daşıyırdı. Kromer 14 illik canişinliyi dövründə Misirdə bir sıra maliyyə və iqtisadi dəyəşikliklər etmişdi. Canişin hakimiyyəti İngiltərənin Misirdə, həmçinin öz müstəmləkə imperiyasının başqa yerlərində olan hərbi qüvvəsinə arxalanırdı. Ərəbinin buraxılmış ordusu hesabına yeni Misir 12-18 min civarında Misir ordusu yaradıldı. Bu orduda yuxarı komandan vəzifələri ingilislərə məxsus idi. Misir polisi də ingilislərin rəhbərliyi altında yenidən təşkil edildi.

Ölkənin inzibati aparatı Britaniya canişininin ixtiyarında idi. Misir nazirlərinə ingils məşvərətçiləri, qubernatorlara isə nəzarətçilər təhkim edilmişdi. Məşvərətçilərdən və nəzarətçilərdən başqa Misirdə çoxlu sayda ingilis məmurları da çalışırdı. Ölkə üçün həyati əhəmiyyəti olan suvarma işlərini suvarma departamenti yerinə yetirirdi; ingilislər su təchizatı üzərində nəzarəti tamamilə öz əllərinə almışdılar.

Misirin işğalı 1882-ci il konstitusiyasının ləğv edilməsinə səbəb oldu. 1 may 1883-cü ildə verilən «idarəçilik qanunun»a əsasən bütün hakimiyyət yenidən xədivin ixtiyarına keçdi, nazirlər şurasını xədiv təyin edirdi: şura yalnız xədivin qarşısında məsul idi. Yüksək feodal təbəqəsi ilə ittifaq nəticəsində ingilislər ölkədə mütləqiyyət qaydalarını tətbiq etdilər. İngilislərin yardımı ilə Tovfiq paşa öz hakimiyyətini 1892-ci ilə qədər qoruya bildi. Sonra hakimiyyət irsən onun oğluna keçdi.

XIX yüzilliyin sonlarında Misir iqtisadiyyatında inkişaf özünü büruzə verirdi. İqtisadiyyatın inkişafında kapitalist münasibətləri artmaqda davam edirdi.İqtisadiyyatın əsas hissəsini kənd təsərrüfatı təşkil edirdi. Kəndli təsərrüfatının inkişafında texniki tərəqqinin rolu təkzib edilməzdir. Texnikanın inkişafı iri bəndlər, su anbarları tikilməsinə və yeni kənd təsərrüfatı alətləri istehsalına imkan verirdi. 1891-ci ildə Misirdə ilk yeni əl-Kənati əl-Xeyri bəndi tikilib qurtardı. Nil çayından ətraf yerlərə kanallar çəkilməyə başlandı. Lakin bu Misir plantasiyalarının suvarılmasına kifayət etmirdi. Ona görə də, 1902-ci ildə Orta Nildə 1 milyard metr kvadrat həcmində Asuan su ambarının tikintisinə başlanıldı. Beləliklə 1912-ci il üçün ümumi su tutumu 2,3 mlrd kub metr olan bəndlər tikilmişdi. Bu isə irriqasiya sisteminin inkişafına xidmət edirdi.İrriqasiya sisteminin genişlənməsi və bunun nəticəsində isə əkin sahələrinin xeyli genişlənməsi Misirdə kənd təsərrüfatı məhsullarının artmasına səbəb olurdu.

İngiltərə hökuməti Misirdə pambıqçılığın inkişafına dah çox əhəmiyyət verirdi. Artıq XIX əsrin 70-ci illərində İngiltərə Misir pambığının 80%-ni ixrac edirdi. 1866-cı ildə İngiltərədə pamb məhsulunun idxalından alınan gəlir 118 mly.funt sterlinq (f.st.) edirdisə, 1895-ci ildə bu rəqəm 361 mln. funt sterlinq (f.st.) o İngiltərə Misirdə pambıq əkini sahələrini durmadan artır

1879-cu ildə 4472 min fəddan əkin sahəsinin yalnız 495 min fəddanı pambıq sahəsi idisə, 1913-cü ildə 5503 mln fəddan əkin saəhsinin 1723 min fəddanı və ya 22,4%-i pambıq sahələri idi. Pambıqçılıq Misirdə 37% artmşdı.

Kənd təsərrüfatı sahələrindən olan taxılçılıq da Misirdə az da olsa inkişaf edirdi. 1879-cu ildə Misir əhalisi 890 min fəddan sahəyə taxıl əkilirdisə, 1913-cü ildə bu rəqəm 2196 funt olmuşdur. Misirə Avstraliya və Kanadadan taxıl gətirilirdi. Bu isə əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmirdi. Misirdə buğda, qarğıdalı, arpa və başqa məhsullar becərilirdi. Qarğıdalı əkin səhələri, hətta 1913-cü ildə bütün əkin sahələrinin 26%-ni təşkil edirdi. 1913-cü ildə şəkər qamışı sahələri 48 min fəddan idi.

1894-cü ildən 1914-cü ilədək Misirdə mövcud olan torpaq sahibliyi sistemi xeyli genişləndi. 1894-cü ildə Misirdə 1 fəddandan 5 fəddana qədər torpaq sahəsi olan 512169 təsərrüfat var idi ki, bu da bütün torpaq sahibliyi sisteminin 77%-ni təşkil edirdi. Lakin onların bütün torpaq sahələrini yalnız 19,8 %-ni təşkil edirdi. 50 fəddandan artıq torpaq sahəsi olan 11220 təsərrüfat mövcud olsa da, onlar bütün əkin sahələrinin 42,5%-ni öz əllərində cəmləşdirmişdilər. 1914-cü ildə isə artıq 1 fəddandan 5 fəddana qədər torpaq sahəsi olan təsərrüfatların sayı 1.414.920-yə çatmış və bütün torpaq sahələrinin 26,1%-i onların əlində cəmləşmişdir.

Misirdə ən böyük mülkədar xədivin özü idi. Xədivə və onun ailəsinə məxsus torpaqlar «Dayra Səkiyyə» adlanırdı. Təkcə onu qeyd etmək lazımdır ki, 1900-1906-cı illərdə «Dayra Səkiyyə» torpaqlarının ümumi sahəsi 384 min fəddan idi. Deməli xədiv və onun ailəsinə məxsus olan torpaqlar, ümumi torpaq sahələrindən 51 min fəddan çox idi.

1882-1914-cü illərdə Misirdə kənd təsərrüfatı nə qədər çox inkişaf edirdisə, sənaye bir o qədər geri qalırdı. Misirlilər bütün ... torpağa bağlanmışdılar. Misir ingilis sənaye malları ... Misirdə sənayenin inkişafının geri qalmasının ... və rüsumların olması idi. Misirin yuxarı ... müəssisələri açmağa kifayət qədər kapitalının ...enin geri qalması amillərindən sayıla bilər. ... baxmayaraq, Misirdə sənaye 1914-cü ildə xeyli inkişaf etmişdi. 1914-cü ildə Misirdə

sənaye sahələrində çalışanların ümumi sayı 380 minə çatmışdır ki, bunların 20 minə qədəri qadınlar idi. Bu bütün ölkə əhalisinin ancaq 3,4%-ni təşkil edirdi.

1911-ci ildə İskəndəriyyədə milli əyirici şirkət yaradılmışdı. 1911-ci ildə İskəndəriyyədəki şirkət «Milli tikiş-əyirici kompaniyası» adını aldı. 1887-ci ildə misirlilər Havamididə şəkər-qənd zavodunu inşa etdilər. 1893-cü ildə o «Qənd-şəkər istehsal edən Misir şirkəti»nə çevrilmişdi. 1882-ci ildə «Şəkər zavodlarının baş şirkəti» təşkil edldi. Tezliklə, bu şirkət 9 zavodu əhatə etmişdi. Misirdə sənaye sahələrindən danışanda tütün sənayesini xüsusilə qeyd etmək lazımdır. Sənayenin bu sahəsi ilə o dövrdə 40 şirkət məşğul olurdlu. 1913-cü ildə Misir 394-798 funt dəyərində tütün ixrac etmişdi.

Misirin xarici ticarəti üçün aşağıdakılar xarakterik idi.

1.İxrac və idxal əhəmiyyətli dərəcədə artmışdı. İdxalın dəyəri 1883-cü ildə 8 mln funtdan 1903-cü ildə 16 mln funta qədər artmışdı.

2.İdxalın artması, ixracın da artmasına səbəb olmuşdu

3. Misirin ixrac etdiyi məhsullar içərisində əsas yeri pambıq məhsulları tuturdu (85%).

4.Digər kənd təsərrüfatı məhsullarının ixracının azalması. Məsələn, 1885-ci ildə 700 min funt şəkər ixrac olunmuşdusa, 1913-cü ildə bu rəqəm 100 min funt təşkil edirdi.

5.Hazır fabrik mallarının ixracının artması. Buraya əsasən pambıq-parça, dəmir, polad məmulatlar və başqaları daxildir.

6.Tütün ixracının artması

7.1882-1914-cü illər Misirin idxalı və ixracında İngiltərə mühüm yer tuturdu. 1913-cü ildə Misir eksportunun 50%-i İngiltərənin payına düşürdü.

İngiltərə Misiri işğal edən kimi vergi sistemində bir sra islahatlar keçirdi. Müstəqim vergi sistemində 15 may 1899-cu ildə verilmiş torpaq vergisi haqqında qanunu qeyd etmiş oldu. Göstərilirdi ki, torpaq icarə haqqı 28,64 həcmində müəyyənləşdirilmişdi. Ölkədə dolayı vergilər də 1880-ci ilə nisbətən 1909-cu ildə 5 dəfə artmışdı.

14 noyabr 1835-ci ildə hökumət pul islahatı haqqında qanun verdi. Qanunda aşağıdakılar nəzərdə tutulurdu.

1.Misir qızıl funtu ölkənin yeganə valyuta sistemidir. Yeni funt 8,5 q qızılı 875 prob müəyyən edilirdi, 1 funt 100 piastra bölünürdü. Qanun 50, 20, 10, 5 qızıl sikkə hüququnda olan piastrlar buraxmağı nəzərdə tuturdu.

2.Piastrlar millimlərə bölünürdü. Hökumət 5,2,1 şinnel və ½, 1/4 bürünc millemlər zərb etdirdi.

Pul islahatından sonra ölkənin valyuta sistemində sabitlik əmələ gəldi. Lakin islahata baxmayaraq, Misirdə ingilis funtu üstünlük təşkil edirdi. Valyuta sistemi nizama salındıqdan sonra Misirin Milli Bankının yaradılması məsələsi qarşıda dururdu. 1898-ci ildə Misir Milli Bankı yaradıldı.

1882-1914-cü illərdə xarici, xüsusilə ingilis kapitalı Misir iqtisadiyyatına daxil olurdu. Xarici kapitalistlər bank və sığorta işlərinə nəzarət edir, xarici ticarətin ən mühüm sahələrini öz əllərində saxlayır və demək olar ki, bütün sənayeni ələ keçirmişdilər.

Alman kapitalı, əsasən dəmiryollarının çəkilməsinə, İsveçrə kapitalı fabrik və mehmanxanaların tikilməsinə, fransız kapitalı isə şəkər sənayesinə nüfuz edirdilər. 1895-ci ildə 52 il müddətinə konsessiya almaqla Belçika kapitalı Qahirədə tramvay şirkəti yaratdı. Beləliklə, 1914-cü ildə Misirə xarici kapital ixracı özünün yüksək dərəcəsinə çatmışdı. 1914-cü illdə Misirin dövlət borcları 94,9 mln. funt təşkil edirdi. Xarici mülkədarların əlində 700 fəddandan çox torpaq sahəsi cəmlənmişdi. Misir hər il xarici kapitalistlərə 9 milyon funt ödəyirdi.

Əhalinin artımında yüksəliş nəzərə çarpırdı. 1882-ci ildə Misirdə 67.257.021 nəfər əhali var idli. 1897-ci ildə bu rəqəm 9.714.525 nəfər, 1907-ci ildə bu rəqəm 11.287.339 nəfər, 1914-cü ildə isə 12.292.000 nəfər olmuşdu. Göründüyü kimi, təxminən 30 ildə əhali 2 dəfə artmışdı. Əhalinin qısa müddətdə artması bir çox amillərlə-yoluxucu xəstəliklərin azalması, dövlət səhiyyə departamentinin səyi nəticəsində həkimlərin, xəstəxanaların və apteklərin sayının artması və s. ilə izah edilir.

Misirin İngiltərə tərəfindən işğalı memarlıq və arxitekturaya da böyük ziyan vurmuşdu. İskəndəriyyənin bombardman edilib yandırılması zamanı xeyli tarixi abidə də yanıb məhv olmuşdu. Millətçilər xalqdan toplanmış vəsait hesabına ölkədə yeni məktəblər açırdılar. Həmin məktəblərdə şagirdlər vətənpərvərlik ruhunda

tərbiyə olunurdular. Millətçilər həmçinin qadınlar üçün axşam məktəbləri də açmışdılar. 1908-ci ildə Səəd Zəqlul paşanın təşəbbüsü ilə darülfünun açıldı. Darülfünun yalnız 1925-ci ildə rəsmi surətdə qeydə alındı.

İşğaldan sonra ilk 25 il ərzində Misirin 258 milyon funt dövlət gəlirindən maarif sisteminə yalnız 2800 min funt xərclənmişdi. Maarifə çəkilən xərclər dövlət büdcəsinin ancaq 3%-ni təşkil edirdi. Bəzi demokratik vətənpərvər qəzetlər qadağan olunmuşdu. «Miraət əş-Şərq» (Şərqin aynası), «əz-Zaman» (Zaman) və «əs-Səfir»(Səfir) qəzetləri və «əl-Urva əl-Burka» (Sarsılmaz əlaqə) jurnalı bağlanmışdı. Misirdə ancaq işğalçıları mədh edən qəzetlər çıxırdı. 29 sentyabr 1882-ci ildə ingilislərin əl-Əhram (Ehram) qəzeti «Qiyamçı Ərəbi və onun vəhşi yoldaşları» məqaləsi ilə nəşrə başladı. Qəzetin ən mühüm yerində isə Misirin işğalında iştirak edən Uolslinin portreti verilmişdi. Qəzetin ingilispərəst mövqeyi bir çox mütərəqqi qüvvələrin ciddi narazılığına əsas verirdi.

İrəlidə qeyd etdiyimiz kimi, rəsmi hakimiyyət Tofiqə tabe edilsə də, əslində bütün hakimiyyət lord Kromerin əlində cəmlənmişdi. İngilislər Misirdə möhkəmlənmək üçün müxtəlif üsullardan, o cümlədən mətbuatdan istifadə edirdilər. İngilislərin xeyir-duası ilə 1882-ci ildən nəşrə başlayan «əl-Əhram» qəzeti də, bu mənada, onların mənafeyinə xidmət edirdi. 1888-ci ildə şeyx Əli Yusifin rəhbərliyi ilə «əl-Muəyyəd» («Dayaq») adlı yeni qəzet nəşr olunmağa başladı. Şeyx Əli Yusif Londonda olanda demişdir ki, «London misirlilərin siyasi Kəbəsidir». Qəzet öz ətrafnda müxtəlif saray adamlarını birləşdirdi. Lakin artıq qəzet səhifələrində müxtəlif səpgili yazıların dərc edilirdi və burada xədiv Abbasla Kromer arasında və hökumətin başçısı Riyadla Kromer arasında narazılıqlar da öz ifadəsini tapdı.

Bu ziddiyyətlərin artmasına iri dövlətlərin öz arasında mövcud olan rəqabət də təsirsiz ötüşmürdü. İngiltərə və Fransa arasında diplomatik mübarizə bəzən açıq, bəzən isə üstüörtülü şəkildə davam edirdi. Məqsədlərinə çatmaq üçün İngiltərə və Fransa öz aralarında ümumi dil taparaq ortaq məxrəcə gələ bildilər. Məlum olduğu kimi 8 aprel 1904-cü ildə Fransa ilə İngiltərə arasında razılaşma əldə olundu. Müqaviləyə görə Fransa İngiltərənin

Misirdəki «sərbəst hərəkəti»nə və eyni zamanda İngiltərə də Fransanın Əlcəzairdə sərbəst hərəkətinə icazə verirdi.

*Mustafa Kamilin fəaliyyəti:* XIX əsrin sonuna doğru sənayenin siyasi inkişafı ilə bağlı milli burjuaziya yaranır və onun siyasi fəallığı da artırdı. Kütləvi hərəkatın hələ genişlənmədiyi bir şəraitdə vətənpərvər ziyalı kimi tanınmış Mustafa Kamil (1874-1908) ölkənin siyasi həyatında mühüm rol oynadı. İlk siyasi fəaliyyətini «əl-Əhram» qəzeti ilə əməkdaşlıqla başlayan Mustafa Kamil Osmanlı imperiyasına böyük ümidlər bəsləyirdi. Mustafa Kamil xədiv Abbasla dostluq münasibətlərində idi. Lakin Mustafa Kamilin siyasi mövqeyi dəyişdi. O, 1899-cu ildə «əl-Liva» («Bayraq») qəzetini nəşr etdirdi. Bununla da, Misirdə İngiltərə müstəmləkə sisteminə qarşı yeni mübarizə başlandı. Misir vətənpərvərləri bu qəzetin ətrafında birləşməyə başladılar. Vətənpərvərlər ilk əvvəllər mövcud rejimə və Misirin Avropa qaydası ilə idarə olunmasına qarşı çıxırdılar. Sonralar onlar iki əsas tələb-ingilis ağalığına son qoyulması və konstitusiyalı idarə üsulu yaradılması tələblərini irəli sürdülər. Lakin hələ zəif olan Misir milli burjuaziyasının baxışlarını əks etdirən bu gənc millətçilər xalqdan uzaq olub, Misirin öz qüvvələrinə o qədər də bel bağlamırdılar.

Kamil ümid edirdi ki, Misirin süzereni olan Osmanlı sultanı ingilisləri ölkədən qovmaq vəzifəsini öz üzərinə götürəcək və buna nail olacaqdır. Sultanla ittifaq naminə Kamil, hətta Misirin tam istiqlaliyyəti tələbini irəli sürmədən, Osmanlı imperiyası çərçivəsində daxili muxtariyyatla razılaşırdı. Lakin bir neçə il ərzində Kamilin və onun tərəfdarlarının fəaliyəti ziyalıların və şəhər burjua dairələrinin sıralarından kənara çıxmırdı.

Abbasın hakimiyyətə gəlməsi ilə ölkədə feodal özbaşınalığı artmağa başladı. Lakin xarici müdaxiləçilərin ölkədə sərbəst hərəkətləri və yerli əhali ilə hesablaşmamaları ölkə daxilində hərc-mərcliyi daha da artırırdı.

1906-cı ildə Denşavay kəndindəki hadisələr bütün Misirdə milli-azadlıq hərəkatının yüksəlişinə təkan verdi. 1906-cı ilin iyununda bu kənddə ingilis zabitləri ova çıxmışdılar. Onların kəndin taxıl xırmanında atdıqları güllədən bir kəndli qadın öldürülüş, xırman isə yanmğa başlamışdı. Hadisə yerinə yığılan fəllahlar (kəndlilər)

hadisəyə öz etirazlarını bildirmişlər. İngilislər yığılan kütləyə atəş açmış və nəticədə kəndin şeyxlərinin başçısını yaralamışdılar. Hiddətlənmiş silahsız kəndlilər ingilislərə kərpic və daş parçaları atmağa başlamışlar. Nəticədə, ingilislərdən birinin əli sınmış, ikisi yaralanmış və bir nəfər də ölmüşdü.

Baş verən hadisələrdən hiddətlənən ingilislər kəndliləri cəzalandırmağı qərara aldılar. Ədliyyə naziri Butrus Naliginin başçılığı ilə xüsusi məhkəmə yaradıldı və məhkəmənin qərarına əsasən dörd kəndli asılmaqla ölüm cəzasına məhkum edildi. Onların sırasında 75 yaşlı qoca Həsən Əli Məhfuz, Yusif Səlim, əs-Səid İsa Səlim və Məhəmməd Dərviş Zəhram idi. Bir çox kəndlilər isə sürgün edildilər. Denşavay kəndinin hadisələri bütün Misiri həyəcan gətirdi, xalq kütlələrində ingilislərə qarşı sonsuz qəzəb və nifrətə səbəb oldu. Ölkə daxilində baş verən hadisələr 1907-ci ilin mayında Kromerin geri çağırılması ilə nəticələndı.

Milli hərəkat artmaqda davam edir və öz sıralarını möhkəmləndirirdi. 10 oktyabr 1907-ci ildə «Hizb ul-Vətən» («Vətən «partiyasının yaradıldığını elan edildi. «Vətən» partiyası xırda və iri burjuaziyanın gənclərini təmsil edirdi. 7 dekabr 1907-ci ildə «Hizb-ul-Vətən»in təsisedici konqresinə 1019 nümayəndə toplandı. Konqresin qəbul etdiyi partiya proqramı Misirə daxili muxtariyyat (Osmanlı imperiyası tərkibində) verilməsini və konstitusiyalı hökumət yaradılmasını tələb edirdi. Proqramda ingilis işğalı əleyhinə mübarizədən açıq şəkildə danışılırdı. Partiyanın fəaliyyətinin əsas istiqaməti ingilislər əleyhinə yönəlmişdi.

Öz çıxışlarının birində Mustafa Kamil demişdi ki, indi artıq hər şeydən ümid üzülüb, nə xədivə, nə də başqa bir vasitəyə bel bağlamaq olmaz. Ümid qalır bircə xalqa. Ən böyük mübariz xalqın özüdür.

10 fevaral 1908-ci ildə Mustafa Kamil vəfat etdi. Onun dəfnində 850 min nəfər iştirak etmişdi. Mustafa Kamilin ölümündən sonra partiyanın rəhbərliyi Məhəmməd Fəridin (1864-1919) səlahiyyətinə verildi. «Vəfd» partiyasının yaranması ilə «Vətən» partiyasının ölkədəki siyasi mövqeyi xeyli zəiflədi və nəticədə partiya 1953-cü ilə qədər fəaliyyət göstərməli oldu.

Mustafa Kamilin ölümündən sonra partiyanın rəhbərliyi Məhəmməd Fəridin (1864-1919) səlahiyyətinə verildi. O, milli

hərəkata xalq formasını gətirdi və milli hərəkat genişləndi. «Hizb ul-Vətən» Milli Qanunverici Məclisin çağırılması tələbi ilə 61 mindən çox imza toplayaraq xədiv Abbasa göndərdi və Qanunverici məclis təşkil edildi. 1908-ci ilin sentyabrında məclis hökumətdən «milli dövlət quruculuğu haqqında» qanun layihəsini hazırlamaq tələbini irəli sürdü. Hökumət tərəfindən bu tələbə rədd cavabı verildikdə xalq həyəcanı başlandı. 9 noyabr 1908-ci ildə ingilislər ordunun ənənəvi nümayişi zamanı (ingilislər bunu hər il qeyd edirdilər) tələbələr etirazlarını ifadə edən şüarlarla-«Yaşasın müstəqillik!», «Yaşasın azadlıq!» çıxış edirdilər. 1909-cu ildə kütləvi çıxışlar davam edirdi.

«Vətən» partiyasının nüfuzunun artması ingilisləri ona alternativ partiyalar-«İslahat partiyası» və «Milli partiya» yaratmağa sövq etdi. Millətçilərin sıralarına təfriqə salmaq məqsədilə yaradılan canişininin fəal yardımı ərsəyə gəlmişdi. Bununla yanaşı 1909-cu ildə ingilislər mətbuat üzərinə güclü senzura qoydu, vətənçilərə qarşı polis cəza tədbirlərinə başladı.

«Vətən partiyası» ölkənin müxtəlif yerlərində milli məktəblər təşkil etmişdi. Bunların hər birində 120 şagird təhsil alırdı. Məhəmməd Fərid tez-tez kəndlərə gedir, orada geniş təbliğat işi aparırdı. Vətən partiyasının apardığı təbliğat nəticəsində fəhlələr arasında inqilabi əhval-ruhiyyə daim artırdı. 1907-1912-ci illərdə fəhlələr həmkarlar ittifaqlarında birlşməyə başladılar.

1908-ci il gənc türklər inqilabının təsiri bütün ərəb dünyasını yerindən oynatdı. İraqda, Suriyada, Yəməndə mili azadlıq hərəkatı yüksəlməyə başladı. Lakin bütün bunlara baxmayaraq şiddətli siyasi mübarizə şəraitində «Vətən» partiyasında böhran baş verdiyi hiss olunurdu. Partiyanın bəzi üzvləri təşviqat işindən əl çəkib, fərdi terrora keçməyə başladı. «Vətən» partiyası tərəfdarlarından biri, 1910-cu ildə müstəmləkəçilərin əlaltısı olan baş naziri öldürdü. İngilis canişini və yüksək rütbəli başqa şəxsləri öldürmək məqsədilə «Vətən partiyası» tərəfdarlarının 1912-ci ildə hazırladığı sui-qəsdin üstü açıldı. Müstəmləkəçilər bundan partiyaya qarşı mübarizə aparmaq üçün bəhanə kimi istifadə etdilər. Partiya darmadağın edildi, onun liderlərinin bir hissəsi mühacirətə getdi. «Əl-Liva» qəzetinin nəşri qadağan edildi. Vətənçilər Misirdə mübarizəni davam etdirirdilər, lakin birinci dünya müharibəsi ərəfəsində «Vətən» partiyası daha Misirdə aparıcı rol oynamırdı. «Vətən» partiyasının

siyasi səhnədən getməsi heç də milli-azadlıq hərəkatının geri çəkilməsi demək deyildi. «Vəfd» partiyasının yaranması ilə «Vətən» partiyasının ölkədəki siyasi mövqeyi xeyli zəiflədi və nəticədə partiya 1953-cü ilə qədər fəaliyyət göstərməli oldu.

1913-cü ilin ikinci yarısında qanunverici məclisə seçkilər keçirildi. Qanunverici məclis 17 təyin olunmuş və 66 seçkili üzvdən ibarət olmalı idi. İki pilləli seçki sistemi tətbiq olunmuşdu: yerlərdə və məclisə seçkilər zamanı mülkədarlara geniş hüquqlar verilmişdi. Ona görə də seçilən deputatların əksəriyyəti mülkədarlar və Misirin yuxarı əyanlarından ibarət idi. Məclisin hüquqları çox məhdud olduğundan yalnız qanunları və büdcəni müzakirə etmək səlahiyyəti daşıyırdı. Lakin Misir vətənpərvərləri məclisdən leqal tribuna kimi istifadə etməyə çalışırdılar. 1914-cü ilin yanvar-iyun aylarında Məclisin birinci sessiyası keçirildi.

Birinci sessiya zamanı keçirilən yığıncaqlarda çox zaman müstəmləkə orqanları kəskin tənqid edilirdi. Səəd Zəqlul paşa başda olmaqla bir qrup deputat ingilislərin dərhal ölkədən çıxıb getməsini tələb edir, ingilis işğalına son qoyulmasına çalışan inqilabçı deputatları öz ətrafına toplayırdılar. Eyni zamanda, onlar kapitulyasiyaların ləğv edilməsini və konstitusiya tətbiq edilməsi kimi tələblər də irəli sürürdülər.

Birinci dünya müharibəsi ərəfəsində partiyanın bir çox üzvlərinin həbsə alınmasına baxmayaraq Misirdə milli azadlıq hərəkatı davam edirdi. Digər xalqlar kimi Misir zəhmətkeşləri də müharibə əleyhinə öz səslərini qaldırırdılar. Onlarla tələbə gizli təşkilatlarla əlaqədə suçlanaraq həbsxanalara salınırdı. Bununla yanaşı terrorçu qruplar da fəaliyyət göstərirdi.25 iyul 1914-cü ildə Həkim Mahmud Mazqar «Həmrəy qardaşları» cəmiyyətinin tapşırığı ilə II Abbas Hilmiyə uğursuz sui-qəsd cəhdi etdi.

1882-ci ildən 1914-cü ilə kimi Misir formal olaraq, Osmanlı imperiyasının əyalətlərindən biri, həm də İngiltərənin müstəmləkələrindən biri olmuşdur. Bu dövrdə Misir xalqı azadlıq və istiqlaliyyət uğrunda mübarizə aparmış və azadlıq mübarizəsi yolunda müəyyən təcrübə qazanmışdır. Bu təcrübə Misir xalqına milli azadlıq mübarizəsinin sonrakı mərhələsinə təkan verən mühüm amil olmuşdu.

Birinci dünya müharibəsi ərəfəsind və illərində də Misirdə müxtəlif partiyalar fəaliyyət göstərirdi. Misirin ən böyük və ən nüfuzlu siyasi partiyası «əl-Vəfd əl-Mısrı» (Misir nümayəndələri) və ya «Hizb əl-Vəfd» (Nümayəndələr partiyası) idi. Bu partiya birinci dünya müharibəsinin sonunda-1918-ci ildə yaranmış və əsas məqsədi ingilis müstəmləkəçilərinə qarşı mübarizə aparmaq idi. Partiyanın yaradıcısı və başçısı Səəd Zəqlul (1860-1927) idi. Lakin Səəd Zəqlul və partiyanın digər üzvləri Misirin müstəqilliyinə xalq kütlələrinin mübarizəsi ilə deyil, yalnız ingilislərlə danışıqlar yolu ilə nail olmaq istəyirdilər.

Birinci dünya müharibəsi başlayanda ingilislər əsas qüvvəlrini Süveyş kanalının müdafiəsinə yönəltdilər. İngiltərə Osmanlı imperyiası ilə müharibəyə başlayanda bildirdi ki, bu müharibənin bütün çətinliklərini öz üzərinə götürür və kömək üçün Misirə müraciət etməyəcəkdir. Əslində isə belə deyildi. Misirdə hərbi əməliyyatlar getməsə də İngiltərə ölkənin maddi və canlı qüvvəsindən istifadə edirdi. Bütün müharibə boyu ingilislər misirlilərdən köməkçi ordunun xidmətində, əmək korpuslarında istifadə edirdilər. Misirlilərdən ildə iki-üç dəfə Əmək korpusunda işləmək üçün aparırdılar və hər dəfə də 135 min nəfər tələb olunurdu. Misirin limanları, nəqliyyatı, sənayesi və kənd təsərrüfatı Britaniya orlusunun xidmətinə verilmişdi. Bu zəmində ölkədə ingilis ağalığına qarşı narazılıq son həddə çatmışdı. 8 aprel və 9 iyul 1915-ci ildə ingilis canişini-sultan Hüseyn Kamilə qarşı iki dəfə sui-qəsd hazırlanmışdı. 10 avqust 1915-ci ildə baş nazir Hüseyn Rüşdü paşaya, 4 senyabrda isə vəqf nazirinə qarşı sui-qəsd hazırlanmışdı.

Birinci dünya müharibəsinin gedişində və sonunda bağlanan müqavilələr əsas götürülərək 1920-ci ildə San Remoda keçirilən konfransda Misir İngiltərənin mandatlığına verildi.

# SUDAN

*Sudanın ictimai-iqtisadi və siyasi vəziyyəti*

Misirin cənubunda, Qırmızı dənizdən Qvineya körfəzinə qədər geniş ərazidə yerləşən Sudanı ərəblər «Qaralar ölkəsi» adlandırmışlar. Hələ 1275-ci ildə Misirə məmlüklərin işğalçılıq yürüşləri Şimali Sudana güclü ərəb təsiri üçün yol açdı. Əslində ərəblərin Şimali Afrikaya kütləvi surətdə daxil olması VII yüzilliyə təsadüf edir ki, gəlmə ərəb tayfaları yerli əhaliyə qarışaraq yeni xalqların formalaşmasının əsasını qoydular. Əhalisi əsasən ərəblərdən ibarət olan Sudan ərazisində onlarla yanaşı nubiyalılar, becalar və zənci irqindən olan tayfalar yaşayırdılar. Ərəblərin Afrikaya soxulması Sudanda kəmiyyət və keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdı ki, əhali sayca artmış və assimiliyasiyaya məruz qalmış, vahid dini ideologiyaya malik və mədəni inkişaf səviyyəsinə görə yerli əhalidən üstün olan ərəblərlə təmas sudanlıların inkişafına güclü təsir göstərmişdir. Bu təsir nəticəsində XIV yüzilliyin axırlarında və XV yüzilliyin əvvəllərində feodalizmin hakim forma olduğu istehsal münasibətlərinə əsaslanan dövlətlər meydana gəlmişdir. Buna misal olaraq Dərfur və Sənnarı göstərmək olar.

XVI yüzilliyin birinci yarısında Sudan digər ərəb ölkələri kimi Osmanlı imperiyasına qatıldı. Lakin Osmanlı imperiyasının hakimiyyəti bütün Sudanı deyil, ən çox onun şimal əyalətlərini əhatə edirdi. Nəticədə, Şimali Sudanda feodal münasibətləri nisbətən təşəkkül tapdığı halda, Cənubi Sudanda qəbilə-tayfa münasibətləri uzun əsrlərlə davam edərək qalmaqda davam edirdi.

Şərqi Sudanın nisbətən inkişaf etmiş şəhərlərindən Sənnar və Dərfuru göstərmək olar. XVII yüzilliyin ortalarında Sənnar şəhərində 100 min nəfər yaşayırdı və buradan Sənnar-Suakin, Sənnar-Recab, Taka-Suakin karvan yolları keçirdi. Bundan başqa Misirə və Liviyaya birbaşa olmasa da ticarət karvanları gedirdi. Dərfur sültanlığı Şərqi Sudanın qərb hissəsində, Cəbəl-Mərənin mis və dəmirlə zəngin olan dağlıq ərazisində yerləşirdi.

XVIII–XIX yüzilliklərdə istehsalda feodal münasibətləri aparıcı rol oynayırdı. Dərfur qonşu ölkələrlə–Misir, Sənnar, Tunis və Əlcəzair, Efiopiya ilə ticarət aparırdı. Hər il Misirə Əl-Faşoddan iki,

üç karvan göndərilirdi. Dərfur və Sənnardan əlavə Sudan ərazisində bir sıra ərəb tayfa ittifaqları mövcud idi.

Ərəb Şərqini birləşdirərək böyük bir imperiya yaratmaq istəyən Məhəmməd Əli öz niyyətlərini reallaşdırmaq üçün ona çox böyük vəsait lazım idi. Bu vəsaiti əldə etməyin yolu isə qızıl, qul və torpaqlarla zəngin olan Sudandan keçirdi. Uzaqgörən siyasəçi və hərbi işi kifayət qədər bilən Məhəmməd Əli Sudanın işğalı ilə əldə edəcəklərini və itirəcəklərini tərəzinin gözünə qoydu və nəticədə qazanacaqları ağır gəldi. Bu məqsədlə Məhəmməd Əli 1820-ci ilin avqustundan 1824-cü ilin avqustunadək davam edən Sudanın işğalına başdadı. Səudiyyə Ərəbistanından fərqli olaraq misirlilər Sudanda elə bir müqavimətə rast gəlmədilər və Sudanın işğalını başa çatdırdılar və Sudan Misirin əyalətlərindən birinə çevrildi.

Məhəmməd Əlinin islahatları Sudanda feodal münasibətlərini dirçəltdi, ölkədə əmtəə-pul münasibətlərinin inkişafına və nəticədə qəbilə-tayfa münasibətlərinin tədricən silinməsinə şərait yarandı. 1822-ci ildə Xartumun əsası qoyuldu və bu şəhər Sudanın paytaxtı oldu. 1841-ci ildə Sudan ilk dəfə olaraq yeddi vilayətə bölündü: Fazoğlu, Sənnar, Xartum, Təkə, Bərbər, Dənqələ və Kordofan.

Vilayətlər misirlilərlə əməkdaşlıq edən yerli qəbilə-tayfa hakimləri və şeyxlər-şeyxi tərəfindən təyin edilirdi. Məhəmməd Əli vəfat etdikdən sonra Şərqi Sudan yenə də misirlilərin idarəsi altında qaldı. Sudanın Misirə birləşdirilməsi burada ticarətin inkişafı üçün geniş imkanlar açdı, xarici dövlətlərlə–Türkiyə, Fransa, İngiltərə və Almaniya ilə ticarət əlaqələri genişləndi. 50-ci illərdə ticarətin inkişafı ilə əlaqədar yeni şəhərlər meydana gəlir və inkişaf edirdi ki, bu şəhərlər istehsal və mübadilə mərkəzlərinə çevrilirdi. Bu dövrdə Xartum şəhəri də inkişaf edirdi və müvafiq olaraq əhalisinin sayı artırdı.

XIX yüzilliyin başlanğıcınadək Sudan iqtisadi və siyasi baxımdan dünyadan yarımtəcrid olmuş bir ölkə idi. XIX yüzilliyin 30-cu illərindən başlayaraq, avropalıların Sudana axını başladı. Bu da təbii ki, əsasən Məhəmməd Əlinin Sudanı işğal etməsi ilə bağlı idi. Strateji əhəmiyyətli, həm də ucuz qul ticarətinə görə Sudan Avropanın, xüsusilə İngiltərənin maraq dairəsinə daxil oldu. Lakin 40-cı illərin sonuna qədər, yəni Məhəmməd Əlinin hegemondluq dövründə ingilsilərin buraya axını tədrici xarakter daşıyırdı, lakin

London müqaviləsindən sonra və Məhəmməd Əliyə verilən ultimatumun tələbləri yerinə yetirildikdən və xüsusilə ikili nəzartdən sonra ingilislərin bu ölkəyə axını artdı. Avropalılar Sudana parça gətirir, oradan isə fil sümüyü və sairə aparırdılar.

Misirlilərin Sudanı işğal etməsi nəticəsində ölkədə qul alveri başlandı və sonrakı illərdə intensiv şəkil aldı. Artıq 1839-cu ilədək 200 min adam qul edilmişdi. Qulun qiyməti o qədər ucuz idi ki, hətta bir tüfəngə 6-8 qul almaq olardı. Qulları imtiyazlı vəziyyətdə olan, həm də nisbətən güclü hərbi təşkilata malik baqqarlar və onun hərbi dəstələri əldə edirdi. 1850-ci ilədək Sudanda dövlət inhisarını təşkil edən qul ticarəti Afrika ölkələri içərisində birinci yerdə idi. Xaricilər köçəri tayfaların başçılarından qul alaraq Avropa hakimlərinin bayrağı altında canlı yükləri gəmilərlə Xartumdan Qahirəyə göndərirdilər. 1857-ci ildə Misir hakimi Səid paşanın qul alverini qadağan etməsinə baxmayaraq, qul alverçiləri qanunu pozaraq öz cinayətlərini davam etdirir və ölkədən qulları daşıyırdılar.

Artıq aropalıları Sudandakı qul alveri qane etmirdi, onlar Sudanın xammal ehtiyatlarını ələ keçirməyə cəhd edirdilər. İrəlidə qeyd edildiyi kimi Sudan mühüm və əlverişli strateji mövqeyə malikdir. Şərq sərhədləri Qırmızı dəniz sahillərinə çıxan, Misirlə Efiopiya, Ekvatoriya arasında yerləşən Sudanın işğalı avropalılara digər bölünməmiş Afrika torpaqlarını zəbt etməyə imkan verərdi. Sudanın şərq sərhədlərinin Qırmızı dəniz sahillərinə çıxması Süveyş vasitəsilə Hindistanla Avropa arasında dəniz yolunu təmin edə bilərdi. Sudanda Nil çayına nəzarət Misirin əlində idi. Bütün Nil çayı boyunca ağalığını saxlaya bilmək üçün ingilislərə Sudanda da möhkəmlənmək lazım gəlirdi. Süveyş kanalına məxsus səhmləri hələ əldə etmədiyi və kanal üzərində sahiblik hüququ qazanmadığı zaman ingilislərə Hindistana və Şərqi Afrika sahillərinə aparan Aralıq dənizində möhkəmlənmək üçün fransız kampaniyasına məxsus Süveyş kanalının axdığı əraziləri nəzarət altına almaq zərurəti yaradırdı.

Süveyş kanalının çəkilməçindən sonra (1859-1869) İngiltərənin Sudana marağı daha da artdı və xüsusilə 1876-cı ildə Misir üzərində Avropa dövlətlərinin ikili nəzarəti qoyulduqdan sonra Sudanda yüksək vəzifələrin çox hissəsi onların əlinə keçdi.

Xədiv İsmayıl xarici istiqrazların borcunu ödəmək məqsədilə Sudana əsas gəlir mənbələrindən biri kimi baxırdı. Ona görə də

Sudanda vergilərin ağırlığı Misir borclarının artması ilə əlaqədar olaraq çoxalırdı. 1878-ci ildə Sudan Qahirəyə 327 min funt sterlinq borclu idi.

Xədiv İsmayıl Misirdə pambıqçılığı inkişaf etdirmək məqsədilə bütün Nil hövzəsinə nəzarəti möhkəmləndirmək istəyirdi. Misiri suvarma sistemi ilə təmin etmək üçün Nilin bütün hövzəsini və mənbələrini ələ keçirmək məqsədilə xədiv İsmayıl Efiopiya və Ekvatorial Afrika ilə müharibə aparmalı oldu. Xədiv İsmayılın bu siyasətinə işğalçılq damğası vuran İngiltrə bir sıra ərazilərin xədiv tərəfindən zəbt ediləcəyindən ehtiyatlanaraq, 1869-cu ildə İngiltərə Sudana Misir bayrağı altında, lakin ingilis Samyuel Uayt Bekerin rəhbərlik etdiyi ekspedisiyanı təşkil etdi. Beker əvvəlcə Sudandan cənubda Alberto gölü ətrafına, Unioro əyalətinə yürüş etdi və onları öz torpaqlarına birləşdirdi.

Müstəmləkələrdə böyük iş təcrübəsinə malik olan general Qordon 1874-cü ildə Bekeri əvəz edərək Sudanın general-qubernatoru oldu. Qordon ilk fəaliyyətində mühüm vəzifələrdə olan sudanlı və misirli məmurların çoxunu işdən azad etdi və onları avropalılarla əvəz etdi. Artıq 1881-ci ildə Sudanda 20- minə yaxın avropalı var idi ki, onların da 10 mini Xartumda yaşayırdı.

Sudan əhalisi Misir ixracının əsas hissəsi olan şəkər qamışı və pambıq əkməyə məcbur edilirdi. Məhsullar isə aşağı qiymətə alınırdı. Kənd təsərrüfatı bərbad hala düşmüşdü. Çörək çatışmırdı, ölkədə tarlaların suvarılması dayandırılmışdı. Əhali üç qat zülm altında inləyirdi: Misir – ingilis – yerli ağalar.

Bütün bunlar xalq narazılığına gətirib çıxarırdı. Bu da özünü üsyanlarda təcəssüm etdirirdi. 1877-ci il Dərfurda və 1878-ci ildə Bəhr əl-Qəzəl əyalətində Süleymanın başçılığı altında üsyan oldu. Lakin bu üsyanlar böyük amansızlıqla yatırıldı. 1880-ci ilin may ayında üsyançıların əsas qüvvələri darmadağın edildi. Lakin bir-birilə əlaqəsi olmayan bütün bu üsyanlar böyük bir üsyanın – Mehdiçilər hərəkatının başlanmasının ilk nişanələri idi.

*Mehdiçilər hərəkatı* Mehdiçilik islamda bir cərəyan kimi IX yüzillikdən mövcuddur. On iki imama inananlar təriqəti (isna aşariyyə) belə deyirlər ki, 12-ci imam Məhəmməd Mehdi gənc yaşlarında atasının qəbrini ziyarət edəpkən qeyb olmuşdur,

cəmiyyətin yoldan azdığı bir vaxtda, o yenidən zühur edəcək, doğru yolu müəyyənləşdirəcək və brabərlik, haqq ədalət yaradacaqdır. Şiyə ruhaniləri deyirdilər ki, bu imam ölməmiş, lakin heç kəsin əli çatmayan bir yerdə Allah tərəfindən hifz edilmişdir. Yaxın və Orta Şərq ölkələrində min ildən artıqdır ki, ona inananlar vardır. Fatimilər, Səfəvilər və Babilərin hərəkatında bu ideya özək olmuşdur.

Orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində feodalizm cəmiyyətinin hakim ideologiyası kimi meydana gəlmiş islam «Sosial-iqtisadi, ictimai-siyasi, hüququ və əxlaqi-etik normaları tənzimləyən bitkin bir sistem kimi formalaşması feodal münasibətlərinin hökmranlığı şəraitində baş vermişdir. Hakim ideologiya kimi islam həmin dövrdə baş verən bir sıra xalq hərəkatlarında da öz əksini tapmışdır.

Haqqında danışdığımız hərəkat da islamda mehdiçilik təlimini özünə əsas seçmiş, Sudanda yaşayan qəbilə və tayfaların arzu və istəklərini ifadə edərək, onları bu təlimin ətrafına toplaya bilmişdi. Sözsüz ki, bu təlim hərəkatın ilkin çağlarında uğur qazansa da, mübarizəyə qoşulmuş geniş xalq kütlələrinin arzu və istəyini təmin edə bilməmiş, nəticədə ideya pərakəndəliyi yaranmış və üsyançılar ideya baxımından silahsız qalmışdılar.

Lakin əvvəlki mehdiçilik təliminə əsaslanan hərəkatlardan fərqli olaraq Sudanda bu hərəkat Afrikanın avropalılar tərəfindən bölündüyü dövrə təsadüf edirdi. Buna görə də Sudanda baş verən hərəkatın əsas məqsədi xarici ağalara və ilk növbədə İngiltərənin başda durduğu iri dövlətlərin müdaxiləsinə qarşı çevrilmişdi.

Sudan xalqları dil ayrılığına baxmayaraq, ingilis müstəmləkəçilərinə və türk-Misir feodallarına qarşı mübarizədə birləşdilər. Sudanın milli-azadlıq hərəkatına müsəlman şeyxi Məhəmməd Əhməd rəhbərlik edirdi. Məhəmməd Əhməd 1843 və ya 1844-cü ildə anadan olmuşdur. O şəhər-şəhər gəzən, qayıq düzəldən bir sənətkarın oğludur. Məhəmməd Əhməd əvvəlcə Bərbərədə, sonra isə Xartumda təhsil almışdır. 1881-ci ilin avqust ayında müsəlmanların Ramazan bayramı zamanı o, özünü Mehdi – Allahın elçisi və peyğəmbərin ikinci dəfə yerə enəcəyindən xəbər verən imam elan etdi. Mehdi yer üzərində ədaləti bərpa etməli və bütün müsəlman dövlətlərini birləşdirməli idi.

Mehdiçilər üsyanını öz inkişafı və xarakterinə görə 3 dövrə bölmək olar:

I dövr - 1881-ci ilin avqustundan-1885-ci ilin yanvarına kimi (Xartumun alınmasına qədər olan dövr )

II dövr-1885-ci ilin yanvarından-1896-cı ilin martına kimi (italyanların Aduan məğlubiyyətinə qədər olan dövr)

III dövr-1896-cı ilin martından-1900-cü ilə kimi (Mehdiçilərin məğlubiyyət dövrü)

Mehdiçilər hərəkatı dövründə ibtidai formada olsa da, müstəqil və vahid dövlətin yaranması Şimali Sudan xalqlarının təşəkkülündə birinci dərəcəli rol oynadı.

Sudanda baş verən üsyanla, eyni zamanda 1881-ci ildə Ərəbi paşa başda olmaqla Qahirə qarnizonu üsyan qaldırdı və vətənçilər hətta bir il hakimiyyətdə də təmsil olundular. Lakin 1882-ci ilin iyun ayında ingilislər İskəndəriyyəni ələ keçirdilər və üsyan yatırıldı. Ərəbi paşa və başqa üsyan rəhbərləri həbs edildi.

Ərəbi paşa üsyanı ilə Mehdiçilər üsyanının birləşməməsi təəssüflənlirici bir hal kimi qiymətləndirilsə də, əslində Misirdə baş verən üsyan İngiltərə müstəmləkəçilərinin fikrini yayındırmış və Mehdiçilər hərəkatının genişlənməsi üçün əlverişli şərait yaratmışdı.

Mehdiçilərin əsas şüarı türklərin hakimiyyəti dövründə təhrifə varmış ilkin islama qayıtmaqdan ibarət idi. İlkin islama qayıtmaq ideyası vəhhabi təliminə də məxsusdur, lakin fərq bundadır ki, mehdiçilər on iki imamı qəbul etdikləri halda, vəhhabilər bu fikirdən imtina edirlər və onları böyük tutmağı Allaha şəriklik kimi qiymtələndirirlər. Mehdiçilərin əqidəsinə görə müsəlman qanunvericiliyi müxtəlif coğrafi məkanda yaşayan və adət-ənənəyə, etnoqrafiyaya malik bütün dünya xalqlarını 2 hissəyə: mömin və kafirə – bölür. Mehdi istismarçıları kafir adlandırır və onlara qarşı mübarizə aparmağın labüd olduğunu göstərir. Mehdi vergi ödəməyin də əleyhinə çıxaraq bildirmişdi ki, «vergi üçün bir dirhəm verməkdənsə, min dənə qəbir daha yaxşıdır». O, ingilis və türk-Misir hakimlərini kafir elan edir və özünün əsas zərbələrini onlara qarşı yönəldirdi. Hamını Allah qarşısında bərabər elan edən Mehdi qul alverini də xeyli azaltdı.

Kasıb, köçəri və şəhər yoxsullarının geniş kütlələrinə rəhbərlik edən Mehdi bərabərlik təbliğ edirdi. Kəndlilər, köçərilər və

varlı şəhərlilər bərabər elan edilirdi. Hamını ümumi din və müqəddəs müharibədə – cihadda – ümumi məqsədlər birləşdirirdi.

Mehdi və onun yadellilər əleyhinə çıxışları haqqında xəbərlər Xartuma da yayıldı. Sudan general-qubernatoru Rauf paşa onun həbs edilməsi üçün 200 nəfərdən ibarət silahlı dəstə göndərdi. Dəstə axşam «İsmailiyyə» gəmisində Mehdinin yaşadığı adaya çatdı və 2 hissəyə bölünərək onun yaşadığı daxma üzərinə hərəkət etdilər. Belə ki, gecə vaxtı mehdiçilər ətraf tayfaların köməyi ilə əsgərlərə qəfil hücum etdilər və demək olar ki, hamısını qırdılar.

Xartum yaxınlığında qalmaq təhlükəli idi və buna görə Mehdi adanı tərk etmək qərarını verdi. Əhali arasında cihada – kafirlərə qarşı müqəddəs müharibəyə çağırış böyük əks-səda doğurdu. Mehdinin tərəfdarlarının sayı gündən-günə artırdı. Mehdiçilər hərəkatının inkişafından narahat olan Sudanın yeni general-qubernatoru Əbdül-Qədir paşa Mehdinin iqamətgahı Cəbəl-Qədirə 6 min nəfərlik cəza dəstəsi göndərdi. 1882-ci il martın 15-də Xartumdan göndərilən dəstə iyunun 7-də Mehdiçilər tərəfindən darmadağın edildi.

Bu artıq böyük bir qələbə demək idi. Mehdinin qazandığı qələbə kasıb, sadə adamlarda böyük ümidlər yaratmaqla yanaşı onların böyük ruh yüksəkliyi ilə üsyana qoşulmasına da güclü təsir göstərdi. Onların çoxu öz mənzillərini tərk edir və böyük kütlələrlə üsyançılara qoşulurdular. Üsyanı beşiyindəcə boğmağa çalışan Misir-türk hərbi hakimləri artıq hücum haqqında belə düşünmürdülər, onlar öz hakimiyytlərini və idarə etdikləri şəhərləri hər vəchlə qoruyub saxlamağa çalışırdılar. Hökumət qoşunları Əbu-Xəraz, Sənnar, Kordofan şəhərlərini güclə müdafiə edə bilirdilər. Kordofan vilayətində bir sıra şəhərlər bir-birinin ardınca üsyançıların tərəfinə keçir və Misir qarnizonlarını tərksilah edirdilər.

Sudan üsyanı İsmayıl tərəfindən yaradılmış «Afrika imperiyası»nın dağılması təhlükəsini törədirdi. Misirin Qırmızı dəniz və Ədən körfəzi mülklərində qızğın mübarizə gedirdi. Misirin işğalını baş çatdırdıqdan sonra Sudana qarşı koalitsiya yaratmaq məqsədilə İngiltərə «Qaralar ölkəsi» ilə qonşu dövlətləri də bu işə cəlb edirdi və hətta şirnikləndirmək məqsədilə onlara müxtəlif vədlər də verirdilər. Sudanla o qədər də isti münasibətlərdə olmayan Efiopiyaya Massova ərazisini vəd etməklə hər iki qonşu ölkə

arasında münaqişə sala bildi. Deyilənlərə rəğmən 1884-cü ilin iyununda İngiltərə Misir və Efiopiyanın nequsu İohannla müqavilə bağlamağa nail oldu.

Lakin Mehdinin cəbhəsində qızğın döyüşlər bir-birini qələbə ilə əvəz edirdi. Artıq Əl-Übeydi tutmaq planının gerçəkləşməsi zamanı çatdı. Bu qərar mehdiçilər arasında bəyan edildi və bütün dağınıq dəstələr Barka şəhərində Mehdinin ordusu ilə birləşməli idi. 1882-ci ilin sentyabrında üsyançıların 30 min nəfərlik ordusu Əl-Übeydi mühasirəyə aldılar. Bu dövrdə Misirdə mühüm siyasi hadisələr baş verirdi. Ərəbi paşanın rəhbərlik etdiyi milli azadlıq hərəkatı yatırıldı və nəhayət ingilis qoşunları Misiri işğal edə bildilər. Misir faktiki olaraq İngiltərənin müstəmləkəsinə çevrildi. Fransa tamamilə Misirdən sıxışdırılıb çıxarıldı. İngiltərənin tələbi ilə yeni hökumət ingilis generalı Xiks başda olmaqla 10 min nəfərdən ibarət korpus Sudana göndərildi.

5 noyabr 1883-cü ildə əl-Übeyd yaxınlığında Xiksin korpusu mehdiçilərin 40-minlik ordusu (onların yerləşdiyi ərazi haqqında Xiksin heç bir məlumatı yox idi) ilə qarşılaşdı və ingilis korpusu tamamilə dağıldı. Mehdi bu dəfə də parlaq qələbə qazandı. Döyüşdə Xiks, onun zabitləri və Sudanın general-qubernatoru Ələddin paşa öldürüldü. 1883-cü il yanvarın 5-də Bara şəhəri, fevralın 18-də isə əl-Übeyd təslim oldu. Əl-Übeydin tutulması ilə Mehdi nəinki, təkcə hərbi müvəffəqiyyət qazandı. Bu həmçinin böyük siyasi qələbə demək idi, çünki ölkənin ən böyük şəhərlərindən birinin üsyançıların əlinə keçməsi ilə yanaşı ingilis-Misir ordusu üzərində qələbə idi. Bu isə Mehdiçilərin nüfuzunu yüksəltməklə eyni zamanda onun ordusunun sıralırının artmasına da təsir göstərirdi. 1883-cü illin əvvəllərində Mehdiçilər Kordofanı da tutmağa nail oldular.

Bu qələbədən sonra yeni-yeni vilayətlər üsyançılara qoşuldu. Mehdiçilər artıq bütün Qırmızı dənizin sahil vadisini, Dərfuru, Kardofanı, Cənubi Sudanın bir sıra rayonlarını ələ keçirmişdilər. 1885-ci ilin yanvar ayında isə Britaniyanın Şərqi Sudanda əsas dayaq mərkəzi olan Xartum şəhəri də üsyançılar tərəfindən tutuldu. İngiltərə, dünyanın ən böyük müstəmləkə dövləti ilk dəfə olaraq, belə ağır məğlubiyyətə düçar olurdu.

Mehdiçilər hərəkatı istismar olunan əhalinin bütün təbəqələrini – köçəriləri, kəndliləri, şəhər yoxsullarını öz ətrafında

birləşdirirdi. Lakin Mehdiçilər hərəkatı yeganə, vahid ictimai quruluşda mövcud olaraq, başqa, yeni iqtisadi istehsal quruluşu yaratmaq iqtidarında deyildi. Hətta qələbə vaxtı onlar köhnə iqtisadi şəraiti dəyişməz saxlayırdılar. Beləliklə, hər şey köhnədə olduğu kimi qalır və yeni-yeni toqquşmalara gətirib çıxarırdı. Hərəkatın qələbə ilə nəticələnməsi tam aydın olduqda nəsli aristokratiya da bu hərəkata qoşuldu və onlar rəhbərliyi əxz etməyə nail oldular. 1885-ci il iyunun 22-də Mehdi vəfat etdi. Tezliklə mehdiçilərin rəhbərliyində Mehdinin qohumları və feodallaşmış baqqara tayfa ittifaqının nəsli aristokratiyası arasında hakimiyyət uğrunda mübarizə başlandı. Bu mübarizə baqqara tayfalarının başçısı xəlifə Abdullahın hakimiyyət başına gəlməsi ilə nəticələndi. Ölkədə vəziyyət tamamilə dəyişdi. Kiçik bir vaxt ərzində ölkədə tam hakimiyyət baqqara tayfa başçılarının əlinə keçdi. Ən yaxşı torpaq sahələri onlara verildi. İri tayfa ittifaqlarının qoşun hissələri sərhəddə mərkəzdən uzaqda yerləşdirilir və onlara başçılıq məhz baqqara sərkərdəlrinə tapşırılırdı. Sudan xalqının azadlıq uğrunda mübarizəsinin gedişində mərkəzləşmiş, dini və siyasi xarakter daşıyan feodal dövlət yarandı. Bütün hakimiyyət xəlifə Abdullah başda olmaqla hakim qrupa malik idi. Xəlifə digər tayfa ittifaqlarına qarşı yaxşı düşünülmüş cəza tədbirləri həyata keçirərək, onları zəiflədir, dövlətin möhkəmlənməsi üçün əlverişli şərait yaradırdı. Mehdi ordunu təmin etmək üçün bütün hərbi qənimtələrin daxil olduğu xəzinə (beyt əl-mal) yaratdı.

Üsyanın ilk vaxtlarında qul alveri xeyli azaldı. Lakin quldarlıq heç də tamamilə ləğv edilmədi. Qul əməyi kənd təsərrüfatında geniş tətbiq edilirdi, həmçinin orduda qullardan ibarət xüsusi qoşun dəstələri mövcud idi. Qul alveri tezliklə bütövlüklə dövlət inhisarına və dövlətin əsas gəlir mənbələrindən birinə çevrildi. Mehdiçilər dövlətində hər bir orta əsrlər dövlətində olduğu kimi siyasi nüfuzun səviyyəsi malik olduğu torpaqların sahəsi ilə müəyyənləşdirilirdi. Tədricən iri torpaq sahələrinə malik olan baqqara sərkərdələri ölkənin idarə edilməsinin bütün sahələrində nəzarəti öz əllərinə alırdılar. Tayfa ittifaqlarının rəhbərləri – şeyxlər əsasən baqqara arasından çıxan əmirlərə tabe edilirdi. Bir çox tayfaların şeyxləri torpaqdan və hakimiyyətdən məhrum edilir, onların yerinə öz tayfasının hərbi qüvvəsinə arxalanan baqqara nümayəndəsi təyin edilirdi. Bütün bunlar tayfa qəbilə

münasibətlərinə əsaslanan quldarlıq quruluşuna nisbətən qabaqcıl olan feodalizm quruluşunun bərqərar olması üçün əlverişli şərait yaradırdı. Ardı-arası kəsilməyən müharibələr nəticəsində xaricə qul satılmasının qarşısı alınmış və bu günün əsas gəlir mənbəyindən məhrum olan tayfa ittifaqlarının zəifləməsi, bir çox hallarda onların tamamilə tarix meydanından silinməsinə səbəb olmuşdur. Bütün bunlar ölkədə quldarlıq sisteminin zəifləməsinə gətirib çıxartmışdı.

Müstəqil Sudan dövləti hərbi təşkilatının inkişafı ikinci növ təşkilat formalarının – tayfa ittifaqlarının ümumxalq yığma qoşunu və feodallaşmış sinfi dövlətin daimi ordusu arasında arası kəsilməz kəskin mübarizələrlə müşahidə olunurdu. Tayfa-qəbilə yığma qoşunu əldə silah tuta bilən bütün kişiləri əhatə edirdi. Demək olar ki, bu qoşunun bütün yürüşlərində tayfanın bütün üzvləri iştirak edirdi. Belə qoşuna adətən tayfa başçıları şeyxlər rəhbərlik edirdi. Lakin belə qoşun dəstələri cəld hərəkət edə bilmir və böyük miqdarda ərzaq tələb edirdi. Nizami orduya tələbat həmçinin daim aparılan müharibələrlə izah edilirdi. Artıq Mehdinin sağlığında hərbi sistemdə xalq qoşunundan nizami orduya keçid başlanmışdı. Ordu 3 hissəyə bölünürdü. Omdurman şəhəri əsas hərbi mərkəzə çevrildi. Ordunun təmin edilməsini dövlət öz üzərinə götürmüşdü. Yeliseyevin hesablamasına görə 1891-ci ildə Sudan ordusunun ümumi sayı 250 mindən-300 min nəfər civarında idi.

Ordunun təminatı və digər məsələlərlə bağlı xəlifə Avropa və keçmiş Misir dövlət məmuralarından istifadə etməkdən çəkinmirdilər. Mehdinin ordu ştabında bir neçə yüksək rütbəli adamlar çalışırdı. Xəlifə Əli Vad-Xelu Qahirədə Əl-Əzhar dini universitetini bitirmişdir, əmir Məhəmməd Xalid Zoqal üsyana qədər Dərfurda hökumətdə yüksək vəzifə tutmuşdu, Əl-Obeydənin keçmiş qubernatoru Nur Anqra üsyançılar tərəfə keçmiş və sonralar Bərbər əyalətinin hakimi vəzifəsini almışdır. Bir neçə fransız (Olivye Pena və digərləri) uzun müddət Mehdinin ştabında çalışmışlar.

Ölkə vilayətlərə bölünmüşdü. Hər vilayətin başında tam hərbi və inzibati hakimiyyətə malik olan baş əmir dururdu. Sudan xalqlarının milli-azadlıq hərəkatının nəticəsində ölkənin ictimai-iqtisadi, siyasi və mədəni həyatında böyük dəyişikliklər baş verdi. Üsyan vaxtı və müstəqil Sudan dövlətinin mövcud olduğu dövrdə milli təşəkkül prosesi xeyli sürətləndi. Geniş xalq kütlələrinin və

həmçinin köçəri tayfaların birlikdə azadlıq mübarizəsində iştirakı tayfa ittifaqlarının dağılmasına, Sudan xalqları arasında isə ərazi və dil ayrılığının aradan qalxmasında mühüm rol oynadı. Mehdiçilər dövründə Sudan torpaqları ilk dəfə olaraq, vahid dövlətdə birləşdi.

Daimi xarici təhlükənin mövcudluğu və müharibə şəraitinin olmasına baxmayaraq, ölkədə məhsuldar qüvvələrin inkişafı əvvəlkinə nisbətən daha yüksək səviyyəyə çatmışdı. Sənətkarlığın kənd təsərrüfatından ayrılması şəhər əhalisinin sayının artmasına gətirib çıxartdı. Çoxminlik orduların yaradılması, yeni inzibati bölgünün aparılması – bütün bunlar qəbilə-tayfa ayrılığının aradan qalxmasına səbəb oldu. Ərazi əlaqələrinin möhkəmlənməsi ərəb dilinin daha da yayılması üçün əlverişli şərait yaratdı. Buna həmçinin müsəlman dininin yeni rolu da kömək edirdi. Bütün bunlar ölkənin mərkəzində Şimali Sudan xalqının meydana gəlməsinə səbəb oldu.

Mehdi, sonra isə xəlifə ordunun təchizatını ölkənin dinc əhalisinin hesabına həyata keçirmək istəyirdi. Əkin fəsli zamanı kənd təsərrüfatı ilə məşğul olan əsgərlər evlərinə tərxis olunurdular. Xəlifə 1889-cu ildə baş verən dəhşətli aclığı nəzərə alaraq, müharibələr arası fasilələrdə ordunun bir hissəsini əkinçiliklə məşğul olmağa məcbur edirdi. Bunun üçün isə Omdurmanın ətrafında xüsusi torpaqlar ayrılmışdı.

İngiltərə mehdiçilərə qarşı mübarizədə qələbəni təmin etmək üçün Afrika dövlətləri arasında münaqişələr yaratmaqla, onları bir-birinə qarşı qoymaqla və müharibəyə təhrik etməklə, nəticədə hər iki tərəfin zəiflədilməsinə gətirib çıxaran gizli diplomatiyaya arxalanırdı. Bu sahədə İngiltərə diplomatiyası böyük nailiyyətlər əldə etdi. Onun fəaliyyəti nəticəsində Efiopiya və mehdiçilər Sudanı arasında müharibə başlandı.

1884-cü ildə mehdiçilər ingilisləri Həbəşistan sərhədlərinə geri çəkilməyə məcbur etdilər. 1884-cü ilin aprel ayında mehdiçilər Efiopiya ilə sərhəd şəhəri olan Qallabatı mühasirəyə aldılar. İngilis qubernatoru Efiopiya imperatoru İohandan kömək istədi. İohan öz qoşunlarına mehdiçilərin mühasirəsini yarmağı əmr etdi. Mühasirə yarıldı. Şəhər qarnizonu və əhalinin bir hissəsi Efiopiyaya qaçdı. Müharibənin başlanması bu dövrdən sayılır. Döyüşlər 5 il ərzində davam etdi. Üstünlük gah bu, gah digər tərəfin payına düşür, Qallabat şəhəri əldən-ələ keçirdi. Həlledici döyüş 1889-cu ilin mart

ayının 9-da Qallabat yaxınlığında 5 saat davam edən qanlı döyüş baş verdi. Döyüş vaxtı İohan təsadüfən öldürüldü və bu da döyüşün taleyini həll etdi. Müharibə mehdiçilərin qələbəsi ilə başa çatsa da, əslində dövlətin süqutuna doğru atılan addımlar idi.

Müharibə ilə paralel Mehdiçilər Sudanın bir sıra şəhərlərini ələ keçirdilər. Belə ki, 1885-ci il yanvarın 5-də Omdurman qarnizonu təslim edildi. Britaniya korpusunun yaxınlaşdığını görən Mehdi Xartumun alınmasını vacib saydı. Yanvarın 23-də Xartum təslim oldu və hücum zamanı Qordon öldürüldü.

XIX əsrin sonunda Sudan və Nilin yuxarı hissəsi uğrunda iri dövlətlərin mübarizəsi özünün həlledici mərhələsinə qədəm qoydu. 1896-cı ildə İtaliya Efiopiyaya hücum etsə də, Aduan yaxınlığındakı döyüşdə ordu tamamilə darmadağın edildi və məğlubiyyətə düçar oldu. Bundan istifadə edən İtaliyanın rəqibi Fransa isə Efiopiya ilə yaxınlaşaraq ondan bir sıra konsessiyalar aldı və Şərqi Sudanı işğal etmək üçün hazırlığa başladı. Sudana olan iddialar artdıqca İngiltərə də öz növbəsində general Kitçenerin başçılığı altında Sudana qarşı hərbi ekspedisiyaya başlamağa tələsdi. Hərəkat ingilislərin bir sıra planlarına ciddi zərbə vurmuşdu. Belə ki, Mehdiçilər hərəkatı İngiltərənin hərbi qüvvələrini özünə cəlb etdiyindən onların şimalda Bunoroya soxulmasını çətinləşdirdi.

Müstəqil Sudan dövləti 10 il müddətində yaşadı. Bu dövrdə dünyanın siyasi xəritəsində bir çox dəyişikliklər baş verdi. Müstəqil Sudan ona düşmən olan İngiltərə, Fransa, Belçika və İtaliyanın müstəmləkələrinin əhatəsinə düşdü. Misir milli-azadlıq hərəkatı tamamilə darmadağın edildi. Hakimiyyət İngiltərə konsulunun əlinə keçdi. İngiltərənin tələbi ilə Misir hökuməti Sudana 10 min nəfərlik ekspedisiya korpusu göndərdi. Ordunun sıravi əsgərləri misirlilərdən ibarət idi. Orduya ingilis polkovniki – Misir ordusunun sərdarı – baş komandanı Kitçener rəhbərlik edirdi.

Kitçenerin ekspedisiyası ərəfəsində Sudanın vəziyyəti ağır idi. Yeni qurtarmış Efiopiya müharibəsi ölkənin bütün maddi və mənəvi qüvvələrinin sərf olunmasını tələb etmişdi və onun gücünü tükəndirmişdi. İri dövlətlərin müstəmləkələri tərəfindən əhatə olunmuş Sudan siyasi və iqtisadi cəhətdən təklənmə şəraitində yaşayırdı. Daima müharibə təhlükəsində yaşayan Sudan dövləti 100 minlik ordu saxlamağa məcbur idi. Bu ordunun ancaq 30 min nəfəri

odlu silaha malik idi. İngilis komandanlığı tayfalar arasında düşmənçilikdən istifadə edərək mehdiçilərin arxasında üsyanların təşkilinə böyük diqqət yetirirdi. Beləliklə, 1896-cı ilin martında Kitçenerin başçılığı altında ingilis-Misir ordusu Sudana qarşı əsaslı hücuma başladı.

İngilis ordusu ölkənin işğal edilməsinə 2 il sərf etdi. 12 mart 1896-cı il başlanmış yeni ingilis – Sudan müharibəsi 1898-ci ilə qədər davam etdi. 1898-ci il sentyabrın 1-dən 2-nə keçən gecə Omdurman yaxınlığında həlledici döyüş baş verdi. Mehdiçilər darmadağın edildi. 50 min nəfərlik Sudan ordusunun yarıya qədəri məhv edildi. Mehdinin qəbri dağıdıldı. Onun qalıqları Nilə tullandı.

19 yanvar 1899-cu ildə Sudan haqqında İngiltərə-Misir konvensiyası bağlandı. Bu konvenvensiyaya əsasən Sudan hər iki dövlətin- İngiltərə və Misirin kondomimumu, şərikli və ya ümumi mülkiyyəti elan edilirdi. Ölkə vilayətlərə bölündü və bunların başında ingilis zabitləri dururdu. Bununla da Sudan ingilis parça istehsalı sənayesi üçün əsas xammal mənbəyinə çevrildi. Torpaqların mənimsənilməsi ilə eyni vaxtda süni suvarma sisteminin yaradılmasına, dəmiryolunun çəkilməsinə başlandı. Ölkədə ilk banklar, ticarət firmaları yaradıldı ki, bunlar da yerli sənayenin bütün sahələrini, kənd təsərrüfatını özünə tabe edirdi.

Ölkədə tayfa və qəbilə şeyxlərinin hakimiyyəti bərpa edildi. Onlar öz tayfalarında məhkəmə aparmaq hüququ qazandılar. İngilislər Sudanda yerli tayfa başçıları ilə sıx əməkdaşlıq siyasəti aparırdılar. Müstəmləkənin hakim dairələri onların daxili işlərinə qarışmırdılar.

İngiltərənin Sudanda həyata keçirdiyi siyasət açıq soyğunçuluq xarakteri daşıyırdı. Süni suvarma sisteminin təşkilindən və pambıq əkilməsindən başqa, İngiltərə hakim dairələri ölkədə məhsuldar qüvvələrin inkişafı üçün demək olar ki, heç bir şey etmirdi. Daxili siyasətdə İngiltərə inhisarı müsəlman dairələri və tayfa-qəbilə başçıları ilə əlaqə quraraq, öz tayfa üzvlərini soymaq üçün ingilislərlə əməkdaşlıq etməyə şərait yaradırdı.

Sudanda Mehdiçilər hərəkatını xarakterizə edərkən onun bir sıra səbəblərini göstərirlər. Hərəkatın gedişində İngiltərə hökuməti kəşfiyyat xidmətinə də xüsusi fikir vermiş və Casusluq sisteminə rəhbər mayor Vingeyti təyin etmişdi. Kəşfiyyat şöbəsi Omdurman

hökumətinə qarş düşmən münasibətdə olan tayfa başçıları ilə həmişə əlaqə saxlayırdı. Gizli agentlər yunan, Avstriya keşiş və monaxları, (onlar Mehdiçilər üsyanının tlk vaxtlarından əsir düşmüşdülər) alman taciri Neyfeld və Rudolf Slatin idi.

Afrika sahillərinə ilk dəfə ticarət nüma-yəndələri gəlmiş, malların alınıb-satılması yolu ilə qəbilə şeyxləri ilə əlaqəyə girmiş, yerli əhalinin keyfiyyət və xüsusiyyətləri, ölkənin coğrafi şəraiti və sairəni öyrənmiş, beləliklə də gələcək müdaxilə üçün imkan yaratmışlar. Bundan sonra isə «sadə tacirlərin» arxasınca əsl müstəmləkəçilər gəlmiş, soyğunçu müharibələr aparmışlar.

İngilis komandanlığı şeyxlərlə, tayfa başçıları ilə əlaqə yarada bilmiş «sadə tacir» nümayəndələri, agentləri vasitəsilə tayfalar arasında da düşmənçilik toxumu səpir, ya da mövcud düşmənçilikdən istifadə edərək Mehdiçilərin arxasında üsyanların təşkilinə böyük diqqət yetirirdi.

Tarixə məlum olan kəndli üsyanları kor-təbii baş verdiyinə görə, aydın məqsəd və proqram olmadığına görə çox zaman məğlub olurdular. Bunlardan fərqli olaraq, Sudanda baş verən Mehdiçilər üsyanı qalib gəldi, lakin mübarizə apardıqları feodal munasibətlərini ləğv edə bilmədilər.

Xəlifə Abdulla baqqara qəbilələrinə mənsub olduğundan onlar üçün imtiyazlı şərait yaratmışdı. Baqqara qəbilələri dövlətin mərkəzinə – Omdurman rayonuna köçürüldü. Bütün rəhbər vəzifələri baqqarlar tutmuşdular. Onlardan yeni feodal təbəqə yaranırdı. Baqqara tayfalarına verilən imtiyazlar digər tayfaların narazılığına səbəb olurdu.

Hərəkatın öz mahiyyətini itirib pozulması və yeni istismarçı siniflərin zülmü, xalq kütlələrinin narazılığına, Mehdiçilər üsyanından uzaqlaşmasına səbəb oldu. Xəlifənin siyasətindən narazı qalan bir sıra tayfa və qəbilələr üsyan qaldırdılar.

Daxili mübarizə Mehdiçilərin dövlətini zəiflətdi, lakin Efiopiya ilə müharibə xüsusilə fəlakətli nəticələr verdi. Hərəkatın məğlubiyyətinin şərtlərindən ən mühümü ingilis-Misir ordularının qabaqcıl texnikaya malik olması idi.

Sudanda baş verən üsyan özünün I və III mərhələlərində milli-azadlıq hərəkatı xarakteri daşıyırdısa, artıq II mərhələdə hərəkat öz mahiyyətini dəyişməyə başladı. Bu dövrdə hərəkatın

demokratik və feodal ünsürləri arasında hakimiyyət uğrunda mübarizə gedirdi.

Mehdi rəhbərləri sırasında yeni istismarçılar yaranmağa başladı. Onlar hərbi qənimət hesabına varlanırdılar, onların köləlәri və torpaqları var idi. Keçmiş iqtisadi şəraiti dəyişməyə mehdiçilər qadir deyildi. Bu da özünü köləliyin saxlanılmasında göstərirdi. Üsyanın birinci mərhələsində ordunu kəndlilər, köçərilər, sənətkarlar və qaçqın qullar təşkil edirdisə, qələbədən sonra hərəkata mülkədarlar, tayfa başçıları, iri alverçilər də qoşuldular.

Mehdiçilər hərəkatı məğlub olsa da, çox böyük tarixi əhəmiyyətə malik idi. Mehdiçilər üsyanı dövründə Sudan torpaqları ilk dəfə olaraq vahid müstəqil dövlət formasında birləşdi. İlk dəfə olaraq güclü nizami ordu yaradıldı. Yeni şəhərlər ordunun tələbatını ödəmək üçün kiçik sənaye sahələri də meydana gəldi. Müstəqil Sudan dövlətinin yaradılması müxtəlif tayfa və xalqların vahid Sudan xalqı kimi formalaşmasına kömək etdi.

Sudan uğrundakı döyüşlərdə misirlilər tərəfindən 53 min adam iştirak edirdi. Onlar döyüş meydanlarında böyük fədakarlıqlar göstərirdilər. Sərkərdə Mahmud xəlifəyə göndərdiyi məktubların birində döyüşdə fərqlənən misirli əsgərlərə öz təşəkkürünü bildirməyi xahiş etdi.

Mehdiçilər üsyanının təhlükəsi onda idi ki, o qığılcıma çevrilə bilər və bütün müsəlman Şərqini alovlandırardı. Həqiqətən belə bir təşlükə Ərəbi paşanın başçılığı ilə Misirdə baş verən milli-azadlıq hərəkatı zamanı yaranmışdı. Əgər üsyan rəhbərləri arasnda əlaqə yaransa idi, bütün Nil boyunu üsyan bürüyə bilərdi. Lakin misirlilər hələ də sudanlılara öz «vəhşi» təbəələri kimi baxırdılar və buna görə də yaranmış şəraitdən istifadə edə bilmədilər.

Sudan xalqlarının azadlıq mübarizəsi Asiya və Afrikanın bir sıra müstəmləkə və yarımmüstəmləkələrində rəğbət doğururdu. Öz ölkəsinin azadlığı uğrunda mübarizə bayrağı qaldıran yeni allah elçisi haqqında xəbərlər Misirə, İrana, Türkiyəyə, Ərəb Şərqinə və hətta Orta Asiyaya yayılmışdı.

Xəlifə Abdulla, hətta Tunis və Əlcəzairin müsəlman təbliğatçıları ilə əlaqəyə girmişdi. Kafirlər üzərində qələbə xəbərləri burada böyük sevinclə qarşılandı. Tunis mühacirlərindən çoxu Dənqələdən Sudana keçərək üsyançılarla birləşdi. Hindistan

əyalətlərinin birində də islam dinini təbliğ edən və xalqı mübarizəyə səsləyən dərviş meydana gəlmişdi. Sudanda olduğu kimi Somalidə də Mehdiçilər hərəkatı baş vermişdi. Hərəkatın başında isə vətənpərvər, qorxmaz molla Məhəmməd bin Abdulla dururdu.

Artıq 1900-cü ildə Britaniyanın müstəmləkələrinin sahəsi 11 605 233 kv mil, əhalinin sayı isə 345 222 000 nəfər idi. Beləliklə İngiltərə və Fransa ərazi bölgüsündə dərin fikir ayrılıqlarına baxmayaraq, nəhayət Şimali Afrikanı öz aralarında bölə bildilər.

Sudan birinci dünya müharibəsi illərində: Birinci dünya müharibəsi illərində Sudan əsas hərbi əməliyyat meydanından kənarda qalmışdı. Lakin Sudan hərbi qüvvələri Antantanın tərəfində Şərqi Afrikada, Fransız Ekvatorial Afrikasında Almaniyaya qarşı müharibədə iştirak etdi. Bununla yanaşı, Sudan hərbi qüvvələri Sinay yarımadasında Süveyş kanalı zonasında mühafizə xidməti edirdilər. 1915-ci ildə Sudan fəhlə batalyonları Dardanelə göndərilmişdilər. Müharibə illəri ərzində Sudanın sənaye və kənd təsərrüfatında müəyyən irəliləyişlər baş vermişdi. İngilis komandanlığı Sudanın xammal və ərzaq ehtiyatlarından geniş miqdarda istifadə etməyə məcbur olmuşdu.

Sudan Misir və Britaniya hərbi qüvvələrini ərzaq və başqa məhsullarla təmin edirdi. Sudandan 169 min t.taxıl, 318 min qoyun, 61 min baş iri buynuzlu mal-qara, 17 min dəvə və sairə aparılmışdı.

Birinci dünya müharibəsi illərində İngiltərə ağalığından azad olmaq üçün Əli Dinar üsyan qaldırdı. Bu mübarizədə o, Osmanlı dövlətinin hərbi komandanlığı ilə əlaqə yaratmış və güclü düşmənə qarşı türklərin köməyindən istifadə etmək qərarına gəlmişdi. Kordofan qəbilələri və bir sıra digər tayfa-qəbilə başçıları sultana hərbi cəhətdən fəal kömək edəcəklərini vəd etdilər.

Osmanlı dövlətinin hərbi naziri Ənvər paşanın 3 fevral 1915-ci ildə Əli Dinara göndərdiyi məktub ingilislərin əlinə keçdi. Burada bütün müsəlmanların birləşməsinin zəruriliyi və Əli Dinarın haqq işi uğrunda mübarizədə qələbə çalacağına inamı ifadə edilmişdi. Sənusilərin yanına hərbi məsləhətçisi kimi ezam olunmuş Ənvər paşanın əmisi oğlu Nuri paşa 1915-ci ilin avqustunda Əli Dinarla əlaqə yarada bildi. O, Əli Dinardan Dərfur ordusu və onun ehtiyatları haqqında kifayət qədər məlumat əldə etdikdən sonra bu mübarizədə

qələbə çalmaq üçün qonşu ərəb ölkələri ilə əlaqələr qurmağın vacibliyini də vurğuladı. Əli Dinarın Osmanlı hərbi ko-mandanlığı və Liviyada Sənusilər arasında əlaqələri tədricən genişlənirdi. 12 mart 1915-ci ildə Əli Dinar İngiltərə ilə dostluq münasibətlərini qırmaq və «kafirlərə» qarşı silahlı mübarizəyə başlamaq istəyini Ənvər paşaya çatdırdı.14 aprel 1915-ci il də Əli Dinar Sudan hakimiyyətinə müəyyən edilmiş məbləğdə vergini verməkdən imtina edərək, Dərfurün tam müstəqilliyini açıq şəkildə elan etdi. 28 yanvar 1916-cı ildə Əli Dinar Sənusi ilə danışıqlarında yaxın vaxtlarda müqəddəs müharibəyə başlayacağını əminliklə bildirdi.

Dərfur sultanının hərbi hazırlığı və Sənusilərlə əməkdaşlıq Antantaya, o cümlədən Böyük Britaniyaya qarşı düşmən qüvvələrin birləşməsi prosesindən xəbər verirdi ki, bunu İngiltərə ciddi təhlükə kimi qarşıladı və bu istiqamətdə hazırlıq işlərinə başldı. Bununla yanaşı Sənusilərin köməyi ilə dərfurluların silahlı çıxışı Şimal-Şərqi Afrika ölkələrindən bir neçəsinin ərazisində antiimperialist üsyana səbəb ola bilərdi. İngilis müstəmləkəçiləri üçün vəziyyət təhlükəli xarakter almışdı və Dərfura qarşı birinci onlar hərbi əməliyyatlara başladılar.

Martın əvvəllərində polkovnik A.V.Kelli başda olmaqla 2 minlik ingilis-Misir qoşunları dəstəsi Nahud dağı yaxınlığında Dərfur sərhədlərinə yaxınlaşdı. Dəstənin tərkibində hər cür qoşun növü vardı: piyadalar, dəvə «kavaleriyası», artilleriya, 3 kəşfiyyatçı təyyarə. Top və tezatılan tüfənglərdən başqa dəstə «Makenli» sistemli 20 pulemyotla silahlandırılmışdı. Sultanlığın sərhəddini keçəndən sonra Kellinin qoşunları əl-Fəşer şəhərinə yaxınlaşdılar və mayın 22-də onun cəmi 12 milində idilər. Hücuma Əli Dinar başladı, lakin bu yürüş qan içində boğuldu. Əli Dinarın 2500 nəfərlik qoşunundan 1700 nəfər həlak olmuş və yaralanmışdı. Əli Dinar məğlub olmasına baxmayaraq, dəstələrin qalıqlarını yenidən təşkil edərək, gecə hücuma keçdi, lakin bu dəfə də müvəffəqiyyət qazana bilmədi.

23 may 1916-cı ildə səhər vaxtı sultanlığın paytaxtı polkovnik Kellinin qoşunları tərəfindən tutuldu. Qoşunlarının qalığı ilə Əli Dinar Kəbəl-Mərrin qərb hissəsinə çəkildi və 6 noyabr 1916-cı ildə ingilislərlə döyüşdə həlak oldu.

1919-cu ildə Parisdə ingilis-fransız konvensiyası imzalandı. Konvensiyaya görə Dər-Məsalit və Dər-Kimr ingilis-Misir Sudanına, Dər-Təma və Dər-Sula isə fransız mülklərinə aid edilirdi. Bundan əvvəl imzalanmış bir sıra ingilis-Misir sazişləri ilə Sudanın cənub və qərb sərhədləri müəyyənləşdirilmişdi. 1894-cü il sazişi ilə İngiltərənin II Leopolda verdiyi «Lado ekklavı», 1910-cu ildə onun ölümündən sonra yenidən Cənubi Sudana birləşdirildi. 1905 və 1913-cü illər ingilis-fransız razılaşmaları Sudanla Uqanda arasındakı sərhədləri müəyyənləşdirdi. 1902-ci il İngiltərə-Efiopiya sazişi Sudan, Efiopiya və Eriteriya arasındakı sərhədləri müəyyənləşdirdi. 1914-1918-ci illər birinci dünya müharibəsi Afrika müstəmləkələri uğrunda mübarizədə köhnə rəqiblər olan İngiltərə və Fransaya qələbə gətirdi. Məğlub Almaniya özünün bütün Afrika müstəmləkələrindən məhrum oldu. Versal sülhünə görə əvvəllər Almaniyaya məxsus olan 1905 min kv. km. Afrika ərazisi- Almaniya Şərqi Afrikası, Almaniya Cənub-Qərbi Afrikası, Toqo və Kamerunun bir hissəsi İngiltərənin əlinə keçdi.

Müstəmləkə asılılığında olan ölkələrdə milli-azadlıq hərəkatları başlamışdı. Sudandakı antiimperialist mübarizə də yeni formalar aldı. Bu mübarizə Misir milli inqilabının güclü təsiri altında gedirdi. Sudan cəmiyyətinin qabaqcıl nümayəndələri Misirdəki inqilabi hadisələri maraqla izləyir və haqlı olaraq öz vətənlərinin azad olması mümkünlüyünü Misir inqilabının qələbəsi ilə bağlayırdılar.

O illərdə Sudanda çoxlu misirli də yaşayırdı. Bunlar dövlət məmurları, hərbçilər (Xartumda 2 Misir batalyonu yerləşdirilmişdi), mühəndis və texniklər, sudanlılar üçün açılan Misir məktəblərinin müəllimləri, ticarət kompaniyalarının işçiləri və başqaları idilər. Misirlilərin əksəriyyəti vətənlərində gedən azadlıq mübarizəsinə rəğbət bəsləyir, vəfdizm ideyalarını müdafiə edirdilər. Bu dövrdə bütün Nil düzənliyi xalqlarının ingilis imperializminə qarşı birgə mübarizəsindən Misirdə, həm də Sudanda danışırdılar.

# ƏLCƏZAİR

*Əlcəzairin fransızlar tərəfindən işğal edilməsi*

Hələ 1577-ci ildə bağlanmış müqaviləyə əsasən Fransa Əlcəzairdə konsulluq açmaq, şərq sahillərində ticarət və bizneslə məşğul olaraq, vergi ödəmək, 1578-ci ildən isə qala tikmək şərti ilə mərcan toplamaq hüququna dair Osmanlı dövlətindən icazə almışdı. XVIII yüzillikdə də Fransa-Əlcəzair münasibətləri normal olmuşdur. Bu münasibətlər yalnız Napoleon Bonapartın hakimiyyətə gəlməsindən sonra pozulsa da, krallıq dönəminin başlanması ilə yenidən normal məcraya düşmüşdü.

1533-cü ildə türk admiralı Barbaros Xeyrəddin paşa tərəfindən fəth edilən Əlcəzair, Tunis və Trablisqap birlikdə Osmanlı imperiyasında ayrıca bir vilayət olaraq Qərb ocaqları adı ilə idarə edilirdi. Osmanlı imperiyasının ordusunda muxtar dəniz qüvvələri statusuna malik olan Qərb ocaqları İstanbulun Qərbi Ağ dəniz hövzəsində hakim rol oynamasında mühüm əhəmiyyət daşımışdır. Əlcəzairin fəth edilməsindən sonra sultan Barbaros Xeyrəddini buraya ilk bəylərbəyi olaraq təyin edilir. Lakin Barbaros Xeyrəddin təcrübəli hərbçi olsa da, inzibati və sosial-ictimai idarəetmə sahəsində kifayət qədər səriştəyə və təcrübəyə malik olmadığından Qərb ocaqları tezliklə iqtisadi cəhətdən istənilən səviyyəyə çata bilmədiyindən tənəzzül etməyə başladı. Bundan isə yerli Yeniçəri ocağı istifadə etdi. 1671-ci ildə burada deylərin hakimiyyətə gəlməsi müəyyən dərəcədə Əlcəzair tarixində yeni mərhələ kimi qiymətləndirilir. Çünki deylərin hakimiyyətə gəlməsi ilə Əlcəzairin istər daxili, istərsə də xarici siyasətində müstəqilliyin daha çox özünə yer alması nəzərə çarpırdı. Bununla belə daxili siyasətdə müstəqil olub, xarici siyasət məsələlərində, hətta müharibə elan etmək və sülh bağlamaq hüququna malik olan deylər hüquqi nöqteyi-nəzərdən Osmanlı imperiyasına tabe idi.

Şimali Afrikada ilk müstəmləkə ərazisinə çevrilən Əlcəzairin geostrateji mövqeyi ona istər Avropa, istərsə də regionun digər dövlətləri ilə sıx əlaqələr qurmağa imkan verirdi. Lakin XVIII yüzilliyin əvvəlləriədək Əlcəzair bu təbii-coğrafi imkandan səmərəli

istifadə edə bilməmiş və əsasən Qərbi Ağ dəniz hövzəsində ticarət gəmilərinin qarət edilməsi ilə məşğul olmuşdur. Bu səbəbdən də bir sıra dövlətlər Əlcəzair ilə ticarətin sabitliyinə dair müxtəlif səpgili müqavilələr bağlamaq məcburiyyətində qalmışdılar. Lakin XVIII yüzilliyin əvvəllərindən etibarən Avropa dövlətlərinin sənaye inkişafı Ağ dənizdə üzləşdikləri bu maneəni aradan qaldırmağa imkan verdi. Belə ki, daha müasir hərbi və ticarət gəmiləri ilə fəaliyyət göstərən həmin dövlətlər nəinki Əlcəzairlə ticarət müqaviləsi imzalamaqda maraqlı idilər, əksinə Əlcəzairin özünü işğal etmək haqqında planlar hazırlayırdılar. Bu halda, Avropa dövlətləri yüksəlməkdə olan kapitalizmin xammal və satış bazarını təmin etməklə bərabər, həm də iqtisadi və ticarət təhlükəsizliklərini təmin etmək istəyirdilər. Bu mənada, İngiltərə digər Avropa dövlətlərinə münasibətdə daha irəli getmişdi. Belə ki, 1798-ci ildə Əbukirdə Fransanı məğlub edən ingilislər, Ağ dənizdə ağalığı ələ keçirməyə müvəffəq olmuşdular. Digər tərəfdən isə, 1815-ci il Vyana konfransının qərarına əsasən İngiltərə bütün dünyada Korsak hərəkatını aradan qaldırmaq səlahiyyəti almışdı ki, bu da Ağ dənizdə quldurluq və soyğunçuluqla məşğul olan Əlcəzair gəmilərinə qarşı müvafiq ölçü götürmək imkanı verirdi. Bu mənada, Əlcəzairin Ağ dənizdə gəmiçilik fəaliyyətinə son qoymaq məqsədilə İngiltərənin Prussiya və Avstriya ilə müqavilə imzalamasını da göstərmək olar. 1815-ci ildə Avstriya və Prussiya ilə müqavilə imzalayan İngiltərə dərhal Əlcəzairə hərbi donanma göndərərək, buradakı Hollandiya donanmasına məxsus gəmilərlə birləşdirdi və buranı top atəşinə tutmağa başladı. 1816-cı ildə Əlcəzairin bütün gəmiləri batırıldı. Bütün dəniz qüvvələrini itirən Əlcəzair, nəticədə İngiltərə və Hollandiya ilə sülh müqaviləsi imzalamaq məcburiyyətində qaldı. Müqavilənin şərtlərinə əsasən Əlcəzair buradakı bütün xristian əsirlərini azad edir, dənizdə hər hansı hərbi əməliyyatlara son qoyur, müharibədə məğlub olduğuna görə İngiltərə və Hollandiyaya təzminat ödəyirdi. Osmanlı imperiyasına sıx bağlı olmayan Əlcəzair həm öz məğlubiyyəti, həm də Osmanlı dövlətinin Rusiya ilə 1826-1828-ci illərdə apardığı müharibədə məğlubiyyəti ilə əlaqədar tamamilə zəifləmiş oldu. Bu isə, ilk növbədə, ölkənin sosial-iqtisadi həyatında özünü büruzə verdi. Yaranmış yeni vəziyyətdə Avropa dövlətləri Əlcəzairin işğalı məsələsini gündəmə gətirdilər.

İngiltərənin Rusiya ilə münasibətlərində kəskin vəziyyət yarandığını nəzərə alan Fransa Əlcəzairin işğal edilməsi üçün əlverişli imkan əldə etmişdi. İngiltərənin Rusiya ilə münasibətlərində kəskin ziddiyyətlərin yarandığını nəzərə alan Fransa Əlcəzairin işğal edilməsi üçün əlverişli imkan və məqamdan istifadə etməyi qərara aldı.

Qeyd edək ki, XIX yüzilliyin əvvəllərində Əlcəzair feodal dağınıqlığı dövrünü yaşayırdı. Qəbilələr arasında daxili müharibələrin mövcudluğu yeniçərilərin bu vziyyətdən istifadəsinə və nəticədə öz hakimiyyətlərinin möhkəmlənməsinə şərait yaradırdı. Lakin əslində yeniçəri hökumətinin hakimiyyəti şəhərlərdə və sahil rayonlarında daha möhkəm idi, köçəri qəbilələr içərisində onların hakimiyyəti kifayət qədər tanınmırdı. Hətta Ş.A.Jülenin fikrincə deyin hakimiyyəti ölkənin 1/6 hissəsini əhatə edirdi.

XIX yüzilliyin əvvəllərində bir sıra şəhərlər inkişaf edirdi. əhalisinin sayı 150 min nəfərə çatan Tələmsən xarici ticarət sahəsində digər şəhərlərdən fərqlənirdi. Tələmsən tacirləri kənd təsərrüfatı məhsullarını əsasən Mərakeş, Tunis və Konstantin şəhərləri ilə aparırdı.

Əlcəzairdə dini qardaşlıq cəmiyyətləri geniş yayılmışdı. Qədiriyyə dini qardaşlıq cəmiyyətinin nüfuzu Əlcəzairin mühüm mərkəzlərində, xüsusilə Oran və Tələdə geniş yayılmışdı. Bundan başqa Təyyibiyyə, Ticiniyyə, Dərkəviyyə kimi dini qardaşlıq cəmiyyətləri də mövcud idi.

İrəlidə qeyd etdiyimiz kimi, müttəfiqlərlə məğlubiyyətdən sonra kifayət qədər zəifləmiş və bütün donanmasını itirmiş Əlcəzairin zəbt edilməsi asanlaşmış və bu işğal Fransaya daha çox əlverişli imkan aça bilərdi. Bu halda, o, Qərbi Ağ dəniz hövzəsində ağalığı öz əlinə alırdı ki, bu da onun əsas rəqibi olan İngiltərə gəmilərinin Aralıq dənizinə girmələrinə nəzarət məsələsini həll etmiş olurdu. Lakin Əlcəzairin işğal edilməsi üçün şərait yaranmasına baxmayaraq, Fransa müvafiq bəhanəni tapa bilmirdi. Belə bir bəhanə isə Fransanın Əlcəzairə olan borcu ilə əlaqədar yaranmış vəziyyət oldu. Belə ki, Direktoriya hökumətinə borc vermiş Əlcəzair deyi izmirli Hüseyn paşa həmin dövr Fransadan borcların geri qaytarılmasını tələb etdi. Lakin Fransa hökuməti bu borcları qaytarmaq istəmirdi. Belə olduğu təqdirdə Hüseyn paşa Əlcəzair sahillərindəki bir neçə fransız gəmisini girov götürdü və borcların

dərhal ödənilməsini Fransa hökumətindən tələb etdi. Yaranmış vəziyyəti biləndən gərginləşdirən Fransa səfirinin hərəkətlərindən əsəbləşən Hüseyn paşa 29 aprel 1827-ci ildə əlindəki yelpinclə onun üzünə vurdu. Bu hadisədən hiddətlənən Fransa hökuməti bunu öz elçisinə və Fransaya təhqir hesab etməklə Əlcəzairlə bütün əlaqələrin kəsildiyini bəyan edərək ona qarşı müharibə elan etdi. Bundan sonra, sürətlə müharibəyə hazırlaşan Fransa həmin il iyun ayının 16-da böyük bir hərbi qüvvə ilə Əlcəzairi donanmadan top atəşinə tutmağa başladı. Az sonra isə, Fransa Osmanlı dövlətinə qarşı da müharibə xarakterli bir neçə nota verdi. 1827-ci ilin avqust ayında verilmiş həmin notaları İstanbul rədd etdi.

Qeyd edək ki, həmin dövr Osmanlı dövlətinin vəziyyəti həddən artıq ağır idi. Belə ki, Moreyada başlanmış üsyan faktiki olaraq iri dövlətlərin Osmanlı dövlətinin daxili işlərinə qarışması üçün əlverişli imkan yaratdığından bu həm də Avropa siyasi səhnəsində siyasi qüvvələr nisbətində yerdəyişmələrə gətirib çıxarmışdı. Digər tərəfdən, bu dövr Rusiyanın Osmanlı dövlətinə qarşı aparmaqda olduğu hərbi əməliyyatlar da İstanbulun Əlcəzair məsələsinə hərtərəfli yanaşmasına imkan vermirdi. Belə bir vəziyyətdə Osmanlı hökuməti Əlcəzair işlərinə qarışmamaq haqqında qərar qəbul etdi. Bu qərar, ilk növbədə, Osmanlı dövlətinin Əlcəzairə donanma çıxara bilməməsi səbəbindən irəli gəlirdi. Hərbi-siyasi proseslərin belə bir axında təkamül etdiyi dövrdə həm də digər faktor da ön planda idi. Bu da Fransanın Əlcəzairə hücumundan bir qədər sonra 1827-ci il sentyabrın 20-də İngiltərə, Fransa və Rusiyanın Navarində Osmanlı donanmasını məğlub etməsi idi. 1828-ci ildə fransızların Moreyanı işğal etməsi və rus-türk müharibəsinin rusların qələbəsi ilə başa çatması faktiki olaraq Avropada siyasi qüvvələr nisbətinin dəyişməsinə gətirib çıxarmışdı. Bu səbəbdən də Fransa Əlcəzairi qəti və tam olaraq işğal etməkdən çəkinir və bunu Osmanlı imperiyasında kifayət qədər müstəqil siyasət yeridən Məhəmməd Əlinin vasitəsilə etmək istəyirdi. Lakin İngiltərə və Avstriya buna mane oldu. Əslində Məhəmməd Əli Fransanın təklifinə razılığını bildirmişdi. Bu razılaşmada müəyyən edilməyən məsələ yalnız Məhəmməd Əlinin bu xidməti müqabilində nə qədər pul alacağı idi.

Belə bir vəziyyətdə, X Karlın Polinyak hökuməti müstəqil hərəkət etmək qərarına gəldi.30 iyun 1830-cu ildə 37 minlik fransız qoşunu general Burmonun başçılığı altında Əlcəzair sahillərinə çıxarıldı və Əlcəzairdən 23 km aralıda yerləşən Sidi-Ferruşda yerləşdirildi. Əlcəzairlilər güclü müqavimət göstərmələrinə baxmayaraq, fransızların müasir hərbi texnikası qarşısında tab gətirə bilmədilər və iyulun 4-də İmperator Fortu təslim etdilər. Həmin gün də Əlcəzair danışıqsız təslim olmaq haqqında müqavilə imzaladı. İyulun 5-də isə Fransa qoşunları Əlcəzairə daxil oldu. 23 iyul 1830-cu ildə dey Əlcəzairdən sürgün edildi. Osmanlı yeniçəriləri isə İstanbula göndərildi. Fransızlar 48 milyon frank həcmində Əlcəzair xəzinəsini qarət etdilər, onlarla əlcəzairlinin mülkünü və evini əllərindən aldılar. İki həftə sonra isə Fransada inqilab baş verdi. X Karl taxt-tacdan salındı. General Burmon öz qoşunları ilə krala köməyə gəlmək istədisə də, əsgər və matrosların güclü müqavimətinə rast gəldi. Ordu tərəfindən qəbul olunmayan Burmon Portuqaliyaya qaçmaq məcburiyyətində qaldı.

Lui Filipp Orleanskinin monarxiyası Burbonların Əlcəzair varisliyini qəbul etdikdən sonra, onların başlamış olduğu müharibələri davam etdirmək qərarını verdi. 1834-cü ildə «Afrika komissiyası»nın təqdimatına əsasən Lui Filipp Əlcəzairin Fransaya birləşdirildiyini elan etdi. Bununla əlaqədar, Şimali Afrikada Fransa mülkləri məsələlərini həll edən mülki inzibati qurum da yaradıldı. Yeni qurumu kralın təyinatına əsasən general-qubernator idarə edirdi. Bu dövr üçün Fransa Əlcəzairin Bon, Oran, Mostaqanem, Arzev, Buji kimi şəhərlərini, eləcə də Əlcəzair Sahel və Miticini tutmuşdular. Ölkənin qalan əraziləri fransızların hakimiyyətinə tabe olmur və müstəqil yaşamağı üstün tuturdular.

*Əbdul Qədirin başçılığı altında xalq hərəkatı*

Əlcəzairi tutduqdan sonra 15 gün ərzində bütün krallığın Fransaya tabe olacağını bildirən general Burmonun proqnozu özünü doğrultmadı. Fransızlar bu ölkəni 40 il fasiləsiz müharibə apardıqdan sonra, güclə əhalinin müqavimətini qıraraq tuta bildilər. Lakin bu «müvəffəqiyyət» də, əslində nominal xarakter daşımışdır. Çünki heç bir xalq digərinin onu əsarətdə saxlamasını qətiyyən qəbul edə bilməz və əlcəzairlilər də, bu mənada istisnalıq təşkil etməmişlər. Əlcəzairin, hətta XX

yüzillikdə də azadlıq müharibəsini davam etdirməsi artıq tarixi bir faktdır. Həmin mübarizə isə fransızların Əlcəzairdə möhkəmlənməyə başladığı ilk günlərdən vüsət almışdır.

Bu mübarizəyə Əlcəzairdə başçılıq edən tarixi şəxsiyyətlər, ölkənin qərbində fransızlara qarşı müqavimət hərəkatının lideri Əbdül Qədir, şərqində isə Konstantin vilayətinin bəyi Əhməd olmuşdur. Əbdul Qədir 1808-ci ildə Məhməddinin marabut ailəsində doğulmuşdu. Qədiriyyə dini qardaşlıq təşkilatına rəhbərlik edən atası Qərbi Əlcəzairdə uzun illər türklərə, sonra isə fransızlara qarşı mübarizə və müqavimət hərəkatına başçılıq etmişdir ki, bu faktor da Əbdül Qədirin siyasi dünyagörüşünün formalaşmasına az təsir göstərməmişdir. Əbdül Qədir ilahiyyat təhsili almış, fransızların təcavüzünədək Məkkəyə gedərək həcc ziyarəti etmiş, Misir və Bağdadda olmuşdur. Həmin səyahətlər də onun mükəmməl bir lider kimi formalaşmasına müsbət təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, Əbdül Qədir adi bir marabut olmamışdır. O, cəsur döyüşçü, mahir və məharətli at sürən, dəqiq atıcı, bacarıqlı və səriştəli sərkərdə idi. O, gözəl natiqlik qabiliyyətinə malik olmaqla bərabər, həm də geniş kütləni öz arxasınca aparmağa qabil olan lider kimi də xalq arasında böyük nüfuza və hörmətə sahib idi.

Bu şəxsi keyfiyyətlərinə görə də, 1832-ci ildə fransızlara qarşı mübarizə aparan ərəb tayfaları Əbdül Qədiri özlərinin başçısı seçdilər. Əbdül Qədirin mili azadlıq hərəkatına rəhbər, yaxud lider seçilməsi yalnız fransızlara qarşı aparılan mübarizəni təşkil və ona rəhbərlik etməkdən ibarət deyildi. O, eyni zamanda Əlcəzairdə mövcud olan feodal və tayfa pərakəndəliyini aradan qaldırmalı, əsrlərlə davam edən tayfa çəkişmə və qarşıdurmalarına son qoymalı, bütün xalqı bir məqsəd ətrafında – fransızların Əlcəzairdəki ağalığına son qoyulması uğrunda aparılan mübarizə ətrafında birləşdirməli idi. Həqiqətdə də Əbdül Qədir ölkənin ictimai-siyasi həyatında özünə yer almış həmin faktorları aradan qaldırmadan milli-azadlıq hərəkatını uğurla davam etdirə bilməzdi. Onun xalqın ifadə etdiyi maraqlar mövqeyindən çıxış etməsi aparılan mübarizənin daha mütəşəkkil xarakter almasına hərtərəfli şərait yaradırdı.

Partizan müharibəsinin klassik qaydalarından məharətlə istifadə edən Əbdül Qədir fransızlara Qərbi Əlcəzairdə hiss edilən zərbələr endirirdi. Vəziyyətin onlar üçün əlverişsiz xarakter aldığını

görən fransızlar burada bütün əhaliyə qarşı cəza tədbirlərinin həyata keçirilməsinin qeyri mümkünlüyünü artıq açıq şəkildə dərk edirdilər. Mübarizə xalq hərəkatı səviyyəsinə yüksəldiyindən, fransızların bir döyüşdə həlledici qələbə qazanaraq, işğalı başa çatdırması qeyri mümkün olmuşdu. Həmin dövr üçün fransızlar Əbdül Qədir qüvvələri arasında onlara yardım edəcək narazı qüvvələri tam olaraq müəyyən edə bilməmişdilər. Qeyd edək ki, Əbdül Qədirin daxili siyasətindən narazı olan qüvvələr də mövcud idi və bu qüvvələri əsasən feodal təbəqə təmsil edirdi. Buna səbəb isə onlara yüksək vəzifələrin həvalə edilməməsi idi. Fransızlar da bu narazı qüvvələrdən məqsədyönlü şəkildə istifadə etməyə can atırdılar. Ona görə də fransızlar iki il davam edən müharibədən sonra həm bu qüvvələrin müəyyən edilməsi, həm də ordunu yenidən səfərbər etmək məqsədilə 1834-cü ildə Əbdül Qədir ilə danışıqlara başlamaq məcburiyyətində qaldı və həmin il Demişel müqaviləsi bağladılar. Qeyd etməliyik ki, Əbdül Qədirin yenidən revanş götürməsi üçün də bu müqavilənin bağlanması vacib idi. Bu halda, o, həm öz ordusunu yenidən təchiz etməyə və həm də onun üçün vacib olan vaxtı udmağa müvəffəq olurdu. Bu müqavilə ilə fransızlar üç sahil şəhəri istisna olmaqla bütün Qərbi Əlcəzairi Əbdül Qədirin başçılıq etdiyi yeni ərəb dövləti kimi tanıyırdılar. Həmin dövr Əbdül Qədir artıq əmir əl-möminin titulunu qəbul etmişdi. Lakin Əbdül Qədir yeni ərəb dövlətinin yaranmasını bəyan etmək fikrində deyildi. Çünki o, mübarizəyə başlayanda Əlcəzairdə hər hansı yeni bir dövlətin yaradılmasını deyil, fransız işğalçılarını Əlcəzairdən qovmağı qarşıya məqsəd qoymuşdu.

Kifayət qədər böyük olan yeni ərəb dövlətinin başçısı hesab edilməsinə baxmayaraq, Əbdül Qədir çox sadə bir həyat tərzi sürmüşdür. O, köçərilərin həyat tərzindən uzaqlaşmamış, qiymətli paltarlar geyinməmiş, bütövlüklə köçəri məişətinə sadiq qalmış, özü üçün təmtəraqlı saray və imarətlər tikdirməmiş və adi köçəri çadırında yaşamışdır. Onun bütün əmlakı çox da böyük olmayan qoyun sürüsündən və torpaq sahəsindən ibarət olmuşdur. Ən qiymətli əmlakı isə özünün həvəslə toplayıb formalaşdırdığı kitabxana olmuşdur. Əbdül Qədir tayfaların xəzinəyə ödədiyi vergilərdən, yalnız apardığı mübarizənin ehtiyacları üçün maliyyə məsrəfləri sərf edirdi. Bu isə formalaşdırdığı 80 minlik ordunun təchizatı və

tələbatının ödənməsi idi. Bu ordunun 70 min nəfəri könüllü, 10 min nəfəri isə nizami orduda təmsil olunmuşdu. Ordunun müvafiq təlim görməsi üçün o, Mərakeş və Tunisdən, eləcə də Avropadan təcrübəli zabit və təlimatçılar dəvət etmişdi. Mərakeş sultanı Əbdül Qədirə fransızlara qarşı apardığı mübarizədə hərtərəfli yardım göstərirdi.

Belə bir ordunun təchiz edilməsində Əbdul Qədir həm ənənəvi, həm də yeni fövqəladə metodlardan istifadə edirdi. Onun hakimiyyət dairəsinə düşən ərazilərdə Əbdül Qədir məhsulun $^{1}/_{10}$ hissəini təşkil edən uşr, hər baş mal-qaraya görə isə fövqəladə vergi yığırdı. Onun sosial bazasının əsasını ruhani müsəlmanlar və bədəvi ərəblər təşkil edirdi. Əbdül Qədirin hakim olduğu ərazilərdə ictimai quruluş feodalizm quruluşu kimi xarakterizə edilirdi. Ona görə də o, hakim feodal sinfinə qarşı açıq mübarizə aparmırdı və bunu qarşısına məqsəd olaraq da qoymurdu. Bu həm də başlanmış ümummilli mübarizənin uğurla başa çatdırılması nöqteyi-nəzərindən məqsədə-uyğun bir mövqe kimi qəbul olunmurdu.

Əbdül Qədirin hakim olduğu ərazilər doqquz inzibati mərkəzə bölünmüşdü. İnzibati vahidliyin rəhbərliyinə isə əsasən marabutlar təyin olunmuşdu ki, bu da Əbdül Qədirin hakim sinfə etimad etmədiyinin təzahürü idi. Ona görə də, onun vəzifə vermiş olduğu feodallar belə Əbdül Qədirə xəyanət etməyə, onu fransızlara satmağa və cəmiyyətdə özlərinin hakim mövqelərini bərqərar etməyə hazır idilər. Buna görə idi ki, həmin feodalların qiyamları və xəyanəti Əbdül Qədirin dövlətinə fransızların vurduğu zərbədən daha ağır idi və onu daxildən zəiflədirdi.

Belə bir vəziyyətdə, 1835-ci ildə fransız generalları müharibə elan etmədən Qərbi Əlcəzairə qoşun yeritdilər. İki il davam edən müharibədə fransızlar məğlub oldular və 30 may 1837-ci ildə bağlanmış Tafn müqaviləsinə əsasən Fransa nəinki Əbdül Qədirin hakimiyyətini Qərbi Əlcəzairdə, hətta Mərkəzi Əlcəzairdə də tanıdıqlarını təsdiqlədilər. Lakin bütünlüklə Əlcəzairi işğal etməyi qarşılarına məqsəd qoyan fransızların belə bir müqaviləni imzalamaları, onların yeni müharibəyə hazırlaşmaları üçün fasilə əldə etmək və taktiki manevr etmək, eləcə də əsas antifransız müqavimət hərəkatı mərkəzlərindən biri olan Konstantinə hücum etmək planlarından irəli gəlirdi.

*Konstantinin tutulması. Əbdul Qədirin ikinci müharibəsi*

Fransızlara qarşı mübarizə aparan ikinci müqavimət mərkəzi Əhmədin əsas qərargah seçdiyi Konstantin idi. 1836-cı ilin qışında Konstantini tutmaq cəhdi boşa çıxdıqdan sonra Əbdül Qədirlə 1837-ci ildə Tafn müqaviləsi imzalayaraq, onu neytrallaşdıran fransızlar, həmin ilin oktyabrında Konstantinə hücum etməyə başladılar. Müqavimət hərəkatına başçılıq edən Əhmədin Əbdul Qədirlə vahid düşmənə qarşı birgə mübartzə aparmaması ağır nəticələrə gətirdi. Əbdul Qədiri feodalların dövlət işlərindən uzaqlaşdırılmasında günahlandıran Əhmədin səhvi alınmaz qala hesab edilən şəhərin işğal edilməsinə zəmin yaradan səbəblər sırasındadır.

Konstantin tutulduqdan sonra burada fransızların özbaşınalığı başlandı. Əhali müstəmləkəçilərin özbaşınalığına qarşı müqavimət göstərsə də, bu müqavimət qeyri-mütəşəkkil olmaqla bərabər, vahid idarəçilikdən də məhrum idi. Ona görə də, üsyançılar hərəkata başçılıq etmək üçün Əbdül Qədiri Konstantinə dəvət etdilər. Bu halda, onlar Şərqi Əlcəzairi də Qərbi və Mərkəzi Əlcəzairə birləşdirilməsinə etiraz etmədiklərini bildirirdilər. Vəziyyətin daha təcrübəli və nüfuzlu liderin nəzarəti altına keçəcəyini nəzərə alaraq, fransızlar Əbdül Qədiri 1837-ci il müqaviləsinin şərtlərini pozmaqda günahlandıraraq, 1839-cu ildə ona qarşı hərbi əməliyyatlara başladılar.

Yeni müharibədə fransızlar əvvəlki hərbi əməliyyatlardan fərqli olaraq daha böyük qoşun hissələrindən istifadə etdilər. Marşal Büjonun komandanlıq etdiyi Fransa ordusu dörd il davam edən müharibədə Əbdul Qədirin müqavimətini qıra bildilər. Lakin Əbdul Qədir ona yaxın olan silahdaşları ilə Mərakeşə qaçmağa müvəffəq oldu. Mərakeş sultanının razılığı ilə sığınacaq tapan Əbdul Qədirin burada qalması nəticə etibarilə yeni bir münaqişənin başlanmasına səbəb oldu. Qeyd edək ki, Mərakeşin Əbdul Qədiri dəstəkləməsi təsadüfi deyildi. Belə ki, həmin dövr Mərakeş-ABŞ münasibətləri yüksələn xətt üzrə inkişaf edirdisə, ABŞ-Fransa münasibətləri haqqında bunu qeyd etmək olmazdı. Bu iki ölkə arasındakı münasibətlər kifayət qədər normal deyildi. Ona görə də Əbdul Qədirin Mərakeş sultanı tərəfindən dəstəklənməsi ilə ABŞ Şimali Afrikada müəyyən dərəcədə Fransaya qarşı mübarizə aparırdı. Həmin dövr İngiltərə-Fransa münasibətləri də ziddiyətli idi və

London Fransanın Şimali Afrikadakı müstəmləkəçilik siyasətinə biganə qalmaq fikrində olmadığını açıq şəkildə ifadə edirdi. Əslində Əbdül Qədirin Mərakeşdə sığınacaq tapması ilə yaranan münaqişədə fransızlar hərbi qələbələr əldə etsələr də, bunu diplomatik və siyasi cəhətdən əsaslandıra bilmədilər. Bu mənada, 1844-cü il Mərakeş-Fransa müharibəsinə nəzər yetirmək məqsədəuyğun olar.

Əbdül Qədirin Mərakeşdə sığınacaq almasına qəti etiraz edən marşal Büjo onun Fransaya verilməsini tələb edən ultimatum verdi. Mərakeş sultanı Mulay Əbdür Rəhman buna rədd cavabı verdikdən sonra Fransa böyük və müasir silahlarla təchiz olunmuş ordu ilə Mərakeşə soxuldu. 14 avqust 1844-cü ildə İsli çayı yaxınlığındakı döyüşdə Mərakeş qoşunları ağır məğlubiyyətə uğradı. Həmin dövr Fransa şahzadəsi Juanvil avqustun 6-da Təncəri, 15-də isə Moqadir şəhərlərini bombardman etdi. Fransızların Mərakeşdə qəti olaraq möhkəmlənməsinə İngiltərə mane oldu.10 sentyabr 1844-cü ildə bağlanmış Təncər müqaviləsinə əsasən fransızların qələbəsi faktiki olaraq heçə endirildi. Fransa qoşunları Mərakeşi tərk etdilər. Lakin Mulay Əbdür Rəhman Əbdül Qədirin Mərakeşdən çıxarılması və Əbdül Qədirə yardım etmiş zabitlərin tənbeh edilməsinə dair əmr vermək məcburiyyətində qaldı. Təncər müqaviləsi Mərakeşlə Əlcəzair arasındakı sərhəddi Aralıq dənizi boyunca müəyyən etsə də, digər ərazilərdə bu hal müqavilədə öz əksini tapmadı ki, bu da gələcək münaqişələr üçün əsas yaradırdı.

Təncər müqaviləsinin imzalanmasından sonra Əbdül Qədir Əlcəzairə qayıdaraq, yenidən partizan müharibəsinə başladı. Həmin dövr ölkənin şimalında Oran və Əlcəzair arasındakı rayonlarda fransız müstəmləkəçilərinə qarşı üsyan başlamışdı. Üsyana çoban Bu Maza başçılıq edirdi. Üsyanın baş verməsinə səbəb fransızların bütün Əlcəzairdə əhalinin torpaq əmlakını özününküləşdirməsi idi. 8 sentyabr 1830-cu il üçün artıq bütün Əlcəzairdə yaşayan türk torpaqları müsadirə edilərək Fransa dövlətinin mülkiyyəti halına gətirilmişdi. 1833-cü il martın 1-də sənədləri olmayan torpaqların müsadirə edilməsi haqqında qanun qəbul edildi. Bundan sonra, qiyamçı tayfaların torpaqlarının müsadirəsinə başlandı. 1839-cu ildə isə həmin tayfaların torpaqlarının müsadirəsi başa çatdırıldı. Əslində həmin tayfalar çoxluq təşkil etmirdi. Mitici və Əlcəzair Saxeli tayfaları qiyam və üsyanların əsas hərəkətverici qüvvələri

olduğundan fransızlar əsasən bu iki tayfanın torpaqlarını müsadirə etdilər. Digər tayfaların torpaqları isə Fransa hökumətinin Əlcəzairin müstəmləkə halına salınması istiqamətində qəbul etmiş olduğu müvafiq qanun və qərarlarla müsadirə edildi.

Bununla belə, torpaqların ələ keçirilməsi prosesi sonrakı dövrlərdə də davam etdirildi. Aqrar islahatlar adı altında fransızlar Əlcəzairdə torpaqları öz əllərində cəmləşdirməyə nail oldular. Bu məqsədlə 1843-1844-cü illərdə verilmiş dekretlər Fransanın Əlcəzairi öz müstəmləkəsinə çevirməsi istiqamətində növbəti addım idi. Əlcəzairin müstəmləkəyə çevrilməsi, xüsusilə torpaqların müsadirə edilməsi istiqamətində atılan addımlar sırasında 1843-cü ildə dini icma və məscidlərə – xabuslara – məxsus torpaqların müsadirə edilməsi xüsusi olaraq qeyd edilməlidir. Çünki həmin dövr Osmanlı imperiyasının digər vilayətlərində olduğu kimi, Əlcəcairdə də öz tarlalarını becərmək iqtidarında olmayan kəndlilərin əksəriyyəti öz torpaqlarını həmin icma və məscidlərə icarəyə verir və əldə etdikləri gəlir hesabına dolanırdılar. Bu mənada, xabusların müsadirə edilməsi geniş xalq kütləsinə məxsus torpaqların müsadirəsi demək idi ki, bu da, ilk növbədə, kəndlilərin müflisləşməsinə gətirib çıxarırdı. 1 oktyabr 1844-cü ildə verilmiş dekretə əsasən Fransa vətəndaşları xabus torpaqlarını ala bilərdilər. Həmin dekret 21 iyul 1846-cı ildə təsdiqlənərək bütün istifadəsiz torpaqların Fransa hökumətinə məxsus olduğu elan edildi. Bununla belə qeyd edək ki, həmin qanun, yaxud dekretlər əlcəzairlilərə öz torpaqlarına dair müvafiq sənəd təqdim etdikdə, onların həmin torpaqları Fransa hökuməti tərəfindən tanınırdı. Lakin belə sənədlərə malik olanlar Əlcəzairdə azlıq təşkil edirdi. Ona görə də, bütün Əlcəzairdə torpaqların demək olar ki, 90 %-i Fransa hökuməti tərəfindən ekspropriasiya – müsadirə – edilirdi.

Torpaqların kütləvi surətdə fransızlara verilməsinin əleyhinə olaraq, 1845-ci ildə Qərbi Əlcəzairdə çoban Bu Mazanın rəhbərliyi altında üsyan başlandı. Bu Maza üsyanın daha mütəşəkkil və geniş əhatə dairəsi alması üçün Əbdül Qədiri üsyana rəhbərlik etməyə dəvət etdi. Başlanmış üsyanı tez və sürətlə yatırmaq məqsədilə fransızlar öncə Əlcəzairdəki müstəmləkə ordusunun tərkibini 108 minə çatdırdılar. Bundan sonra üsyanı yatırmaq məqsədilə fransız generalları Snet-Arno, Polisye və Kavenyak minlərlə günahsız əlcəzairlini qətlə yetirdilər ki,

bu da nəticə etibarilə üsyanın zəifləməsinə səbəb oldu. Artıq 1845-ci il iyulun 31-də üsyan kifayət qədər zəiflədi. Saxara vahəsinə geri çəkilmək məcburiyyətində qalan Əbdül Qədir isə Mərakeş sultanının xəyanəti nəticəsində fransızlar tərəfindən əsir alınaraq, 1847-ci ildə Fransaya göndərildi. Beş il Fransada qaldıqdan sonra ona Şərqə getməyə icazə verildi. 1855-ci ilədək Bursada yaşayan Əbdül Qədir həmin il Dəməşqə köçdü və 75 yaşında ikən burada da vəfat etdi.

Əbdül Qədirin təslim olmasından sonra iki rayon - cənubdakı vahələr və dağlıq Kabiliya-istisna olmaqla bütün Əlcəzair fransızların tabeçiliyinə keçmiş oldu. Bu ərazilərin işğal edilməsi hələ bir neçə il davam etdi.

<u>*Əlcəzairdə siyasi vəziyyət*</u> Şimali Afrikada nisbətən zəif halqa olan Əlcəzair Məğribdə fransız təcavüzünün ilk qurbanı oldu. Bu ərəb ölkələri içərisində ilk müstəmləkə işğalı olmaqla yanaşı həm də bu dövrdə inhisarçı kapitalizm hələ formalaşmamışdı. Bu o deməkdir ki, əgər Şimali Afrikanın ərəb ölkələri XIX yüzilliyin 70-ci illərindən sonra, yəni kartital ixracı dövrünə təsadüf edirdisə, Əlcəzairin işğalı isə əmtəə ixracı dövrünə düşür. Müqayisə üçün qeyd edək ki, Misir 1882-ci ildə, Sudan 1889-1900-cü illərdə İngiltərə tərəfindən, Liviya 1912-ci ildə İtaliya tərəfindən tamamilə işğal edildiyi halda, Əlcəzair 1847-ci ildə fransızlar tərəfindən işğal edilmişdir.

Bəşər tarixinin yeni dövr inkişafının xüsusiyyətləri, ilk növbədə kapitalizmin bir ictimai-iqtisadi formasiya kimi qanunauyğunluqları ilə səciyyələndirilir. Buna görə də, müstəmləkə sisteminin əsasının qoyulması ilə Avropanın özündə də bütün münasibətlərin kökündən dəyişməsinə səbəb olmaqla bərabər, qitənin özündə hegemonluq uğrunda mübarizənin başlanmasına da təkan vermiş oldu. Əslində bu mübarizə yeni müstəmləkələr tutmaq, yaxud müstəmləkələri yenidən bölüşdürmək məqsədi güdürdü. XIX yüzilliyin son rübündə Avropa dövlətləri hələ dünya xəritəsində ağ ləkə kimi qalan Afrikanın bölgüsünə başladı.

XIX yüzillikdə tarixi prosesin ən mühüm məsələlərindən biri də məhz müstəmləkə sisteminin yaranmasıdır. İri dövlətlər yerli şəraitdən, dövrdən, konkret vəziyyətdən asılı olaraq, müstəmləkə hökmranlığının bu və ya digər formasından istifadə edirlər. Bu da

onların bütün dünyada və eləcə də hər hansı ölkə daxilində qüvvələr nisbətini nəzərə alaraq yeni şəraitə uyğunlaşa bildiklərini sübut edir.

Məlumdur ki, iri dövlətlərin müstəmləkə obyekti əsasən Yaxın və Orta Şərq regionudur. Bu regionda Ərəb Şərqi özünəməx-sus xüsusiyyətlərə malik olmuş və tarixin bütün mərhələlərində iri dövlətlər üçün iqtisadi, siyasi və mühüm hərbi strateji əhəmiyyətli rayon olmuş və olmaqda davam edir. Beləliklə, müxtəlif təbii-coğrafi şəraitə, zəngin yeraltı və yerüstü sərvətlərə, o cümlədən neft yataq-larına malik olan Ərəb ölkələri heç zaman Avropa dövlətlərinin nəzər-diqqətindən yayınmamış və hal-hazırda da onların xüsusi ma-raq dairəsinə daxildir.

İngiltərə, Fransa və Avropanın digər ölkələrində sənaye inqilabının başa çatması Osmanlı imperiyasında sosial-iqtisadi və siyasi inkişafla eyni vaxta təsadüf edirdi. Osmanlı imperiyası əyalətlərində İstanbulun hakimiyyətinin zəifləməsi Avropa dövlətlərinin həmin ərazilərin işğalına başlaması faktı ilə eyni zamana düşürdü. Osmanlı imperiyasınıda intensiv olaraq baş verən mili azadlıq hərəkatı əraziləri-Balkan ölkələri, Levant, Misir və Şimali Afrika-Qərbi Avropa dövlətlərinin müstəmləkəyə çevirmək istiqamətində işğal etmək istədikləri rayonlar sırasında idi. Əslində həmin dövlətlərin müstəmləkə əraziləri Osmanlı imperiyasının göstərilən rayonları ilə həmsərhəd idilər. Hindistandan Fars körfəzi və Ərəbistan yarımadasınadək olan ərazilərdə İngiltərə müstəmləkələri mövcud idi. Fələstin, Levant, Misir, Əlcəzair Fransanın müstəmləkəçilik planlarına daxil olsa da, ziddiyyətlər zəminində Fransa Məğrib ölkələrindən –Əlcəzair, Mərakeş, Tunisin işğalı ilə kifayətlənməli oldu.

Lakin ərəb xalqı yadellilərin mustəmləkəçilik siyasətlərinə etirazlarını üsyan və çıxışlarla bildirdilər. XIX yüzillikdə baş verən ən böyük hərəkatlar sırasına Əlcəzairdə Əbdül Qədir, Misirdə Ərəbi paşa, Sudanda Mehdiçilər üsyanlarını daxil etmək olar ki, bu cıxışlar İngiltərə və Fransaya qarşı yönəldiyindən onların ciddi narahatlığına əsas verirdi. Elə buna görə də, ərazi bölgüsündə öz aralarında dərin fikir ayrılıqlarına baxmayraq, iri dövlətlər Ərəb Şərqini bölüşdürmək məqsədilə razılığa gələ bildilər.

*Əlcəzair birinci dünya müharibəsi illərində*

Birinci dünya müharibəsinin başlanğıcında Əlcəzair birbaşa müharibəyə cəlb olundu. 1914-cü ilin avqustunda alman gəmiləri Bon və Filippivl limanlarını atəşə tutdu və onlarla adam öldü və yaralandı.

Ümumiyyətlə, birinci dünya müharibəsi Əlcəzairin ictimai-iqtisadi həyatına böyük təsir göstərdi. Əhalinin ehtiyac duyduğu böyük miqdarda ərzaq Fransaya daşınırdı, vergilər xeyli artırıldı, 173 min nəfər yerli əhalidən zorla fransız ordusuna səfərbər edildi ki, onlardan da 25 mini müharibədə həlak oldu.

Əlcəzair iqisadiyyatının tamamilə Fransa iqtisadiyyatından asılı olması ölkə üçün çox ağır nəticələri oldu. Yalnız müharibə ilə bağlı sənaye sahələrinin işləməməsi və bu məzmunda məhsulların istehsalı, əhalinin ehtiyac duyduğu sənaye mallarının çatışmaması və həmin məhsulların Fransadan gətirilməməsi ölkəni iflic vəziyyətinə salmışdı. Müharibə Əlcəzairin ictimai həyatında yeni təzahürlər meydana çıxardı. 119 min əlcəzairli Fransaya getdi, burada fəhlə qüvvəsi çatışmırdı. Onların çoxu könüllü şəkildə vətəni tərk etmişdilər, çünki burada çalışmaqla onlar öz ailələrini dolandırmaq imkanı qazanırdılar.

Birinci dünya müharibəsi illərində feodallar və milli burjuaziya Fransanı müdafiə edirdilər və bildirirdilər ki, müsəlmanlar hər cür qurbana hazırdılar və hətta onlara «müharibə üçün zəruri olan pulları» Fransaya göndərməyi tövsiyə edirdilər. Lakin milli burjuaziyanın və feodal ziyalılarının bir qismi birinci dünya müharibəsi illərində Fransaya qarşı çıxış edir, Almaniya və Türkiyənin yardımına arxalanaraq Fransaya qarşı mübarizəni davam etdirir və Əlcəzairin müstəqilliyinə nail olmağa çalışırdılar. Bununla belə, ölkədə müstəmləkə hökumətinin siyasətinə və əhalinin zorla əsgər çağırışına qarşı çıxışlar baş verirdi. 1914-cü ilin oktyabırnda Banu Şurqan dağlılarının, 1916-cı ilin sentyabrında Auresdə bərbər-şaviyaların silahlı çıxışlarını göstərmək olar.

1916-cı ildə Əbdül Qədirin oğlu Əlinin rəhbərliyi altında «Əlcəzairin müstəqilliyi müsəlman komitəsi» yaradıldı. Bir sıra əlcəzairli mühacirlər Cenevrədə «Əlcəzairin və Tunisin müstəqilliyi komitəsi»nə daxil olmuşdular. Onlar müsəlman hərbi əsirləri arasında təbliğat aparırdılar.

«Gənc əlcəzairlilər»in əksəriyyəti Fransanı müdafiə edirdilər və elə güman edirdilər ki, müharibədən sonra islahatlar keçirələcəkdir. Lakin onların fikirləri müharibədən sonra da özünü doğrultmadı.

## MƏRAKEŞ

*Mərakeşin ictimai, iqtisadi və siyasi vəziyyəti*

Mərakeş Aralıq dənizi sahillərində yerləşən ərəb ölkələrindən biridir. Sonuncu qərb ərəb dövləti olmaqla Mərakeş Afrika qitəsinin şimal-qərb hissəsində yerləşir. Coğrafi mövqe və təbii ehtiyatları ilə Mərakeş özünəməxsus cəhətlərilə fərqlənir. Mərakeşlilərin əsas hissəsini qarışıq ərəb-bərbər əhalisi təşkil edir. Maraqlısı budur ki, əhalinin yalnız 0,6 faizi ərəb dilində danışır. Qalan hissə müxtəlif ərəb dialektlərində, bir-birindən tamamilə fərqlənən ləhcələrdə danışırlar.

Mərakeş dövlətçiliyinin əsası erkən orta yüzilliklərdə qoyulmuşdur. Bu dövlət özünün ən qüdrətli dövrünü XI-XV yüzilliklərdə yaşamışdır. Həmin dövr Mərakeşin ərazisi İspaniyadan Tunis və Tripoliyaya qədər uzanırdı. Avropada orta əsr «qaranlığı» hökm sürəndə Mərakeş özünün yüksək inkişaf dövrünü yaşayırdı.

XIX əsrin əvvəllərində Mərakeş sultanlığı siyasi böhran keçirirdi. Sultan Süleyman (1792-1822) tabe olmayan tayfalarla fasiləsiz müharibə aparırdı. Onun vəfatından sonra sultan Əbdür Rəhmanın bütün hakimyyət illəri(1822-1859) Mərakeşin daxilində baş verən üsyanlara qarşı mübarizədə keçmişdir.

18 mart 1845-ci ildə Lala-Marniyada Mərakeşlə Fransanın Əlcəzair mülkləri arasında sərhəddin müəyyənləşdirilməsi haqqında müqavilə bağlandı. Sərhəd xətti Aralıq dənizindən təxminən 150 km məsafədə müəyyənləşdi. Bu da Fransaya gələcəkdə daxili rayonları tutmaq üçün imkan yaradardı. Avropa dövlətləri arasındakı ziddiyyətlər Mərakeşə daxili rayonların müəyyən hissəsinin müstəmləkəyə çevrilməsinin qarşısını aldı. Lakin xarici təsir ölkədə güclənirdi. Bu təsirin güclənməsində kapitulyasiya rejimi mühüm rol oynayırdı. Hələ 1767-ci ildə Mərakeş Fransa ilə qeyri-bərabər müqavilə bağladı ki, bu da Mərakeşdə yaşayan fransızlara eksterritoriallıq və vergi üstünlüyü qazandırdı. Bu üstünlüklər fransızların yanında işləyən mərakeşlilərə də aid edilirdi. Bu müqavilə 1824-cü ildə təsdiq edildi və genişləndirildi. İspaniya, Avstriya, Sardiniya (onun hüquqları sonradan İtaliyaya keçdi), ABŞ (1836), İngiltərə (1856), Hollandiya, Belçika da kapitulyasiya

hüququ aldılar. Avropada kapitalist rejiminin inkişafı ilə əlaqədar olaraq, XIX yüzilliyin ortalarında bu rejimin əleyhdarları meydana gəlmişdi.

1859-cu ilin noyabrında İspaniya Mərakeşə hücum etdi. 44 minlik ispan ordusu Şimali Afrikaya gətirildi. 1860-cı ilin fevralında ispanlar Tetuanı tutdular. 23 martda mərakeşlilər yenidən məğlubiyyətə uğradılar, lakin İngiltərənin müdaxiləsi Təncərə hücumun qarşısını aldı. 26 aprel 1860-cı ildə müqavilə bağlandı. Bu müqaviləyə görə Mərakeş İspaniyaya İfni rayonunu konsessiyaya verirdi və 100 mln. rial təzminat ödəyirdi.

Sultan Həsən (1873-1894) Şərif dövlətinin dağılmasının qarşısını almağa çalışırdı. Onun bütün idarəçilik dövrü üsyançı feodallarla və atlas bərbərlərinə qarşı müharibə ilə keçmişdi. O, ordunun sayını artırdı, Avropadan təlimatçılar dəvət etdi, donanma yaratdı, sultan hökumətini yenidən təşkil etdi, mühəndis məktəbinin əsasını qoydu. Ölkənin əsas müsəlman universiteti olan Fəsdə yerləşən əl-Karaviyin müsəlman universitetini yenidən təşkil etdi, xaricə mərakeşli gəncləri təhsil almaq üçün göndərdi.

*İri dövlətlərin Mərakeş uğrunda mübarizəsi*

XIX yüzilliyin 70-80-ci illərinədək Afrika Avropa dövlətlərinin planlarında ikinci dərəcəli rol oynadığından buraya diqqət az olmuşdur. Lakin XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində avropalıların bu qitəyə diqqəti artdı və onlar Şimali Afrikanın ərəb ölkələri hesabına müstəmləkə ərazilərini genişləndirilməyə başladılar. Bu mənada Mərakeş də istisna deyildi.

XIX yüzilliyin sonlarında Mərakeşin daxili tənəzzül keçirməsi onun Avropa dövlətləri İspaniya və Fransa tərəfindən işğalına şərait yaradırdı. Ölkə tayfa müharibələri nəticəsində zəifləmiş və iqtisadiyyatı tənəzzülə uğramışdı. Mərkəzi hakimiyyətin vilayətlərlə əlaqələri demək olar ki, kəsilmişdi. Mərakeşin belə bir vəziyyəti Avropa dövlətlərinə, xüsusilə İspaniyaya əlverişli şərait yaradırdı.

Belə ki, ABŞ ilə müharibəni uduzan, müstəmləkələri əlindən çıxan İspaniya üçün revanş götürmək vacib idi. Belə bir revanş isə Mərakşə ispan qoşunları çıxarmaqla həll edildi. Digər tərəfdən, mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən Almaniya,

Fransa, İngiltərə və İspaniya burada geniş kəşfiyyat əməliyyatları aparır və Mərakeşin mərkəzi hökumətini çıxılmaz vəziyyətə salırdı.

Mərakeş uğrunda mübarizə əvvəlcədən lokal xarakter daşımamışdır. Bu ölkəni işğal etmək üçün bir sıra Avropa dövlətləri Fransa, İspaniya, Portuqaliya, Almaniya, İngiltərə, eləcə də ABŞ mübarizə aparmışlar. Burada, xüsusilə İngiltərə Mərakeş uğrunda ciddi mübarizə aparırdı. Belə ki, London rəsmiləri Mərakeşdə möhkəmlənməklə cənubdan Qibraltara olan təhlükənin qarşısını almaq istəyirdilər. Qibraltarda isə İngiltərənin hərbi dəniz bazası yerləşirdi.

İspaniya hələ XIX yüzillikdən Mərakeşdə möhkəmlənmək istəyirdi. Tunisi fransızlara güzəştə gedən İtaliya əlverişli vəziyyətdən istifadə edərək, Tripolidə möhkəmlənməyə, Mərakeşin daxili vəziyyətini nəzərə alaraq, burada da öz nüfuz dairəsini müəyyən etməyə çalışırdı. «Açıq qapılar» siyasəti yeridən ABŞ rəsmiləri belə hesab edirdilər ki, Vaşinqtonun mövqeyi daha obyektivdir və avropalılarla rəqabətdə həmin iqtisadi mübarizəni ABŞ udacaqdır. Lakin Mərakeş uğrunda ciddi rəqabət əsasən Fransa və Almaniya arasında gedirdi. Ümumiyyətlə, Fransa Mərakeşdə nüfuz bərqərarına nail olmaq üçün uzunmüddətli və planlı şəkildə hazırlıq işləri aparmışdı. Bunu Mərakeşdə Fransa protektoratlığının qurulmasından əvvəlki tarixi hadisələr də sübut edir.

Hələ XIX yüzillikdə Mərakeşdə avropalı tacirlərə ticarət etmək üçün imtiyazlar verilməsi məsələsini ilk dəfə fransızlar qaldırmışdılar. Buna səbəb türk tacirlərinin ümumiyyətlə gömrük vergisindən azad olmaları idi. Nəticədə, Fransanın təşəbbüsü ilə avropalı tacirlər də eyni hüquqlara malik oldular. Bundan əlavə, avropalı tacirlər ,ümumiyyətlə, vergi ödəməkdən azad olunmaqla bərabər, Mərakeş məhkəməsi qarşısında müttəhim kimi çıxış etməmək hüququ da əldə etdilər. Yəni Mərakeş orqanları avropalı tacirləri cinayət məsuliyyətinə cəlb edə bilməzdilər. Bundan başqa, onlar Mərakeşdə öz agentlərini müdafiə etmək, onları zaminə götürmək hüquqlarına da malik oldular. Həmin agentlər isə avropalıların imtiyazlarına malik oldular ki, bu da Mərakeşdə sosial parçalanmanı dərinləşdirir, yerli əhali arasında Avropaya, avropalılara münasibəti dəyişdirirdi. Avropa dövlətlərinin Mərakeşə girməsinin əsası belə qoyulmuş oldu ki, bu da Fransa taciri Fransua de

Manın təşəbbüsü idi. Həmin təşəbbüsün dövlət siyasətinə çevrilməsinin nəticəsi isə Mərakeşin Fransa protektoratlığını qəbul etməsi oldu.

Ümumiyyətlə, Avropa dövlətlərinin rəsmi dairələrinin Mərakeşi işğal etmək və burada möhkəmlənmək uğrundakı mübarizələrində ziddiyyətin olması Mərakeşin işğalını 30 il geri salmışdır.

Belə ki, hələ 1880-ci ildə Avropa dövlətləri İspaniya, İtaliya, Fransa, Almaniya, İngiltərə Madriddə Mərakeş məsələsinə dair beynəlxalq konfrans çağırdılar. Həmin konfrans İspaniyanın təşəbbüsü ilə çağırılmışdı. Konfransın çağırılması Avropa dövlətlərinin Mərakeş məsələsində mövqelərinin müəyyən edilməsi, bu ölkənin konkret nüfuz dairələrinə bölünməsi məqsədi daşıyırdı. Əslində konfransın çağırılmasına təkan bu dövlətlərin Mərakeşdə maraqlarının müəyyən edilməsi və iştirakçı dövlətlər tərəfindən tanınması olsa da, digər az əhəmiyyət daşıyan məsələ də buradakı türk nüfuzunun aradan qaldırılması, xüsusilə yerli əhalinin xaricilərə qarşı olan münasibətini aradan qaldırmaq idi.

Nə qədər paradoksal görünsə də Avropa dövlətlərinin Mərakeşə girə bilməməsinin başlıca səbəblərindən biri yerli əhalinin adət-ənənəsinə sadiqliyi olmuşdur. Burada qəribə bir faktı qeyd etmək məqsədəuyğun olar.

Fransanın Mərakeşdə protektoratlığı bərqərar edildikdən sonra İtaliyanın Mərakeşdə fəaliyyət göstərən etnoqrafı Umberto Dini fransız zabitinə «Müvəffəqiyyətin yolu keşməkeşli olsa da, mənim üçün buna necə nail olmağım daha çox maraq doğurur. Çünki xalqın adət-ənənəsini nəzərə alsaq, vəziyyət başqa cür olmalı idi» ifadəsi ilə müraciət etmiş, cavabında belə bir faktı öz gündəliyinə yazmışdır.

Biz buraya gələndə yerli əhali mübahisə nəticəsində ölən adamın əvəzində günahkar tərəfdən yalnız cərimə almaqla kifayətlənirdi. Nəzərə alın ki, yerli əhali müxtəlif dialektlərdə danışır və belə adi məişət mübahisələri gün ərzində yüzlərlə olur. Biz bu faktoru nəzərə alaraq, onları ölmüş adamın əvəzində qan pulu almağın deyil, qana qanla cavab verməyi və bunun daha ədalətli olduğunu inandıra bildik. Nəticə ,göz qabağındadır. Əks təqdirdə, biz Mərakeşdə indiki mövqeni yaxın on beş ildə ancaq əldə edə bilərdik.

Göründüyü kimi, Fransa Mərakeşdə möhkəmlənmək üçün xüsusi fəaliyyət istiqaməti götürmüşdü.

1880-ci il Madrid konfransında razılığa gələ bilməyən Avropa dövlətləri Mərakeşə münasibətdə müstəqil fəaliyyət göstərməyi qərara aldılar. Məsələnin həllində razılığa gələ bilməyən avropalılar, buna baxmayaraq, Mərakeş sultanını avropalılara torpaq satılmasına icazə verməyə məcbur etdilər. Mərakeşin müstəmləkəsi istiqamətində ilk konkret addımlar da məhz bundan sonra başladı. Artıq 1881-ci ildə Fransa, İtaliya, xüsusilə İspaniya kapitalistləri Mərakeşdə min hektarla torpaq almağa nail olmuşdular.

Qeyd olunduğu kimi, Avropa dövlətləri sırasında Mərakeşin işğalında ən çox fəallığı Fransa göstərirdi və bunu planlı surətdə həyata keçirirdi. Maraqlısı budur ki, fransızlar bunu bir başa etmir, əsasən Əlcəzairlə sərhəd olan zonalarda torpaqlar ələ keçirməklə həyata keçirirdilər. Hələ 1870-ci ildə Fransa Mərakeşin Əlcəzairlə sərhəddə yerləşən vadilərini, vahələrini bir-birinin ardınca almağa başlamışdı ki, bu da Mərakeşin fransızlara məxsus topaqlarla əhatə olunması məqsədini güdürdü. Lakin XIX əsrin sonuna yaxın bu taktikadan imtina edilərək, Mərakeşə maliyyənin gücü hesabına girmək məqsədəuyğun edildi.

Əslində həmin dövr, yəni XIX əsrin sonu- XX əsrin əvvəllərində Mərakeşin daxili siyasi sabitliyinin pozulması fransızlara kapital ekspansiyası siyasətinə keçməyə şərait yaratmış oldu. Bunun nəticəsi idi ki, 1901 və 1902-ci illərdə Fransa xarici işlər naziri Delkasse Mərakeş sultanına iki müqavilə imzalada bildi.

Bu müqavilələr Mərakeşə maliyyə yardımını, eləcə də bu ölkə ilə əməkdaşlıq prinsiplərini nəzərdə tutsa da, əslində bu müqavilələr çərçivəsində Mərakeşə edilən maliyyə yardımları hesabına sultan Şərqi Mərakeşdəki tayfaların üsyan və qiyamını yatırmağı nəzərdə tuturdu.

Bu müqavilələrin xüsusi maddələri hesabına Fransa qoşunları ölkənin içərilərinə doğru irəliləmək üçün hüquqi bazanın formalaşdırılmasına nail olurdular. Sultan Əbdul-Əzizə edilən bu maliyyə yardımları əslində sultanın pulla alınmasına bənzəyirdi. Çünki Delkasse bu yolla sultana təzyiq edərək, digər Avropa dövlətlərini neytrallaşdırmaq istəyirdi.

Bununla bərabər, Fransa Mərakeşdə möhkəmlənmək istəyən dövlətlərin neytrallaşdırılması istiqamətində bu dövlətlərlə birbaşa danışıqlara getmək və qarşılıqlı razılaşmalara nail olmağı da məqsədəuyğun hesab edirdi. Bu mənada, ilk dövlət İtaliya seçildi. 1907-ci ildə İtaliya ilə aparılan məxfi danışıqlar nəticəsində iki ölkə arasında müqavilə imzalandı. Müqavilə tərəflərin maraqlarını təmin etmiş oldu. Belə ki, İtaliya Mərakeşin fransızlar tərəfindən, Fransa isə Kirenaikanın italyanlar tərəfindən işğal edcilməsinə dair razılığa gəldilər.

Avropa dövlətləri arasında hələ XIX əsrin ikinci yarısında başlanan hərbi siyasi bloklaşma XX əsrin əvvəllərində başa çatdı. Almaniya və İngiltərə arasında mövcud olan ziddiyyətdən məharətlə istifadə edən Fransa 1904-cü ildə İngiltərə ilə Antanta müqaviləsi imzalamaqla istər beynəlxalq münasibətlərdə qüvvələr nisbətini öz xeyrinə dəyişməyə, istərsə də Mərakeş məsələsində Almaniya ilə rəqabətdə qələbə çalmağa nail oldu. Belə ki, həmin müqaviləyə əsasən İngiltərə və Fransa bütün mübahisəli məsələlərdə razılıq əldə etdilər ki, burada da Misir və Mərakeş məsələləri xüsusi yer tuturdu. Fransa Misirə olan iddiasından İngiltərə isə Mərakeşdə olan marağından əl çəkdi ki, bu da Fransanın Almaniya ilə rəqabətdə həlledici rol oynamasına şərait yaratdı. Həmin il Fransa İspaniya ilə Mərakeş məsələsində razılaşma əldə etdi. Bundan sonra fransız kapitalı yenidən Mərakeşə üz tutdu. Sultan Əbdul-Əzizə 60 milyon frank ödəyən Fransa 1905-ci ildə Mərakeşə xüsusi missiya göndərdi. Bu missiya Mərakeşdə Fransa nəzarətində olacaq polisin formalaşdırılmasına və bankın təsis edilməsinə, eləcə də sultandan dəmir yolları çəkilməsinə və dağ mədən sənayesinin istismarına dair konsessiyaların alınmasına nail olmalı idi. Missiyanın Mərakeşə gəlməsi Almaniyanın işə qarışmasına səbəb oldu. Almaniya 1880-ci il Madrid müqaviləsini əsas gətirərək, Mərakeşdə heç bir dövlətin özünəməxsus rejim yaratmaq hüququ olmadığını iddia edirdi. Bununla belə, Fransa artıq bu istiqamətdə xeyli iş görmüş, hətta Mərakeşə qoşun yeritməyin son mərhələsinə başlamışdı. Fransanın Mərakeşə münasibətdə yeritdiyi siyasətin əsasında yeni bir siyasi kursun özülünü qoymaq dayanırdı ki, bu da ölkəyə daha çox fransızları cəlb edərək, burada fransızların hüquqlarını müdafiə etmək kimi bir problemi ortaya qoymaqdan ibarətdir.

Ona görə də, Mərakeş böhranı başlamazdan bir qədər əvvəl Fransa burada geniş sənaye fəaliyyəti apramağa nail oldu. Fransanın «Yunion de Min Maroken» şirkəti Mərakeşdə təbii ehtiyatların kəşfiyyatı və istismarına başlamışdı. Bundan başqa, digər Fransa qurumu olan «Bank de Pari e de pei-Ba» bankı, eləcə də Şneyder qrupu Mərakeşdə geniş fəaliyyətə başlamışdılar.

Bütün bunlar isə, Mərakeşdə öz nüfuzunu möhkəmləndirmək istəyən Almaniyanın maraqlarına zərbə vururdu. Ona görə də, bu iki ölkə arasındakı mübarizə və rəqabət, nəticə etibarilə Mərakeş böhranlarının əsasını təşkil etmiş oldu.

XX əsrin əvvəlində artıq üçüncü dəfə baş verən Mərakeş böhranı bir daha sübut etdi ki, beynəlxalq münasibətlər əsrin əvvəllərindən başlayaraq, artıq özünün gərginləşmə mərhələsinə qədəm qoymuşdur. Bu münasibətlərin gərginləşməsinin başlıca səbəbi isə Almaniya, İngiltərə və Fransanın müstəmləkələrdə toqquşan maraqlarının təmin edilməsindəki mübarizə idi.

Maraqlı cəhət və diqqəti çəkən bu idi ki, əsrin əvvəllərindən etibarən həm Almaniya, həm də Fransa öz maraqlarının təmin edilməsində İngiltərənin dəstəyinə nail olmağa can atırdı. London isə bu mübarizədə yaranmış əlverişli vəziyyətdən uğurla istifadə edirdi. Bu istər birinci, istərsə də ikinci Mərakeş böhranı zamanı özünü açıq şəkildi büruzə vermişdi.

Əvvəlki böhranlarda olduğu kimi, üçüncü Mərakeş böhranı da Almaniya və Fransanın maraqlarındakı ziddiyyət kontekstində davam etmiş və başa çatmışdır. Üçüncü Mərakeş böhranı başladığı zaman Almaniya diplomatik fəaliyyətdə aktivlik göstərirdi ki, bu da onun İngiltərə ilə apardığı rəqabətin mahiyyətindən irəli gəlirdi.

Böhran isə Mərakeşin daxili ictimai-siyasi və sosial–iqtisadi münasibətlərindəki vəziyyətin məntiqi nəticəsi idi. Bununla belə, Mərakeş böhranının əsası Fransa və İngiltərə arasında bağlanmış müqavilə ilə qoyulmuşdu. 8 aprel 1904-cü ildə Fransa və İngiltərə arasında Antanta müqaviləsi bağlandıqdan sonra Mərakeşin müstəqilliyinə son qoyulmuş oldu. Belə ki, müqavilənin əsas müddəalarından biri tərəflərin Misir-Mərakeş haqqında qəbul etdikləri bəyannamə idi.

Müqavilənin məzmunu belə idi ki, İngiltərə Misirdə hərəkət azadlığı alır, eyni zamanda Fransanın Mərakeşdəki planlarının

həyata keçirilməsinə mane olmur. Bu halda, Fransa İspaniya ilə nüfuz dairəsi məsələsini, eləcə də Qibraltara qarşı istehkamlar tikməmək öhdəliklərindən irəli gələn məsələləri həll etməyə söz verirdi.

İngiltərə ilə razılaşmadan sonra Fransa İspaniyanı Parisin planlarına mane olmamasını əsas götürərək danışıqlara başladı. Uzun sürən danışıqlardan sonra Fransa İspaniyanı onun maraqlarını nəzərə almaqla razı saldı. Həmin dövr Parisdə artıq ekspansiyanın başlanması və həyata keçirilməsi üçün Mərakeş məsələlri üzrə komitet də yaradıldı. Bu komitetdə Mərakeşdə fəaliyyət göstərmək isətəyən kapitalistlər cəmlənmişdi. Fransızlar Mərakeşdə maraqları olduğunu nəzərə alaraq, hələ 1903-cü ildə Mərakeş sultanına 21 mln. frank kredit vermişdi. İngiltərə ilə müqavilə bağlandıqdan sonra Mərakeş sultanına ikinci dəfə verilən kreditin məbləği 62 mln. franka çatırdı.

Mərakeşdə fəaliyyətə başlamağa tələsən fransızlar 5 oktyabr 1904-cü ildə ispanlarla nüfuz dairəsini müəyyən edən müqavilə imzaladılar. Bu müqaviləyə əsasən İspaniya heç vaxt hər hansı xarici dövlətə kömək üçün müraciət etməyəcəyi öhdəliyini götürürdü. Bu ona görə edilirdi ki, Almaniya İspaniya ilə analoji müqavilə bağlaya bilməsin. 1905-ci ilin fevralında Fransa İngiltərə ilə bağlamış olduğu müqavilənin həyata keçirilməsinə başladı. Bu məqsədlə Fransa Mərakeş sultanına fransızların fəaliyyətinə şərait yaradan islahatlar layihəsini təqdiq etdi. Layihə Mərakeşdə Tunisdəki idarə sistemini formalaşdırmağı nəzərdə tutrdu və bir növ Mərakeşin tunisləşdirilməsini xarakterizə edirdi.

Lakin Mərakeşdə marağı olan Almaniya ingilis-fransız müqaviləsini tanımaqdan imtina edərək, Mərakeş sultanına qarşı təzyiqlərə başladı. Almaniya imperatoru II Vilhelmin 31 mart 1905-ci ildə Aralıq dənizinə səyahəti zamanı Təncərə gəlməsi birinci Mərakeş böhranının başlanmasına təkan verdi. Təncərdə alman imperatoru bəyan etdi ki, o, Mərakeşi müstəqil sultanlıq və dövlət kimi görür. Ümid edir ki, Mərakeş bütün millətlərin dinc rəqabət aparması üçün açıq olacaqdır. İmperator onu da əlavə etdi ki, Mərakeşdə alman maraqlarını qorumağa hazırdır.

İmperatorun Təncərə gəlişi və buradakı çıxışı, nəticə etibarilə Fransa və İngiltərənin hərəkətə gəlməsinə səbəb oldu. Fransızlar italyanları da Mərakeş məsələsində öz tərəfinə çəkməyə

müvəffəq oldular. Belə ki, Fransa İtaliyanın Tripolini zəbt etməyinə etiraz etmədiyini bildirdi.

Belə olduqda, Almaniya təklənmiş vəziyyətə düşdü. Ona görə, Byulov Mərakeş məsələsini beynəlxalq konfransın müzakirəsinə çıxarmaq təklifi ilə çıxış etdi. Bu təklif Madrid müqaviləsi iştirakçılarına edilmişdi. 1880-ci il Madrid müqaviləsi xarici dövlətlərin və onların vətəndaşlarının Mərakeşdə bərabər imtiyaz və imkanlarla ticarət və kommersiya ilə məşğul olması hüququnu təsbit edirdi.

İngiltərə və Fransanın Mərakeşdə yeni fəaliyyət rejimi yaratmasının əleyhinə çıxan Almaniya əslində bu məsələdə ona ediləcək güzəştləri gözləyirdi. 1905-ci ilin ortalarına qədər Almaniya və Fransa arasında qarşıdurma davam etdi. Almaniya bütün bu dövr ərzində Fransaya təzyiqləri davam etdirirdi. Lakin 1905-ci ilin ortalarında, daha dəqiq desək, iyun ayında alman taktikasında dəyişiklik oldu. Beynəlxalq konfrans çağırılmasını təkid edən Almaniya Mərakeşdə fransız maraqlarını tanıdıqları ilə razılaşdı. Bundan sonra, 8 iyul 1905-ci ildə tərəflər konfrans çağırılmasına dair ilkin razılaşma imzaladılar.

Razılaşmaya əsasən, 15 yanvar 1906-cı ildə Alxesiras konfransı öz işinə başladı. Konfransda əldə olunmuş razılığa əsasən Almaniya və Fransa Mərakeşdə Bank de Eta dyu Morok təsis etdi. Bu isə o demək idi ki, bundan sonra Mərakeş maliyyəsi xarici kapitalın əlində olacaqdır. Almaniyanın etirazlarına baxmayaraq, Fransa və İspaniya Mərakeş polisi üzərində nəzarəti də ələ aldılar.

Lakin Mərakeş məsələsinin həlli bununla bitmədi. Fransız-alman münasibətləri iqtisadi amillər üzərində getdikcə gərginləşirdi. Bu həm Avropanın dəmir mədənləri, həm də Amerika müstəmləkələri uğrundakı mübarizədə özünü büruzə verirdi. Almaniyanın ağır sənayesinin sürətlə inkişaf etməsi dəmir filizinə olan ehtiyac və tələbatı artırırdı. Almianiyanın iqtisadi müdaxiləsi Fransada əsəbləri getdikcə tarıma çəkirdi. Digər tərəfdən, Fransa bazarında alman malları güclü rəqabətə tab gətirirdi. Avropada aparılan bu rəqabət, eyni zamanda müstəmləkələrdəki vəziyyətə də təsir göstərirdi. Alxesiras konfransının qərarları belə bir vəziyyətdə yenidən gündəmə gəldi. Həmin konfransın qərarları Fransaya Mərakeşdə üstünlüklər və imtiyazlar verirdi. Alxesiras konfran-

sındakı diplomatik məğlubiyyətdən sonra Almaniyanın aparıcı bankları Fransa ilə iqtisadi əməkdaşlığa dair müqavilə bağlanması tələbi ilə çıxış edirdilər. Birinci Mərakeş böhranı göstərdi ki, Almaniya Mərakeşdə fransız maraqlarını sıxışdıra bilməyəcək. Ona görə də, Almaniya Fransadan Mərakeşdə hərəkət azadlığını tələb etməyi planlaşdırırdı. Burada isə söhbət almanların iqtisadi maraqlarının təminatından gedirdi. Eyni zamanda, Almaniya siyasi tələblər irəli sürülməməsi əvəzində kompensasiya da istəyirdi. Bu kompensasiya tələbi isə Fransanın digər müstəmləkələri hesabına ödənə bilərdi.

_Mərakeş birinci dünya müharibəsi ərəfəsində və illərində_

Belə bir vəziyyətdə, ikinci Mərakeş böhranını əsaslandıran böyük bir münaqişə baş verdi. 25 sentyabrda 1908-ci ildə Fransa xarici legionundan qaçan altı fərarinin alman konsulu tərəfindən gizlədilməsi cəhdi həmin böhran üçün əsas oldu. Fərarilərin qaçmasının təşkilatçısı alman jurnalisti olmuşdu.

Bu dövr Fransa üçün bir qədər əlverişli deyildi. Çünki Bosniya böhranı özünün yüksək səviyyəsində idi. Bununla belə, bir ay davam edən diplomatik mübahisədən sonra tərəflər ortaq məxrəcə gələ bildilər. Əldə olunmuş razılığa əsasən 1908-ci ilin oktyabrında qarışıq olan, yəni alman və fransızların təşəbbüsü ilə «Mərakeş nizəsi» cəmiyyəti yaradıldı. Əslində bu cəmiyyət böyük bir maliyyə sindikatı idi. Almanlar bu müəssisənin aksiyalarının 21%-nə sahib oldular. Maliyyə maqnatlarının bu sövdələşməsi dövlətlərin də mövqelərinin yaxınlaşmasına şərait yaratmalı oldu.

Maliyyəçilərin əldə etmiş olduqları razılaşmadan üç ay sonra 1909-cu ilin fevralında Almaniya və Fransa yeni müqavilə bağladılar. Müqaviləyə əsasən fransız-alman təsərrüfat cəmiyyəti yaradılır və iki dövlətin monopoliyaları arasında əməkdaşlıq yaratmaq qərara alınır ki, bu da həmin təsərrüfat cəmiyyətinin fəaliyyəti ilə həyata keçirilməli idi.

Lakin ikinci Mərakeş böhranı da alman-fransız ziddiyyətlərini aradan qaldırmadı. Belə ki, iki ölkə arasında gedən mübarizə, rəqabət və mövcud olan qarşıdurmanın digər səbəbləri də mövcud idi. Ona görə də, tək Mərakeş məsələsi ilə bu ziddiyyətlərin həllinə nail olmaq mümkün deyildi.

Həmin dövr Balkanlarda yaranmış vəziyyətin xüsusilə iki ölkə arasındakı münasibətlərə kifayət qədər güclü təsir göstərməkdə idi. Bununla belə, həmin dövr Rusiya-Fransa yaxınlaşmasını əsaslandıran danışıqların növbəti mərhələsi başa çatmışdı. Bu danışıqlarda Rusiyanın bütün məsələlərdə Fransaya müttəfiqlik borcunu yerinə yetirəcəyinə əmin olan Paris beynəlxalq münasibətlərdə, xüsusilə Almaniya ilə münasibətlərində daha ortodoksal mövqedən çıxış etməyi məqsədəuyğun hesab edirdi.

Bu isə özünü artıq üçüncü dəfə baş verən Mərakeş məsələsində büruzə vermiş oldu.

1911-ci ilin yazında Mərakeşin Fəs vilayəti və eyni adlı şəhərində hökumətə qarşı üsyan baş verdi. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Fransa hakim dairələri buradakı fransızların müdafiəsi məqsədilə paytaxtı öz hərbi hissələri ilə zəbt etdi. Əslində bəzi məlumatlara əsasən bu üsyan Fransanın Almaniya ilə apardığı rəqabətdə almanları birdəfəlik olaraq, sıxışdırıb çıxarmaq məqsədilə fransızlar tərəfindən təşkil olunmuşdu. Bu haqda həmin dövr Mərakeşdə «Due velt» alman qəzetini təmsil edən jurnalist Klaus Şnayder yazırdı ki, Fransanın Mərakeşdəki iş adamları boş vaxtlarını Fəsin sadə camaatı arasında keçirməklə sadəcə bir çox sualları cavablandırırlar.

Bununla belə,19 fevral 1909-cu il müqaviləsindən sonra Fransa ilə yaxınlaşmaqda maraqlı olan alman iş adamları 1911-ci il Mərakeş böhranında fransızlar heç bir siyasi iddianın irəli sürülməməsi tələbləri ilə çıxış edirdilər. Lakin 1911-ci il üçün yaranmış vəziyyət tamamilə başqa diqtəni edirdi və bu əslində Fransa üçün əlverişli idi.

Belə ki, Alxesiros müqaviləsinə əsasən Mərakeş polisinin rəhbərlik müddəti başa çatırdı və fransızlar polisə nəzarəti öz üzərlərinə götürürdülər. Ölkədə yaranacaq gərginlik isə fransızların Mərakeşdə möhkəmlənməsinə xidmət etməli idi. Ən əsası isə bu möhkəmlənmə hüquqi baza ilə əsaslanacaqdı. Odur ki, hələ aprel ayında alman hökumətini Mərakeşə hərbi müdaxilə edəcəyi barədə xəbərdarlıq etmişdi. Bu müdaxilə isə avropalıları müdafiə şüarı altında həyata keçiriləcəkdi.

Almaniyanın buna etiraz etmədiyini bildirən kansler Kiderlen Kayzerdən imperator II Vilhelmdən Aqadir və Maqadar

limanlarına alman gəmilərinin çıxarılmasını təklif etdi. Məqsəd isə fransızların bu təzyiq altında hansı güzəştə gedəcəklərini müəyyən etmək idi.

İlk təklif Fransanın maliyyə naziri Kaya tərəfindən 1911-ci il iyunun 27-də edildi. Nazir alman səfirinə «Fransanın Mərakeşdə hərəkət azadlığı əvəzində Almaniyaya müstəmləkələr hesabına böyük güzəştə gedə bilər» fikrini çatdırırdı. Sonradan bu məsələ Niderland və Fransanın Almaniyadakı səfiri Kambon arasında aparılan danışıqlarda daha da dəqiqləşdirildi. Məlum oldu ki, Almaniyaya təklif edilə biləcək güzəşt Fransa Konqosunun bir hissəsi ola bilər. Almaniya isə bütün Fransa Konqosunu tələb etdi. Kombon isə Niderlenə Fransa bütün Kanqonu verə bilməyəcəyini bildirdi.

Həmin dövr İngiltərənin Konqo məsələsi ilə əlaqədar proseslərə müdaxilə etməsi Almaniyanın iddialarının korrektə edilməsi ilə nəticələndi. Çünki İngiltərə 1904-cü il Antanta müqaviləsinin xüsusi müddəasına əsasən Fransa qarşısında öhdləlik götürmüşdü. Digər tərəfdən, isə İngiltərə onun başlıca rəqibinin Afrikada da onunla qonşu olaraq, rəqabət aparmasını qəbul edə bilməzdi.

Nəhayət, uzun sürən danışıqlardan sonra 1911-ci ilin noyabrında yeni alman-fransız müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Almaniya mübaliğəsiz olaraq, Mərakeşi Fransanın protektoratı kimi qəbul etdi. Bunun əvəzində isə Almaniya Konqonun kiçik bir hissəsini aldı. Həmin ərazilər isə Konqonu Almaniya Kamerunu ilə birləşdirən iki zonadan ibarət idi.

Böhran müddətində digər dövlətlər də bu məsələyə münasibətdə müəyyən mövqe nümayiş etdirdilər. Fransanın əvəzolunmaz müttəfiqi Rusiya Parisə ənənəvi dəstəyini bildirməklə problemi dinc yolla həll etməyi tövsiyə edirdi. Çünki onun Mərakeşdə marağı yox idi. Digər tərəfdən, Rusiyada gedən hərbi islahatlar hələ başa çatmamışdı və Rusiya hərbi əməliyyatlar aparmağa hazır deyil-di. Bu haqda Rusiyanın Parisdəki səfirinə təlimat da verilmişdi. Ona görə də, Rusiya bu məsələdə dinc yanaşma mövqeyindən çıxış edirdi.

Avstriya-Macarıstan isə Almaniyanı dəstəkləyirdi. Bununla belə, Vyana fars məsələsinə dair rus-alman müqaviləsinin əleyhinə olduğunu da gizlətmirdi. Avstriya-Macarıstan bu məsələdə Almaniyanı dəstəkləməklə öz maliyyə problemlərini həll etmək məqsədi

güdürdü. Bu isə Almaniyanın Mərakeş məsələsində əldə etdiyi güzəştlər hesabına ödənə bilərdi ki, bu güzəştlər sırasında da Vyananın Parisin maliyyə bazarına girməsində öz əksini tapa bilərdi.

Bununla belə, Mərakeşin taleyi Fransa və İspaniya tərəfindən qəti olaraq həll edildi. Almaniya ilə mübahisə və qarşıdurmanı uğurla aradan qaldırdıqdan sonra Fransa 30 mart 1912-ci ildə Mərakeş sultanı Hafiz ilə Fəsdə Fransanın protektoratlığını tanıdığına dair müqavilə imzaladı.

Bu müqavilədən az sonra isə həmin ilin aprel ayında Fransa İspaniya ilə müqavilə imzaladı. Müqavilə Mərakeşin bölüşdürülməsini nəzərdə tuturdu. Həmin müqaviləyə əsasən Mərakeşin şimalı və cənub-qərbi İspaniyaya verilirdi ki, bu da Mərakeşin 28 min kv. km ərazisini əhatə edirdi. Bu ərazi Fransa Mərakeşinin 1/20 faizini təşkil edirdi. İki ölkə arasında bağlanmış həmin müqavilə əsasında mühüm strateji əhəmiyyət daşıyan Təncər şəhəri xüsusi status aldı. Şəhərə bu statusun verilməsi İngiltərənin maraqlarından irəli gəlirdi. Belə ki, İngiltərə Qibarltara əks mövqedə yerləşən Təncərdə hər hansı bir dövlətin möhkəmlənməsi, bu şəhərin başqa ölkələrin nəzarəti altına keçməsini istəmirdi.

Avropa dövlətlərinin Mərakeş uğrunda apardığı mübarizənin məntiqi nəticəsi olaraq, Mərakeş 3 zonaya - Fransa Mərakeşi, İspaniya Mərakeşi və Təncər beynəlxalq zonasına bölünürdü.

Fransızlarla Mərakeş xalqı arasında mübarizə 20 il davam etdi. Fransızları ölkədə feodalların yalnız bir hissəsi müdafiə edir. Qalan əhali isə onlara qarşı fəal mübarizə aparırdılar. Yalnız 1914-cü ilin yayında fransızlar Qərbi Mərakeşdəki mülkləri ilə Şərqi Mərakeşdəki mülklərini birləşdirə bildi. Müharibənin gedişində Almaniya mərakeşlilərə böyük ümidlər bəsləyirdi. Almanlar Mərakeşə qayıdan və Tazı rayonunda möhkəmlənərək fransızlara qarşı mübarizə aparan Əbdul Qədirin oğlu Əbdul Malikə ümid edirdilər.

Bütün birinci dünya müharibəsi dövründə fransızlar Mərakeşdə qızğın və uğursuz mübarizə aparırdılar. 1918-ci ilin yaz və yay aylarında üsyançılar hər yerdə hücuma keçdilər. Birinci dünya müharibəsinin sonunda Mərakeşin böyük bir hissəsi hələ də fransızların nəzarətindən kənarda qalmışdı.

## TUNİS

*Tunisin ictimai, iqtisadi siyasi vəziyyəti* Əlcəzair müharibəsi başlayanda artıq Fransa Tunisə özünün gələcək müstəmləkəsi kimi baxırdı və bu məqsədlə, 1836-cı ildə fransızların hərbi müdaxilə təhlükəsi baş verdikdə, Osmanlı sultanı Tunisə ordu göndərməkdən çəkindi. Fransa konsulu bəyi qorxutmaq və pulla ələ almaq yolu ilə onu öz təsiri altına sala bildi.

Belə çətin şəraitdə, Əhməd bəy (1837-1855) Mərakeşdə nizami ordu yaratmaq və öz mövqeyini möhkəmlətmək istəyirdi. O, Napoleonun hərbi fəaliyyəti ilə maraqlanırdı və onu təqlid etməyə çalışırdı. O, 10 piyada polku, kavaleriya polku və 4 artilleriya polku yaratdı, Tunis zabitlərini Avropaya göndərdi və fransız hərbi təlimatçılarını isə ölkəyə dəvət etdi. Ordunun silahlanması və saxlanmasına gəlirin üçdə iki hissəsi sərf olunurdu, lakin onun hərbi qabiliyyəti olduqca aşağı idi. Əhmədin islahatçılıq cəhdləri vergilərin artırılması ilə müşahidə olunurdu.Vergilərin artırılması isə 1840, 1842 və 1843-cü illərdə kor-təbii üsyanlara səbəb oldu.

Tunisin beynəlxalq vəziyyətini möhkəmləndirmək məqsədilə Əhməd Krım müharibəsində iştiraka qərar verdi. O, türklərə kömək məqsədilə mövcud qanuna görə, yəni müharibə zamanı Osmanlı əyalətləri İstanbula hərbi dəstələr göndərməli idi, buna uyğun olaraq, böyük əksəriyyətinin epidemik xəstəlikdən həlak olduğu 10 min əsgər göndərdi.

Qeyd edək ki, 1841-ci ildə qul alveri, 1846-cı ildə quldarlığın ləğv edilməsi, Avropa tipli tədris müəssisəsinin, bir neçə missioner məktəblərinin (ən məşhuru-Lyudovik Svyatoy kolleci) və xəstəxanalırın açılması, arxeoloji axtarışların başlanması, poçtların yaradılması Tunisin həyatında baş verən dəyişikliklər idi.

1857-ci ildə Məhəmməd bəy (1855-1859) 1856-cı il xətti-humayuna uyğun gələn «Əsas qanun» («Əhd əl-Aman) verdi. Qanuna görə dinindən asılı olmayaraq, bütün tunislilərə vətəndaşlıq hüququ verirdi. Cəmiyyətin imtiyazlı qruplarının istifadə etdiyi fövqəladə vergilər ləğv edildi, şəxsiyyətin və əmlakın toxunulmazlığı, müəssislər məclisinin yaradıldığı elan edildi. Eyni zamanda,

fransızlar teleqrafların, ingilislər isə dəmir yolunun çəkilməsini konsessiyaya aldı. Xaricilərə torpaq almaq hüququ da verildi.

26 aprel 1861-ci ildə Məhəmməd əs-Sadıq bəy (1859-1882) ərəb ölkələrində ilk dəfə olaraq, konstitusiya elan etdi. İcraedici hakimiyyət bəyə, Qanunvericilik isə bəyə və 60 nəfər üzvü olan Ali Şuraya həvalə edilmişdi. Konstitusiya həyata keçirilmədi, 1864-cü ildə üsyan zamanı onun fəaliyyəti dayandırıldı.

1862-ci ildə daxili borclar artaraq, 28 mln.frankla hesablanırdı, maliyyə çətinlikləri isə durmadan artırdı. Belə olduqda, Tunis hakimiyyəti Avropa banklarına üz tutdu. 1863-cü ildə 35 mln.frank məbləğində istiqraz almaq üçün müqavilə bağlandı. Lakin ondan Tunis xəzinəsinə yalnız 5,6 mln. daxil oldu, lakin 20 mln. məbləğində mal göndərildi. Bunun üçün bəy 15 il müddətində 76 mln. ödəməli idi. 1865-ci ildə növbəti dəfə istiqrazlar almaq üçün müqavilə imzalandı. Ölkəni aclıq və epidemik xəstəliklər bürümüşdü.

1864-cü ildə Əli bin Qadaxumun başçılığı altında böyük üsyan baş verdi. Bəyin ordusu ciddi məğlubiyyətə düçar oldu və paytaxta yanaşdılar. Xəzinədar bir neçə rəhbəri pulla ələ alaraq, üsyanı parçalaya bildi. Sus yaxınlığında üsyançılar darmadağın edildi. Əli bin Qadaxum Əlcəzairin ərazisinə keçdi, lakin orada onu fransızlar həbs edərək Tunisə göndərdilər. 1865 və 1866-cı illərdə krum tayfalarının üsyanı baş verdi.

5 iyul 1869-cu ildə bəy özü iflasa uğradığını etiraf etməyə məcbur oldu və Tunisin maliyyəsini Beynəlxalq Maliyyə komissiyasının nəzarətinə verdi. Bu komissiyanın tərkibinə Fransa, İngiltərə, İtaliya və Tunis daxil idi. 23 mart 1870-ci il qanununa uyğun olaraq, borc 125 mln. frank müəyyənləşdi. Tunis öz gəlirinin yarısını, hər il 6,25 mln. frank ödəməli idi.

*__Tunisin avropalılardan siyasi asılılığının artması__*

70-ci illərdə Tunisin Avropa dövlətlərindən siyasi asılılığı artırdı. Bu asılılığın əsası 1878-ci il Berlin konqresi zamanı İngiltərə və Almaniyanın Fransaya Tunisi zəbt etməyə icazə verməsi ilə başladı.

70-ci illərdə xüsusilə dəmir yolu çəkilişinə və bir sıra digər sahələrə aid konsessiyaların əldə edilməsi xarici kapitalın ölkəyə müdaxiləsinin göstəricisi idi.

1880-ci ildə Fransa kompaniyası Tunislə Əlcəzairi birləşdirən dəmir yolu tikintisini başa çatdırdı. Fransız kapitalistləri 1879-cu ildə ölkədə ilk dəfə olaraq, bank yaratdılar. Avropalılar həmçinin Tunisdə torpaq sahəlri ələ keçirirdilər.

1873-cü ildə rüşvətxor Mustafa xəzinadar vəzifəsindən kənarlaşdırıldı. Hökumətin başçısı feodal sinfinin vətənpərvər hissəsini təmsil edən general Xeyrəddin oldu. Maliyyəni dirçəltmək istəyən Xeyrəddin korrupsiya ilə mübarizə aparır, dövlət torpaqlarını onları becərmək və kənd təsərrüfatının səviyyəsini qaldırmaq məqsədilə orta və xırda sahibkarlara satırdılar. Xeyrəddin Əkinçilik nizamnaməsi tərtib etdi, Vəqf torpaqları idarəsini yenidən təşkil etdi, onun başında alim və vətənpərvər Məhəmməd Bayramı qoydu. 1875-ci ildə Bayramın köməkliyi ilə Sadıq kolleci təsis etdi, təhsilin inkişafı qayğısına qaldı. Onun əməkdaşlrı Məhəmməd əs-Sənusi və Həmzə Fətullah idi. 1877-ci ildə Xeyrəddin vəzifəsindən uzaqlaşdırıldı və mühacirətə getdi. 1878-ci ildə hökumətə Fransa meylli Mustafa bin İsmayıl rəhbərlik edirdi.

Belə ki, 1881-ci ildə 30 minlik fransız ordusu Tunisin ərazisinə soxuldu. Həmin ildə bağlanan müqaviləyə əsasən bəy ölkənin «müvəqqəti» işğalına icazə verdi. 8 minlik desant Bizertə çıxarıldı. 12 may 1881-ci ildə Sadıq bəy hakimiyyətdən salınacaq hədəsi ilə Bardoda fransız işğalını təsdiq edən müqavilə imzaladı. Lakin işğal əleyhinə baş verən üsyanları yatırdıqdan sonra Fransanın 1883-cü ildə bəylə bağladığı konvensiyaya əsasən Tunis rəsmi şəkildə fransız protektoratlığına çevrildi.

Tunis torpaqlarının kütləvi şəkildə zəbt edilmsi geniş vüsət almışdı. Birinci dünya müharibəsinin başlanğıcında avropalılara 1 mln ha torpaq, onun da 900 min. ha ancaq fransızlara məxsus idi.

# LİVİYA

*Liviyada siyasi vəziyyət* XVI yüzillikdə İspaniya ilə uzun mübarizədən sonra Osmanlı imperiyası Əlcəzair, Tunis və Tripoli üzərində öz ali hakimiyyətini bərqərar etdi. Bu ölkələrin sahil şəhərlərində hakim sinif Məğribdə məskunlaşmış Osmanlı dövlətindən, xüsusilə yeniçəri korpusundan (ocağından) çıxmış nümayəndələr idi. Yeniçəri komandirləri (ağa, dey) və rəislər böyük nüfuza malik idilər. Məğrib sahillərində yaşayanların həyatında mühüm rol oynayan dəniz ticarəti ilə yanaşı dəniz quldurluğu da mövcud idi.

1711-ci ildə Tripolidə Əhməd Qaramanlı hakimiyyətə gəldi və sonra Tripoli, Kirenaika və Fəzzanın irsi paşası oldu.

XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəllərində Məğrib ölkələri ilə ABŞ arasında hərbi toqquşmalar baş verdi. Aralıq dənizində Amerika ticarəti quldurlardan əziyyət çəkirdi. Belə ki, 1801-ci ildə Yusif Qaramanlının idarə (1795-1832) etdiyi Tripoli və ABŞ arasında müharibə baş verdi. 1803-cü ildə Berronun komandanlığı altında Tripoli şəhəri mühasirəyə alındı. Amerika kapitanları müdafiəsiz sahilləri bombalayır, ərəb ticarət gəmilərini batırır, yürüşlər təşkil edirdilər. Tunisdə ABŞ-ın konsulu İton Yusifin mülklərində qarışıqlıq yaratmaq üçün əvvəllər Kirenaikanı idarə etmiş, lakin sonra qovularaq, Misirə getmiş qardaşından istifadə etməyi qərara aldı. Onun köməkliyi ilə İton Misirdə muzdlu əsgərləri topladı və Amerika hərbi gəmiləri ilə birlikdə Kirenaikaya hücum etdi. 26 aprel 1805-ci ildə Derna şəhərini tutdu. Bu şəraitdə Yusif 4 iyun 1805-ci ildə ABŞ-la müqavilə imzaladı və burada Amerika gəmilərinin sərbəst hərəkətinə təminat verilirdi və ticarət məsələlərində daha əlverişli şərait yaratmaq vəd edilirdi. Tərəflər əsirləri dəyişdirdilər. Qeyd edək ki, amerikalı əsirlər çoxluq təşkil etdiyi üçün ABŞ 60 min dollar ödədi, Derna isə Yusifə qaytarıldı.

XX yüzilliyin əvvəllərində Tripoli və Kirenaika Osmanlı imperiyasının Afrikada son mülkləri idi. Sahil xətti boyu ərazilər Osmanlı idarəçiliyinə tabe deyildi. Bütün Kirenaika Sənusilrin teokratik knyazlığının tərkibinə daxil idi. 1901-ci ildə Məhəmməd əl-

Mehdinin ölümündən sonra ordenin başçısı Əhmədin qardaşı oğlu, Mehdinin oğlu Məhəmməd İdris idi. Bu zaman ordendə 145 zaviyə var idi. 1894-cü ildə ordenin mərkəzi karvan yollarının birləşdiyi Kufra vahəsinə keçirildi. Əhməd Əlcəzair və Tunisdən Fəzzana soxulmağa cəhd etmək istəyən fransızlara qarşı on il mübarizə apardı və onların qarşısını ala bildi. Sənusilər həmçinin Ekvatorial Afrikada fransızlara müqavimət göstərirdilər.

XX yüzilliyin əvvəllərində İtaliya Osmanlı dövlətinin sonuncu Afrika ərazisi olan Liviyanı işğal etmək istiqamətində fəaliyyətini artırdı. İtaliya liviyanı işğal etmək üçün Avropa dövlətləri ilə diplomatik mübarizə aparmaqla bərabər Osmanlı dövlətinə qarşı müharibə elan edilməsi istiqamətində də tədbirlər hazırlayırdı. Bu tədbirlər sırasında Osmanlı dövlətinin Liviyada qoşun hissələrinin saxlanmasına ehtiyac olmadığına, İtaliyanın Osmanlı dövləti ilə müharibə etməyəcəyinə inandırmaq əsas vəzifə kimi qarşıda dururdu. İtaliyanın bu tədbirləri həyata keçirməyə başlaması isə 1908-ci il Gənc türklərin qiyamından sonra açıq şəkildə özünü göstərməyə başladı.

Həmin tədbirlər sırasında İtaliya hökumətinin Osmanlı dövlətinin buradakı səfirləri və konsullarına yanlış məlumatlar verərək, onların Liviyaya heç zaman hücum etməyəcəklərinə inandıra bilmişdilər. İtaliyanın sürətlə müharibəyə hazırlaşması haqqında məlumatları isə xarici işlər naziri Hüseyn Hilmi fransız qaynaqlarından öyrənə bilmişdi. Lakin onun xəbərdarlığına hakim dairələr etinasızlıqla yanaşdılar. Hətta 1910-cu ilin yazında italyanların dəvəti ilə Osmanlı dövlətindən 100 nəfərlik bir türk qrupu İtaliyaya getdilər. Nümayəndə heyəti bütün məslək sahiblərini özündə cəm etmişdi. İtaliyada həmin nümayəndə heyəti hər yerdə «Yaşasın gənc Türkiyə!» şüarları ilə qarşılandı. Əsas məqsəd bundan ibarət idi ki, İtaliyanın Osmanlı dövlətinə qarşı hücum etməyəcəyinə və Liviyadakı türk qoşunlarının saxlanmasına ehtiyac olmadığına dair türklərdə heç bir şübhə qalmasın.

Bu səbəbdən də, Mahmud Şövkət Paşa Trablisdəki qoşun dəstələrinin əsas hissəsini çıxararaq, Yəməndə yerləşdirilməsinə dair Trablisdəki ordu komandanı Müşir İbrahim Paşaya əmr verdi. Müşir İbrahim Paşa bu addımın Trablisi italyanlara verməklə nəticələnəcəyini müdafiə nazirliyinə bildirdisə də, onları verdikələri qərardan

döndərə bilmədi. Beləliklə, Trablisdəki əsas qoşun hissələri çıxarılaraq, Yəməndə yerləşdirildi. Buradakı bütün hərbi vəsait və ləvazimat isə İstanbula gətirildi. İtaliya hökumətinin Sultandan xahişinə əsasən isə İbrahim Paşa vəzifəsindən uzaqlaşdırıldı və müharibə başlanana qədər Trablis valisiz qaldı ki, bu da paytaxtın idarə edilməsində boşluğun yaranmasını səciyyələndirirdi. Bu isə italyanların istədiyi vəziyyət idi.

_Trablis müharibəsi_ Artıq İtaliyanın müharibəyə başlamağa hazır vəziyyətdə olduğu tam bəlli idi. Nəhayət, 28 oktyabr 1911-ci ildə Osmanlı dövləti Trablis ilə əlaqədar İtaliya hökumətinə bir ultimatum verdi. Ultimatumda buranın İtaliya tərəfindən işğal vəziyyətinə gətirildiyi bildirilir, Avropa dövlətlərini isə İtaliyanı bu niyyətindən çəkindirməyə çağırırdı. Bu ultimatuma cavab olaraq, İtaliya Osmanlı dövlətinə müharibə elan etdi.

Osmanlı dövləti bu müharibəyə Liviyanı müdafiə etməkdən daha çox öz imicini qorumaq mövqeyindən girmişdi ki, burada da ərəblərin etimadını itirməmək başlıca məqsəd idi. Müharibə başlananda türklər ərəbləri silaha sarılmağa dəvət etdilər. Ərəblər isə bu dəvətin müqabilində bildirdilər ki, əgər türklər ərəbləri tərk edəcəklərsə, ərəblər bu hərəkəti xəyanət adlandıracaqlar. Nəticədə, Ərəbistanda fitnə və fəsad, eləcə də üsyan baş verəcək və bu Suriyayadək yayılacaqdır. Ona görə də, Sultan Əbdül Həmid deyirdi ki, Liviya bizdən uzaq olsa da, ona əlimiz çatmasa da, onun bizim üçün əhəmiyyəti artıq əvvəlki kimi qalmasa da, onu itirmək bizim üçün arxadan zərbə olacaqdır. Arxadan zərbə dedikdə isə Sultan Əbdül Həmid ərəblərin türklərə qarşı mübarizəyə başlayacağını nəzərdə tuturdu.

Avropa dövlətləri isə seperat danışıqlar çərçivəsində İtaliyanı çox sıxışdırmamaq, Osmanlı dövlətinin isə ərazilərini çox daraltmamaq siyasəti yeridirdilər.

Osmanlı dövləti bu müharibəyə cüzi bir qüvvə, silah və sürsatsız bir vəziyyətdə başlamaq məcburiyyətində qaldı. Buradakı bütün türk hərbi dəstəsinin sayı cəmi 1700 nəfər idi. Halbuki, italyanlar Liviyaya 30 min əsgər, ağır texnika və ən müasir silahlar çıxarmışdılar. Bununla belə, İstanbuldan Liviyaya heç bir hərbi yardım göstərilmədi. Buna səbəb isə dənizdə İtaliya donanmasının

hakim vəziyyətdə olması idi. Buna baxmayaraq, italyanların qısa zamanda qələbə qazanmaq planları boşa çıxmışdı. Beş ay ərzində italyanlar Liviyanın sahillərindən irəli gedə bilmədilər. Bu mübarizədə türklərə ərəb mücahidləri də yardım edirdi ki, bu yardım da əsasən gecələr italyan qoşunlarına hərbi zərbələrin endirilməsində öz əksini tapırdı.

İtalyanların hərbi qüvvəsinin çox olmasına baxmayaraq, onlar Liviyanın içərilərinə doğru hərəkət edə bilmirdilər. Bu səbəbdən də italyanlar hərbi əməliyyatların ağırlıq mərkəzini dənizdəki fəaliyyəti üzərinə salmaq məcburiyyətində qaldı. 18 aprel 1912-ci ildə İtaliyanın donanma admiralı Viyale Çanaqqala boğazına girişdə qala istehkamlarını bombardman etdisə də, boğazı ələ keçirə bilməyərək geri çəkilmək məcburiyyətində qaldı. Buna görə, onlar az hərbi qüvvənin saxlanıldığı Egey adalarını işğal etməyə başladılar. Qısa zamanda Dodekanez adlanan on iki ada italyanlar tərəfindən işğal olundu. İtalyanlar belə hesab edirdilər ki, bu adaların işğal edilməsi onlara böyük üstünlük qazandırcaqdır.

Müharibə italyanların qələbəsi ilə bitdi. İlkin olaraq, tərəflər Lozannada 15 oktyabr 1912-ci ildə məxfi müqavilə imzaladılar. Bu müqaviləyə görə Osmanlı dövləti Liviya və Kirenaikanı İtaliya üçün tərk edirdi. 18 oktyabrda isə Osmanlı dövləti ilə İtaliya arasında açıq müqavilə bağlandı. Müqaviləyə əsasən türklər Liviyanı tərk etdikdən sonra İtaliya Dodekanez adalarını Osmanlı dövlətinə qaytaracağını vəd edirdi. Lakin həmin adalar II Dünya müharibəsinin sonunda İtaliyanın əlindən alınaraq, Yunanıstanı verildi.

Kirenaikada sənusi dini qardaşlığı böyük siyasi qüvvəyə çevrilmişdi. Sənusi şeyxləri təkcə dini hakimiyyəti deyil, dünyəvi hakimiyyti ələ keçirmişdilər.

Birinci dünya müharibəsi illərində İtaliya işğal olunmamış Kirenaika rayonlarının müstəqilliyini tanıdı. Burada hakimiyyət sənusilərin başçısı İdris əs-Sənusinin əlinə keçdi.

*Liviya birinci dünya müharibəsi illərində*

Birinci dünya müharibəsi başlandıqdan sonra Sənusilərin siyasi və dini rəhbəri Əhməd alman və türklərdən bir sıra yardımlar aldıqdan sonra geniş hücuma başladılar. 1915-ci ildə italyanlar Kirenaikadan çıxarıldılar. Əhməd Misirə doğru hərəkət etdi və 1915-ci ilin noyabrında əs-Səllum

şəhərini tutdu. Liviya dəstələri Bahariyyə vahəsini tutdular və təxminən Nil deltasına qədər reyd etdilər. İngilislər ordunu gücləndirərək və aviasiyadan istifadə edərək, əks hücuma keçdilər və 1916-cı ilin fevralında Liviya dəstələri darmadağın edildi, martda isə ingilislər yenidən əs-Sallumu tutdular. Bu məğlubiyyət Sənisi ordeninin rəhbərliyində dəyişikliyə səbəb oldu. Belə ki, Sənusilərin siyasi və hərbi rəhbəri Əhmədin əmisi oğlu Məhəmməd İdris oldu. Əhəməd isə 1933-cü ildə ölümünə qədər dini rəhbər olaraq qaldı.

1917-ci ilin aprelində İdris Tobruk yaxınlığında əl-Əkrəmdə İtaliya ilə müqavilə bağladı. Hərbi döyüşlər dayandırıldı. Kirenaikada italyanların hakimiyyəti altında sahil şəhərləri Benqazi, Derna, Tobruk qaldı, Kirenaikanın qalan əraziləri isə əmir İdrisin hakimiyyəti altına keçdi. Ölkənin hər iki hissəsində ticarət əlaqələri yarandı. Bununla yanaşı, İdris ilə İngiltərə arasında müqavilə bağlandı.

Əhməd və Trablisin rəhbərləri bu müqaviləni qəbul etmədilər və İngiltərə, İtaliya, həmçinin Tunis və Əlcəzairlə, sərhəddə Fəzzanda Fransa ilə silahlı mübarizə davam edirdi. Trablisdə italyanlar yalnız Tripolini, Homsu və Zuaru, həmçinin onlar arasında sahil əraziləri qoruyub saxlayırdı. Yalnız 1918-ci ilin payızında vəziyyət dəyişdi. 1918-ci ilin sentyabrında Əhməd alman qayığında Liviyanı tərk etdi. Avropada hərbi əməliyyatlar dayandıqdan sonra 1918-ci ilin noyabrında İtaliya Liviyaya 80 minlik ordu göndərdi.

# ƏRƏB ÖLKƏLƏRİNDƏ ELMİ- MƏDƏNİ MÜHİT

Ərəb mənəvi mədəniyyətinin əsas hissəsi kimi Ərəb Şərqində elmin formalaşması islamın meydana gəldiyi və Xilafətin yarandığı dövrə aiddir. Qədim yunan, ellin-rim, aramey, İran, hind və xilafətə daxil olan digər xalqların mədəniyyəti ilə ərəblərin səmərəli əməkdaşlığı və onun təkmilləşməsi nəticəsində güclü ərəb mədəniyyəti yaranmışdır. Bu mədəniyyət dünya mədəniyyətinə, o cümlədən Qərbi Avropa mədəniyyətinə böyük töhfələr vermiş və onun istiqamətini müəyyənləşdirmişdir. Ərəb mədəniyyətinin formalaşmasında suriyalılar, farslar, Orta Asiya və Cənubi Qafqaz xalqları da böyük rol oynamışlar.

Ərəb mədəniyyətindən danışarkən *cahiliyyə dövrü* mədəniyyətini də unutmaq olmaz. Cahiliyyə dövrü mədəniyyətinin aynası ərəb poeziyası sayılmalıdır. Ərəb ədəbiyyatı dünyanın ən zəngin və ən qədim ədəbiyyatlarından biridir. Bu ədəbiyyatın şifahi söz sənəti nümunələrinin 2000 ilədək yaşı vardır. Yazılı, yəni müəllifi məlum olan ədəbiyyatın ilk mükəmməl nümunələri isə eramızın V-VI əsrlərində yaranmışdır. Artıq bu əsrlərdə ərəb poeziyası məzmun və forma cəhətdən təşəkkül tapmış, onun vəznləri, qafiyə sistemi, bədii ifadə vasitələri, mövzu çalarları formalaşmışdır. İslamdan əvvəl yaranmış bu sənət əsərlərinə cahiliyyət dövrü ədəbiyyatı deyirlər. Mənası nadanlıq, cahillik olan «cahiliyyət» sözü heç də islama qədərki ərəblərin avamlığına, mədəni inkişafca geri qalmasına dəlalət etmir. Burada, əsasən, islam dinindən bixəbərlik, dinsizlik, bütlərə tapınmaq cahillik kimi təqdim edilir. V-VI əsrlər cahiliyyət ədəbiyyatı ərəb yazılı ədəbiyyatının birinci mərhələsini təşkil edir.

VII əsrin 20-ci illərində Ərəbistan yarımadasında yeni bir dini təlim-islam dini meydana gəldi. İslam dini ərəblərin şüurunu tamam dəyişdi, vərdişlərini, əxlaqi prinsiplərini, məişət tərzini, psixoloji dünyasını tamamilə yeni bir istiqamətə yönəltdi. Cahiliyyət mərhələsindən sonra gələn dövrün ədəbiyyatı – *İslamın yaranması və Xüləfə ər-Raşidin dövrü ədəbiyyatı* adlanır və təxminən 620-660-cı illəri əhatə edir.

Məlumdur ki, elm, mədəniyyət və texnologiya şərqdən başlanıb və elmin təməlini isə elə müsəlmanlar qoymuşlar. Quran ayələrində və Məhəmməd Peyğəmbərin hədislərində elmin əhəmiyəti və alimin cahildən üstünlüyü xüsusi vurğulanır.

«Ya elm öyrən, ya öyrət, ya elm öyrədənləri dinlə, ya elm əhlini sev. Bunlardan başqa yana getsən, özünü məhv etmiş olarsan».

«Elm öyrənmək kişili-qadınlı bütün müsəlmanların borcudur».

«Mən elmin şəhəriyəm, Əli isə bu şəhərin qapısıdır» və sairə.

İmamlarımızın həyatı ilə tanış olduqda, onların elm və mədəniyyət sahəsinə xüsusi diqqət göstərdiklərinin də şahidi oluruq. Görkəmli dövlət xadimi və böyük sərkərdə imam Əli ərəb dilinin qrammatikasının ilk tərtibçisi, «Nəhcul-Bəlağə» kimi qiymətli əsərin müəllifi olmaqla yanaşı riyaziyyat elmi sahəsində kifayət qədər biliyə malik olduğu də qeyd edilir. Dini yazılarda nəql edilir ki, Əli döyüşə gedən zaman ona bir yəhudi yaxınlaşaraq, əgər sən mənim verdiyim bu riyazi misalın cavabını tapsan, mən islamı qəbul edəcəyəm. Sonra isə əlavə edərək deyir: elə bir ədəd de ki, 1-dən - 10-a qədər bütün rəqəmlərə bölünsün. Əli isə həmin an cavab verərək bildirir ki, həftənin günlərini çevrəyə vur (7x360), onda istədiyin rəqəmi alarsan! Bu isə 2520 rəqəmidir. Təbii ki, belə yazıların mövcudlğu imam Əlinin riyazi biliklərə malik olmasının bir daha göstəricisidir. Bir çoxları Əlinin şəxsiyyətinə vurğunluqlarını yeni dini cərəyanlar-Əli Allahılər və sairə yaratmaqla ifadə etmişlər. Əli Allahilik isə islam qanunlarına və ehkamlarına tamamilə ziddir.

Elmi biliklərin tədrisi məqsədilə imam Bagir və imam Sadiqin açdığı məktəblərdə şagirdlərin sayı dörd minə çatmışdı. Bu məktəbdə Hişam ibn Hakam, Muhəmməd ibn Müslim, Əban ibn Təğlib, Hişam ibn Salim, Mömin ət-Taq, Müfəzzəl ibn Ömər, Cabir ibn Həyyan kimi görkəmli elm xadimləri yetişmişdir.

VII əsrin sonundan -VIII əsrin ortalarına qədər Əməvilərin paytaxtı Dəməşqlə yanaşı Ərəbistanda Məkkə və Mədinə, İraqda Kufə və Bəsrə əsas mədəni və elmi mərkəzlər idi. Dini və fəlsəfi ideyalar, elmin ilkin nailiyyətləri və sairə Pirineydən Hind çayına qədər uzanan Əməvilər xilafətinin əyalətlərində yayılmış və inkişaf etmişdir. İstehsalın inkişafı ilə bağlı dəqiq və təbii elmlərin inkişaf mərkəzi xilafətdə ilk əvvəl Suriya və Cənub-Qərbi İranın bir sıra ərazilərində özünü büruzə verirdi. Burada

antik müəlliflərin əsərlərinin ərəb dilinə tərcüməsi və şərhi aparılmışdır. İslam ölkələrinin alimləri çox hallarda yeganə mənbə olan antik elmi ədəbiyyatların böyük hissəsini yunan və Suriya dillərindən tərcümə etmişlər. Qərbi Avropa bu vasitə ilə antik ədəbiyyatlarla tanış olmaq imkanı qazanmışdılar. Məsələn, Heronun «Mexanika» əsəri və Arximedin bir çox traktatları yalnız ərəb tərcüməsi vasitəsilə günümüzə gəlib çatmışdır. Çin və Hindistandan götürülmüş bir sıra texniki yeniliklər (kompas, kağız, barıt, əyri yelkən və sairə) ərəblər vasitəsilə Avropaya gəlib çatmışdır. Məsələn, əyri yelkəndən (üçkünclü yelkəndən) ərəblər ilk əvvəl Hind okeanında, sonra isə Aralıq dənizində latın karavellalarında istifadə etmişlər. Bu isə küləyin əksinə hərəkət etməyə imkan verirdi. Üçkünclü yelkənlərdən istifadə prinsipi avropalılara Atlantikanı keçməyə və uzun səyahət etməyə imkan vermişdir. Ərəblərin ixtira və istifadə etdiyi kompas dənizçilər üçün az əhəmiyyət kəsb etməmşdir. Bir çoxları isə kompası ilk dəfə çinlilərin ixtira etdiyini dilə gətirirlər. Tədqiqatçılar belə hesab edirlər ki, kompasın ixtirası ərəblərə məxsusdur, lakin onu sonra avropalılar təkmilləşdirmişlər. Bir çox müasir mütəxəssislər belə hesab edirlər ki, orta əsr Avropa elmi və fəlsəfəsi ərəblərsiz inkişaf edə bilməzdi.

**Məlumdur ki, orta əsrlərdə siyasi mübarizə həmişə din pərdəsi altında aparılırdı. Əməvilər dövründə də onların siyasətinə qarşı yönəlmiş mübarizə din pərdəsi ilə ört-basdır edilirdi. Əməvilərə qarşı çıxan əsas qüvvələr şiələr, xaricilər və zübeyrilər idi. Xaricilərin ən görkəmli şairləri Tırmah bin Hakim, İmrah bin Hittan, Qatari bin Yucə, Umm əl-Hakim olmuşdur. Bu dövrdə şiələrin idealogiyasını tərənnüm edən əsas şairlər Süleyman ibn Qattata, Əbül Əsvad əd-Duvali, Nabiğə əl-Cədi, Kuseyyir Uzzə, Fərəzdəq idi.**

*Memarlıq sənəti* mədəniyyətin və incəsənətin mühüm sahələrindən biridir. Əməvilər memarlıq məktəbi 661-ci ildən-750-ci ilədək İslam dünyasına rəhbərlik etmiş Əməvilər sülaləsinin dövründə yaradılıb təşəkkül tapmışdır.

Əməvilər məktəbinin formalaşmasında başlıca rolu Suriya oynamışdır. Bu ölkənin ərazisində Əməvi xəlifələri xristian abidələri ilə qarşılaşmış və onları əsaslı quruculuq işlərinə sövq etmişdir. Ölkənin abadlığına və çiçəklənməsinə böyük önəm verən xəlifə

Əbdül Malikin dövründə memarlıq sənəti inkişaf etmiş və I Validin dövründə də davam etdirilmişdir. Məhz bu zaman Əməvi memarlıq məktəbinin inciləri sayılan Qüdsdəki Qübbət əs-Saxra və əl-Aqsa məscidi, Dəməşqin ən gözəl abidəsi- Əməviər məscidi tikilib başa çatdırılmışdır. Onlardan əlavə Seyyid Əkəbə camesi, Tunisdə məşhur Zeytunə camesi inşa etdirilmişdir.

Əməvilər sülaləsi dövründə əvvəllər islam memarlığında istifadə edilməyən bir sıra yeni ünsürlər tətbiq edilmişdir. Onlardan biri və başlıcası minarədir.

Əməvilər dövründə Suriyada islamın bərqərar olması Aralıq dənizi hövzəsində qədimdən yaradılmış məişət mədəniyyətinə geniş qapı açıldı. Məhz o zamandan başlayaraq, islam sənətinə mozaika və ornament daxil oldu. Suriyalılar islamdan qabaq da divar və döşəmənin bəzədilməsində mozaikadan istifadə edirdilər. Bu dövrdə sənət həyatına yeni bir bəzək ünsürü daxil olmuşdur ki, o əvvəllər də suriyalılara və ərəblərə tanış deyildi. Bu Yunan və Roma mədəniyyətinin məhsulu olan gipsdən düzəldilmiş ornamentlərlə divarların bəzədilməsi idi. Artıq bu üsullardan Əməvilər memarlıq abidələrində məharətlə istifadə edirdilər.

Dəməşqdə ilk dövr memarlığı əsasən türbələr şəklində qalmaqdadır. Onlardan ən məşhuru Əməvilər məscidinin şərq hissəsindəki imam Hüseyn türbəsidir. Abidənin cənub tərəfindəki Seyidə Zeynəb məscidi və türbəsi də Dəməşqin ən məşhur abidələrindən sayılır. Dəməşqin məşhur yerlərindən biri də ilk müsəlman müəzzini olmuş həbəş Bəlalın türbəsidir. Şəhərin kiçik darvazaları yanında təmtəraqlı qəbiristanda peyğəmbərin həyat yoldaşı Um-Həbibə, qızı Ruqiyyə və nəticəsi Səkinə dəfn olunmuşdur. Dəməşqin hər bir rayonunda məşhur dövlət və din xadimlərinə yüksəldilmiş türbələr görmək olar.

Əməvilər məscidi Suriyanın ən məşhur və görkəmli tarixi abidələrindən biri sayılır. Əməvilər məscidi ölçülərinin nəhəngliyinə, quruluşunun mürəkkəbliyinə, daxili tərtibatının zənginliyinə görə digər məscidlərdən seçilir. Əməvi xəlifəsi Valid ibn Əbdül Malik xristian xadimləri ilə danışıqlardan sonra köhnə kilsəni alır və onu sökməyi əmr edir. Tikiləcək məscidin inşasında kilsənin və Roma məbədinin materiallarından da istifadə edilmişdir. Xəlifə bu məscidin inşasına bütün ölkənin yeddi illik xəracını sərf etmişdir.

Dəməşqin tarixini yazmış İbn Şəddad qədim mənbələrə əsalanaraq göstərir ki, məscidə hər birində 14 min dinar olan 400 sandıq və 28 min dinar olan 2 sandıq qızıl sərf edilmişdir.

Doğrudan da, çəkilən xərclər möhtəşəm bir məscidi ərsəyə gətirmişdir. O öz dövrünün səyyah, alim, diplomat, şair və dövlət xadimlərini heyrətə gətirmişdir. Ərəb müəllifləri ona «taleyin şəfəqi», «dövrün yeganəsi», «zamanın möcüzəsi» və sairə adlar vermişlər. Şairlər, hətta Əməvilər məscidinə qəsidələr də həsr etmişlər (Məsələn, «Divani Sənubəri» əsəri). Məscid möhtəşəmliyi ilə yanaşı, ibadət üçün də çox əlverişlidir. Onun tikintisində memarlar yerli xüsusiyyətləri nəzərə almaqla Sasani və Bizans memarlıq üslublarından da istifadə edərək, çox orijinal sənət əsərini müsəlmanların istifadəsinə vermişlər.

Mədəniyyət tarixi üzrə mütəxəssislər _Abbasilər memarlıq məktəbinin_ fəaliyyət dövrünü 750-ci ildən 1055-ci ilədək qəbul edirlər. Bu məktəbin memarlıq nümunələrinə ən parlaq misal yeni tikilmiş və islam dünyasının bir neçə əsr mədəni mərkəzi rolunu oynamış, öz dövründə yalnız Konstantinopolla müqayisə edilən gözəl Bağdad şəhərinin arxitekturasıdır. Xəlifə Mütəsim 836-cı ildə Bağdaddan bir qədər aralıda Samara adlı paytaxt, əl-Mütəvəkkil isə ölümündən bir qədər əvvəl Samaradan şimalda daha bir paytaxt əl-Cəfəriyyə adlı yeni bir şəhər saldırmışdır. Samara Bağdaddan 120 km aralı, Dəclə çayının sahilində salınmışdır. Mənbələrdə o, «gözəl və valehedici», «səhrada röya» kimi təsvir edilir. Samara sözünün mənası isə «surr mən raə», yəni «kim görsə sevinsin» deməkdir. Yeddi xəlifənin dövrundə o daha da abadlaşdırılır. Samara məscidi bu şəhərin bəzəyi hesab edilirdi. İraqın heç bir tikilisi bu məscidin minarəsi qədər məşhur olmamışdır və bu minarə ərəb dünyasının ən görkəmli tikililərindəndir.

İstər Samara, istərsə də Cəfəriyyə şəhərlərinin salınmasında arxitekturaya nə qədər diqqət ayrılsa da Bağdad şəhərini əvəz edə bilməmişdir. İçməli suyun çatışmaması, ağır iqlim şəraiti və sairə amillər səbəbindən paytaxt yenidən Bağdada köçürülmüşdür.

Bu memarlıq məktəbinin formalaşmasında tikilən şəhərlərlə yanaşı ayrı-ayrı xəlifənin inşa etdirdiyi məşhur saray və qəsrlərin xüsusi rolu olmuşdur. Msələn, xəlifə Mənsur Bağdadda Qızıl Qəsr adlı saray, Xəlifə Rəşid isə Riqqədə özü üçün gözəl saray tikdirmişdi

və həmin binanın qalıqları dövrümüzə qədər gəlib çatmışdır. Samarada Cisəq , Aşiq, Cəfəriyyə şəhərində Aruş, Muxtar, Vahid, Cəfəri adlı saraylar öz görkəminə və tərtibatına görə dövrünün məşhur abidələri olmuşlar.

Bağdad sonrakı əsrlərdə təkcə Yaxın və Orta Şərqdə deyil, ümumiyyətlə bəşər sivilizasiyasının tarixində İraq ərazisində müxtəlif minilliklərdə salınıb ad çıxartmış Şumerlərin paytaxtı Ur, Babillərin böyük mərkəzi Babil, məşhur Assuri paytaxtı Nimrud və Sasanilərin paytaxtı Mədain kimi mühüm siyasi iqtisadi, mədəni mərkəz olaraq, öz ölkəsini hər tərəfdə tanıtmışdır.

Xəlifə Məmunun hakimiyyəti illərində əvvəllərdə görkəmli rəssamları, musiqiçiləri, şair və zərif sənət mütəxəssislərini özünə cəlb edən və qucağında layiqli yer verməyə çalışan Bağdad daha da tərəqqi edir və İslam dünyasının birinci mədəniyyət mərkəzinə çevrilirdi. Bu şəhər, ümumiyyətlə Abbasilər sülaləsinin yürütdüyü qeyri-millətçilik siyasətinə uyğun olaraq, öz qapılarını müxtəlif dindən, irqdən, dildən olan istedadlı insanların üzünə açırdı. Bu isə ümumi tərəqqi işinə müsbət təsir göstərirdi. Nəticəsi isə, bəşər tarixinin ən mühüm mərhələlərindən birini təşkil edən Şərq intibahının yaranması ilə bitmişdir.

*Məmlüklər memarlıq məktəbi* məmlüklərin Misir və Suriyada hakimiyyətdə olduqları dövrdə yaradılıb formalaşmışdır. Tarixi mənbələr məmlüklər dövrünü Misir incəsənətinin «qızıl dövrü» adlandırır. Türk məmlük abidələrindən Zahir Bəybars Camesi, Naser Məhəmməd Camesi və Mədrəsəsi, Sultan Həsən Camesi və Mədrəsəsi, Qansuva Quri Mədrəsəsi, Zahir Bərquq Mədrəsəsini göstərmək olar. Mənşəcə türk olan məmlüklər Misirə türk ənənələri gətirdilər. Məscidlər kompleks şəkildə yeni mədrəsə və mavzoleylərlə birlikdə inşa edilməyə başlandı.

Məmlüklər dövründə Suriya memarlığı ilə Misir memarlığında daha çox oxşarlıq meydana gəlmişdir. Vahid məmlük məktəbi məscid və mavzoleylər arasındakı fərqləri tam aradan qaldırmışdır. Məscidlərdə ornamentli daş örtüklərdən istifadə olunurdu. Başqa bir yenilik üfiqi formada müxtəlif rəngli daşlardan istifadə etməklə zolaq-zolaq effekti yaratmaq idi. Fasadın üstünü quran ayələri və başqa yazılar ilə bəzəyirdilər. Məmlüklər əvvəlkilərdən fərqli olaraq, onu nə gibsdən, nə də ağacdan deyil, onu

mərmərdən hazırladırdılar. Məmlük memarlıq məktəbində arxitekturada yeni ornamentlərdən də istifadə edilmişdir. Məmlük sənət məktəbinə Fatimilər ənələrindən daha çox Eyyubilər və xüsusilə, Səlcuqilər sənətinin təsiri duyulur.

Məmlüklər dövründə Misir və Suriyada kitab tərtibatı yüksək səviyyəyə çatmışdır. Həmin sahədə əsas irəliləyiş bundan ibarət idi ki, kitablar cildlənərkən daha çox dəridən istifadə olunurdu. Bundan əlavə, kitabın tərtibatında nəbatət rəsmləri göz oxşayırdı, onlar rəngarəng və yüksək zövqlə işlənirdilər. Onun bəzənməsində həndəsi rəsmlərdən də istifadə edilirdi. Məmlüklər sənət məktəbi, metal emalı və şüşə istehsalı ilə məşhur olmuşdur. Bir çoxları şüşə istehsalını məmlüklərin fəxri peşəsi hesab edirdilər.Yüksək səviyyədə işlənən miniatürlərdə isə İran, monqol və yerli ərəb təsirləri də özünü göstərir.

Abbasilər sülaləsinin hakimiyyətə gəlməsi ilə xilafətin şərqindən ərəb mədəniyyəti, elmi düşüncəsi və beyin axını Suriyadan İraqa, 762-ci ildə əsası qoyulan Bağdada keçdi. Bağdad üç əsr Ərəb Şərqinin ən yaxşı elm adamlarının cəmləşdiyi yer oldu. Qərb dünyasında «Müdriklik evi» kimi tanınan «Beyt-ul- Hikmə»nin əsası Abbasilər xilafəti dövründə qoyulmuşdur. Qədim Roma, Çin, Hindistan, İraq, Misir, Şimali Afrika, Yunanıstan və Bizans sivilizasiyalarına aid bir sıra elmi əsərlər məhz burada ərəb dilinə tərcümə edilmişdir. Burada tərcümə ədəbiyyatı və əsərlərə şərhlərin verilməsi üsulunun inkişafı ilə yanaşı tikinti, torpaqölçmə, ticarətlə bağlı problemlər də öyrənilirdi. Astronomiya və riyaziyyat, botanika, zoologiya, minerologiya, təsviri coğrafiya elmləri müntəzəm inkişaf edirdi. Elm tarixində bu əsrlər «Ərəb Elmi» kimi tanınır, çünki bu dövr boyu ərəb dili dünya səviyyəsində elmin ana dili kimi qəbul edilmişdir. Bundan başqa, 756-cı ildə Cənubi İspaniyada (Əndəlusda) qurulan Əməvi dövlətində müsəlman elm adamları tərəfindən elm və sənət sahəsində çalışmalar da dünya elm və sənət tarixinə əhəmiyyətli töhfələr vermişdir.

VIII əsrdə başlayan və XV əsrə qədər davam edən «İslamın Qızıl Əsri» və «İslam İntibahı» adlandırılan bu dövrdə müsəlman alimləri kəşfləri ilə bir çox sahələrdə elmin inkişafına öz töhfələrini vermiş və özlərindən sonra gələn alimlərə yol göstərmişlər.

İslam dinini qəbul edən türklərin elmi araşdırmaları və nailiyyətləri nəinki İslam dünyasına, eyni zamanda, bütün dünyaya öz töhfələrini vermişdir. Türklərlə müsəlmanların qarşılaşması Ömərin hakimiyyətinin son illərinə təsadüf edir. Buraya ilk dəfə Xorasanda, sonra isə digər bölgələrdə yaşayan türklər gəlmişlər. Ərəblərin fəth etdikləri ölkələrdə əsir alınmış türklər islam dinini ilk qəbul edənlərdir. Türklərin yüksək döyüş bacarığına malik olmaları Əməvilər dövrünün sonunda orduda üstün mövqe tutmalarına şərait yaratmışdır. Müsəlman türklərinin sayının artması Abbasilər xilafətində onların orduda və dövlət işlərində yüksək vəzifələrə çəkilməsində üstünlük qazandırmışdır. Türklərin islam dünyasına əsaslı şəkildə daxil olmasının başlanğıcı xəlifə əl-Mənsurun dövrünə təsadüf edir. Abbasilər xilafəti dövründə dövlət və hərbi işlərə cəlb edilən türklər islam dünyasında böyük əks-sədaya səbəb olan qiymətli elmi əsərlər ərsəyə gətirmiş və onların elmi araşdırmaları bir çox sahədə «ilk böyük addımlar» kimi qəbul edilmişdir.

Orta əsrlər islam dünyasının elm adamlarından bir çoxu İranın şimal şərqindən və əhalisinin əksəriyəti türk olan Xorasan və Mavərənnəhrdəndir. Həmin dövrdə yetişən elm adamları arasında türklərin sayı kifayət qədərdir. Türk əsilli alimlərin əksəriyyəti adlarının sonuna «Türk, Türki, ibn Türk» sözlərini də əlavə edirdilər.

Əməvilər xilafəti dövründə yaşayan və Bəsrənin ən böyük alimlərindən sayılan Əbül-Mütəmir Süleyman bin Tərxan ət-Teymi əl-Bəsri tarixi səpgili əsrələri ilə məşhurdur. Onun elmi araşdırmaları əsasən Peyğəmbərin savaşlarının tədqiqinə həsr olunmuşdur. İslam elmi və mədəniyyət tarixinin ilk məşhur türk alimləri sırsına daxil olan ət-Teymi əl-Bəsrinin oğlu Muhəmməd bin əl-Mütəmir də atasının yolu ilə getmiş, böyük hədis və məğazi alimlərindəndir, Əhməd bin Hənbəlin müəllimlərindəndir.

Abdullah bin Mübarək əl-Mərvəzi ət-Türki isə təfsir, hədis, tarix, nəhv və fiqh sahəsində bir sıra əsərlərin müəllifidir və lüğət tərtibi ilə də məşğul olmuşdur. Elmi araşdırmalarla bağlı bir çox yerlərə səyahət edən əl-Mərvzi döyüşdən qayıdarkən, 798-ci ildə vəfat etmişdir. Onun bir çox əsərləri günümüzə qədər gəlib çıxmışdır.

Ədəbiyyat, kimya, siyasət və yeməklə bağlı mühüm əsərlərin müəllifi Əbu İshaq İbrahim bin əl-Abbas bin Muhəmməd bin Sultigin

həm də dövrün ən böyük şairlərindən olmuş və xəlifə Mütəsim, Vasiq və Mütəvəkkilin dövründə «Divani inşada» fəaliyyət göstərmişdir. Digər alim Fəth bin Xaqan xəlifə Mütəsim və oğlu Mütəvəkkilin dövrlərində mühüm vəzifələrdə çalışmış təhlükəsizlik idarəsinin rəisi, vəzir, hətta Şam və Misir valisi kimi də fəaliyyət göstərmişdir. Çox qiymətli və böyük kiatbxanaya malik Fəth bin Xaqan ədib və şair idi.

IX-X əsrlərdə ərəb elmi ən yüksək inkişafına çatmışdı. Onun nailiyyətləri bir çox xalqların, əsasən orta əsr Avropa xalqlarının elmini zənginləşdirdi. Bu nailiyyətlər hər şeydən əvvəl fəlsəfə, tibb, riyaziyyat, astronomiya, coğrafiya, filologiya, tarix, kimya və mineralogiya elm sahələrinə aiddir. Filosof və riyaziyyatçılar adətən böyük tarixçi, həkim, coğrafiyaşünas, şair və filoloq olurdu.

Ərəb elminin çiçəklənməsinin ən mühüm amili xilafətin bütün xalqlarının (ərəb və qeyri ərəb) nailiyyətləri ilə bağlı olmasıdır. Ərəb elmi və mədəniyyətinin zənginliyi Şərqin müsəlman xalqları arasında əlaqələr, mədəni və elmi nailiyyətlərin mübadiləsi, həmçinin Şərqin bir çox ölkələrinin Avropa ilə əlaqələrinin canlanması üçün geniş imkanlar açırdı.

Qədim yunan və ellin alimlərinin, onunla yanaşı hind riyaziyyatçılarının əsərlərinin ərəb dilinə tərcüməsi torpaq ölçmə və dənizçiliyin, həmçinin süni suvarma ilə bağlı ərəb coğrafiyası və astronomiyasının inkişafına öz töhfəsini vermişdir.

827-ci ildə meridianın qövsü ölçülmüş və yer kürəsinin ölçüsü müəyyənləşmişdir. Hindistandan onluq sisteminin və sıfırın daxil olduğu rəqəmlərin ərəb riyaziyyat elmi sahəsində əldə edilən nailiyyətlərə əlavə edilməsi yeni biliklərin inkişafı üçün böyük imkanlar açdı.

Cəbr elmini metodiki və sistematik şəkildə üzə çıxaran, bu mövzuda ilk mühüm əsər yazan _Muhəmməd bin Musa əl-Xarəzmi (780-850)_ isə böyük türk riyaziyyatçı, coğrafiya və astronomiya alimidir. Əl –Xarəzmi ömrünün böyük bir hissəsini Bağdaddakı «Beyt-ul-Hikmədə» keçirmişdir. Riyaziyyat sahəsində sıfır rəqəmindən ilk dəfə istifadə edən Xarəzmi «əl-Cəbir əl-Muqabələ» əsəri ilə cəbr (riyaziyyat) elminin əsasını və adını (algebra) qoydu. Əsərin Qərb dillərinə tərcüməsində cəbr sözü alqebra olaraq elm sahəsinin adı kimi eyni ilə qorunub saxlanmışdır. Xarəzmin adı latın dilində «Alkhorizmi», ingilis dilində isə «Auqrim» kimi qeyd edilir. «Nizamlı hesablama aparmaq metodu» mənasına da gələn bu söz sonda dövrümüzə qədər saxlanan

şəkliyələ, Alqoritma və Loqarizma kimi gəlib çatmışdır. Triqonometrik funksiyalar, I və II dərəcəli riyazi tənliyin həllinin işlənməsi ərəblərə məxsusdur. Riyaziyyat sahəsində çalışan müsəlman alimləri «İlmul Muqabələ» əsərini «tənlik vasitəsiylə bilinənlərdən bilinməyən kəmiyyətlərin əldə edilməsi üsulunu öyrədən elm» olaraq, hesab elminin bir sahəsi kimi qəbul edirlər. Cəbr bərabərliyin hər hansı tərəfində olan neqativ terminin digər tərəfə eynisini əlavə etməklə aradan qaldırılmasıdır. Muqabələ isə bərabərliyin hər iki tərəfində olan oxşar terminlərin çıxarılma yoluyla aradan qaldırılmasıdır. Xarəzmin əsəri yalnız üç əsrdən sonra (XII əsrdə) avropalılar tərəfindən latın dilinə tərcümə edilmiş və 600 ildən çox müddət ərzində universitetlərdə əsas dərslik kimi tədris olunmuşdur. Bundan başqa, intibah dövrünün italyan riyaziyyatçıları araşdırılmalarında ondan əsas kitab kimi istifadə etmişlər. Rocer Bekon, Fibonaççi kimi alimlər onun əsərini heyranlıqla tədqiq etmiş və tədrislərində bu əsərdən faydalanmışlar. 1500-cü illərin sonlarına (1598-1599) qədər cəbr elmində tək mənbə Xarəzmin bu əsəri olmuşdur.

Xarəzmin riyaziyyat sahəsində ən böyük xidmətlərindən biri isə əsərlərində həm sıfırdan, həm də digər rəqəmlərdən istifadə edilməsidir. Qərblilərin ərəb, müsəlmanların hind rəqəmləri adlandırdıqları rəqəmləri Avropaya tanıdan da odur. Xarəzminin astronomiya sahəsində yazdığı və rəsədxana müşahidələrindən əldə etdiyi nəticələri əhatə edən «Zici Xarəzmi» adlı ərəri Kopernik dövrünə qədər Qərbdə istifadə edilmişdir.

Cəbr elminin banilərı sırasında digər türk alimi Əbdül Həmid bin Vasi ibn Türkünü göstərmək olar. Vasi ibn Türkünün Xarzəmdən əvvəl yaşaması ehtimalı vardır və bu mənada, hansının ilk cəbrə aid əsər yazdığı da mübahisəli olaraq qalmaqdadır. Əbdül Həmidin riyaziyyat elminə aid yazdığı əsəri «əz-Zərurət fil-Muqtərinat min Kitəb əl-Cəbr val-Muqabələ» («Mürəkkəb tənliklərdə məntiqi zərurətlər») adlanır. Onun nəvəsi Əbu Bərzə əl-Fazl bin Əbdül Həmid də tanınmış riyaziyyatçılardan olmuşdur.

X əsrdə yetişən digər məşhur türk alimlərindən Fərqanəli Əhməd bin Muhəmməd bin Kəsir əl-Fərqani, Əbül Qasim Abdullah bin Amacur ilə oğlu Əbül Həsən Əli uzun astronomik müşahidələr aparmış və onlar həmin müşahidələrin nəticələrini müxtəlif astronomiya

cədvəllərində qeyd etmişlər. Fərqaninin ekliptikanın meylini və günəşin orbitini müəyyən edən araşdırmalarından ibarət astronomiya kitabı, yeddi əsr Avropa və Asiyada mənbə kimi dəyərini qoruyub saxlamışdır. Əsər 1573-cü ildə yenidən nəşr edilmişdir.

X əsrdə yaşayan və astronomiya sahəsində apardığı uzunmüddətli müşahidələrlə diqqəti cəlb edən türk alimləri *Əbül Həsən Əli bin Amacur ət-Türki* və oğlu *Əbül Qasim Əli bin Amacır ət-Türkidir.* Həmin ailədən *Əli ibn Abdullah ibn Amacur* da eyni rəsadxanada fəaliyyt göstərir. Amacurlar 887-934-cü illər arasında, təxminən əlli ilə rəsədxanada müşahidələr aparmışlar. Məşhur astronom İbni Yunus onların Ay müşahidələrinin Ptolomeyin müşahidələrindən daha doğru olduğunu bildirərək, araşdırmalarında həmin müşahidələrdən istifadə etmişdir. İslam dünyasında ilk uzun müddətli müşahidələr aparan ata-oğul Amacurlar bir çox astronomiya cədvəlləri nəşr etmişlər.

*Əbu Nəsr Muhəmməd əl-Fərabi bin Muhəmməd bin Tərxan bin Uzluğ* (950-ci ildə vəfat etmişdir). İslam dünyasının yetişdirdiyi ən böyük riyaziyyat və fizika alimlərindən biridir. O, Avropada «Alfarabius» kimi tanınır. Başda İbni Sina olmaqla bir çox filosof Aristoteli onun şərhləri sayəsində başa düşmüşdür. Onun «İhsaul Ulum» əsəri Avropada yüksək dəyərləndirilir. Onun fəlsəfə, məntiq, riyaziyyat, botanika, tibb sahəsindəki əsərlərindən nəinki İslam dünyasının alimləri, həmçinin avropalı filosoflardan Bekon, Albert, Hobes, Rosseuya bəhrələnmişlər.

Səs hadisəsinin ilk fiziki izahını verən məhz əl-Fərahidir. O, titrəyişlərin dalğa uzunluğuna görə azalıb-çoxaldığını müəyyən etmiş və bunu təcrübələrlə sübut etmişdir. Həmin əsrdə yaşayan *İshaq bin İbrahim əl-Fərabi* də (961-ci ildə vəfat etmişdir) ərəb ölkələrində ərəb dilində araşdırmalar aparmışdır və o, «Divan əl-Ədəb» adlı əsərin də müəllifidir.

Fizika və mexanika, astronomiya sahəsində ərəblərin istifadə etdikləri cihazlar deməyə əsas verir ki, elmin bu sahələrində də müsəlman alimləri irəlidə olmuşlar. Riyaziyyat sahəsində rəqəmlər və saylar Şərqdə ixtira olunmuş və sonra Qərbdə yayılmışdır. Sənayedə böyük faydaları olan barıt, pambıqdan kağız istehsalı texnologiyası, kətan, bez emalı da onlara aiddir.

X əsrin ikinci yarısında yaşayan və islam dünyasının ən böyük alimlərindən biri də əl-Birunidir. 973-cü ildə Kaşda dünyaya gələn əl-Biruni (973-1051) həm İslam dünyasında, həm də Avropada tanınan və uzun illər əsərlərindən istifadə edilən və araşdırmalarını əsrlərdən bəri aşmaq mümkün olmayan bir alimdir. Filip K. Hitti onun «Təbii elmlər sahəsində müsəlmanlar arasında yetişən ən gözəl və dərin biliyə malik elm adamı» olduğunu qeyd edir. Corc Sarton isə onun adını yaşadığı dövrə verərək, həmin dövrü «əl-Biruni əsri» adlandırmışdır. Əl-Biruni ərəb, fars, ibrani, yunan və süryani dillərini də yaxşı mənisəmişdi ki, bu da onun elmi araşdırmalarında mühüm rol oynamışdır. Hadisələrin sınaq və təcrübəyə istinad edilməsi fikrini gündəmə gətirərək, ilk dəfə metodlu elmi araşdırma üsullarının nizamlayıcısı olmuşdur. Əl-Biruni riyaziyyat, astronomiya, coğrafiya, fizika, kimya, geologiya, tibb, tarix və müqayisəli dinlər tarixi kimi bir çox müxtəlif sahələrdə araşdırmalar aparıb qiymətli əsərlər yazmışdır. 18-i astronomiya sahəsində olmaqla 180-ə yaxın əsəri olan əl-Birunidən dövrümüzə yalnız iyirmidən bir qədər artıq əsər çatmışdır. Elmin bir sıra sahələrində kəşfləri olan əl-Biruni yer kürəsinin öz oxu ətrafında, həm də günəş ətrafında fırlandığını sübut etdi.

Biruninin Hindistan haqqında çox dəyərli məlumatlar verən «Hindistan tarixi» adlı əsəri bütün Qərb dillərinə tərcümə edilmiş, coğrafiya və tarix alimləri üçün əvəzedilməz mənbə olmuşdur. Hindistanda olduğu dövrdə bir çox ərəb dilində olan mənbələri sanskrit dilinə, sanskrit dilindəki bəzi kitabları da ərəb dilinə tərcümə edərək, İslam və hind sivilizasiyaları arasındakı ilk mədəniyyət körpüsünü qurmuşdur. O həm də Hindistanın Nindene şəhəri yaxınlığında etdiyi çalışmalar nəticəsində yerin diametrini ölçməyə müvəffəq oldu. Onun bu tapıntısı Avropada «Biruni qanunu»u adı ilə məşhurlaşdı. Yaşadığı dövrdə Ümid burnunun varlığından ilk dəfə danışan Biruni Şimali Asiya və Şimali Avropa haqqında daha ətraflı məlumatlar vermiş, bundan başqa Xristofor Kolumbdan beş əsr əvvəl Amerika qitəsindən və Yaponiyadan bəhs etmişdir. Göy üzü və yer səthinin müxtəlif xüsusiyyətlərini, en və uzunluq dairələrini, qitə və dənizləri göstərmək üçün yeddi metr diametri olan kürə düzəltmişdir. Bu fəaliyyəti ilə tarixdə Yeri kürə üzərində xəritəyə salan ilk alim adını almışdır. Ptolomey və Aristotelin qaydalarına qarşı çıxaraq, Yein sabit deyil,

fırlanan bir kütlə olduğunu irəli sürən Biruni elm tarixçilərinə görə müasir astronomiyanın təməlini qoymuşdur.

Biruni Buxara kitabxanasında İbn Sina ilə tanış olmuş, bir-birlərinin fikirlərindən faydalanmışlar. Buxara alimləri sağlam bilik mübadiləsi ənənsinə malik idilər. Bildiklərini digərlərindən gizlətməz və paylaşmağı sevərdilər.

Əl-Battanı (Albategni) (859-929) 24 saniyə fərqlə Günəş ilini hesabladı. İlk uçuş sınağını isə *İsmail Cövhəri* (950-1010) həyata keçirmişdir.

Ensiklopedik biliyə malik ərəb alimlərinin əksəriyyəti tibb elminin nəzəriyyəsi və tibbi təcrübə üzərində çalışırdılar.Tibb aləminə ərəblər çox böyük töhfələr vermişlər. Əslən türk olan *İbn Sina* (980-1037) iyirmi doqquz fərqli adda kəşfləri ilə avropalı elm xadimlərinə liderlik edən böyük bir tibb alimidir. «Ərəb elminin qanunları» əsərinin müəlllifi İbn Sina uzun müddət orta əsr Şərqində olduğu kimi, Qərbi Avropada da tibbi təcrübə sahəsində lider olaraq, qalmaqda davam etmişdir. X əsrdə onun yuxarıda qeyd etdiyimiz əsəri latın dilinə tərcümə edilmiş və dünyaya yayılmışdır. Əsər XVI əsrin sonuna qədər Avropada, o cümlədən Fransanın Montpellier və Loven universitetlərində də tibbin tədrisində hakim mövqe tutmuşdur. XV əsrdə İbn Sinanın 16 nəşri, XVI əsrdə 20 nəşri çapdan çıxmışdır. Tibb sahəsində yazdığı «əl-Qanun fit-tibb» kitabı 600 il boyunca Avropa universitetlərində dərslik kimi istifadə edilmişdir. İbn Sinanın əsərləri 8 əsr böyük dünya kitabxanalarının baş guşələrində yer almışdır. İbn Sina tibbi araşdırmalarında bəzi xəstəliklərin yoluxmasında gözlə görünməyən varlıqların, yəni mikrobların mövcudluğundan bəhs etmişdir. Dəri altına ilk dəfə iynə vuran, əməliyyatlarda narkozu ilk dəfə tətbiq edən, mədə və bağırsaq xəstəliklərini elmi cəhətdən tədqiq edən, ruhi vəziyyətlərin həzm sistemnə təsirini müəyyən edən, sifət iflicinin səbəblərini, mədə və bağırsaq qurdlarını, tənəffüs sistemini ilk dəfə müəyyən edən İbn Sina olmuşdur.

İbn Sina əksəriyyəti fizika, astronomiya və fəlsəfə kimi elm sahələrinə aid olan 150-yə yaxın əsər yazmışdır. İsaak Nyutondan 500 il əvvəl fizika dinamikasının ilk qanununu «Şəfa» adlı 18 cildlik ensiklopediyasında açıqlayan İbn Sinanın fəaliyyətləri tibblə bərabər

riyaziyyat, fizika, metafizika, teologiya, iqtisadiyyat, siyasət, fəlsəfə və musiqi sahələrini də əhatə edir.

Əbu Bəkr Zəkəriyyə ər-Razi (Razes) (864-925) öz əsərləri ilə tibbi biliklərin külliyyatını yaratmışdır. Onun məsləhəti ilə Bağdadda xəstəxana tikilmiş və özü də xəstəxanaya rəhbərlik etmişdir. Ər-Razinin 50-dən artıq əsəri qalmışdır. Onlardan ən məşhuru latın, yunan, fransız və ingilis dillərinə tərcümə edilmiş « Su çiçəyi və qızılca haqqında» əsərdir. Ər-Razinin ensiklopedik xarakterli «əl-Xavi» («Hər şeydən xəbərdar») adlı dəyərli əsəri onun ölümündən sonra şagirdləri tərəfindən tamalanmışdır.

Oftalmologiya elmi, xüsusilə inkişaf etmişdir. Ərəblərdə gözün quruluşu haqqında təsəvvürlər müasir elmə yaxındır. Oftalmologiya elminin inkişafı həndəsi optika sahəsində əldə edilən nailiyyətlərlə bağlıdır. Optika elminin qurucusu böyük fizik İbn Heysəm (Alhazen) (965-1035) eynəyi kəşf etmişdir. İbn Heysəmin işıqla bağlı «Kitab-ül-Mənazir» («Optikanın xəzinəsi») adlı əsəri latın dilinə tərcümə edilmiş və Qərbdə Rocer Bekon kimi fiziklərin araşdırmalarına təsir etmişdir. Gözdəki retina təbəqəsinin funksiyasından ilk dəfə bəhs edən İbn Rüşddür (1126-1198). O, Qərb dünyasında «Avestos» adı iə tanınan əndəluslu fəlsəfə, fiqh, riyaziyyat və tibb almidir.Əli ibn İsanın (XI əsr ) göz haqqında yazdığı «Təzkirat əl-Kəhhali» adlı əsəri əsrlərlə öz sahəsində yeganə kitab olaraq qalmış, latın, alman, fransız və sairə dillərə tərcümə edilmişdir. Əmmar ibn Əli (XI əsr) doqquz əsr əvvəl göz əməliyyatı aparmışdır.

Əli ibn Abbas (994) əsrimizin modern əməliyyatlarına uyğun bir şəkildə xərçəng əməliyyatı etmişdir. «Kitab əl-Məliki» adlı tibb ensiklopediyası günümüzdə belə, hələ də heyranlıqla incələnməkdədir. Əndəluslu Əbül Qasim əz-Zəhrəvi (936-1013) (1009-cu ildə vəfat etdiyi də göstərilir) cərrahiyyəni müstəqil bir elm sahəsinə çevirmişdir. «Təsrif» adlı əsərində 200-ə qədər əməliyyat alətlərinin şəklini çəkmiş, istifadə məqsədləri və qaydaları ilə bağlı ətraflı məlumat vermişdir. Kiçik qan dövranını ilk dəfə ibn ən-Nəfs (1210-1288-) kəşf etdi və bunu İbn Sinanın «Qanun» kitabına yazdığı şərhdə təfsilatı ilə izah etdi. Akşəmsəddin (1389-1459) «Maddət-ul-Həyat» adlı əsərində ilk dəfə mikroblardan bəhs etmişdir. 800-cü ildən 1300-cü ilə qədər aradakı beş əsr ərzində tibb sahəsndə 70 müəllifin ərəb əsərləri məşhurdur.

İnkişafda olan tibbin və onunla bağlı əczaçılığın tələbatını ödəmək üçün kimya elmi də inkişaf edirdi. Tibb aləmində kimyadan istifadə olunması müsəlman alimlərinin sayəsində mümkün olmuşdur. Bu gün istifadə etdiyimiz kafur, distillə edilmiş su, məlhəm və dərmanların çoxu ərəblərdən miras qalmış nümunələrdir. Soda, şora və sairənin istehsalında da nailiyyətlər əldə edilmişdir. Elmi kimyanın inkişafında Cabir ibn Həyyanın əsərləri böyük əhəmiyyət kəsb edir. Bu əsər kimyəvi maddələrlə çalışmaq üçün müxtəlif üsullardan və alətlərdən istifadə edərək təcrübəyə əsaslanan kimya haqqında tam təsəvvür yaratmağa imkan verir. Cabir ibn Həyyan isə o dövrdə geniş yayılmış kimya sahəsində 200 cilddən artıq kitab yazmış, buna görə də «kimyanın atası» ləqəbini almışdı. Cabir bin Həyyan atom bombasının düzəldilməsindən 1000 il əvvəl atomun parçalana biləcəyini və nəticədə, böyük bir gücün əmələ gələcəyini ilk dəfə söyləyən elm adamıdır. Cabirin kitabları orta əsrlərdə Avropanın bir çox dillərinə tərcümə edilmişdir.

Coğrafiya sahəsində də ərəb alimləri böyük müvəffəqiyyətlər qazanmışdır. Coğrafiya elminin tədqiqinə, onun geniş əraziləri əhatə etməsinə və ona aid əsərlərin sayı və janrlarının müxtəlifliyinə görə orta əsr coğrafiyasında analoqu yoxdur. Ərəb coğrafiyaçıları və səyyahları bütün müsəlman Şərqinin, həmçinin Avropanın bir sıra ölkələrinin, Şimali və Mərkəzi Afrikanın, Şərqi Afrikanın sahillərinin və Koreyaya qədər uzanan Asiya torpaqlarının, Malay arxipelaqı adalarının təsvirini vermiş və günümüzə qədər gəlib çatmışdır. Onların əsərləri orta əsrin bir çox xalqları haqqında mühüm, bəzən isə yeganə məlumatdır. Xristofor Kolumb (1446-1506) Amerikanın varlığını müsəlmanlardan, xüsusilə də İbn Rüşdün (1126-1198) kitablarından öyrəndiyini qeyd edir. Avropada əl-İdrisinin (1100-1166) coğrafiyaya aid əsərləri məşhurdur. O, səkkiz əsr əvvəl dünya xəritələrinə bənzəyən xəritələr çəkmişdi. Əl-İdrisi özündən əvvəl yaşamış ərəb coğrfiyaçılarının əsərləri ilə tanış olmuş, səyahətçilər haqqında müxtəlif məlumtlar toplamış və özü də çox səyahət etmişdir. 70 xəritənin də əlavə edildiyi əsərləri orta əsrlərin ən yaxşı coğrafi traktatlarıdır. Hesab edilir ki, avropalılar məhz ərəblərdən dünya haqqında geniş və dəqiq məlumatlar almışlar.

Botanika, zoologiyya və minerologiya sahəsində ərəblərin əldə etdiyi nailiyyətlər bitkilərin, heyvanların və daşların təsviri və sistemləşdirilməsindən ibarətdir. Dinəvərinin (vəfat 895) altı cildlik «Kitabu ən-Nə-

bat» botanika elminə aid ensiklopedik əsərdir. Müəllif əsərdə bitkilərin görünüşü, tibbi əhəmiyyətini və digər xüsusiyyətlərini verməklə yanaşı onun təsnifata bölmüş və onun yetişdiyi yerləri qeyd etmişdir. Lakin onun əsərinin böyük hissəsi əczaçı olan *İbn əl-Baytarın* (1199- 1248-ci ildə) geniş əsərinə daxil edilmişdir, o həmçinin botanika elm sahəsinə olduqca zəngin xəzinə qoymuşdur. Baytarnamə kimi tanınan «Dərmanlar və qidalar ensiklopediyası» da böyük əhəmiyyət kəsb edir. Burada o, 1400 bitginin müalicəvi əhəmiyyətindən bəhs etmişdir. Bu kitabda dərmanların hazırlanma metodunu göstərməklə yanaşı, onları əlifba sırası ilə tərtib etmiş və dərmanların adlarının ərəb, fars, yunan və ispan dillərində qarşılığını vermişdir. Cahiz (vəfatı 869) heyvanların həyatından bəhs edən «Kitab-ul-hayavan» adlı yeddi cildlik nəhəng bir əsər yazmışdır. *Hişam ibn Həkəm* dəqiq təbiət elmləri üzrə 31 cilddə əsər yazmışdır.

Təyyarəni ilk dəfə 880-ci ildə *ibn Firnas* icad etmiş və hazılamışdır. Quş tükü və qumaş keçirdiyi təyyarəsi ilə uzun müddət havada qaldı və süzülərək yerə endi. Dəqiq elmlərlə məşğul olan *Razi* (864-925) yer cazibəsindən bəhs etdi.

VII-IX əsrlərdə tarixşünaslıq müstəqil elm sahəsi kimi ayrılsa da, əslində tarix məzmunlu ilk yazılar VII əsrin sonlarında meydana gəlmişdir. İlk əvvəllər ərəb tarixşünaslığında əsasən ərəb işğallarına və Xilafətdə vətəndaş müharibələrinə aid ayrı-ayrı hadisələrə həsr olunmuş əsərlər üstünlük təşkil edirdi. Artıq IX əsrin ikinci yarısında tarixi rəvayətlərlə bağlı toplanmış tarixi materialları cəmləşdirən əsərlər meydana çıxdı. «Peyğəmbər və şahların tarixi» adlı çox cildli əsərin müəllifi *ət-Təbəri* (838-923) dövrünün tanınmış mütəfəkkiridir. *Əl-Məsudinin* (926-cı ildə vəfat etmişdir) «Ümumi tarix» əsəri şöhrət qazanmışdır. Tarix elmi sahəsində xüsusi xidmətləri ilə fərqlənənlərdən *Həmzə əl-İsfahani*, (X əsrin ikinci yarısında vəfat etmişdir), *İbn əl-Əsir və İbn Xaldunu* qeyd etmək olar.

*Nəsirəddin Tusi* (1200-1273) mühəndislik və kosmosla bağlı fəaliyyətlərə yenilik gətirən, triqonometriyanı müstəqil elm sahəsinə çevirərək, inkişaf etdirən böyük riyaziyyatçıdır. Evklidin «Prnsiplər» adlı 13 cildlik kitabını şərh etmiş və ona tənqidi yanaşmışdır. Riyaziyyat sahəsində bir sıra əsərlərin müəllifi kimi tanınan N.Tusinin Marağada

qurduğu rəsədxana qısa zaman kəsiyində İslam dünyasının ən böyük və ən məşhur rəsədxanasına çevrilmişdir.

Ərazisində müstəqil dövlətlərin yaranması ilə Abbasilər xilafətinin dağılması ərəb mədəniyyəti və elminin yayılma əhatəsinin daralmsı və ümumdünya mədəni inkişafında onların çəkisinin tədricən azalmasına gətirib çıxardı. İraqdan ərəb elminin mərkəzi Misirə (Qahirə), Suriyaya (Hələbə), İspaniyaya (Kordova, sonra Sevilya, Malaqa və Qranadaya) keçdi.

X əsrin sonunda ərəb dünyasının əsas mədəni ocaqlarından olan Bağdaddan sonra Qahirə birinciliyi əldə edir. Fatimilər xilafətinin Sərkərdəsi _Cövhər_ 969-cu ildə Qahirə şəhərini saldıqdan bir il sonra böyük məscidin - əl-Əzhar camisinin əsasını qoydu. Əvvəlcə, yeni şəhər üçün yalnız məscid kimi nəzərdə tutulan əl-Əzhar tədricən İslam dünyasında ilahiyyatın iri mərkəzinə, əslində ümummüsəlmanlar üçün ənənvi elm və təhsilin mərkəzinə çevrildi. Bir çox görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti əl-Əzharla bağlıdır. İrəlidə adını qeyd etdiyimiz fizikaşünas _İbn əl-Heysam_, həkim _Əbdül Lətif əl-Bağdadi_ (1231-də vəfat etmişdir), hüquqşünas və tarixçi, sosialogiya elminin banisi _İbn Xaldun_ (1331-1406) və sairə.

Abbasi sülaləsinin 36-cı xəlifəsi əl-Müstənsirin (1226-1242) hakimiyyəti dövründə də xəlifə dini məsələlərlə məşğul olur və tədrislə bağlı bir sıra tikililər həyata keçirirdi. Onun hakimiyyəti dövründə tikildiyi üçün xəlifənin adını daşıyan maarif ocağı əl-Mustansariyyə adlı tikili daha məşhurdur. Bu məktəb həm tədris sisteminə, həm də alim və müəllimlərin səviyyəsinə görə öz dövrünün ən qabaqcıl elm ocaqlarındandır. Başqa tədris müəssisələrindən fərqli olaraq, burada sünniliyin təriqətlərindən dördü-məliki, hənəfi, hənbəli və şəfiliklə yanaşı dünyəvi elmlər-ərəb dili və qrammatikası, ədəbiyyat, məntiq, cəbr, həndəsə, bəlağət elmi, əczaçılıq, zoologiya və sairə tədris olunurdu. Məktəbin nəzdindəki kitabxanada isə ümumi sayı 8-mindən artıq olan kitab oxucuların ixtiyarına verilmişdi.

Qahirədə əl-Əzhar universiteti ilə yanaşı tarix, coğrafiya, hüquq və digər biliklərin inkişaf getdiyi mərkəz kimi Mərakeşdə Karauin və Fəsi, Tunisdə isə əz-Zitunu göstərmək olar. X əsrdə müsəlman İspaniyasında

Kordova, Sevilya, Malaqa və Qranada əsas elmi mərkəz kimi fəaliyyət göstərirdilər.

Abbasi xilafəti dövründə əməvi qırğınından qaçıb qurtara bilən Əbdür-Rəhman Kordova əmirliyini yaratdı. Xəzinədə böyük ehtiyatın olması xəlifəyə incəsənətin böyük hamisi kimi çıxış etməyə imkan verdi. Kordovada 21 şəhər ətrafı qəsəbəni, 70 kitabxananı, çoxlu kitab dükanını, elmi dərnəkləri, 900 ictimai hamamı, məharətlə inşa edilmiş məscidləri, bağla əhatə olunmuş elmi və mədəni mərkəzləri göstərmək olar ki, o dövr üçün bu şəhər ancaq Bağdadla rəqabət apara bilərdi. Paytaxtda uzun küçələr daşla döşənmiş və işıqla bəzədilmişdir. Müqayisə üçün qeyd edək ki, Londonda küçələr təxminən 1680-ci ildə fanarla işıqlandırılmışdır. Maraqlı cəhətdir ki, İberia yarımadasının şimalında xristian krallıqlarının hakimlərinə cərrah, memar və ya istedadlı şair lazım olanda onlar mütləq Kordova əmirliyinə müraciət edirdilər. Əbdur Rəhman paytaxtın yanında Zəhra adlı sevgilisinin şərəfinə «Mədinə əz-Zəhra» adlandırdığı çox gözəl saray kompleksi inşa etdirmişdir. Onun tikintisinə 20 ildən artıq bir vaxt sərf olunmuşdur və onun inşasında 10 min nəfər iştirak etmişdir.

İspaniyada ilk dəfə olaraq, Şərq ilə Qərb, müsəlmanlıqla xristianlıq üz-üzə gəldi. Əslində İspaniya yüksək Şərq mədəniyyətinin Qərbə sirayət etməsi yolunda bir qapı rolunu oynayırdı. Ölkənin özündə bu qarşılaşma qəribə təzahürlər doğururdu. Dini təəssübkeşlik güclü olduğu kimi, bir epizod sərbəstliyi də müşahidə olunmaqda idi. Müsəlmanların xristian monstrlarında şərab içməsi, müsəlman qadınlarının sərbəstliyi, hətta bəzən çadrasız gəzməsi, eləcə də xristianların ərəb dilini gözəl öyrənib bu dildə əsərlər yazması da adi hal təsiri bağışlayırdı. Öz sərtliyi və yoxsulluğu ilə fərqlənən ərəb təbiətindən çıxan ərəb fatehləri ispan təbiətinin gözəlliyini böyük heyranlıqla seyr edirdilər. Əndəlus xəlifələri özlərini Abbasi xəlifələrinə bənzətməyə çalışır, kitabxanalar yaradır, nadir əlyazmaları toplayırdılar.

Xalqa möhtəşəm bir həyat bəxş edəcəklərinə dair vədlər vermələrinə baxmayaraq, Abbasilər də hakimiyyətə gəldikdən sonra tezliklə sadə xalq təbəqəsi unuduldu və yuxarı təbəqə dəbdəbə içərisində yaşamağa başladı. Tez-tez eyş-işrət, şərab məclisləri təşkil edilirdi. Şərab məclislərini 3 cəhət birləşdirirdi: şair, şeir və rəqqasə. Xilafətin yuxarı təbəqəsində xəmriyyə, aşağı təbəqəsində isə

zühdiyyə şeiri inkişaf edirdi. Abbasilər dövrü mədəniyyətinin inkişafı 3 mərhələyə bölünür:

1.Yeniləşmə mərhələsi. Bu mərhələ Abbasilərin hakimiyyətə gəlməsindən - IX əsrin əvvəllərinə qədər olan tarixi əhatə edir.

2.Ənənələrə qayıdış mərhələsi. Bu mərhələ IX əsrin ikinci yarısından - X əsrin əvvəllərinə qədər olan tarixi əhatə edir.

3. X-XII əsrlər ədəbi sintez və ənənələrin sabitləşməsi mərhələsidir.

Abbasilər təxminən 500 ilədək hakimiyyətdə olmuşlar. Abbasilər mərhələsi ərzində ərəb ədəbiyyatı çox mühüm bir inkişaf yolu keçir. Lakin bu dövrün ədəbiyyatı həmişə heç də eyni səviyyədə dayanmır, eyni estetik prinsiplərə söykənmir, bədii cəhətdən, ideya cəhətdən son dərəcə kamilləşir. Son nəticədə bu ədəbiyyat ümummüsəlman mədəniyyətinə çevrilib dünya səviyyəsinə qalxır.

**XII əsrdən sonra ərəb ədəbiyyatının tənəzzül dövrü başlayır. Kəmiyyət artımı keyfiyyət artımını üstələyir. Bu vəziyyət XVIII əsrə qədər davam edir.** Abbasilər mərhələsi dövründə ərəb ədəbiyyatı çox mühüm bir inkişaf yolu keçir. Lakin bu dövrün ədəbiyyatı heç də həmişə eyni səviyyədə dayanmır, eyni estetik prinsiplərə söykənmir, bədii və ideya cəhətdən son dərəcə kamilləşir. Son nəticədə, bu ədəbiyyat ümummüsəlman ədəbiyyatına çevrilib dünya səviyyəsinə qalxır.

Abbasilər dövründə **fəlsəfi əsərlər ərəb dilinə tərcümə olunur, elmin yazı dili formalaşır, tarix, coğrafiya, riyaziyyat, tibb, dilçilik inkişaf edir.**

Abbasilər xilafəti devrildikdən sonra ərəblər təxminən yeddi əsrin durğunluq dövrünə qədəm qoydular. Dünyaya ağalıq iddiasında olan ərəblər başqa xalqların əsarəti altına düşdü. Bu da öz təsirini mədəniyyət sahəsinə, o cümlədən ədəb yaradıcılığına da göstərirdi. Bu dövrdə bir çox sənət əsərləri yaransa da, əvvəlki əsərlərin sənət nümunələrini ideya və bədii cəhətdən ötüb keçə bilmirlər. Bu dövrdə şifahi xalq ədəbiyyatı daha uğurlu addımlar atır, ərəb xalq romanları, 1001 gecə nağılları yaranır.

Abbasi dövrü ərəb şairlərinin sırasında *Bəşşar ibn Burdu, Əbu Nuvası, Əbül Ətahiyyəni, Müslim ibn əl-Validi, İbn əl-Müqəffa, Əbu Təmmam, əl-Buhturi, İbn əl-Mutəz, İbn ər-Rumi, Cahiz, əl-Mütənəbbini* göstərmək olar.

Müxtəlif xalqlara mənsub olan müsəlman alimləri bağlı olduqları mədəniyyətə hər sahədə mühüm əsərlər bəxş edərək, islam mədəniyyətini yaratmışlar. Ərəb alimləri islam elminə dəyərli töhfələr verərək, qiymətli əsərlər yazmış və özlərindən sonra gələcək nəsllərin yolunu işıqlandırmışlar.

IX əsrin sonunda Xilafətin şərq əyalətlərində İran mədəniyyətinin və milli dirçəlişin ocaqları formalaşırdı. Fars dili ərəb dilini əvvəlcə ədəbiyyat və poeziyadan, sonra isə bir sıra humanitar elm sahələrindən (tarix,coğrafiya) sıxışdırıb çıxardı. Ərəb dili burada Quran, dini qanunların (hüquq, nəzəriyyə) və bir sıra elmi sahələrin (tibb, riyaziyyat, astronomiya, kimya), həmçinin fəlsəfənin dili kimi əhəmiyyətini qoruyub saxlamışdır.

Dünya mədəniyyətinə böyük töhfələr vermiş orta əsr islam mədəniyyəti *yeni dövrün* başlanması ilə müsəlman ölkələri üçün daha acınacaqlı proseslərlə və faciələrlə müşahiə olundu. Bu, ilk növbədə, Avropada yeni ictimai-iqtisadi formasiyanın formalaşması və möhkəmlənməsi Şərq ölkələrinin müstəmləkə halına salınması və istismarı hesabına başa gəlirdi. Onu da qeyd edək ki, yeni dövrün başlanmasını ideoloji cəhətdən əsaslandırmaq üçün müxtəlif tendensiyaların irəli sürülməsi Qərb aləmində ayrıca bir özünəməxsus elmi axın formalaşdırmaqla dolayısı yolla müstəmləkələrin davam etdirilməsini, yaxud onun möhkəmləndirilməsini əsaslandırmağa da çalışırdılar. Keçən əsrin ortalarınadək qərb sosioloqları belə bir mövqedən çıxış edirdilər ki, yeni dövrün başlanğıcında Asiya və Afrika ölkələri dərin durğunluq dövründə idi və Avropanın dəstəyi olmadan hər hansı proqressiv bir inkişafa nail ola bilməzlər. Müstəmləkə sistemi Asiya və Afrika ölkələrinin əbədi olaraq geridə qaldıqlarının məntiqi nəticəsi kimi izah edilirdi. Lakin Şərq xalqlarının tarixi bu tendensiyanı alt-üst edir. Şərq xalqları hələ müstəmləkə dövrünə qədər sivilizasiyanın inciləri hesab edilən mədəniyyət abidələri yaratmışlar və həmin abidələr bu gün də dünya ictimaiyyətini heyrətləndirməkdə davam edir. Yeni dövr ərəfəsində Hindistan, Çin, Osmanlı imperiyası, Səfəvilər dövləti öz tarixi inkişaf səviyyələrinə görə həmin dövr Avropanın bir sıra dövlətlərindən heç də geri qalmırdılar. İrəlidə orta əsr dövrünə aid gətirdiyimiz qiymətli nümunələr müsəlman dünyasının elm və təhsilə

olan münasibəti, əldə etdiyi nailiyyətlərin bariz göstəricisidir. Görünür, «Qərb Şərqdən mədəniyyəti əxz etdi və onu yeni formada dünyaya təqdim etdi» fikri də əbəs deyilməmişdir.

Əlbəttə, mədəni inkişaf bir xalqda digərinə nisbətən bir qədər güclü, yaxud zəif səviyyədə ola bilər. Lakin yüksək inkişaf etmiş xalqın mədəniyyəti digər xalqlar üçün ayrıca hörmət edilməsi vacib olan seçilmiş mədəniyyət kimi digərlərinə heç vaxt təlqin edilməmişdir. Məsələn, dünya sivilizasiyasının ilk mərkəzələrindən olan ərəb ölkələrinin bir sıra mədəni mərkəzləri öz elmi nəticələrini Qərbə də təqdim etdi və ondan bəhrələnmək imkanı verilmişdir. Qərb nəzəriyyəçilərinin qeyd etdiyinin əksinə olaraq, Şərq mədəniyyəti Böyük Coğrafi Kəşflərə qədər bəşər mədəniyyətinə kifayət qədər misilsiz maddi və mənəvi mədəni abidələr töhfə etmişdir.

Burjua inqilabına qədər aşağı inkişaf tempi ilə addımlayan avropalılar Şərqin inkişafının sirlərini öyrənməyə can atır, hətta Çin imperatorunun qəbul mərasimində üzləşdikləri «çətinliyi»qəbul etməyə məcbur olur, Ağqoyunlu, Səfəvi və Osmanlı hökmdarlarının qəbuluna düşməkdən ötrü günlərlə, bəzən aylarla gözləməli olurdular. Avropalılar Böyük Coğrafi Kəşflərdən sonra, xüsusilə də yüksək inkişaf sürətini təmin edən burjua inqilabından sonra Şərqin həmişə durğunğuq içində olması kimi cəfəng bir nəzəriyyəni, «Avropa mərkəzçilik» nəzəriyyəsini formalaşdırmağa başladılar. Əslində isə bu müstəmləkəçiliyin ideoloji silahından başqa bir şey deyildi.

XIX əsrin ikinci yarısında Ərəb Şərqində elmin inkişafında keyfiyyətcə yeni dövr başlayır. O ərəb ölkələrində kapitalist münasibətlərinin yaranması, ərəb xalqlarının istiqlaliyyət uğrunda apardığı mübarizə ilə bağlı olmuşdur.

19 may 1798-ci ildə Napoleon Bonapartın komandanlığı altında Fransa hərbi ekspedisiyası Misirə yürüşə başladı. Yürüşə gedərkən Napoleon Bonapart müasiri olduğu bir sıra alimləri, həkimləri, arxeoloqları və müxtəlif sənət adamlarını da özü ilə götürmüşdü. Misirdə ilk qəzetin, ilk mətbəənin və ilk dünyəvi məktəbin əsası qoyulmuşdur. Bu yürüşün mənfi cəhətlərini nəzərdən qaçırmadan qeyd edək ki, misirşünaslıq tarixində Bonapartın səfəri çox böyük rol oynamışdır. Y.V.Tarlenin qənaə-

tinə əsasən bəşər sivilizasiyasının bu ən qədim ölkəsini elm aləmi üçün ilk dəfə demək olar ki, Napoleonla gələn alimlər kəşf etmişlər.

Ərəblərin Avropa ilə sıx təması dövrü başlayır. Şüurlarda, psixologiyada, həyat tərzində bir yenilik özünü göstərir. Ərəb dünyasında ən-Nəhda – dirçəliş, intibah dövrü başlayır. Mədəniyyətin bir sahəsi sayılan ərəb ədəbiyyatı inkişaf etməyə başlayır .Əgər XIX əsrə qədərki ərəb ədəbiyyatı ümumi xarakter daşıyırdısa, XIX əsrdən sonrakı ədəbiyyat ayrı-ayrı ölkələrin –Misirin, İraqın, Suriyanın və sairənin ədəbiyyatı sayılır. Ərəb ədəbiyyatı bir çox qollara ayrılır və zaman keçdikcə bu ədəbiyyatların inkişaf səviyyəsində əsaslı fərqlər yaranır. İlk vaxtlar Avropa ilə daha çox təmasda olan ölkələrin-Misirin, Suriyanın, Livanın, İraqın ədəbiyyatı daha sürətlə inkişaf edir. Ayrı-ayrı ölkələrin ədəbiyyatları arasında dil, üslub fərqləri də yaranır. Beləliklə, V-VI əsrlərdə Ərəbistan yarımadasında cahiliyyət ədəbiyyatı kimi meydana gələn ərəb ədəbiyyatı hal-hazırda dünyanın 20-dən çox ərəb ölkəsində öz inkişafını davam etdirir.

*Misir paşası Məhəmməd Əli* siyasi və iqtisadi islahatlarla yanaşı mədəniyyət sahəsində bir sıra mühüm tədbirlər gördü. İlk növbədə, yerli milli kadrlar hazırlamaq, kütləvi savadsızlığı aradan qaldırmaq, ədəbi və elmi sahələri inkişaf etdirmək lazım idi. Misir ziyalılarının yaranması XIX əsrin birinci yarısına təsadüf edir ki, bu da Məhəmməd Əlinin apardığı islahatlar nəticəsində ölkənin ictimai həyatında baş verən əhəmiyyətli dəyişikliklərlə bağlıdır. Məhəmməd Əlinin təhsil sahəsində apardığı islahatlar ölkənin mədəni inkişafı üçün dünyəvi biliklərə malik ziyalı təbəqəsinin yetişməsi üçün geniş imkanlar açdı. Məhəmməd Əli təhsilə və elmə böyük əhəmiyyət verirdi. Məhəmməd Əlinin elmə və təhsilə nə qədər böyük əhəmiyyət verdiyini onun Con Bourinqlə söhbətlərinin birində dediklərini nəzərdən keçirmək məqsədəuyğun olar: «Mən və mənim xalqım çox şey öyrənməlidir. Mən Ədhəm bəylə 15 nəfər gənci təhsil almaq üçün sizin ölkəyə göndərirəm. Onlar öz gözləri ilə görməli, öz əlləri ilə işləməyi öyrənməli, sizin manufakturalarla tanış olmalı, onlar həmçinin sizin bizdən üstünlüyünüzün səbəbini aşkar etməlidirlər. Onlar sizin xalqın içərisində kifayət qədər qaldıqdan sonra geri qayıtdıqda bütün bunları öz xalqına da öyrədəcəklər». Məhəmməd Əlinin açdığı məktəblərin əksəriyyətində ordu və donanma üçün mütəxəssislər hazırlanırdı. Təhsil pulsuz idi. Dövlət şagirdləri nəinki yedirir və geyindirirdi, hətta onlara kiçik həcmdə də olsa təqaüd verirdi.

1826-cı ildə Fransaya təhsilini tamamlamaq üçün göndərilən 44 gəncdən 11 nəfər hərbi işi, idarə işini və diploma-tiyanı, 8 nəfər dənizçilik, artilleriya işlərini, 2 nəfər tibbi, 5 nəfər torpaq işlərini (əkinçiliyi), mədən işlərini, 4 nəfər təbiət tarixini, 9 nəfər metallurgiyanı, 3 nəfər naxışatma sənətini və litoqrafiya, 1 nəfər arxitektura, 1 nəfər tərcümə sənətini öyrənmək üçün göndərilmişdir. Ölkədə keçirilən inzibati, hərbi, sənaye və s. islahatlar zamanı xaricdən, xüsusilə də Fransa və İtaliyadan mütəxəssislər dəvət edilirdi. Hərbi məktəblərlə yanaşı tibb, təbiətşünaslıq, politexnik, mexanika, kənd təsərrüfatı, dilçilik və musiqi məktəbləri də yaradılmışdı ki, bu məktəblərdə müvafiq ixtisaslar üzrə mütəxəssislər hazırlanırdı. Məhəmməd Əlinin hakimiyyəti illərində ərəb ədəbiyyatının inkişaf etdirilməsinə böyük əhəmiyyət verilirdi. 1821-ci ildə əsası qoyulmuş Bulak nəşriyyatında ərəb, fars və türk dillərində kitablar çap olunurdu. Belə ki, 1822-ci ildə Misirdə ilk müsəlman litoqrafiyası açılmışdı. Bulak nəşriyyatının nəzdində 1828-ci ildə ilk ərəb qəzeti olan «Misir hadisələri» («əl-Vaqai əl-Mısrı») buraxıldı. Bu və digər dövri mətbuat, kitablar, Osmanlı imperiyasının hakimiyyəti altında olan digər ərəb ölkələrində geniş yayılırdı. Bu dövrdə intensiv tərcüməçilik fəaliyyəti geniş yayılmış, bir sıra mədəniyyət mərkəzləri, rəsədxana, Qahirə milli kitabxanası yaradılmışdı. 1835-ci ildə yaradılmış tərcüməçilər məktəbi şagirdləri və əməkdaşları tərəfindən bir çox Avropa ədəbi nümunələri ərəb dilinə tərcümə edilmiş və Misir oxucularına çatdırılmışdı. Səhiyyə sahəsində bir çox tədbirlər görülmüş, hərbi və mülki xəstəxanalar şəbəkəsi genişləndirilmişdi. Bu xəstəxanalar heç də o dövrün bir çox Avropa xəstəxanalarından geri qalmırdı. Yaradılmış elmi mərkəzlər, rəsədxana, Qahirə milli kitabxanası, Bulak muzeyi əhalinin ümumi dünyagörüşünün genişlənməsinə xidmət edirdi. Hətta Məhəmməd Əli Misir milli teatrının yaradılmasına da cəhd göstərmişdi.

Dünyada çox böyük sensassiya doğuran məsələlərdən biri də Luksor şəhəri yaxınlığında Tutanxamonun qəbrinin aşkarlanmasıdır. Qəbir xəzinə eksponatlarla o qədər zəngin olmuşdur ki, onun Misir muzeyində yerləşdirilməsi üçün beş il tələb olunmuşdur. Təkcə sarkofok 110 kiloqram ağırlığında tökmə qızıldan hazırlanmışdır. Misir tarixində müstəsna rolu olmuş Məhəmməd Əli Misir eksponatlarının qorunması qayğısına da qalmışdır. Çünki avropalılar qədim Misir mədəniyyətinə dair ek-

sponatları daşıyırdılar. Misir eksponatlarının oğurlanmasının qarşısını almaq üçün Məhəmməd Əli 1834-cü ildə Misir muzeyinin əsasını qoydu. Qahirədə fransız memarı Marsel Dürrponun layihəsi əsasında tikilmiş Misir muzeyində ən qədim eksponatlar cəmləşmişdi. Həmin muzey Qahirənin İç qalasında yerləşir. Məhəmməd Əlinin göstərişi ilə həmin eksponatlar siyahıya alınmış və kotoloqlaşdırılmışdır. Təkcə mumiyadan tapılmış qiymətli əşyaları siyahıya almaq üçün 33 vərəq lazım gəlmişdir. Lakin bir neçə eksponat Paşa tərəfindən Avstriyanın hersoqu Maksimilyana verilmiş və həmin eksponatlar hal-hazırda Venadadır. Misir muzeyinin ikinci mərtəbəsində sülalə xəzinəsinə aid 150 min eksponat, o cümlədən firon Tutanxamonun qəbir xəzinəsi yerləşdirilmişdir.

XIX əsrdə ərəb dirçəlişinin inkişafında məktəblərin əvəzsiz xidməti olmuşdur. Bu məktəblər həm yerli ziyalılar tərəfindən, həm Qərb mütəxəssisləri və xristian missionerləri tərəfindən açılmışdı.

XIX yüzilliyin 40-cı illərində iri dövlətlər öz siyasi məqsədlərini həyata keçirmək üçün xristian ərəblərinin daha çox məskunlaşıdığı Suriya və Livanda gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynaya biləcək məktəblərin açılmasına önəm verdilər. Xristian missionerləri Suriya və Livanda müxtəlif tipli dini məktəb, xeyriyyə cəmiyyətləri və sair qurumlar açmağa başladılar ki, bu qurumlar da onların təmsil etdikləri ölkələrin maraqlarını müdafiə edirdilər.

1820-ci ildə burada ilk Amerika missionerləri görünməyə başladı. Onlar Beyrutda fəaliyyət göstərən presviteriantlar idi. Amerikalıların Yaxın Şərqdə nüfuz bərqərar etmələri təbii ki, Avropa dövlətləri tərəfindən əks təsirlə qarşılanmaya bilməzdi. 1860-cı ildə Amerika presviteriantlarının burada 30 məktəbi və çoxlu sayda tipoqrafiyaları var idi. 1866-cı ildə isə onlar Suriyada ilk protestant kolleci açdılar. Bu kollec də sonradan Amerika universitetinə çevrildi. 1865-ci ildə Hikmət mədrəsəsi və 1874-cü ildə İsa Universiteti açılmışdır. Bu təhsil ocaqlarının açılması Avropa təhsilinin ərəb ölkələrinə yayılmasında, demokratik fikirlərin meydana gəlməsində mühüm rol oynamışdır.

XIX yüzilliyin ikinci yarısında Avropa dövlətlərinin Osmanlı imperiyasında həyata keçirdikləri maliyyə kommersiya və ticarət siyasəti, ümumən Osmanlı imperiyasının milli və dövlət maraqlarına zərbə vursa da, İstanbulun ayrı-ayrı regionlarında iqtisadi həyatın bəzi sahələrində

irəliləyiş hiss olunurdu. Bu həmin rayonlar idi ki, bu rayonlarda qeyri-türk və qeyri-müsəlman xalqları məskunlaşmışdı. Məlum olduğu kimi, Osmanlı imperiyasında qeyri-millətlər, xüsusilə yunan, erməni, yəhudi millətləri, dini azlıq kimi isə maroni və druzlar maliyyə və ticarət məsələləri ilə daha çox və intensiv olaraq məşğul olurdular. Belə rayonlar sırasında Suriya və Livan da var idi. Burada ticarət burjuaziyası öz maraqlarının təminatı nöqteyi-nəzərindən Suriya və Livanda dini dözümlülük təbliğ edir, bütün Suriya ərəblərini dinindən və tayfasından asılı olmayaraq birliyə çağırırdılar.

Belə mövqedən çıxış edən iri ticarət burjuaziyasının nümayəndələri sırasında XIX əsrin 60-cı illərində Suriyanın tanınmış ideoloqlarından olan Butrus əl-Bustani (1819-1883) də var idi.Məhz 60-cı illərdən başlayaraq, Suriyada maarifçilik hərəkatı geniş vüsət aldı. Bir sıra dillər bilən Bustani xristian idi və maroni seminariyasını bitirmişdi. 1840-cı ildə Amerika missionerləri ilə tanış olan Bustani prasveteriantlığı qəbul etmişdi. Suriyada birliyə, vətənə məhəbbətə çağıran və bu idealları təbliğ edən Bustani dini qarşıdurmanı, fanatizmi, dini ayrı-seçkiliyi və düşmənçiliyi, eləcə də feodal separatizmini, korrupsiya və rüşvətxorluğu, qadınların istismar olunmasını kəskin şəkildə tənqid edirdi. Butrus əl-Bustani Suriyanın həmin dövr ən görkəmli və tanınmış pedaqoqu, maarifçisi, publisisti və yazıçısı idi. O, Livanda 1863-cü ildə ilk ərəb milli məktəbini yaratmış, 1860-cı ildə ərəb dilində həftəlik nəşr olunan «Nafir Suriya», 1870-ci illərdə «əl-Cənnə» və «əl-Cinən» dərgilərinin nəşrini təşkil etmişdi. Bu dərgilər Suriyada cəmiyyətin ən aktual olan siyasi, ədəbi, mədəni məsələlərini oxuculara çatdırırdı. Bustani, eyni zamanda, yeni ədəbi ərəb dili üzərində çalışmış, ərəb ziyalıları arasında Avropa biliklərinin yayılmasına yorulmadan səy göstərmişdi. O, ərəb dilinin böyük izahlı lüğətini və «Dariat əl-maaraf» adı altında yeddi cildlik ərəb ensiklopediyasını yaratmışdır. Suriyanın bu görkəmli şəxsiyyətinin ədəbi irsi bundan ibarət idi. Onun əmisi oğlu Süleyman əl- Bustani Butrus əl-Bustaninin vəfatından sonra ərəb ensiklopediyasının nəşrini davam etdirmiş və Homerin «İlliada» əsərini ərəb dilinə tərcümə etmişdi.

Butrus əl-Bustaninin yaxın dostu və silahdaşı Naif Yazıçı (1800-1871) olmuşdur ki, o da II Bəşirin saray şairi kimi tanınırdı. Nasif Yazıçı ərəb dili və ərəb ədəbiyyatının dirçəldilməsində xüsusi xidmətləri

olan şəxsiyyətlərdəndir. Bustani kimi o da xristian olmasına baxmayaraq, bütün ərəbləri dini ayrı-seçkiliyə son qoymağa, ümumi irs əsasında qardaşlıq cəmiyyəti qurmağa çalışmışdı. İstər Bustani, istərsə də Yazıcı öz ideyalarını təbliğ etməklə Suriyada həm ziyalılar, həm də sadə xalq arasında böyük nüfuz qazanmışdılar. Məhz bunun nəticəsi idi ki, hələ 1857-ci ildə onların ideyalarının daşıyıcıları, onların müasirləri Beyrutda ərəb elmi cəmiyyətini yaratmışdılar ki, bu cəmiyyət də Suriya tarixində ilk dəfə olaraq dini mənsubiyyətindən asılı olmayaraq ərəb ziyalılarını öz ətrafında birləşdirməyə müvəffəq olmuşdu. Diqqəti çəkən bu idi ki, bu cəmiyyətə xarici missionerlər buraxılmırdılar. Rus və sovet tarixşünaslığında Bustani və Yazıçının maarifçi fəaliyyətinin həmin dövr üçün feodalizmə qarşı mübarizədə kifayət olmadığı qeyd edilir. Lakin müasir ərəb tarixşünaslığında Bustani və Yazıçının həmin dövr maarifçi fəaliyyətinin kifayət qədər güclü olduğu qeyd edilir, hətta göstərilir ki, istər Bustani, istərsə də Yazıçı öz ideyalarının davamlı təbliği üçün, hətta xüsusi tələbələr hazırlamışdılar. Məhz onların yetişdirdikləri davamçıların məqsədyönlü fəaliyyəti nəticəsində siyasi problemlər yeni nəsil tərəfindən irəli sürüldü. Belə ki, 1860-cı il hadisələri ilə əlaqədar öz fəaliyyətini dayandıran «ərəb elmi cəmiyyəti» 1868-ci ildə öz fəaliyyətini yenidən bərpa edərək, mədəni dirçəliş problemlərinin müzakirəsindən müstəqillik uğrunda mübarizəyə keçdi. Cəmiyyətin yığıncaqlarından birində isə Naif Yazıçının oğlu İbrahim Yazıçı, vətənpərvərliyə və müstəqilliyə səsləyən şeirlər oxumuş, vahid ərəb millətçiliyi ideyalarından çıxış etmiş və müstəqillik uğrunda mübarizəyə çağırmışdır. Ümumiyyətlə isə, XIX əsrin 70-ci illərinə doğru Suriya və Livanda siyasi mübarizə istiqamətində fəaliyyət göstərən əksər təşkilat və cəmiyyətlərin rəhbərləri, Bustani və Yazıçının məktəbini keçmiş ziyalılar idi.

İraqda təhsil və mədəni sahədə keçirilən bir sıra islahatlar Midhət paşanın adı ilə bağlıdır. Midhət paşa bir sıra inzibati və mədəni sahələrdə də islahatlar keçirdi. 1864-cü ildə Osmanlı dövlətində məhkəmə hakimiyyətini inzibati hakimiyyətdən ayıran qanun qəbul olundu. Qanuna əsasən seçkili məhkəmələr yaradıldı və əhali yerli özünüidarəyə cəlb edildi. O, yeni məhkəmələr, bələdiyyə şuraları və məktəblər təsis etdi. Onun vaxtında Bağdadda ilk qəzet nəşr olundu.

<u>*Milli şüurun formalaşmasında XIX əsr Misir maarifçiləri Rifaa, Rafi, ət-Təhtəvi və Əli paşa Mübarək*</u>, həmçinin 1871-1979-cu illər-

də Misirdə yaşayan, Şərq ölkələrində burjua millətçiliyinin ideoloqlarından biri Cəmaləddin əl-Əfqaninin ideyaları və fəaliyyəti mühüm rol oynadı. Məhz mütərəqqi Misir mətbuatının və mülki əhali arasında ilk müxalifət təşkilatlarının yaradılması əl-Əfqani və onun silahdaşları Məhəmməd Əbdo, Abdulla Nədim, Ədib İshaq və başqalarının adı ilə bağlıdır. Qeyd edək ki, Ərəbi paşa üsyanının iştirakçılarından olan Məhəmməd Əbdo müsəlman islahatçılarının ən görkəmli nümayəndələrindən də biridir. Kəndli ailəsindən çıxan Məhəmməd Əbdo əl-Əzhardə ali dini təhsil almışdı. 1881-ci il üsyanına görə ölkədən sürgün edilmiş, Beyrutda, Parisdə və Tunisdə yaşamışdır. Yalnız 1899-cu ildə Misirə müfti təyin edilmiş və «Mayak» jurnalı vasitəsilə öz ideyalarını təbliğ etməyə başlamışdır.

Yarımmüstəmləkə rejiminin yaradılmasına qarşı Misir xalqının çıxışları, 1881-ci ilədək artaraq, Əhməd Ərəbi paşanın rəhbərlik etdiyi müstəmləlekəçilik əleyhinə güclü hərəkata çevrildi. Hələ 1876-cı ildə Efiopiya savaşı başa çatdıqdan sonra misirli zabitlərin ilk gizli partiyası «Hizb-ul-Vatan» («Vətən partiyası») yarandı. Milli azadlıq hərəkatında «Heluan» cəmiyyəti də iştirak edirdi. Müxalifətin başında gənc Misir ziyalıları və ordu zabitləri dururdu.

Ərəblərdə milli şüurun oyanması Osmanlı dövlətinin son dövrlərinə təsadüf edir. Osmanlı imperiyasının tərkibində olan ərəb xalqlarınının burjua nümayəndələri və ziyalıları islahatların keçirilməsi mövqeyindən çıxış edir, iqtisadi vəziyyətlərinin düzəlməsi və sairə məsələləri gündəmə gətirirdilər. Bu da öz ifadəsini cəmiyyət və təşkilatların yaranmasında tapırdı.

Suriya və Livanda Osmanlı imperiyası çərçivəsində islahatlar keçirilməsini nəzərdə tutan bir sıra leqal cəmiyyət və komitələr yaranmışdı. Onların içərisində ən mühümü «Beyrut İslahatlar Liqası», «Livan Dirçəlişi» cəmiyyətini («ən-Nəhdə əl-Lubnəniyyə»ni) göstərmək olar. Liqa Livanla bağlı bütün məsələlərə nəzarəti Beyrut vilayətinin muxtar hökumətinin səlahiyyətlərinə daxil edilməsini tələb edirdilər. İslahatlar Liqası həm də tələb edirdi ki, ərəb dili dövlət dili kimi qəbul edilsin, parlamentdə və rəsmi sənədlərdə türk dili ilə yanaşı işlədilsin.

Misirin İngiltərə tərəfindən işğalı memarlıq və arxitekturaya da böyük ziyan vurmuşdu. İskəndəriyyənin bombardman edilib yandırılması zamanı xeyli tarixi abidə də yanıb məhv olmuşdu. Belə vəziyyətdə,

millətçilər xalqdan toplanmış vəsait hesabına ölkədə yeni məktəblər açırdılar. Həmin məktəblərdə şagirdlər vətənpərvərlik ruhunda tərbiyə olunurdular. Millətçilər həmçinin qadınlar üçün axşam məktəbləri də açmışdılar. 1908-ci ildə «əl-Vəfd əl-Mısrı» (Misir nümayəndələri) partiyasının rəhbəri Səəd Zəqlul paşanın(1860-1927) təşəbbüsü ilə darülfünun açıldı. Darülfünun yalnız 1925-ci ildə rəsmi surətdə qeydə alındı.

İşğaldan sonra ilk 25 il ərzində Misirin 258 milyon funt dövlət gəlirindən maarif sisteminə yalnız 2800 min funt xərclənmişdi. Maarifə çəkilən xərclər dövlət büdcəsinin ancaq 3%-ni təşkil edirdi.

XIX əsrin sonuna doğru sənayenin inkişafı ilə bağlı milli burjuaziya yaranır və onun siyasi fəallığı da artırdı. Kütləvi hərəkatın hələ genişlənmədiyi bir şəraitdə vətənpərvər ziyalı kimi tanınmış Mustafa Kamil (1874-1908) ölkənin siyasi həyatında mühüm rol oynadı. O, 1899-cu ildə «əl-Liva» («Bayraq») qəzetini nəşr etdirdi. 10 oktyabr 1907-ci ildə M.Kamilin təşəbbüsü ilə xırda və iri burjuaziyanın gənclərini təmsil edən «Hizb-ul-Vətən»nin («Vətən partiyası»nın) yaradıldı. Mustafa Kamilin ölümündən sonra partiyanın rəhbərliyi Məhəmməd Fəridin (1864-1919) səlahiyyətinə verildi. «Vətən partiyası» ölkənin müxtəlif yerlərində milli məktəblər təşkil edirdi. Bunların hər birində 120 şagird təhsil alırdı. Lakin ingilislər «əl-Liva» qəzetinin nəşri qadağan etdilər, partiya darmadağın edildi, onun liderlərinin bir hissəsi mühacirətə getdi.

Birinci dünya savaşından sonra dini ziyalıların ölkə daxilində siyasi fəaliyyəti artdı. 1927-ci ildə «Gənc müsəlmanlar» cəmiyyəti yarandı. İngilislərin ölkədən qovulmasının tərəfdarı kimi çıxış edən cəmiyyətin ilk sədri Əbdül Həmid Səid idi. Müsəlman təşkilatları içərisində 1929-cu ildə İsmailiyyədə kənd müəllimi Şeyx Həsən əl-Bənna (1906-1949) tərəfindən əsası qoyulmuş *«Müsəlman qardaşları»* cəmiyyəti («Cəmiə əl-ixvan əl-muslimin») daha böyük nüfuza malik idi. Cəmiyyət 1929-1936-cı illərdə sırf dini məsələlərlə məşğul olurdu. 1934-cü ildən Qahirəyə köçdü və 1936-cı ildə o, siyasi dini təşkilata çevrildi.

Onun ilkin məqsədləri islamı kapitalist Qərbin hücumları nəticəsində dəyişikliyə uğramasının qarşısını almaq, cəmiyyətin islamlaşdırılması və islam dövləti qurmaq idi. «Müsəlman qardaşları» islamı bir din, bir həyat tərzi, bir əhatəli dünyagörüşü kimi təsəvvür edir və cəmiyyətin həyatının xurafatlardan azad islamın hökmlərinə tabe edilməsini tələb edirdi. Onların konsepsiyaları bir sıra cəhətlərdən Rəşid

Rida və Muhəmməd Əbdo kimi maarifçilərin və islahatçıların baxışlarından və Cəmaləddin əl-Əfqaninin ideyalarından ilhamlanmışdı.

Müsəlman Şərqi, o cümlədən ərəb ədəbiyyatına yeni bir ideya istiqamətinin verilməsində dövrünün böyük siyasi-ictimai xadimi, azadlıq mücahidi Cəmaləddin əl-Əfqaninin böyük xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Əslən türk olan Cəmaləddin əl-Əfqani Həmədan şəhəri yaxınlığında Əsədabad qəsəbəsində anadan olmuş və 8 yaşında ailəsi ilə birlikdə Əfqanıstanda məskunlaşmışlar. Əfqansıtanda hakimiyyətə siyasi rəqibləri gəldiyi üçün Misirə köçmək məcburiyyətində qalmışdır. Əfqaninin liberal-islahatçı baxışları və müstəmləkəçilik əleyhinə təbliğatı mühafizəkar islahatçılar və Misirdə ikili nəzarətlə bağlı yaradılmış Avropa kabineti tərəfindən narazılıqla qarşılanmışdır. Göstərilən təzyiqlər Cəmaləddini Misiri növbəti dəfə tərk etməsinə səbəb yaratdı. Fransaya gələn Əfqani Məhəmməd Əbdo ilə birlikdə «əl-Urva əl-Vusqa» adlı gizli təşkilat yaratmış və eyni adda qəzet buraxmışdır.

Əl-Əfqani bir tərəfdən Qərb müstəmləkəçiliyinə qarşı müsəlman dünyasını birgə mübarizəyə çağırırdısa, digər tərəfdən ayrı-ayrı müsəlman xalqlarını daxili irticaya, müstəbidliyə, despotizmə, hər cür tiranlığa qarşı barışmaz olmağa çağırırdı. Cəmaləddin əl-Əfqani öz təlimlərində Qurana əsaslanmış, onu elmin yeganə kamil mənbəyi, ideal əxlaq kodeksi hesab etmişdir. O, öz təbliğində haqlı olaraq qeyd edirdi ki, Quranla elm bir-birilə ziddiyyət təşkil etmir, əksinə onlar bir-birlərini tamamlayırlar. O, islama təkcə dini doktrina, əqidə kimi deyil, sosial və siyasi problemlərin həllində bir vasitə kimi baxırdı.

Cəmaləddin əl-Əfqani istər ərəb ölkələrindəki ictimai-siyasi fəaliyyəti, istərsə də, Parisdə nəşr etdirdiyi «əl-Urva əl-Vusqa» («Qırılmaz əlaqə») qəzeti vasitəsilə bütün islam aləmi, eləcə də ərəb dünyasının fikri inkişafında mühüm rol oynamışdır. XIX əsrin 70-ci illərindən etiabrən uzun müddət ərəb ictimai fikri və ədəbiyyatında Cəmaləddinin ideyaları əsas və aparıcı rol oynamışdır.

# Xronologiya

| | |
|---|---|
| E. ə. VII minillikdə | Müasir Ərəbistan yarımadası ərazisində insan yaşayışı mümkün olmuşdur. |
| E. ə. VI minillikdə | Ərəbistanda ilk iqlim dəyişiklikləri baş vermişdir. |
| E.ə.IV-III minilliklərə | aid olan qaya üstü rəsmlərdə səhra və yarımsəhra heyvanlarının təsvirləri xarakterikdir. |
| E.ə. II minillikdə | Ərəbistanda iqlim dəyişikliyi başa çatmış, dəvə əhlilləşdirilmiş və ondan ev heyvanı kimi istifadə etməyə başlamışlar. |
| E.ə. I minillikdə | ərəb tayfaları Ərəbistan yarımadasının cənubundan şimalına doğru yayılmağa başlamış və Mesopotamiya, Suriya, eləcə də Misirə qədər gedib çıxmışlar. |
| E.ə. 854-cü ildə | Assuriya çarı III Salmanasarın qoşunları Ərəbistana yürüş etmişdir. |
| E.ə. 650-ci ildə | assuriyalılar Babilistana yürüş etmişlər. |
| E.ə. 24-cü ildə | Avqust Yəmənə 10 min əsgər və 120 gəmidən ibarət ekspedisiya göndərmişdi. |
| V-VI əsrlərdə | köçəri, oturaq əhali ilə yanaşı yarımköçəri və ya yarımoturaq əhali fəaliyyət göstərmişdir. |
| 300-525-ci illər | Himyərilər padşahlığının hakimiyyət illəri |
| 569-cu ildə | Bizans imperatoru I Yustinianın (518-527) Məkkəni mühasirəyə almışdır. |
| 20 aprel 570-ci ildə | Məhəmməd peyğəmbər anadan olmuşdur. |
| 575-ci ildə | Sasani şahənşahı I Xosrovun hərbi-dəniz ekspedisiyası Yəməni işğal edərək, Sasanilərin hökmranlığını bərqərar etmişdir. |
| 610-cu ilin ramazan ayında | Məhəmməd peyğəmbərə ilk vəh gəlmişdir |
| 619-cu ildə | Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicə vəfat etdi. |
| 20 sentyabr 622-ci ildə | Məhəmməd vahənin mərkəzi yaşayış məntəqəsinə – Yəsribə hicrət etdi. |
| 623-ci ildən- 627-ci ilə qədər - | mədinəlilər Məkkə karvanlarına hücum etmişlər. |
| 628-ci ildə | -məkkəlilərlə mədinəlilər arasında Xudeybiyə müqaviləsi bağlandı. |

| | |
|---|---|
| 630-cu ildə | ilk müsəlman feodal dövlətinin əsası qoyuldu. |
| 631-ci ilin martında | Məhəmməd peyğəmbər həcc ziyarətini həyata keçirdi. |
| 631-ci ildə | islamın Ərəbistanda təntənəli yürüşü başladı. |
| 631-ci ilin ikinci yarısında | Yəmən tədricən müsəlman dövlətinə çevrildi. |
| 8 iyun 632-ci ildə | Məhəmməd peyğəmbər Mədinədə 63 yaşında dünyasını dəyişdi. |
| 632-634-cü illərdə | Əbu-Bəkrin xəlifəlik illəri |
| 634-644-cü illərdə | Ömərin xəlifəlik illəri |
| 644-656-cı illərdə | Osmanın xəlifəlik illəri |
| 656-661-ci illərdə | Əlinin xəlifəlik illəri |
| 633-cü ildə | Əbu-Bəkr Museylimə və Sacaxı hərbi-siyasi cəhətdən məğlub etdi. |
| 633-cü ildə | Əbu Bəkr Fars yürüşünə başlamaq haqqında əmr verdi. |
| 634-cü ilin əvvəlində | Əbu Bəkr Suriya yürüşünə başlamaq haqqında əmr verdi. |
| 20 avqust 636-cı ildə | ərəb və Bizans orduları arasında həlledici döyüş baş verdi. |
| 636-cı ildə | Kadisiya döyüşü |
| 637-ci ilin yayında | Sasanilərin paytaxtı Ktesifon müsəlman ərəblərin əlinə keçdi. |
| 638-ci ildə | xəlifə Ömər Suriyanın idarə edilməsini Əməvilər sülaləsindən olan Əbu Süfyanın oğlu Müaviyəyə tapşırdı. |
| 638-ci ilin əvvəlində | - bağlanan müqavilə nəticəsində Qüds xilafətin tərkibinə qatıldı. |
| 639-cu ilin sonunda | Əmr ibn əl-As Misirə yürüş etdi. |
| 642-ci ildə | Misirin işğal başa çatdı. |
| 642-ci ildə | Nəhavənd döyüşü |
| 17 iyun 656-cı ildə | qiyamçılar xəlifə Osmanı və onun zövcəsi Nailəni qətlə yetirdilər. |
| 9 dekabr 656-cı ildə | «Cəməl döyüşü» baş verdi. |
| 19 iyul 657-ci ildə | Mesopotamiyada Fərat çayının sağ sahilində Siffin yaxınlığında Müaviyə qoşunları ilə Əlinin qoşunları arasında döyüş baş verdi |
| 22 yanvar 661-ci ildə | İbn Mülcəm Əlini zəhərlənmiş xəncər ilə ağır yaraladı. |

| | |
|---|---|
| 661-750-ci illər | Əməvilər sülaləsinin hakimiyyət illəri |
| 7 aprel 669-cu ildə | imam Həsən dünyasını dəyişdi. |
| 680-ci il müsəlmanların məhərrəm ayında | Kərbəla qırğını baş verdi. |
| 705-715-ci illər arasında | Əmu-Dərya çayının arxasında olan torpaqlar Mavərənnəhr, həmçinin Xarəzm və Fərqanə ərəblər tərəfindən zəbt edildi. |
| 711-ci ildə | müsəlman orduları Musa ibn Nuseyranın komandanlığı altında körfəz vasitəsilə Pirineya yarımadasına gəlib çıxdı. |
| 19 iyul 711-ci ildə | ilk döyüşdə vestqotların ordusu darmadağın edildi. |
| 712-ci ildə isə | ərəblər Hindistana yürüş edib Sind əyalətini, Hind çayının vadisini, şimalda isə Multanı tutdular. |
| 717-718-ci illərdə | müsəlman orduları Pirineyadan keçərək Narbonu tutdu. |
| 732-ci ildə | Puatye yaxınlığında Karl Martelin komandanlığı altında frank yığma ordusu ərəbləri ciddi məğlubiyyətə uğratdı. |
| 747-ci ildə | Əbu Müslüm Mərv yaxınlığında üsyana başladı. |
| 29 avqust 749-cu ildə | Abbasi orduları Kufəyə daxil oldu və Əbül Abbas əs-Səffah xəlifə elan edildi. |
| 750-ci ilin yanvarında | Abbasilərin silahlı dəstələri Böyük Zab çayı yaxınlığında II Mərvanın qoşunlarını məğlub etdi. |
| 750-1258-ci illər | Abbasilər sülaləsinin hakimiyyət illəri |
| 750-945-ci illər | Siyasi cəhətdən üç dövrə bölünən Abbasilər xilafətinin birinci mərhələsi |
| 751-ci ildə | ərəblər çinlilər üzərində Talos çayı yanındakı döyüşdə qəti qələbə çaldılar. |
| 755-ci ildə | Xorasan valisi Əbu Müslüm xəlifə əl-Mənsurun göstərişi ilə qətlə yetirildi. |
| 755-ci ildə | Nişapur və Rey şəhərlərində Sunbadın başçılığı altında böyük kəndli üsyanı başladı. |

| | |
|---|---|
| 756-ci ildə | Hişamın nəvəsi Əbdür Rəhmanı Əndəlusda əmir kimi qəbul etdilər. |
| 1 avqust 762-ci ildə | xəlifə əl-Mənsur xilafətin paytaxtı kimi nəzərdə tutulmuş Bağdad şəhərinin inşasına başlamaq əmri verdi. |
| 767-ci ildə | Xorasanda ustad Sisin rəhbərliyi altında yeni üsyan baş verdi. |
| 778-779-cu illərdə | Qurqanda «qırmızı bayraqlılar» adlanan kəndlilərin hərəkatı vüsət tapdı. |
| 776-783-cü illərdə | «ağ geyimlilər» üsyanı olmuşdur. |
| 816-cı ildə | Xürrəmi başçıları Cavidan və Əbu İmran açıq döyüşdə bir-birlərini öldürdülər. |
| 816-837-ci illərdə | Babəkilər hərəkatı |
| 837-ci ilin avqustunda | Xürrəmilərin son qalası Bəzz təslim oldu. |
| 838-ci ildə | xəlifə əl-Mütəsimin əmri ilə Babək işgəncə ilə öldürüldü. |
| 869- 883-cü illərdə | Zəncilər hərəkatı |
| 28 iyun 869-cu ildə | zəncilər Obollu tutduqdan sonra şəhəri yandırdılar. |
| 16 noyabr 880-ci ildə | zəncilərin möhkəmləndirilmiş şəhərlərindən biri olan əl-Maniyə hökumət qoşunları tərəfindən tutuldu. |
| 12 avqust 883-cü ildə | əl-Muxtar şəhəri təslim oldu. |
| 18 may 883-cü ildə | Əli ibn Məhəmmədi tutaraq, başını kəsdilər. |
| 890-cı ildə | İraqda qərmətilərin böyük üsyanı baş verdi. |
| 899-cu ildə | Bəhreyndə qərmətilər öz xilafətlərini yaratdılar. |
| 909-cu ildə | Əğləbilərə qarşı Abdullah əş-Şinin rəhbərliyi ilə İsmaili hərəkatı qələbə ilə nəticələndi. |

| | |
|---|---|
| **914, 921** və 935-ci illərdə | Fatimilər Misirə iki hakim Ubeydullah və əl-Qaimin dövründə üç dəfə –müvəffəqiyyətsizliklə nəticələnən yürüşlərə cəhd etdilər. |
| 929-cu ildə | qərmətilər Məkkəyə hücum edib, Kəbədəki Qara daşı özləri ilə apardılar. |
| 944-cü ildə | Tahirtadan olan xaricilər və Əbu Yəzidin başçılığı altında bərbərlər Fatimi hakimiyyətinə qarşı çıxış etdilər. |
| 945-ci ilin dekabrında | Əhməd ibn Buveyh Bağdadaı tutdu. |
| 945-1132-ci illər | Abbasilər xilafətinin ikinci mərhələsi |
| 946-953-cü illərdə | əl-Mənsur Fatimi xəlifəsi oldu. |
| 953-975-ci illər | Fatimi xəlifəsi əl-Muizin hakimiyyət illəri |
| 969-cu ildə | sərkərdə Cövhər Misirin paytaxtı Fustatı tutdu. |
| 969-cu ildə | «Qahirə» adlı yeni şəhər salındı. |
| 973-cü ildə | Cövhər Fələstin və Suriyaya yürüşə başladı. |
| 975-996-cu illər | əl-Əzizin hakimiyət illəri |
| 996-1021-ci illər | əl-Hakimin hakimiyyət illəri. |
| 1055-ci ildə | Səlcuq sultanı Toğrul bəy (1038-1063) Buveyhilərin 120 ildən artıq davam edən hakimiyyətinə son qoydu. |
| 1059-cu ildə | Aslan əl-Basasiri Bağdadda Fatimilərin ağ bayrağını qaldırdı. |
| 1096-1099-cu illər | Birinci xaçlı yürüşündən sonra Suriya və Fələstində dörd xaçlı dövləti yarandı. |
| 1118-1194-cü illər | İraq Səlcuq sultanlığı dövrüdür. |
| 1127-ci ildə | İmaməddin Zəngi İraqa atabəy təyin edildi. |
| 1128-ci ildə | Zəngi Suriyanın ən mühüm şəhərlərindən biri Hələbi tutdu. |
| 1132-1258-ci illər | Abbasilər xilafətinin üçüncü mərhələsi |
| 24 iyun 1135-ci ildə | Bisitun dağları ətrafında xəlifənin qoşunları Məsud tərəfindən bir daha darmadağın edildi. |
| 1144-cü ildə | Zəngi mühüm strateji məntəqə olan Edessanı tutdu. |

| | |
|---|---|
| 1154-cü ildə | Nurəddin Zəngi Dəməşqi tutdu. |
| 1169-cu ildə | Fatimi xəlifəsi vəzir və ali baş komandan vəzifələrini Səlahəddin Eyyubiyə verdi. |
| 1171-ci ildə | Səlahddin Eyyubi hərbi çevriliş edərək, sonuncu Fatimi xəlifəsi Adidi devirdi və özünü sultan elan etdi. |
| 1173-cü ildə | Səlahəddin Məkkə və Mədinə şəhərlərində də Eyyubilərin hakimiyytini bərqərar etdi. |
| 1174-cü ildə | Nurəddin Zəngi vəfat etdi. |
| 1174-1175-ci illərdə | Abbasi xəlifəsi Misirdə Eyyubilərin hakimiyyətini tanıdı. |
| 1186-cı ildə | Səlahədin Eyyubi bütün Misiri, xaçlıların tutduğu əyalətləri çıxmaqla Suriyanın digər ərazilərini və xırda Mesopotamiya əmirliklərini vahid dövlətdə birləşdirdi. |
| 1218-ci ildə | xaçlılar Damietta qalası və limanını mühasirəyə aldılar və bir ildən sonra Damietta süqut etdi. |
| 1221-ci ildə | Adilin oğlu Malik əl-Kamil (1218-1238) Damiettanı geri aldı və Misiri xaçlılardan təmizlədi. |
| 1229-cu ildə | Kamil qarşılıqlı razılaşma əsasında Qüdslə şəhərlər arasında dar uzun zolağı və Yəffanı xaçlılara verdi. |
| 1238-ci ildə | Kamilin ölümündən sonra Eyyubi dövləti tamam dağıldı. |
| 1250-ci ildə | Fransa kralı, xaçlıların başçısı IX Lüdovik əsir düşdü. |
| 1250-ci ildə | Şəcər əd-Dür və Aybək qətlə yetirildi və Eyyubilər dövlətinin varlığına son qoyuldu. |
| 1250-1517-ci illər | Məmlüklər dövlətinin hakimiyyət illəri |
| 1250-1390-ci illər | Bəhri məmlüklərinin hakimiyyət illəri |
| 1258-ci ildə | Çingiz xan nəslindən olan Hülakü xan Bağdadı işğal etdi. |
| 1390-1517-ci illər | Burci məmlüklərinin hakimiyyət illəri |
| 1260-cı ildə | monqollar Suriyaya yürüş etdilər. |
| 1260-cı ildə | Ayn-Calut adlanan yerdə döyüş baş verdi |
| 1268-ci ildə | Sultan Bəybars (1260-1277)zəngin Əntakiyəni tutmuş və xaçlı knyazlığının mövcudluğuna son qoymuşdu. |

| | |
|---|---|
| 1491-ci ildə | Məmlük sultanı Kait bəy Osmanlı imperiyası ilə sülh müqaviləsi bağlamalı oldu. |
| 24 aprel 1512-ci ildə | I Səlim Yavuzu hakimiyyətə gətirdilər. |
| 1512-ci ildə | Barbarossa qardaşları Məğribdə İspan hakimiyyətinə qarşı üsyan qaldırdılar. |
| 1514-cü ildə | Çaldıran döyüşü baş verdi |
| 1515-ci ildə | Barbarosların üçüncü qardaşı İshak onlara qoşuldu. |
| 1515-ci ildə | xaçlılar Omanda və Şərqi Ərəbistanda, Hörmüzdə öz mövqelərini möhkəmləndirmişdilər. |
| 8 avqust 1516-cı ildə | I Səlim Hələbə daxil oldu. |
| 24 avqust 1516-cı ildə | Mərc-Dəbiqdə dünya tarixində osmanlılarla məmlüklər arasında ən böyük döyüşlərdən biri baş verdi. |
| 20 sentyabr 1516-cı ildə | türklər Həmanı tutdular. |
| 22 sentyabr 1516-cı ildə | türklər Homsu tutdular. |
| 9 oktyabr 1516-cı ildə | I Səlim tənətənəli surətdə Dəməşqə daxil oldu |
| 11 oktyabr 1516-cı ildə | Tümən bəy Misirin sultanı seçildi. |
| 30 noyabr 1516-cı ildə | türklər Qəzaya daxil olmaqla Suriya və Fələstinin işğalını başa çatdırdılar. |
| 25 dekabr 1516-cı ildə | Sinan Yusif paşanın komandanlığı altında osmanlı ordusu Beysan yaxınlığında məmlükləri darmadağın etdi. |
| 1516-cı ilin yazında | üsyançı ordu Mitici, Şerşeli tutdu və Əlcəzairə daxil oldu. |
| 22 yanvar 1517–ci ildə | Ridaniya yaxınlığında döyüş baş verdi. |
| 2 aprel 1517-ci ildə | Qahirə yaxınlığında son döyüşə girən Tüman bəy məğlubiyyətə uğradı. |
| 5 iyul 1517-ci ildə | Hicazın hakimi I Səlimin qələbəsini alqışalmaq məqsədilə Qahirəyə nümayəndəlik göndərərək, onu sultan və xəlifə kimi tanıdıqlarını bildirdilər |
| 1522-ci ildə | xaçlılar 30 noyabr 1521-ci ildə Şərqi Ərəbistanda başlayan üsyanı yatırtmağa nail oldular. |

| | |
|---|---|
| 1533-cü ilin sentyabrında | Böyük Süleyman İraq kompanyiasına başladı. |
| 13 iyul 1534-cü ildə | Böyük Süleymanın komandanlığı altında Osmanlı ordusu Təbrizə daxil oldu. |
| 2 dekabr 1534-cü ildə | Böyük Süleyman təntənəli suratdə Bağdada daxil oldu. |
| 1534-cü ildə | yezidilərin başçısı Hüseyn bəy əd-Dasina sultandan Ərbil sancaqlığını idarə etmək üçün investitur verildi. |
| 1534-cü ildə | Diyarbəkrdən ayrılan Mosul və Şəhrizor əyalətləri yaradıldı. |
| 1535-ci ilin aprelində | Böyük Süleyman İraqı tərk etdi. |
| 1538-ci ildə | Hadramaut, Bəsrə və Fars körfəzi əmirlikləri osmanlılardan vassal asılılığını qəbul etdilər, Yəmən isə Osmanlı imperiyasına birləşdirildi. |
| 29 may 1555-ci ildə | bağlanan Amasiya sülh müqaviləsinə görə Səfəvilər İraqa olan iddialarından əl çəkirdi və onu Osmanlı imperiyasının bir hissəsi kimi tanıyırdı. |
| 13 sentyabr 1574-cü ildə | Tunis osmanlıların hakimiyyəti altına keçdi. |
| 1608-ci ildə | II Fəxrəddin Toskaniya hersoqu I Ferdinandla ticarət müqaviləsi bağladı. |
| 1613-cü ildə | Dəməşq qubernatoru Əhməd Hafiz paşanın başçılığı ilə türk qoşunları II Fəxrəddinin hərbi hissələrini darmadağın etdilər. |
| 1618-ci ildə | türk sultanı II Osman II Fəxrəddinin Livana qayıtması üçün amnistiya verdi |
| 1703-cü ildə | Əbdül Vəhhab Nəcd yaxınlığında yerləşən Uyeynədə qazi ailəsində anadan olmuşdur. |
| 1711-ci ildə | Tripolidə Əhməd Qaramanlı hakimiyyətə gəldi |
| XVIII yüzilliyin 40-cı illərində | Nəcddə Əbdül Vəhhab öz müasirləri qarşısnda yeni dini təlim haqqında çıxışlar etməyə başladı. |
| 1744-cü ildə | Dariya əmiri Məhəmməd ibn Səud vəhhabiliyi və Məhəmməd ibn Əbdül Vəhhab ilə müttəfiqliyə dair müqavilə bağlamışdı. |
| 1765-ci ildə | Dariyya knyazlığının feodal hakimi əmir Məhəmməd ibn Səud vəfat etmişdir və onu hakimiyyətdə Əbdül Əziz əvəz etdi. |

| | |
|---|---|
| 1767-ci ildə | Mərakeş ilə Fransa arasında qeyri-bərabər müqavilə imzalandı. |
| 1770-ci ildə | Əli bəy Kəbir Misirin müstəqilliyini elan etdi. |
| 25-26 iyun 1770-ci ildə | Çesmen döyüşündə ruslar türkləri məğlub etdilər. |
| 1771-ci ilin əvvəllərində | Əli bəy erməni Yakov vasitəsilə A.Q. Orlova məktub göndərmişdir. |
| 1772-ci ilin mayında- | Əli bəy Beyrutun yenidən tutulmasına müvəffəq oldu. |
| 8 may 1773-cü ildə | Əli bəy Kəbir vəfat etdi. |
| 1775-ci ilin mart ayında | Misir hakimi Məhəmməd bəy sultanın tapşırığına əsasən 60 minlik qoşun ilə Suriyaya daxil oldu. |
| 1775-ci ildə | Əkkə tutulduqdan sonra Əhməd paşanın iqamətgahına çevrildi. |
| 1787-ci ildə | Soran əmirliyinin mərkəzi Rəvanduz şəhəri oldu. |
| 1791-ci ildə | vəhhabizmin banisi Məhəmməd ibn Əbdül Vəhhabın vəfatından sonra Səud əmirləri dini və dünyəvi hakimiyyəti öz əllərində cəmləşdirdilər. |
| 1796-cı ildə | Məkkə şərifi Qaliblə vəhhabilər arasında üç il davam edən müharibədə məkkəlilər məğlub oldu. |
| 7 mart 1799-cu ildə | Yaffa fransızlar tərəfindən alınmışdı. |
| 1798-ci ildə | Oman İngiltərənin hakimiyyəti altına düşdü. |
| 19 may 1798-ci ildə | -Napoleon Bonapartın komandanlığı altında Fransa hərbi ekspedisiyası Misirə yürüşə başladı. |
| 10 iyun 1798-ci ildə | Napoleon Maltanı tutdu və Fransa Respublikasının mülkü elan etdi. |
| 30 iyun 1798-ci ildə | Napoleon başda olmaqla fransız ordusu İskəndəriyyənin yaxınlığında quruya çıxarıldı. |
| 21 iyul 1978-ci ildə | ehramlar yaxınlığındakı döyüşdə fransızlar Muradın və İbrahimin məmlüklərini darmadağın etdilər və Qahirəni tutdular. |
| 1 avqust 1798-ci ildə | ingilis admiralı Nelson Əbukir yaxınlığında fransız donanmasını büsbütün məhv etdi. |
| 1798-ci ilin sentyabrında | Osmanlı Sultanı III Səlim Fransaya müharibə elan etdi. |
| 21 oktyabr 1798-ci ildə | Qahirədə fransızlara qarşı böyük üsyan baş verdi. |
| 20 fevral 1799-cu ildə | Fransızların Suriyaya yürüşü əl-Ərişin tutulması ilə başlanmışdı. |

| | |
|---|---|
| 1798-ci ilin dekabrında | Napoleon Misirin işğalını başa çatdırdı. |
| 22 avqust 1799-cu ildə | Napoleon Fransaya yola düşdü. |
| 24 yanvar 1800-cü ildə | imzalanan sazişə əsasən fransız qoşunları Misirdən çıxarılmalı, ingilis gəmiləri isə onları Fransaya daşımalı idi. |
| 20 mart 1800-cü ildə | Heliopolis yanında vuruşma oldu. |
| 25 aprel 1800-cü ildə | Kleber Qahirəni təslim olmağa məcbur edə bildi. |
| 14 iyun 1800-cü ildə | general Kleber qətlə yetirildi. |
| 1801-ci ilin sentyabrında | axırıncı fransız əsgəri Misiri tərk etdi. |
| 9 sentyabr 1801-ci ildə | Fransa ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı. |
| 1801-ci ildə | vəhhabilər Kərbalaya yürüş təşkil etdilər. |
| 1802-ci ildə | Hafiz Əli Bağdad paşası oldu. |
| 27 mart 1802-ci ildə | İngiltərə və Fransa arasında bağlanmış Əmən sülh müqaviləsinin şərtinə görə ingilislər Misiri tərk etməli oldu. |
| 1803-cü ilin martında | axırıncı ingilis əsgəri Misiri tərk etdi. |
| 1803-cü ilin mayında | Qahirə məmlük-alban birləşmiş qüvvələri tərəfindən tutuldu. |
| 1803-cü ildə | Vəhhabilər Küveyt və Bəhreyni tutdular. |
| 1804-cü ildə | Vəhhabilər Mədinəni tutdular. |
| 1804-cü ildən 1819-cu ilə və 1832-ci ildən 1840-cı ilə qədər | əmir II Bəşir iki dəfə hakimiyyətdə olmuşdur. |
| 14 may1805-ci ildə | Qahirə şeyxləri Məhəmməd Əlini paşa elan etdilər. |
| 1806-cı ildə | Vəhhabilər Məkkəni tutdular. |
| 1806-cı ilin noyabrında | Məhəmməd Əli İstanbuldan paşa titulunu aldı. |
| 1806-cı ildə | Əbdür Rəhman Osmanlı dövləti ilə İran arasındakı ziddiyyət və qarşıdurmadan istifadə edərək, Kermanşah hakimi Məhəmməd Əli Mirzə ilə birləşdi və Bağdad paşası Əli paşaya qarşı birgə mübarizə apardı. |
| 1806-cı ildə | Bəhdinan əmirliyi Mosul paşalığının tabeçiliyinə verildi. |

| | |
|---|---|
| 1807-ci ilin yazında | Məhəmməd Əli ingilislərin hərbi qüvvələrini İskəndəriyyədə təslim etdi. |
| 1807-ci ilin avqustunda | Hafiz Əli öldürüldü. |
| 1808-ci ildə | Məhəmməd Əli qiyamçı bəylərin malikanələrini müsadirə etməyə başladı. |
| 1808-ci ildə | vəhhabilər Bağdada daha böyük yürüş təşkil etdilər. |
| 1808-1825-ci illərdə | Bəhdinan əmirliyi Zubeyr paşa tərəfindən idarə olunmuşdur. |
| 16 iyul 1809-cu İldə | Məhəmməd Əli vəqf torpaqları üzərinə vergi qoydu. |
| 1811-ci ildə | Sultan II Mahmud Misir paşası Məhəmməd Əliyə vəhhabilərə qarşı cəza ekspedisiyası təşkil etməyi təklif etdi. |
| 1811-ci ildə | Məhəmməd Əli Vəhhabi dövlətinə qarşı müharibəyə başladı. |
| 1 mart 1811-ci ildə | Qahirədə məmlüklərin qırğını həyata keçirildi. |
| 1813-cü ilin sentyabrında | Məhəmməd Əli yeni qüvvələrlə Ciddəyə gəldi. |
| 1813-cü ildə | Babanın əmiri Mahmud paşa oldu. |
| 1814-cü ildə | Misirdə iltizam sistemi ləğv edildi. |
| 1814-cü ilin mayında | əmir Səud vəfat etdi. |
| 20 yanvar 1815-ci ildə | Basala yaxınlığındakı döyüşdə misirlilər Vəhhabiləri ciddi məğlubiyyətə uğratdılar. |
| 1817-1831-ci illərdə | Davud İraqın paşası oldu. |
| 15 sentyabr 1818-ci ildə | beş aylıq mühasirədən sonra Dariyyə təslim oldu. |
| 1818-ci ilin dekabrında | Vəhhabi əmiri Abdullah edam olundu. |
| 1819-cu ildə | Yəmən də Misir işğalına məruz qaldı. |
| 1819-cu ildə | Əkkə paşası Süleyman özündən sonra varis kimi ordusunun qərargah rəisi Əli bəyi təyin etdi. |
| 1820-ci ildə | Livana ilk Amerika missionerləri gəldi. |
| 1820-ci ilin oktyabrında | İsmayıl paşanın başçılığı altında Misir orduları Sudana yürüşə başladı. |
| 1820-ci ildə | Müqavilələli Omanın və Bəhreynin daha yeddi şeyxliyi İngiltərənin hakimiyyəti altına düşdü. |

| | |
|---|---|
| 1821-ci ildə | Davud paşa Kürdüstana təyin olunmuş hakimə qarşı hərbi əməliyyatlara başladı. |
| 1821-1823-cü illərdə | Osmanlı-İran müharibəsi baş verdi. |
| 1821-ci ilin yazında | misirlilər Ağ-Nillə Mavi Nilin birləşdiyi yerə gəldilər. |
| 12 iyun 1821-ci ildə | Misirlilər Sənnarın paytaxtı Funqa daxil oldular. |
| 1821-ci ildə | Vəhhabilərin yeni üsyanına Türki başçılıq edirdi. |
| 1822-ci ilin sonunda | Sənnar və Kordofan Məhəmməd Əlinin ordusu tərəfindən tamamilə tutuldu. |
| 1822-ci ildə oktyabrında | İsmayıl paşa Şəndi şəhərində qətlə yetirildi. |
| 1823-cü ilin martında | bağlanmış Ərzurum müqaviləsinin şərtlərinə əsasən İraq Kürdüstanı Osmanlı dövlətinin tərkibində qaldı |
| 1823-cü ildə | Misirin Sudanda tutduqları torpağın mərkəzi Xartum oldu. |
| 1823-cü ildə | Dərfurdan başqa Sudanın bütün əyalətləri formal şəkildə Osmanlı imperiyasının tərkibinə daxil edildi. |
| 1821-1829-cu illərdə | yunan üsanı baş verdi. |
| 1824-cü ildə | Məhəmməd Əlinin oğlu İbrahim paşanın komandası altında Moreyaya böyük bir ordu göndərildi. |
| 1827-ci ilin iyununda | İbrahim paşa yunan vətənpərvərlərinin dayaq nöqtəsi olan Afinanı tutdular. |
| 6 iyul 1827-ci ildə | Rusiya yunan məsələsinə dair Londonda ingilis-fransız-rus razılaşması bağlamağa nail oldu. |
| 20 oktyabr 1827-ci ildə | birləşmiş İngiltərə-Fransa-Rusiya eskadrası Navarin buxtasında Misir-türk donanmasını darmadağın etdi. |
| 1828-ci ilin sentyabrında | Misir ordusunun qalıqları Yunanıstandan çıxarıldı. |
| 1828-ci ildə | ilk ərəb qəzeti olan «Misir xəbərləri» (əl-Vaqai əl-Mısrı) buraxıldı. |
| 30 iyun 1830-cu ildə | 37 minlik fransız qoşunu general Burmonun başçılığı altında Əlcəzair sahillərinə çıxarıldı. |
| 4 iyul 1830-cu ildə | Əlcəzair danışıqsız təslim olmaq haqqında müqavilə imzaladı. |
| 1831-ci ildə | İraqda baş verən vəba xəstəliyi Davudun ordusunu tamamilə məhv etdi. |

| | |
|---|---|
| 1831-ci ildə | Məhəmməd Əli Suriya kompaniyasına başladı. |
| 1832-ci ildə | fransızlara qarşı mübarizə aparan ərəb tayfaları Əbdül Qədiri özlərinin başçısı seçdilər. |
| 23 aprel 1832-ci ildə | Osmanlı sultanı Məhəmməd Əlini qiyamçı elan etdi və ona qarşı müharibəyə başladı. |
| 26 noyabr 1831-ci ildən-1832-ci ilin may ayınadək | davam edən mühasirədən sonra Əkkə qalası misirlilər tərəfindən alındı. |
| 8 iyun 1832-ci ildə | Həməs şəhəri yaxınlığında Osmanlı qoşunları ilə Məhəmməd Əli ordusu arasında ilk döyüş baş verdi. |
| 29 iyul 1832-ci ildə | İbrahim paşa Suriyanı tutdu. |
| 1833-cü ilin fevral -aprelində | Bosforun Asiya sahilindəki Ünkər İskələsi yaxnlığında 14 min rus əsgəri sultana kömək məqsəilə quruya çıxarıldı. |
| 4 may 1833-cü ildə | Kütəhyədə Osmanlı imperiyası ilə Misir arasında sülh bağlandı. |
| 1834-cü ildə | «Afrika komissiyası»nın təqdimatına əsasən Lui Filipp Əlcəzairin Fransaya birləşdirildiyini elan etdi. |
| 1834-cü ildə | Maşari ibn Xalid Riyadı tutaraq, əmir Türkini öldürdü və hakimiyyəti ələ keçirdi. |
| 1835-ci ildə | fransızlar müharibə elan etmədən Qərbi Əlcəzairə qoşun yeritdilər. |
| 1836-cı ildə | Xurşid paşanın başçılığı altında böyük Misir ordusu Nəcdə doğru hərəkət etdi. |
| 30 may 1837-ci il | Tafn müqaviləsinə əsasən Fransa Əbdül Qədirin hakimiyyətini Qərbi və Mərkəzi Əlcəzairdə tanıdıqlarını təsdiqlədilər. |
| 1838-ci ildə | imzalanmış ingilis-türk ticarət müqaviləsinə görə taxıl və yun almaq sahəsində dövlət inhisarı ləğv edildi və bu şərtlərin Misir və Suriyaya şamil edilməsi. |
| 1838-ci ildə | əmir Feysəl əsir alındı. |
| 1838-ci ildə | Məhəmməd Əli Ağ və Mavi Nilin sahillərində qızıl axtarmaq məqsədilə Sudana gəldi. |
| 1838-ci il | lord Şefteberi, Qouler və Yerusəlimdəki Birtaniya konsulu Ceyms Finn yəhudilərin Fələstinə köçürülməsi və burada Britaniya protektoratlığı altında Yəhudi dövlətinin yaradılmasına dair müxtəlif layihələrlə çıxış etdi. |

| | |
|---|---|
| 1839-cu ildə | Böyük Britaniya Ədən şəhərini işğal etdi. |
| 1839-cu ildə | sultanla onun rəsmi vassalı arasında açıq müharibəyə çevrildi. |
| 24 iyun 1839-cu ildə | Nəzib yaxınlığında Misir qoşunları türkləri məğlub etdi. |
| 27 iyul1839-cu ildə | İngiltərə, Rusiya, Fransa və Avstriya İstanbula kollektiv nota göndərdi. |
| 15 iyul 1840-cı ildə | Osmanlı dövləti, İngiltərə, Rusiya, Avstriya və Prussiya arasında Londonda saziş imzalandı. |
| 1840-cı ildə | Misir torpaqlarına Kassala və Təkə əyalətləri də birləşdirildi. |
| 1840-cı ildə | II Bəşir hakimiyyətdən salınıb ölkədən qovulduqdan sonra Livanda druzların hakimiyyəti bərqərar oldu. |
| 1841-ci ilin oktyabrında | druz feodalları II Bəşirin qardaşı Qasıma qarşı qiyam qadırdılar. |
| 1841-ci ildə | kürd feodalları Süleymaniyyəyə qoşun yeridən İran şahını dəstəklədi. |
| 1843-cü ildə | İstanbul Livanın birbaşa idarə edilməsi formasından imtina etmək məcburiyyətində qaldı. |
| 14 avqust 1844-cü ildə | İsli çayı yaxınlığındakı döyüşdə Mərakeş qoşunları ağır məğlubiyyətə uğradı. |
| 1845-ci ildə | Qərbi Əlcəzairdə çoban Bu Mazanın rəhbərliyi altında üsyan başlandı. |
| 18 mart 1845-ci ildə | Lala-Marniyada Mərakeşlə Fransanın Əlcəzair mülkləri arasında sərhəd müəyyənləşdirilməsi haqqında müqavilə bağlandı. |
| 1845-ci ilin mayında | maroni-druz qarşıdurması başlandı və bütün Livanı əhatə etdi. |
| 1846-cı ildə | Yerusəlim patriarxlığı yenidən bərpa edildi. |
| 1847-ci ildə | Əbdül Qədir fransızlar tərəfindən əsir alındı. |
| 31 may 1847-ci ildə | ikinci Ərzurum müqaviləsi bağlandı. |
| 14 iyul 1854-cü ildə | Misirdə Abbas paşa öldürüldü. |
| 1854-1863 | Səid paşanın hakimiyyət illəri |
| 30 noyabr 1854-cü ildə | Lesseps Süveyş kanalının tikintisinə konsessiya hüququ aldı. |
| 1859-cu ilin aprelində | Süveyş kanalının tikintisi başlandı. |
| 1860-cı ildə | Amerika presviteriantlarının Livanda 30 məktəbi və çoxlu sayda tipoqrafiyaları var idi. |

| | |
|---|---|
| 1860-cı ilin yazında | növbəti maroni-druz münaqişəsi baş verdi. |
| 1860-cı ilin iyulunda | III Napoleon Suriyaya ordu göndərilməsi haqqında əmr verdi. |
| 5 sentyabr 1860-cı ildə | İngiltərə, Rusiya, Fransa, Avstriya, Prussiya və Osmanlı dövlətinin iştirakı ilə imzalanmış razılaşmaya görə fransız korpusunun Suriyada qalma müddəti 6 ay uzadıldı. |
| 26 aprel 1861-ci ildə | Məhəmməd əs-Sadıq bəy (1859-1882) ərəb ölkələrində ilk dəfə olaraq, Tunisdə konstitusiya elan etdi. |
| 1861-ci ildə | İraqda daxili gömrük sistemi ləğv olundu. |
| 9 iyun 1861-ci ildə | Dağlıq Livan Osmanlı dövləti daxilində muxtariyyat əldə etdi. |
| 10 mart 1862 | ingilis-fransız qarşıdurması Parisdə Məskət və Zənzibara müstəqillik verilməsinə dair tərəflərin əldə etmiş olduqları kompramislə başa çatdı. |
| 1862-ci ildən etibarən | Osmanlı hökuməti Bağdad və Bəsrə arasında Dəclə vasitəsilə daimi bərə (gəmi) reysləri təşkil etdi. |
| 8 yanvar 1863-cü ildə | Misir paşası Səid paşa vəfat etdi. |
| 1863-1879-cu illər | Xədiv İsmayılın hakimiyyət illəri |
| 1864-cü ildə | Bağdad teleqraf xətti vasitəsilə İstanbul, Tehran, Bəsrə və Hindistanla bağlanmışdı. |
| 1866-cı ildə | bağlanmış İngiltərə-Nəcd müqaviləsinə əsasən Səudilər müqavilələli Oman və Bəhreyndə öz hakimiyyətlərini bərqərar etmək səylərindən əl çəkdilər. |
| 8 iyun 1867-ci ildə | sultan fərmanla İsmayıla irsi olaraq xədiv titulu verdi. |
| 1869-cu ildə | İngiltərə Sudana Misir bayrağı altında, Samyuel Uayt Bekerin rəhbərliyi altında ekspedisiya göndərdi. |
| 1869-cu ildə | Midhət paşa Bağdada qubernator və YI korpusun komandanı vəzifəsinə təyin olundu. |
| 17 noyabr 1869-cu ildə | Süveyşs kanalının tikintisi başa çatdı. |
| 5 iyul 1869-cu ildə | Tunisin maliyyəsi Beynəlxalq Maliyyə komissiyasının nəzarətinə verildi. |
| 1873-cü ildə | sultan fərmanı ilə Misirin maliyyə işləri üzərində İstanbulun nəzarəti götürüldü. |
| 1874-cü ildə | Qordon Sudanın general-qubernatoru oldu. |

| | |
|---|---|
| 1875-ci ildə | Beyrutda İbrahim Yazıçı və Faris Nimrin rəhbərliyi altında ərəb ziyalı qrupunu özündə birləşdirən gizli cəmiyyət yarandı. |
| 2 may 1876-cı ildə | xədiv dekretlə Dövlət borcu kassası yaratdı və onun tərkibinə Fransa, Avstriya və İtaliya nümayəndələri daxil edildi. |
| 1876-cı ilin sonlarından | ikili nəzarət rejimi fəaliyyətə başladı. |
| 1876-cı ildə | misirli zabitlərin ilk gizli «Hizbul-Vatan»-«Vətən partiyası» yaranmışdı. |
| 1879-1882-ci ilər | Ərəbi paşa üsyanı |
| 18 fevral 1879-cu ildə | Qahirədə zabitlər tərəfindən təşkil edilmiş hərbi nümayiş oldu. |
| 7 aprel 1879-cu ildə | İsmayıl paşa mötədil islahatlar tərəfdarı Şərifi baş nazir təyin etdi. |
| 19 iyun 1879-cu ildə | xədiv İsmayıl hakimiyyətdən kənarlaşdırıldı. |
| 26 iyunun 1879-cu ildə | xədiv Tofiq hakimiyyətə gəldi. |
| 1881-ci ilin avqustynda | Sudanda Məhəmməd Əhməd özünü «Mehdi» elan etdi. |
| 26 dekabr 1881-ci ildə | Nümayəndələr palatasının sədri «Vətən» partiyasının liderlərindən biri Məhəmməd Sultan paşa seçildi. |
| 1881-ci ildə | 30 minlik fransız ordusu Tunisin ərazisinə soxuldu. |
| 1881-ci ilin avqustundan- 1885-ci ilin yanvarına kimi | Mehdiçilər hərəkatının birinci dövrü (Xartumun alınmasına qədərki dövr) |
| 5 fevral 1882-ci ildə | Mahmud Saminin başçılığı ilə yeni hökumət yaradıldı. |
| 12 iyul 1882-ci ildə | İngilis admiralı Seymurun komandanlığı altında ingilis gəmiləri Qahirəni top atəşinə tutdu. |
| 15 iyulda 1882-ci ildə | İskəndəriyyə ingilislərin əlinə keçdi. |
| 4 sentyabr 1882-ci ildə | Uelsli Qahirəni döyüşsüz tutdu. |
| 1882-ci ildə | Misir üzərində Böyük Britaniyanın siyasi nəzarəti yarandı. |
| 1882-1914-cü illərdə | Misir İngiltərə işğalı altında olmuşdur. |
| 1883-cü ildə | Sadıq bəylə bağladığı konvensiyaya əsasən Tunis rəsmi şəkildə fransız protektoratlığına çevrildi. |

| | |
|---|---|
| 1885-ci ilin yanvarında-1896-cı ilin martına kimi | Mehdiçilər hərəkatının ikinci dövrü (italyanların Aduan məğlubiyyətinə qədər olan dövr) |
| 1886-cı ildə | Şibli Atraşın başçılığı altında Cəbəl-Druzda kəndli üsyanı baş verdi. |
| 29 oktyabr 1888-ci ildə | İstanbulda Avstriya-Macarıstan, İngiltərə, Almaniya, Hollandiya, İspaniya, İtaliya, Türkiyə və Fransanın nümayəndələri Süveyş kanalında qaydalar haqqında saziş imzaladılar. |
| 1892-ci ildən - 1914-cü ilə qədər | II Abbas Hilminin hakimiyyət illəri |
| 1896-cı ilin martından-1900-cü ilə kimi | Mehdiçilərin üçüncü dövrü (Mehdiçilərin məğlubiyyət dövrü) |
| 12 mart 1896-cı ildə | Ketçenerin başçılığın altında ingilis-Misir ordusu Sudana yürüşə başladı |
| 1898-ci il sentyabrın 1-dən 2-nə keçən gecə | Omdurman yaxınlığında həlledici döyüş baş verdi və Mehdiçilər darmadağın edildi. |
| 1898-ci ilin noyabrında | II Vilhelm Qüdsü və Dəməşqi ziyarət etdi. |
| 19 yanvar 1899-cu ildə | Sudan haqqında İngiltərə-Misir konvensiyası bağlandı. |
| 1899-cu ildə | Mustafa Kamil «əl-Liva» («Bayraq») qəzetini nəşr etdirdi. |
| 1902-ci ildə | İngiltərə-Efiopiya sazişi Sudan, Efiopiya və Eriteriya arasındakı sərhədləri müəyyənləşdirdi. |
| 5 oktyabr 1904-cü ildə | fransızlar ispanlarla nüfuz dairəsini müəyyən edən müqavilə imzaladılar. |
| 1904-1908-ci illərdə | Dəməşqdən Mədinəyə qədər dəmiryolu çəkildi. |
| 1906-cı ildə | Denşavay kəndində üsyan baş verdi |
| 10 oktyabr 1907-ci ildə | «Hizb-ul-Vətən» -«Vətən «partiyasının yaradıldığı elan edildi. |
| 1908-ci ildə | Haşimilər nəslinə mənsub və Ərəbistanda böyük dini nüfuza malik Hüseyn Məkkə şərifi oldu. |
| 1911-ci ilin noyabrında | imzalanan alman-fransız müqaviləsinə əsasən Almaniya Mərakeşi Fransanın protektoratı kimi qəbul etdi. |
| 18 aprel 1912-ci ildə | İtaliyanın donanma admiralı Viyale Çanaqqala boğazına girişdə qala istehkamlarını bombardman etdi |

| | |
|---|---|
| 15 oktyabr 1912-ci ildə | Lozannada Osmanlı dövləti ilə İtaliya arasında məxfi müqavilə imzalandı. |
| 18 oktyabr 1912-ci ildə | Osmanlı dövləti ilə İtaliya arasında müqavilə bağlandı. |
| 1913-cü ilin ikinci yarısında | Misirdə qanunverici məclisə seçkilər keçirildi. |
| 1914-cü ildə | bağlanan müqaviləyə əsasən də Osmanlı imperiyasının Yəmən vilayətləri ilə Böyük Britaniyanın idarəçiliyi altında olan Cənubi Yəmənin sərhəd demarkasiya xətti çəkildi. |
| 1915-ci ilin dekabrında | general Taunşendin Kut əl-Amarda on minlik dəstəsi mühasirəyə alındı. |
| 1915-ci ildə | Dəmsəq protokolu imzalandı. |
| 1915-ci ilin iyununda | ingilislər Haşimilər nəslindən olan Hicazın hakimi Hüseyn bin Əli ilə türklərə qarşı birgə mübarizə aparmaq haqqında müqavilə bağladı. |
| 29 aprel 1916-cı ildə | beş aylıq mühasirədən sonra Taunşend təslim olmağa məcbur oldu. |
| 23 may 1916-cı ildə | Dərfur sultanlığının paytaxtı polkovnik Kellinin qoşunları tərəfindən tutuldu. |
| 1916-cı il mayın 9-16-da | Londonda Sayks-Piko layihəsi əsasında müqavilə imzalandı. |
| 1916-cı ildə | Əbdül Qədirin oğlu Əlinin rəhbərliyi altında «Əlcəzairin müstəqilliyi müsəlman komitəsi» yaradıldı. |
| 5 iyun 1916-cı ildə | Hüseyn Hicazın müstəqilliyni elan etməklə yanaşı kral titulun götürərək, Osmanlı dövlətinə qarşı müharibə elan etdi. |
| 17 mart 1917-ci ildə | ingilis orduları Bağdadı, elə həmin ayda da Bəsrə və Bağdadın vilayətlərini tutdular. |
| 1917-ci ilin iyulunda | ərəblər Mədinədən başqa türkləri Hicazdan sıxışdırıb çıxardılar və Əkəbə limanını da tuta bildilər. |
| 12 dekabr 1917-ci ildə | Suriyanın və Qərbi Ərəbistanın general-qubernatoru Əhməd Camal-paşa istefa verdi. |
| 19 sentyabr 1918-ci ildə | Nəblusda ingilis ordusu tam hücuma başladı. |
| 1918-ci ilin noyabrında | Yəhya öz iqamətgahını Şihardan Sənaya keçirdi və özünü kral elan etdi. |
| 1918-ci ilin noyabrında | Mudros barışığının şərtlərini pozaraq, ingilsilər Mosul vilayətini də tutdular. |

| | |
|---|---|
| 1 oktyabr 1918-ci ildə | ingilis ordusu Dəməşqi tutdu. |
| 8 oktyabr 1918-ci ildə | ingilis ordusu Beyrutu tutdu. |
| 25 oktyabr 1918-ci ildə | ingilis ordusu Hələbi tutdu. |
| 30 oktyabr 1918-ci ildə | Bütün Suriyanı ələ keçirdi. |
| 5 oktyabr 1918-ci ildə | Osmanlı hökuməti Vilsona barışıq təklifli nota göndərdi. |
| 11 oktyabr 1918-ci ildə | Antanta ilə danışıqlar aparmaq üçün Tələtin kabineti «partiya üzvü olmayan» Əhməd İzzət-paşanın kabineti ilə əvəz edildi. |
| 30 oktyabr 1918-ci ildə | Mudrosda Lemnos adasında «Ağamemnun» ingilis gəmisinin göyərtəsində Türkiyənin faktiki təslim olduğunu bildirən barışıq imzalandı. |

Orta əsrlər dövrü ədəbiyyatı

Quran elmə açılan yoldur. Bakı, 1998
Aslanov R., Axundova N., Məmmədli A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı, 1999.
Bayramlı N. Abbasilər xilafəti xəlifə ən-Nasir dövründə (1180-1225). Bakı, 2002
Bünyadov Z. Azərbaycan VII – IX əsrlərdə, Bakı, 1989
Belyayev Y.A. Müsəlman təriqətləri, B., 1958
İsmayıl R. İxşidilər dövləti. BAkı, 2007
İsmyaıl R. Fustat-Bağdad birgəolma və qarşıdurma. Bakı, 2009
İslam: tarix, fəlsəfə, ibadətlər. Bakı, 1994.
Mahmudov M. Klassik ərəb ədəbiyyatı. Bakı, 2001
Masse A. İslam, Bakı, 1963
Məhəmməd peyğəmbərin həyatı. Bakı, 1990
Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993
Xıdırov C. Şərqin tarixi abidələri. Ba kı, 2004

Rus dilli ədəbiyyatlar

**Али-заде Э. Восстание зинджей. Баку, 1987**
**Асадов Ф. Арабские источники о тюрках в ранее средневековье. Баку, 1998**
**Ахундова Н. Тюрки в системе государственного управления арабского халифата (VIII-сер. X вв.). Баку, 2004**
**Арабская средневековая культура и литература. М., 1978**
**Бартольд В.В. Работы по истории ислама и арабского халифата. – Сочинения Т. VI, М., 1966**
**Беляев Е.А. Арабы, ислам и арабский халифат в ранее средневековье. М., 1966**
**Большаков О.Г. История халифата. Ислам в Аравии (570- 633). Том 1, М., 1989**
**Большаков О.Г. История халифата. Эпоха великих завоеваний (633-656). II том. М., 2000**
**Большаков О.Г. История халифата. Между двух гражданских войн (656-696). 3 том, М., 1998**

Босворт К. Мусульманские династии. М., 1971
Грязневич П.А Развитие исторического сознания арабов (VI-VIII вв). М., 1982
Густав В. История Халифов. М., 1997
Грюнебаум Г.Э. Классический ислам: очерк истории (600-1258). М., 1958
Грюнебаум Г.Э. Основные черты арабо-мусульманской культуры. М., 1981
Дафтари Ф. Традиции исмаилизма в средние века. М., 2006
История Аравии. Т.1. М., 1992
Историко-климатическое обозрение Аравии. М.,1997
История Саудовского королевства. М., 1993
История стран Азии и Африки в среднее века. М., 1977
История стран Зарубежного Востока в среднее века. 1516- 1574. М., 1970
Иванов Н.А. Османское завоевание арабских стран. М., 1984
Каэтани Л. Летописи ислама, М., 1965
Клемен Ю. История арабов. М., 1998
Колесников А.И. Завоевание Ирана арабами. М., 1982
Михайлова И.Б. Средневековый Багдад. М., 1990
Мец А. Мусульманский реннесанс. М., 1966
Медников Н.А Палестина от завоевания арабов до крестовых походов по арабским источникам. М., 1928
Мухаммед Хусейн Табатабаи. Шиизм в Исламе. Баку, 1994
Мюллер А. История ислама с основания до новейших времен. М., 1965
Мюллер А. Ислам на Востоке и Западе. М., 1967
Мюллер А. История ислама. Т. 1-2, М., 2005
Мьюир В. Халифат: его возникновение, упадок и падение. М., 1952
Мьюир У. Жизнь Мухаммеда. М., 1989
Надирадзе Л. Хрестоматия по истории халифата М., 1968
Надирадзе Л. Общественно экономические отношения в халифате VII-VIII вв. М., 1970
Очерки истории арабской культуры V-XV в., М., 1982
Очерки распространения исламской цивилизации. М., 2002
Петрушевский И.П. Ислам в Иране. Л., 1966

**Першин А.И. Хозяйство и общественно-политической строй Северной Аравии в XIX-первой трети XX в. М., 1961**
**Петрушевский О.Н. Истрия ислама. Т. 1, М., 1961**
**Петрушевский И.П. Ислам в Иране. Л., 1966**
**Пиотровский М.Б. О природе власти Мухаммеда.**
**Государственная власть и общественно-политические структуры в арабских странах: История и современность. М., 1984**
**Пиотровский М.Б. Мухаммед, пророки, лжепророки, кахины. М., 1981**
**Пиотровский М.Б. Южная Аравия в раннее средневековье. Становление средневекового общества. М., 1985**
**Пигулевская Н.В. Арабы у границ Византии и Ирана IV-VI в. М.-Л., 1965**
**Попов Д.Н. Ислам, история и культура М., 1991**
**Соколов А.Н. Арабское общество в раннее средневековье. М., 1956**
**Семенова Л.А. Из истории Фатимидского Египта. М., 1974**
**Семенова Л.А. Салахаддин и мамлюки в Египте. М., 1966**
**Фильштинский И.М. Арабская литература в средние века. М., 1977**
**Фильштинский И.П. История арабского халифата. М., 2006**
**Хитти Ф. История арабов. М., 1961**
**Уотт У.М. Мусульманская Испания. М., 1976**
**Чистякова Т.А. Арабский халифат. М., 1962**
**Шпренгер А. Мухаммед: Его жизнь и учение. Л.М., 1953**
**Якубовский А. Применение рабского труда в Ираке. М., 1960**

Yeni dövr ədəbiyyatı
Azərbaycan dilində

Qarayeva G.İ. Asiya və Afrika ölkələrinin yeni tarixi. Bakı, 1998
Qarayeva Gülxanım, Hacıqədirli Aynur. Yaxın və Orta Şərq ölkələrinin yeni tarixi, (1642-1870). I kitab, Bakı, 2003
Qarayeva Gülxanım, Hacıqədirli Aynur. Yaxın və Orta Şərq ölkələrinin yeni tarixi, (1870-1918). I I kitab, Bakı, 2010
Mütəllimova Ç. Müasir ərəb ədəbiyyatı. Bakı, 2010

Rus dilində

**Алжир. М., 1977**

**Арабская Республика Египет. М., 1954**

**Арабские страны. История, экономика. М., 1966**

**Ацамба Ф.М. Состояние промышленность и положение наемных рабочих в Египет в XIX в. Очерки по истории арабских стран. М., 1959**

**Александров В.В. Борьба империалистических держав за раздел Африки. М., 1963**

**Андрианов Б.В. Население Африки. М., 1976**

**Аяш Ж. Очерки марокканской истории. М., 1982**

**Аш-Шафии. Развитие национально-свободительного движения в Египте (1892-1956). М., 1961**

**Васильев Л.В. История Саудовской Аравии. (1745-1973). М., 1982**

**Валькова Л.В. Английская колониальная политика в Адене и аденских протекторатах. М., 1968.**

**Вооруженная борьба народов Азии за свободу и независимость. М., 1984**

**Васильев А.М. Пуритане ислама? Ваххабизм и первое государство Саудидов в Аравии. М., 1967**

**Васильев Л.С. История востока. Т.1-2. М., 2000**

**Грачев В.Ф. Политика Наполеона Бонапарта и в Восточном Средиземноморье (1796-1802). М., 1967**

**Губер А.А., Ким Г.Ф., Хейфец А.Н. Новая история стран Азии и Африки. М., 1982**

**Гусейнов К. Африка от колониализма к свободе. Баку, 1969**

**Ерофеев Н.А. Английский колониализм в середине XIX в. М., 1977**

**Исави Ш. Египет в середине XIX в. М., 1958**

**История национально-освободительной борьбы народов Африки в новое время. М., 1976**

**История стран Азии и Африки в новое время. I ч. М., 1989**

**Иванов Н.А. Аграрные отношение в Египте в последнее четверти XVIII – начало XIX в. – О генезисе капитализма в стран Востока XVIII – XIX вв. М., 1962**
**История Африки. М., 1975.**
**История стран Азии и Африки в новое время. М., 1971**
**История и идеология стран Востока. М., 1979**
**История и экономика арабских стран. М., 1980**
**История Вотока. Т. 3-4. М., 2000**
**Кильберг Х.А. Восстание Араби паши в Египте. М-Л., 1937**
**Королев А.Г., Фрейфельд О.И. Международные отношения в 1870-1910 гг. М., 1980**
**КотловЛ.И. Становление национально-освободительного движения на Арабском Востоке (середина XIX в.-1908г.). М., 1975**
**Котлов Л.И. Становление национально- освободительного движения в арабских странах Азии.1908-1914. М., 1986**
**Левин З.И. Развитие основных течений общественно-политической мысли в Сирии и Египте (новое время). М., 1972**
**Луцкий В.Б. Новая история арабских стран. М., 1965**
**Новая история стран зарубежной Азии и Африки. Л., 1971**
**Новая история стран Азии и Африки (XVI-XIX века) в трех частях. М., 2004**
**Панченкова М.Т. Политика Франции на Ближнем Востоке и Сирийская экспедиция 1860-1861 гг. М., 1966**
**Прошин Н.И. История Ливии (конец XIX в.-1969 г.). М., 1975**
**Прошин Н.И. История Ливии в новое время (середина XVI-начало XX век). М., 1981**
**Ротштейн Ф.А. Захват и закабаление Египта. М., 1959**
**Салиби К. Очерки по истории Ливана. М., 1969**
**Силин А.С. Экспансия Германии на Ближнем Востоке в конце XIX в. М., 1971**
**Смилянская И.М. Крестьянское движение в Ливане и первой половине XIX века. М., 1965**
**Смилянская И.М. Социально-экономическая структура стран Ближнего Востока на рубеже нового времени. М., 1979**
**Смирнов С.Р. Восстание махдистов в Судане. М., 1950**
**Смирнов С.Р. Восстание Судана. М., 1968**

**Тарле Е.В. Очерки истории колониальной политики западной европейских государств (конец XI – начало XIX) М., Л., 1965**

**Тарле Е.В. Наполеон. Баку, 1993**

**Чернявская В.В. Формирование египетской интелегенции в XIX – первой половине XX в. М., 1979**

**Саудовская Аравия. М., 1964**

**Тодорова М.Н. Англия, Россия и танзимат. М., 1983**

**Фридман Л.А. Египет 1882-1959 гг. Социально-экономическая структура деревни. М., 1973**

**Хмелева Н.Г.Государство Абдель Кадира Алжирского. М., 1973**

**Щин А. Южный Йемен: этапы революции. М., 1977.**

**Формирование рабочего класса в Египте и его экономическое положение. М., 1960**

**Хрестоматия по новой истории. Т.1. М., 1963**

# MÜNDƏRİCAT

GİRİŞ ........ 3 - 8

CAHİLİYYƏ DÖVRÜNDƏKİ
ƏRƏBLƏRİN SOSİAL-SİYASİ,
İQTİSADİ VƏ DİNİ VƏZİYYƏTİ ........ 9 - 35

RAŞİDİYYƏ XƏLİFƏLƏRİ ........ 36 - 62

ƏMƏVİLƏR XİLAFƏTİ ........ 63 - 77

KORDOVA ƏMİRLİYİ ........ 78 - 80

ABBASİLƏR XİLAFƏTİ ........ 81 - 102

BAĞDAD SON ABBASİ ........ 103 - 117
XƏLİFƏLƏRİ DÖVRÜNDƏ

FATİMİLƏR DÖVLƏTİ ........ 118 - 125

EYYUBİLƏR DÖVLƏTİ ........ 126 - 134

MƏMLÜKLƏR DÖVLƏTİ ........ 135 - 138

OSMANLI İMPERİYASININ
ƏRƏB FƏTHLƏRİ ........ 139 - 158

YENİ DÖVRÜN ƏVVƏLLƏRİNDƏ
ƏRƏB ÖLKƏLƏRİNİN
ÜMUMİ XARAKTERİSTİKASI ........ 159 - 169

SURİYA, LİVAN, FƏLƏSTİN ........ 170 - 228

İRAQ....................................................................229 - 250

ƏRƏBİSTAN YARIMADASI.......................................251 - 281

MİSİR....................................................................282 - 342

SUDAN..................................................................343 - 360

ƏLCƏZAİR............................................................361 - 374

MƏRAKEŞ.............................................................375 - 387

TUNİS....................................................................388 - 390

LİVİYA...................................................................391 - 395

ƏRƏB ÖLKƏLƏRİNDƏ
ELMİ-MƏDƏNİ MÜHİT..............................................396 - 424

XRONOLOGİYA......................................................425 - 443

ƏDƏBİYYAT............................................................444 - 449

**GÜLXANIM QARAYEVA**
**AYNUR HACIQƏDİRLİ**

ƏRƏB ÖLKƏLƏRİNİN ORTA ƏSRLƏR
VƏ YENİ DÖVR TARİXİ

Çapa imzalanmışdır: 27.03.2012
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 28,25 ç.v.
Sifariş: 29
Sayı: 200

Kitab «ADİLOĞLU» nəşriyyatında
nəşrə hazırlanmış və çap edilmişdir.
Ünvan:Bakı şəh., Şərifzadə küç., 202
Tel.: 433-00-43, (050) 593 27 77
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@ gmail.com